# Sevinc Arzulu

## - şiirler -

**Yayın Tarihi:**

23.12.2018

**Yayınlayan:**

Antoloji.Com Kültür ve Sanat

Yayın Hakkı Notu: Bu e-kitapta yer alan şiirlerin tüm yayın hakları şairin kendisine ve / veya yasal temsilcilerine aittir. Şiirlerin kopyalanması gerçek veya elektronik ortamlarda yayınlanması, dağıtılması Türkiye Cumhuriyeti yasaları ve uluslararası yasalarla korunmaktadır ve telif hakları temsilcisinin önceden yazılı iznini gerektirir. Bu doküman, şairin kendisi veya temsil hakkı verdiği kişinin isteği üzerine Antoloji.Com tarafından, şairin veya temsilcisinin beyanları doğrultusunda yayınlanmıştır. Bu dokümanın yayınlanması kullanılması dağıtılması kopyalanması ile ilgili husularda ve şiir içerikleri ile ilgili anlaşmazlıklarda Antoloji.Com hiç bir şekilde sorumlu ve taraf değildir.

## Sevinc Arzulu

Sevinc Arzulu(Kerimova)  Azeriyim,Bakude yaşayıram.Aileliyim,iki cocuğum var.Şaireyim.
'Könlümün limanlnda'adlı şiirler kitabım var.Azerbaycanda qazetelerde,dergilerde şiirlerim derc edilir.

**A zalım**

Azalmaz ki yüreyimin qüssesi,
Arıqlayıb ferehimin cüssesi.
Ayrılığın üzümdedir busesi,
Neden bele ayrı düşdük, a zalım.

"Kipriklerin dan yerini qanatdı",
Baxışların derdlerimi sanatdı.
Ilk görüşe-son görüşe can atdıq
Şaxtasında biz üşütdük, a zalım.

Uyusam da bal röyalar içinde,
Yuxularım daha çıxmayır çin de.
Emrimize baş eymedi heç cin de,
Lampasını yaman sürtdük, a zalım.

Sevinc Arzulu

**Açan güller**

AÇAN GÜLLER

Reng qatmadın heç dadıma,
Layiq olmadın adıma.
Hardan düşdün sen yadıma,
Yuxumun qaçan vaxtında.

Gen yolları dar olarsan,
Düşmenime yar olarsan.
Qorxursan ki qaralarsan,
Güneş nur saçan vaxtında.

Beyaz ömre ben tuş oldum,
Qar qanadlı bir quş oldum.
Allah, yaman bihuş oldum,
Güllerin açan vaxtında.

Sevinc Arzulu

**Ad düşer**

Beni bu heyatdan qoparmaq üçün.
Qohum da,tanış da sanki yad düşer.
Ruhumu dünyadan aparmaq üçün.
Gülüm,xatirime birce ad düşer.

De,nece qorunum soyuq yağışdan,
Göklerin çekdiyi qara nakışdan.
Sen ele boylanma,qemli bakışdan
Alovdan, ateşden qelbe od düşer.

Ne olar,ay fereh,yolun bizden sal,
Könlüme gelmesin qüsse.qem,melal.
Eh.xalqın bextine alagöz vüsal,
Benim qismetime sirli kod düşer.

Sevinc Arzulu

**Ad günün**

Sinənə min söz gələr,
Sanki atəş,köz gələr.
Təbrik edər özgələr,
Mübarəkdir ad günün.

Yaşın üstə gəlir yaş,
Tutmasın gözünü yaş.
Qocaldın yavaş-yavaş,
Mübarəkdir ad günün.

Gözlərin nəm olmasın,
Qəlbində qəm olmasın.
Sevincin kəm olmasın,
Mübarəkdir ad günün.

Qar,yağış tək ələnmə,
Sis,dumana bələnmə.
Heç zaman qüssələnmə,
Mübarəkdir ad günün.

Korşalmasın qoy yaddaş,
Qocalığa mərd yanaş.
Sevinc,adına yaraş,
Mübarəkdir ad günün.

Sevinc Arzulu

**Ad gününü**

Başına yığılıb qohum,dost-tanış,
Sevinc ilə qeyd elə ad gününü.
Sidq-ürəkdən şadlan,sevin,gül-danış,
Sevinc ilə qeyd elə ad gününü.

Birdən əgər düşsəm sənin yadına,
Xatirələr yetər onda dadına.
Bu şe`rimi bağışlaram adına,
Sevinc ilə qeyd elə ad gününü.

Vüsal sözü vaxtımıza düşmədi,
Vüsal közü taxtımıza düşmədi,
Vüsal özü baxtımıza düşmədi,
Sevinc ilə qeyd elə ad gününü.

Qoy tökülsün gözlərindən nur,gülüm,
Məhəbbətin sağlığına vur,gülüm.
Sevinc ilə yeni dünya qur,gülüm,
Sevinc ilə qeyd elə ad gününü.

Sevinc dostun sevgisini qazandı.
Sevinc çətin düz yolundan azandı.
Sevinc təkcə sənə şeir yazandı,
Sevinc ilə qeyd elə ad gününü.
Ən duyğulu,fərəhli,şad gününü.

Sevinc Arzulu

**Adamsız adam**

Yol üstdə post görmədim,
Şənimə tost görmədim.
Ətrafda dost görmədim,
Mən  bir adamsız adam.

Sərgiləndi xəyalım.
Vüsal oldu  məlalım.
Ay mənim cah-cəlalım,
Həsrətinə mən yadam.

Uzaq  getmək sevmirəm,
Hicrə yetmək sevmirəm,
Qarğış etmək sevmirəm,
Xara gəlsin qan-qadam.
06.12.2018

Sevinc Arzulu

**Adan, Sevinc**

Ləkə üzdə xal yerinə,
Taxta üzər sal yerinə
Acını da bal yerinə,
Bilə-bilə dadan Sevinc.

Qiymətini heç kim bilməz,
Göz yaşını kimsə silməz.
Gedənlərin geri dönməz,
Çəkilməzdir qadan, Sevinc.

Fərəh bizdə görünməz ki,
Yalan düzdə görünməz ki,
Bir də üzdə görünməz ki,
Batıb sevinc adan, Sevinc.

Sevinc Arzulu

**Adı qalıb Sevincin**

Yox əvvəlki atəşin hərarəti,
Odu sönüb, közü qalıb Sevincin.
Qalmayıbdır  cavanlıq məharəti,
Yalnız quru sözü qalıb Sevincin.

Cavanlıqda gözəldi,məsti-nigar,
Gül kimi soldurdu onu ruzigar.
Acı-şirin günlərindən yadigar,
Yaşla dolu gözü qalıb Sevincin.

Arzuları.ümidləri puç daha,
Heç eyləmə nə günah.nə suç daha.
Könül quşum,qanadlanıb uç daha,
Ruhu gedib.özü qalıb Sevincin.

Olmuş idi məhəbbətin fədası,
Yayılmışdı uzaqlara sədası.
Sığışmazdı yerə-göyə ədası,
Nə işvə, nə nazı qaıib Sevincin.

Günəş ilə açılmayır səhəri,
Könlündədir bir nisgilin qəhəri.
Şair deyər dönməz ömrün baharı,
Bir küləkli yazı qalıb Sevincin.

Sevinc Arzulu

**Adın donub qalıb.**

Hesretin acıdır, yeye bilmirem,
Hicranın libasın geye bilmirem.
Bir kelme söz bele deye bilmirem,
Adın donub qalıb dodaqlarımda.

Yaşaram ömrümün payız feslini,
Anaram baharın xoş nefesini.
Daim eşidirəm qemli sesini
Ladın qonub qalıb qulaqlarımda.

Ayrılıq belaymış indi qanıram,
Öten günlerime odsuz yanıram.
Damcı da içende seni anıram,
Dadın enib qalıb bulaqlarımda.

Sevinc Arzulu

**Adından çıxıb**

Ildırım ötəndə çaxmayan oğlan,
Çay  olub dənizə axmayan oğlan,
Dönüb keçmişinə baxmayan oğlan,
Boylan bax, nə isə yadında çıxıb.

Sən molla demisən hər bir hacıya,
Heç arxa olmadın qardaş-bacıya.
Elə öyrənmisən elə, acıya
Bu ləzzət, bu təam dadından çıxıb.

Oxuya biiirsən al hekayəti.
Könül kitabına sal hekayəti.
Dünyanın ən uzun bal hekayəti,
Sənin dörd hərfli adından çıxıb.

Sevinc Arzulu

**Adını pıçıldadaım**

Adını pıçıldadım üreyimde...
Amansız bir ağrı keçdi küreyimden.
Sandım ki eşitdiler etirafımı,
Gizlicə seyr etdim etrafımı.
Hamı öz işindeydi,
Evvelki verdişindeydi.

Adını pıçıldadım üreyimde...
Deniz coşub lepelendi,
Dünyaya qem sepelendi.

Adını pıçıldadım üreyimde...
Bu adda gizlənib sevincim,kederim.
Birleşmez taleyin,qederim.

Adını pıçıldadım üreyimde...
Bir bax nece de titreyir üreyim de...
Bu adda vüsal da var,ayrılıqla döyüş de.
Bu adda fereh də var,hesretle görüş de...

Adını pıçıldadım üreyimde...
Indi mermer daşına hekk olan adını...

Sevinc Arzulu

**Ağ den,ayrılıq**

Bu eşqin əvvəli güclü məhəbbət,
Bu eşqin axırı nədən ayrılıq.
Bilməyir sevgidə vardır min hikmət,
Fərəhi qəm-qüssə edən ayrılıq.

Axır ki tənəli sözümdən doyub,
Hicranın riyasın üzündən soyub.
Məni bu dünyada tək-tənha qoyub,
Vüsalın özüylə gedən ayrılıq.

Nə vaxt əriyəcək aysberq buzun,
Artmayır, azalır gün-gündən duzun.
Nədən sənin ömrün uzundan uzun,
Telimə salmısan ağ dən, ayrılıq.

Sevinc Arzulu

**Ağ göyerçin**

Bir dönüb geriyə dönmürsən, qoca
Demirsən gözüyaş qadın qalıbdır.
Məzarı üstündə yeriyən qoca,
Başının daşında adın qalıbdır.

Sənli xatirələr daşa dönübdür,
Burada təbəsüm əlçim-əlçimdir.
Ümidlər gözlərdə yaşa dönübdür,
Burada gülüşlər ağ göyərçindir.

Sevinc Arzulu

**Ağ gül**

Yay günündə yağan qardım,
Vüsalın yarasın sardım.
Zülmətin bağrını yardım,
Gecəni ağ gün eylədim.

Dərd quyusu,eh,nə dərin
Qədrin bilək lal qədərin.
Şah tək oturmuş kədərin,
Başına ağ kül əylədim.

Görəndə lalə,nərgizi,
Sevməyi necə tərgizim.
Hər yan əlvan gül sərgisi,
Əyilib ağ gül iylədim.

Sevinc Arzulu

**Ağ nağıl**

Gözlərim sıldırım qayaya düşüb,
Ağacsız-uğacsız sayaya düşüb.
Özgəyə qazdığı quyuya düşüb,
Hicran həsrət ilə birgə boğular.

Uzaq ol kədərin qara daşından,
Qapqara gözündən,qara qaşından.
İsinməz heç zaman yad baxışından,
Ürəyimdə gözəl bir eşq doğular.

Əzəldən sevgiyə möhtacdır bəşər,
Sevənin qarşısın kəsəmməz ki şər.
Sonunda səmadan üç alma düşər,
Romanımız bənzəyər ağ nağıla.

Sevinc Arzulu

**Ağ qağayılar**

Qızılgül oluban açmaq istəyir,
Ürəyim quş olub uçmaq istəyir.
Könül təbiəti qucmaq istəyir,
Başımın üstündə ağ qağayılar.

Göz yaşı heç tökmək istəmirəm mən,
Önündə diz çökmək istəmirəm mən.
Bezmişəm,dərd çəkmək istəmirəm mən,
Məndən uzaq dursun qara qayğılar.

Günəş yer üzünə fərəhlə baxır,
Səmadan torpağa zər nurlar axır.
Nədən göydə birdən ildırım çaxır,
Görən fələk indi kimi qarğıyar.

Sevinc Arzulu

**Ağ ruh**

Seni qefil itirdim men güneş çekisinde,
Hey axtardım, aradım boz mərmər sekisinde
bu qaranlıq şeherin,
Bu viranlıq şeherin...
Üzüldüm tesirinden  boğazımı acıdan
 zeher kimi qeherin...
Aradım, tapammadım , ne eyleyim, bilmirim.
Sel tek axan göz yaşın el qaldırıb silmirim.
Az qalıram boğulam bu duzlu su içində,
Men tenha, qu biçimde...
Sensizlikden ölürüm,
Dalğalı Xezer ile
Kederimi  bölürüm.
Derdimi anlayan yox,
Döyen yox, danlayan yox.....
Sessizliye atıldım,
Ağ ruhlara qatıldım.....

Sevinc Arzulu

**Ağappaq**

AĞAPPAQ

Xalçamı göy kilim çekir,
Xeyallarım film çekir.
Hamı qara zülüm çekir,
Benimse zülmüm ağappaq.

Ayrılıq vüsal fonunda,
Ateş gizlenib tonunda.
Ezrail melek donunda,
Gelir ölümüm ağappaq.

Dünyanı güzgüden gören,
Sehrlerden çeleng hören.
Hamıya qızılgül veren,
Bes benim gülüm ağappaq? !

Sevinc Arzulu

**Ağarıbdır saçlarım**

Ucalmışam yavaş-yavaş,
Öc almışam yavaş-yavaş.
Qocalmışam yavaş-yavaş.
Ağarıbdır saçlarım.

Qəm sevinclə tən düşübdür,
Dağ başına çən düşübdür.
Sarı saça dən düşübdür,
Ağarıbdır saçlarım.

Sevinc,çalınar qəm zəngi,
Titrəyər səsin ahəngi.
Dəyişibdir günəş rəngi,
Ağarıbdır saçlarım.

Sevinc Arzulu

**Ağarmış**

Tapacaqsan axtar-ara,gez onu,
Vüsal olar ağrı-acının sonu.
Tez deyişir ana tebiet donun,
Yay gününde sehraya qar yağarmış.

Göz yaşları leysandan da gur olar,
Lal hesretin qem muğamı "Şur"olar.
Xoşbextlerin seması da nur olar,
Derd-buluddan yağan keder ağ qarmış.

Işi-gücü suç olubdur deyesen,
Tale yene öc alıbdır deyesen.
Benim tekin qocalıbdır deyesen,
Bu sevginin başı yaman ağarmış.

Sevinc Arzulu

**Ağla, üreyim**

Aşiq dərddən ölən kəsdir,
Nalə qəlbdən gələn səsdir.
Qəm qapısın bağla, bəsdir,
Bağla, bağla ürəyim.

Könül qəmə kəniz olub,
Günəş üz, aybəniz olub.
Dalğalı bir dəniz olub,
Çağla, çağla ürəyim.

Məhəbbətdən baha yoxdur,
Sığınmaqçun kaha yoxdur.
Səni sevən daha yoxdur,
Ağla, ağla ürəyim.

Sevinc Arzulu

**Ağla, yar**

Günü-gündən uzaqlaşıb gözümdən,
Lal könlümü ayırdın da özümdən.
Od almadın lalə rəngli közümdən,
Həsrətimdən dağ çayı tək çağla yar.
Mənim üçün göz yaşı tök,ağla yar.

Bilirsənmi necə yaşadım sənsiz,
Gündüzü də gecə yaşadım sənsiz.
Gənc ömrümü heçə yaşadım sənsiz,
Gəkdirdiyin zülm gəlməz ağla, yar.
Mənim üçün göz yaşı tök,ağla yar.

Bir gün görüş baş tutacaq nəhayət,
Gülüm,o vaxt danışarsan hekayət.
Həyat qoşar min əfsanə,hekayət,
İnanmaram daha rəngli nağla,yar.
Mənim üçün göz yaşı tök,ağla yar.

Qəm dumanın dağıtmaz ki yel,səba,
Etdiklərin,fələk, gəlməz hesaba.
Dözəmmirəm çəkdirdiyin əzaba,
Qəm qapısın möhkəm-möhkəm bağla,yar.
Mənim üçün göz yaşı tök,ağla yar.

Zalım fələk məni yaman xar etdi,
Qulağını ah-naləmə kar etdi,
Qəm çölünə yağan bəyaz qar etdi,
Ürəyimə az sitəm et, dağla yar.
Mənim üçün göz yaşı tök,ağla yar.

Sevinc Arzulu

**Ağlama**

Sən ağlayanda göz yaşlarının səbəbini bilirəm artıq...
Gözlərindən yaşıl bulaq axırsa demək dünyasını dəyişmiş
əzizlərini xatırlamısanMavi çay qürbətdəki
sevdiklərinin təcəssümüdür.Saçların kimi kəhraba axar
kimdənsə incidiyini göstərir.Qızılgül ətirli dumduru su
sevinc göz yaşlarındır.Ağ mirvarilərsə nifrət rəmzidir, bilirəm.
Di dur sil rəngsiz göz yaşlarını....

Sevinc Arzulu

**Ağlama, besdi**

Fərhad olub dərd dağının qayasını dəl,
Fələk daha vurammasın sevdamıza pəl.
Nolar,gülüm, bircə dəfə görüşümə gəl,
Öz əlinlə vüsal yolun bağlama,bəsdi
Sil gözün yaşın Qaragilə,ağlama,bəsdi.

Edər daim sevənlərə zülüm,ayrılıq.
Yannam.qalar sənə təkcə külüm,ayrılıq.
Ürəyimi üzür yaman ,gülüm,ayrılıq.
Dəniz kimi kükrəyibən çağlama,bəsdi.
Sil gözün yaşın Qaragilə,ağlama.bəsdi.

Nə çəkdiyim iztiraba dodağın büzmə,
Nə üzümə göz yaşların muncuq tək düzmə.
Nə də xəstə ürəyimi dərdinlə üzmə,
Həsrətinlə sevən qəlbi dağlama,bəsdi.
Sil gözün yaşın Qaragilə,ağlama,bəsdi.

Sevinc Arzulu

**Ağlaram**

Ağlaram için-için,
Sesim çıxmasın deye.
Kiçicik  ferehimi.
Keder yıxmasın deye.

İçimdeki ağrılar,
Üreyimi göynedir.
Sanki indi bilirem,
Torpaq nedir, göy nedir.

Qalxar sarmaşıq kimi.
Pöhre veren ümidler.
Boylanar aşiq kimi,
Quş tek süzen buludlar.

Eh,bizim aramızda
Lay tek ucalar divar.
Al geyer qaramız da
Renglerin de derdi var.

Qarğışı götür apar,
Deymesin küreyime.
Qar-qışı götür apar,
Yaz  gelsin üreyime.
10.03.2018

Sevinc Arzulu

**Ağlarsan**

Allaha sayğını,imanı qoyub,
Xoş söze bend olan gümanı qoyub.
Dalınca sürünen dumanı qoyub,
Doluyla oynarsan qumar,ağlarsan.

Düşersen zamanın şem budağından,
Tutarsan kamanın bem qulağından.
Içersen yalanın qem bulağından,
Olarsan gözleri xumar,ağlarsan.

Alaca qederden Bistun çapılar,
Qaraca kederden sütun yapılar.
Üzüne bağlanar bütün qapılar,
Xeyalın gözlerin yumar,ağlarsan.

Vüsalın uzanı qalıb yaş eli,
Deyen oğurlanıb tacın qaş leli.
Bir gün de hesretin ağır daş eli,
Çeker de başına tumar,ağlarsan.

Namus,ar verilmez heç zaman ehsan,
Yağacaq üstüne xeyanet-leysan
Indi ilk görüşe getdiyin insan,
Bir gün de son görüş umar,ağlarsan.

Sevinc Arzulu

**Ağlasam seni**

Mehebbet  Xezer tek dalğalı gölse,
Düşen sağ çıxmasa, boğulub ölse...
Günəşin nuruna yazığım gelse,
Hesretin oduyla dağlasam seni.

Qışın oğlan çağı tez axşam olar,
Vüsalın hamisi yanar şam olar.
Bilirsin, benimçün toy-bayram olar,
Özünün sözünle bağlasam seni.

Ayrılıq taxtında dönmüsen şaha,
Ne derde baxırsan, ne de ki aha.
Hönküre bilmeyem ürekden daha,
Ele hezin-hezin ağlasam seni...
31.10.2018.

Sevinc Arzulu

**Ağlayır**

Sevginin kendiri başdan üzülür,
Boynunun bağısı daşdan düzülür.
Kövrek barmağımdan yaş da süzülür,
Hesrete dözmeyen dözüm ağlayır.

Hicranın gününü ilim satmayır,
Ayrılıq sözüne dilim yatmayır.
O qeder uzaqdır,elim çatmayır,
Vüsalı sezmeyen gözüm ağlayır.

Felek öz mehrini salmayıb aha,
Yaxşını yamandan almayıb baha.
Qüvveti,taqeti qalmayıb daha,
Qüsseni ezmeyen sözüm ağlayır.

Sevinc Arzulu

**Ağlı-qaralı dünyam**

Böyük, neheng olarmı,
Kelble aheng olarmı,
Heç rengbereng olarmı,
Ağlı-qaralı dünyam.

Kömeye yeter Allah,
Nurlu açılar sabah.
Nedendir çekirsen ah,
Ben tek yaralı dünyam.

Tez küsüb, tez barışdıq,
Ulduzlara qarışdıq.
Biz ki köhne tanışdıq,
Düşdün aralı, dünyam.

Sevinc Arzulu

**Ağrılı ümidler**

Götürə bilərsənmi,
Vüsalın çəkdiyini.
Hicranın biçdiyini,
Həsrətin əkdiyini.

Eh, ağrılı ümidlər.
Ölüb, sabaha qalıb.
Qara-qara buludlar,
Batıb günaha, qalıb.

Yığıb saxladıqları,
Həsəddir, nifrət-kindir.
Sezib baxmadıqları,
Eşq yurduna sakindir.

Sanki bəyaz gecələr,
Layla çalır ömrümə.
Eh, neyçünlər,necələr
Kölgə salır ömrümə.

Sanki aydın səmada
Qəfildən şimşək çaxıb.
Quşlar donub havada,
Ulduzlar birdən axıb.

Yer üzü qürrələnib.
Ulduz yağışı üçün.
Ürəyim zərrələnib,
Sevda baxışı üçün.

Gedərəm lap sonuna,
Bu sevda nağılının.
Girərəm qəm donuna,
Yeyib kədər noğlunu.
01.10.2018

Sevinc Arzulu

**Ağrıyımmı**

Dediyini etdi fələk,
Qurammadıq hiylə,kələk.
Səni məndən aldı mələk,
Qarğıyımmı,qarğıyımmı.

Şöhrətli.şanlı sevdasın,
Cüssəli.canlı sevdasın
Kiminsə qanlı sevdasın,
Oğruyummu,oğruyummu.

Kim tapıb ki itiyini.
Doldurubdu ətəyini.
Qəmin qara kötüyünü,
Doğruyummu.doğruyummu.

Qəlb üşüyər şənsizlikdən,
Ağlarmısan mənsizlikdən.
Ay əzizim,sənsizlikdən
Ağrıyımmı,ağrıyımmı.

Sevinc Arzulu

**Ah çekir**

Taxtu-tac qurmayaq qüdrət önündə,
Biz boyun burmayaq möhnət önündə.
Lal-dinməz durmayaq həsrət önündə,
Zaman amansızdır, qəmdən meh çəkir.

Təbiət əzəldən gözəl bir rəssam,
Dəyişir tablonu hər səhər, axşam.
Gül üstdə, ay gülüm, lap mat qalmışam,
Göz yaşı əvəzi parlaq şeh çəkir.

Sevgidən dəniz tək çağlayan insan,
Həsrətin yolunu bağlayan insan,
Dünyaya gələndə ağlayan insan,
Dünyadan gedəndə niyə ah çəkir.

Sevinc Arzulu

**Ahengisen**

Sevildin,sevdin gör kimi,
Sındır sehirli tilsimi.
Şən qəlbimin sarı simi,
Ürəyimin ahəngisən.

Könlüm yaxşı-pisi seçir,
Quşlar dəstə-dəstə köçür.
Ürəyimdən dava keçir,
Mənim üçün çal .”Cəngi” sən

Istəməm güllərin solsun,
Yaradan köməyin olsun.
Qoyma gözün yaşla dolsun,
Seçmə  gəl qara rəngi sən.

Gözlərimdə yuxu,gülüm.
Kədərimin çoxu.gülüm.
Mənim üçün oxu,gülüm.
Sən nəğmələr çələngisən.

Sevinc səni hər vaxt anar,
Əliylə telin daranar.
Dönmə tufana,borana,
Nə olar bir az səngisən.

Sevinc Arzulu

**Ahın xeyir**

Dildə söz eylə məni,
Lildə toz eylə məni.
Bir də köz eylə məni
Gülüm, günahın xeyir.

Demə zəfər çalmısan,
Öz haqqını almısan.
Ocaqdaca qalmısan,
Külüm, pənahın xeyir.

Yenə də günəş doğur,
Zülmət işığı qovur.
Həsrət vüsalı boğur
Ölüm, çən ahın xeyir.

Sevinc Arzulu

**Al bade**

Görüşe gelmedim deye
hirslenmişdin,
zeherliydin…
Men sussam da qeherliydim.
Gile-gile göz yaşımı
al badeye doldurdum men,
Güle -güle ele
senin sağlığına qaldırdım men.
Içdim, içdim sonunadek.
Hicrin qara fonunadek.

Sevinc Arzulu

**Al görüm**

Mən gedirəm,əziz yarım,qəminlə
Dərd-sərinlə di təkbətək qal görüm.
Gəl vidalaş sevdiyin bəxt-kəminlə,
Son mənzilə özün yola sal görüm.

Ağı olar həsrətin ah-naləsi,
Bircə anda uçdu könül qaləsi.
Qapqaradır ağlar gözün haləsi,
Qoy üzünə qəm nişanı xal görüm.

Bilirəm ki,qüssə evin yıxacaq,
Gənc ömründən neçə illər çıxacaq.
Ölüm bir gün əllərini sıxacaq,
Mənsiz mənli xəyallara dal görüm.

Qaranlıqdır mənim bu dar mənzilim,
Əlim çatmır göz yaşını mən silim.
Az qalıbdır tamam ola bir ilim,
Qəbrim üstdə dayan bir an lal görüm.

Mənsiz gəldi ömrünüzə bu bahar
Tə`sir etməz ruha yağan yağış,qar.
Bilirəm ki səni üzür intizar,
Qisasımı düşmənimdən al görüm.

Sevinc Arzulu

**Al lalasında**

Adın qəlbə həkk yaşadım,
Vəslə etdim şəkk, yaşadım.
Sən tez getdin, tək yaşadım,
Qurduğun qəm qalasında.

Ayrılığın fərqindəsən,
Göy suların qərqindəsən.
Sən hicranın dərdindəsən,
Mən həsrətin bəlasında.

Qəmin üzün yuyuram mən,
Qucağında uyuram mən.
Bir qəriblik duyuram mən,
Çəmənin al lalasında.

Sevinc Arzulu

**Alacağam men**

Baş əyib Tanrının ədalətinə,
"Yox"deyib fələyin ədavətinə.
Qapılıb dünyanın ətalətinə,
Sənsizlik himnini çalacağam mən.

Itirib bahalı qaş-daşlarımı,
Qeyb edib istəkli qəlbdaşlarımı.
Silərək tökülən göz yaşlarımı,
Təkliyin dərdinə qalacağam mən.

Fələk bir gör neçə ocaq söndürüb,
Kədər fərəh hissin qəlbdə dondurub.
Zalımın pisliyin odda yandırıb,
Sənin qisasını alacağam mən.

Oyanıb qapının "Salam"zənginə,
Bürünüb dünyanın qəm ahənginə,
Bələnib sevginin qüssə rənginə,
Əbədi xəyala dalacağam mən.

Həsrəti tuşlanan bir ox bilmirəm,
Zalım fələk acmı ya tox, bilmirəm.
Ürəyində varam ya yox, bilmirəm,
Yolumu köksündən salacağam mən.

Sevinc Arzulu

**Alandı könlüm**

Sanırdım deyərsən-"məni bağışla",
Sönməz eşqin odu qarla, yağışla.
Sən elə yandırdın bircə baxışla,
Atəşsiz odlara qalandı könlüm.

Dərdi dildə gəzər hey əfsanə tək,
Odlara yanar o bir pərvanə tək.
Qəmlənəndə dəli tək, divanə tək,
Əlçatmaz xəyala dalandı könlüm.

Qəm-kədərdən uzaq qaçıb da Sevinc,
Günəş olub işıq saçıb da Sevinc,
Bir gün də gözünü açıb da Sevinc,
Gördü eşq-məhəbbət yalandı, könlüm.
Fərəh satıb qəmi alandı könlüm.

Sevinc Arzulu

**Ald meni**

Ateşine atılmadım,
Od-alova qatılmadım
Şan-şöhrete satılmadım,
Tebessümün aldı meni.

Dünya bele yaranışdan,
Xoşu geler qardan-qışdan.
Qorunurdum qurddan-quşdan,
Mehebbetin çaldı meni.

Hey deyirdin baxtın yoxdu,
Şal qızıldan taxtın yoxdu.
Ötürmeye vaxtın yoxdu,
Felek yola saldı meni.

Sevinc Arzulu

**Aldadırıq özümüzü**

Tək qalıb dərd-sərimizlə,
Nəmlədirik gözümüzü.
Söylə, nədən əlimizlə,
Söndürürük közümüzü.

Çiçək tənha solan anda,
Ürək qəmlə dolan anda.
Niyə lazım olan anda,
Deyəmmirik sözümüzü.

Görüş kefi qaldırırkən,
Vüsal şirin bal dadırkən.
Başqasını aldadırkən,
Aldadırıq özümüzü.

Sevinc Arzulu

**Aldat özünü**

Adı telefondan silmek asandır,
Düzeltsen kendirden ilmek, asandır.
Özgeni aldada bilmek asandır,
Var ise hünerin aldat özünü.

Hesretin büstünü yonub qalsan da,
Üstüne keder-qem qonub qalsa da.
Qışın şaxtasında donub qalsan da,
Düşmenin oduna az çat közünü.

Köhne köçün sürüb, gelib teze il,
Tor tutub deyesen, gözlerini sil.
Deyerin azaltma, qiymetini bil,
Neçe yüz milyona sen sat sözünü.
05. 01. 2018

Sevinc Arzulu

**Aldatdı**

Heremiz bir ulduz altda doğulduq,
Onçun birleşmedi tale yolumuz.
Hesretin selinde batdıq,boğulduq
Qapqara gül açdı vüsal kolumuz.

Hicranın baxışı ne yaman ağır,
Bir udum su üçün çeşme olduq biz.
Alagöz sevdamız dayanıb fağır,
Ayrılıq zalıma eşme olduq biz.

Seni bir gözelçe alıb apardı,
Beni bir mekrli ilan aldatdı.
Köksümün içinden könül qopartdı,
Başımı sonu yox plan aldatdı.

Sevinc Arzulu

**Aldı meni**

Atəşinə atılmadım,
Od-alova qatılmadım
Şan-şöhrətə satılmadım,
Təbəssümün aldı məni.

Dünya belə yaranışdan,
Xoşu gələr qardan-qışdan.
Qorunurdum qurddan-quşdan,
Məhəbbətin çaldı məni.

Hey deyirdin baxtın yoxdu,
Şal qızıldan taxtın yoxdu.
Ötürməyə vaxtın yoxdu,
Fələk yola saldı məni.

Sevinc Arzulu

**Alım, a dünya**

Vurub sökdün qəlb evinin himini.
İndi bədbəxt edəcəksən kimini,
Niyə oldun belə zalım, a dünya.

Dağılıbdır o möhtəşəm cəlalım,
Daha uçmur uzaqlara xəyalım.
O qədər çəkmişəm dərdi-məlalı,
Çətin xoş fikirə dalım, a dünya.

Axmaz belə nə Kür, nə də Həkəri,

Yaman qırdın ürəyimin simini,
Geriyə fırlanmaz çərxin təkəri.
Qalmayıbdır heç şirini,şəkəri,
Nədən acı dadır balım, a dünya.

Kimisinin bəxt quşunu uçurtdun,
Kimisini yuvasından köçürtdün.
Kimisinin qismətini qaçırtdın,
Kədərdən dil açar lalım, a dünya.

Sevincəm, sonsuzmu əbədiyyətim,
Bəllidir hamıya səmimiyyətim.
Ürəkdə qalmasın arzum, niyyətim,
Həyatdan kamnımı alım, a dünya.

Sevinc Arzulu

**Alın meni**

ALIN MƏNİ

Hərdənbir şimşək tək qəlbimdə çaxır,
Hərdən də sel kimi qanımla axır.
Hərdən də könlümü yaman bərk sıxır,
Alın bu kədərin əlindən məni.

Qəm fərəh deyil ki tez gələ xoşa,
Qüssədən çətin ki ürəklər coşa.
Qəbr evinə mənimlə gedər qoşa,
Alın bu kədərin əlindən məni.

Həmişə gözümdə parlaq yaş olar,
Tökülər üzümə zər daş-qaş olar.
Bu qədər əzabdan ürək daş olar,
Alın bu kədərin əlindən məni.

Hər il neçə əzizimi itirdim,
Göz yaşıyla qəbr üstdə gül bitirdim.
Fərəh gəldi,qapıdanca ötürdüm,
Alın bu kədərin əlimdən məni.

Fərəh artıq əlçatmayan bir inci,
Qəm qələbə çalıb,heyhat, birinci.
Çox görməyin nolar mənə sevinci,
Alın bu kədərin əlindən məni.

Sevinc Arzulu

**Alın yazısı**

Gece işığını söndürüb gedir,
Bes güneş nurunu haradan alır?
Mehebbet üreyi dindirib gedir,
Nedendir rengini qaradan alır.

Alın yazısıyla razılaşıram,
Alnımdan torpağa ele yol damır.
Sefere çıxmağa hazırlaşıram,
Gören gözlerinin gözü yoldamı?
21.04.2018

Sevinc Arzulu

**Allah**

Hesretin küleyi canımdan keçir,
Hicranın dileyi qanımdan keçir.
Az qala qaçaraq yanımdan keçir,
Vüsalın gözleri kor olub,Allah.

Sözümü başbilen nadan qanmayır,
Qadını dünyanın şahı sanmayır.
Közeren ocağım niye yanmayır?
Indi öleziyen qor olub,Allah.

Kelbimin çatacaq kamı da yoxdur,
Tikdiyim odanın damı da yoxdur.
Deyesen ağzımın tamı da yoxdur.
Içdiyim sular da şor olub,Allah.

Güneş tek ömrüme şefeq saçırsan,
Pislikden benim tek uzaq qaçırsan.
Bağlı düyününü yavaş açırsan,
Deyesen işlerim zor olub,Allah.

Lütfi qıl bizlere,bir kerem eyle,
Saralmış baxçamı Bağ-İrem eyle.
Barı bu günümü şad,xürrem eyle,
Eh,ne vaxt ezabsız gor olub,Allah.

Sevinc Arzulu

**Allah bilendir**

Dərdini yad anlamaz da,
Səhv etsən heç  danlamaz da.
Oyanıb sübhi-namazda,
Ürəyim Allah iləndir.

Pisliyi yaddaşından sil,
Nə dodaq duysun, nə də  dil.
Özünü öymə ey qafil,
Yaxşısı Allah biləndir.

Öyün Quran  kitabınla
Heyrətləndir cavabınla,
Insan  ol sən savabınla
Günahı Allah siləndir.

Sevinc Arzulu

**Allah,kime bağışladın oğlumu**

Bela geler kainatdan,fezadan
Her addımda uzaq olaq cezadan.
Sağ-salamat qurtarıb da qezadan,
Allah,kime bağışladın oğlumu.

Seheredek lal qelbimi sıxıb qem,
Könül evin başımaca yıxıb qem.
Ferehimin axırına çıxıb qem,
Allah,kime bağışladın oğlumu.

Geceyarı itirib de başını,
Süret ile sürdü qara maşını.
Uzaq etdin bizden bela daşını,
Allah,kime bağışladın oğlumu.

Şeytanların odladığı qazanda,
Qaynayar da düz yolunu azan da.
Felek terse qismetini yazanda,
Allah,kime bağışladın oğlumu.

Uca Tanrım,cavanları bağışla
Ömürlerin ağ zer ile naxışla.
Imtahana çekme soyuq qar-qışla
Allah,kime bağışladın oğlumu.

Sevinc Arzulu

**Allaha**

Yad qapısın döymesem de,
Xatirine deymesem de,
Kimseye baş eymesem de,
Allah,senin qulun olum.

Dumanam,çende deyilim,
Gümanam,bende deyilim.
Qupquru bende deyilim,
Allah,üzüsulun olum.

Eh,yeniden dercle beni,
Vüsalnanca mercle beni.
Kepik-kepik xercle beni,
Allah,milyon pulun olum.

Sevinc Arzulu

**Allaha penah**

Seni gördüm.Bir anda
Qem-kederim dağıldı.
Darıxmağın özü de
Vazkeçilmez nağıldı.

Vüsala alışmamış,
Hesrete qalanmışam.
Sevgimden danışmamış,
Möhnetde talanmışam.

Seni sevmek min əzab,
Seni sevmemek günah.
Ürek getirermi tab,
Sevdim.Allaha penah.
16.09.2018

Sevinc Arzulu

**Allahın salamı**

Yoluma xalı sərmədin,
Mənə gül-çiçək dərmədin.
Bəs niyə salam vermədin,
Vuruldun üzdə xalamı.
Salam Allahın salamı.

Tərk etmədin qəfəsini,
Öldürdün eşq həvəsinin.
Verib soyuq nəfəsini,
Soldurdun nərgiz-lalamı,
Salam Allahın salamı.

Azalıbdır keyfim,nəşəm.
Dərd çəkməkdir mənim peşəm.
Palıd,xan çinarlı meşəm,
Bəyənmədinmi talamı,
Salam Allahın salamı.

Islanmışam yağışınla,
Ömrü bəzə naxışınla.
Bir çəpəki baxışınla,
Sən dağıtdın eşq qalamı.
Salam Allahın salamı.

Sevinc vurğunu qəzəlin,
Eşqlə yoğrulub əzəli.
Indi sevdiyin gözəlin
Gözü gözümdən alamı
Salam Allahın salamı.

Sevinc Arzulu

**Alma, qardaş**

Yaşaram dünyanın derdi-qeminde,
Min nale gözlenib eşqin himinde.
Çalırsan könlümün sarı siminde,
Yazığam, yanıqlı gel çalma, qardaş.

Tenha xatireler yaman üşüdü,
Anamın laylası yadıma düşdü.
Neden yaxşı günler tezce ötüşdü,
Qüsseli anlarda çox qalma, qardaş.

Dağ sebrim, iradem dözümde qalsın,
Sevgimin istisi közümde qalsın.
Izn ver, göz yaşım  özümde qalsın,
Derdimin qadasın sen alma, qardaş.
24.09.2013

Sevinc Arzulu

**Alma, üreyim**

Qüvvət al obadan,eldən
Dağdan axan coşqun seldən.
Saçlrıma bəyaz teldən,
Cığır salma,ürəyim.

Qəmli etmə ala gözü,
Yaş ilə söndürmə közü.
Hər bir boş söhbəti,sözü
Vecə alma,ürəyim.

Sənin üçün ölməyənə,
Fərəhini bölməyənə.
Qiymətini bilməyənə,
Sadiq qalma.ürəyim.

Düşmüşük dərdi-mə`lala,
Həsrət qalmışıq vüsala.
Həyata keçməz xəyala,
Boş yerə dalma,ürəyim.

Sevincin odlu nəfəsi,
Açılıb bağlı qəfəsi.
Qəlb telində qəm nəğməsi,
Daha çalma,ürəyim.

Sevinc Arzulu

**Almışam, Ana**

Belke de haqsızam, belke düzgünem
Hesretin derdinden bele üzgünem.
Senin cavanlığın, senin güzgünem
Dünyada tek-tenha qalmışam, Ana.
Etrini özümden almışam, Ana.

Savalan dağının daş qemiyem men,
Taxılı sovrulmuş bir zemiyem men.
Sanırdım möhteşem, ağ gemiyem men,
Dalğalar qoynunda salmışam, Ana.
Yolumu sehradan salmışam, Ana.

Ferehin elini sıxa bilmirem,
Qüssenin evini yıxa bilmirem.
Bağımdan beheni yığa bilmirem,
Men deo nun kimi kalmışam, Ana.
Tek senin üçün balmışam, Ana.

Sevinc Arzulu

**Alqışa gedirim**

Ötüb keçər gəncliyimin qatarı,
Payıza yox, üzü qişa gedirəm.
Qalmayıbdır ürəyimin tutarı,
Həsrət qaldım bir alqışa, gedirəm.

Öz işində mahir,usta qocalıq,
Qapımızı döyür asta , qocalıq.
Edər məni dərdli, xəstə qocalıq,
Aldanıban lal baxışa, gedirəm.

Sal qayalar sərt küləkdən daldadar,
Vüsal çətin mənim üçün bal dadar.
Fələk şirin  sözləriylə aldadar,
Vuruluban zər naxışa, gedirəm .
Baxmayaraq qar-yağışa, gedirəm.

Sevinc Arzulu

**Alqışla meni**

Sensiz çox çetin ki güllem,ezizim,
Könül aynasını sillem, ezizim.
Gözün yolda qaldı, billem ezizim,
Çox günah etmişim, bağışla beni.

Xeyal telefonum zengin deyişib,
Masmavi semada engin deyişib
Onsuz da benizim rengin deyişib,
Islatma  qapqara yağışla  beni.

Sözlerin içinde azdığım şere,
Diriyken mezarım qazdığım şere.
Kimseler el çalmır yazdığım şere,
Qayıt gel, bir defe alğışla beni.
03.10.2018

Sevinc Arzulu

**Aman isterem**

Aşiq dərd əlindən meyl edər meyə,
Qəlbində vüsala güman istərəm.
Zalımın pisliyin görməyim deyə,
Gözümün önündə duman istərəm.

Arzular ümiddən su içsin hər vaxt
Insan sevdiyini dost seçsin hər vaxt.
Yaxşının həyatı xoş keçsin hər vaxt,
Pislərin ömrünü yaman istərəm.

Fəlakət önündə özünü cəmlə,
Ürəyim doludur kədərlə, qəmlə.
Islanıb gözlərim soyuq bir nəmdən,
Dərdimi deməyə kaman istərəm.

Payızda köç edər durnalar yenə,
Su üstdə görünməz sonalar yenə.
Baxmasın yollara analar yenə,
Həmişə sülh dolu zaman istərəm.

Qoy keçsin həyata arzum,muradım,
Qoşa övladımdır bir cüt qanadım.
Hələ qabaqdadır toyum, büsatım,
Mən uca Tanrıdan aman istərəm.

Sevinc Arzulu

**Aman, gözlerin**

Qurban olum gözlərinin məstinə,
Bilməyirəm heç onların qəsdi nə.
Niyə durub görən mənim qəsdimə,
Veribdir qətlimə fərman,gözlərin.

Gələr yenə xoşbəxt,kədərsiz dəmim.
Yaşıl sünbüllərlə doludur zəmim.
Sənsiz batar sularda arzu gəmim,
Ola mənim üçün liman gözlərim.

Gül-çiçəklə doludur çöl-çəmənim,
Çiçəklərdir yağış altda çimənim.
Gül üstündə parıldayar şəbnəmim,
Xəstəyəm,dərdimə dərman gözlərin.

Əzbərsən dilimdə əziz ad kimi,
Baxma gözlərimə sanki yad kimi.
Durub yollarımda bir cəllad kimi,
Verməyir heç kimə aman,gözlərin.

Sevinc bağda vüsal gülünü əkər,
Ona qulluq edər,nazını çəkər.
Niyə belə qan ağlayar,yaş tökər,
Qəm əlindən dolan zaman gözlərin.

Sevinc Arzulu

**Amana düşdüm**

Qurban gözün ağına,
Kədərli,lal çağına.
Mən çıxdım qəm dağına,
Azdım.dumana düşdüm.

Rəqibimdən bac gəldi,
Lə`l qaş-daşlı tac gəldi.
Yar görüşə gec gəldi,
Min bir gümana düşdüm.

Çatıl-çatıl çatıldım,
Gur ocağa atıldım.
Eşq yolunda tutuldum,
Tez də amana düşdüm.

Sevinc Arzulu

**Amane meni**

Göy buludlar narın qarı ələyə,
Qar qız kimi məni ağa bələyə.
Neynəmişəm bilməm zalım fələyə,
Qoydu ox yerinə kəmanə məni.

Kim deyir ki mən bəxtimdən yarıdım,
Qəm ipini kələf-kələf sarıdım.
Gənc yaşımdan qüssə çəkdim.qarıdım,
Tez qocaltdı nədən zəmanə məni.

Azalsın kədərim,azalsın ahım,
Toy-şənlik gətirsin gələn sabahım.
Ay Allah,yanında varsa günahım,
Bağışla bir anda,amanə məni.

Sevinc Arzulu

**Amansız heyat**

Ötən günlərimin sapsarı izi,
Ömrün vərəqinə lövhələr çəkər.
Elə əsib coşar xəyal dənizi,
Sanki həyatıma ləl-gövhər əkər.

Bürünər taleyin tül pərdəsinə,
Uzaqdan qaranlıq saçıb da gedər.
Boylanıb qismətin pəncərəsinə,
Günəşi görəndə qaçıb da gedər.

Sınıq ürəyimin parçalarından,
Özünə yurd-yuva qurubdur, heyhat.
Ağlayan  ümidin rəng çalarından,
Libas da tikdirib amansız həyat.
15.09.2018

Sevinc Arzulu

**Amma ve lakin**

Qanundan qadağa dilendiniz de,
Caniye siz aman dilediniz de.
Hamının sözünü dinlediniz de,
Mene de söz verin, ay cenab hakim.

Girme içeriye, vüsal, qadası.
Kederle doludur zindan odası.
Uzaqdan görünür Nargin adası,
Ebedi olacam orada sakin.

Mütehhim kürsünde oturacağam,
Quzunu qurd ilə otaracağam.
Şanırdım beş ille qurtaracağam,
Ömürlük iş aldım amma ve lakin.

Sevinc Arzulu

**An içinde**

Nuru solan Ayam,Ana ,
Geri axan çayam, Ana.
Yenə də tənhayam, Ana
Bir belə insan içində.

Ölümüncə yolun pusum,
Danışmayım, yalnız susum.
Üzümdə saxta təbəssüm,
Ürəyimsə qan içində.

Acı sözlər dələr keçər,
Ağrılara bələr, keçər.
Sənli günlər gələr, keçər
Göz önündən an içində.

Sevinc Arzulu

**Ana**

Bilmezdim yağışlı,çenli olacaq
Qerib gölde üzen sonalı dünyam.
Sanırdım hemişe menli olacaq,
Terk edib getmez ki analı dünyam.

Alqışlı,dualı-senalı anam,
Bes sene qarğışı kim eyledi,kim.
Ağ saçı boyalı,henalı anam
De,neden olmadın bextine hakim.

Varlığın qelbime sevinc bexş etdi,
Yoxluğun könlümü qaraltdı,getdi.
Sensizlik semama keder neqş etdi,
Ferehin yolunu daraltdı,getdi.

Hayana gedirim,gözüm axtarar
Senin yoxluğuna sıxılaram men.
Lal könlüm bir parça dözüm axtarar,
Geriye boylansam,yıxılaram men.

Beni terk etmezsen heç vaxt,sanırdım,
Biz niye ayrıldıq,ayrıldıq ana.
Hicranın özünü bezen danırdım,
Şipşirin röyadan ayıldıq,ana.

Ölümü yaxına qoymaz idin sen,
Bes ne tez dostlaşdın onunla,söyle .
Bu gözel heyatdan doymaz idin sen,
Xain dost tek seni apardı böyle.

Adını çekende,bilirsen esir,
Hesretden çatlayan dilim-dodağım.
Düşmüsüm kedere ebedi esir.
Qara çiçek açar yaşıl budağım.

Apardın özünle,seninle getdi
Ömrümün en gözel,xoşbextlik çağı.
Tek ölüm sevindi:vüsala yetdi,
Gözlerim yaş tökdü,könlümse ağı.

Sevinc Arzulu

**Ana haqqında dastan**

ANA  HAQQINDA DASTAN
(Zərifə xanım Əliyevaya)

Fəxri Xiyabanda tunc abidəsi,
Uzaqlara baxar Zərifə xanım.
Əskik olmaz üstündən gül dəstəsi,
Qəlbi oda yaxar Zərifə xanım.

Bu dünyada gözəl mələk yaşardı,
Cüt övladı onun qoşa qanadı.
Yer üzünü nuru ilə oxşardı,
Üşüyərdi eşidəndə qan adı.

Istəməzdi müharibə,hərb olsun,
Anaların gözü yaş ilə dolsun.
Istəməzdi dünya qana qərq olsun,
Gənc ömürlər tez tükənsin,tez solsun.

Kipriyiylə od götürər analar,
Nəfəsiylə qızar doğma ev-eşik.
Nəsillərə od ötütər analar,
Sona qədər çəkər yurduna keşik.

Ana Vətəninə xidmət edərdi,
Zərifə xanımın Əziz atası.
Hara göndərsələr ora gedərdi,
Hamıdan mehriban,əziz atası.

Övladlıq borcunu verib hər zaman,
Doğma ocağına nur gətirərdi.
Pislərə,pisliyə verməzdi aman,
Yaxşılıq ziyasın gur gətirərdi.

Zərifəydi ən istəkli uşağı,
Tellərini zərif-zərif hörərdi.
Göz önündə canlandırıb uzağı,
Gözəl qızın ağ xalatda görərdi.

Zərifə onunçun parlaq inciydi,
Yaxşını-yamanı tezcə seçərdi.
Oxumaqda həmişə birinciydi,
Kursdan-kursa “əla”ilə keçərdi.

Zərifə xanım bir alim qızıydı,
Göz həkimi olmaq idi arzusu.
Ilahinin xoşbəxtlik ulduzuydu,
Bol vermişdi bərəkətin,ruzisin.

Gör neçə insanın gözünü açdı,
Neçə min ürəyə sevinc bəxş etdi.
Qaranlıq dünyaya parlaq nur saçdı,
Qəmli könüllərə fərəh nəqş etdi.

Onun fərəhinin hər zərrəsindən,
Bu geniş kainat ala büründü.
Xəyalın möhtəşəm mənzərəsindən,
Zülmət də qorxaraq geri süründü.

Zərifə xanımdı çox gözəl insan,
Qapılar bağlansın,qoymazdı ki o.
Həkim-cərrah olmaq deyildir asan,
Kimsəyə korluğu qıymazdı ki o.

Sevinib özünün xoş əməlinə,
Işıqlı dünyadan zövq də alardı.
Cərrah bıçağını alıb əlinə,
Xeyirxah işindən şövq də alardı.

Şəri qovub xoşbəxtlik haylayardı,
Sevinərdi hamı ilə birgə o.
Xəstələrə bol işıq paylayardı,
Qoymazdı ki qalsın gözdə kölgə o.

Bir dost kimi danışardı hamıyla,
Çətinə düşənə əl də tutardı.
Fəxr edərdi Sevili,İlhamıyla
Evdə yorğunluğun o,unudardı.

Qoşa övladına mehriban ana,
Ömür-gün dostuna bir arxa-dirək.
Həyatın yaşadı o.yana-yana
Indi yoxluğuna inanmır ürək.

Heydər Əliyevin həyat yoldaşı,
Ulu öndər necə sevirmiş səni.
Sən idin ən yaxın dostu,sirdaşı
Sevgisi mələyə çevirmiş səni.

Sənin yoxluğundan keçsə neçə il,
Yenə də yşardın lal ürəyində.
O,səni heç zaman unudan deyil,
Yoxluğun bir qara xal ürəyində.

Bu tunc abidənin öz əllərilə,
Örtüyün götürdü o aqil insan.
Bəzədi məzarın tər güllər ilə,
Əzizin itirmək deyildir asan.

Vermədi könlünü bir başqasına,
Əbədi sevgiyə sadiq də qaldı.
Bir gün də qovuşdu haqq dünyasına,
Sənin yanındaca xəyala daldı.

Bütün analar tək olardı xoşbəxt,
Görəndə övladın yaxşı gününü.
Anayçun,nənəyçün əsil səadət,
Eşitsin nəvənin bal səs-ününü.

Nə yaxşı dünyada nəvə də gördü,
Ürəyi dəniz tək ləpələndi də.
Al-əlvan güllərdən dəstə də hördü,
Bütün yer üzünə səpələdi də.

Indi sağ olsaydı çox sevinərdi,
Oğlunun sevinci onun sevinci.
Həzin nəğmə kimi deyib-dinərdi,
Hər sevinc yaşı da solmaz bir inci.

Nənəlik hissini müqəddəs saydın,
Indi oğlunun da cüt nəvəsi var.
Ay Ana.sənin də gözlərin aydın,
Babadır,onlarla bir nəfəs alar.

Ruhu qanad çalır göydə mələk tək,
Azad ölkəmizi fərəhlə süzür.
Yaşayar könüldə gözəl dilək tək,
Əbədi dünyada tapacaq hüzur.

Məzarın üstünə tez-tez gələrək,
Zərifə xanım,biz səni yad edək.
Xatirən önündə baş da əyərək,
Ruhunu daima şaddan şad edək.

Demə dünya fani,həyatsa boşdur.
Şirin arzularla yaşa dolmusan.
Prezident anası olmaq çox xoşdur,
Belə gözəl ada layiq olmusan.

İndi tək dərdimiz doğma Qarabağ,
Bir gün də alınar öcümüz bizim.
Əgər ki sülh ilə geri almasaq,
Hərbiyə vardır çox gücümüz bizim.

Tezliklə Qarabağ geri alınar,
Qaçqınlar qayıdar el-obasına.
Qələbə marşımız orda çalınar,
Vətənim bürünər toy libasına.

Oğlunla fəxr edir can Azərbaycan,
O,cavan yaşında müdrik bir rəhbər.
Xalqa xidmət etsin o gözəl insan,
Adı atası tək dillərdə əzbər.

Sevinc Arzulu

**Analar**

Analar eyleşer lap uca taxtda,
O,sınmaz,eyilmez en çetin vaxtda.
“Cennet anaların ayağı altda”,
Qaytarıb borcunu vermek olarmı.

Analar ehdine sadiq,vefalı,
Ömr eder yarıxoş,yarı cefalı.
Qabarlı elleri yaman sefalı,
Ekdiyi gül-çiçek erken solarmı.

Analar Tanrıdan qüvvet alarlar,
Layladan ninniye körpü salarlar.
Analar hemişe cavan qalarlar,
Melekler qocalıb yaşa dolarmı? !

Sevinc Arzulu

**Analı dünyam**

Üstüme illerin tozu çöküler,
Göyerin dolusu, qarı töküler.
Gözümün önünden sanma çekiler,
Analı dünyam.

Derd zemisin biçecek oraq olar,
Qeme herbde paslanmaz yaraq olar.
Röyalara gelen xoş qonaq olar,
Analı dünyam.

Halesi gümüşü, parlaq inciden,
Yoxluğu qelbimi yaman incider.
Uzaq düşüb çoxdandır Sevincinden,
Analı dünyam.

Sevinc Arzulu

**Anam, hardasan**

Sən sanki göylərdən enmiş bir mələk,
Bəxtin qara yazdı amansız fələk.
Qayit gəl,kədəri səninlə bölək,
Həsrətdən az qalır donam,hardasan.
Başına döndüyüm anam, hardasan.

Sən mənə ömürlük etmisən zülüm,
Alışıb yanıram,görünmür külüm.
Bircə anam vardı, apardı ölüm,
Büstünü əlimlə yonam, hardasan.
Başına döndüyüm anam, hardasan

Niyə dərdli etdin bircə qızını,
Sən daha çəkməzsən nəvə nazını.
Qarlı qış eylədin güllü yazını,
Saçları ağarmış sonam,hardasan.
Başına döndüyüm anam,hardasan.

Neçə ildir itirmişəm Atamı,
Ətri qalan bir qızılgül butamı.
Qoy ruhunuz bağışlasın xatamı,
Ordusu məhv olmuş xanam, hardasan.
Başına döndüyüm anam, hardasan.

Sevinc Arzulu

**Anam, men ve şeir**

Bendleri düzürem burdan o yana,
Ki azğın dalğalar aşıb keçmesin.
Yene qelbimdəsen menim, ay Ana
Içirem heyatın şeir çeşmesin.

Men şeir içinde yatıram,ana.
Herfler çevrilir yumşaq balınca.
Qafiye içinde batıram,Ana.
Men şair oluram söze dalınca.

Bir herfin yerini deyişende men,
Baxıram yeni bir mena kesb edir.
Qem ile vuruşub döyüşende men,
Könlümü kederli sözler qesb edir.

Isti qafiyeler bürüyer meni,
Qoruyar somsoyuq qızıl payızdan.
Yoxsa ki sağalmaz derd üzer meni.
Kim ne gözleyerdi bu sarı qızdan.

Menim her şerimde olmasan da sen,
Adın üreyimin başında,Ana.
Qocalıq yaşına dolmasan da sen,
Cavansan mezarın daşında Ana.

Sevinc Arzulu

**Ananın feryadı**

Ağlayan gözünə baxmayıb getdin,
Yalvaran sözünə baxmayıb getdin.
Ağına-bozuna baxmayıb getdin,
Apardın özünlə qəlb sevincini.

Dağı necə aşsın, təpə bilməyən,
Dənizdə boğular ləpə bilməyən.
Oğlunu doyunca öpə bilməyən
Yaralı ananın qəlbi incimir?

Qaranlıq gecədə ah, nələr çəkdi,
Gözünü günəşli səhərə dikdi.
Fələk necə qıyıb torpağa bükdü,
Ananın qiymətli dürrü-incini
25.01.2018

Sevinc Arzulu

**Anladım**

Kədərin səs tonu bu,
Ayrılığın donu bu.
Sevdamızın sonu bu,
Tək özümü danladım.

Uzun teli daraymış,
Hər nəğməsi haraymış.
Hicran yaman qaraymış,
Üz-gözünü unladım.

Həsrətə dəyəcəkdin,
Qapımı döyəcəkdin.
Mənə "Yox"-deyəcəkdin,
Ilk baxışdan anladım.

Sevinc Arzulu

**Apar yanına**

Bezmişəm dünyadan.bezmişəm daha,
Ay ata,gəl apar məni yanına.
İnamım yox mənim gələn sabaha.
Ay ata,gəl apar məni yanına.

Küsmüşəm dünyadan,küsmərəm səndən,
Könlüm ayrı düşüb güllü çəmənədn.
Niyə tez ayrıldın.niyə tez məndən,
Ay ata,gəl apar məni yanına.

Qəmli günlərimdə səni anıram,
Sənsizlik əlindən alovlanıram.
Dərd əlindən hey alışıb yanıram,
Ay ata,gəl apar məni yanına.

Ölüm haqdır.düzmü deyib atalar?
Atasız dünyanın nə mənası var.
Könlüm səni arar,gözüm axtarar,
Ay ata,gəl apar məni yanına.

Bircə bileydim ki nədir günahım,
Göylərə yüksəlir naleyi-ahım.
Təkcə səndin hər vaxt mənim pənahım,
Ay ata,gəl apar məni yanına.

Könlüm gülməz,qəlbim gülməz heç sənsiz,
Bu dünyanın toy-düyünü puç sənsiz.
Bir yol gülsəm.günahımdan keç,sənsiz.
Ay ata,gəl apar məni yanına.

Mən Sevincəm,bezmişəm bu dünyadan,
Bir yanım qanmazdır,bir yanım nadan.
Günahımdan keçsin məni yaradan,
Ay ata,gəl apar məni yanına.

Sevinc Arzulu

**Apara**

Gəmirər içimi dadlı şübhələr,
Görən kiminlədir, görən təkmidir.
Gözümün önündə adlı lövhələr,
Haqqımda dediyi söz titrəkmidir?

Eh, saya oturmuş gəmi kimiyəm,
Sahilə atmışdır dalğalar məni.
Hələ də gözünün nəmi kimiyəm,
Imisti yağışlar yırğalar məni.

Ürəyim saralmış zəmidir, vallah
Yoxdur bir kimsəsi biçə, apara.
Könlümü incidən qəmidir, vallah
Qəlbimin qanını içə, apara.

Sevinc Arzulu

**Aparar**

Kaman yayın yatağında,
Ulduz ayın yatağında.
Qurma çayın yatağında,
Alaçığı sel aparar.

Varın paylar bile-bile,
Özü yeyer gile-gile.
Defn olanda son menzile,
Elaçığı el aparar.

Nebzini tut bu zamanın,
Qedrini bil her samanın.
Berk-berk bağla dörd bir yanın,
Eh,açığı yel aparar.

Sevinc Arzulu

**Apardı**

Baharda eşq etri var,
Çiçekli köşk etri var.
Uzaqda müşk etri var,
Çeni qoxu apardı.

Dünya kele-kötürdü,
Feleyece ötürdü,
Seni ölüm götürdü,
Beni yuxu apardı.

Ruh yaşar can içinde,
Parlar mercan içinde.
Ben heyecan içinde,
Seni qorxu apardı.

Sevinc Arzulu

**Apardı ölüm**

Neçə gündür başımdan,
Çıxmayır nədən ölüm.
Nədir məni qorxudan,
Nədir çəkdiyim zülüm.

Yuxularım qarışır,
Nədən mənim hər gecə.
Yer ilə göy barışır,
Tənha qalmışam necə.

Dəfn eyləyin atamın.
Yanındaca məni siz.
Harayıma çatanım,
Darıxıb yə ̇qin mənsiz.

Deyərsiniz bir zaman,
Burda şair yaşardı.
Əcəl vermədi aman,
Könülləri oxşardı.

Yaxınlarım,əlvida
Sağ ol çəməni.çölüm.
Vətənə edim vida,
Məni apardı ölüm.

Sevinc Arzulu

**Apardı seni**

Bir soyuq külək gəldi,
Sanki ağ mələk gəldi.
Sonunda fələk gəldi,
Aldı, apardı səni.

Dərdimi kimlə bölüm,
Qara geyib al çölüm.
Ah, nədən zalım ölüm,
Məndən qopardı səni.

Qoşa məzar önümdə,
Qəmginlik var ünümdə.
Həsrətin bu günündə
Kədər tapardı səni.

Sevinc Arzulu

**Aparır**

Tenhalaşır, sozalır hey,
Üzümüze bozarır hey.
Uzandıqca uzanır  hey,
Yollar gözümü aparır.

Deyemmirem, kal oluram,
Gemi iken sal oluram.
Qarşısında lal oluram,
Dollar sözümü aparır.

Veslin buzu erimeyir,
Qem yaramı  serimeyir.
Ayaqlarım yerimeyir,
Qollar özümü aparır.
23.03.2018

Sevinc Arzulu

**Ar isterem**

Dərdimi tez anlayan,başa düşən yar isrərəm.
İsti bir yay günündə narın yağan qar istərəm.
Su yoxdur,saralıbdır yaşıl bağlarım,nə edim,
Necə əvvəlki kimi bağlarımdan bar istərəm.

Yalnız kədər gətirir sənə sevilmək,ey könül
Mən nə bülbül istərəm,nə rəqibi-xar istərəm.
Sevgimi bildirməyə belə hünərim çatmayır,
Qəlbini ovlamağa şahin istər,sar istərəm.

Axır bir gün canımdan bezib getməkçün dünyadan,
Bircə anda qanıma tə`sir edən mar istərəm.
Qışın oğlan çağında mən dərdindən xəstələnsəm,
Alma-armud,heyva yox bir turşməzə nar istərəm.

Dözməyib bu dünyanın ürək sıxan kədərindən,
Dilimi lal,gözümü kor,qulağım kar istərəm.
Gözüm yoxdur heç kimin qızılında,gümüşündə
Nə lə`li-cəvahirat,nə dövləti-var istərəm.

Düşünmə bəyənmirəm sən aldığın hədiyyəni,
Belə gözəl libasın yaxasını dar istərəm.
Sevincəm,öz eşqimə sadiq qalaram həmişə,
Sevdiyim insanda da namus,qeyrət,ar istərəm.

Sevinc Arzulu

**Arasında**

Təbiət necə də ürək sıxmasın?
Meşənin evini insan yıxmasın.
Tüstüsü zirvəyə çıxsın, çıxmasın
Qalmışam quruyla yaş arasında.

Ümidlər calansın hər zaman xeyrə.
Çalış, düşməyəsən özgə bir meylə.
Dünyada hər zaman  yaxşılıq eylə,
Eh, ölüm göz ilə qaş arasında.

Sevənlər məhəbbət önündə laldır,
Ilk görüş əlçatmaz dadlı xəyaldır.
Ayrılıq ya vüsal? Çətin sualdır,
Deyim, qalmayasan kaş arasında.
30.11.2017

Sevinc Arzulu

**Arasında qalmışam**

Bol fərəh gərəkdir kədəri yıxa,
Həsrəti əridə, hicranı sıxa.
Nə düşə bilmirəm, nə də ki çıxa
Gözlə qaşın arasında qalmışam.

Dəmirəm ki il ötdükcə paslanam,
Dünya vəhşi, mən də dişi aslanam.
Qorxuram ki sonda yaman islanam,
Nəmlə yaşın arasında qalmışam.

Üzümü çevirim yan, danışmayım.
Işinə-gücünə heç qarışmayım.
Səninlə barışım, ya barışmayım
Iki daşın arasında qalmışam.

Sevinc Arzulu

**Artır hesretin**

Hicranla görüşə ləngiyirsə də,
Vüsalnan döyüşdə "Cəng"deyirsə də.
Gündüzlər bir qədər səngiyirsə də,
Gecələr ağrısı artır həsrətin.

Qapqara zülmətdir arxası,önü.
Ulduzu yox olub,günəşi sönüb.
Bu qoca yaramaz uşağa dönüb,
Ayrılıq əlindən dartır həsrətin.

Ağlatsa bir daha güləmməzsən heç,
Izlərin qəlbindən siləmməzsən heç.
Dadmasan,özün də biləmməzsən heç,
Yaxşıdır,ya pisdir sortu həsrətin.

Sevinc Arzulu

**Artırma  cebrimi**

Sis geler çöke-çöke,
Yel geler söke-söke.
Göz yaşı töke-töke,
Kim qazacaq qebrimi.

Yuxunu yozmaq çetin,
Yazını pozmaq çetin.
Ezaba dözmek çetin,
Gel artırma cebrimi.

Sevinc Arzulu

**Asacağam**

Yalanı heqiqet sanmasın deye,
Olanı-biteni anmasın deye,
Bir daha özgeye yanmasın deye,
Ağlağan könlümden daş asacağam.

Qelbimi ümidle ovudacağam,
Keçmişi ebedi unudacağam.
Hesreti özümçün qurudacağam,
Senin gözlerinden yaş asacağam.

Su edib denize tökecem seni,
Toxum tek sehrada ekecem seni.
Gülmeli jarjını çekecem senin,
Dilinin ucundan "kaş"asacağam.

Sevinc Arzulu

**Asıbdır**

Esirgeyer felek bizden alqışı,
Neden tutar bizi yaman qarğışı.
Görürsenmi,yağır hicran yağışı,
Üreyimi sel suları basıbdır.

Yaz gelmemiş xar yene de yaylanıb,
Lal geceler ulduzlanıb,aylanıb.
Benden başqa neçesine paylanıb,
Mehebbetin özün kimi kasıbdır.

Qem daşını aşırdarsan,ezizim.
Ayrılıqdan üşüdersen,ezizim.
Gün geler ki eşidersen,ezizim
Sevinc özün saçlarından asıbdır.

Sevinc Arzulu

**Asıldım**

Açıb sabahlarını,
Görüb pənahlarını,
Sevib günahlarını,
Asıldım göy üzündən.

Dünya haqq dünyasımı,
Göz könlün aynasımı.
Tutub eşqin yasını,
Asıldım göy üzündən.

Namərdi görk etmədim,
Həsrətə ərk etmədim.
Sevgini tərk etmədim,
Asıldım göy üzündən.
11.08.2014

Sevinc Arzulu

**Asılı**

"Qayit"-desəm,qayıtmazsanbilirəm,
Bu nə məndən,nə də səndən asılı.
Dərdli qəlbi ovutmazsan bilirəm,
Şeh qalıbdır sisdən,çəndən asılı.

Şeirə dönər ürəyimin ağrısı,
Dilimdədir nənələrin ağısı,
Həsrət olar məhəbbətin yağısı,
Sənsiz ömür bəyaz dəndən sılı.

Sınan ürək bir daha bitişməyir,
Həyatımız dərd-qəmsiz ötüşməyir.
Nə edirəm,neynəyirəm düşməyir,
Qəm qalıbdır elə məndən asılı.

Sevinc Arzulu

**Asim**

Çalğın ilə ürəkləri,
Bir andaca fəth etdin.
Arzuları, diləkləri
Tarındaca mədh etdin.

Böyü, tarın atası ol,
Sən də baban Qurban tək.
Asim, asların ası ol,
Qocalma heç, zaman tək.

Sənin ilə fəxr eyləsin,
Ata-anan, qohum dost.
Məclislərdə söylənilsin,
Şəninə ən gözəl tost.

Mizrab tutan barmaqların,
Çalmaqdan yorulmasın.
Ağacının yarpaqları,
Küləklə sovrulmasın.

Yəqin günlərin bir günü,
Xalq artisti olarsan.
Dəyişməz ki səsin, ünün
Olduğun tək qalarsan.
28.04.2018

Sevinc Arzulu

**Asimana**

Bir yaş gələr yaşım ustə,
Daş yığılar daşım ustə.
Göy guruldar başım ustə,
Qəm yayılar asimana.

Bənövşə tək qoşa bitək,
Lalələr içində itək.
Ulduzları mirvari tək.
Qoy boynundan asım, ANA.

Getdin, qopdu qiyamətim,
Azalıbdır dəyanətim.
Verilməyir öz qiymətim,
Səndin əsl xasım,ANA.

Şirin danışıb dinənim,
Ölüm atın tez minənim.
Həsrətin çəkdiyim səni,
Daş bağrıma basım,ANA.

Qoyma kədər öndə olsun,
Lal həsrətim ündə olsun.
İlinlə bir gündə olsun,
Ölsəm,mənim yasım,ANA.

Sevinc Arzulu

**Astaca**

Aramla, astaca addım ataraq,
Zamanın köksünü yarıb keçmişem.
Şirin ferehime sevinc qataraq,
Şükür, heqiqete varıb keçmişem.

Pencere önünde duranda yalqız,
Zamanın nebzini tuta bilmedim.
Men güneş altında eriyen qar qız,
Şaxta, buz oğlanı buta bilmedim.

Qelbimin oduyla isitdiyim ev,
İndi zindan kimi, qurtulmaq olmur.
Kimseye demedim iste meni, sev
Ölüm ilgeyine dartılmaq olmur.
11.11.2017

Sevinc Arzulu

**Astaca toxundum**

Həsrətə hicranı sevgili yarkən,
Ürəyə gedən yol ağappaq qarkən,
Vüsal ağacının meyvəsi varkən,
Eh, nədən vuruldum mən yarpağına.

Meşə xışıltısı al nəsim olub,.
Bulaq zümzüməsi bal səsim olub.
Sonunda bir parça təbəssüm olub,
Qondum  ayrılığın qəm dodağına.

Xəyalım səmada çərpələng kimi,
Qüssə hücum edər ağ pələng kimi.
Rəngarəng qanadlı kəpənək kimi,
Astaca toxundum nəm yanağına.
01.05.2018.

Sevinc Arzulu

**Aşıq kibi**

AŞIQ  KİBİ

Kol qızmar istide ballanar serv tek,
Riyanın yanağı allanar şerq tek.
Günahı boynundan sallanar şerf tek,
Sanar ki görüner yaraşıq kibi.

Yananı közüme ben yurd edemem,
Yamanı özüme şeyird edemem.
Hesretle hicranı ayırd edemem,
Dolaşıb durublar sarmaşıq kibi.

On üç hamı üçün nes deyilmiş ki,
Xatiren çağıran ses deyilmiş ki.
Elimden getdiyin bes deyilmiş ki,
Dilleşir benimle xar,aşıq kimi.

Sevinc Arzulu

**Aşk  neynedi**

Ben ezelden bele kürüm,
Didemden hey yaş tökürüm.
Sürünürüm sürüm-sürüm,
“Gel gör beni aşk neynedi.”

Qapınızı döymez oldum,
Bir altuna deymez oldum.
“Sevirem”-söylemez oldum,
“Gel gör beni aşk neynedi.”

Hicranını tül eyledi,
Ümidimi kül eyledi.
Beni qara qul eyledi,
“Gel gör beni aşk neynedi”.

Sevinc Arzulu

**Aşk içinde**

Kızıl zer tek berq vuralım,
Gezib Şimal-Şerq duralım.
Gel sevgiye qerq olalım,
Yorulalım aşk içinde.

Hemdem olsun bize güller,
Dalğalansın ol sünbüller.
Işe düşsün tatlı diller,
Etre bataq müşk içinde.

Ben ince,sen merd olalım,
Farklanacaq ferd olalım.
Ayrılığa derd olalım,
Buluşalım köşk içinde.

Sevinc Arzulu

**Aşk kübarını**

Ayrılığlı gəzirsən.
Ləpələnib sözüm artıq,
Səpələnib közüm  artıq.
Təpələnib izim artıq,
Kim görüb eşqin barını.

Xoş söz eşitməmiş getdi,
Könlü üşütməmiş getdi.
Vəslə yetişməmiş getdi.
Dadmadı eşq nübarını.

Qəlbim yada uymadı ki,
Vəsli tənha qoymadı ki...
Kimsə bilib duymadı ki,
Mən sevdim eşq kübarını.
06.12.2018

Sevinc Arzulu

**Ata**

Gəlib çatdın son mənzilə,
Sənə qurban özüm,ata.
Hansı əl göz yaşım silər.
Sənsiz necə dözüm,ata.

Yoxluğuna inanmıram,
Sədagətdə sınanmıram.
Ayrılığa donammıram,
Hələ yanır közün,ata.

Hiss etmirəm,yaram isti.
Acı yellər yaman əsdi.
Ölüm qarşımızı kəsdi,
Hicran oldu bizim,ata.

Qəbrin üstdə gül bitsə də,
Ölüm vüsala yetsə də.
Hamının izi itsə də,
Itməyəcək izim,ata.

Sənsiz çətin dayanaram.
Şam tək oduna yanaram.
Həmişə səni anaram,
Budur sənə sözüm,ata.

Sevinc Arzulu

**Atar  beni**

Evvel göye dartar beni,
Sonra yere atar beni.
Bu nece sevgidir,Allah
Qem-qüsseye qatar beni.

Özgeye yox meyli,deyin
Mecnun gezer Leyli deyin.
Inanmıram  ki sevdiyim
Yad  baxışa satar beni.

Hicran  ile öc düşürük,
Hesret ile döyüşürük.
Bilse ki biz görüşürük,
Reqib alıb-yatar beni.

Sevinc Arzulu

**Atdımı**

Əllər qovuşmaq istər,
Gözlər görüşmək istər.
Qəlblər barışmaq istər,
Kim  atar ilk addımı.

Sözlə az uyut məni,
Nə də ki ovut məni.
Əbədi unut məni,
Sil ürəkdən adımı.

Zəncirdən sıyrıldıq da,
Qul kimi buyrulduq da.
Elə ilk ayrılıqdan,
Vüsal səni atdımı.

Sevinc Arzulu

**Ateşin istisi**

Sən mənim gözümü yaşlı eylədin,
Mən sənə qıymazdım bu yas-matəmi.
Vüsala yolumu daşlı eylədin,
Nədən mənə qıydın bunca sitəmi.

Titrəyən ürəyim şamı söndürər,
Qoymaz ki pərvanə yansın boşuna.
Zəmanə arzusu kamı öldürər,
Qıymaz ki yaşamaq gəlsin xoşuna.

Yenə də xəyalı qanadlandırır,
Rahatlıq verməyir küləyin səsi.
Közərən ocağı alovlandırar,
Atəşin istisi,ürəyim, bəsin.

Sevinc Arzulu

**Ax indi**

Hicranın,həsrətin gözün oymadın,
Əzab verdin,əzabından doymadın.
Vüsalını mənə yaxın qoymadın,
Qərənfili öz yaxana tax,indi.

Qartalsan,zirvədən enə bilmirsən.
Ulduzsan,gecələr sönə bilmirsən.
Özün getdin deyə dönə bilmirsən,
Qəlbini atəşə,oda yax indi.

Gözlərimə işıq,nursa olmadın,
Sevincşün mirvari,nursa olmadın.
Bacarmadın,Dəli Kürsə olmadın,
Araz kimi həsrət ilə ax indi.

Sevinc Arzulu

**Axaram  gizlin**

Seninle son görüş arzularammı,
Ömür vefa eder arzularamı.
Qelbimde defn edib arzularımı,
Yeraltı çay kibi axaram gizlin.

Nedendir üzünde gülüş üşüyür,
Yayın istisinde görüş üşüyür.
Hediyye verdiyin gümüş üzüyü,
Adsız barmağıma taxaram gizlin.

Könlünü elime alıb keçerem,
Qapının zengini çalıb keçerem.
Başımı aşağı salıb keçerem,
Gözümün altından baxaram gizlin.

Sevinc Arzulu

**Axıb geder göz yaşlarım**

Hey dalaşar qədər ilə,
Çaxıb gedər göz yaşlarım.
Dost-tanışa kədər ilə,
Baxıb gedər göz yaşlarım.

Yuvasından üzülər hey,
Muncuq kimi düzülər hey,
Gözlərimdən süzülər hey,
Axıb gedər göz yaşlarım.

Könül dərdlə solan çağı,
Qəm əridər bəyaz dağı.
Boynuma duz boyunbağı,
Taxıb gedər göz yaşlarım.

Sevinc Arzulu

**Axıb gedirem**

Içime dolubdur zamanın külü,
Yamanca solubdur yamanın gülü.
Qarşımı kesibdir amanın tülü,
Kür olub Xezere axıb gedirem.

Dünyanın amansız qarışığında,
Var könül dincliyi yaraşığında,
Sen Allah yaxşı dur ay işığında,
Şeklini gözüme yığıb gedirem.

Dünyanın ağappaq donu hardadır,
Yaşıl, göy, qırmızı tonu hardadır.
Evveli hardadır, sonu hardadır
Bezdim bu heyatdan, çıxıb gedirem.

Sevinc Arzulu

**Axtararsan**

Göy talanı orman bilsən,
Hər sözümü fərman bilsən,
Vüsalımı dərman bilsən,
Onda məni axtararsan.

Bülbül həsrətdən ağlasa,
Dənizə dönüb çağlasa,
Qəlbin qəmdən buz bağlasa,
Onda məni axtararsan.

Dərdin gözün oya bilsən,
Ayrılıqdan doya bilsən,
Qəmi tənha qoya bilsən,
Onda məni axtararsan.

Sevinc Arzulu

**Axtarıram ben**

Deyesen qulağım düşübdür sese,
Torpaq yollar ile gedirim kese.
Ayağımda çarıq, elimde esa
Seni yer üzünde axtarıram ben.

Sarıbdır qelbimi xoş heyecanım,
Yorğunam, qalmayıb heç yarı canım.
Anam tek sevdiyim Azerbaycanın,
Çölünde, düzünde axtarıram ben.

Mehebbet meleyi semadan enmez,
Ürek sevdiyinden ayrılmaz,dönmez.
Qelbimin ateşi heç zaman sönmez,
Odunda, közünde axtarıram ben.

Sevinc Arzulu

**Axtarıram men**

Nə geysə yaraşır düzü payıza,
Qurbandır libasın yüzü payıza.
Səs-küylü qatardan üzü payıza,
Düşən gəncliyimi axtarıram mən.

Həmdəmi varıydı sevgi adında,
Üzdə təbəssümü sevgi dadında.
Təpədən dırnağa sevgi odunda,
Bişən gəncliyimi axtarıram mən.

Gözünün önündə nəm xatirələr,
Həm özü yox olar, həm xatirələr.
Tutubdur üzünü qəm xatirələr,
O şən gəncliyimi axtarıram mən.
26.04.2018

Sevinc Arzulu

**Ay ata**

Ömrünü-gününü qurban verib de,
Bes özün hayana getdin,ay Ata.
Dedin-”Tanrı bunca zaman verib de”,
Feleyin dediyin etdin,ay Ata.

Qurbanlıq quzu tek melerem sensiz,
Başıma çen-duman elerem sensiz.
Nece bu yerlere gelerem sensiz,
Ölümün kamına yetdin,ay Ata.

Indi senin ruhun  bizden nigaran,
Lepirden nigaran,izden nigaran.
Hemişe gezdiyin düzden nigaran,
Sonuncu neğmeni ötdün,ay Ata..

Menmi cavanlaşdım,senmi qocaldın,
Dumanmı süründü.çenmi qocaldı.
Kedermi böyüdü,qemmi qocaldı,
Ahımın içinde itdin,ay Ata.

Deyirler derd-derde,dem deme oxşar,
Qayıt gel,saçımı elinle oxşa.
Adın ebedilik qelbimde yaşar,
Kim deyir qurtardın,bitdin ay Ata.

Sevinc Arzulu

**Ay  yarım**

Göz yaşımı bulud edib,sepdim gümüş göllere
Qoymadım ki birce damcı düşsün geniş çöllere.
Haray saldım obalara,haray saldım ellere
Haradasan aslan yarım,igid yarım,merd yarım
Görmeyesen keder-qüsse,bilmeyesen derd yarım.

Ferehimi çiçek  kibi yollarına düzerdim,
Qara hesret gelse idi dodağımı büzerdim.
O,benimçün ter güllerin qönçesini üzerdi
Gündüz güneş,gecelerse ulduz yarım,ay yarım
Lepelenen deniz yarım,coşub-daşan çay yarım.

Sevinc Arzulu

**Ay  zalım**

Səni gördüm, uçalandı
Yaralı qəlbim yaman.
Deyirlər eşq ucalandı,
Qiyməti verər zaman.

Sanırdım ki illər boyu,
Çəkdiyim zülm bitib.
Demə elə yanmışam ki,
Torpaqda külüm itib.

Üzbəsurət gələndə biz,
Nə danışaq, nə dinək.
Qəfildən dönüb geriyə,
Qığılcımdan diksinək.

Ayrılaraq su başında,
Əl üzümü yuyum mən.
Eh, əzizim bu yaşımda,
Vəsli necə duyum mən.

Ağır imiş daş ayağı,
Bu məhəbbət quşunun.
Yatızdıra kaş oyağı,
Aparıbdır huşumu.

Dayan, özümə gəlirəm,
Indi-indi a zalım.
Oyan ,ö zümə gəlirəm
Dindi-dindi xəyalım.
09.08.2018

Sevinc Arzulu

**Ay ata**

Nəvələrin gülüşündən doymayan,
Duruşundan,yerişindən doymayan.
Bu dünyanın gərdişindən doymayan,
Nə tez getdin bu dünyadan,ay ata.

Sonbeşiyin toy-büsatın görmədin,
Artıq-əskik danışmadın.gülmədin.
Son sözünü,söhbətini demədin,
Nə tez getdin bu dünyadan,ay ata.

Bundan sonra görünəcəkdir yerin,
Pir olacaq bizə müqəddəs qəbrin.
Tükənir taqətim,tükənir səbrim,
Nə tez getdin bu dünyadan.ay ata.

Sevinc Arzulu

**Ay benizlim**

Sevimli dilbərindim,
Dilində əzbərindim.
Mən sənin su pərindim,
Hardasan yosun izlim.

Səndin xoş sədam, ünüm,
Həm sabahım, həm dünüm.
Ağarsın qara günüm,
Qayıt gəl  ay bənizlim.

Həsrət yaman peşəkar,
O ovçudur, mən şikar.
Söhbət edək aşikar,
Küsək hamıdan gizlin.
25.11.2018

Sevinc Arzulu

**Ay insafsız**

Ay insafsız, necə qıydın, de necə,
Göz yaşımı yağış təki çiləyim.
Xatirimə dəyibdilər bu gecə,
Ölüb sənə qovuşmaqdır diləyim.

Aman allah, uşaq kimi küsmüşəm,
Yaxınıma qoymaram ki kimsəni.
Elə bil ki göydən indi düşmüşəm,
Eh, bu qədər uzaq saldı kim səni.

Buruq-buruq yollarına qurbanam,
Allı-güllü xalısını neynəyim.
Üzaq düşən qollarına qurbanam,
Bu həyatın sarısını neynəyim.

Sarı rəngi heç sevmirəm əzəldən,
Nə olsun ki sarışınam, sarıyam.
Indi daha seçilmirəm xəzəldən,
Qəm dağının buza dönmüş qarıyam.

Əriməyim çətin daha baş tuta,
Bir də gözə görünməz ki günəşim.
Gözlərimi od-alovlu yaş tutar,
Tək özümü qarsıyacaq atəşim.

Sevinc Arzulu

**Ay oğul**

Ana qəlbi övlad üçün mayakdır,
Gecələr də dinclik bilmir, oyaqdır.
Nə yaxşı ki atan mənə dayaqdır.
Niyə belə namərd çıxdın, ay oğul.

Nahaq idin sən, haqq ilə döyüşdün,
Pis aşıq tək ustadınla döyüşdün.
Sən ananı bir gör kimə dəyişdin,
Şair könlü niyə sıxdın, ay oğul.

Indi mənə uzaq deyil ölüm də,
Asta-asta ləpələnir gölüm də.
Özgəsini yandırırdı çölüm də,
Iç dünyamı niyə yıxdın, ay oğul.

Sevinc Arzulu

**Ay qızım**

Bir gün ölsem mezarımın başına,
Kimler ile geleceksen, ay qızım.
Sığal çekib qebirüstü daşıma,
Qızılgüller sereceksen, ay qızım.

Ruhum senin yollarına çıxacaq,
Yavaşcadan ellerini sıxacaq.
Qanım senin damarından axacaq,
Beyaz çiçek dereceksen, ay qızım.

Körpe quş tek qemgin-qemgin ötersen,
Tellerine qara örpek örtersen.
Darıxıban meni görmek istersen,
Derde sine gereceksen, ay qızım.

Ötecekdir yene sona bülbüller,
Saralıban tökülecek sünbüller.
Açacaqdır qebrim üstde al güller,
elvan çeleng höreceksen, ay qızım

Öz-özüne axacaqdır göz yaşın,
Başın üstde duracaqdır qardaşın.
O olacaq menden sonra sirdaşın,
Mensizliyi göreceksen, ay qızım.

Sevinc Arzulu

**Ay Şuşam**

Şahlara başını əyməyən Şuşam,
İndi erməninin oylağı oldun.
Kimsənin xətrinə dəyməyən Şuşam,
De, kimin məskəni, yaylağı oldun.

İyirmi beş il keçib işğal gününüdən,
Biz necə dözmüşük sənsiz, ay Şuşam.
Qalmayıb bir əsər toy-düyünündən
Dağların dumansız, çənsiz, ay Şuşam.

Azad edəcəyik ana torpağı,
Şadlığı dostlarla böləcəyik biz.
Düşmənin qəlbinə çəkərək dağı,
Sənin görüşünə gələcəyik biz.
08.05.2018

Sevinc Arzulu

**Ay yaya**

Bax bozuna,ağına
Boylan ötən çağına.
Qovuşdu dağ dağına,
Uzaqdan bax,ay qaya.

Çay axar lil boyunca,
Muğanla Mil boyunca.
Qaçsa da il boyunca,
Çatammaz ki ay aya.

Həsrət düşərgə salsın,
Od,atəşə qalansın.
Qüssəm Günəşlə qalsın,
Fərəhimi ay yaya.

Sevinc Arzulu

**Ayağı ağırmış**

Ayağı ağırmış xatirələrin,
Qapımı açantək ölü düşürəm.
Kədəri çağırmış xatirələrin,
Sənsizlik dərdimi bölüb düşürəm.

Itirə bilməmiş yağışın səsi,
Könlümün məhəbbət təranəsini.
Bitirə bilməmiş zülmün nəfəsi,
Gölümün azadlıq tərsanəsini.

Aydınlıq qışqırıb haray salsa da,
Sükutun içində səssizlik yatar.
Ayrılıq qızıldan saray alsa da,
Yenə də hayıma sənsizlik çatar.
01.12.2017

Sevinc Arzulu

**Ayırır**

Emrah Neroğlu

Vallahi  guzelim gul yanaqların,
Öten bulbulleri gulden ayirir.
O tatli dillerin, bal dodakların,
Ariyi petekden baldan ayirir.

Sevinc Arzulu
Heç sile bilmedik qelbden,eh, qemi
Alışan dünyanın vallah, meh kemi.
Alaca gözünde yene şeh nemi,
Laleni üzünde xaldan ayirir.

Yaz geler, eriyer qar dağımızda,
Zalım felek olar hep sağımızda.
Ne qeder meyve var qelb bağımızda,
Deymişi dererek kaldan ayirir.

Derdimi danışdım men bir kemane,
Halıma acıyıb çekdi zebane.
Bisavad deyildir qoca zemane,
Qarayı beyazdan, aldan ayırır.

Hemişe uca tut duzu-çöreyi,
Dar günde, çetinde ol el kömey.
Yanıqlı ah çeker şair üreyi,
Susub dinmeyeni laldan ayırır.

Sevinc Arzulu

**Ayrıldı**

Aşiq şirin xəyallara dalsa da,
Ilk görüşü anıb yada salsa da,
Vüsalının odu qəlbdə qalsa da,
Həsrətinin yeri yaman ağrıdır.

Belə yazıb taleyimi Yaradan,
Dərd köynəyin biçməyibdir xaradan.
Dünya boyda məsafə var arada,
Ilk məhəbbət-son məhəbbət ayrıdı.

Xəfif əsən mehi qaldı könlümdə,
Yeddi rəngli zehi qaldı könlümdə.
Özü getdi,ruhu qaldı könlümdə,
Əbədilik bu dünyadan ayrıldı.

Sevinc Arzulu

**Ayrılıq**

Ele sevinirem ki,
Kederi neynirem ki.
Hesreti yenirem ki.
Içim-içime sığmır,

Göyler yene dolubdur,
Qızılgüller solubdur.
Yaman pinti olubdur,
Dünya tökdüyün yığmır.

Qumdan saray qurubsan.
Yol-izini burubsan.
Ne arxayın durubsan,
Ayrılıq seni sıxmır?

Sevinc Arzulu

**Ayrılıq  perişandır**

Xəyallarım sərhədləri aşandır,
Dəniz kimi çağlayıban daşandır.
Bir də daha azalmaz ki ağrısı,
Dərdli ürək qəm əlindən şan-şandır.

Yay günündə zirvəyə yağan qaram,
Qüssə varsa, demək orda mən varam.
Qanayacaq,bilirəm ki qəlb yaram,
Çünki odlu atəşlərə nişandır.

Çox gur axar dağdan gələn sellərin,
Sürgündədir məndən uzaq ellərim.
Şəlalə tək axan sarı tellərim,
Ayrılığın mehindən pərişandır.

Sevinc Arzulu

**Ayrılıq gizlenir**

Söykenib simsiyah nem sürahiye,
Deyrem derdimin çarası getdi
Ele minnətdaram o İlahiye.
Seni gözlerimin qarası etdi,

Biz dövran sürürük yaxşı ya yaman,
Tanrının güneşli seması altda.
Melhem olacaqmı hicrana zaman,
Ayrılıq gizlenir siması altda.
21.04.2018

Sevinc Arzulu

**Ayrılıq meqamıdır**

Hicran gözdən yaş tökürsə,
Əzabdan insan çökürsə,
Həsrət qəlbə dağ çəkirsə,
Vüsal eşqin kamıdır.

Çoxdur tək-tənha qarıyan,
Həsrət kələfin sarıyan.
Bu gilə-gilə əriyən,
Ürəyimin şamıdır,

İçdin sevgi zəhərini,
Tezcə gördün bəhərini.
Boğ içində qəhərini.
Ayrılıq məqamıdır.

Sevinc Arzulu

**Ayrılıq meqamıdır**

Hicran gözdən yaş tökürsə,
Əzabdan insan çökürsə,
Həsrət qəlbə dağ çəkirsə,
Vüsal eşqin kamıdır.

Çoxdur tək-tənha qarıyan,
Həsrət kələfin sarıyan.
Bu gilə-gilə əriyən,
Ürəyimin şamıdır,

İçdin sevgi zəhərini,
Tezcə gördün bəhərini.
Boğ içində qəhərini.
Ayrılıq məqamıdır.

Sevinc Arzulu

**Ayrılıq odunda**

Könlün dediyini qismət etməmiş,
O qədər aşiqlər kama yetməmiş.
Hələ qulağımdan səsin getməmiş,
Günlər xatirəyə dönər bir anda.

Arzu bulağından kimlər su içib,
Murada çatmaqçun nələri seçib?
Geriyə baxıram, neçə il keçib,
Atını dördnala çapar zaman da.

Yenə də Şimaldan küləklər əsər,
Şaxta qılınc kimi adamı kəsər.
Hicran həsrət ilə vəslə tələsər,
Ayrılıq odunda inlər kaman da.
23.02.2015

Sevinc Arzulu

**Ayrılıq ve vüsal**

Daha eşq oduna alışa bilməm,
Gecələr ulduzla danışa bilməm.
Sənin yoxluğunla barışa bilməm,
Bulud gözlərimin yaşı qurumaz.

Yoxluğun dağ çəkib sinəm üstünə,
Baş çəkə bilmirəm bürünc büstünə.
Od almayan közdən çıxan tüstü nə,
Çaylar da döngəni yaxşı burulmaz.

Titrəyən dodaqda söz yeri vardır,
Köksümün altında köz yeri vardır.
Hərənin qəlbimdə öz yeri vardır,
Ayrılıq vüsalla yanaşı durmaz.
12.12.2017

Sevinc Arzulu

**Ayrılıq yağır**

Göydən ayrılıq yağır,
Acısı  ondan ağır.
Durmusan yazıq, fağır,
Nə boynunu burmusan.

Vüsal qapı dalında,
Görüşdür amalında.
Özün öz  xəyalında.
Eşq oynunu qurmusan.

Çöldür sənin məkanın,
Çoxdur heyf tikanı.
Çıxarıb qəm maskanı,
Dərd soyunub durmusan
06.12.2018

Sevinc Arzulu

**Az hesretini**

Ayrılıq zalımı tezcə ötür sən,
Hicranı əbədi gözdən itir sən.
Mənimtək əlinə qələm götür sən,
Çevirib misraya yaz həsrətini.

Bu dünya sevginin, məhəbbətindir,
Sevən sevgisinə sadiq,mətindir.
Bilirsən, əzizim, necə çətindir.
Payızda çəkəndə yaz həsrətini.

Sevdamız dünyanın mübhəm sirriydi,
Min sevgi qulunun yalnız biriydim.
Sənincün neçə yol öldüm, dirildim
Mən ki çəkməmişəm az həsrətini.
15.07.2018

Sevinc Arzulu

**Azad quş idim**

Gözümde qoyma cehdimi,
Sözümde qoyma ehdimi.
Soyuq kesdi lap ehdimi,
Allah, üşüdüm, üşüdüm.

Bu sevginin naxşı sınıb,
Uzaqlara baxşı sınıb.
Kelmenin en yaxşısını,
Allah, eşidim, eşidim.

Ayrılıq, ne üzün bozart,
Ne gözünün rengin azalt.
Men de qartal kimi azad,
Allah, quş idim, quş idim.

Sevinc Arzulu

**Azad quş ollam**

Bilmirim hicranın merezi nedir,
Vüsalla qesdi ne,qerezi nedir.
Anlasan,duyarsan bir xezinedir
Mat qaldım sevginin zenginliyine.

Seni yoldan eden nur baxış ollam,
Odun üste yağan gur yağış ollam.
Bir gün ben de sen tek azad quş ollam,
Qalxaram göylerin enginliyine.

Sevinc Arzulu

**Azad, Şuşam**

Bu gün sənin işğal günün,
Əyilibdir qamətimiz..
Gəlib çatır sədan, ünün
Sənə istiqamətimiz.

Səni  görən  kimlər satdı ,
Biz olmadıq namərd, Şuşam.
Şəhid zirvəsinə çatdı,
Neçə-neçə mərd,Şuşam.

Gözəlliyin  sozalıbdır,
Qayıdar al rəngin,Şuşam.
O günə lap az qalıbdır,
Çalınacaq Cəngim,Şuşa.

Harayına yetəcəyik,
Viranə tək bərbad Şuşam.
Səni xilas edəcəyik,
Olacaqsan azad, Şuşam.
08.05.2017

Sevinc Arzulu

**Azadlıq**

Ürəyimin divarından süzülüb gələn qan rəngli göz yaşım....
Axı necə bu dünyanın dərd-qəmiylə, kədəriylə savaşım.
Kimdən aman diləyim mən,
Kimə tutum üzümü,
Kimə sübut eyləyim mən həqiqəti-düzümü.
Heç bir kimsə deyilmiş ki sən demə heç mən deyən.
Mənə qarşı çıxır indi əllərimdən dən yeyən.
Üzü dönüb yaxınların, uzaqlaşıb tanışım.
Bu qüssəli gözlərimlə fərəhdənmi danışım.
Tanrı özü bilir axı günahm yox bir damçı,
Taleyin acı şakası əzab verən nar-qamçı.
Nə əlimi qaldırıban aman diləyirəm mən,
Nə doğrunu söyləməkçün zaman diləyirəm mən.
Ürəyimin ağrısını çəkə-çəkə oturdum,
Daş-çınqıllı bu yollarda çökə-çökə oturdum.
Axır kimsə başa düşdü mənim ərzi-halımı,
Fələyin öz əli ilə başlandı dərd çalımı.
Indi, şükür, asudəyəm, indi şükür, azadam.
Dünyanın xoş gün üzündə sevinclə gəzər adam
22.08.2013

Sevinc Arzulu

**Azadlıq gülleleri**

Gözümün nuru sönər,
Çətin geriyə dönər.
Gənclik aşağı enər,
Qalxdıqca pillələri.

Deyən qarğış gələcək,
Yaz günü qış gələcək,
Həsrətə tuş gələcək,
Azadlıq güllələri.

Göy üzü qurşaq olar,
Qoca da  uşaq olar.
Kim deyir yumşaq olar,
Hicranın  şillələri.

Sevinc Arzulu

**Azalmayır cencelim**

Qaralıbdır göy səmanın göylüyü,
Qəfil mehdən kələfim düşdü düyün.
Ürəyimdə lal kədərin hay-küyü,
Qoymayır ki, bir oturub dincəlim.

Daha uçmur ayağı qan kəkliyim,
Üzür məni, gülüm,yaman təkliyim.
Heç qalmayıb o əzəlki köklüyüm,
Bundan artıq dərddən necə incəlim.

Həsrətinin ağrısından yoğruldum,
Sənsizliyin istisində qovruldum.
Mən hicranın özündəncə doğuldum,
Onun üçün azalmayır cəncəlim.

Sevinc Arzulu

**Azan sesi**

Sənsiz üsyan eyləyərəm susmağımla,
Əcəl gələn gizli yolu pusmağımla.
Dodağımı bərk-bərk tikib ürəyimdə,
Sapını da möhkəm çəkib ürəyimdə
Danışacam özüm ilə.
Təkcə məni yandıracaq gülümsəyən közüm elə.
Kimsə mənə "döz" deməsin,
Ürəyimə toxunacaq söz deməsin.
Addımımı atacağam iri-iri,
Aman külək, kiri-kiri.
Eşidim azan səsini,
İlahinin lütf eyləyib göndərdiyi
Yanıqlı təranəsini.

Sevinc Arzulu

**Azerbaycan  esgeri**

Darda Veten torpağı,
Uca kaldır bayrağı.
Sensen elin dayağı,
Merd igidi,merd eri,
Azebaycan esgeri.

Çetinde haya yeten,
Köksünde güller biten,
Dardadır Ana Veten,
Yerin döyüş sengeri,
Azerbaycan esgeri.

Silahlar işık saçar,
Düşmene ateş açar.
Ermeni korxub kaçar,
Addım atma sen geri,,
Azerbaycan esgeri.

Hücuma keç yaz çağı,
Meğlub edilsin yağı.
Azad et Karabağı,
Qır ermeni leşkerin,
Azerbaycan esgeri.

Kız-gelinler karada,
Yigidlerim harada.
Kömek olsun yaradan,
Gelsin zefer xeberi,
Azerbaycan esgeri

Sevinc Arzulu

**Azerbaycan esgeri**

Uca qaldır bayrağı,
Gözlər Vətən torpağı,
Sənsən elin dayağı,
Mərd igidi,mərd  əri.
Azərbaycan əsgəri.

Çətində haya yetən,
Köksündə güllər bitən.
Dardadır Ana Vətən,
Yerin döyüş səngəri,
Azərbaycan əsgəri.

Silahlar işıq saçar,
Düşmənə atəş açar.
Erməni qorxub qaçar,
Göstər ona hünərin
Azərbaycan əsgəri.

Hücuma keç sübh çağı,
Məğlub edilsin yağı.
Azad et Qarabağı,
Qır erməni ləşkərin.
Azərbaycan əsgəri.

Qız-gəlinlər qarada,
Igidlərim harada.
Kömək olsun yaradan,
Gəlsin zəfər xəbəri.
Azərbaycan əsgəri.

Sevinc Arzulu

**Aznam, dünya**

Qayığım kürekli olduğu qeder,
Boz səmam külekli olduğu qeder.
Sen mene gerekli olduğun qeder,
Men sene lazımam,lazımam dünya.

O Ata Göydürse,men Ana Yerem,
Ferehi torpağa gübre tek verem.
Hele oxunmamış gözel bir şerem,
Zer ilə yazılan yazınam,dünya.

Arası kesilmez leysan yağışam,
Kederli payızam,qüsseli qışam.
Tanrıya ucalan nurlu alqışam,
Heç zaman artmayan azınam,dünya.

Sevinc Arzulu

**Baba yolu ver**

Ezmlidir bu dağların vüqarı,
Pozulmazdır ehd-peymanı,ilqarı.
Yayın ortasında neynirim qarı,
Ne tufan,ne boran,ne de dolu ver.

Söz nurum tökülür şeirin setrine,
Pise göz yumaram yaxşı xetrine.
Heyatım bürünsün gözel etrine,
Üstü dolu bir qızılgül kolu ver.

Ben bezdim hesretin lal sevgisinden,
Heç aşa bilmedim daş hörgüsünden.
Qoy keçim dünyanın qem körpüsünden,
Ilahi,bene bir Baba yolu ver.

Sevinc Arzulu

**Bacı**

Gizlet eşqin oğrusunu,
Heç söyleme doğrusunu.
Üreyimin ağrısını
Ilme-ilme toxu, bacı.

Söhbetini aşkar deme.
Tez oyanar leşger, deme.
Her gedaya esger deme,
Herbden qorxur çoxu, bacı.

Qışa sine gerib-gerib,
Gezdim eli qerib-qerib.
Kederimi herif-herif,
Sen şerimdən oxu, bacı.

Sevinc Arzulu

**Bacım**

Qüsseli fikriyle, yaşlı sözüyle,
Heyatın oduna yaşam közüyle.
Gözel simasıyla, yaşıl gözüyle
Könlüme ebedi yol tapan bacım.

Sanma var möhteşem cahı-celalı,
Kelbinde bir özü, bir de melalı.
Buludlar üstünde uçur xeyalı.
Duyğu zirvesinde at çapan bacım.

Ferehle döyünsün gerek her ürek,
Gözünde ateşin qığılcım gerek.
Nurlu işığıyla güneş zeri tek,
Sevdalı kelbime tez hopan bacım.
06.10.2018

Sevinc Arzulu

**Bağışla**

Yadıma düşürsen,
Yağanda yağışlar.
Bağışla, gözel yar,
Bağışla...

Yadıma düşürsen
Kederli, qüsseli anımda,
Dost yoxken yanımda.

Yadıma düşürsen
Bulud dolan zamanda,
Çiçek solan zamanda.

Yadıma düşürsen
Bu dünyadan küsende,
Ellerimi üzende.

Yadıma düşürsen
Dan yeri sökülende,
Göyden qem tökülende.

Yadıma düşürsen
Gözümde yaş olanda,
Qelbimde daş olanda.

Yadıma düşürsen
Tenhalıq darananda,
Ağ teller arananda.

Yadıma düşürsen
Üreyim sıxılanda,
Torpağa yıxılanda.

Yadıma düşürsen
Gözüm yol çekende
Hesret derd ekende.

Yadıma düşürsen
Vüsal yox olanda,
Hicran tox olanda.

Yadıma düşürsen
Her il ad günümde,
Bir az şad günümde.
Bağişla....

Sevinc Arzulu

**Bağışla meni**

Qırmızı qan olub damarda axdın,
Hicrinlə qəlbimi odlayıb yaxdın.
O qara gözlərlə necə də baxdın.
Yandırdın atəşin baxışla məni.
Bağışla əzizim, bağışla məni.

Bilirəm, tapılmaz dərdimə əlac,
İlahi, sən özün sevənə yol aç.
Başıma qoyuldu kədər qaşlı tac,
Bəzədin ömrümü naxışla mənim.
Bağışla əzizim, bağışla məni.

Könlümdə bitibdir həsrət çiçəyi,
Başımın üstündə ilham mələyi.
Yenə də əsir bax hicran küləyi,
Qarşılar təbiət yağışla məni.
Bağışla əzizim, bağışla məni.

Sevinc Arzulu

**Bağışla,Allah**

Yol gede bilmedim kardaşım ile,
Dostlaşa bilmedim adaşım ile.
Günahım yudum ben göz yaşım ile,
Sen de yu qar ile, yağışla,Allah.
Bağışla sen beni bağışla,Allah.

Ne edim? Neyneyim? -sordum dünyadan,
Günahkar yaşamaq zordu dünyada.
Bir neçe yaxşı iş gördüm dünyada,
Sen de savabımı alqışla,Allah.
Bağışla sen beni bağışla,Allah.

Ruhum uca göyde rahatlıq gezer,
Saf,temiz duygular simamı bezer.
Sadece yazılmlş vereqe benzer,
Sen benim ömrümü naxışla,Allah.
Bağışla sen beni,bağışla Allah.

Sevinc Arzulu

**Bağışlanmaz xeyanetin**

Tuş olmadıq eşq bəhrinə,
Çox tez düşdük dərd qəhrinə.
Axı nədən qəm şəhrinə,
Verilibdir təyinatım.

Ömrümüzdən keçən ildə,
Həsrəri dost seçən ildə,
Görmədiyim neçə ildə,
Azalıbmış dəyanətin.

Donmuş buza”qar”-demisən.
Qartala”ley,sar”-demisən.
Özgəsinə “yar”-demisən.
Bağışlanmaz xəyanətin.

Sevinc Arzulu

**Bağla  beni**

Hesret gülün sozaldaraq,
Qem-qüsseni azaldaraq
Uzununa uzadaraq,
Enimece ağla beni.

Kainatdan kimler keçe,
Kimler qala,kimler köçe.
Qarışmayım başqa köçe,
Üreyimden dağla beni.

“Çar yalanı devirim”-de,
“Dünyanı ters çevirim”-de.
Birce kelme “sevirim”de,
Bu dünyaya bağla beni.

Sevinc Arzulu

**Bağla meni**

Həsrət gülün sozaldaraq,
Qəm-qüssəni azaldaraq
Uzununa uzadaraq,
Eniməcə ağla məni.

Kainatdan kimlər keçə,
Kimlər qala, kimlər köçə.
Qarışmayım başqa köçə,
Ürəyimdən dağla məni.

"Çar yalanı devirim"-de,
"Dünyanı tərs çevirim"-de.
Bircə kəlmə "sevirəm"de,
Bu dünyaya bağla məni.

Sevinc Arzulu

**Bağlanma heçime**

Eşqi sezməyən kor olar,
Bəyaz rəng dönüb mor olar.
Işin sonunda zor olar,
Dünya, bağlanma  heçimə.

Sözüm yoxdur sənə, fələk,
Hamıya gəlirsən kələk.
Cadugərsən, yoxsa mələk?

Mən nə deyim bu seçimə.

Nərgizi dərib durmuşam,
Ləçəyin sərib durmuşam.
Elə kövrəlib durmuşam,
Sığmayır içim içimə.
03.12.2018

Sevinc Arzulu

**Bağlar meni**

Qəm könlümdə tikər saray,
Sən qayıtsan çökər saray.
Xatirələr çəkər haray,
 Çalın-çarpaz dağlar məni.

Göz yaşlarım gilə-gilə,
Ayrı düşdün bilə-bilə.
Özün getdin gülə-gülə,
Niyə qoydun ağlar məni.

Uçub getdi səadətim,
Azaldı qəlb hərarətim.
Sənə olan məhəbbətim,
Bu həyata bağlar məni.

Sevinc Arzulu

**Baheye düşmüşüm**

Kəhər-kəhər atlayacaq yer üzü,
Sünbül-sünbül çatlayacaq yer üzü.
Dağılacaq,partlayacaq yer üzü,
Minalanmış bir sahəyə düşmüşəm.

Qara sevda dedikləri de,bumu
Ürəyimə səpdi kədər toxumu.
"Hicran,hicran"-deyir hər sarı qumu,
Möhnət adlı gen sahəyə düşmüşəm.

Təkcə sənin taleyinə yazılam.
Könlünün bir guşəsinə cızılam.
Ən qiymətli,min əyarlı qızılam,
Ucuz idim,çox bahəyə düşmüşəm.

Sevinc Arzulu

**Bal tebessümü**

Gecələr aypara işıq yandırır,
Astaca süzülür bal təbəssümü.
Yer üzün necə də işıqlandırır,
Günəş. Dodağında al təbəssümü.

Heç bitməz həsrətin mənlə qovğası,
De, acı dadırmı hicrin dovğası.
Əynində köhnəlmiş qara sovxası
Könlümü titrədər lal təbəssümü.

Sevinc, fərəh çıxsın hər an püşkümə,
Ayrılıq olmasın həyan köşkümə.
Izn ver, nur salsın həyat eşqimə,
Bir dəfə gözümə sal təbəssümü.
19.07.2018

Sevinc Arzulu

**Bala ceyranın**

BALA  CEYRANIN

Günlərin birində,Muğan elində,
Çantası çiynində,qəmə belində.
Gözümün önündə,tüfəng əlində
Bir ovçu ovladı bala ceyranı.

Mən duydum qəlbimdə sahilsiz ağrı,
Bu qədər zalımlıq deyildir doğru.
Qaçmaqdan az qalır çatlasın bağrı,
Şir,pələng qovladı bala ceyranı.

Canavar başlayar öz oyununa.
Söhbət oyununa,söz oyununa.
Ceyranı tilsimlər öz oyununda,
Başını tovladı bala ceyranın.

Sevinc Arzulu

**Bana gelir**

Ruhum göyde süzer melekle birge,
Arzuyla, ümidle, dilekle birge.
Uçuram sahildə külekle birge,
Ben qumdan qaçıram, qum bana gelir.

Bir zaman sevdiyim qaragöz bumu,
Yene de başlanıb deyen söz bumu,
Kelbimi yandırar qızıl köz bumu,
Ben bumdan qaçıram, bum bana gelir.

Demirem tikanlı kollara sarıl.
Çetinde en yaxın qollara sarıl.
Üzümü tuturam yollara sarı,
Ben bundan qaçıram, bu bana gelir.

Sevinc Arzulu

**Barışar çetin**

Sevinclə, sevgiylə  hey dinən ürək,
Köksümün altıdır al binən, ürək.
Sənin varlığına  sevinən ürək,
Qəfil yoxluğuna alışar çətin.

O qum saatıdır düz  göztərməyən,
Rənglərə qarışan iz göstərməyən.
Fələyə heç zaman üz göstərməyən,
Taleyin oynuyla barışar çətin.

Həsrət dənizində ada olanlar,
Hicrana naz-qəmzə, əda olanlar,
Məhəbbət yolunda fəda olanlar,
Əsrin ölüsünə qarışar çətin.
05.12.2018

Sevinc Arzulu

**Barışmadıq, ayrıldıq**

Kim deyir ki, biz cənnətdən qovulduq,
Cəhənnəmin istisində qovrulduq.
Biz Tanrınln istəyinə qul olduq,
Sevənlər tək qonuşmadıq, ayrıldıq.

Boş çıxmadı zalım düşmənin səyi,
İtkimiz çox oldu, qazandıq nəyi.
Nəydi bizdən bu taleyin istəyi,
Bir kimsədən soruşmadıq, ayrıldıq.

Sevdiyimin uca boyu, qəddi var,
Yolum üstdə neçə izi, rəddi var.
Aramızı kəsdi qaya sədd-divar,
Kür-Araz tək qovuşmadıq, ayrıldıq.

Xain çıxdı mənə dostum, həbibim,
Xəstə düşdüm, sən olmadın təbibim.
Nədən seçdin o qaragöz rəqibi,
Saf eşq üçün yarışmadıq, ayrıldıq.

Cavan canım dərd çəkməkdən üzülüb,
Ala gözdən daim qan-yaş süzülüb.
Neçə ildir biz qalmışıq küsülü,
Rastlaşanda barışmadıq, ayrıldıq.

Sevinc Arzulu

**Basıb durmuşam**

Qızılgüldüm: tikanlı, xarlı idim
Dağ idim: zirvəsi ağ qarlı idim.
Ata-anam sağdı, çox varlı idim,
Itirdim onları, kasıb durmuşam.

Hələ də bilmirsən pis, yaman nədir,
Həsrətdən inləyən tar, kaman nədir.
Soruşma göydəki sis, duman nədir,
Ahımı səmadan asıb durmuşam.

Başıma min bəla gətirmişəm mən.
Sevinci qapıdan ötürmüşəm mən.
Dərd-qəmi tezcənə götürmüşəm mən,
Fərəhin başından basıb durmuşam.

Sevinc Arzulu

**Baş tacım**

Günəşlə bir oyanıb,
Addımladım küçəni.
Xatirənə boyanıb,
Andım olub-keçəni.

Elə bil ki səmadan,
Işıq gəldi gözümə.
Doymadım gül simadan,
Yığışmıram özümə.

Ayrılığın zərrəsi,
Sanki mənə dəyibdir.
Həsrətin daş zərbəsi,
Budağımı əyibdir.

Baş əymişəm taleyin
Pozulmaz qanununa.
Vardır azcıq gileyim,
Daha nə deyim ona.

Qoy kor olsun hicranın,
Yaşamaq olsun acı.
Mənəm şadı dünyanın,
Məhəbbətin baş tacım.
12.09.2018

Sevinc Arzulu

**Başdan atammadıq**

Tanrı salmaz bizi yada,
Qəm-kədər həddən ziyada.
Vüsal atlı, biz piyada
Qaçdıqsa da çatammadıq.

Gülüm, sil gözün yaşını,
Qüssədən çatma qaşını.
Hamərd hicranın başını,
Daş-qaşla da qatamaddıq

Ayrılıq-kədər dənizi,
Tez soldurar gül bənizi.
O qədər üzdü qəm bizi,
Şirin röya yatammadıq.

Sevgim atəş közlü imiş,
Ürəyim şeir-sözlü imiş.
Vüsal gölü duzlu imiş,
İstəsək də batammadıq.

Gülüm, bu vaxtsız sevdanı,
Qızıldan taxtsız sevdanı,
Bizim tək baxtsız sevdanı,
Niyə başdan atammadıq.

Sevinc Arzulu

**Başdaşı**

Coşub daşan Kürmüsən,
Necə dövran sürmüsən.
Allahını görmüsən,
Sən başının üstündə.

Kim qara bağlayacaq,
Ürəkdən ağlayacaq.
Muğamat çağlayacaq,
Göz yaşının üstündə.

Həsrətə dözüləcək
Acısı çözüləcək.
Görən nə yazılacaq
Başdaşının üstündə.
03.05.2015

Sevinc Arzulu

**Başdaşı,dünya**

Qıymadı en parlaq incimi alım,
Tutdurdu elime qelp daşı dünya.
Oturub zirvede dincimi alım,
Bişirdi benimçün qem aşı,dünya.

Yıkıldım,üstümde bir yol esmedi,
Yaxşımı demeye heç telesmedi.
Benimle bir tike çörek kesmedi,
Feleyin en sadiq yoldaşı dünya.

Sirrimi bilmekçün alca danışar,
Dilin şeker eder,balca danışar.
Üzüme gülüb de dalca danışar,
Neynirem senin tek sirdaşı,dünya.

Yalan göz yaşını çenden alıbdır,
Üzünün ağlığın denden alıbdır.
Deyesen dersini senden alıbdır.
Istemem yad tekin qardaşı dünya

Ben artıqlürüm.son nefesimdir,
Bu şeir son vidam,son hevesimdir.
Mezarın üstdeki çinar besimdir,
Ne lazım mermerden başdaşı,dünya.

Sevinc Arzulu

**Başına dolandığım**

Könlümü didən xatirə,
Pərişan edən xatirə.
Qəlbimdə dündən xatirə,
Var, başına dolandığım.

Zülmət çökdü qaramıza,
Qəm yaraşır haramıza.
Nədən girdi aramıza,
Xar , başına dolandığım.

Nə saralıb, nə solasan,
Hiss tək könlümə dolasan.
Istərdim mənə olasan,
Yar, başına dolandığım.

Qəlbimi üzən qəm olma,
Göy səmada sis-çən olma.
Ah-naləmə tək sən olma
Kar, başına dolandığım.

Ürəyimdən uzaq riya,
Gözlərimə yaddır röya.
Mənə olar sənsiz dünya
Dar, başına dolandığım.

Sevinc Arzulu

**Başına döndüyüm**

Üstümüzde çetir-qovaq,
Ayrılığı uzaq qovaq.
Birce defe sen ol qonaq,
Gece,başına döndüyüm.

Vüsal quyusu ne derin,
Dupduru suyu ne serin.
Gedek eksine qederin,
Nece,başına döndüyüm.

Yolunu qürbetden salma,
Qemli xeyallara dalma.
Xarın yalan sözün alma,
Vece,başına döndüyüm.

Sevinc Arzulu

**Başına dönüm**

Yaraşım ad-sanına,
Mən and içim canına.
İcazə ver yanına,
Gəlim, başına dönüm.

Ömür-közərən qordur,
Bizim işimiz zordur.
Neyniyim ki çox şordur,
Əlim, başına dönüm.

Sakit axacaq Araz,
Qəlbdə qalmaz kam, muraz.
Qəddarlaşma, ol bir az
Həlim, başına dönüm.
17.02.2017

Sevinc Arzulu

**Başlanıb yarpak tökümü**

Yaşam özü ayaqlı,əlli deyil.
Ölümün hədəfi kim?bəlli deyil.
Yaşımız hələ ki heç əlli deyil,
Başlanıb nəslimin yarpaq tökümü.

Biri qəfil ölər,biri həlak olar.
Ruhları səmada ağ mələk olar.
Itkidən sevinən tək fələk olar,
Başlanıb nəslimin yarpaq tökümü.

Üzülər payızın sərin mehindən,
Süzülər gecənin səhər şehindən.
Düzülər qurşağın yeddi zehindən,
Başlanıb nəslimin yarpaq tökümü.

Ayrılıq məclisdə hakim,baş olar.
Həsrət üzüyümdə qara qaş olar.
Könüldə qəm-qüssə,gözdə yaş olar,
Başlanıb nəslimin yarpaq tökümü.

Dünən dövran sürən bu gün yox olar,
Ürəklər ağrıdan,dərddən tox olar.
Gələn az,gedənsə nədən çox olar,
Başlanıb nəslimin yarpaq tökümü.

Sevinc Arzulu

**Batar gündüzüm**

Bezibən yalanın yaraşığından,
Gah ona, gah yada yar aşiqindən.
Günəşin yandıran gur işığından,
Gecənin qoynunda yatar gündüzüm.

Xəyalı,ümidi əlvan dondadır,
Sadə danışığı sakit tondadır.
Günlərin hərəsi bir vaqondadır,
Son səfər edəcək qatar gündüzüm.

Töküb qaş-qabağın,eh,bizdən küsüb
Torpaqdan,səmadan,dənizdən küsüb.
Elə özciyəzi gündüzdən küsüb
Qorxuram təklikdən batar gündüzüm.

Sevinc Arzulu

**Bax, qaraçı**

İtirmişəm mələyimi,
Gözümdən sez gileyimi.
Üzümə de talryimi,
Bir bəxtimə bax,qaraçı.
Şimşək olub çax.qaraçı.

Ilham atım çapılmadı,
Çörəklərim yapılmadı.
Dərdə dərman tapılmadı,
Dəli çay tək ax.qaraçı.
Bir bəxtimə bax,qaraçı.

Süzmə məni oğrun.oğrun,
Bilinməyir yalan.doğrun.
Qurtardımı sual-sorğun?
Məni oda yax.qaraçı.
Bir bəxtimə bax.qaraçı.

Canlar alır gözəlliyin,
Şeriyyətin,qəzəlliyin.
Bir aləmdir özəlliyin,
Muncuqların tax.qaraçı.
Bir bəxtimə bax,qaraçı.

Sevincəm,çıxma sözümdəm,
Od alışan közümdən.
Bəxtimi oxu gözümdən,
Əlimi burax.qaraçı.
Bir bəxtimə bax,qaraçı.

Sevinc Arzulu

**Baxıram, ana**

Yenə quçaqlayıb soyuq qəbrini,
Ağlaraq çəkirəm həsət qəhrini
Bilmədik vaxtında sənin qədrini,
Şəklini köksümə sıxıram Ana.

Qəbriniz önündə mən əyirəm baş,
Hey axır, qurtarmır ğözlərimdə yaş.
O sizli günlərim bir dönəydi kaş,
Qəm ilə qəlb evin yıxıram Ana.

Yenə də könlümə sərin meh əsə,
Həsrətəm bir şirin,bir doğma səsə.
Atalı-analı olan bir kəsə,
İndi mən həsrətlə baxıram Ana.

Həmişə doğruyuq, həmişə düzük,
İstidə zirvəyik, soyuqda düzük.
Yadigar qalıbdır mənə bir üzük,
Mən onu nisgillə taxıram Ana.

Fikirdən ləçəyi soluxmuş güləm,
İstisi soyumuş bir qoram, küləm.
Gah sakit Alazan,gah dəli Kürəm,
Araza qoşulub axıram Ana.
Qəlbimi atəşə yaxıram Ana.

Sevinc Arzulu

**Baxış-baxış**

Insafdan da öndü dözüm,
Alışmamış söndü közün.
Ağ dənizə döndü gözün.
Ləpələndin baxış-baxış.

Ev qurular təməliylə,
El tanınar əməliylə.
Təbiətin öz əliylə,
Təpələndin naxış-naxış.

Sevgin qəlbdə ümid olub,
Həsrət eşqə əmud olub.
Göy səmada bulud olub,
Səpələndin yağış-yağış.

Sevinc Arzulu

**Baxışı yox, neyneyim**

Sevgi adlı labirintə düşmüşəm,
Girişi var, çıxışı yox, neynəyim.
Bu yolda nən qəm ilə ötüşmüşəm,
Enişi var, yoxuşu yox, neynəyim.

Dərd qarşımda bir keçilməz qayadır,
Həzin nəğmə xoş xatirə oyadır.
Ömür yazım nədən belə sayadır,
Alabəzək naxışı yox, neynəyim.

Rastlaşarıq biz yəqin Allah kərim,
Təkcə sənlə görüşməkdir dərd-sərim.
Başım üstdə uçsa da ilham pərim,
Təbəssümlü baxışı yox, neynəyim.

Sevinc Arzulu

**Baxışımız  görüşdü**

Bulud meşe üstünde,
Canlı guşe üstünde.
Qız benövşe üstünde,
Baxışımız görüşdü.

Gurlaşdı sellerimiz,
Nurlaşdı ellerimiz.
Neden talelerimiz,
Bir-biriyle öc düşdü.

Ürek bağlı bir seyf,
Duyğular eylemez keyf.
Heyf,heyf,çox heyf,
Yaxşı günler ötüşdü.

Sevinc Arzulu

**Baxışların kölge salır**

Bu həsrətin şaxtasında donum da,
Sevinmək var bəlkə hicrin sonunda.
Artıq durub dayanmışam onunda.
Alqışların əl də çalır yüzümə.

Qəmin hörgüsünü hörəmmirəm ki,
Ürəkdən bir salam verəmmirəm ki.
Güzgüdə özümü görəmmirəm ki,
Baxışların kölgə salır üzümə.

Vüsal  getsə könül talan olarmış,
Qan ağlayar gözlər, nalan olarmış.
Eh, nə qədər yalan-palan olarmış,
Naxışların həsrət qalır düzümə.

Sevinc Arzulu

**Baxma**

Hesreti yanlamasan,
Hicranı danlamasan,
Menasın anlamasan,
Çönüb sözüme baxma.

Ne berk tutmusan “eh”den,
Bal ki süzülmür şehden.
Astaca esen mehden,
Sönüb közüme baxma.

Ay taleden ders alan,
Sevdandır mene qalan.
Billem, deyirsen yalan,
Dönüb gözüme baxma.

Sevinc Arzulu

**Baxma, nolar**

Çox axıtma alın tərin,
Tək mən olum dərdin-sərin.
Ay dünyanın bəxtəvəri,
Elə küskün baxma, nolar.

Etibarda kəm payımsan,
Harayımsan, həm hayımsan
Mənim dəli Kür çayımsan,
Belə miskin axma, nolar.

Danlamısan, pislənmisən,
Qaralmısan, hislənmisən.
Bilirəmmki hirslənmisən,
Ələ çiskin, çaxma, nolar.
01.04.2015

Sevinc Arzulu

**Baxmaq isterem**

Birinci özün get sayanın üstə,
Nurunu aləmə yayanın üstə.
Dırmaşıb ən uca qayanın üstə,
Dönüb keçmişimə baxmaq istərəm.

Yox daha arayıb axtaran kəsim,
Hanı o günlərin sədası, səsi.
Qəlbimdə ötənə dönmək həvəsi,
Xatirə göyündə çaxmaq istərəm.

Tənha xatirələr düzülüb gələr,
Hicranın ürəyi üzülüb gələr.
Bir uca qayadan süzülüb gələn,
Bulaq tək qəlbinə axmaq istərəm.
12.08.2014

Sevinc Arzulu

**Bayatılar**

Göy üzü damar-damar,
Göydən yerə nur damar.
Bulud enər köksümə,
Ürəyimə su damar.

Çəkginən zehli məni,
Küləkli,mehli məni.
Gün çıxsa quruyaram,
Dərginən şehli məni.

Əzizim,göz qarası
Öz adı,öz qarası.
Şillə yeri ağarar,
Ağarmaz söz qarası.

Bu dağların daşı mən,
Zirvəsi sən,başı mən.
Köksündə bulaq ağlar,
Gözlərinin yaşı mən

Əziziyəm,qara qar
Ağappaq buz,qara qar.
Düzə yağsan ərirsən,
Köksümə yağ.qar a qar

Muğamın mayəsi mən,
Zili sən,sayəsi mən.
Tale imtahan edər,
Amalı,qayəsi mən.

Dumanda sən,çəndə mən.
Qoy gizlənim səndə mən.
Ilahinin gözündə,
Ən sevimli bəndə mən.

Sevinc Arzulu

**Bayatılarsine-sine**

Divarı nəm apardı,
Kədəri qəm apardı.
Sorma, hanı ürəyim,
Taleyi kəm apardı.

Tar-kaman kimə düşdü,
Gözlərim simə düşdü.
Səninlə görüşməyim,
Yaman tilsimə düşdü.

Dağlarda kəklik olar,
Qayada bərklik olar.
Əzizim, qəlbi sıxan,
Tənhalıq, təklik olar.

Dağların sinəsinə,
Gül əkdim sinəsinə.
Mən kədərdən qaçırdım,
Qəm gəldi sinə-sinə.

Gözün gülümə düşdü,
Zərif tülümə düşdü.
Sən getdin, mənsə qaldım,
Yaman zülümə düşdüm.

Kür-Araz hədər axar,
Dənizə qədər axar.
Damardan qan yerinə,
Qəm axar, kədər axar.

Ayrılıq sitəm oldu,
Həsrət qəm qitəm oldu.
Hamıyçun şirin olan,
Mənə acı təm oldu.

Sevinc Arzulu

**Beheri gördüm**

Sevda yollarında çapdım atımı,
Gözlərdə kədəri,qəhəri gördüm.
Ilxının içində tapdım atımı,
Yanında madyanı,kəhəri gördüm.

Nədən kəsir yollarımı duman,çən
Indidən düşübdür saçlarıma dən.
Qara gözlərinin işığında mən,
Nur saçan günəşli səhəri gördüm.

Sevinc nəğmə deyər vüsal çağında,
Açılmaz qüdrət var Baba dağında.
Elə sevindim ki Vətən bağında,
Yığmaqla bitməyən bəhəri gördüm.

Sevinc Arzulu

**Belalı sevgim**

SEVGİM

Baxışı  qarı oyub,
Naxışın xarı soyub.
Menim tə k yarı qoyub,
Sevdin melalı, sevgim.

Derini de soydular
Gören gözün oydular
Sonda tenha qoydular,
Başı belalı sevgim.

Qem günüm gelmə z saya,
Derdimi külek yaya.
Bir bax gözel Humaya
Hanı Celalı, sevgim.

Sevinc Arzulu

**Bele yaşadım**

BELƏ YAŞADIM.

Bu dünya sert biçimde,
Köynə yi derd biçimde.
Oturar ” merd” içimde,
Tek özüme oxşadım,
Ben de bele yaşadım

Feleyin işi bele,
Dövri-gerdişi bele.
Sevmez her kişi bele,
Sevincle qem qoşadı,
Ben de bele yaşadıım.

Bir ulduz qefil söne,
O dem de yere ener.
Xoş günler geri döne,
Hey ağlamaq boşadır.
Ben de bele yaşadım

Sevinc Arzulu

**Bele yaxşıdır**

Uzatsam ellerim çatarmı sene,
Eğyar öz kemendin atarmı sene.
Kainat sevincin satarmı bene,
Tökülse qem-qüssem sele,yaxşıdır.

Benim öz sevdiyim,senin öz sevdan
Dalğalar qoynunda batar eşq adan.
Istemem olasan ayrılıq dadan,
Qoşulma her fitne-fele.yaxşıdır.

De,nece gizlenim gözünden senin,
Baş açа bilmirim sözünden senin.
Xeberin varmıdır özünden senin,
Beyaz  den düşmesin tele,yaxşıdır.

Senin sevgin beni ayaz eyleyib,
Ferehim semada pervaz eyleyib.
Deme ki sevdiyin min naz eyleyib,
Ebedi qonağam ele,yaxşıdır.

Bil ki bu dünyanı tutub durmarıq,
Kederin üstünde saray qurmarıq.
Şad günde,düyünde bade vurmarıq,
Sağ ol,ay ezizim,bele yaxşıdır.

Sevinc Arzulu

**Bele, ezizim**

Dərd gözümün qarasına ağ salar,
Qəm köksümün ortasında bağ salar.
Vüsalla qovğada hicran sağ qalar,
Qanamaz bir dişi belə, əzizim.

Zaman-zaman yaralarım qövr edər,
Fələk yenə mənə zülüm, cövr edər.
Səma başım üstündə hey dövr edər,
Bu dünyanın işi belə, əzizim.

Ağ yalandan ötrü yaman əsirlər,
Həqiqətin dilini də kəsirlər.
Yerlərini dəyişibdir fəsillər,
Yazı elə, qışı belə, əzizim.

Könlüm həsrətinə çətin dayanar,
Gündüz də qapqara rəngə boyanar.
Içimdəki od püskürər, oyanar.
Qayaların daşı belə, əzizim.

Azca tök üstümə köz yaşlarını,
Gur selə döndərmə söz yaşlarını.
Dillənsəm, tutammaz göz yaşlarını,
Ağlar qalar naşı belə, əzizim.

Sevinc Arzulu

**Belke  menim**

Bal neğmesin eşidirim,
Xoş nefesin eşidirim.
Addım sesin eşidirim,
Kölge senin,kölge benim.

Arazlaşıb Kürleşek biz,
Iti axıb gurlaşaq biz.
Rayon-rayon birleşek biz,
Bölge senin,bölge benim.

Yerli kibin,gelme kibin,
Qelb sındıran kelme kibin.
Göyden düşen alma kibi,
Belke senin,belke benim

Sevinc Arzulu

**Ben senin olacam...**

Demek sen haqlısan qorxularında,
Heyatın kederli qoxularında.
Tekce çin çıxmayan yuxularında,
Ben senin olacam,senin olacam.

Kainat fırlanır aram ve asta,
Felek öz işini görür de usta.
Dalımca danışan bivefa dosta,
Ben qenim olacam,qenim olacam.

Qocalıb ahıllıq yaşına dolsan,
Hesretin zehminden saralıb solsan,
Bir gün dağ başında ağ zirve olsan,
Ben çenin olacam,çenin olacam.

Sevinc Arzulu

**Ben qorxağam**

Seni sensizliyin elinden almaq istemek-igidlikdir.
Seni senzizliyin elinden almaq-qehremanlıqdır.
Seni sensizliyin elinde qoymaq-qorxaqlıqdır.
Ben qorxağam.

Sevinc Arzulu

**Bende düşdüm**

Zorluğundan mən qaçmadım,
Qara enerji saçmadım.
Qanununda baş açmadım,
Şəhərliydim,kəndə düşdüm.

Dönmə hicran lələsinə,
Qəm bağının vələsinə.
Düşdüyün eşq tələsinə,
Bilməyərək mən də düşdüm.

Özümə gəlmirəm hələ,
Qəlbimdə tufan,zəlzələ.
Kədər-qəm verdi əl-ələ,
Bənövşədək bəndə düşdüm.

Sevinc Arzulu

**Beni bir de sevesen**

Su çekildi,gen düzleri mar aldı,
Seni benden o zalımca xar aldı.
Gümüş telin birden-bire qaraldı,
Evvelkitek yene saçı şevesen,
Inanmıram beni bir de sevesen.

Baxışların tilsimledi özümü,
Gülüşlerin yox eyledi dözümü.
Güneş nurun kor eylese gözümü,
Çetin beni ötüresen eve sen.
Inanmıram beni bir de sevesen.

Qem dumanı yer üzünü bürüyer,
Körpe hesret ayaq açıb yeriyer.
Darıxıban qayıtsam da geriye,
Eh.düşsem de gülüm,köhne hevese
Inanmıram beni bir de sevesen.

Sevinc Arzulu

**Beni sensiz..**

Bizim eller merd erenler mekanı,
Namerd ile oynamazlar çövkanı.
Bağlanmaz ki şeir-senet dükanı,
Yatma,qeflet yuxusundan oyan,yar.
Beni sensiz,seni mensiz qoyan var.

Isti,ilıq tebessümden islandım,
Benövşenin libasından süslendim.
Reqib ile aranızda sislendim,
Ay yaramın qaysağını soyan yar,
Beni sensiz,seni bensiz qoyan var.

Penceremin naxışına göz vurdu,
Veslin hesret baxışına söz vurdu.
Ayrılığın qarğışına dözmürüdün,
Xoş gününün ferehinden doyan yar,
Beni sensiz,seni bensiz qoyan var.

Sevinc Arzulu

**Benim şair tebietim**

Külek ile sovunmayır,
Yağış ile ovunmayır.
Çoxdandır ki sevinmeyir,
Benim şair tebietim.

Can alan xal üzde kalsın,
Ceyran,cüyür düzde kalsın.
Istemezdim yüzde kalsın,
Benim şair tebietim.

Düşmeninden öc alandır,
Mehebbetden güc alandır.
Dünya tekin qocamandır,
Benim şair tebietim.

Özüne dost arayandır,
Dar gününde yarayandır.
Yaraları sarıyandır,
Benim şair tebietim.

Bahar kimi teze-terdi,
Toz içinde bir gövherdi.
Eh,çoxunun çekir derdin,
Benim şair tebietim.

Sevinc Arzulu

**Benimle gedersenmi**

Söyle,neçün ağlayırsan için-için,
Bensizlikden?
Bilmek isteyirim.
Göz yaşlarını silmek isteyirim,
Titreyen ellerim qalxmır.
“Ah” çekirim.
Kelbimin herareti ile
quruduram göz yaşlarını.
Seni qaçırtmaq isteyirim
ben olan uzaq yerlere,
Gel tutaq el-ele,
qalxaq uca göylere.
Benimle gedersenmi?

Sevinc Arzulu

**Benövşe tek**

Allah br də gün verərmi,
Qüssə yağar boş yerəmi.
Çalınar "Yanıq Kərəmi",
Kədərimə oynayaram.

Xatirələr qalaq-qalaq,
Üstün örtməz tikan,alaq.
Qəlbim sanki soyuq bulaq,
İçimdəncə qaynayaram.

Qəm içində niyə itək,
Dərd bağında nədən bitək.
Boynuburuq bənövşə tək,
Kol dibindən boylanaram.

Sevinc Arzulu

**Benövşe xal**

Bele derdi hara yazaq,
Aramızda esdi sazaq.
Hesret, hicran durmur uzaq,
Vüsalın bal dodağından.

Zirveni tepe bilerem,
Dalğanı lepe bilərem.
Men nece öpe bilerem,
Güneşin al dodağından.

Öten günleri anıram,
Geri dönecek sanıram.
Men adam içre tanıram
Bənövşe xal dodağıında.
24.02.2018

Sevinc Arzulu

**Benövşeni**

Heyat davam edir,azalmır gücüm,
Düşmenden gec ya tez alınar öcüm.
Here bir terefden eyleyir hücum,
Deyesen görübler tek benövşeni.

Qalxdığı zirveden xar düşürtmesin,
Gileyin-güzarın yar eşitmesin.
Şaxta dondurmasın,qar üşütmesin,
Sinemin üstünde ek benövşeni.

Yene de zemane oynunu qurub,
Dolu tebietin qoynunu vurub.
Durub yol üstünde boynunu burub,
Şair,olduğu tek çek benövşeni.

Sevinc Arzulu

**Bensizlikle barışan**

Meclisimde qohum-qardaş oturub,
Var içinde birce sirdaş,oturub.
Xatiren de qurub bardaş,oturub
Gözleri kederli,halı perişan.

Qem-qüsseden saçlarında den artsa,
Heyatında çiskin artsa,çen artsa.
"Siz"sözünü leğv edeler,"sen"artsa,
Olarsanmı qismetiyle yarışan.

Muğamatla açılacaq seherin,
Dil-dodağın yandıracaq qeherin.
Ölmeye bes edecekmi zeherin,
Bensizlikle  benden evvel barışan.

Sevinc Arzulu

**Berbadam**

Istəsəm ürəkdən güləmmirəm ki,
Sevdanın dərdini biləmmirəm ki,
Çoxdandır özümə gələmmirəm ki,
Neynəyim,mən indi halı bərbadam.
Yarası qanamış,xalı bərbadam.

Varlığa dönəcək bir zaman heçim,
Dostumu tanıyım,düşməni seçim.
Coşub-daşan Kürü mən necə keçim,
Gəmisi dağılmış,salı bərbadam.
Bəyazı qaralmış,alı bərbadam.

Dedim ki,bəxtimi oxu,qaraçı.
O şirin sözlərdən toxu,qaraçı.
Deyəsən bəd gəlir çoxu,qaraçı.
Heç zaman düz çıxmaz falı,bərbadam.
Dəymişi yarımçıq,kalı bərbadam.

Sevinc Arzulu

**Beri**

Hayana gedər igid.
Dayana gedən igid.
O yana gedən igid,
Ay geri dön,ay bəri.

Adam insan olubdur,
Işi asan olubdur.
Yenə leysan olubdur,
Daşıb gəlir çay bəri.

Dağlar sis,çənə qalsın.
Tellər ağ dənə qalsın.
Axçalar sənə qalsın,
Altunları say bəri.

Sevinc Arzulu

**Beri-beri**

Alqışımı suya dedim,
Fərəhimi duya dedim.
Səhər-axşam dua edim,
Gəzsin düzü bəri-bəri.

Necə çəkir yol gözlərim,
Qanadlansın xoş sözlərim.
Istəyirəm əzizlərim,
Keçsin yüzü bəri-bəri.

Qaranlığı keçə gündüz,
Yaxşı-pisi seçə gündüz.
Gülümsəyir neçə gündür,
Göylər üzü bəri-bəri.

Sevinc Arzulu

**Bes  deyilmi**

Qem oynadar göz-qaşını,
Yığammaram söz daşımı.
Az iç benim göz yaşımı.,
Felek,sene bes deyilmi.

Qar altında qalıb talan,
Bağlanıbdır dönge-dalan
Yol üstünde donub qalan,
O sevdiyin kes deyilmi.

Qara fikir künde geder,
Ümidlerim günde geder.
Her vaxt benden önde geden.
Bir sehirli ses deyilmi.

Sevinc Arzulu

**Bextiyar kimi**

KIMI

Azıbdır yolunu məhəbbət köçün,
Soruşma harada, soruşma neyçün.
Sənin ki həsrətdə yoxdur bir suçun,
Dayanma önündə günahkar kimi.
Əsmə başım üstdə ruzigar kimi .

Gül açar nə vaxtsa kol, gözləyərəm.
Qayıt, əvvəlki tək ol,gözləyərəm.
Hələ də kədərlə yol gözləyərəm.
Bu nakam sevdanın sonu var kimi.
Qəm yağar başıma qara qar kimi.

Taleyin gərdişi pozularmı de,
Röyalar tərsinə yozularmı de,
Sənsiz mənə xoş bəxt yazılarmı de,
Fələk də naləmi duymaz kar kimi.
Həsrət göz önündə bitər xar kimi.

Sevərək sevilmək  sən demə günah,
Görüşə ümid var ,Allaha pənah.
Əzizim,ürəkdən heç çəkmə sən ah,
Adın ürəyimdə sadiq yar kimi.
Yaşaram həyatda bəxtiyar kimi.

İndi aramızı kəsib uçurum.
Qəm quşun yuvadan tezcə uçurum.
Gözünü gözümə necə köçürüm,
Hicran aramızda daş divar kimi.
Möhnət qəlbdə yaşar lal qübar kimi.

Sevinc Arzulu

**Bextiyarım. qayıt gel**

Sənsiz yada dönüb qohum,tanış,dosr
Gedib əldən ixtiyarım,qayıt gəl.
Daim sağlığına mən deyirəm tost,
Qəhrəmanım,igir yarım,qayıt gəl.

Üstümüzü duman aldı,çən aldı.
Zalım fələk bizləri ayrı saldı.
Səndən mənə telə düşən dən qaldı,
Səadətim,bəxtiyarım,qayıt gəl.

Sən gedəli şaxta vurmuş gülümü,
Parlatmayır günəş zərif tülümü.
Itirmişəm aşiqi-bülbülümü,
Virandər abad diyarım,qayıt gəl.

Mənsiz qızılgülün ətrin qoxlama,
Yaralı qəlbimi bir də oxlama.
Hicranınla saf eşqimi yoxlama,
Sevgindir mənim me`yarım,qayıt gəl.

Gedişinlə aldı məni qüssə,qəm
Yarımçıq kəsildi oxunan nəğməm.
Daha mən əvvəlki Sevinc deyiləm,
Azalıb qızıl əyarım,qayıt gəl.

Sevinc Arzulu

**Bezek, ezizim**

Sevdim eşq sələfini,
Dost bildim xələfini.
Həsrətin kələfini,
Gərək çözək, əzizim.

Həsrətəm alqışına,
Düşürəm qarğışına.
Dünyanın qar-qışına,
Gərək dözək, əzizim.

Uzaq qəm alanından,
Kədərə qalanından.
Hicranın yalanından,
Gərək bezək,əzizim.
20.07.2018.

Sevinc Arzulu

**Bigane baxışlar**

..

Tutub üreyimn şah damarından,
Qaranlıq heyata qedem qoymuşam.
Bezdim ayrılığın etibarından,
Hesretin elinden cana doymuşam.

Daha yuxularım çəkilib göye,
Gecem gündüz ile qarışıq düşüb.
Qızılgül könlümü vurubdur deye,
Xetrime xırdaca sarmaşıq düşüb.

Getdin gedişinin ayaq izləri,
Könlünden könlüme cığır salmadı.
Qoymadın berkisin veslin dizləri,
Ayağa durmağa heyi olmadı.

Bigane baxışlar üşütdü onu,
Gözünde damlacıq yaşı görmedin?
Yaralı üreyim eşitdi onu,
Başının üstünde daşı görmedi?

Sıyrılıb doğrunun eteklerinden,
Yalana bürünmek de ne demekdir.
Bezmedin hicranın köteklerinden,
Dalınca sürünmek vecsiz emekdir.
11.11.2017

Sevinc Arzulu

**Bile-bile**

Yaşaram üsyan içində,
Islandım leysan içində.
Bu qədər insan içində.
Tənha-təkdim bilə-bilə.

Gündüzün bəyaz ağında,
Gecənin zülmət çağında.
Həsrətin kədər bağında,
Mən gül əkdim bilə-bilə.

İnsan ölməz toxluğundan,
Ölər dərdin çoxluğundan.
Gülüm, sənin yoxluğundan,
Nələr çəkdim bilə-bilə.
Göz yaşlarım gilə-gilə.

Sevinc Arzulu

**Bilecem,vallah**

Azalmır dünyanın hiylə-kələyi,
Yenə də səmadan dərd-qəm ələyir.
Qapımı döyəndə ölüm mələyi,
Əcəlin özünə güləcəm, vallah.

Dönəcəm vüsalın tək pənahına,
Batacam dünyanın eşq günahına.
Üz tutub görünməz səcdəgahına,
Dərdimi Tanrıyla böləcəm, vallah.

Məhəbbət yad deyil adi şaha da,
Aşiqlər baş əyməz padişaha da.
Azalmır ağrısı, artır daha da,
Öləndə başımdan öləcəm, vallah.

Vüsalın evini həsrət yıxmayır?!
Üz-üzə gələndə əlin sıxmayır.
Demə ki, sevgidən başım çıxmayır,
O qəmli gözünü siləcəm, vallah.

Eşqini qəlbimdə uyutmayacam,
Ağ vüsal quşunu uçurtmayacam.
Mən səni heç zaman unutmayacam,
Qədrini əbədi biləcəm, vallah.

Sevinc Arzulu

**Bilenim, qayıt**

Mən bülbüləm bir qızılgül kolunda,
Babəklərin qüdrəti var qolunda.
Razı olma sənin eşqin yolunda,
Bir dilənçi kimi dilənim, qayıt.

Hicranından uzaq qaçası olsam,
Ürəyimi sənə açası olsam.
Bir gün ruhum göyə uçası olsa,
Ağappaq qar olub ələnim,qayıt.

Sənsən mənim həm sözüm,həm söhbətim.
Eşqlə dolu bir piyalə şərbətim.
Qayıt geri,ay mənim məhəbbətim,
Ürəkdən dərd-qəmi silənim,qayıt.

Qartal kimi səmalarda ucalar,
Düşmənindən qorxmaz heç vaxt,öc alar.
Atəşin sevgimdən qüvvət,güc alar,
Fərhad tək dağları dələnim,qayıt.

Qurban olum gözlərinin məstinə,
Çox sevirəm,heç dəymərəm şəstinə.
Zalım fələk dura bilməz qəsdimə,
Ölümün özünə gülənim.qayıt.

Yalan sözə,boş söhbətə uymaz o,
Qəm-qüssəni,dərd-möhnəti qıymaz o.
Bu dünyada məni təkcə qoymaz o,
Qədrimi hər zaman bilənim,qayıt.

Buludların altı nədir,üstü nə,
Eşqdən yansan,mən də yannam tüstünə.
Sevinc deyər atəşinin üstünə,
Yağış kimi yenə çilənim,qayıt.

Sevinc Arzulu

**Bilerem**

Ölürsən cəhənnnəm, öl söyləyirsən.
Günlərin birində ölə bilərəm.
Heç başa düşmürsən sən nə deyirsən,
Anamın taleyin bölə bilərəm.

Məni başa düşmür nə dost, nə yaxın,
Fikirlər beynimdə hey axın-axın.
Nə olar, üzümə diqqətlə baxın,
Gözümün yaşını silə bilərəm.

Alıbdır əlimdən fələk anamı,
Saçları gümüşü mələk anamı.
Bir anda apardı külək anamı,
Çətin ki bu dərdi gilə bilərəm.

Apacı duyğudan içim islanır,
Sanki dəmirdənəm, könlüm paslanır.
Atamsız şad gündə qəlbim yaslanır,
Dəqiqə zamanı ilə bilərəm.

Bu qədər əzabçun doğulmuşam mən,
Hisslərin içində boğulmuşam mən.
Nə vaxtsa şəkərli noğulmuşam mən,
Dərdimi gətirrəm dilə, bilərəm.
08.02.2015

Sevinc Arzulu

**Bilirsinmi**

Mən əvvəldən çərx-fələkdən dərd-bəlayçun iznliyəm,
Bilirsənmi,ay sevgilim,nədən belə hüznlüyəm.
Ayrılığın önündəcə vüqarlıyam,əzmliyəm
Nə sındırar,nə dondurar avareyi-gəda məni.

Bu gün ayın on üçüdür,bütün işim nəsə düşüb,
Əzraili gətirən yol bu dəfə də kəsə düşüb.
Aman Allah,qulaqlarım nədən yenə səsə düşüb,
Çağıraraq haraylayır bir nisgilli səda məni.

Vüsal gülün vəsf etməklə dünya üzrə birinciyəm,
Indi təkcə ayrılığın,lal həsrətin girinciyəm.
Məni sayıb-seçməsən də dostlarımın sevinciyəm,
Qocalsam da tərk eyləməz nə naz,nə də əda məni.

Vətənimin göylərini indi qara bulud almış,
Neçə-neçə kənd,qəsəbə Dəli Kürün altda qalmış.
Sel-suları qara yolun yenə bizim eldən salmış,
De,haraya sürükləyir tükənməyən qada məni.

Son zamanlar qəmlənirəm,göynəyirəm göyüm-göyüm,
Kədərimin tüstüsündən qaraya bürünüb göyüm.
Əlimdən almayın mənim Ana Yeri,Ata Göyü,
Insafınız olsun barı, satmayın siz yada məni.

Sevinc Arzulu

**Bilirsinmi qezel**

Mən əvvəldən çərx-fələkdən dərd-bəlayçun iznliyəm,
Bilirsənmi,ay sevgilim,nədən belə hüznlüyəm.
Ayrılığın önündəcə vüqarlıyam,əzmliyəm
Nə sındırar,nə dondurar avareyi-gəda məni.

Bu gün ayın on üçüdür,bütün işim nəsə düşüb,
Əzraili gətirən yol bu dəfə də kəsə düşüb.
Aman Allah,qulaqlarım nədən yenə səsə düşüb,
Çağıraraq haraylayır bir nisgilli səda məni.

Vüsal gülün vəsf etməklə dünya üzrə birinciyəm,
Indi təkcə ayrılığın,lal həsrətin girinciyəm.
Məni sayıb-seçməsən də dostlarımın sevinciyəm,
Qocalsam da tərk eyləməz nə naz,nə də əda məni.

Vətənimin göylərini indi qara bulud almış,
Neçə-neçə kənd,qəsəbə Dəli Kürün altda qalmış.
Sel-suları qara yolun yenə bizim eldən salmış,
De,haraya sürükləyir tükənməyən qada məni.

Son zamanlar qəmlənirəm,göynəyirəm göyüm-göyüm,
Kədərimin tüstüsündən qaraya bürünüb göyüm.
Əlimdən almayın mənim Ana Yeri,Ata Göyü,
Insafınız olsun barı, satmayın siz yada məni.

Sevinc Arzulu

**Bilmerem sene**

Dünyanı kədərin alqışı tutmaz.
Vaxtından  tez yağan qar qışı tutmaz,
Deyirlər ananın qarğışı tutmaz,
Heç qarğış edə də bilmərəm sənə.

Atəşin ocaqdım, sönüb qalmışam,
Bax, bumbuz heykələ dönüb qalmışam.
Onsuz da qüssədən donub qalmışam,
Şaxtada  gedə də bilmərəm sənə.

Sevinc bir, kədərsə min bölük olar,
Son sözü söyləyən bir böyük olar.
Bilirəm, çiyninə ağır yük olar,
Haqqımı ödədə bilmərəm sənə.

Sevinc Arzulu

**Bilmerem sene**

Dünyanı kədərin alqışı tutmaz.
Vaxtından  tez yağan qar qışı tutmaz,
Deyirlər ananın qarğışı tutmaz,
Heç qarğış edə də bilmərəm sənə.

Atəşin ocaqdım, sönüb qalmışam,
Bax, bumbuz heykələ dönüb qalmışam.
Onsuz da qüssədən donub qalmışam,
Şaxtada  gedə də bilmərəm sənə.

Sevinc bir, kədərsə min bölük olar,
Son sözü söyləyən bir böyük olar.
Bilirəm, çiyninə ağır yük olar,
Haqqımı ödədə bilmərəm sənə.

Sevinc Arzulu

**Bilmeyirim ki..**

Ben sene bir mektub ermeğan etdim,
Alıb-almamısan,bilmeyirim ki.
Günbatan diyarı gündoğan etdim,
Qalıb-qalmamısan,bilmeyirim ki.

Gizledir hamıdan çen ha,könlümü,
Axtarıb ararsan sen ha könlümü.
Şair tebietli tenha könlümü,
Çalıb-çalmamısan,bilmeyirim ki.

Gören çatarammı şirin vüsala,
Beni Leyli edib Mecnun az qala.
Biqerar olduğum mavi xeyala,
Dalıb-dalmamısan,bilmeyirim ki.

Sevinc Arzulu

**Bilmirim**

Sən mənim ulduzlu kəhkəşanımsan,
Həmişə əhvalı pərişanımsan.
Eşq1imdən yadigar bir nişanımsan,
Bəs niyə üzünü bürüyübdür qəm,
Hamıya deyirsən,tək mən bilmirəm.

Sənsən gözlərimin nuru,işığı
Məclislər bəzəyi,toy yaraşığı.
Lal həsrətim dilləndirər aşığı.
Niyə qəmlənirsən məni görən dəm,
Hamıya deyirsən,tək mən bilmirəm.

Ürəyim sıxılır duman ilanda,
Gözünü əbədi yuman olanda.
Sevincdən məhəbbət uman olanda.
Deyirəm,alagöz insana bəndəm,
Hamıya deyirəm,sənə demirəm.

Sevinc Arzulu

**Bilmirim geceler qezel**

Əzizim,günəş tək çıx,aləmi min rəngə boya,
Can alan gözlərindən sevən aşiq çətin doya.
Xəyala qərq oluram, uzaqlaşır məndən röya,
Sayıram ulduzları,yata bilmirəm gecələr.

Sənsiz nə səhər açmaz,nə də dan yeri sökülməz,
Nə narın yağış yağmaz,nə səmadan qar tökülməz.
Göz önündən,gözəlim,rəsmi-surətin çəkilməz,
Bir anlıq vüsalına çata bilmirəm gecələr.

Kədərdən,qəm-möhnətdən daima uzaq qaçılar,
Səni görsəm qəlbimə parlaq işıq,nur saçılar.
Istərəm ki zülmətin rəngi bir azca açıla,
Qaraya bəyaz rəngi qata bilmirəm gecələr.

Mənim könül bağıma sən gətirdin duman,çəni,
Özgəni yaxşı gördün,süzəmmədin təkcə məni.
Görüşməsək də çoxdan,yaddan çıxartmıram səni,
Surətin göz önündən ata bilmirəm,gecələr.

Sevinc,doğma vətənin sevib-sevənlər ölkəsi,
Sənə bəsdir sevdiyin aşiqi-yarın kölgəsi.
Qovuşur sevdiyinə,nakam qalmır bir özgəsi,
Mən vüsal dəryasında bata bilmirəm gecələr.

Sevinc Arzulu

**Bin bendini ben**

Ağrılı başımı tüstüne qoyub,
Gözümün yaşını büstüne qoyub,
Xatire daşını üstüne qoyub.
Ucaldım mehebbet mebedini ben.

Zamanın bahalı müşkü ağılmış,
Vüsalın sıcacıq köşkü dağılmış.
Deme.Leyli-Mecnun eşqi nağılmış,
Evvelin sen söyle,mabedini ben.

Qarşımdan keçirdi ele indice,
Hesret göz önünden  gör itdi  nece.
Şeir- ümid ile, eh,bitdi gece,
Birce bendin sen yaz,bin bendini ben.

Sevinc Arzulu

**Bir de sevesen**

Su çekildi,gen düzleri mar aldı,
Seni benden o zalımca xar aldı.
Gümüş telin birden-bire qaraldı,
Evvelkitek yene saçı şevesen,
Inanmıram beni bir de sevesen.

Baxışların tilsimledi özümü,
Gülüşlerin yox eyledi dözümü.
Güneş nurun kor eylese gözümü,
Çetin beni ötüresen eve sen.
Inanmıram beni bir de sevesen.

Qem dumanı yer üzünü bürüyer,
Körpe hesret ayaq açıb yeriyer.
Darıxıban qayıtsam da geriye,
Eh.düşsem de gülüm,köhne hevese
Inanmıram beni bir de sevesen.

Sevinc Arzulu

**Bir  tumurcuq...**

Ol söyüdün içinde,
Lal öyüdün içinde,
Al ümidin içinde
Bir tumurcuq beslenir.

Kederin qem sarayı,
Derd işine yarayır.
Ayrılığın harayı,
Qulağımda seslenir.

Ay bu yolu ters geden,
Ruhsuz qalıbdı beden.
Felek qarğıyıb neden
Arzularım neslenir.

Sevinc Arzulu

**Bir anlığa**

Kəfənin ölçüsü gəlib,
Ağının dilçisi gəlib.
Ölümün elçisi gəlib,
Gedim üzü qaranlığa.

Sona yetibdir zamanım,
Qan ağlayır tar-kamanım.
Qalmayıbdır heç amanım,
Yolum düşər toranlığa.

Acı  sözlər qəlbə oxdur,
Bilirəm,dostlarım çoxdur.
Məni siz tək sevən yoxdur,
Xatırlayın bir anlığa.
18.01.2018.

Sevinc Arzulu

**Bir az olar**

Könlümü tək sənə e`tibar etsəm,
Qəlbən sevdiyimçün iftixar etsəm.
Olmasan,dərdindən intihar etsəm,
Fələyə ən böyük e`tiraz olar.

Ayrılıq mənimçün acıdan acı,
Bir daha parlamaz gözəllik tacı.
Qəlbində yurd salar sevginin gücü,
Gözündə kədərli ehtiras olar.

Bir kimsə duyarmı dərdi sonsuzu,
Sanırdım əriyər ayrılıq buzu.
Həsrətin həyatı uzundan uzun,
Vüsalın ömrüsə,eh.bir az olar.

Sevinc Arzulu

**Bir azacık**

Ümidimi kül eyleme,
Söz önünü tül eyleme.
Gel bu qeder zülm eyleme,
Rehmin gelsin bir azacıq.

Bir göreydin kaş qabağı,
Duman geler yaş qabağı.
Tökme bele qaşqabağı,
Üzün gülsün bir azacıq.

Beyaz  libas geydimi,
Derdə könül verdiyimi,
Seni nece sevdiyimi,
Gözün görsün bir azacıq.

Sevinc Arzulu

**Bir azacıq**

Ümidimi kül eyləmə,
Söz önünü tül eyləmə.
Gəl bu qədər zülm eyləmə,
Rəhmin gəlsin bir azacıq.

Bir görəydin kaş qabağı,
Duman gələr yaş qabağı.
Tökmə belə qaşqabağı,
Üzün gülsün bir azacıq.

Bəyaz  libas geydimi,
Dərdə könül verdiyimi,
Səni necə sevdiyimi,
Gözün görsün bir azacıq.
02.11.2013

Sevinc Arzulu

**Bir de Ay**

O nədir ki gecə-gündüz yatmayar,
Rəvayət çox,heç ağıla batmayar.
Bu dünyada insan əli çatmayan,
Bir Günəşdir,bir ulduzdur,bir də Ay.

Bəlkə daha nurlu imiş öncələr,
Bilirsənmi harda yatıb dincələr.
Həmdəmimdir ol qaranlıq gecələr,
Gah aypara,gah da olar girdə Ay.

Al günəşdən qara işıq saçılmaz,
Nə taledən.nə qismətdən qaçılmaz.
Neçə-neçə əsr keçsə açılmaz,
Gizlənibdir bulud kimi sirrdə Ay.

Sevinc Arzulu

**Bir deli ağlamaq**

Dilə gəl,söylə bir hardasan Alı,
Bir dəli ağlamaq keçir könlümdən.
Daha uzaqlara uçmur xəyalım,
Bir dəli ağlamaq keçir könlümdən.

Məzarlığın şimalı nə,qərbi nə
Doğması nə ,yaxını nə,qəribi nə.
Üz sürtübən şəhidlərin qəbrinə,
Bir dəli ağlamaq keçir könlümdən.

Gözümdə kiçilib sanki bu ölkə,
Həsrət edib məni görünməz kölgə.
Dolan ürəyimi boşaldım bəlkə,
Bir dəli ağlamaq keçir könlümdən.

Rekviyem oxunsun qoy həzin-həzin,
Şe`rini söyləsin doğman,əzizin.
Gəlib hüzuruna mən dizin-dizin,
Bir dəli ağlamaq keçir könlümdən.

Bu dünya riyadı,yalandı Sevinc,
Əzizlərin əldən alandı,Sevinc.
Təkcə şeirlərin qalandı,Sevinc,
Bir dəli ağlamaq keçir könlümdən.

Sevinc Arzulu

**Bir deste gül...**

Bu gün sevgililer günü,
Çıxmaz sevdiyinin ünü.
Unut daha toy-düyünü,
Tanrı qismetine yazar.
Bir deste gül, qerib mezar.

Baş daşına al lent bağla,
Deniz kibi coşub-çağla.
Nale çekme, hönkür ağla
Eyle bextden giley-güzar,
Bir deste gül, qerib mezar.

Könül qeme sürgün olar,
Xatireler mürgün olar.
Çetin onsuz bir gün ola,
Etmeyesen sen ahu-zar,
Bir deste gül, qerib mezar.

Sevinc Arzulu

**Bir eşqin yolunda.**

Röyada verdiyin o şirin buse,
Donub dodağımda bal kimi, gülüm.
Qelbimde çekdiyim keder, qem-qüsse,
Qonub yanağıma xal kimi, gülüm.

Bu eşqin yolunda fedekaram men,
Kederli neğmeye bestekaram men.
Çekdiyin ezaba günahkaram men,
Durmuşam önünde lal kimi, gülüm.

Men oldum sevdanın qulu, kenizi,
Könlümde qalıbdır ayrılıq izi.
Alıbdır qoynuna keder denizi,
Dalğalar oynadır sal kimi, gülüm.

Sevinc Arzulu

**Bir gün**

Yarın bivefasa,unut onu da,
Tanrının işığı ümid olub da.
Kederden qaralan bulud olub da,
Gözümün yaşını tökecem bir gün.

Tutaraq bir nakam eşqin yasını,
Xeyalım gezir hey göyler asını.
Feleyin tikdiyi toy libasını,
Dişim-dırnağımla sökecem bir gün.

Gedirim,bu yolun sonu var kimi,
Hesret el çekmeyir sadiq yar kimi.
Qüsseden çürüyen xan çinar kimi,
Ele ayaq üstde çökecem bir gün.

Sevinc Arzulu

**Bir gün  eşqimi**

EŞQİMİ

Servet hezin-hezin laylanı çaldı,
Fikrini-zikrini ağlından aldı.
Bene ayrılığın ağ gülü qaldı,
Gör nece yatırtdı mürgün eşqimi.

Istidir, azacıq nesim çatmayır.
Vüsalın  sesine sesim çatmayır,
Allahım, sevdiyim kesim çatmayır.
De,  nece qaytarım sürgün eşqimi.

Yalançı ilqara, ehde  uymayın,
Doğrunu özgeden, yaddan duymayın.
Hemişecavandır, ona qıymayın,
Benimle defn edin bir gün eşqimi.

Sevinc Arzulu

**Bir Kerem**

Həsrət, hicran əhatəsin genişlər,
Əbədidir bu gəlişlər,gedişlər.
Məhv olubdur çoxdan zalım keşişlər,
Bu dünyada qalan Əsli, bir Kərəm.

Payız gələr, külək başlar oyunun,
Görəcəksən ağaclar da soyunub.
Cəmi-cümü vardır üçcə qoyunum,
Bir əbrəşim, bircə kürəm, bir kərəm.

Zaman gələr azad olar torpağım,
Düşmənimə qalmaz ol Qarabağım.
Ucalıqda dalğalanar bayrağım,
Zirvədədir, daha enməz bir kərəm.

Sevinc Arzulu

**Bir medalın iki üzü**

Bir misranın cüt sözüydük,
Sevinərdi qoşa görən.
Bir medalın cüt üzüydük.
Birində sən, birində mən,

Küsüb getdin, tənha qaldım,
Açdım hicran sərgisini.
Qayıtmadın, mən ha çaldım,
Eşqin vüsal şərqisini.

Arazlaşıb Kürləşərdik,
Axardıq Xəzərə sarı.
Bir medalda birləşərdik,
Unutmazdın bunu barı.

Bu tənhalıq yaman ağır,
Çəkəmmirəm  yükünü mən.
Göydən yerə qüssə yağır,
Sarı saça tez düşdü dən.

Getdin, yerin bomboş qaldı,
Medal da qiymətdən düşdü.
Yaşıl çəmən bomboz qaldı,
Xatirələr qəlb üşütdü.

Sevinc Arzulu

**Bir misra yağış**

Qüssəli havanın hökm etdiyindən,
Başımız üstündə cərəyan deyir.
Həsrətin görüşə tək getdiyindən
Əyninə qapqara tül libas geyir.

Içimdə kükrəyən  yorğun dalğalar ,
Sel-sular axıdır göz bulağımdan.
Başımda fırlanan vaxtsız qovğalar,
Misralar axıdır söz bulağından.

Yudu nur simanı bir misra yağış,
Bir bənd meh ağlımı aldı, apardı.
Dünyanı bəzədi bir sətir alğış,
Bircə şeir qəlbimdə tufan qopardı.
29.08.2018

Sevinc Arzulu

**Bir ömür de**

Uzaqdasan göylər kimi,
Səsim yetməz,ünüm çatmaz.
Bilirsənmi,sənsiz sənli
Günlərimə günüm çatmaz.

Yaşayıram qəm içində,
Hicran yaman üzür məni.
Qaranlıq aləm içindən,
Qara kədər süzür məni.

Sənsizlik çox ağır daşdır,
Sinəmdən asılıb qalıb.
Gözdən axan qanlı yaşdır,
Fərəhim basılıb qalıb.

Yə`qin heç vaxt olmayacaq,
Nə ilk görüş/,nə son görüş.
Könül xoşbəxt olmayacaq,
Qanla bitdi bu son döyüş.

Zəfər çaldı əcəl,ölüm,
Həyat nə tez məğlub oldu.
Tənha qaldı yaşıl çölüm,
Çiçək gözlər qanla doldu.
Bir ömür də belə soldu.

Sevinc Arzulu

**Bir özgesinde**

Ulu qüdrət sayılan,
Sevgi qəmdən bayılar.
Xatirələr ayılar,
Bir vüsal bölgəsində.

Al güldən xar almışam,
Qüssədən qar almışam.
Yamanca qaralmışam,
Həsrətin kölgəsində.

Qəlbdən keçən zər sapdım,
Dərd qayasın tək çapdım.
Necə rahatlıq tapdın,
Gülüm, bir özgəsində.

Sevinc Arzulu

**Bir payız günü**

Nədən qəribsədim bu payız günü,
Göz yaşı üzümdə ağ cığır açdı.
Həsrətlə gözlərdim toyu-düyünü,
Mən yaxın gəldikcə o uzaqlaşdı.

Çəkdiyim ağrını-acını duyma,
Nəyinə gərəyəm mən bundan sonra.
Oğul, yad qızının sözünə uyma,
"Dünya qara geyməz anandan sonra"

Cənazəm üstünə gələrsən bir gün,
Istəsən yalandan ağlayarsan da.
Bu fani dünyadan olaram sürgün,
Qəbrimə qaralar bağlayarsan da.

Bəlkə də el üzü yasin oxudub,
Mollaya şəstlə pul verəcəksən də.
Şaralmış güllərdən çələng toxudub,
Üstünə adımı hörəcəksən də.

Bilirsən, ananın qarğışı keçmir,
Mənim alqışımla böyüyən oğul.
Nədəndir qəlbimin qar-qışı keçmir,
Bu dünya deyilmiş şirin bir noğul.

Dünyanın əzablı ağrısı varmış,
Gərəkdir ağrıya- acıya dözüm.
Güvənlik bildiyim dağ başı qarmış,
Dolaşıq kələfi bəs necə çözüm.

Qalmışam gör neçə duyğu əlində,
Hansını özümə mehman eyləyim.
Yozulmaz qat-qarış uyğu əlindən,
Özümü hissimə qurban eyləyim.
12.12.2017

Sevinc Arzulu

**Bir qadın**

Bu qadın yerə
Çöküb ağlayır.
Gözündən yaşı
Töküb ağlayır.

Geri boylanıb
Keçmişi anır.
Dünyadan vaxtsız
Köçmüşü anır.

Ağlayır qadın,
Hey dayanmadan
Susmuş vicdanı,
Gec oyanmada.

Sevə bilmədi
Onu sevəni.
Onun sevdiyi
Sevdi özgəni.

Başqasınaca
Getdi,"yar" oldu.
Elə bildilər
Bəxtiyar oldu.

Dərdi bir idi,
Artıb min oldu.
Ürəyindəki
Nifrət, kin oldu.

Xatirələri
Öyüb öldürdü.
Məhəbbətini
Döyüb öldürdü.

Günahkardımı
Bu qatil qadın.
Haqqa kardımı,
Yaddaşı-yadı.

Qəlbində kədər
Bəsləyən qadın.
Dünyanı qəmə
Səsləyən qadın.

Nədən könlündə
Bunca iztirab?
Qəlbin acıya
Gətirərmi tab?

Çətin ürəyin
Saat tək vura.

Dayanar qəfil
Əbədi durar.

O zaman rahat
Olarsan sən də.
Ruhlar qovuşar
Şehli çəməndə.
06.02.2018

Sevinc Arzulu

**Bir qız ağlayırdı**

Çevirib üzünü dənizə sarı,
Bir qız ağlayırdı sədasız, səssiz.
Xəyanət etmişdi vəfasız yarı
.Qalmışdı dünyada tənha, kimsəsiz.

Sulara qarışır onun göz yaşı,
Dəniz əsirgəməz sığal-tumarı.
Xəzər əbədilik könül sirdaşı,
Dalğalar təmizlər dərdi-qubarı.

Nə vaxtsa unudub olub-keçəni,
Sən də fərəhlənib gülümsəyərsən.
Min dəfə yorarsan ensiz küçəni,
Təzə aşiqindən gül gözləyərsən.
11.11.2017

Sevinc Arzulu

**Bir sevda ağlayır**

Göy üzü yenə də tutulub nədən,
Dağılmır dumanım, dağılmır çənim.
Göz yaşı , nisgili qəlbi göynədən,
Bir sevda ağlayır içimdə mənim.

Göyə büləndolub amanım, ahım
Naləm olacaqmı kiməsə qənim.
Açılmaz olubdur nurlu sabahım,
Bir sevda ağlayır içimdə mənim.

Yəqin taleyimə deyilmiş qısmət,
Bir vaxt bülbül kimi bağda ötənim.
Soldurdu gül təki nakam məhəbbət,
Bir sevda ağlayır içimdə mənim.

Bir sevda ağlayır kədərli ,qəmli
Bir zaman xoş anlı, bir vaxt xoş dəmli.
Hey baxır üzümə gözləri nəmli,
Bir sevda ağlayır içimdə mənim.

Sevincin sevdası yetmədi başa,
Dəydi eşq gəmisi qayaya,daşa.
Yaşa ey məhəbbət , əbədi yaşa,
Bir sevda ağlayır içimdə mənim.

Sevinc Arzulu

**Bir Şuşa nisgili**

Gəzim qarış-qarış doğma diyarı,
Dururmu köksündə xatirəm barı?
Şuşanın telləri dağların qarı,
Yamyaşıl libası özüm seçim də.
Bir Şuşa nisgili vardır içimdə.

Qırılsın düşmənin əli-ayağı,
Əbədi məhv olsun dostu-dayağı.
Sürüm karvanımı sarban sayağı,
Min-min şəhid ruhu gedər köçümdə.
Bir Şuşa nisgili vardır içimdə.

Könlümün ən yaxın nöqtəsi Şuşam,
Dünyaya Tanrının diqtəsi Şuşam.
İlahi eşq adlı qitəsi Şuşam,
O gözəl məkandan min yol keçim də...
Bir Şuşa nisgili vardır içimdə.

Dayanıb dururam, dolub dururam,
Şaralmış gülləri yolub dururam.
Özüm də bir şəhid olub dururam,
Əsgər paltarında, hərbi biçimdə.
Bir Şuşa nisgili vardır içimdə.

Ağrısı-acısı azalıb getsin,
Qaranlıq günləri sozalıb getsin.
Çovğunlu qışını yaz alıb getsin,
İsa bulağından buz su içim də.
Bir Şuşa nisgili vardır içimdə.
27.10.2017

Sevinc Arzulu

**Bir toranlıq**

Oığılcıma köz demişdim,
Ayrılığa döz demişdim
Mən ki sənə söz demişdim,
Bir quranlıq...

Hicrin gözün oyub getdin,
Dərd çəkməkdən doyub getdin.
Geridə nə qoyub getdin,
Bir viranlıq...

Ürək səndən keçməyir  ki,
Qəm zəmisin biçməyir ki.
Gözü işıq seçməyir ki,
Bir toranlıq...

Sevinc Arzulu

**Bir udum qeher**

Ezizim, salamat ol, gedirem men
Baxıram hey ağac, kol gedirem men.
Gece qatarında yol gedirem men,
Sonuncu duraqda  açacaq seher.

Kederli şeklime baxıb çekme ah,
Hemişe xoş güne açılsın sabah.
Düşerem qatardan hamıdan qabaq,
Qarşımda ne gözel görüner şeher.

Kim döze biler ki köz yağışıma,
Allahım, qurbanam öz naxışıma.
Dikiler gözlerin söz baxışıma,
Eh, imkan vermez ki bir udum qeher.
11.11.2017

Sevinc Arzulu

**Bir-bir dolubdu**

Azaldı sellərimiz,
Köç etdi ellərimiz.
Ağaran tellərimi,
Külək bir-bir yolubdu.

Alışdıq köz üstündə,
Barışdıq göz üstündə.
Atışdıq söz üstündə,
Hesab bir-bir olubdu.

Gün-gündən artır cəbrim,
Qazılacaq daş qəbrim.
Daha qalmayıb səbrim,
Kasam bir-bir dolubdu.
03.11.2013

Sevinc Arzulu

**Birdir, xatire**

Deyirlər böyükdür dəvə də fildən,
Ayrılıq fərqlənmir düşgün səfildən.
Bu axşam qapımı döyüb qəfildən,
Nədən açan kimi girdin, xatirə

Vüsalı doyunca süzəmmirəm ki,
Həsrəti ağırdır, dözəmmirəm ki,
Iki əsr olar, çözəmmirəm ki,
Pərdəyə bürünmüş sirdin, xatirə.

Xəyallar ağlımı əldən alıbdır,
Kədər də yolunu bizdən salıbdır.
Dünyamız yamanca çaş-baş qalıbdır,
Mənimçün hamısı birdir,xatirə.

Sevinc Arzulu

**Birinci. başına dönüm**

Ürək ilə,səmimi,
Kədərimi,qəmimi
Biç dərd-möhnət zəmimi,
Biçinci,başına dönüm.

Göydən dolu tökülər,
Zülmün evi çökülər.
Başa gələn çəkilər,
Bilici,başına dönüm.

Fələk atını çapar,
Ovun axtarar,tapar.
Məni yanına apar,
Birinci,başına dönüm.

Sevinc Arzulu

**Bitdi mehebbet**

Sevdalı baxışlar qəfil görüşdü ,
Həsrət vüsal ilə göydə döyüşdü.
Qəlbimə sevginin toxumu düşdü,
Könlümdə çiçək tək bitdi məhəbbət.

Məni ağıllıdan ağıllı etdi,
Ömrümü sehirli, nağıllı etdi.
Bəs nədən sonunda paxıllıq etdi,
Həsrətin kamına yetdi məhəbbət.

Oxşatma gəl gülüm,xəzələ məni,
Bənzət həzin şeirə,qəzələ məni.
Uyaraq başqa bir gözələ ,məni
Dünyada tək qoyub getdi məhəbbət.
Məni Qeys Leylisi etdi məhəbbət.

Sevinc Arzulu

**Bitir meni**

Dörd tərəfim yalan toru,
Üsulluca götür məni.
Hər cür dərddən-qəmdən qoru,
Səadətə ötür məni.

Qurtarmaz ki zarafat, gap
Görüşümüz nağıldı lap.
Əvvəlində arayıb  tap,
Sonda yenə itir məni.

Səbrin gördüm qardaşımın.
Səhvin gördüm sirdaşımın.
Tanrım, həyat yoldaşımın,
Kölgəsində bitir məni.

Sevinc Arzulu

**Bitmedimi**

Yenə əsir acı külək,
Imkan vermir deyək-gülək.
Əl çəkmirsən bizdən, fələk,
Bitmədimi  sual-sorğun?

Varlığını yoxa vuran,
Sinəsini oxa vuran,
Gah nala, gah mıxa vuran,
Bilinməz ki yalan-doğrun.

Ovçu gəzəndə boş-bekar,
Toruna düşməz ki şikar.
Vüsal gedəndə aşikar,
Həsrət gələr gizlin, oğrun.
14.12.2018

Sevinc Arzulu

**Bitsin daha**

Yere qoyub dizlerini,
Hey silirsen izlerini.
Qaçırdıban gözlerini
Ne baxırsan oğrun-oğrun.

Könül muğama köklenib,
Tenha qalıban teklenib.
O qeder qemle yüklenib,
Karvan gedir yorğun-yorğun.

Çekib eşqin ezabını,
Kim qazanar savabını.
Bilımeyirəm cavabını
Bitsin daha sual-sorğun.

Sevinc Arzulu

**Biz kiçik damlayıq**

Biz kiçik eqrebik, heyat bir saat,
Zaman etrafında dövr eyleyerik.
Neden uzaqlaşar şenlik, toy-büsat
Açılar yaramız, qövr eyleyerik.

Qoca kişiler tek addımlayırsan,
Men ise dalınca uçur, uçuram.
Vüsala çatmaqçun addım sayırsan,
Arxanca hey qaçır, qaçır, qaçıram.

Görüşüb ayrılmaq çetin, ay Allah
Sonra da vüsaldan ümid gözlemek.
Et meni daha da metin, ay Allah
Onsuz şoran torpaq bulud gözlemir.

Dalınca vedesiz qaçdığım üçün,
Daha ağlamağa gücüm qalmayıb.
Könlümü Tanrıma açdığım üçün,
Kimseden almağa öcüm qalmayıb.

Zamanın üreyi durduğu vaxtda,
Birge susacağıq ebedilik biz.
Feleyin sözü tek gülüşü saxta,
Biz kiçik damlayıq, heyatsa deniz.

Sevinc Arzulu

**Biz yene**

İlk məhəbbət unudulmur düz, gülüm,
Yenə məni lal baxışla süz, gülüm,
Demirəm ki ümüdini üz, gülüm,
Bir gün gələr, görüşərik biz yenə.

Aşiqləri həsrət ayrı salıbdı,
Hicran sanki qisasını alıbdı,
Adın daim ürəyimdə qalıbdı,
Bir gün gələr, görüşərik büz yenə.

İllər keçər, biz də, gülüm, qocallıq,
Ahıllığın zirvəsinə ucallıq.
Əzrailin özündəncə bac allıq,
Bir gün gələr, görüşərik biz yenə.

Sevinc Arzulu

**Bizim  eller yerinde**

Göy semada uçan durna qatarı,
Söyle görüm,bizim eller yerinde.
Daha yoxdur üreyimin tutarı,
Söyle görüm,bizim eller yerinde.

Görünmeyir bu dağların ucası,
Uçub evler,yox qapısı,bacası.
Qalmayıbdır ne cavanı,qocası
Söyle görüm,bizim eller yerinde.

Felek benim sönmeyimi gözleyir,
Göyden yere enmeyimi gözleyir.
Veten geri dönmeyimi gözleyir,
Söyle görüm,bizim eller yerinde.

Sevinc Arzulu

**Bizim eller**

Göy səmada uçan durna qatarı,
Söylə görüm, bizim ellər yerində.
Daha yoxdur ürəyimin tutarı,
Söylə görüm, bizim ellər yerində.

Görünməyir bu dağların ucası,
Uçub evlər, yox qapısı-bacası.
Qalmayıbdır nə cavanı-qocası
Söylə görüm, bizim ellər yerində.

Fələk mənim sönməyimi gözləyir,
Göydən yerə enməyimi gözləyir.
Vətən mənimdönməyimi gözləyir,
Söylə görüm, bizim ellər yerində.

Sevinc Arzulu

**Bizim musiqi**

DOğma,əzizdir,
Su tək təmizdir.
Mavi dənizdir,
Bizim musiqı.

REklam nə lazım,
Baharım,yazım.
Kamanım,sazım,
Bizim musiqi.

MİN lad oxuyar,
Ətir qoxuyar.
Çələng toxuyar,
Bizim musiqi.

FAteh tək durar,
Göyə baş vurar.
Qəlbdə yurd qurar,
Bizim musiqi.

SOLmaz çıçəkdir,
Arzu, diləkdir.
Dünyada təkdir,
Bizim musiqi.

LYAsı layla,
Mərdliyə haylar.
Bol sevinc paylar,
Bizim musiqi.

SIlinməz qəlbdən,
Doğular təbdən.
Düşməz heç dəbdən,
Bizim musiqi.

Sevinc Arzulu

**Bizimki getirmedi**

Qəmə həmdəm Şirvan.Mil,
Gəl gözümün yaşın sil.
Tək qaldığım neçə il,
Dözüm ki gətirmədi.

Yurdum həsrət bölgəsi,
Niyə sevdin özgəsin.
Şənlə birgə kölgəsin,
Özüm ki gətirmədim.

Qəm həsrətin azıymiş,
Vüsal qəlbin yazıymış.
Tale yazan yazıymış,
Bizimki gətirmədi.

Sevinc Arzulu

**Bizsiz**

Öten gecenin payız feslinde görüşdük ruhunla.
Her yan ağappaqdı tellerin kimi.
Hesretinin ucundan tutub ucuzluğa getdim.
Ayrılıq göz yaşımla dırmaşıb
buludların üstünde bardaş qurmuşdu.
Ayın qızdırması qalxmış,
Güneşin civesi titreyirdi.
Tenha üreyinin yağışları
könlümün sehrasına düşüb tikan bitirirdi.
Zamanın penceresinden
duyğular eyri güzgülerdeki kibi görünürdü.
Kainat terse fırlanırdı bizsiz.

Sevinc Arzulu

**Borc**

Sana bir deste çiçek borcluyum:
olum gününde veremediyim,
Ölüm gününde qebrin üste sermediyim çiçekleri.
Bir vaxt beyaz,indi ise qan rengdedir leçekleri.
Sana bir bulud göz yaşı borcluyum:
kederini qucaqlayıb
hönkür-hönkür ağlamadım.
Qemin qara qollarını
hesretinin zenciriyle bağlamadım.
Ulu Tanrıya bir can borcluyum.
Tezlikle qaytaracağam.
O biri borclarımı vere bilmesem de
can borcumu mütleq qaytaracağam Allahıma.
Qovuşacam öz ahıma.

Sevinc Arzulu

**Borcum ne qederdi**

Çatılıb hesretin qaşı,
Toruna tez düşer naşı.
Eşidirik addımbaşı,
Bu ömür geldi-gederdi.

Gozlerimde röya qalır,
Könlümde boş xülya qalır.
Biz gedirik, dünya qalır,
Daha ne qemi, ne derdi.

Heyat tablo, fonunda biz,
Qemin qara donunda biz.
Köç edirik sonunda biz,
Bu yazılmış bir qederdi.

Gözlerini dik gözüme,
Öleziyen od-közüme.
Di söyle menim özüme,
-"Dünya, borcum ne qederdi?!"

Sevinc Arzulu

**Borcum ne qederdi?**

Çatılıb həsrətin qaşı,
Toruna tez düşər naşı.
Eşidirik addımbaşı,
Bu ömür gəldi-gedərdi.

Gozlərimdə röya qalır,
Könlümdə boş xülya qalır.
Biz gedirik, dünya qalır,
Daha nə qəmi, nə dərdi.

Həyat tablo, fonunda biz,
Qəmin qara donunda biz.
Köç edirik sonunda biz,
Bu yazılmış bir qədərdi.

Gözlərini dik gözümə,
Öləziyən od-közümə.
Di söylə mənim özümə,
-"Dünya, borcum nə qədərdi?!"

Sevinc Arzulu

**Boşdu, könlüm**

Dünya özü boyda yalan,
Qəlb evimi etdi talan.
Kimdi qəmi məndən alan,
Deyən sərxoşdu könlüm.

Şeir yazmaq vərdişi nə,
Sözlə çəkdiyi nəqşi nə.
Özünün nakam eşqinə,
Ağılar qoşdu könlüm.

Pərvanə tək oda düşdü,
Bəxtinə qan-qada düşdü.
Ötən günlər yada düşdü,
Yenə də coşdu könlüm.

İnsan ömrü qəmli kitab,
Hər oxuyan gətirməz tab.
Bilirəm çəkdiyin əzab,
Özünə xoşdu,könlüm.

Mən gah göyəm,gah da yerəm,
Çətin yada salam verəm.
Qorxuram,göz açam,görəm
Sevgisiz,boşdu könlüm.

Sevinc Arzulu

**Boy at görüm**

Dava-cəngli həyatını,
Hücumzəngli həyatını,
Qara rəngli həyatını,
Qırmızıya boyat görüm,

Hər dəm savaş axtarmısan,
Asta, yavaş axtarmısan.
Isti lavaş axtarmısan.
Ye çörəyi  boyat görüm

Yerinmisən, göyünmüsən,
Zərbən ilə öyünmüsən.
Neçə ildir böyümürsən.
Bircə qırıq boy at, görüm.
06.2018

Sevinc Arzulu

**Boylanacağam**

Kim deyir bəxt mənlə  olub səmimi ,
Daima artırıb dərdi-qəmimi.
Gündüzdən gecəyə atsa gəmimi,
Günəşdən nur alıb aylanacağam.

Sevərək sevilmək deyil ki eyib,
Şairlər eşq haqda kəlamlar deyib.
Vəslin tül libasın əynimə geyib,
Qara qış günündə yaylanacağam.

Söz dünyam yaranıb məndən irəli,
Hüzn, ələm gələr dəndən irəli.
Dayanıb bir addım səndən irəli,
Dönüb keçmişimə boylanacağam.

Mənim nə yaxşı ki sənsizliyim var,
Söykənib çiyninə yol gedirəm mən.
Məni hey çağıran çənsizliyin var,
Baxmıram nə tikan, kol.Gedirəm mən.
3.01.2013

Sevinc Arzulu

**Boylanır**

Çay tək yatağından enib axmadın,
Şimşək tək səmamda qəfil çaxmadın.
Bir dəfə geriyə dönüb baxmadın.
Sənin əvəzinə yollar boylanır.

Məni uzaqlara fikir aparır,
Dilimdən düşməyən "şükür" aparır.
Masmavi səmaya zikr aparır,
Tanrı dərgahına qollar boylanır.

Sən həsrət qalmısan gözəl röyaya,
Fərəhlə baxmırsan nurlu dünyaya.
Çəmənin bənzəyir susuz səhraya,
Hər yerdən qupquru kollar boylanır.
30.07.2015

Sevinc Arzulu

**Boynubükük xatire**

Gah gözümden düşen qanlı yaş oldu,
Dostuma çevrildi gah, sirdaş oldu.
Burulğan hesretle başabaş oldu,
Senin boynubükük xatirelerin.

Kim deyir sevenler xeyala dalmaz?
Üzünü  vüsalın kölgesi almaz?
Men getsem biri de salamat qalmaz,
Senin boynubükük xatirelerin.

Sayrışa-sayrışa oyanıb durur,
Zernişan-zernişan boyanıb durur
Perişan-perişan dayanıb durur,
Senin boynubükük xatirelerin.

Sevinc Arzulu

**Boz şüşeli**

Baxışlarım çiçək dərir,
Ləçək-ləçək yerə sərir.
Buzum yavaş-yavaş ərir,
Kölgəm üstə gün düşəli.

Bu nə dövran, nə həyatdır,
Eşq sözləri çox boyatdır.
Sənsiz yaman narahatdır,
Dəli könül əndişəli.

Ömrüm vardır qara-ağlı,
Günüm vardır kədər çağlı.
Evim vardır ağzıbağlı,
Hər tərəfi boz şüşəli.

Sevinc Arzulu

**Böldün, gülüm**

Tapmadın işin çəmini,
Yaşadın ömrün kəmini.
Bu dünyanın dərd-qəmini,
Mənimlə tən böldün,gülüm.

Tale bəxtin qara yazdı,
Qismətini hara yazdı.
Nə dəli Kür,nə Arazdın,
Sən saf sulu göldün,gülüm.

Darıxmışam lal qəminçün,
Saçındakı ağ dəninçün.
Öləmmədim mən sənincün,
Sən mənimçün öldün,gülüm.

Sevinc Arzulu

**Bölen gerek**

Hey axtarır gözüm kimi,
Alışaram közüm kimi.
Indi mənə özüm kimi,
Dərdi-səri bilən gərək.

Yaşa ömrün hədərini.
Tanrı yazıb qədərini.
Fərəhini.kədərini,
Mənim ilə bölən gərək.

Dəniz tək coşub çağlaram,
Qəmin yolunu bağlaraM.
Adicə sözdən ağlaram.
Göz yaşımı silən gərək.

Çiçək bitməz gül kolunda,
Tikan sağında-solunda.
Mənim kimi dost yolunda,
Həlak olub ölən gərək.

Eşq şərabın su tək içən,
Yolunda canından keçən.
Çiçəyi çiçəkdən seçən,
Sevinc kimi kölən gərək.

Sevinc Arzulu

**Bu  zaman bizi**

Esrin yarısını geride qoyduq,
Qarşıda gözleyir imtahan bizi.
Çetin ki söyleyek: dünyadan doyduq
Uyüdür den kimi deyirman bizi.

Uşaqlıq illeri tez ötüb keçdi,
Qocalıq, ah, ne tez bizleri seçdi.
Sanmayaq olanlar hederdi, heçdi
Fırladar çerxinde bu zaman bizi.

A dostum, elinde qızılgül getir,
Yayılsın könlüme en gözel etir.
Başımız üstünde olsa da çetir,
Tutdu qem yağışı ne yaman bizi.

Sevinc Arzulu

**Bu biçimde**

Yer üzündən qoparam,
Buludlara hoparam.
Mən səni tez taparam.
Bir anda, su içimdə.

Iki övlad anası,
Kül oluban yanası
Mən sonalar sonası,
Yaşaram qu biçimdə.

Kimdir eşqi gizlədən,
Ürəyini közlədən.
Yaraşarıq sözlə mən,
Bu boyda, bu biçimdə.

Sevinc Arzulu

**Bu çağında**

Heyatın xoş anındasan,
O şöhretin şanındasan.
Sen ferehin yanındasan,
Men kederin qucağında.

Sürüldüm eşq adasına,
Tuşlandım qem qadasına.
Düşmüşüm derd odasına
Üşüdürem bucağında.

Qismetimden var gileyim,
Ov ovlamaz  qırğı leyim.
Ezabımı kime deyim,
Ömrün-günün bu çağında.

Sevinc Arzulu

**Bu da sen**

Işden-gücden heç bir macal olur ki? !
Her sevenin sonu ecel olur ki? !
Şirin vüsal eyle decel olub ki,
Al elıne çubuğunu,buda sen.

Birce anlıq beni düşün,özün heç.
O qaranlıq labirintden özün keç.
Hansı sene daha eziz,özün seç
Bu hesretim,bu vüsalım,bu da sen.

Qem büstünü ellerinle yonmusan,
Qartal kimi daş zirveye qonmusan.
Neden bele heykel kimi donmusan,
Olmamısan hind elinde Budda sen?

Sevinc Arzulu

**Bu da son**

Bir dost seçdim,
vəfası yox,
Dərman içdim,
şəfası yox.
Seyrə daldım,
səfası yox,
Nəfəs aldım,
havası yox.
Çox ağır ton,
Bu da son.

Sevinc Arzulu

**Bu diyarda**

Hələ hicran bərkiməmiş,
Həsrət qarı bərk düşməmiş.
Dartışmamış,bərkişməmiş
Uzaqlaşaq bu duyardan.

Dərdi necə qandırır bax,
Öz oduna yandırır bax.
Keçmişimi andırır bax,
Uzaqlaşaq bu diyardan.

Salam olsun ərənlərə,
Qəmə sinə gərənlərə.
Biz də dönək gələnlərə,
Uzaylaşaq bu diyarda.

Sevinc Arzulu

**Bu dünyadan**

Bağladılar bazarımı,
Bilmədilər azarımı.
Dərin qazın məzarımı,
Həmdəmim olsun Yaradan,
Mən gedirəm bu dünyadan.

Hər bir sözü düzgün oldum,
Ala gözü süzgün oldum.
Axır vaxtlar üzgün oldum,
Ayrılmaram bu röyadan,
Mən gedirəm bu dünyadan.

Ömrüm döndü coşqun selə,
Uymadım kələyə,fe`lə.
Qədər niyə yazdı belə,
Olmaz yuxudan oyadan,
Mən gedirəm bu dünyadan.

Sevinc Arzulu

**Bu dünyanın**

Bu dünyanın qaşı qara,
Dağlarının başı qara.
Sanırdım ki masmavidir,
Gözlerinin yaşı qara.

Bu dünyanın derdi çoxdur,
Qelbi qara ferdi çoxdur.
Azalmaz ki namerdleri,
Kim deyir ki merdi çoxdur.

Bu dünyanın üzü bəyaz,
Sehvi qara, düzü bəyaz.
Hey yazıram kelmeleri,
Milyonu boz, yüzü bəyaz.

Sevinc Arzulu

**Bu dünyanın**

Bu dünyanın penceresi qapalı,
Demir üzlü qapısı da bağlıdır.
Başım üstde felek durdu zopalı,
Hetta hesret kederinden ağladı.

Bu dünyanın ayağı da sürüşken,
Bilmeyirsin harda,nece dincelir.
Qem yükü bol,vüsalı az,fereh kem,
Derd çekmekden ele insan incelir.

Bu dünyanın sen tek bexti qaradır,
Hara getse,kime baxsa söz olar.
Bu dünyanın qelbi iki paradır,
Dünya özü dünyamıza göz olar.

Sevinc Arzulu

**Bu dünyanın al libası**

Bu dünyanın al libası toxunmaz,
Bu dünyanın əlifbası oxunmaz.

Bu dünyanın qaşı qara,
Dağlarının başı qara.
Sanırdım ki masmavidir,
Gözlərinin yaşı qara.

Bu dünyanın dərdi çoxdur,
Qəlbiqara mərdi çoxdur.
Azalmaz ki namərdləri,
Kim deyir ki mərdi çoxdur.

Bu dünyanın üzü bəyaz,
Səhvi qara, düzü bəyaz.
Hey yazıram kəlmələri,
Milyonu boz, yüzü bəyaz.

Sevinc Arzulu

**Bu gece**

Bu gece üstüme gelir dalğalar,
Islandım altundan soyuq baxışın.
Bu gece tüstüme gülür qovğalar,
Paslandım altında qarın,yağışın.

Çatmışam dörd yolun ayrıcına ben,
Özüm de bilmirim hayana gedim.
Qoşulum daş qolun ayrısına ben,
Belke bu geceden o yana gedim.

Belke üz dönderib gündüz nurundan,
Gecenin qanını içim,ne dersen?
Ayrılım sevginin yaş qururundan,
Azadlıq zemisin bicim,ne dersen.

Belke daha besdir bunca derd çekib,
Bunca ezab yemek,bunca qem udmaq.
Bext ressam tablomu bele sert çekib,
Tek birce yolum var:Seni unutmaq.

Bu gece göz yaşı tökmeyeceyem,
Bu gece sebrimi basacağam ben.
Bu gece diz üste çökmeyeceyem,
Bu gece özümü asacağam ben.

Sevinc Arzulu

**Bu gece qezel**

Nədən tez saralıbdır mənim sünbüli- süsənim,
Niyə barışmaz oldu tez-tez inciyib küsənim.
Gözümdən göz çəkməyib daim qarşımı kəsənim,
Olacaqdır ulduz tək nurla sayrışan bu gecə.

Ilahi necə rəva gördü bu dərdi-zülümü,
Açmamış soldurdular mənim qönçeyi-gülümü.
Gizlicə alovlanıb yandım,görmədin külümü,
Tək mənəm deyən gülüm,oda qarışan bu gecə.

Səni qəmləndirən de, saçıma yağan qarmıdır,
Göyündə qanad çalan qartalmıdır,ya sarmıdır.
Görəsən kainatda,gülüm, yenə də varmıdır,
Hicri-həsrət odunda mən tək alışan bu gecə.

Üzümə açıq olub həmişə bütün qapılar,
Namərdin bir sözündən sevən ürəyim çapılar.
Mən ki belə görürəm deyəsən çətin tapılar,
Bu açıq imtahanda mənlə yarışan bu gecə.

Yar ilə aramıza vüsaldan körpü salaram,
Söyləsə”öl”-ölərəm,”qal” da desə mən qalaram.
Min dillə dindirərəm,incimiş könlün alaram,
Yalnız Sevinc olacaq yarla barışan bu gecə.

Sevinc Arzulu

**Bu Gece,allah**

Ulduzlar semadan yere tökülür,
Kederin daş evi uçur, sökülür.
Bir gözüm ağlayır, bir gözüm gülür,
Bu nece taledir, bu nece, Allah.

Biz qıra bildikmi gören tilsimi,
Yoxsa ki unutduq açan "Sim-sim"i.
Üzümü oxşayır bahar nesimi,
Ruhlar qonaq gelib bu gece, Allah.

Tezce böyüsünler, yaşa dolsunlar,
Onlar ne saralıb, ne de solsunlar.
Qoy bütün uşaqlar xoşbext olsunlar,
Hamının qelbinden bu keçe,Allah.

Sevinc Arzulu

**Bu gecede**

Ayrılığı belke zaman yaradır?
Sevdalıya niye aman aradır.
Benim kimi qanı yaman qaradır,
Bu geceye ne deyibler göresen.

Yalan danışanda heqiqet susur,
Əzrail marıqda, hey qapı pusur.
Hesret ilə hicran qara qan qusur ,
Bu gecede ne yeyibler göresen.

Baş eymeyek qeddarlığa, zillete,
Ne söylerik sonunda bu millete.
Toranlığı  dönderibdir zülməte ,
Bu geceden ne eyibler göresen.
31.10.2018

Sevinc Arzulu

**Bu gecenin**

Bu gecənin yeri zülmət kahadır,
Bu gecənin axar suyu ilinməz.
Bu gecənin qiyməti çox bahadır.
Bu gecənin göz yaşları silinməz.

Bu gecənin ay işığı sönübdür,
Bu gecə də adı kimi qaranlıq.
Ulduzların üzü yaman dönübdür,
Hər guşəsi qorxulu bir viranlıq.

Daha şeir yazmayacam bu gecə,
Daha ürək çırpınaraq durmaz ki.
Söz içində azçmayacam bu gecə
Ürək deyən qaydasında vurmaz ki.
02.05.2018

Sevinc Arzulu

**Bu gecenin yeri zülmet**

Bu gecənin yeri zülmət kahadır,
Bu gecənin axar suyu ilinməz.
Bu gecənin qiyməti çox bahadır.
Bu gecənin göz yaşları silinməz.

Bu gecənin ay işığı sönübdür,
Bu gecə də adı kimi qaranlıq.
Ulduzların üzü yaman dönübdür,
Hər guşəsi qorxulu bir viranlıq.

Daha şeir yazmayacam bu gecə,
Daha ürək çırpınaraq durmaz ki.
Söz içində azçmayacam bu gecə
Ürək deyən qaydasında vurmaz ki.
02.05.2018

Sevinc Arzulu

**Bu gün**

Açılacaq bağlı postlar,
Deyilecek dadlı tostlar.
Yığılın başıma.dostlar
Bu gün ziyafet günüdür.

Pislik,unut şer işini,
Adetini,verdişini.
Gör dünyanın gerdişini,
Bu gün şerafet günüdür.

Alovlaşaq,ocaqlaşaq
Xeyir işde qoçaqlaşaq.
Mehribanca qucaqlaşaq
Bu gün heraret günüdür.

Şekerli,noğullu dünyam,
Şeirli,nağıllı dünyam.
Hamıdan ağıllı,dünyam
Bu gün leyaqet günüdür.

Qelb açılsın çiçek-çiçek,
Yalanları xar tek biçek.
Semimi qelbden and içek,
Bu gün sedaqet günüdür.

Sevinc Arzulu

**Bu heqiqetim**

Hdr tdrdf keçilmez sıldırım, dünya.
Bu yükü ben nece qaldırım, dünya.
Çaxdırır başımsa ildırım, dünya.
Yuxarı baxmağa yoxdur taqətim.

Adını qayaya qazıb qalmışam,
Derdimi şeire yazıb qalmışam.
Dağların qoynunda azıb qalmışam.
Ah, budur eşqime son sedaqetim.

Her teref qorxulu her teref dehşet.
Sanki yaxınlaşıb axiret-mehşer.
Qoymaram xeyirde gecelesin şer,
Gizlinde qalmasın bu heqiqetim.
21.07.2018

Sevinc Arzulu

**Bu kendi**

Ay işığı isitməz ki,
Soyuqluğu üşütməz ki?
Harayımı eşitməz ki,
Gecənin qulağı batıb.

Qara işıq tez yayılar,
Kölgəsindən nur bayılar.
Səs salma, yoxsa ayılar,
Hicranın qonağı yatıb.

Unut qəm-qüssə şerini,
Gözlə düşməndən gerini.
Kimsə bilmirdi yerini,
Bu kəndi bulağı satıb.

Sevinc Arzulu

**Bu nameni**

Alışammaz sönən közüm,
Kədər ilə dolmaz gözüm.
Ürəyimdə vardır sözüm,
Həsrətinlə sına məni.

Başım üstdə duman,çənsən.
Göydə bulud ilə tənsən.
Ayrılığa səbəb sənsən,
Daha azca qına məni.

Bir gün olar atılarsan,
Başqasına satılarsan.
Yəqin məni xatırlarsan,
Oxuyanda bu naməni.

Sevinc Arzulu

**Bu payız**

Bu payızın qiyməti yox, qədri yox,
Gecəsində çıxan ayın bədri yox.
Günlərinin öncəsi yox,ardı yox.
Eh, olanlar bu payıza olacaq.

Yaxşılardan əskik mənim nəyim ki,
Duran yerdə şad könülə dəyim ki?
Əllərimi qaldıraraq deyim ki,
Şeh dolanlar bu payıza qalacaq.

Rənglərindən oxunar hər arzusu,
Mələməz ki hər yetənə quzusu.
Bu il deyən bolhaboldur ruzusu,
Beh alanlar bu payıza, çalacaq.
26.04.2018

Sevinc Arzulu

**Bu payız ağlayar**

Ulduzlar səmanı hey gümüşləyib,
Bütün yer üzünü göy gülüşləyib.
Soyuq iliyinə elə işləyib
Bu payız ağlayır bahardan ötrü.

Gah yoldan ötənə təbəssüm satır,
Gah da ki kədərin qoynunda yatır.
Elə qüssələnir, qan-tərə batır,
Bu payız ağlayır bahardan ötrü.

Hər yaşıl yarpağa sarı rəng verər,
Xəzəli xalı tək torpağa sərər.
Yatar, yuxusunda görən nə görər,
Bu payız ağlayar bahardan ötrü.

Sevinc Arzulu

**Bu qan meni**

“Bulaq olub ax”-demirəm,
“Şimşək olub çax”-demirəm.
Ay əzizim,çox demirəm
Bir azacıq qısqan məni.

Həsrət atın çapammaz ki,
Vüsalımı qapammaz ki.
Axtarsa da tapammaz ki,
Naleyi ah-fəqan məni.

Edəmmədim düz seçimi,
Sürəmmədim duz köçümü.
Alammadım öz öcümü,
Tutacaqdır bu qan məni.

Sevinc Arzulu

**Bu qız**

Gəlişiylə payız-qışı yaz edər,
Qəm-kədərli keyfi belə saz edər.
Vallah,bütün oğlanlara naz edər,
Sallanıban gedənə bax,gedənə.

Yaman yelli,bu qız evi tikilmiş,
Gül siması ilahidən çəkilmiş.
Göz qamaşar,ağ mərmərdən tökülmüş,
Aman Tanrım,bədənə bax,bədənə.

Sevdiyiylə danışmamış,gülməmiş
Bir dəfə də göz yaşını silməmiş.
-"Yaxınlaşma mənə,elçi gəlməmiş",
Dediyini edənə bax,edənə.

Sevinc Arzulu

**Bu qızın**

Ay qızım atana, anana əhsən,
Bu qızın oduna yanana əhsən,
Bu qızın dərdini qnana əhsən.
Bu qızın ürəyi niyə yuxadır.

Qəm gəlir üstünə lap pələng kimi,
Xəyalı göylərdə çərpələng kimi.
Eləcə kövrəkdir kəpənək kimi,
Bu qızın ürəyi niyə yuxadır.

Bu qızın yanağı allanıb gedir,
Nazənin pəri tək sallanıb gedir.
Bu qızın fərmanı qollanıb gedib,
Bu qızın ürəyi niyə yuxadır.

Sevinc Arzulu

**Bu sevgi**

Axı kim anlayar men kimi onu,
Eynine geydirdim qaranlıq donu.
Yayın istisinde buz kimi dönub,
Qışın soyuğunda bişib bu sevgi.

Yalan olmayıbdır ehdi-ilqarı,
Saflıqda andırır zirvede qarı.
Heyretle boylanır etrafa sarı,
Deyesen semadan düşüb bu sevgi.

Allah, bir görüşçün min plan qurur,
Qapqara saçını eliyle burur.
Dünyadan dördelli yapışıb durur.
Yamanca heddini aşıb bu sevgi.
18.09.2013

Sevinc Arzulu

**Bu şeherin**

Bu şəhərin küçələri pərişan,
Ağlamağa göz yaşı da qalmayıb.
O qədər ki sən qoymusan nəm-nişan,
Səndən başqa sirdaşı da qalmayıb.

Məlul-məlul yollarına boylanır,
De  hardasan, qaldın harda  əzizim.
Arxanca hey danışıban haylanar,
Səni də ol intizarda,əzizim.

Bəlkə bir gün qayıdarsan geriyə,
Addımını əsirgəmə küçədən.
Xatirələr sənlə bir yeriyər,
Yatar şəhər, keçər xeyli gecədən.
15.11.2017

Sevinc Arzulu

**Bu torpağın**

Göy buludlar tül toxuyur,
Ağ ümidler gül toxuyur.
Gör nece de süd qoxuyur,
Bu uşağın mışıltısı.

Tale gözü nem oyadır,
Ferehi al kem boyadır.
Neden qelbde qem oyadır,
Bu yarpağın xışıltısı.

Bal vüsalın yoxdu sözü,
Illər keçer, sönmez közü.
Qiymetini verer özü,
Bu torpağın işıltısı.
23.09.2013

Sevinc Arzulu

**Bu xara**

Şeir –şairin beheri,
Hey çapar xeyal keheri.
Üç qedim özbek şeheri,
Daşkend,Semerqend,Buxara.

Zaman yene qeddin eyib,
Xatirine kimse deyib.
Hisslerine soyuq deyib,
Bir azacıq ver buxara.

Nesimi tek ben lamekan,
Yaman sıxar qara mekan.
Yolum üstü tikan-tikan,
Eh,ne deyim ben bu xara.

Sevinc Arzulu

**Bu yolların**

Qəmin qara kölgəsi var,
Qul şeytanlar ölkəsi var.
Neçə tini ,döngəsi var,
Bu yolların.

Gədikləri keçilməzdir,
Dolayları seçilməzdir.
Ağ gülləri biçilməzdir,
Bu yolların.

Beşi vardır, onu yoxdur.
Günəş rəngli donu yoxdur.
Hey uzanır, sonu yoxdur,
Bu yolların.

Sevinc Arzulu

**Bu zaman bizi**

Esrin yarısını geride qoyduq,
Qarşıda gözleyir imtahan bizi.
Çetin ki söyleyek: dünyadan doyduq
Üyüdür den kimi deyirman bizi.

Uşaqlıq illeri tez ötüb keçdi,
Qocalıq, ah, ne tez bizleri seçdi.
Sanmayaq olanlar hederdi, heçdi
Fırladar çerxinde bu zaman bizi.

A dostum, elinde qızılgül getir,
Yayılsın könlüme en gözel etir.
Başımız üstünde olsa da çetir,
Tutdu qem yağışı ne yaman bizi.

Sevinc Arzulu

**Bucaq taparsanmı**

Qədrini bilmək istəsəm,
Göz yaşın silmək istəsəm.
Yanına gəlmək istəsəm,
Mənə qucaq açarsanmı?

Göydən enməz eşq mələyi,
Qarğımayaq gəl fələyi.
Üşütsə payız küləyi,
De, bir ocaq çatarsanmı?

Mən əvvəlki Sevinc olsam,
Qızıl-gümüş bürünc olsam.
Umduğum təkcə künc olsa,
Kiçik bucaq taparsanmı?!

Sevinc Arzulu

**Bulaq  suyu**

Pervaneler eşq odundan nurlanır,
Muğamları  "Segah"lanır,"Şur"lanır.
Hey başıma fırım-fırım fırlanır,
Deyen dünya yaman içib,serxoşdur.

Ne çıxar ki derd qoynunda yatmaqdan,
Ayrılığın vüsalına çatmaqdan.
Heqqi bilib qem-qüsseye batmaqdan,
Aldanıb-aldadıb yaşamaq xoşdur.

Şair her şiirine teze ad verir,
Könül duyğusuna qol-qanad verir.
Görürsen,nece de gözel dad verir,
Içdiyin bulağın suyu meyxoşdur.

Sevinc Arzulu

**Bulend oldu**

Bezdim artıq sessizlikden.
Uzağammı sehvsizlikden?
Bilirsenmi, sensizlikden,
Ahım göye bülend oldu.

Qem gölünde illenmedim,
Bulanmadım, lillenmedim.
Ne soruşdum, dillenmedin
Sözün elde demend oldu.

Bir göreydim büsatını,
Tanrının xoş saatını.
Arzuladım ağ atını,
Mindiyim boz semend oldu.
1.09.2013

Sevinc Arzulu

**Buludlar**

Nə uduzar,basılar,
Nə nəfəsi kəsilər.
Göy üzündən asılar,
Salxım-salxım buludlar.

Vüsal saf,həsrət oğru,
Başlanar sual-sorğu.
Mən indi sizə doğru,
Necə qalxım,buludlar.

Bağu-baxça tikməyəm?!
Dibinə su tökməyəm?!
Sinəndə gül əkməyə,
Varmı toxum,buludlar.

Bu nə sehr.bu nə sirr
Günəş qarşımı kəsir.
Düşübdür sənə əsir,
Şirin yuxum,buludlar.

Sevinc Arzulu

**Buyuram**

Geyinmişik,süslenmişik denizden,
Astarlanıb üzlenmişik denizden.
Ikimiz de gizlenmişik denizde,
Günah beni,ben günahı yuyuram.

Zirvedence süzülürsün çenim tek,
Tellerime düzülürsün denim tek
Bilirim ki üzülürsün benim tek,
Kal sesinde her gün ahı duyuram,

Daş zindana dönüb indi taxta taxt,
Üstündece donub qalıb laxta baxt.
Pahatlığın pozmaram ki başqa vaxt,
Dar günümde ol penahı buyuram.

Sevinc Arzulu

**Buz heykel**

Kim sevecek bu biçimde,
Yaşayır ağ qu içimde.
Eriyecek su içinde,
Beyaz, narın duz heykelin.

Fereh qemi heç bilmez ki,
Derd yolundan keçilmez ki.
Zülm elinden seçilmez ki,
Qaralıqdan tuz heykelin.

Veslin beli bükülübdür,
Gözü yola dikilibdir.
Göz önünde tikilibdir,
Bu da benim buz heykelim.

Sevinc Arzulu

**Büküb durmusan**

Ay üzü işıqlı, könlü ziyalı
Daha uzaqlara uçmaz xəyalın.
Durmusan önümdə sakit, həyalı
Sevgini al gülə büküb durmusan.

Daha yar-yoldaşı səsləməyirsən,
Bir özgə məhəbbət bəsləmiyirsən.
Yad odun-ocağın istəməyirsən,
Gözünü gözümə dikib durmusan.

Zamansız sevgiyə möhür salmısan,
Başqa cür gözəllik, sehr salmısan
Dünyada tək mənə mehr salmısan.
Əlini telimə çəkib durmusan.

Alqışı, duanı haqdan umardın,
Qaraca niyyətə gözün yumardın.
Mənimçün ən uca yaşıl çinardın.
Niyə yarpağını töküb durmusan.

Səndəmi gəncliyi verdin yeləcə,
Yaşayıb yaratdın, güldün eləcə.
Illərmi qocaldıb səni beləcə,
Qarşımda dizüstə çöküb durmusan.
21.8.2012

Sevinc Arzulu

**Bünövre**

Sensizliyin bünövresin,
Kim qazıb, kim qoyubdur?
Bezib daha xatireler,
Göz yaşından doyubdur.

Ellerini vicdanının,
Üstüne qoyub düşün.
Yaz gününde sert havanın,
Soyuqluğundan üşü.

Belke onda dinə gelib
Döneceksen sen geri.
Yoxsa eşqin gözlerinde
Qalacaq ateş yeri.
03.04.2018

Sevinc Arzulu

**Büstüne senin**

Qəlb sinəyə sığışmadı,
Qəm gəldi üstünə sənin.
Görürsən, el yığışmadı
Qapqara tüstünə sənin.

Çinara ad cızammadım,
Qayalardan sızammadım,
Neynim, gülüm, qızammadım
Oxşayan istinə sənin.

Qəmin gözün oyacağam,
Ağlamaqdan doyacağam,
Al qızılgül qoyacağam,
Kədərli büstünə sənin.

Sevinc Arzulu

**Cahilem sensiz**

Bir anlıq görüşdür əsas amalım,
Solur gündən- günə o gül camalım.
Səninlə bir gedib ağlım, kamalım
Sanki avarayam, cahiləm sənsiz.

Gah alır qoynuna şirin duyğular,
Gah da ki çox üzür acı qayğılar.
Məni tərk eyləyib ağ qağayılar,
Dənizi çəkilmiş sahiləm sənsiz.

Bilməzdim bu həyat oyun, qumardı,
Tək səndən məhəbbət-sevgi umardım.
Qəlbimdə qalmayıb arzu-muradım,
Səhrada yurd salan sailəm sənsiz.

Sevinc Arzulu

**Can köyneyi**

Özgelenib baxış-baxış,
Güzgülenib naxış-naxış.
Cizgilenib yağış-yağış,
Eynimdeki can köyneyi.

Yar gözü qara ceng deyir,
Eyleme mene zeng deyir.
Daha evvelki reng deyil,
Sinem üstde qan göyneyir.

Gah qapısı taqqıldayır,
Gah küleyi qaqqıldayır.
Ildırımı şaqqıldayır,
Düşünür o an göy neyi.

Sevinc Arzulu

**Can alan gözel**

(Mənsurəyə zarafatyana))

Çoxdandır görmürəm gözəlliyini,
Necəsən sözləri can alan gözəl.
Axır anladılar özəlliyini,
Gəmisi sahilə yan alan gözəl.

Hərdən "yox" əvəzi "bəli" olursan,
Hərdən əsəbləşib dəli olursan.
Hərdən də yapışıb zəli olursan.
Gülərək adamdan qan alan gözəl.

Əl üstə qoymazsan heç vaxt əlini,
Astaca dararsan siyah telini.
Yenə işə saldın "şirin" dilini
Arının özündən şan alan gözəl.
11.03.2015

Sevinc Arzulu

**Can bacı**

Sənsiz keçiririk bu ad gününü,
Inan, söz-söhbətim qəlbimə sığmır.
Daha eşitmirik şirin ününü,
O gözəl gülüşün yadımdan çıxmır.

Evimiz necə də soyuqdur sənsiz,
Gözümün yaşı da qurumayır, bax.
Çiçək necə açar şehli çəmənsiz,
Tanrı da qüssədən qorumayır, bax.

Görsən tanımazsan indi anamı,
Çalışıb bizlərə səbir də verir.
Daha Tanrını da kimsə qınamır,
Sevdiyi insana cəbr də verir.

Sənin gənc taleyin qaldı yarıda,
Olmadı dərdinin heç bir əlacı.
Bircə xahişim var uca Tanrıdan,
Yerin behişt olsun sənin, can bacı.
23.05.2013

Sevinc Arzulu

**Candan sevmişim**

Zaman, nəbzin vurur ürəklər kimi,
Xəyalım uçmaz ki küləklər kimi.
Sənin ilk sevgilin məələklər kimi,
Təəssüf, o gözəl mən deyilmişəm.

Ilahi  qoymadı sevgidən dadam,
Nə mən sonuncuyam, nə sən ilk adam.
Gah  sənə həmdəməm, gah sənə yadam,
Özüm də bilmirəm hara düşmüşəm.

Ayrılıq, yanımdan keç, qanmamışam,
Alovu cismimdən seç, yanmamışam.
Səmimi duyğunu heç sanmamışam,
Mən səni ürəkdən, candan sevmişəm.
17.07.2018

Sevinc Arzulu

**Cavab verin**

Esri geri dönderdim,
Sene göyerçin qanadında
Şanlı mektub gönderdim.
Çatdımı, çatmadımı.

Kelbimin qem anıyla,
Üreyimin qanıyla.
Yazmışdım o mektubu,
De görüm elin qana,
Batdımı, batmadımı.

Ey insanlar, könlümü
vermişdim namerd yara.
O da günün birinde
onu o zalım xara
Satdımı, satmadımı.
Bene bir cavab verin.

Sevinc Arzulu

**Cehiz apardım**

Sevdim bu dünyanın ən kübarını,
Amma ki görmədim heç tumarını.
Yığıb ürəyimə dərd-qubarımı,
Məzar otağıma cehiz apardım.

Tikanlıq içində itibdir izin,
Daha dalğalanmaz sevda dənizin.
Dedim bəlkə mən də  yaşayam uzun,
Həyat ağacından ceviz qopardım.

Bu kədər könlümə hərdən dolarsa,
Qönçəni açmamış hər dəm yolarsa,
Bilsəydim əbədi həmdəm olarsan,
Elə bu dünyanı behişt yapardım.
25/06/2018

Sevinc Arzulu

**Cem bişirdim**

Deyiləsi sözlərimi,
Geyiləsi sözlərimi,
Yeyiləsi sözlərimi.
Mən çiy yapdım,
kəm bişirdim.

Şahdağında, Murovunda,
Gecənin sərt qırovunda.
Ürəyimin alovunda,
Dərd yandırdım,
qəm bişirdim.

Şəbi-hicran bəstəsində,
Xan Kərəmin tüstüsündə,
Həsrətinin istisində,
Gün, ay, ili
cəm bişirdim.

Sevinc Arzulu

**Cem gedibdir**

Bu dünyadan nə tez doydu,
Dərdli ürəkləri oydu.
Gözləri qan-yaşlı qoydu,
Çoxdan xoşbəxt dəm gedibdir.

Dəniz kimi çağlamayın.
Nur yolunu bağlamayın.
Şəbr edin,ağlamayın
Ürəklərdə qəm gedibdir.

Yazı yazan qədər oldu,
Cavan ömrü hədər oldu.
Könüllərdə kədər oldu,
Fərəhi çox kəm olubdur.

Bu itki,ağrı,nə acı
Gedib ailənin tacı.
Gözü yaşlı qardaş-bacı,
Qara gözlər nəm gedibdir.

Dost-qohumlar çəkirlər ah,
Vəfasızdır ömür vallah.
Min rəhmət eyləsin Allah,
Dərdlə möhnət cəm gedibdir.

Sevinc Arzulu

**Cemlenmişem**

Qaçdı-tutdudan doymayan,
Hicran vüsalla oynayar.
Qoyma.indicə qaynayar.
Mən söz ilə dəmlənmişəm.

Ad gününü dəndən sorma,
Al günəşi çəndən sorma.
Nə olar ki məndən sorma,
Niyə belə qəmlənmişəm.

Üfüqdə paplayan zərəm,
İşıqlı günə bənzərəm.
Həm baxışam.həm nəzərəm
Bir şeirdə cəmlənmişəm.

Sevinc Arzulu

**Cemm eyleme**

Sis ələmə,dəli könül.
His ələmə,dəli könül.
Qüssələnmə dəli könül,
Bu da keçər.qəm eyləmə.

Fərəh artıb,dərd azalıb.
Bağlanıbdır dərd bazarı.
Günəş çıxdı,dərd sozaldı,
Yeri-göyü nəm eyləmə.

Sanma ki sən tükənməzsən,
Qəfil yerə çökəmməzsən.
Ağır yükdür,çəkəməzsən
Ağrıları cəm eyləmə.

Sevinc Arzulu

**Cüt yaranmışıq**

Mən şəhərəm, sənsə kəndsən.
Mən şəkərəm, sənsə qəndsən.
Mən bir misra, sən bir bəndsən,
Cüt yaranmışıq dünyada.

Qoşalaşıb Bakım, Gəncəm
Sən cavansan, mənsə gəncəm.
Sən çaharsan,mən də pəncəm.
Cüt yaranmışıq dünyada.

Sən kədərsən, mən də qəməm.
Sən qılıncsan, mən də qəmə.
Sən kəhərsən, mən də qəmər,
Cüt yaranmışıq dünyada.

Sənsizliyə çətin dözəm,
Sən atəşsən, mən də közəm.
Sən şeirsən, mən də sözəm,
Cüt yaranmışıq dünyada.

Aşiqdən qayğı umansan,
Mən bəlkəyəm, sən gümansan.
Mən sis-çənəm, sən dumansan,
Cüt yaranmışıq dünyada.

Neçə vaxtdır ki sənsizəm,
Dağam-dumansız, çənsizəm.
Sən cığırsan, mən də izəm.
Cüt yaranmışıq dünyada.

Sən sakitsən, mən də dincəm.
Sən busaqsan, mən də küncəm.
Sən kədərsən, mən Sevincəm,
Cüt yaranmışıq dünyada.

Sevinc Arzulu

**Çağ imiş**

Dünyanı ikilikdə dolaşmısız çox  romantik,
Sevib-seçdiyin “igid” sən demə lap çim yağ imiş,

Aranızda yaş fərqi bilinməz ki gözəl dilbər,
Hədiyyə verdiyiyçün yanında üzüağ imiş.

Milyonlar uduzmusuz kazinoda bir gecədə,
Sənlnlə olduğuyçun onun da keyfi çağ imiş.

Qapını döydü qəfil yay çıxmamış payız fəsli,
Gördü gülzar həyatı solub-saralan bağ imiş.

Arvadıyla uşağın atıb,təzə eşqə düşüb,
Öz keçmiş ailəsi gözlərində Şahdağ imiş.

Ürəyi istədi ki başqa təam nübar etsin,
Heyf, bəxtinə düşən sovulan bostan-tağ imiş.

Onu görcək üzləri şit təbəssüm bürüyürdü,
Vecinə almazdı sanki həqiqət boş lağ imiş.

Minibən maşınına hər yanı gəzdin,ey gözəl
“Xammer”in özü böyük,təkərlərisə cağ imiş.

Su axdı,axdı,axır ki çuxurun tapdı,
Demək düzlük yaşayır,ölməyib.canı sağ imiş.

Bankrota uğrayıb həyatdan dərsini aldı,
Ayılıb gördü bir vaxt o nə qədər axmaq imiş.

Sevinc Arzulu

**Çağ imiş satirik qezel**

Dünyanı ikilikdə dolaşmısız çox  romantik,
Sevib-seçdiyin "igid" sən demə lap çim yağ imiş,
Aranızda yaş fərqi bilinməz ki gözəl dilbər,
Hədiyyə verdiyiyçün yanında üzüağ imiş.

Milyonlar uduzmusuz kazinoda bir gecədə,
Sənlə olduğuyçun onun da keyfi çağ imiş.
Qapını döydü qəfil yay çıxmamış payız fəsli,
Gördü gülzar həyatı solub-saralan bağ imiş.

Arvadıyla uşağın atıb,təzə eşqə düşüb,
Öz keçmiş ailəsi gözlərində Şahdağ imiş.
Ürəyi istədi ki başqa təam nübar etsin,
Heyf, bəxtinə düşən sovulan bostan-tağ imiş.

Onu görcək üzləri şit təbəssüm bürüyürdü,
Vecinə almazdı sanki həqiqət boş lağ imiş.
Minibən maşınına hər yanı gəzdin,ey gözəl
"Xammer"in özü böyük,təkərlərisə cağ imiş.

Su axdı,axdı,axır ki çuxurun tapdı,
Demək düzlük yaşayır,ölməyib.canı sağ imiş.
Bankrota uğrayıb həyatdan dərsini aldı,
Ayılıb gördü bir vaxt o nə qədər axmaq imiş.

Sevinc Arzulu

**Çağırdım seni**

Könül sevdasını ,inan, unutmur,
Sevdiyi insanı heç ucuz tutmur.
Oğlunun ayağı hələ yer tutmur,
Qızımın toyuna çağırdım səni.

Qaraya hay verən boz ümid idim,
İnləyən,sızlayan tənha ud idim.
Dərd ilə yüklənmiş ağ bulud idim,
Gecə də, gündüz də, yağırdım səni.

Günəşi səmadan düşürtmədim ki
Kədərin qoynunda üşütmədim ki,
Özümdən başqası eşitmədi ki,
Sonuncu nəfəsdə bağırdım səni.

Sevinc Arzulu

**Çağladım**

Vüsal da sürüb köçün,
Deme  ki neden, neyçün.
Seni unutmaq üçün,
Qelbime daş bağladım.

Azıb çensizliyinde,
Üzüb mensizliyinde.
Bezib sensizliyinden,
Gözümde yaş, ağladım.

Üzümde nur, baxardım.
Oxurdum "Şur". Yaxardım.
Hemişe gur axardım,
Indi yavaş çağladım.

Sevinc Arzulu

**Çağlayar insan**

İçime hesretin demi yığılsa,
Ferehin, sevincin kemi yığılsa,
Gözüne illerin qemi yığılsa,
Dönüb dağ çayına çağlayar insan.

Tarixi vereqle, neler danışır,
Xeyir-şer hemişe küsüb-barışır.
Qorxsa ki inciyer dostu-tanışı,
Vüsalın yolunu bağlayar insan.

Dayanıb cüt olan mezar başında,
Her biri iyirmi, otuz yaşında.
Sanki sirri vardır mermer daşın da,
Elece ürekden ağlayar insan.

Sevinc Arzulu

**Çal, qardaş**

Eşq yolunda boynubükük durma gəl,
Bir kimsəyə tələ-duzaq qurma gəl.
Mizrabını sarı simə vurma gəl.
Sən hərdənbir xoş xəyala dal,qardaş
Həzin-həzin,asta-asta çal qardaş.

Qoyma düşmən daxil olsun köşkünə,
Açı zəhər qatmasın pak eşqinə.
Yenə başla yeni mahnı məşqinə,
Qoy süzülsün barmağından bal,qardaş.
Həzin-həzin,asta-asta çal qardaş.

Sən ürəkdən çalırsan gitaranı,
Musiqinlə ayır ağla qaranı.
Apardı yenə də sellər Saranı,
Yaman düşdü qəlbimizə xal,qardaş.
Həzin-həzin,asta-asta çal qardaş.

Sana bilməz dost ürəyi daş məni,
Tale belə yaratmazdı kaş məni.
Dillənə bilmədim,boğdu yaş məni,
Musiqin önündə oldum lal,qardaş.
Həzin-həzin,asta-asta çal qardaş.

Musiqidir hamımızın gərəyi,
Muğamatdır musiqinin dirəyi.
Sən elə ağlatdın sevən ürəyi,
Onu nəğmən ilə ələ al,qardaş.
Həzin-həzin,asta-asta çal qardaş.

Sevinc Arzulu

**Çalar hey**

Əsən külək ipək telimi darar,
Kədər,möhnət yenə qəlbimi sarar.
Dəli könül səni axtarar,arar.
Gözüm yenə yollarında qalar hey.

Qar ilə örtülüb sənin buz eşqin,
Ərisə yaradar güclü sel,daşqın.
Gəzərəm həm fikirli,həm də çazqın,
Qəlbim şirin xəyallara dalar hey.

Şaxta,sazaq məni soldurdu nədən,
Səbr kasamı yaman doldurdu nədən.
Kəsibdi yolumu,quldurdu nədən,
Sənsizliyin məni soyar,talar hey.

Mən bülbləm,öz gülümə layiqəm,
Öz eşqimə,öz sevgimə sadiqəm.
Ürəyimi əzər,didər möhnət,qəm.
Gözlərimi kədər,qüssə alar hey.

Sənsizlikdən bağrım başı sökülər,
Payız gələr.yarpaq yerə tökülər.
Sevinc.hamı sevinər,deyib-gülər.
Könlüm qəmli nəğməsini çalar hey.

Sevinc Arzulu

**Çalışma**

ÇALIŞMA

Burax nifrəti, kini
Pis olmağa  çalışma.
İçimdəki sevgini,
Öldürməyə çalışma.

Sənə məhəbbətimi.
Qəlbimdə dəfn edərəm.
Qaraltsan aləmimi,
Uzaqlaşıb gedərəm.

Nə gözün məni görməz,
Nə harayın yetişməz.
Əllərim çələng hörməz,
Qulaq nifrin eşitməz.

Gəlmə, könül qapısı
Tay-tay açıq olsa da.
Yox özəl bir tapusu,
Rəngi bir az solsa da.

Nə sən bunca uşaqlaş,
Nə də mən ana olum.
Ayrılıqdan uzaqlaş,
Yaxın gəlməsin ölüm...
20.12.2018.

Sevinc Arzulu

**Çalmısan  beni**

Külek gülü eyib,kolu aşıb ki,
Dalğa  sözün deyib, sahil aşıb ki.
Xetrine kim deyib,kim dalaşıb ki,
Özün yorub yola salmısan beni.

Avara dostlara qatılmamışam,
Vüsalın evinden atılmamışam.
Eh,ben ki şöhrete satılmamışam,
Kimden,ne qiymete almısan beni.

Ne vaxtdan çekdiyin eşmen olmuşam?
Yadla dost,dostunla düşmen olmuşam? .
Dediyim söze de peşman olmuşam,
Ele ilan kimi çalmısan beni.

Sevinc Arzulu

**Çaparaq geldi**

Deyesen Tanrıya sözüm şatmamış,
Alışmır ocağa közü atmamamış.
Getdiyin yolların tozu yatmamış,
Bir ölüm xeberi çaparaq geldi.

Gedenler yeniden qayıdar yeni,
Dil deye bilermi ürek deyeni.
Bu qeder insanın içində meni,
Arayıb-axtarıb taparaq gəldi.

Yaşın hele qırxdı,elli, yüz deyil
Dünyanın astarı sima, üz deyil.
Deyirler, ulduzun axdı, düz deyil
O mavi semadan qoparaq geldi.
21.03.2018

Sevinc Arzulu

**Çapıb gelmisen**

Qıyma gözlərimdən yaş yağsın,əcəl.
Üstünə qar-dolu kaş yağsın,əcəl.
Qapqara yoluna daş yağsın,əcəl.
Atını dördnala çapıb gəlmisən.

Yaman fəxr edirsən get-gəlin ilə,
Gözləri aldadan zər ləlin ilə.
Səadət düzündə öz əlin ilə,
Hicranın büstünü yapıb gəlmisən.

Dərdi bol,fərəhi kəm gətirirsən,
Gülümsər gözlərə nəm gətirirsən.
Özünlə birlikdə qəm gətirirsən,
Zülümün yolunu tapıb gəlmisən.

Sevinc Arzulu

**Çapmısan ki.**

Qəm önündə çökdürməyin,
Göz yaşları tökdürməyin,
Mənə acı çəkdirməyin,
Yolunu tapmısan ki.

Ürəyində yar həvəsi,
Dodağında xar nəfəsi.
Narın yağan qar əvəzi,
Dolunu qapmısan ki..

Yaşam geri ödənilmir,
Alamazsan bədəlini.
Mənim ruhsuz bədənimin,
Solunu çapmısan ki...
14.12.2018

Sevinc Arzulu

**Çaşan yarım**

Hamı ile dil-dil öten,
Beni görüb sözü biten vefadarım,
Neden çaşdın?
Dil dolaşdı,ya ne,söyle.
itiriben özün böyle
kekeledin.
Sanma adın lekeledin.
Yox,eksine.
Bu çaşmağın,yavaşmağın lezzet verdi o an bene.
Heyran qaldım inan,sene.
Qelbindeki mehebbete,
Könlündeki sedaqete bir de,bir de vuruldum ben.
Sene sarı buruldum ben.
Salam verdim,
Salam aldın başın ile.
Gözlerinde donub qalmış bir damla göz yaşın ile.
Bilirim ki gözlemirdin benden bu cesareti,
Zencirini qıraq gerek görünmez esaretin.
Ellerinden tutub durdum,”sevirsenmi”-soruşdum,
Aman Tanrım,ne xoşbextem,sevdiyime qovuşdum.

Sevinc Arzulu

**Çaşıb gelmişim**

Gencliyi tez öten perimişim ben,
Yaramı çiçekle serimişim ben.
Sensiz gile-gile erimişim ben,
Sel olub dağları aşıb gelmişim.

Odlandım,qalmadı külüm gizlice,
Hemişe çekirdim zülüm gizlice.
Sensiz darıxırdım,gülüm,gizlice
Qelbimde hisslerim daşıb gelmişim.

Çetin ki yene de coşa qanımız,
Daha heç qalmayıb yarı canımız.
Bilirim,gecikib vüsal anımız,
Indi bu görüşe çaşıb gelmişim.

Sevinc Arzulu

**Çatıb**

Qan olub damardan axmır,neyneyim,
Başıma qızıl tac taxmır.neyneyim
Daha sözüme de baxmır,neyneyim.
Zülümün yetkinlik yaşına çatıb.

Yaşamı uzağa ötürüb daha,
Ozüne qaranı götürüb daha.
Ebedi üstünde oturub daha,
Ölümün ötkünlük daşına çatıb.

Vüsalın yerini işret alıbdır,
Sevginin könlünü rüşvet alıbdır.
Gören kimler nece xoşbext olubdur
Bölümün itkinlik qaşına çatıb.

Sevinc Arzulu

**Çek meni**

Məni sevdin ömrün gözəl çağında,
Qar olaram sənin sevgi dağında.
Istə,bir gün cücərərəm bağında,
Toxum olum,öz əlinlə ək məni.

Isitməyir səni atəşim,közüm.
Uzaqdasan ,yetəmmir sənə sözüm.
Sənsizlikdən elə qorxub ki gözüm,
Qoyma daha hicranınla tək məni.

Axan ulduz kimi qəfildən sönsəm,
O mavi göylərdən yerlərə ensəm.
Günlərin birində rəssama dönsən,
Ağlayan halımda elə çək məni.

Sevinc Arzulu

**Çekdiyini**

Bilirim.bu vaxtsız gedişim ile,
Sinene çal-çarpaz dağ çekdiyimi.
Taleyin amansız gerdişi bele,
Kanının üstüne yağ çekdiyini.

Etrini qoxlayıb bağrıma bassam,
Özümü vüsalın çetrinden assam.
Dünyanın işine neylesin ressam,
Öldüre bilermi sağ çekdiyini.

Bozaran torpağı yağışlayarmı,
Sadece ömrümü naxışlayarmı.
Tanrı özünece bağışlayarmı,
Işıqlı üzüme ağ çekdiyini.

Sevinc Arzulu

**Çeke bilmir**

Çiyninde ağır yük daşıyan hesret,
Vüsalın adını qaşıyan hesret,
Hicranla bir yerde yaşıyan hesret,
Bes niye yaxamdan el çeke bilmir.

Ne batır,ne de ki yanır ayrılıq,
Namerddir,sözünü danır ayrılıq.
Özünü ağsaqqal sanır ayrılıq,
Dağdan ağır derdi kel çeke bilmir.

Görüş olmalıyken onun merezi,
Vüsalın düşübdür benle qerezi.
Taleyim zergerdir,zaman terezi,
Tapdığı en böyük lel,çeke bilmir.

Sevinc Arzulu

**Çekeriyem men**

Qocaldım,qurumuş çaya bənzərəm,
Qəmliyəm,yarımçıq aya bənzərəm.
Saf,ləkə götürməz çaya bənzərəm,
Dəli Kür,Xan Araz,Həkəriyəm mən.

Çalmayır kamnım,sınıbdır sazım,
Ötüb cavanlığım,yox işvə,nazım.
Bu mənim qismətim,bu alın yazım,
Fələyin qapqara təkəriyəm mən.

Üstünü qar almış təpə dağ olmaz,
Xəstə düşmüş könlüm daha sağ olmaz.
Ayıar,illər ötsə.yaram sağalmaz,
Bu dərdi ölüncə çəkəriyəm mən.

Sevinc Arzulu

**Çekil, ayrılık**

Bu dünyanın yaxşısı nə,pisi nə
Çiskini nə,dumanı nə,sisi nə.
Bulaşdırma məni qara hisinə,
Gözümün önündən çəkil,ayrılıq.

Oturdun yenə də padşah sayağı,
Hər işin-əməlin hərzə,bayağı.
Nə əlin olaydı,nə də ayağın
Olasan quruca şəkil,ayrılıq.

Yol üstündə boynun burma qovaq tək,
Nə gəlirsən bəxtə üzlü qonaq tək.
Gərək səni bu dünyada qoyaq tək,
Vüsal gəlir,tezcə əkil,ayrılıq.

Sevinc Arzulu

**Çekmişem**

Hər vaxt düşürsən yadıma.
Qonaq gəl yaşıl adama.
Qəlb evimdən qəm odama,
Musiqili zəng çəkmişəm.

Illər alıb dincliyimi,
Azaltmışam kəcliyimi.
Gizlətmişəm gəncliyimi,
Üstə bəyaz rəng çəkmişəm.

Döz əzabın min tabına,
Dərdin acı xitabına.
Könlümün not kitabına,
Yeddicə ahəng çəkmişəm

Sevinc Arzulu

**Çeni sevmeyim**

SEVMƏYİM

Başımın üstündə hey əsəcəklər,
Hərdən barışacaq, gah küsəcəklər.
Deyəsən sonunda iş kəsəcəklər,
Zindanla bitəcək mənim sevməyim.

Səmavi mavini gölümdən alıb,
Laləni, nərgizi çölümdən alıb.
Gecəni-gündüzü əlimdən alıb,
Başıma bəladır səni sevməyim.

Dağları bürüyən dumandır, sisdir,
Həsrətin zalımdır, hicranın pisdir.
Allahın qəlbimə saldığı hissdir,
Bu qədər günahmı yəni, sevməyim?

Səni də illərin sürəti qovub,
Köksünə ayrılıq gülləri qonub,
Gecə qarası tək  telləri qoyub,
Günü-gündən artan dəni sevməyim.

Əzizim, həyata küskün olmayaq,
Yazıq görünməyək, miskin olmayaq.
Ömrün payızında çiskin olmaya?
Qüssəli anımda çəni sevməyim.
02.05.2018

Sevinc Arzulu

**Çeşme**

Buludlardan önde durum,
Göyde yeni dünya qurum.
Tüstülenir burum-burum,
Dağ çekdiyi eşme olar.

Şefeq ile oyanıb qar,
Kan rengine boyanıb qar.
Zirvesinde qayanıb qar,
Eteyinde çeşme olar.

Cücermez ki derd darısı,
Ağlar qalar derd qarısı.
Dövletlidir derd arısı,
Evi çeşme-çeşme olar.

Sevinc Arzulu

**Çeşme olar**

Buludlardan öndə durum,
Göydə yeni dünya qurum.
Tüstülənir burum-burum,
Dağ çəkdiyi eşmə olar.

Şəfəq ilə oyanıb qar,
Qan rənginə boyanıb qar.
Zirvəsində qayanıb qar,
Ətəyində çeşmə olar.

Cücərməz ki dərd darısı,
Ağlar qalar dərd qarısı.
Dövlətlidir dərd arısı,
Evi çeşmə-çeşmə olar.

Sevinc Arzulu

**Çeşmen oldum**

Dərdi-qəmdən çıxdın, çıxdın.
Könül evin yıxdın, yıxdın.
Məni elə sıxdın, sıxdın.
Sevməyimə peşman oldum.

Uydum şirin xəyallara,
Dözdüm acı məlallara,
Cavab tapdım suallara,
Dünya ilə düşmən oldum.

Telin qəmlə toxutduğun,
İç dünyasın dağıtdığın,
Gözlərindən axıtdığın,
Suyu duzlu çeşmən oldum.

Sevinc Arzulu

**Çetin ki**

Çətin ki əvvəlki tək  mehriban, şən olacam.
Pastlaşsaq üz çevirən yenə də mən olacam.
Çırpınaraq duracam xəyalların içində,
Məni tanımazlar ki ağappaq qu biçimdə.

Məhəbbətin sultanı, padişahı sən oldun,
Dağılmış xanimanı, nalə-ahı mən oldum.
Getməyimi istəmirdin,qabağımı kəsərdin.
Yollarımın üstündəcə tufan olub əsərdin.

Səni özgə sevmədi ki gül-rənadan savayı,
Yaddaşımda qalmir heç nə, sirr- mənadan savayı.
Bilirəm, atıb vurduğun o qadından ötrüdür,
Həsrət planı qurduğun öz adından ötrüdür.

Inan, daha dolaşmaram əlinə, ayağına,
O gözəlçən  dönsün sənin həyatda dayağına.
Nə bilirsən el içində sən xar  olmayacaqsan,
Ayrılıq adlı zalıma sən yar olmayacaqsan.
28.06.2018

Sevinc Arzulu

**Çetin qaçılar**

Tanrım, səndən özgə, əziz kəsim yox.
Göylər sakit, bir azacıq nəsim yox.
Özü kimi əsrarəngiz rəsm yox,
Bu gecənin sirri nə vaxt açılar.

Acı olur həsrətin lal röyası,
Hər könüldə vardır kədər dünyası.
Günü-gündən azalır bax, ziyası,
Tənha qəlbdən qara işıq saçılar.

Həyat baxça, göz yaşıdır bəhəri,
Boğazına tıxanıbdır qəhəri.
Yoxa çıxır aydınlığı, səhəri,
Dünya nalan, qəmdən çətin qaçılar.

Sevinc Arzulu

**Çıxacaqdır**

Yalandan ved verir dünya çoxuna,
Qoşul hamı geden qızıl axına.
Birce addım bele gelme yaxına,
Nahaqdan adıma söz çıxacaqdır.

Ferehim lal olub, heykele dönüb,
Derd qemle birlleşib lal sele dönüb.
Ele yanacaq ki, meşele dönüb,
Qurunun sonuna köz çıxacaqdır.

Ayrılıq ünyetmez uzağa getsin,
Tek vüsal yarısın, kamına yetsin.
Qorxuram bu sevda yarıda bitsin,
Çetin sevgi falım düz çıxacaqdır.

Sevinc Arzulu

**Çıxaq, gedek**

Ürəyimiz qəmdən ağlar,
Yolumuzu fələk bağlar.
Aramızı kəsib dağlar,
Bu sərhəddi yıxaq gedək.

Bəxtin,qədərin əlini,
Ömrü hədərin əlini.
Gülüm, kədərin əlini
Bircə dəfə sıxaq gedək.

Qəm üçün nişan taxdılar,
Bizi yandırıb yaxdılar.
Üzümüzə çəp baxdılar,
Dur ayağa, çıxaq gedək.

Sevinc Arzulu

**Çıxıb**

ÇIXIB

Ildırım ötəndə çaxmayan oğlan,
Çay  olub dənizə axmayan oğlan,
Dönüb keçmişinə baxmayan oğlan,
Boylan bax, nə isə yadında çıxıb.

Sən molla demisən hər bir hacıya,
Heç arxa olmadın ana-bacıya.
Elə öyrənmisən elə, acıya
Bu ləzzət, bu təam dadından çıxıb.

Oxuya bilirsən al hekayəti.
Könül kitabına sal hekayəti.
Dünyanın ən uzun bal hekayəti,
Sənin dörd hərfli adından çıxıb.

Sevinc Arzulu

**Çıxım, gedim**

Azalıban çıxılıram,
Yavaş-yavaş yıxılıram.
Qəm evində sıxılıram,
İcasə ver,çıxım gedim.

Telefonun gözləyincə,
Səsin tonun gözləyincə.
İşin sonun gözləyincə,
Urəyimin yağın yedim.

Endirib qəm pərdəsini,
Dərd itilər rəndəsini.
Öz sevimli bəndəsini,
-"Tanrı salmaz gözdən"-dedim.

Sevinc Arzulu

**Çıxmışam**

Yamanın  yürüşü selib,
Yaxşının yuxusu gelib.
Qaranlığın bağrın delib,
Günün elini sıxmışam.

Göreceyi yalnız budu,
Hicran sarısını udub.
Vüsalla el-ele tutub,
Hesretin evin yıxmışam.

Incileşib dürleşerik,
Arazlaşıb Kürleşerik.
Bir nöqtede birleşerik,
Sözle üzbeüz çıxmışam.

Sevinc Arzulu

**Çiçek tek**

Tapınaq ilahi qüdrətə,gülüm,
Son qoyaq hicrana,möhnətə.gülüm.
Dözməyib əbədi həsrətə,gülüm,
Dağlar da kiçilib təpələnibdir.

Xəzərin boynuna ağ mirvari tax,
Başının üstündə şimşək kimi çax.
Sahilə sevginin gücünə bir bax,
Sular qırçın-qırçın lərələnibdir.

Məhəbbət bənzəməz,gülüm,ehsana
Göz yaşı dönməsin soyuq leysana.
Sevgi qüdrət verir hər bir insana,
Odur ki çiçək tək səpələnibdir.

Sevinc Arzulu

**Çinar ağacı**

Sən mənim bağımın çinar ağacı,
Mən sənin könlünün şah pərdəsiyəm.
Sən mənim başımın qızıldan tacı,
Sevən ürəklərin pərvanəsiyəm.

Boylanıb ümidin pəncərəsindən,
Baxıram sən gedən yollara sarı.
Dayanıb şəhərin daş küçəsində,
Səni qucaqlyan qollara sarıl.

Içimi titrədən qabarcıqların,
Amanı gəlincə partlaması var.
Biçimi qətrətək tumurcuqların,
Zamanı dəlincə çatlaması var.
29.04.2018

Sevinc Arzulu

**Çiskin oldu**

Qızların dinci məndim,
Elin sevinci məndim.
Dünyadan incimədim.
Eşqinə küskün oldum.

Qəlblə döyünən vüsal,
Sənlə öyünən vüsal,
Gözəl görünən vüsal,
Eh, nədən miskin oldu.

Həsrətin meşəsində,
Ayrılıq nəşəsində..
Könlümün guşəsində,
Yel əsdi, çiskin oldu.

Sevinc Arzulu

**Çiynimde gezer**

Sevgi qəlbin əlifbası,
Yaman əsir dərd səbası.
Qara paltar qəm libası,
Yenə də əynimdə gəzər.

Qəm dağından etdim seyr,
Ayrılıqdan gəlməz xeyr.
Sənə həsr etdiyim şeir,
Hələ də beynimdə gəzər.

Gözəl,xoş həyat görmədim,
Yad güldən çələng hörmədim.
Mən dərdə sinə gərmədim,
Dərd mənim çiynimdə gəzər.

Sevinc Arzulu

**Çox iken**

Sahil boyu gəzişdik,
Xatirələr ox ikən.
Nədən yenə görüşdük,
Vəslə inam yox ikən.

Kimə qarışıb başın,
Parlamayır qaş-daşın.
Necə yeyim dərd aşın,
Ürək qəmdən tox ikən.

Mənə oldu çox zülüm,
Susdu könül bülbülüm.
Necə şənlənim,gülüm
Iztirabım çox ikən.

Sevinc Arzulu

**Çox uzandı**

Vüsalından doymarıq,
Çaldığına oynarıq,
İçindəcə qaynarıq,
Dünya qaynar qazandı.

Gözümə işıq düşüb,
Könlümə aşiq düşüb.
İşi dolaşıq düşüb,
Fələk yolun azandı.

Qolum qəmin golunda,
Dərd,kədər sağ-solunda.
Bu sevdanın yolunda,
Qəlb tək ağrı qazandı.

Sevda sevilən kəsin,
Gizlədər eşq nəğməsin.
Məhəbbət salnaməsin,
Ürək qanla yazandı.

Qüssəni atammırıq,
Gecələr yatammırıq.
Sonuna çatammırıq,
Bu sevda çox uzandı.

QURULMUŞAM

Sevinc Arzulu

**Çoxu sınar**

Gündüz çölümdə doğular,
Gecə içimdə qaralaq.
Taxıl zəmisi sovular,
Yaşıl sünbüllər saralar.

Şevdiyini itirəməz,
Ürəyim heç vaxt.
Kədər gülü bitirəməz
Bu tale,bu baxt.

Xəyallarım oraq olar,
Biçər qəmi bircə anda.
Ağ barmaqlar daraq olar,
Hisslər coşar qara qanda.

Kədərini mənlə bölər,
Sevincini gizli saxlar.
Mən ölərsəm o da ölər,
Dünyanın təməli laxlar.

Yer çıxar öz məhvərindən,
Kainatın oxu sınar.
Azalmayan dərd-sərindən,
Insanların çoxu sınar.

Sevinc Arzulu

**Çoxu sevir**

Baxma feleyin daşına,
Saxta axan göz yaşına.
Pisi yaxşının başına,
Çevir, başına döndüyüm.

Yalnız lirik neğme oxu,
Qızılgülden çeleng toxu.
Neyniyim ki meni çoxu,
Sevir, başına döndüyüm.

Inan sen anda, amane,
Tuş olmayaq ox- kemaeə.
Bele gelibdir zemane,
Dövr, başına döndüyüm.
28.05.2015

Sevinc Arzulu

**Çoxu sınar**

Gündüz çölümdə doğular,
Gecə içimdə qaralar.
Taxıl zəmisi sovular,
Yaşıl sünbüllər saralar.

Sevdiyini itirəməz,
Fərəh heç vaxt.
Kədər gülü bitirəməz,
Bu tale,bu baxt.

Xəyallarım oraq olar,
Biçər qəmi bircə anda.
Ağ barmaqlar daraq olar,
Hisslər coşar qara qanda.

Kədərini mənlə bölər,
Sevincini gizli saxlar.
Mən ölərsəm o da ölər,
Dünyanın təməli laxlar.

Yer çıxar öz məhvərindən,
Kainatln oxu sınar.
Azalmayan dərd-sərindən,
Insanların çoxu sınar.

Sevinc Arzulu

**Çörekmiş**

Düşüb qisas bölmüne,
Sevinib xar ölmüne.
Feleyin her  zülmüne
Boyun eymek gerekmiş.

Baxıb veslin dadına,
Heyran olduq adına.
Yanıb hicran oduna,
Ezab çeken ürekmiş.

Qulağıma gelir ses,
Çöreyi  dost ile kes.
Dünyada en müqeddes,
Ana, torpaq, çörekmiş.
08.10.2018

Sevinc Arzulu

**Dağ babam**

Bu dağ benim qoca babam,
Üzü-gözü qırış-qırış.
Burada yurd salıb obam,
Gezim onu qarış-qarış.

Her qırışı bulaq yolu,
Her qarışı xezinedir.
Sis,dumandır sağı,solu
Bes şırıltı sesi nedir.

Neçe bulaq yığışaraq,
Eteyinde çeşme olar.
Vermese de yağış ara,
Hey çekdiyi eşme olar.

Burum-burum tüstülenir,
Bize tanış qoxusu da.
Ocaq çataq,istilenek
Vardır azmaq qorxusu da.

Bu dağın o yanı eniş,
Zirvesine qalxmaq gerek.
Meşesi,ormanı geniş
Göz dolusu baxmaq gerek.

Özü qara,zirvesi ağ
Ay benim nurani babam.
Ömr eder şen,damağı çağ
Gülerüz,pirani babam.

Bütün neve-neticeni,
Birce-birce say gelende.
Unutmaram qeti seni,
Yene gellem yay gelende.

Sevinc Arzulu

**Dağ sergisi**

Könül qüssə içrə azır,
Duyğusunu ancaq yazır.
Ey insanlar, olun hazır
Çalınacaq qəm şərqisi.

Qızılgüllər pərişandır,
Al lalənin bağrı qandır.
O da sən tək nigarandır,
Dəli könül, sev nərgizi.

Ayrılığın odu vardır,
Doğması yox, yadı vardır.
Min illərdən yadigardır,
Gəz Vətənin daş sərgisin.

Sevinc Arzulu

**Dağıl, dünya**

Öz bildiyim özümə bəs,
Vermə mənə ağıl dünya.
Heç özünü yorma əbəs,
Dediklərin nağıl, dünya.

Hicran atın yaman çapar,
Harda olsam məni tapar.
Nə zəlzələ, tufan qopar,
Nə kökündən dağıl dünya.

Çətin olub bizə həyat,
Ömür sürürük narahat.
Zəlzələsiz sakit həyat,
Yaşayırıq mağıl,dünya.

Sevinc Arzulu

**Dağlar oğlu**

(Azerbaycan esilli Türk ozanı
Emrah Neroğluna)

Dağlar oğlu, gelsin sesin,
Gül etirli xoş nefesin.
Türkü oxu hezin-hezin,
Uzaqlara yayılsın qoy.

Nağıl söyle, dastan de sen.
Öyretmene usta de sen,
Aram-aram, asta de sen,
Xatireler ayılsın qoy.

Dile gelsin sedefli saz,
Harda vardır gözel avaz.
Xeyir ile gelsin bu yaz,
Şeri-şeytan bayılsın qoy.

Sevinc Arzulu

**Dalaşa qalıb**

Sahile çırpılan dalğalar kimi,
Könlümde çırpınan qovğalar kimi,
Qar,tufan gözleyen qarğalar kimi,
Yalançı duyğular dalaşa qalıb.

Vüsalın evini yıkıb gedibler,
Hesretin elini sıkıb gedibler.
Qapını vuraraq çıkıb gedibler,
Yorğun ümidlerim dolaşa qalıb

Hicran ellerine qoyubdur hena,
Nedir gizlediyi açılmaz mena.
Gördüyüm menzere o qeder fena,
Danışa bilmeyen dil aşa qalıb.

Sevinc Arzulu

**Dalaşıb,  düşüb**

Görüşüm şenliyin camaatıyla,
Bir söhbet eyleyim salamatıyla.
O qeder yol gedib sema atıyla,
Üz-gözü palçığa bulaşıb,düşüb.

Neden öz güzarın salıbdı göyden,
En parlaq ulduzu alıbdı göyden.
Ayağı asılı qalıbdı göyden,
Özü öz derdine dolaşıb,düşüb.

Sanır ki açılıb işıqlı baxtı,
Beyenmir masmavi,yupyumşaq taxtı.
Ay göze görünmür bu gece vaxtı,
Yeqin dan yeriyle dalaşıb,düşüb.

Sevinc Arzulu

**Dalğalar kimi**

Bircə qanunu var əbədiyyətin,
Həmişə düz olsun fikrin, niyyətin.
Torpaq tək kövrək ol, qaya tək mətin,
Sahilə çırpılan dalğalar kimi.

Ən böyük xəzinə sevən ürəkdir,
Qiymətli incisi arzu-diləkdir.
Aşıq tək deyişmək nəyə gərəkdir,
Bitməyən ədəbi qovğalar kimi.

Ay şair, sözləri usta-usta düz,
Durnalar köç edir dəstə-dəstə, süz.
Xəyal dənizində asta-asta üz,
Göy sular gəmini yırğalar kimi.

Sevinc Arzulu

**Damcın hanı**

Xoş günümdə vay olmusan,
Yaz vaxtında yay olmusan.
Hamı üçün çay olmusan,
Mənim üçün damcın hanı.

Demədim qədr-qəza ver,
Işıq saçan nur fəza ver.
Pis adama sən cəza ver,
Yarəb, iti qamçın hanı.

Aradığım sonalardı,
Bizim gölə qonarlardı.
Yolum üstü minalardı,
Igid istehkamçı hanı.

Sevinc Arzulu

**Damcısı tutub**

Acı qatar şirin bala,
Qüssə yeyək bala-bala.
Kədər doğar, ya da bəla,
Dünyanın sancısı tutub.

De, riya nə, doğru-düz nə
Təbəssümsüz qəmli üz nə.
Köksündəki qara iz nə,
Taleyin qamçısı tutub.

Düzlük bir addım yerimir,
Həsrət tez tapar yerimi.
Namədə nöqtə yerini,
Gözümün damcısı tutub.

Sevinc Arzulu

**Dar  ağacından**

Qelb otağı qem ehengli,
Könül notu derd ahengli.
Al gülleri güneş rengli,
Göz çekmem nar ağacından.

Göyden qar tekin elenme,
Beyaz renge sen belenme.
Kölgesinde kölgelenme,
Uzaq dur xar ağacından.

De,elinden hara gedim,
Acını da bal tek yedim.
Birce defe haqqı dedim,
Asıldım dar ağacından.

Sevinc Arzulu

**Dar ağacıyam**

Vüsalın boynumdan asılı qalıb,
Əlləri hər yerdən kəsili qalıb.
Beynində intihar üsulu qalıb,
Mən fani dünyanın dar ağacıyam.

Yaşılı geyib də soyar adamlar,
Bilməz heç eyib də, oyar adamlar.
Sözümdən yeyib də doyar adamlar,
Həmişə ətirli bar ağacıyam.

Bu sevgi nağılı deyən uzundur,
Üşüyən qəlbimi sözlə qızındır.
Dəyişə bilmərik, alın yazımdır,
Meyvəsi sevilən nar ağacıyam.
01.05.2018

Sevinc Arzulu

**Daran, su perisi**

Tellərini su yusun da,
Köynəyi geyər yosundan.
Uzaqda dur sirr-ovsundan,
Bəzən, daran su pərisi.

Dəniz gülü solmaz olar,
Su damcısı almaz olar.
Sudan ayrı qalmaz olar,
Parlar xaran, su pərisi.

Xəyalların tacı hissdir,
Duyğulara bacı hissdir.
Ayrılıq tək acı hissdir,
Qəlbi yoran, su pərisi

Atdığın həsrət oxumu,
Könlündə boş yer yoxumu?
Əksəm də sevgi toxumu,
Bitməz, şoran, su pərisi.

Gecə-gündüz öy özünü,
Dalğalarla döy özünü.
Görəmməzsən göy üzünü,
Hava toran, su pərisi.
22.02.2014

Sevinc Arzulu

**Darıxır adam**

İsti tendirine çörek yapmayır,
Atını dördnala çölde çapmayır.
Derdini demeye  kimse tapmayır.
Ele öz-özüyçün darıxır adam.

Insanlar gezişir al-elvan fonda,
Heresi danışır ayrı cür tonda.
O qeder pisliyi görüb ki sonda,
Yaxşını görende karıxır adam.

Yarına qovuşur arzularında,
Halallıq axtarır ruzulrında.
Heyatın amansız sel-sularında,
Bütün ömrü boyu hey axır adam.
04.04.2018.

Sevinc Arzulu

**Daş asılıb**

Bənövşə tək boynun burub,
Özünə gəlməyibi qürur.
Elə hey çırpınıb durur,
Ürəyimdən daş asılıb.

Bir qulaq asmadın mənə,
Nələr deyim, nələr sənə.
Bürünmüşəm duman-çənə,
Gözlərimdən yaş asılıb.

Yalanı düz tək yemədim,
Olanı duz tək yemədim.
Nədən sevgimi demədim,
Dil ucundan kaş asılıb.
03.12.2018

Sevinc Arzulu

**Daş daşı**

Qəmli ürək heç gülməz,
Göz yaşın kimsə silməz.
Namərd qədrini bilməz,
Ömür boyu daş daşı.

Hicranın zəhmi ağır,
Üzündən həsrət yağır.
Qayaya az çək dağı,
Sonucunda daş daşır.

Yanmadın ki oduma,
Çatmadın ki dadıma.
Heç nə düşmür yadıma,
Xatirələr daşdaşıb.

Dövran kimi ,zaman tək,
Üzr kimi, aman tək.
Sovrulmuş dəyirman tək,
Yeyəcəkdir daş-daşı.

Yerinmi, göyünmüsən
Qəlblə bir döyünmüsən.
Əzizim, böyümüsən,
Azca oyna daş-daşı.

CAVAB VERİN

Sevinc Arzulu

**Daş körpüsünde**

An lazımdır daşmaq üçün,
Yerdən göyə düşmək üçün.
Oxları var düşmən üçün,
Allahın ol kirpisində.

Nə söhbətə,sözə gəldik
Sonda axır gözə gəldik.
Ah.necə üz-üzə gəldik,
Hicranın daş körpüsündə.

Odda közümü tapdım mən,
Adda sözümü tapdım mən.
Axır özümü tapdım mən,
Dünyanın saf körpəsində.

Sevinc Arzulu

**Daş o daş deyil daha**

Duyaram qərib səsi,
Qarsıdar od nəfəsi.
Yoxdur gənclik həvəsim,
Yaş o yaş deyil daha.

Fərəh qəmdən çox  olmur,
Hicrin evi yox olmur.
Əvvəlki tək sıx olmur.
Qaş o qaş deyil daha.

Şüa qaynar içində,
Ziya ayna içində.
Külək oynar içində,
Baş o baş deyil daha.

Qoyma həsrət böyüsün,
Özü ilə öyünsün.
Bişməyib ki düyüsü,
Aş o aş deyi ldaha.

Yar qızılgül bitirib,
Külək ətrin gətirib.
Ağırlığın itirib,
Daş o daş deyil daha.
09.11.2018

Sevinc Arzulu

**Daş oldu**

Parıldayan inci dürrüm,
Sade qaş oldu,qaş oldu.
Daim gizli qalan sirrim
Neden faş oldu,faş oldu.

Telim darar bir serin meh,
Ömür bene tanrıdan beh.
Gül üstünden süzülen şeh,
Gözde yaş oldu,yaş oldu.

Hicran bize qurdu duzaq,
Istedi ki biz uduzaq.
O qeder çekdim ki ezab,
Ürek daş oldu,daş oldu.

Sevinc Arzulu

**Daş pillesinde**

Çətin ayrılığın fövqündə durum,
İşimi həsrətin zövqündə qurum.
Mən necə əyləşim, necə oturum,
Hicranın buz kimi daş pilləsində.

Buludlar göz yaşın ələrmi görən,
Vüsalın quzusu mələrmi görən.
Həqiqət özünə gələrmi görən,
Yalanın amansız yaş şilləsindən.

Özün sevgiyə kölə bilərmiş,
Göz yaşın döndərib gölə, bilərmiş.
Insan yaralanıb ölə bilərmiş,
Dostun atılmayan boş gülləsindən.

Sevinc Arzulu

**Daş qabağında**

Danışar gizlicə, susar gizlicə,
Gələni, gedəni pusar gizlicə.
Kölgə də ozünü asar gizlicə,
Qaranlıq gecənin qaş-qabağından.

Deyən Allah kəsib köz insafını,
Kəlam insafını, söz insafını.
Şair asta yeyər öz ehsanını,
Pürrəngi çay ilə aş qabağında.

Dağlar təpə-təpə biliklənəcək,,
Dəniz ləpə-ləpə diliklənəcək.
Ayna qəlpə-qəlpə çiliklənəcək,
Neyniyə bilər ki daş qabağında.
25.01.2018.

Sevinc Arzulu

**Daşına  dönüm**

Acı hesret qelb evinden qovular,
Hicran özü külek ile sovular.
Atası-anası mermer yonulan
Tez qayıt, gözünün yaşına dönüm.

Qaralan dünyamı gündüz eyle sen,
Xetrine deymerem inan, neylesen.
Bene birce kelme “heri” söyle sen,
Geciken sözünün başına dönüm.

Xatiren en sadiq dostdur, heyandır,
Gedirik, sonuncu nöqte hayandır.
Özünle bilikde beni de yandır,
Qızaran közünün daşına dönüm.

Sevinc Arzulu

**Daşındasan**

Çox məşhur ad-san olanım,
İnsan tək insan olanım.
Ay mənim leysan olanım,
Gözlərimin yaşındasan.

Fələk yenə seçimdədir,
Gecə-gündüz  biçindədir.
Hicran qəmi içimdədir,
Sən könlümün başındasan.

Ey insanlar, mərdi sevin,
Qurbanıdır zalım devin,
Qara mərmər məzar evin,
Dil açmayan daşındasan.
03.12.2018

Sevinc Arzulu

**Daşlama, dünya**

Darıxma ey duman, sən ahım üçün.
Göz yaşı tökərəm pənahım üçün.
Bilmədən etdiyim günahım üçün,
Daşlama sən məni, daşlama dünya.

Ziyası azalmış sönən ocağam,
Sanırdım keçmişi unudacağam.
Bilirəm, yenə də uruzacağam,
Mənimlə cənginə başlama, dünya.

Qüssəli könlümü ovudan yoxdur,
Gül bağda, bülbülü oxudan yoxdur.
Doğma əllərivlə qurudan yoxdur,
Ala gözlərimi yaşlama, dünya.
Daşlama sən məni, daşlama dünya.

Sevinc Arzulu

**Daşlaşmışam men**

Nədəndir asanı saldın çətinə,
Yolumu dirədin dalana, tinə.
Indi qüdrətliyəm,indi mətinəm
Təpədən dırnağa daşlaşmışam mən.

Axtarıb gəzmirsən haçandı məni,
Yazdığım şeirlər ucaltdı məni.
Etdiyin hərəkət qocaltdı məni,
Bir gündə neçə il yaşlaşmışam mən.

Görəsən bu dünya mənə nə verib?
Yalan imidlərdən bir çələng hörüb.
Etdiyim səhvlərin acısın görüb,
Çox-çox heyfsilənib "kaş"laşmışam mən.

Sevinc Arzulu

**Dayanıb baxdım**

Kədər-qəm qaynayıb daşırdı, Allah,
Həsrətdən necə də üşürdüm,Allah.
Başımı necə də bişirdi,Allah
Aldandım yalanın kəlmələrinə.

Ayrılıq qoxudu pətəyim, balım.
Nələri  hiss etdim, qadanı alım.
Məni də toxudu zəmanə zalım,
Dolaşdım hicranın ilmələrinə,

Nə parlaq günəş tək yandırıb-yaxdım,
Nə də şimşək kimi səmanda çaxdım.
Eləcə uzaqdan dayanıb baxdım,
Adımı qəlbindən silmələrinə.
11.11.2017

Sevinc Arzulu

**De,hardasan**

Felek benle çıxar qohum,
Çün tanışdır ona ahım.
Bedenimden çıxan ruhum,
De,hardasan,de hardasan.

Duyğularım ülvileşer,
Uyğularım cilveleşer.
Qayğılarım kölgeleşer,
De,hardasan,de,hardasan.

Vüsal köçün sürüb daha,
Hicran telin hörüb daha.
Hesret beni görüb daha,
De,hardasan.de,hardasan.

Sevinc Arzulu

**Dede qorqud**

Gəlmişik görüşə əllərdə çiçək,
Onları sən bizdən al,Dədə Qorqud.
Sənin gəlişinə sevinir ürək,
Şənlikdə bir qopuz çal,Dədə Qorqud.

Düşmən əlindədir ana torpağım,
Çatmayır yurduma səsim-sorağım.
Paslanır qınında qılınc yarağım,
Qarabağ qəlbimdə xal,Dədə Qorqud.

Sən əldə qopuz tut,biz əldə silah,
Qəlbdə vətən eşqi,könüldə Allah.
Həsrətdən saçımız ağarıb vallah,
Yolunu bizlərdən sal,Dədə Qorqud.

Arzun azad görmək bütün Oğuzu,
Çağır köməyimə Qazanı,Uruzu.
Al əlinə Ozan baba,qopuzu,
Şirin xəyallara dal.Dədə Qorqud.

Bir vaxt azad edərik Qarabağı,
Silinər ürəkdən torpaq,el dağı.
Gələr vətənimin azadlıq çağı,
Bizim şənliklərə qal,Dədə Qorqud.

Ər igidin döyüş yeri-Qarabağ,
Xalqımızın dərdi-səri Qarabağ.
Təbiətin şah əsəri Qarabağ.
Indi bizə bir xəyal,Dədə Qorqud.

Sevinc, xalqın gücünə arxalansın,
Igidlərin dəniz tək çalxalansın.
Qarabağın üstündə dalğalansın,
Bayrağım-göy,yaşıl,al Dədə Qorqud.

Sevinc Arzulu

**Dediler**

Denizden incini alasan gerek,
Tufandan gücünü alasan gerek.
Vaxtında öcünü alasan gerek,
“Qisas qiyamete qalmaz”-dediler.

Bağbana şirindir yalnız öz barı,
Yamanca tutubdur doğru söz xarı.
Küsdürüb incitdim alagöz yarı,
“Bir de yolun burdan salmaz “-dediler

Ey könül,muradın tanrıdan iste,
Yoxsa derd üreyin salacaq xeste.
Reqibi tutdular başımız üstde,
Kiymetsiz daşına”Almaz”dediler.

Sevinc Arzulu

**Defn edim**

Məni cəlb eləmir yaşıl çöl-çəmən,
Torpağın üstündə od-ocaq qurum.
Bir palıd kölgəsi axtarıram mən,
Günəş nur saçanda altında durum.

Dalım bir zamanlar şipşirin olan,
Indi acı dadan bal keçmişimə.
Burnumda yalnızca ətiri qalan,
Danışa bilməyən lal keçmişimə.

Bəlkə də haqsızam bu çözümdə mən,
Tapa da bilmirəm ipin ucunu.
Kimə oxşamışam bu dözümdə mən,
Qəlbimdə dəfn edim günah-suçumu.
19.02.2018

Sevinc Arzulu

**Defn eyleyin**

Beni göyde defn eyleyin:
buludların arasında.
Öz yerimi tapım göyün
Gözlerinin qarasında.
Beni göyde defn eyleyin,
Yerde olub-keçeni görüm.
Bana doğma,eziz küçeni görüm.

Beni göyde defn eyleyin:
ruhum uçub yere gelsin,
Temiz hava şeire gelsin.
Darıxmayım.
Her deqiqe seyr eyleyim sizleri,
Qoşa ulduza dönüb baxsın-baxsın gözlerim.
Seni tek qoyduğuma göre
özümü qınamayım.
Bensiz darıxan dostlarımı
çetinde sınamayım.
Torpaqdan yaranan
torpağa qayıdar.deyirler.
Ben de göylerden geldiyime göre
ora qayıdam gerek.

Sevinc Arzulu

**Deli  könlüm**

Bir merdin gözünde ucalan könlüm,
Namerdin sözünden qocalan könlüm,
Hesretin özünden öc alan könlüm,
Göyler yorğanını buluddan salar.

Saçları dağların ağ qarı olar,
Peymanı zamanın ilqarı olar.
Yene de en sadiq dost-yarı olar,
Yene son teşnesin ümidden alar.

Qeder ayrılığı qelbe ad eyler,
Xarı sevindirer,onu şad eyler.
Benim deli könlüm seni yad eyler,
Senin daş üreyin unutqan olar.

Sevinc Arzulu

**Deli çılğınlığım**

Tək umduğum sait olar,
Unutduğum samit olar.
Tək özümə aid olar,
Bunca dəli çılğınlığım.

Doymuşam yer kürəsindən,
Kədərlimənzərəsindən.
Günəşin bir zərrəsindən,
Kül olacaq yulğunluğum

Uzaqlara gedirəm də,
Azalmayır durğunluğum.
Istirahət edirəm də,
Heç  çıxmayır yorğunluğum.

Sevinc Arzulu

**Deli eder adamı**

Lalə olub göy çəməndə bitirəm,
Çöl gülləri içindəcə itirəm.
Səni sevib nə qazandım ittirəm,
Əzablarım söylə,getdi badamı?
Məhəbbətin dəli edər adamı.

Başın üstdə meh tək əsə bilmirəm,
İstəsəm də səndən küsə bilmirəm.
Hicranın yolunu kəsə bilmirəm,
Öz əlimlə səni verim yadamı.
Məhəbbətin dəli edər adamı.

Qocalıban yaşa dola bilmədim,
Yolumdan tikanı yola bilmədim.
Gülüm,mən səninki ola bilmədim,
Gecikmisən,daha alma qadamı.
Məhəbbətin dəli edər adamı.

Sevinc Arzulu

**Deli könlümün**

Fələk kələfini dolaşıq saldı,
Atamı, anamı əlimdən aldı.
Bütün arzularım yarımçıq qaldı,
Çiçəyi tez soldu dəlı könlümün.

Eşitdi dünyanın kədər zəngini,
Yaşatdı qəlbində qəm ahəngini.
Görəndə həyatın qara rəngini,
Ala gözü doldu dəli könlümün.

Heç kim başa düşməz, anlamaz onu,
Geyinməz əyninə qırmızı donu.
Bir gün görərsiniz axırı-sonu,
Qara torpaq oldu dəli könlümün.

Sevinc Arzulu

**Deli könül**

Arzuların puça getdi,
Ümidlərin uça getdi.
Etdiklərin heçə getdi,
Nə istərsən,dəli könül.

Hanı sevdiklərin,hanı
Dostu seç,düşməni tanı.
Olmadı qəsrinin xanı.
Nə istərsən dəli könül.

Yadlar gəlib yağmaladı,
Gülüşünü boğmaladı.
Dərd qapısın bağlamadı,
Nə istərsən dəli könül.

Dərə getdi,düzən gəldi.
Vəslə ağız büzən gəldi.
Rişxənd ilə süzən gəldi,
Nə istərsən dəli könül.

Sən ki hər vaxt piyadasan,
Dərdi həddən ziyadasan.
Qara nurda,r ziyadasan.
Nə istərsən dəli könül.

Ala gözü nəm eylədin,
Ağrıları cəm eylədin.
Bəsdir daha,qəm eylədin
Nə istərsən dəli könül.

Dərdin ağzı açıq qalsın,
Evi yarıuçuq qalsın.
Kədər hər vaxt kiçik qalsın,
Nə istərsən dəli könül.

Sevinc Arzulu

**Deli sevdanın**

Hicranın telini darardımı heç,
Vüsalın bağrını yarardımı heç.
Ağıllı olsaydı arardımı heç,
Yadına düşmüşem deli sevdanın.

Her işi,emli sözüyle qoşa,
Alovu, ateşi közüyle qoşa.
Meni de yandırır özüyle qoşa,
Oduna düşmüşem deli sevdanın.

Şip-şirin dadmadı dadımız bizim,
Unutqan olubdur yadımız bizim.
"Sev"ile başlayır adımız bizim,
Badına düşmüşem deli sevdanın.

Sevinc Arzulu

**Demek ellidir**

Bu dünya ezelden sirli tapmaca,
Arabir dost-tanış atır atmaca-
-"Qocalıq qapını döyür yamanca".
Saçlarım ağarıb, mene bellidir,
Qırx  yaşdan  keçibse , demek ellidir.

Yolumu laleli düzden salmışam,
Her gülden, çiçekden min kam almışam.
Ezizim söyleme yaxşı qalmışam.
Bilirem, sözlerin bir tesellidir,
Qırx yaşdan keçibse demek ellidir.

Gencliyin sevdası heç düşmez ele,
Qalmayıb evvelki sebr, hövsele .
Qocalıq mürekkeb çein mesele,
Cavanlıq iksiri onun hellidir.
Qırx yaşdan keçibse, demek ellidir.

Sevinc Arzulu

**Demek onda  qocalmışam...**

Ne zaman ki
ağlayaram,üzüm gülmez,
Danışanda sözüm gülmez,
Dost-tanışı gözüm görmez.
Demek onda qocalmışam.

Ne zaman ki
addımlarım yavaş olar,
Keder bene sirdaş olar.
Her saniyem,her də qiqem
dünya ilə savaş olar.
Demek onda qocalmışam.

Ne zaman ki
tesir etmez etir bele,
Qem-yağışdan qorumasa çetir bele,
Yazammasam şeir birce setir bele
Demek onda qocalmışam.
Demek onda qocalmışam.

Sevinc Arzulu

**Demek yaşayıram..**

Hele ki geceler işığım yanır,
Unutmur dost-tanış arayıb anır,
Sevdiyim qelbinin sultanı sanır.
Zirvesi bembeyaz çalmalı dağam.
Demek yaşayıram,ben hele sağam.

Hele ki dan yerim güneşle doğur.
Qapqara hesreti vüsalım boğur.
Tanrı övlad payı verib:qız,oğul.
Günahım,suçum yox heç,üzüağam.
Demek yaşayıram,ben hele sağam.

Hele ki elimde titremir qelem,
Ferehin yolunu kesmesin elem.
Qiymeti bilinen gövherem,lelem.
Yalandan,qeybetden eh,çox uzağam.
Demek yaşayıram,ben hele sağam.

Sevinc Arzulu

**Deniz kızı**

Pencere önünde duran o qızın,
Gözleri yol çekir denize kimi.
Indi o dünyanın teki,yalqızı
Baxdıqca hey artır denize kini.

Alıb sevdiyini deniz elinden,
Birce mezarı da qıymadı ona.
Oyuncaq eyledi deniz elinde,
Qenim  de kesildi dağlar oğluna.

Belke deniz qızı vurulmuş ona,
Atası qızından keçe bilmemiş.
Zülmetde baxmayıb ad barmağına,
Nişanlı olduğun seçe bilmemiş.

Teli buruq-buruq,sarışın cavan,
O deniz qızının sarayındadır.
Işıqlı dünyayçun darıxır yaman,
Üreyi eşqinin harayındadır.

Belke de esirdir deniz altında,
Sahile çıxmağa bir yol axtarır.
Belke de çapır hey deniz atında,
Könüllü düşmekçün bir tor axtarır.

Sene yalvarıram,a deniz qızı,
Ay özü sarışın,gözü göy peri.
Burax esirini,deniz ulduzu,
Sahilde gözleyir sadiq dilberi.

Seninle o xoşbext ola bilmeyir,
Qızılı,gümüşü tök qarşısına.
Qelbinin yaşını sile bilmeyir,
Istersen eyilib çök qarşısına.

Izn ver,o qalxsın suyun sethine,
Görürsün,ne qeder sevinecekdir.
Hemişe sadiqdir o,öz ehdine
Hesreti yarının evinecendir.

Sevinc Arzulu

**Deniz kimi.**

Başımı dizin üstüne,
Qoyum deniz kimi.
Resmini  qızılı quma
Oyum deniz kimi.
Birce defe seni görüm,
Doyum deniz kimi.
Herdenbir ayaq izini
Yuyum deniz kimi.
Bağrına bas, uşaq kimi
Uyum deniz kimi.
Vüsalın şirin dadını
Duyum deniz kimi.

Sevinc Arzulu

**Deniz ol**

Eşqə kəniz olub qal,
Qarabəniz olub qal.
Elə dəniz olub qal,
Çevirilmə gölə sən.

Xatırlama pisləri,
Şərdən gələn hisləri.
Qəlbindəki hissləri,
Bəlkə mənlə böləsən.

Dünya-sehirli aləm,
Yarı sevinc, yarı qəm.
Sevdiyimi demirəm,
Qorxuram ki öləsən.

Sevinc Arzulu

**Denize mektub**

Kədərlənsəm, mən qoynuna,
Gəlim dəniz, gəlim dəniz.
Qolumu salıb boynuna,
Gülüm dəniz, gülüm dəniz.

Gecənin qəddi bükülsün,
Dan yeri tezcə sökülsün,
Yansam, suyuna tökülsün,
Külüm dəniz, külüm dəniz.

Arzularım yetsin başa,
Toxunmasın gəmim daşa.
Sinən üstdə əlli yaşa,
Dolum dəniz, dolum dəniz.

Çox çəkmişəm həsrətini,
Yada qıyma qismətini.
Sənin qədr-qiymətini,
Bilim dəniz, bilim dəniz.

Dalğa neynər duman, çənə
Fərəh , şadlıq gətir mənə.
Sevincəm, şer söylər sənə,
Dilim dəniz, dilim dəniz.

Sevinc Arzulu

**Denizin qapısı**

Denizin qapısın açdım üzüne,
Dalğanı görüb de heyrete geldin.
Güneş öz nurunu saçdı üzüne,
Sular kişileşib qeyrete geldi.

Bayaqdan aslan tek coşan dalğalar,
Indi ipek kibi lepeye döndü.
Hamıya letife qoşan dalğalar,
Bir dağdı,kiçilib tepeye döndü.

Bilirsin,ezizim,bu canfeşanlıq,
Senin ayağını yumaq üçündür.
Semanı nur eden ateşfeşanlıq,
Kelbimi feth eden parlaq gücündür.

Sevinc Arzulu

**Derd çaparı**

Söz ilə aya çıxaram,
Dağ aşıb qaya çıxaram.
Çətin ki yaya çıxaram,
Tər yuyub aparır məni.

Hicran bəyaz dənmiş,Allah,
Həsrət qara çənmiş, Allah.
Bu qəm necə qəmmiş,Allah
Özümdən qoparır məni.

Bir daş atdım, hara düşdü,
Deyən boran-qara düşdü,
Vüsal yenə xara düşdü.
Eşqin dərd çaparı mənim.
25.05.2014

Sevinc Arzulu

**Derd derimi**

Böhtan ile şer atışıb,
Keder ile qem ötüşüb.
Ömrün payızı yetişib,
Başlanıbdır derd derimi.

Araz suyunda lilem men,
Hesret gözüne milem men.
Üreyimde qalıb bilmem,
Kime deyim derd-serimi.

Dağılıbdı cah-celalım,
Her gün artır ah- melalım.
Gel ey menim baş belalım.
Tezce qaçırt derd perimi.

Röyalarım pozulubdur,
Sanki terse yozulubdur.
Ağ alnıma yazılıbdır,
Sile bilmem derd terimi.

Geceleri al eyleyim,
Gündüzleri bal eyleyim.
Tekce Tanrıma söyleyim,
Bunca sonsuz derdlerimi.

Sevinc Arzulu

**Derd deyil**

Yada düşsən gözümdən yaş süzülər,
Muncuq kimi yanağıma düzülər.
Çətin əlim əllərindən üzülər,
Bu sevdanın əvvəli var,sonu yox

Dəli könül göz yaşıyla dinibdir,
Gözlərimin gur işığı sönübdür.
Taleyimin üzü yaman dönübdür,
Həqiqətin zər tülü var,donu yox.

Könlüm qəm yurdunda qara ev tikir,
Ağlımı başımdan alıbdır fikir.
Mənim dərdim nə bir deyil, nə iki,
Dərmanımın biri vardır,onu yox.

Sevinc Arzulu

**Derd işi**

Vüsalı kim böyüdecek,
Başımızda derd işi.
Bizi untek üyüdecek,
Deyirmanın ner dişi.

Pis adama erk edilmez,
Doğma yuva terk edilmez.
Neynesek de tergidilmez,
Feleyin pis verdişi.

Hesretin ne veyil oldu,
Hicrana çox meyil oldu.
Sene şer yox, xeyir oldu,
Zemanenin gerdişi.
30.10.2018

Sevinc Arzulu

**Derd yağışı**

Yarəb, hayları azalar,
Tanrı payları azalar,
Nədən sayları azalar.
Min namərddən bir mərd yaxşı.
Yaman yağır dərd yağışı.

Dərimizi soydu bizim,
Qəlbimizi oydu bizim.
Yaman günə qoydu bizi,
Bu həyatın sərt naxışı.
Yaman yağır dərd yağışı.

Bilir, vəslə yetməyəcək,
Tanrı xoşbəxt etməyəcək.
Gözlərimdən getməyəcək,
Sevdalımın pərt baxışı.
Yaman yağır dərd yağışı.

Sevinc Arzulu

**Dere düşdüm.**

Dərdin bilinməz huyu ya,
Kim oyana,kim uyuya.
Fələk qazdığı quyuya,
Bir deyil,on kərə düşdüm.

Yaxşıya şeytan demədim,
Dalana meydan demədim.
Kimsəyə böhtan demədim,
Sonucunda şərə düşdüm.

Dünya-aləm yırğaladı,
Qulağımı sırğaladı.
Yollar məni yırğaladı,
Təpə aşdım,dərə düşdüm.

Sevinc Arzulu

**Dersin almışam**

Tale yazan yazını pozan varmı,
Bəd röyanı düzünə yozan varmı,
Bu dünyada mənimtək ozan varmı,
Dərd əliylə qəm sazını çalmışam.

Salmadım ki bir özgəyə meyli mən,
Fərəh satdım, kədər aldım xeyli mən.
Ən müasir Nigar mənəm, Leyli mən,
Biyabanda tərki-dünya qalmışam.

Bir yaxınlaş, göz yaşını mən silim,
Sənsiz boşdur olacağım, mənzilim.
Demə yoxdur mənim ali təhsilim,
Ayrılıqdan həyat dərsin almışam.

Sevinc Arzulu

**Derya menim**

Biz ki məşhuri-cahanıq,
Qocalmarıq,çox cavanıq.
Bir ürəkdə iki canıq,
Mən dünyanın,dünya mənim.

Özümüzdə gizlənərik,
Sözümüzdə gizlənərik.
Gözümüzdə gizlənərik,
Mən röyanın,röya mənim.

Zəmanənin təsiriyik,
Gizli qalan qəlb sirriyik.
Sevgimizin əsiriyik,
Mən dəryanın,dərya mənim.

Sevinc Arzulu

**Deyer**

Benim yarım sanki Mecnun timsalı,
Ele gezir boz sehranı,qumsalı.
Doğru çıxar bu atalar misalı,
"Çox gezenin ayağına daş deyer."

Gül-çiçekli düzlerde sis görürüm,
Ağ divarda qapqara his görürüm.
Heç bilmirim,belke ben pis görürüm,
Kipriklerin gözlerime yaş deyer.

Doğma  yurdum qem çekenler ölkesi,
Üstümdedir ayrılığın kölgesi.
Sanki dünya müharibe bölgesi,
Hara baxsam izlerime baş deyer.

Sevinc Arzulu

**Deyer-deymezine**

Bu  yol gedər biçinəcən,
Sonsuzluğun heçinəcən.
Gözlərimin içinəcən,
Batdım duyar-duymazına..

Qəm çölündən sür atını,
Qıratını,Düratını.
Çin çıxmamış muradımı,
Satdım dəyər-dəyməzinə.

Cığır açar göz  yaşları,
Parıldayar söz qaşları.
Düşmənimə köz daşları
Atdım döyər-döyməzinə.
06.02.2018

Sevinc Arzulu

**Deyesen**

Bu ömürdür , yaşayırsan,
Çiynində dərd daşıyırsan.
Yaşadıqca üşüyürsən,
Dünya  nəmdi deyəsən.

Parıldayar söz qaşları,
Öləziyər köz daşları
Hey süzülür göz yaşların,
Dünya qəmdi  deyəsən.

Ulduzların parlaq inci,
Günəşin sakitin, dincin.
Bol  fərəhin,bol sevincin,
Dünya, kəmdi deyəsən.

Sevinc Arzulu

**Deyib durur**

Şirin dil, yalvarmaq gəlməyir kara,
Geysə də sözlərim rəngbərəng xara.
Yenə nə olubdur alagöz yara,
"Bu vüsal günləri çox" deyib durur.

Yalançı"həqiqət" özünü öyür,
Ocağın atəşi közünü öyür.
Çiçəkli xatirən gözünü döyür,
Saralmış ümidlər "yox" deyib durur.

Məhəbbət əbədi ömrün tacıdır,
Vüsal çox şirinsə, həsrət acıdır.
Bilirsən, nə yaman yeri acıdır,
Yaralı könlümə ox dəyib durur.

Sevinc Arzulu

**Deyil daha**

Yarısı qəmdən əriyib,
Yarısı torpağa yeriyib.
Ağ duzdan yaylıq səriyib,
Bu daş o daş deyil daha.

Araz tək axıb durullam,
Bəlkə yenidən qurullam.
Azca yol getsəm yorullam,
Bu yaş o yaş deyil daha.

Bir könül sirdaşı yoxdur,
Ellisi, yurddaşı yoxdur.
Qocalıb, yaddaşı yoxdur,
Bu baş o baş deyil daha..

Sevinc Arzulu

**Deyil ki...**

Mehebbetin bucaq altda,
Görünmeyir saçaq altda.
Ezizim,her ocaq altda,
Közeren köz qor deyil ki.

Bele yazılıb neqşimiz,
Baş tutmadı eh, meşqimiz,
Söndü ateşin eşqimiz,
Alınmadı,zor deyil ki.

Bu,feleyin qerezidir,
Ayrı salmaq-merezidir.
Elin gözü terezidir,
Tükü seçir, kor deyil ki.

Sevinc Arzulu

**Deyilmemiş söz**

Bir yumağam, ilme-ilme çöz meni,
Yandıracaq ateş meni, köz meni.
Harayını gözlerinden oxudum,
Yaman tutdu deyilmemiş söz meni.

Neden durub yol üstünü kesirsen,
Külek olub dörd terefe esirsen.
Gah serinsen, gah istisen, gah soyuq,
Özün söyle, görüm hansı fesilsen.
21.04.2018

Sevinc Arzulu

**Deyilmiş**

Artıq küle dönmüş odam, ocağam.
Qelbimi köz ile ovudacağam.
Sanırdım.her şeyi unudacağam,
Bu sevgi öteri sevgi deyilmiş.

Yene de ağrıyır könlümün başı,
Yene qapqaradır üzüyün qaşı.
Yene qurumayır gözümün yaşı
Bu sevgi öteri sevgi deyilmiş.

Eh, neden olmadın bir defe mehman,
Pozuldu evvelki seliqe , sehman.
Yene de çekirem sensiz ah-aman,
Bu sevgi öteri sevgi deyilmiş.

Qelbimde cemlenib dünyanın qemi,
Sen kime tapşırdın taleyi kemi.
Inan, qurumayır gözümün nemi,
Bu sevgi öteri sevgi deyilmiş.

Kim deyir asandır seni unutmaq,
Qemli xatireni qelbde uyutmaq.
Çetinden çetindir meni ovutmaq,
Bu sevgi öteri sevgi deyilmiş.

Sevinc Arzulu

**Deyim qalmaz**

Çay tək axıb durularam,
Burulğan tək burularam.
Vallah,elə yorularam
Qalxmağa da heyim qalmaz.

Əzbər olar bal kəlamlar,
Dil də açar lal kəlamlar.
Ver qiymətin,al kəlamlar
Deyilməyən deyim qalmaz.

Olduğum tək görünərəm,
Heç yer ilə sürünərəm?
Hamısına bürünərəm,
Sənin üçün geyim qalmaz.

Zirvəsində qar çox olar,
Meşəsi gur dağ tox olar.
Fəryad etsəm dağ yox olar,
Nə sarım,nə leyim qalmaz.

Işlərimiz vursa ləngər,
Yerim olar soyuq səngər.
Bir gün qəfil ölsəm əgər,
Geriyə çox şeyim qalmaz.

Söhbət eylə gəl dünündən,
Orda qalan səs-ünündən.
Əzizim,bayram günündən
Bir qədəh də meyim qalmaz.

Qovuşmarıq bal röyada,
Ya xəyalda,ya xülyada.
Mən gedirəm bu dünyadan,
Çalınmamış neyim qalmaz.

Sevinc Arzulu

**Deyimler**

Gözümün yaşını gizletmek istedim senden....
Gizletdim. Senin gözlerinde....

Ben kederle deyişik düşmüşüm.

Xeyallarımı sergiledim,
Özümden başqa heç kim tamaşa etmedi.

Basdı könül yuvamızı sel suları,
Yudu bütün cavabı yox sualları.

Yer saldım boşluqda:
Döşeyim qaranlıq,
Yastıqım toranlıq.
Gecenin sessiliyini üstüme çekdim.
Ele rahat yatdım ki...

Senli günler ötüşer,
Sensiz günler öpüşer.

Sen şiir kibisin:hezin,güzel,menalı.
Şiir də senin kibidir:qemgin,dürüst,xeyallı.

Sussun deli ruzigarım,
Açsın qönçe gül-nigarım.

Könül duyqularının reqsi,
Gözümün gözünde eksi.

Tanrı bene buta  verdi,
Ayrılıqı xeta verdi.

Bu mehebbet üçbucaqı,
Tozla dolu günc-bucaqı.

Ben eşqin fedasına dönünce,
Sen eşqin sedasına döndün.

De,hardasan gözüm nuru
Zeifleyir sözüm nuru.

Sen benim etmediyim günahımsın.

Resminin üstünde,gülüm
Gör neçe gün işledim.
Sonucunda gülüşünü gümüşledim.

Keder eceb dilmanc oldu,
Tercümesi qırmanc oldu.

Derdimin damarından tutdum,
Üzüme qara qem fışqırdı.

Eşqimi didergin saldın,
Özün köçkün düşdün.

Sensizliyinle mensizliyim aşiq-meşuqdurlar.

Şeklini gözüme ebedi hekk etdim:
Daha uzaq düşmeyesen deye.

Üreyimden qara qanlar akır çay kibi.
Beyaz  tellerini yusana.

Seni sevmek günahımı defn eyledim kederinin
qoynunda.
Ikimiz de piyadaydıq taleyin nerd oynunda.

Ben senin damarındakı al qan kibiyim:
Gah tıxaca düşürüm,gah da ki çay olub akarım.
Ben senin köksün altdakı can kibiyim:
Gah sıxaca düşürüm,gah da ki şimşek olub çakarım.

Vüsalının gül üzüne damcı-damcı damcılandım,
Hesret gördü,qamçılandım.

Sevinc Arzulu

**Deyimler 1**

Kədərimdən qara su içən yaşıl kol  niyə qırmızı gül bitirir.

Gözümün həvəsi kəsilincə,
Sözümün nəfəsi kəsildi.

Sənə mən xəyanət etmədim, xəyalım xəyanət etdi.
Cəzanı da ona ver.

Binəm üstdə köz közlədim,
Sinəm üstdə söz sözlədim.

Şimşək elə çaxdı ki qorxudan gecənin bağrı yarıldı.

Bu sevdanın qəlbi yaman qaradır,
Baxışı da ancaq zülmət yaradır.

Sevgi dəryasında ruhum bir ada,
Azacıq dalğadan batacaq o da.

Alçaq dağları mən yaratmamışam,
Məni görcək özləri əyilib.

Şənin dərdini çəkdim,
Özündən ağır gəldi.

Ürəyimin səsinə qulaq asmadım,
Gözümün səhvinə aldandım.

Gözlərim yol çəkir Şimala kimi:
Di dönsənə...

Közünün  közümdəki rəqsi,
Gözümün gözündəki əksi.

Yalanların ilmə-ilmə toxunar,
Doğrularım kəlmə-kəlmə oxunar.

Mən məzarın başında,
Sən məzarın daşında.

Ürəyim sevdaya düşdü,
Göz bəbəyim qovğaya.

Sözünü gülləynən deyil,
Gülnən de.

Ötən günlərin göz yaşlarında gələn günləri yuyundurma.

Həsrətdən xəzan tək saralmış ümidlər,
Heyrətdən məzar tək qaralmış buludlar....

Məhəbbətim axa-axa sel olmadı,

Ayrılıqsa dama-dama göl oldu.

Vəslin yolun həsrət pusdu,
Doğru yalan görüb susdu.

Məhəbbət dincə qoyulanda,
Xatirələr küncə qoyular.

Ovçu qovan bir günahsız sığındım,
Kipriyinin kölgəsinə sığındım.

Həsrət elə qamçıladı,
Gözümdən yaş damcıladı.

Yer saldım boşluqda:
Döşəyim qaranlıq,
Yastığım toranlıq.
Gecənin səssizliyini üstümə çəkdim.
Elə rahat yatdım ki...

Hicranın qara libasını geyinmədiyimə görə
həsrət məni cəzalandırdı.

Ümidlərim salxım-salxım,
Dərmək üçün hara qalxım.

Umduğum tək sığal olar,
Məhəbbətsə cığal olar.

Sənli ümidlərimin qoluna qara lent bağladım,
Daha  yoxsan axı.

Ayrılıq küləyinin necə,
nə vaxt əsəcəyini haradan biləydim.
Hava bürosu deyildim ki...

Ruhum özümdən əvvəl fəth eyləyib fəzanı,
Belə dəlilik üçün kim verəcək cəzanı.

Zamanın nəbzini tuta bilmədim,
Amma əlimdə cənnətin qəbzini tutdum.

Gözlərinin qarasına batdım,
Qızarıb çıxdım.

Pulu pulnan vurarlar:
Avroynan dollar kimi.

Mənim sevgim metro qatarıdır:
Nadir hallarda üzə çıxır.

Sənin məhəbbətin özülü olmayan

qum ev kimidir.
Ani titrəyişdən çökər.

Vicdanına saldığın ləkəni
“Vaniş”lə də təmizləyə bilməzsən.

Vüsalından rəhm yağır,
Hicranından zəhm.

Ürəyimdən qara qanlar axır çay kimi.
Ağarmış tellərini yusana.

Gözümün yaşını gizlətmək istədim səndən....
Gizlətdim. Sənin gözlərində....

Ayrılığın aşığı alçı durar.

Tanrı mənə buta verdi,
Ayrılığı xəta verdi.

Yağış yudu göz yaşımı,
Baxış uddu yaddaşımı.

Itilənmiş təfəkkürüm
Taleyimə təşəkkürüm.

Sevinc Arzulu

**Deyimler 2**

Bu məhəbbət üçbucağı,
Tozla dolu künc-bucağı.

Mən eşqin fədasına dönüncə,
Sən eşqin sədasına döndün.

Ayrılığın bir halı var:o da göz yaşı.

Sən mənim etmədiyim günahımsan.

Gözünün pəncərəsindən boylanırsan
uğultuyla axan baxışlarla.
Qorxmursanmı boğulam?

Gözlərimə dola-dola,
Axırı ki gəldim yola.

Dedim -"Qəlb aynanın tozunu sil",
Mənli xatirələrə süpürgə çəkdi.

Xəyallarımı sərgilədim,
Özümdən başqa heç kim tamaşa etmədi.

Haqqın səsini almaq olar, batırmaq yox.

Vüsalın damcı-damcı,
Həsrətin acı qamçı.

Mən kədərlə dəyişik düşmüşəm.

Vüsalın quzusu mələr,
Həsrətin ruzusu gələr.

Hicran əcəb dilmanc oldu,
Tərcüməsi qırmanc oldu.

Ümidimi puç eylədin,
Rəqib məni "linç"eylədi.

Ayağımı basınca məhəbbət kandarına,
Döndüm eşq dindarına.

Dərdimin damarından tutdum,
Üzümə qara qan fışqırdı.

Eşqimi didərgin saldın,
Özün köçkün düşdün.

Sənsizliyinlə mənsizliyim aşiq-məşuqdurlar.

Səni su təkin içərdim, çörək əvəzi yeyərdim.
Heyf ki pəhrizdəyəm.

Pərdə-pərdə qalxan səsin
Könül evimin pərdilərinə endi.

Məhəbbətin beşiyini yırğaladım,
gülüş səsləri gəldi qulağıma.

Vəsli gecələr yaraqla axtardım,
Gündüzlər çıraqla.

Sənli günlərimin üstündən qırmızı xətt çəkdim,
Bir anda qaraya döndü.

Ayrılığın şöləsi olmaqdansa,
Məhəbbətin köləsi ol.

Zər  qədrini zərgər bilər.
Mən zər oldum,
Sənsə zərgər olmadın.

Unut kimi, sev kimi
Dünya, dərdli ev kimin.

Sən şeir kimisən: həzin, gözəl, mənalı.
Şeir də sənin kimidir:qəmgin, dürüst, xəyallı.

Qulağıma laylan gəldi,
Qəm üstümə lay-lay gəldi,
Ana.

Mən kişi kimi qadınam.
Təkcə sənin gözlərində
Kişi-kişi öldüm,
Qadın-qadın dirildim,
Mənim həyat yoldaşım.

Min il külüng vurdum, qəpik də tapmadım.
Ayaqqabının ucuyla torpağı cızdı, dəfinə qazandı.

Səni sevmək günahımı dəfn eylədim
kədərinin qoynunda.
Ikimiz də piyadaydıq
Bəxtin şahmat oynunda.

Sevgin könlümün içində,
Könlüm sevginin gücündə.

Vəfalıya güllə atdım,
Qayıdıb özümə dəydi.

Qəm əlində girinc oldum,
Qızıl ikən bürünc oldum.

Vüsalın qapısını döydüm,
Hicran hay verdi.

Dağından duman asılar,
Ağlından güman.

Sözündə “kaş”donar,
Gözümdə yaş.

Doğru gördü, kölgələndi.
Yalan gördü, bölgələndi.

Sevdalımın naz baxışı,
Yaz yağışı.

Mənim qəhrimi çəkmə,
Təhrimi çək.

Vüsalın közü sizə düşdü,
Hicranın gözü bizə.

Gözümün qorxusu,
Közümün qoxusu.

Sarı-sarı çiçəklərim,
Ayrılığın göyçəkləri.

Çiçək-çiçək arzular,
Qızıl ləçək arzular.

Eşqin  tamı bir başqadı:
Ekzotik meyvə kimi.

Ağlımın ayağından girib başından çıxan fikirlər,
hardasınız?

Məhəbbət ölkəsinə getmək istədim:
Sərhəddən buraxmadılar.
Vizamın müddəti bitmişdi axı...

Sənsizliyinlə mənsizliyim aşiq-məşuqdurlar.

Səni su təkin içərdim, çörək əvəzi yeyərdim.
Heyf ki pəhrizdəyəm.

Sənin qaranlıq ömrünün ziyası
mənim işıqlı həyatıma kölgə salır.

Söz köhləni dəymədüşərdir:
Xətrinə dəysən səni yerə çırpar.

Qızılnan gümüşün fərqi təkcə onun əyarında deyil,
həm də meyarındadır.

Həsəd var qəmə aparır, həsrət var dəmə.

Gələcəyin qaranlığından, keçmişin şoranlığından
bezib intihar etmək istəyirəm.
Bilmirəm özümü səssizlikdən asım,
sükutdan atılım və ya sənsizlikdə boğulum?!

Illər məni qovur.Mənsə qabaqda qaçan
ayaqlarıma çatmaq istəyirəm.

Sənə "günəşim"-dedim.
Demədim ki alovunla yandırasan, yaxasan.
Sənə"ayım"-dedim.
Demədim ki uzaqdanca soyuq-soyuq baxasan.
Sənə "ulduzum"-dedim.
Demədim ki sən günlərin birindəcə qəfilcədən axasan.
Bəs mən sənə nə deyəydim axı?!

Içimdə şeytan var, öldürmək istəyirəm, bacarmıram.
Içimdə kədər var, güldürmək istəyirəm, bacarmıram.
Içimdə nisgil var, boğmaq istəyirəm, bacarmıram.
Içimdə həsrət var, qovmaq istəyirəm, bacarmıram.
Axı mən nə bacarıram ki?!

Gözümün arxasınca getdim, qaranlıq dünyaya düşdüm.
Sözümün arxasınca yol aldım, işıqlı dünyaya çıxdım.

Gecənin qara zirehinə gündüzün qızılı oxları batmaz.

Mənim doğru zikirlərim sənin oğru fikirlərini alt-üst etdi.

Dumana "çəkil"demə, günahın batil olar.

Həqiqət inqilab eylədi, yalan taxta çıxdı.

Dönüb gəncliyimə baxmaq istədim, qocalıq imkan vermədi.

Özümü ümidin ayağından asdım.

Bulaq şaxtadan buzlayar,
Ürək laxtadan.

Həsrətin üzündən öpdüm, vüsalın gözü yaşardı.

Yaşamaq yanmaqdırsa, mən artıq kül olmuşam.

Sənə doğru gələn xatirə cığırı Tanrının ən uzaq yoludur.

Vaxtımın baxtı yox,

Baxtımın vaxtı çox.

Hicranın alqışı səni tutdu,
Vüsalın qarğışı məni.

Gül-yarpağıyla, insan-torpağıyla fəxr edər.

Məhəbbətdə daimi atəşkəs yoxdur.

Şaman burula-burula gələr, zaman durula-durula.

Eh, məni nədənsə qayğılandıran
Səni an içində duyğulandırar.

Soruşmayın dağlar niyə qarıdı,
Sevdiciyi özgəsinin yarıdı.

Bir damla göz yaşı iç dünyamı qaraltdı.
Xırda hisslər suya qərq oldu,
Böyük duyğular adaya çevrildi.

Bir parça ümid ver mənə:sənsiz sənli yaşayım deyə...

Gözlərimin qarası dedim sənə, bəxtiqaraya döndün.
Gözlərimin ağı desəm qayıdıb gələrsənmi?

Çılpaq həqiqət qapalı yalandan yaxşıdır.

Duyğuların əsiri olmaq uyğuların kəsiri olmaq deməkdir həyatda.

Ümidi qandırmaq,
Buludu yandırmaq olmur.

Ilk bahar yağışı,
Səmanın alqışı.
Son bahar naxışı,
Zamanın qarğışı.

Baxışı qınama,
Naxışı sınama.

Sıldırımın rənginə bax,
Ildırımın zənginə.

Eşq meyvəsi yabanı.
Dərməmək heç rəvamı.

Mehin bacısı, şehin acısı olmur.

Xəyal nurlu düşüncə,
Fikir onun sələfi,

Bir andaca çözülər
Xatirələr kələfi.

Sevinc Arzulu

**Deyimler 3**

Su tək parlaq, su tək rəngsiz
Yağış kimi əsrarəngiz,

Sən çatdır hamıya doğru sözünü
Azad insan kimi hiss et özünü.

Elə qəfilcədən döyüldü qapım,
Qırıldı xəyalın mirvari sapı.

Ütülənmiş fikirlər.
Itilənmiş zikrlər.

Geydim güman göynəyimi,
Öydüm duman köynəyimi.

Diləyin pilləsi,
Küləyin şilləsi.

Dumanı başından,
Gümanı ayağından asasan.

Ümidin yaddaşı,
Buludun göz yaşı.

Mən səhərəm, sən gündüzsən, o-gecə,
Nuru qoyub qaranlığı axı seçdi o necə.

Bir-iki damcı xatırən könlümün közərən ocağının alovlandırdı.

Bu dünyanın al libası toxunmaz,
Bu dünyanın əlifbası oxunmaz.

Uyma bu dünyanın dövlət-varına,
Xəyanət eyləmə sadiq yarına.

Neçə insan köçür hər gün dünyadan.
Dünyada qalacaq yalnız yaradan.

Ömür dediyimiz şipşirin röya.
Əbədi yaşamaq  bir dərin xülya.

Istərdim açılsın üçüncü gözüm,
Bulaq tək çağlasın söhbətim-sözüm.

Tez qarışar düşüncəm,
Sözüm yerə düşüncə.

Zamanın parıltısını gör,
Gümanın zarıltısını eşit.

Zamanın kölgəsində,
Amanın bölgəsində.

Ümidinin işığında gecə-gündüz yol gəlmişəm,
Eh, deyəsən çaşmışam mən, sağ əvəzi sol gəlmişəm.

Satılan baş, çatılan qaş.
Atılan daş, qatılan yaş.

Sədaqətin varlığı,
Həqiqətin karlığı.

Namərdin körpüsündən,
Mərdin hörgüsündən keçmə.

Inqilab süslənir, intiqam pislənir.

Fərəh sıra-sıra gəlsin,
Kədər sırsıra gəlsin.

Duyğularım məst olunca xəyalıma qəsd oldu.

Mışıl-mışıl yatan xatirələrin üstünə
zaman öz kölgəsini çəkdi üşüməsinlər deyə....

Təzyiqim qalxmaqdan doymayır,
Başımın içində küləklər oynayır.

"Eh"in biri,
şehin mini.

O gözlərin gözlərimin qənimi,
Güzgü təkin əks etdirər qəmimi.

Qələm mənim çörək ağacımdır.
Ona görə də aclıqdır.

Inkarın təsdiq qanunu da var.

Düznən düzən qurdum, əyri mənnən çəpləşdi.

Hər şeyin bitdiyi andan sən başlayırsan.

Sənin könlün kömür mədənidir.
Bəyaz daxil olan qaralıb çıxar.

Sevgi var xoşluqdan yaranır,
Sevgi var boşluqdan.

Xəyanət sənin üçün əyləncədirsə, mənim üçün işgəncədir.

Torpağın gözünü yarpaq doydurar,
Insanın gözünü torpaq.

Insan ağlayanda dünyanı ağ-qara görür, güləndə rəngli.

Ay üzlü göy hər gecə gümüşü qızılca çıxarar.

Günəşə əli çatmadı, ulduzların qoparağını götürdü.

Vüsalın qulpundan tutmaq istədim,
Ayrılıq qoluma girdi.

Gerçəklər geri çəkilər.

Ağlar gözün kölgəsi nəm olar,
Ayrılığın köləsi qəm.

Gecikmiş sevgi etirafın qızmar yay günündə yağan çobanaldadana bənzəyir.

Ürəyimin yarpaq-yarpaq qorxusunun torpaq-torpaq qoxusu var.

Göz yaşlarından buz saray da tikmək olar, duz saray da.

Bir kəlmə acı sözün hənirindən qırılan ümidlərimi
qaynaq edə bilmədin türk qızılı kimi.

Zamanın əyri güzgüsündən dünyanı düz görmək istəmək
bilsən necə ağrılıdır...

Haqqın səsini almaq olar, batırmaq yox.

Zorakı təbəssüm dodaqlarını işğal edib.

Mən dedim ki bir dənizdə sahilləşək,
Demədim ki cahilləşək.

Payız ömrə xəzan gəldi,
Qulağıma əzan gəldi.

Ümidlərim qaraca qız kimidir.
Ha üzünü ağardıram, alınmır.

Şeytanı ayağından asasan,
Böhtanı  dayağından.

Gəlişi gözəl sözün gedişi yaman olar.

Axan ulduzun işığı güçlü olar,
Çaxan şimşəyin səsi.

Beynimi qanla doldurdun, a beyniqanlı.

Zəlini ürəyimin üstünə yapışdırdım.
Bəlkə adını o silə bilə.

Namərdin gülləsi əskikdir,
Mərdin qülləsi.

Məhəbbətə pənah apardım,
Bir alaçıq da qıymadı.

Gecə sözlü aş yedim,
Səhəri dirigözlü açdım

Xatirə saytıma virus düşüb:
Ən dadlısını yeyir.

Dənizin qapısını döydüm,
Dalğalar üsyan etdi.

Sözün qurtardığı yerdə silahlar işə düşər.

Dərdi qəmin əlindən aldım, üzümə qayıtdı.

Ata evinin istisi, qaynata evinin tüstüsü.

Mərdə məzar olmaqdansa.namərdə azar ol.

Közümə söykənib yanınca, sözümə söykənib qan.

Qəfil atılan daşdan pəncərə şüşəsinin içini çəkərək
çiliklənməsi qədər məsumsan.

Tutqun qış günündə günəşin buludların arasından
üzümüzə gülümsəyərək əl etməsi qədər gözlənilməzsən.

Bir payızda qərib durna qatarının qanadlarını çırparaq,
əlvida nəğməsini oxuyaraq uzaqlaşıb gözdən itməsi qədər ağrılısan.

Qəmli həyat salnaməni üzünün qırışlarından oxumaq olar.

Ayrılığın aynasına baxdım, axirət gününü gördüm.

Mənim xəyal dünyamda heç vaxt səhər açılmır.

Sənli xatirələrin çılpaqlığı utandırdı məni.

Zaman zaman-zaman qarşımdan baş əyib keçəcək.

Hanı misra-səmənd atım,
Boynuna söz-kəmənd atım.

Sənin ipək saçlarından toxunan yaylıq
mənim göz yaşlarımı quruda bilməz.

Sevinc Arzulu

**Deyimler 4**

Xəyanətinin cəzasız qalması dəyanəti intihara sürükləyir.

Xəyalımın dodaqları ruhunun gözlərindən öpdü.

Şaxtanın biçdiyi don gül-çiçəyə kəfən olar.

Ağlar gözün kölgəsi nəm olar.
Ayrılığın köləsi qəm.

Qaraca gözlərindən sevgi tökülür bəyaz yuxu kimi.

Sənin zənbil-zənbil toxuduğunu mən sünbül-sünbül oxuyuram.

Güllələnmiş ümidin məzarı  sillələnmiş buludun kölgəsi altda olar.

Hər şeyi zamanın öhdəsinə buraxırıq.
Bəs bizim zamanın qarşısında öhdəliyimiz nədir?

Daşlanan buludlar, yaşlanan ümidlər.

Parça-parça parçalandım,
Yerə parç-parç calandım.

Yalandan tor libas toxumaq olar, geyinmək olmaz.

Közündən ütüləndim.
Sözündən itiləndim.

Həsrətin qamçısını dadan hicrana özü yalvarar.

Vüsalının əlçatmazlığını həsrətin məngənəsində boğulanda bildim.

Hərəmiz bir kəpənək ömrü yaşayırıq:mən ağlı-qaralı, sən rəngarəng.

Günəşin göz yaşlarını ehmalca silmək istədim.
Barmaqlarım tüstüləndi.

Xəyanətin oratoriyasını özün yazdın günahınla.

Səni görəndə səsim zarıyır.

Ayrılığın gəmisini keçmək,
həsrətin zəmisini biçmək olmaz.

Dəvənin yerişi zınqrovun səsindən bilinər.

Papaq aıtda yatan oğullar yatağan olar.

Sənin pəhrizinə dözə bilmək çox çətindir.

Dilimin ucundakını deməyə cürətim çatmır,

Bilimin ovcundakını yeməyə sürətim.

Şəklinin neqativi özündən gözəldir, dünya.

Fələk sənə zülm eylədi,
Həyatını qan qoxulu film eylədi.

Yalanın yağışı yağdı,
Doğrunun odu söndü.

Ümidinin qapısı, gümanının pəncərəsi həmişə açıq olsun.

Xəyanətin əlifbası,
Məhəbbətin tül libası.

Küçələr təngnəfəs olub.

Hıçqıran ümidin göz yaşını güman silər.

Mənliyini ayaq altda sərib gedən
O dünyaya qərib gedər.

Gecənin not dəftərində itlər simfoniya yazar.

Gözünə göynək,
Sözünə eynək taxıb danışan adam..

Həsrətini tikə-tikə doğrayıb,
Hicranının yağındaca qızartdım.
Ayrılığın süfrəsindən oğrayıb,
Üstünəcə bol istiot,duz atdım.
Kim yeyər bu təamı,
Dəli eylər adamı.

Səhərin közü açılınca qəhərin gözü açıldı.

Yalan güzgüləndi, özünü görəmmədi.

Zəmanə qarıdan aman gözləyirdim,
Nə aman verdi, nə zaman.

Ürəyimi sən apardın,
Ah-naləmi çən.

Vüsalın qapısını döydüm,
Hicran hay verdi.

Dağından duman asılar,
Ağlından güman.

Doğru gördü, kölgələndi
Yalan gördü, bölgələndi.

Mən aşsam da həsrətin son divarını,
Ayrılığın sonu varmı.

Eşq dəryaçam ləpələndi,
Yer üzünə səpələndi.

Mənim qəhrimi çəkmə,
Təhrimi çək.

Gözlərinə -"ayna"-dedim,
"Baxışımla oyna"dedin.

Gündüz  meydan suladı,
Gecə qurd tək uladı.

Gözümün qorxusu,
Közümün qoxusu.

Sənin fikirlərin qaraçı köçünə oxşayır:
Biri oxuyur, biri oynayır..
Hərəsi də bir havaya.

Səni gəzdim uzun illər boyunca,
Eh, o qədər qocaldım ki sandın məni oyuncaq.

Gənc ömrümü saat-saat xərclədim,
Sonundasa saniyədən mərc gəldim.

Düznən düzən qurdum,
Əyri mənnən çəpləşdi.

Isti-ilıq kəlmələr,
Köynəyimi ilmələr,
Göynəyimi düymələr.

Vaxtımın qulağından çəkdim,
Baxtımın gözündən öpdüm.

Çiçək dərdim günaşırı,
Gördüm gülü gün aşırıb.

Dərdli gördüm, utandım
Dərdi tez unudandım.

Vüsalın telin sığalladım,
Hicran cığalladı.

Sənsizliyin şoranlığına gül əkdim, bitmədi,
Səssizliyin toranlığına tül çəkdim, itmədi.

Sözündən güllər açıldı,

Gözündən güllələr saçıldı.

Gözünün qarasına basıldım,
Sözünün ağından asıldım.

Ürəyimin səsi,
Ruhumun bəsi.

Gün batdı, duyğulandım,
Ay çıxdı, uyğulandım.

Yağış-yağış səpələndim,
Naxış-naxış ləpələndim.

Səndən qisas alacağam:
Qəlbinin şah pərdəsində
"Sənsiz"icə çalacağam.

Çətinə düşəndə namərd hay verdi, mərd pay.

Hər şeyin bitdiyi anda sən başlayırsan.

Gün çıxanda sən batırsan.

Ürəyim sıxılanda fikirlərim yıxılır.

Sənsizliyin sözlərimdə yuva salmış yağış-yağış,
Mənsizliyin gözlərində donub qalmış baxış-baxış.

Sənin sərrast baxışların
mənim sərraf baxışlarımı dəlib keçdi.

O qədər üzdüm ki tələtümləri,
Adımı qoydular tələtüm pəri.

Fikirlərin bayağı,
Həddindən çox boyağı.

Xəyallarım ətrafında uçur, uçur,
Tər alnımda puçur-puçur.

Xatirələrimi ələkdən keçirtdim,
Biri də qalmadı.

Sənsiz yaman tənhalandım,
Tənha vədim, tənha andım.

Ağ dumandan köynək geydim,
Boz dumandan eynək.

Xatirələrin gözümdən yuxu kimi töküldü.
Yuxularım xatirəndən keçib getdi.

Sənin mənsizliyin teoremadırsa,
Mənim sənsizliyim aksiomadır.

Həsrət sahilində o qədər ayaqyalın gəzdim ki
indi vüsal qayasına qalxa bilmirəm.

Çayda gəmim batar, ayda qəmim.

Ucalığın hərarəti, qocalığın təravəti az olar.

Duyğularım çaş-baş qalıb,
Uyğularım qaş-daş alıb.

Ocaq közdən isinməz,
Qucaq sözdən.

Sən niyə suyu bulandırıb sonra içirsən, dünya....

Eşqin ovsununa düşdüm,
Qəmin ovcuna....

Sözümün kəsəri,
Dözümün əsəri bitib.

Yağışın addım səsi, ruhumun tərənəsi.

Sən məndən milyon işıq ili uzaq,
Bir dəniz mili qədər yaxınsan.

Kədərin rəngini,
Qədərin zəngini dəyişmək olmaz.

Nəfəsimi boğdum,
Nəfsimi boğa bilmədim.

Hicranın qanıma susadı,
Həsrətin canıma.

Məhəbbətin əlçatılmaz dəfinədi,
Onunçun da ürəyimdə dəfn eylədim.

Bəla açdı başımaca öz kürlüyüm,
Uçub getdi əlimdəncə özgürlüyüm.

Ümidimin ayaq izi ayrılığın ay işığında daha aydın görünür.

Özgəni ozününküləşdirincə özün özgələşirsən.

Mərddən güc al,dərddən ülgüc.

Ayaqları altına süzüldü baxışlarım,

Ayaqları altında üzüldü naxışlarım.

Ölüm...Əllərini mənə doğru uzat.
Ya mən səni xilas edim,ya sən məni.

Həsrətin qara qarğa kimi qarıldayıb qar istəyir,
Məni daha çox üşütsün deyə.

Qəlbimdən beynimə gedən yol kainatı fırlanır.

Sən düşüncələrimin aynasındasan.

Hökmdarı tiran olan ölkə viran olar.

Qızıl barmaqda gözəldir, xəzəl torpaqda.

lk görüşə iznlə.
Son görüşə hüznlə.

Eşqinə səcdəyə gəldim,
Nurundan vəcdəyə.

Sən əlçatmaz ümidimin yeganə nişanəsisən

Gözündən bahar tökülür,
Üzündən payız.

Gilə-gilə ümidlərimi bilə-bilə
çay aşağı axıdıb, çay yuxarı axtarırsan.

Adını üfürərək söyləyirəm.
Odun dilimin ucundadır.

Süzgün baxışların üzgün naxışları könlümə həkk etdi.

Ürəyin sevgini necə hiss etdi,
Alışmaq bilmədi, elə his etdi.

Sənin gözlərinin günahı eşqdir
Sənin sözlərinin pənahı eşqdir.

Sən dumanın əsirisən,
Mən gümanın...

O gözlərin baxışları bilim kimin,
Biz bir ömür yaşayırıq film kimi...

Səssizlikdən keçib getdim,
Sənsizlikdən köçüb getdim.

Mənim al üyğularım,
Mənim bal duyğularım.

Sevinc Arzulu

**Deyimler 5**

Gecədən qayıdanlar,
Günəşi oyadanlar...

Şeytan xoş deyil,
Meydan boş.

Dağılsın başımdan dünyanın qəmi,
Silim gözlərimdən yaşılı nəmi.

Üşümüşəm səhərədək,
Səhər, gəl çıx, üzün görək.

Təbəssüm bəxş edir mənə səhərlər,
Gecənin zülməti məni zəhərlər.

Işıqlar şütüyər kölgələr boyu,
"Vağzalı" havası  silkələr toyu.

Susardım sükutun səs-küyü qədər,
Susardım, nəfəsim getməsin hədər.

Danışmaq gümüşdür, susmaq qızıldır,
Susuban danışmaq ömrə yazıldı.

Yar əlində çiçək gözəl,
"Yox" deməkdən əl çək, gözəl.

Solmasın ömrünün kaş yarpaqları,
Xatirə ağacı yaş yarpaqlayır.

Dama-dama şeh su olar,
Çaya dönmək arzu olar.

Görünməyir gədiklərim,
Hanı qoyub gəldiklərim.

Seyr edirsən üzüntümü,
Bu halımdan üzüldünmü?

Simayi-şəms çal mənimçün,
Əbədilik qal mənimçün.

Getdiyim yolların sonu bilinmir,
Xəyalın su kimi donub, ilinmir.

Göz yaşına leysan dedim,
Verməm daha ehsan dedim.

Indi anla, indi qan,
Səni gözlər intiqam.

Kiçilib tükənmisən,

Sən evcik tikənmisən.

Xəyalını harayladın,
Bu vaxtadək haradaydın.

Tərləyirəm puçur-puçur, eşidəndə adını.
Dəli könül uçur-uçur,olur sevgi qadını.

Həyatımın naxışları ağlı-qaralı olar,
Həyatımın baxışları qəmdən aralı olar.

Zəhmin məni ey dost,  yaman basıbdır,
Xəyalım özünü göydən asıbdır.

Yer üzünə həsrət qalan bulud kimi,
Ağlayanı təskin edən ümid kimin.

Xatirəndir ardım, önüm,
Icazə ver, mehə dönüm.

Dumanlı gecələrim,
Gümanlı necələrim...

Ayrılığın güzgüsü,
Bəllidir hər cizgisi.

Hicrana zəhmliyəm,
Vüsala rəhmliyəm.

Həqiqəti məhv eylədim,
Gör bir necə səhv eylədim.

Sənsizlikdən üşüdüm üşüm-üşüm,
Sənsizliyin zirvəsindən indi mən necə düşüm.

Göy üzünün təntənəsi,
Buludların mavi səsi...

Duyğularım üz üstədir
Yenə məndən üzr istədin.

Uzaq dur dərd anlamazdan,
Boşa ver gəl, danlamaz da.

Elə xəyanət var günahların fövqündə durur.
Elə sədaqət var savabların şövqündə durur.

Kölgəsi özündən hündür gecələr,
İlahi, itləri hürdür gecələr.

Gecədən qayıdanlar,
Günəşi oyadanlar...

Nə ilk eşqimi danıram,
Nə başqa oda yanıram.

Həqiqət önündə susum, oturum,
Yalanın gedişin pusum, oturum.

Kölgəmi gün vurdu,
Ürgəmi cin.

Yerişini qədəm-qədəm bağrıma basdım.
Gülüşünü salxım-salxım göydən asdım.
Görüşünü gözlədikcə susdum-susdum.

Kipriklərinin ucundan şeh damcıladı
sənsizlikdən
çadar-cadar olmuş könlümə.
Özünə gəldi,bir anda göyərdi.

Girdim könül odasına,
Arzuları rəf-rəf düzdüm,
Istəkləri səf-səf düzdüm.
Qəlb odamız,eh.səhf düşüb.

Damla-damla göl olmadı,
Dama-dama çöl oldu.

Gəlməyinə ümid etdim,
Göz yaşımı bulud etdin.

Hicranının özü gerçək,dili acı
Həsərinin üzü göyçək,yox əlacı.

Ayrılığın aşığı alçı durar.

Sənli günlər ötüşər,
Sənsiz günlər öpüşər.

Dilimin bəlası,
Beynimin balası.

Sen şiir kibisin:hezin,güzel,menalı.
Şiir də senin kibidir:qemgin,dürüst,xeyallı.

Ey ayrılıq,az qapı pus,
Nə gördünsə danışma,sus.

Təbiətin təntənəsi,
Üzə gülər çiçəklərin hər dənəsi.

Sussun dəli ruzigarım,

Açsın qönçə gül-nigarım.

Yurdum odlar səltənəti,
Yaxın qoymaz heç lənəti.

Hicran hürər,xamlayar
Həsrət görər,damlayar.

Hanı mənim qədərim,
Susuz bağdan nə dərim.

İndi səndən keçimmi?
Özgəsini seçimmi?

El gəldi.dəni apardı
Sel gəldi,səni apardı.

Varlığımla öyünmədim,
Yad ürəkdə döyünmədim.

Könül duyğularının rəqsi,
Gözümün gözündə əksi.

Tanrı mənə buta verdi,
Ayrılığı xəta verdi.

Yağış yudu göz yaşımı,
Baxış yudu yaddaşımı.

Itilənmiş təfəkkürüm
Taleyimə təşəkkürüm.

Bu məhəbbət üçbucağı,
Tozla dolu künc-bucağı.

Mən eşqin fədasına dönüncə,
Sən eşqin sədasına döndün.

De,hardasan gözüm nuru
Zəifləyir sözüm nuru.

Pəncərəmdən ay boylandı,sevindim
Sən demə qaldırıcı kranın işığı imiş.

Ayrılığın bir halı var:o da göz yaşı.

Sən mənim etmədiyim günahımsan.

Gözünün pəncərəsindən boylanırsan
uğultuyla axan baxışlarla.
Qorxmursanmı boğulam?

Basdı könül yuvamızı sel suları,
Yudu bütün cavabı yox sualları.

Gözlərimə dola-dola,
Axırı ki gəldim yola.

Mən bilsəm də öz çəkimi,
Çəkəmmirəm söz çəkimi.

Hicran çadraya bürünsə də təpədən dırnağadək
hiyləgər gözlərindən tanıdım.

Həsrət iti zingildədi,
Hicran qarı dingildədi.
Haqqın səsini almaq olar,batırmaq yox.

Vüsalın damcı-damcı,
Həsrətin acı qamçı.

Mən kədərlə dəyişik düşmüşəm.

Rəsminin üstündə,gülüm
Gör neçə gün işlədim.
Sonucunda gülüşünü gümüşlədim.

Gəl gülgünüm,
Gül gülgünüm.
Gülsün günüm.

Vüsalın quzusu mələr,
Həsrətin ruzusu gələr.

Ümidlərin tərsanəsi,
Arzuların təranəsi.

Kədər əcəb dilmanc oldu,
Tərcüməsi qırmanc oldu.

Ümidimi puç eylədin,
rəqib məni "linç"eylədi.

Ayağımı basınca məhəbbət kandarına,
Döndüm eşq dindarına.

Məhəbbət-dənizdə ağ gəmim,
Ayrılıq-düzdə biçilmiş zəmim.

Eşq gölünün qırağında,
Xəyalların durağında
Niyə yoxsan.
Həqiqətin orağında,

Ayrılığın sorağında
Niyə varsan.

Sevinc Arzulu

**Deyimler 6**

Misralandım kəlmə-kəlmə,
Həsrət,ömrə gəlmə-gəlmə.

Qış günün bəyazlığı,
Ağ yalanın dayazlığı
Gün çıxanadəkdir.

Dərdimin damarından tutdum,
Üzümə qara qəm fışqırdı.

Ürəyimin harasındasa,
Dərdlərimin arasındaca sən vardın.
Adının ilk hərfinin ucundanca çəksəm əgər
çözüləcək son kimi.
Təkcə bir ilmə qalacaq,kənar ilmə.
Ömrümüzün axırına qoyulacaq
qapqara bir fon kimi.

Damcı-damcı göz yaşlarım
Hey axdıqca yanağımdan,
Dünya necə əl çəksin ki
Öz beşgünlük qonağından.

Duyğularımı yığıb-yığışdırım
sahmana salmaq istədim.
Nadinc uşaqlar kimi hərəsi
bir tərəfdə gizləndilər.
Ipə-sapa yatmadılar ki...

Bu vicdan əzabının işgəncəsindən
doğan göz yaşları
yuyacaqmı de,səncə günahını?

Qəlb  qurşağının saatının əqrəbləri həmişə
on ikinin üstündədir.

Eşq ilahəsinin gözlərini niyə oydin.
Sənə kəm baxdığına görə?

Üzümün suyunu içdin,
üzünün suyu töküldü.

Sudan gələn sürməli qız,səhəngin hanı.

Məhəbbətin beşiyini yırğaladım,
gülüş səsləri gəldi qulağıma.

Yel gəldi,tel apardı
Sel gəldi el apardı.

Həyata allı-güllü baxışların qurbanı oldu.

Şəklini gözümə əbədi həkk etdim:
Daha uzaq düşməyəsən deyə.

Xatirə zəncirin boynumdan asdım,
Sandım yeri-göyü yaradan asdım.

Mən yeraltı səltənətin yerüstü sakiniyəm:
Ruhum orda,özüm burda.

Ürəyimdən qara qanlar axır çay kimi.
Ağarmış tellərini yusana.

Mən məzarın başında,
Sən məzarın daşında.

Səni sevmək günahımı dəfn eylədim kədərinin
qoynunda.
Ikimiz də piyadaydıq bəxtin şahmat oynunda.

Vüsalının gül üzünə damcı-damcı damcılandım,
Həsrət gördü,qamçılandım.

Sevgi könlümün içində,
Könlüm sevginin gücündə.

Vəfalıya güllə atdım,
Qayıdıb özümə dəydi.

Duyğularım sarı-sarı sim olası,
Bəs məhəbbət nəğməsini kim çalası.

Kəmər taxsam qızıldan,
Yağı görüb mızıldar.

Sarı-sarı çiçəklərim,
Ayrılığın göyçəkləri.

Çiçək-çiçək arzular,
Qızıl ləçək arzular.

Mənim eşqim yer üzündə təkcənədir,yeganədir
Bəs niyə o zalım ruhun varlığıma biganədir.

Küsüb məndən şahin yarım,ürəyini kim alası,
Bir gün nakam eşq əlindən kim gedəsi,kim qalası.

Bircə damla şəbnəm könül duyğularımı oyandırdı.

Ağlımın ayağınadan girib başından çıxan fikirlər,hardasınız?

Süzgün baxışların üzgün naxışları könlümə həkk etdi.

Sənli günlərimin üstündən qırmızı xətt çəkdim,
Bir anda qaraya döndü.

Gül üstündə şeh olarsan,
Sərin əsən meh olaram.

Ayrılığın şöləsi olmaqdansa,
Məhəbbətin köləsi ol.

Zər  qədrini zərgər bilər.
Mən zər oldum,
Sənsə zərgər olmadın.

Unut kimi, sev kimi
Dünya, dərdli ev kimin.

Sən şeir kimisən: həzin,gözəl,mənalı.
Şeir də sənin kimidir:qəmgin,dürüst,xəyallı.

Qulağıma laylan gəldi,
Qəm üstümə lay-lay gəldi,
Ana.

Sənsizliyinlə mənsizliyim aşiq-məşuqdurlar.

Səni su təkin içərdim, çörək əvəzi yeyərdim.
Heyf ki pəhrizdəyəm.

Gələcəyin qaranlığından, keçmişin şoranlığından
bezib intihar etmək istəyirəm.
Bilmirəm özümü səssizlikdən asım,
sükutdan atılım və ya sənsizlikdə boğulum?!

Illər məni qovur.Mənsə qabaqda qaçan
ayaqlarıma çatmaq istəyirəm.

Sənə "günəşim"-dedim.
Demədim ki alovunla yandırasan,yaxasan.
Sənə"ayım"-dedim.
Demədim ki uzaqdanca soyuq-soyuq baxasan.
Sənə "ulduzum"-dedim.
Demədim ki sən günlərin birindəcə qəfilcədən axasan.
Bəs mən sənə nə deyəydim axı?!

Içimdə şeytan var,öldürmək istəyirəm,bacarmıram.

Içimdə kədər var,güldürmək istəyirəm,bacarmıram.
Içimdə nisgil var,boğmaq istəyirəm,bacarmıram.
Içimdə həsrət var,qovmaq istəyirəm,bacarmıram.
Axı mən nə bacarıram ki?!

Sevinc Arzulu

**Deyinmemişdi**

Vüsala gedən yol yaman dardı ki,
Sağı da, solu da lay divardı ki.
Elə bir həyəcan məni sardı ki,
Ürəyim heç belə döyünməmişdi.

Sonuncu gördüyüm nəm naxış idi,
Üzündə bir parça qəm baxış idi.
Sən yola düşün gün qarlı qış idi,
Təbiət yamyaşıl geyinməmişdi.

Sən demə vədələr yalnız gap idi,
Bizləri bağlayan nazik sap idi.
O zaman dostlum da təmiz, saf idi
Arxamca danışıb deyinməmişdi.

Sevinc Arzulu

**Deyirim  ben**

Tekce ona möhtacam,
Tüstülensin daş bacam.
Yene ac oğlu acam,
Ele söz yeyirim ben.

Hissemin selemini,
Cüssemin telebini,
Qüssemin sebebini,
Bir az döz,deyirim ben.

Cin hara,şeytan hara,
Dalğalı meydan hara.
Çepeki baxan xara,
Sönen köz,deyirim ben.

Sevinc Arzulu

**Deyişmeyecek**

Güclünü görende yüz yere sınan,
Nolar, zalım kimi bir defe qınan.
Sen mene çox zülm etsen de inan,
Heyata baxışım deyişmeyecek.

Ağ bulud yağış tek yağsa da meni,
Rütubet olub da boğsa da meni.
Semamda min güneş doğsa da menim,
Qara zer naxışım deyişmeyecek.

Telimi sığallar ayrılıq yeli,
Üstüme-üstüme geler qem seli.
Yolumu gözleyir zaman tuneli,
Astaca axışım deyişmeyecek.
21.10.2018

Sevinc Arzulu

**Deymedüşüe  vaxtında**

Yel çağlar qarı-qarı,
Gül bağlar sarı-sarı.
Kim ağlar zarı-zarı,
Ölmün bu şer vaxtında.

Qemin izi üstünde,
Derdin buzu üstünde,
Durma dizi üstünde
Zülmün beşer vaxtında.

Gel bax qara günlüne,
Qüsse-melal ünlüne.
Neden deydin könlüne.
Deymedüşer vaxtında.

Sevinc Arzulu

**Dil  açmamışdı**

Sen beni sevende,ay etibarsız,
Ağaclar hele de gül açmamışdı.
Ayaqda durmurdu deli sevdamız,
Danışa bilmirdi,dil açmamışdı.

Keçib o günlerden.keçib neçe il,
Yene de ben sensiz,sen de ki bensiz.
Menalı günleri seçib neçe il,
Çemen çiçeksizdir.çiçek çemensiz.

Qızıl payız gelib hesret eline,
Havalar soyuyub,serinleşibdir.
Yamanca düşmüşüm hesret seline,
Kelbimin yarası derinleşibdir.

Gelsen,özün ile melhem de getir,
Hicranın vurduğu yaram sağalsın.
Parlaq göz yaşı tek şebnem de getir,
Sehrinin gücünden yarın sağ qalsın.

Belke günün biri,bir payız günü
Qovuşub birleşer çinar bextimiz.
Eşidek vüsalın sedasın,ünün
Su kibi axmasın dinar vaxtımız.

Sevinc Arzulu

**Dilek oynayır**

Zəmanə qədrimi bilir arabir,
Gözümün yaşını silir arabir.
Fərəh əl çalaraq gülür arabir,
Min arzu, min istək, dilək oynayır.

Kədərin ruh halı qüssənin bəsi,
Daim qulağında hicranın səsi.
Könlümün  içində qasırğa əsir,
Başımın üstündə külək oynayır.

Söykənib sahilin qərib daşına,
Susaraq baxıram ocaq başına.
Dünyanın qəribə aldanışına,
Zarafat əl çalır, kələk oynayır.
29.04.2018

Sevinc Arzulu

**Dilençi**

Oturub küçenin ayağı altda,
Yığdığı qepiy-quruşu sayır.
Ötürüb keçeni ayağı altdan,
Yoxuşu,enişi,duruşu sayır.

Eh,ele bilir  ki ondan savayı,
Dünyanın en xoşbext insanı yoxdur.
Yoxsa da qızıldan geniş sarayı,
Ele yığdığından gözleri toxdur.

Durub ellerini açıb da göye,
Görünmez Tanrıya dua eyleyir.
Bir tike rizisin veribdir deye,
Ondan artığını axı,neyneyir.

Bu günlük yaşamı onun besidir,
Derdini çekecek ailesi yox.
Mehin pıçıltısı könül sesidir,
Üstüne çökecek ah-nalesi yox.

Sen ey Tanrısına şükr eden melek,
Sevdiyin seni de  xoşbext  eyleye.
Acgözün gözünü doyurmaz felek,
Gözütox hemişe”ya bext”söyleyer..

Sevinc Arzulu

**Dileye bax**

Baxışları közlədər,
Yollarını gözlədər.
Beş adamı gizlədər,
Kürəyə bax, kürəyə.

Tapar qəlbimə açar,
Qalmaz dərd içrə naçar.
Adamı alıb qaçar,
Küləyə bax,küləyə.

Çəkər al naxışların,
Yağdırar yağışların.
Gizlədər baxışların,
Ürəyə bax,ürəyə.

Ömürdən qəmi çıxar,
Kədər qəlbini sıxar.
Neçə adamı yıxar,
Biləyə bax,biləyə.

Qəlbdə qarzu bəsləyər,
Səadətə səsləyər.
Xoşbəxt olmaq istəyər.
Diləyə bax,diləyə.

Sevinc Arzulu

**Dileyirem**

Baxsam,gözlərim qaralar.
Desəm,sözlərim qaralar.
Getsəm,izlərim qaralar
Dünyanın qəm fələyiyəm.

Ilk baxışdan gör üzünü,
Bu taleyin kor üzünü.
Qəlbim bulud,yer üzünü
Qara qara bələyirəm.

Ucuz gedib,baha qalıb.
Dərd ölüb,sabaha qalıb.
Ümidim Allaha qalıb,
Xoş arzular diləyirəm.

Sevinc Arzulu

**Dindirmyim deye**

Döngələri döndüm gəldim,
Günə tərəf çöndüm,gəldim
Bilə-bilə söndüm gəldim,
Səni yandırmayım deyə.

Bu dünya yalan içində,
Hərəsi də bir biçimdə.
Səbri boğdum öz içimdə,
Könül sındırmayım deyə.

Bezmişəm and-amanından,
Məni çox istər canından.
Asta keçirəm yanından,
Qəmi dindirməyim deyə.

Sevinc Arzulu

**Dirijor nevem**

Günde bir paltar geyir,
Yemeyin çetin yeyir.
Mene de “El çal” deyir,
Yusif, meni azca yor
Menim nevem dirijor.

Ellerini oynadır,
Sevinci ne boydadır.
Mahnı varsa, ordadır
Alışacaq sanki qor,
Menim nevem dirijor.

Isti-ilıq nefesi,
Neğmeye var hevesi.
Mertebelidir sesi,
Oxuyacaq indi xor,
Menim nevem dirijor.

Ağlasa sızlar içim.
Ağrısa buzlar içim.
Böyüyer, qızlar üçün
Qurar min cür tele, tor
Menim nevem dirijor.

Qurban qumral gözüne.
Isinecem közüne,
Baxmaramsa sözüne,
Olacaqdır işim zor,
Menim nevem dirijor.

Sevinc Arzulu

**Dişi peleng**

Gözlerinden oyulan,
Derisinden soyular.
Qebir üste qoyulan,
Qemli çeleng kimiyim.

Sakit guşe bilmeyen,
Heç ötüşe bilmeyen,
Yere düşe bilmeyen
Al çerpeleng kimiyim.

Bu uçan qumru olar,
Göz yaşı  yumru olar.
Bir günlük ömrü olan,
Ağ kepenek kimiyim.

Hamı düz, mense yalan,
Gel, beni derdden alan.
Daş  suya hesret qalan,
Köhne seheng kimiyim.

Bir az qaramatım var,
Bir az xurafatım var.
Bir az zarafatım var,
Bir az henek kimiyim.

Darıxsan, beni sesle,
Heykel qoyarıq vesle.
Telesmirim ki esla,
Azacıq leng kimiyim.

Qem duyular ününde,
Xatireler gününde.
Ezabların önünde
Dişi peleng kimiyim.
17.10.2018

Sevinc Arzulu

**Diz çökürsün**

Insan görməsin qada,
Uymasın şöhrət, ada.
Nədən əyilib yada,
Önündə diz çökürsən.

An o xoş çağımızı.
Qaralı ağımızı.
Qırılan bağımızı,
Sonadək düz sökürsən.

Dərdə həmdəm olmaqdan.
Isti, mübhəm olmaqdan,
Dərman, məlhəm olmaqdan.
Yarama duz tökürsən.
28.04.2015

Sevinc Arzulu

**Dizi berkdir**

Edib məni kölə,əsir
Sanki pisliyə tələsir.
Şillə etməz ona təsir,
Ayrılığın üzü bərkdir.

Nə dincələr,nə də yatar,
Sözləri var qatar-qatar.
Qocalsa da addım atar,
Həsrətinin dizi bərkdir.

Dərd anlayıb duymaz ki heç,
Qəlbimdəcə uymaz ki heç.
Bircə görüş qıymaz ki heç,
Vüsalının özü bərkdir.

Sevinc Arzulu

**Doğrudan keçib**

Qapını qış alıb, meyvə soğulur,
Ən yüksək nöqtədə hava boğulur.
Sanma ki dünyaya asan doğulur,
Hər insan gəlişi ağrıdan keçib.

Həyatın heç fərəh vermədi ki çox,
Bir qarnı ac oldun, bir qarnınsa tox.
Götürdüyün sənin, gördüyünsə yox,
Bu qızıl qaydalar oğrudan keçib.

Ayrılıq acı dərs öyrətdi mənə,
Düşmüşəm yayda da duman, çənə.
Dünyanı dolaşıb  dursa da yenə,
Yalanın örkəni doğrudan keçib.
06.10.2018

Sevinc Arzulu

**Doğrudurmu**

Kainatı qefes eden,
Kelbimdeki ağrıdırmı.
Bu dünyanı mehbes eden,
Derdin qara bağrıdırmı

Her sözüme hey el çalan.
Gah ucalan,gah alçalan,
Ilk baxışdan ürek çalan,
Sence esil oğrudurmu.

Özü gedib.izi qalan
Lal könlümü etdi talan,
Söylediyi yalan-palan,
Gören,Allah,doğrudurmu.

Sevinc Arzulu

**Doğrunam, ana**

Kederli günüme şabaş daşıdım,
Qurudu serdiyim, hey yaş daşıdım.
Sanki odun yardım men, daş daşıdım
Ele qocalmışam, yorğunam, Ana.

Boğazım tutulur acı qeherden,
Içimde göyneyen ağu-zeherden.
Geceler yuxuma girirsen herden
Men senin sualsız sorğunam, Ana.

Sekkiz ildir seni itirmişem men,
Ferehi qapıdan ötürmüşem men.
Senin çox cizgini götürmüşem men,
Hebsde yatmayan oğrunam, Ana.

Eh.Sevinc, feleyin hökmüyle barış,
Çavandan uzaqlaş, qocaya qarış.
Üstüme düşmesin ne dost,ne tanış
Esl heqiqetin, doğrunam,Ana.

Sevinc Arzulu

**Doğrunam,gülüm**

Sən getdin, bəs necə mən tənha qalım,
Qəlbimin kömrüylə yanır manqalım.
Həsrətin əbədi alov-tonqalım,
Mən sənin cavabsız sorğunam, gülüm.

Batıram, bir xilas salım də yoxdur,
Köməyə çatası zalım da yoxdur.
Daha danışmağa halım da yoxdur,
Kədərdən aləm tək yorğunam, gülüm.

Gözləri danışan qəmgin, lal dünyam.
Hicranın odundan rəngi al dünyam.
Ay mənim riyadan uzaq  bal dünyam,
Əsl həqiqətin.doğrunam, gülüm.

Sevinc Arzulu

**Dola bilmedim**

Çətində köməyə.qayğıya dönüb,
Ən zərif,ən incə duyğuya dönüb,
Qara gözlərində uyğuya dönüb,
Sənnin ürəyinə dola bilmədim.

Həsrətin.hicranın acıdan acı,
Vüsal da hey mənə baxır qıyqacı.
İndi başqasıdır başımın tacı,
Neynəyim.səninki ola bilmədim.

Səsimə səs verməz əsən yellər də,
Qəmimi aparmaz coşan sellər də.
Sənin tək yaşayıb qürbət ellərdə,
Sənlə birlikdə ölə bilmədim.

Sevinc Arzulu

**Dolam,dolam**

Elini yardan üzende,
Dolaşar çölde,düzende.
Külli-alemden küsende,
Gözü dolar,dolar,dolar.

Sükut yaşar haye kibi.
Bulaq axar çaye kibi.
Müqeddes bir aye kibi,
Sözü dolan,dolan,dolan.

Üreyinde yara gedir,
Yalvarmaqçun xara gedir.
Bir gör hardan hara gedir,
Izi dolam,dolam,dolam.

Sevinc Arzulu

**Dolaşa qadın**

Örterek üzünü baxmağa qoymur,
Sözleri su kimi axmağa qoymur.
Sanır ki ağ güne çıxmağa qoymur,
Qara kolgesiyle dalaşan qadın.

Qarışıır üzünde yene yaş yaşa,
Büdreyir, toxunur sanki daş-daşa.
Ayrılıq gülüyle qalıb baş-başa,
Yamacda tek-tənha dolaşan qadın.

Toplayıb çıxsa da cemi götürür,
Ömründe en xoşbext demi götürür.
Qara kipriyiyle qemi götürür,
Seyr edib göyleri dolaşa qadın.

Sevinc Arzulu

**Dolaşır, gülüm**

Artsın közünün işığı,
Yansın özünün işığın.
Bağla gözünün işığın,
Gözüm qamaşır,gülüm.

Bir gün həsrət ölsə,qorxma,
Kədər qəlbin sıxsa, qorxma.
Könlündən səs gəlsə,qorxma,
Xəyalım dolaşır,gülüm.

Qarşılaşaq gülər üzlə,
Lal gecəylə,al gündüzlə.
Ömür boyu yalan düzlə,
Cəng edib dalaşır.gülüm.

Sevinc Arzulu

**Dolmaq istemir**

Parlamaz qaşım, ağa
Min illər yaşım, ağa.
Sevdiyim yaşamağa
Ümid olmaq istəmir.

Bir dünya savaşıyla,
Ölüm saçan daşıyla.
Sevənin göz yaşıyla,
Bulud dolmaq istəmir.

Üzünə vurar ənlik,
Qəm –qüssə qurar şənlik.
Həyat məchullu tənlik,
Sabit qalmaq istəmir.

Sevinc Arzulu

**Dolu içim**

Gözümdə damla yaş qalıb,
Ürəyimdə təlaş qalıb.
Duyğularım çaş-baş qalıb,
Qarışqayla dolu içim.

Həsrət köhnə bəhanədir.
Qəlb sarayım viranədir.
Dəli könül divanədir,
Qəm badəsi dolu, içim.

Gecə-gündüz məndən deyər,
Hicran ilə mən can-ciyər.
Mavi səma tez inciyər,
Tökər yağış ,dolu, içim.

Sevinc Arzulu

**Dolum, dağlar**

Çaydım,dənizə axmışam
Boynuma inci taxmışam.
Şimşək tək göydə çaxmışam,
Mən qurbanın olum,dağlar.

Şökülüb qəlbimin bağrı,
Ürəyimdə bitməz ağrı.
Inan,qalıb sənə doğru,
Uzanıqlı qolum,dağlar.

Sinəndə yanardı tonqal,
Biz də qurardıq bir manqal.
Yollarımı kəsib qanqal,
Tikan sağım-solum,dağlar.

Düşərdi sizdən güzarım,
Çıxardı candan azarım.
Başlanar yenə ah-zarım,
Razı olma dolum,dağlar.

Sevinc dildə söz-söhbətdir,
Sönməz eşqdir,məhəbbətdir.
Nə vaxtdır sənə həsrətdir,
Düşər sənə yolum,dağlar.

Sevinc Arzulu

**Donan şekil**

Islanıb sıcaq yaz yağışı altda,
Seni düşünürüm,seni anırım.
Paslanıb hicranın baxışı altda,
Bir zaman yandığın oda yanırım.

Üzüme baharın etiri vurur,
Tanrı isteyiyle qopan külekle.
Dünyanın geliri-götürü durur,
Ben nece bacarram soyuq ürekle.

Bilirsin,ezizim,her saat,her an,
Gözümün önünden çekilmeyirsin.
Üzünü dönderib getme,bir dayan
Zamanın qeminden donan şekilsin.

Sevinc Arzulu

**Dostlaşmadım**

Dərə endim,dağ da aşdım,
Hərdənbir düz yolu çaşdım.
Mən dünyanı çox dolaşdım,
Sənin ilə rastlaşmadım.

Düşmən gözünə tikanam,
Yer  titrədən bir təkanam.
Bu dünyada laməkanam,
Kimsə ilə dostlaşmadım.

Balıq məşhur kürüsüylə,
Maral gəzər sürüsüylə.
Bilmədiyim birisiylə,
Badə vurub tostlaşmadım.

Sevinc Arzulu

**Dostuma**

ŞEİR-SÖHBƏT
(Qırx illik dostum Afaqa)

Qırx illik dostluğa inanmışıq biz.
Nələrin üstündə qınanmışıq biz.
Dar gündə, çətində sınanmışıq biz.
O xoş xatirələr gözümdən itməz.

Bu sənin taleyin, bəxtin, qismətin
Bir ömür sürmüsən çətindən çətin.
Yamanca ağırmış eşqin həsrəti,
Ürəkdə yurd salan bu sevda bitməz.

Heç nəyin üstündə küsdük, barışdıq
"Kim əla oxuyar"-daim yarışdıq.
Zamanın oduna nə tez alışdıq,
Çox heyif, ötənə əlimiz yetməz.

Bilmədik ayrılıq fələk oyunu,
Üfləyib içmədik acı suyunu.
Bilirsən, əzizim, bilirsən bunu,
Qızılgül bağında qarğalar ötməz.

Qoy artsın, çox olsun hər zaman ruzin,
Analıq hissinin oduna qızın.
Hər zaman dayaqdır öğulun, qızın
Çəkdiyin əziyyət heç bada getməz.

Sevinc Arzulu

**Doydu hesretin**

Başım altda qoyub söz balıncını,
Yaramı astaca soydu hesretin.
Saplayıb qelbime qem qılıncını,
Ele içimdence oydu hesretin.

Yolunu gizlice burdan salıbmış,
Hicranın könlünü ele alıbmış.
Ele bil neçe il susuz qalıbmış,
Gözümün yaşıyla doydu hesretin.

O da zalım imiş zemane kimi,
Yanıram oduna pervane kimi.
Çöllere salaraq divane kimi,
Beni ne günlere qoydu hesretin.

Sevinc Arzulu

**Döndermisen qezel**

Işıqlı,gen dünyamı cəhənnəmə döndərmisən,
Şad gündə fərəhimi kədər-qəmə döndərmisən.
Çox idi dost yanında mənim hörməti-izzətim,
Divanə edib indi bəxti-kəmə döndərmisən.

Al bayraq ucaldaraq saf eşqımı bildirirdim,
Bəs niyə bayrağımı ağ ələmə döndərmisən.
Həmişə fərəh ilə bol olan könül dünyamı,
Hicran,möhnətlə dolu bir aləmə döndərmisən.

Düz deyirlər nə bilir qəmin dadaın dərd çəkməyən,
Yandırırsan hey  məni,lap Kərəmə döndərmisən.
Sən indi çox gözəli özünə kölə etmisən,
Düz yolundan çıxarıb qul-hərəmə döndərmisən.

Ah,nə qədər mən üzmüşəm sənin hicran dənizində,
O kiçik qayığımı qəm bərəmə döndərmisən.
Gecə-gündüz ağlayıb nalə çəkməkdən,ay gülüm,
Həmişə zildə çıxan səsi bəmə döndərmisən.

Daim danışıb gülər sevib-sevilən insanlar,
Fərəh bəxş edən eşqi lap sitəmə döndərmisən.
Sən nədən dəyişmisən Sevincin bütün ləzzətin,
Şirin dadan dadını acı təmə döndərmisən.

Sevinc Arzulu

**Dönen xatirelerim**

Oxuyar qem neğmesin,
Hesret geri gelmesin.
Kelbimde hezin-hezin,
Dinen xatirelerim.

Deyilmeyen xitaba,
Oxunmayan kitaba,
Bir çekilmez ezaba,
Dönen xatirelerim.

Dünya fanidi, heçdi,
Gören kimi dost seçdi.
Yanımdan asta keçdi,
Dünen xatirelerin.
17.10.2018

Sevinc Arzulu

**Dönme**

Hisslərini anladırsan asta-sta, kəlmə-kəlmə,
Nə olar ki ay əzizm, üstüməcə sən bu qədər gəlmə-gəlmə.
Nəyim var ki sənə verim qəmdən sonra,
Söylə, səni necə sevim həsrət dolu dəmdən sonra.
Dondurmuşam bir zamanlar dəniz kimi aşıb-daşan duyğuları.
Unutmuşam sənli ikən gördüyüm bal uyğuları.
Nolar, daha geri dönmə.
Tək qalxdığın  ucalıqdan  enmə-enmə.
Nələr oldu, dünya dondu aramızda,
Bax, qaysaq da bağlayıbdır yaramız da.
Dur, əzizim, mənə sarı adddım atma,
Bağışlanmaz bir günaha təzədəncə batma-batma

Sevinc Arzulu

**Dönmüşem senin**

O qədər suala cavab sordum ki,
Başını-beynini yaman yordum ki,
Gözümü açıb da bir də gördüm ki,
Ay aman, Leylinə dönmüşəm sənin.

Işıqla oynayar qara kölgələr,
Zülmətə qərq olar yaxın bölgələr
Könül dənizimdə mavi "bəlkələr",
Ay güman, meylinə dönmüşəm sənin.

Zamanın səddini hey aşır ahım,
Yenə də hicranla dalaşır ahım.
Gözümün önündə dolaşır ahım,
Ay duman, xeylinə dönmüşəm sənin.

Sevinc Arzulu

**Dönük dosta**

Mənəmmiş həyatın boynunda yatan,
Mənəmmiş dünyanın ən pis insanı.
Mənəm həqiqətin qoynunda batan,
Üstümə yağdırma yalan  leysanın.

Bəlkə də zamanın ən təmiz, ən saf
Adamı  içində ön sıradayam.
Bilsən, gözəl hissdir comərdlik, insaf
Yaxşılıq hardasa mən oradayam.

Kimsəyə pisliyi qıymaram heç vaxt,
Səhv etsəm üzr də istəmişəm mən.
Günahı yaxına qoymaram heç vaxt,
Naxələf bəndəni pisləmişəm mən.
12.09.2018.

Sevinc Arzulu

**Dönüm  daha**

Buz üstünde od-köz durmur,
Üreyimi düz söz vurmur.
Ulduzumuz heç göz vurmur,
Qaralıban sönüb daha.

Ayı, günü bölüşmerik,
Danışıban gülüşmerik.
Rastlaşmarıq,görüşmerik
Dönergemiz dönüb daha.

Derdin sayı ona kimi,
Ağdan qara tona kimi.
Gedemmirim sona kimi,
Ben qayıdım, çönüm daha.

Sevinc Arzulu

**Döydü kapımızı**

Dəli çaylar sakit axmaz,
Ildırımlar nahaq çaxmaz.
Bir ərköyün,sözəbaxmaz,
Dəcəl döydü qapımızı.

Iki yoldan birini seç,
Yaşa,ya da canından keç.
Nədən ölüm vermədi heç.
Macal,döydü qapımızı.

Qaldı neçə toy-düyünün,
Daha gəlməz səsin-ünün.
Soyuq,çiskin payız günü,
Əcəl döydü qapımızı.

Sevinc Arzulu

**Dözüm**

Yenə də qaşımı çatıb qalmışam,
Fərəhi kədər satıb qalmışam.
Elə içindəcə batıb qalmışam,
Bu qədər düyünü mən necə çözüm,
Dözüm, ay dözüm.

Qəfildən quruyan çay olmuşam mən,
Haray olmuşam mən, hay olmuşam mən.
O günəş olubsa, ay olmuşam mən,
Bilirəm, həsrətə günahkar özüm,
Dözüm, ay dözüm.

Başlasın toy-nişan, başlasın düyün,
Ilahi, verdiyin şənliklə öyün.
Elə qorxuram ki bir zaman, bir gün
Qəfildən alışar soyuyan közüm,
Dözüm, ay dözüm.
31.07.2015

Sevinc Arzulu

**Dözüm var**

Ay yellənib gedən qız,
Dediyini edən qız,
Incimisən nədən, qız
Getmə, sənə sözüm var.

Gün-gündən yaddaşırsan.
Sahilini aşırsan,
Nə kükrəyib daşırsan,
Gözlərində gözüm var.

Gülləri üzmədinmi,
Telinə düzmədinmi.
Təklikdən bezmədinmi,
Səndə əcəb dözüm var.
30.04.2018

Sevinc Arzulu

**Dözümü apardı**

Valı oxudub tərsinə,
Hicran gəldi sinə-sinə.
Çəkdi bəyaz sinəsinə,
Dağlar sözümü apardı.

Kədər fərəh pozandı hey,
Royanı tərs yozandı hey.
Uzandıqca uzandı hey,
Bağlar gözümü apardı.

Heç sevərmi ağlı olan,
Həyatı qəm nağlı olan.
Sənin ilə bağlı olan,
Çağlar dözümü apardı.
25.04.2018

Sevinc Arzulu

**Dözümün sebri**

Dadanları andırmayır,
Nadanları qandırmayır.
Bir kimseni yandırmayır,
Közümün cebri yox daha.

Aldanıb eşq şiresine,
Pul da vermir kiresine.
Yayılıb Yer küresine.
Sözümün qebri yox daha.

Hey ağlayıb, heç gülmeyib
Göz yaşın kimse silmeyib.
Ne olduğunu bilmeyib,
Dözümün sebri yox daha.

Sevinc Arzulu

**Dözümün üstüne**

Ötürüb gecənin qaranlığını,
Itirib həsrətin toranlığını,
Öpüb məhəbbətin şoranlığını,
Qaldırıb qoymuşam gözümün üstə.

Hər kiçik zərbədən qaralır qanım,
Əriyib gedirəm, qalmayıb canım.
Izn ver, sonadək alışıb yanım,
Nə olar, su tökmə közümün üstə.

Məgər gənc ömrünü fələk çalmayıb?
Vüsalın üstünü bulud almayıb?
Taqətim azalıb, səbrim qalmayıb,
Yamanca qar yağıb dözümün üstə.
25.05.2014

Sevinc Arzulu

**Duman olacam**

DUMAN OLACAM

Ölümü ötürüb yaşa qoyacam,
Zülümü götürüb daşa qoyacam.
Gülümü getirib başa qoyacam,
Hicranı saçından sürüyeceyem.

Vüsala ebedi qulam ben daha,
Hesretin eynine tülem ben daha.
Içimden yanaraq külem ben daha,
Eh, ele-belece çürüyeceyem.

Suları tertemiz umman olacam,
Xoş ümid olacam, güman olacam.
Ağappaq, qayğısız duman olacam,
Gözünün önünü bürüyeceyem.
19.08.2013

Sevinc Arzulu

**Duman kimi**

Gül əkmişəm cərgə-cərgə,
Yara qismət ola bəlkə.
Qaranlıqda qara kölgə,
Sürünür ağ duman kimi.

Yalanlara gərdim sinə,
Uymadım and-vədəsinə.
Həqiqətin pərdəsinə,
Bürünür dağ güman kimi.

Indi sadiq dostlar hanı,
Haqsızı sözündən  tanı.
Ortasında biyabanın,
Görünür bağ uman kimi.
06.02.2018

Sevinc Arzulu

**Duman meni**

Güllərin üstünü qar alıb gedib.
O gözəl təbiət saralıb gedib,
Qaranlıq guşəyə gedib çıxaram,
Azdıra bilməz ki bu duman məni.

Xəyal göylərində qəfil çaxaram,
Buludun gözündən narın axaram.
Həsrəti yandırar, hicri yaxaram,
Yolumdan döndərməz heç güman məni.

Salamat dostlarım yad etməsə də,
Yaralı könlümü şad etməsə də.
Kimsə sevdiyimə ad etməsə də,
Unutmaz gözünü tez yuman məni.
30.04.2018

Sevinc Arzulu

**Duman olacam**

Ölümü ötürüb yaşa qoyacam,
Zülümü götürüb daşa qoyacam.
Gülümü gətirib başa qoyacam,
Hicranı saçından sürüyəcəyəm.

Vüsala əbədi qulam mən daha,
Həsrətin əyninə tüləm mən daha.
Içimdən yanaraq küləm mən daha,
Eh, elə-beləcə çürüyəcəyəm.

Suları tərtəmiz umman olacam,
Xoş ümid olacam, güman olacam.
Ağappaq, qayğısız duman olacam,
Gözünün önünü bürüyəcəyəm.
19.08.2013

Sevinc Arzulu

**Dumandasan sen**

De hardasan, gümüş gözlüm,
Dodağları şirin sözlüm,
Həyəcanlım, atəş közlüm,
Hansı limandasan sən.

Ümid uşaq tək yeriyə,
Arzu yaramı səriyə.
Nə olar ki, dön geriyə,
Ümid, gümandasan sən.

Qapımızı döydü bahar
Öz-özünü öydü bahar.
Yaşıl deyil, göydü bahar,
Çəndə, dumandasan sən.

Sevinc Arzulu

**Dumane  kibi**

Getdin,hesretinle beni qoydun tek,
O da zalım imiş zemane kibi.
Çetin ki en ülvi arzuya yetek,
Ağlaram kamansız kemane kibi.

Heqiqet denizde bir qum adası,
Yalanlar hemişe acı dadası.
Gah sızlar,gah buzlar könül odası,
Ümidler yer alar gümane kibi.

Qayayam,ayrılıq düzleyer beni,
Hicranla birleşib üzleyer beni.
Gah göyde,gah yerde izleyer beni,
Bulud sıralanar dumane kibi

Sevinc Arzulu

**Dumanı qalıb**

Günəşin gözündə qara eynəyi,
Ayın da önünü buludlar kəsər.
Görürsən ayrılıq mehi neynədi,
Qalmadı işıqlı ümiddən əsər.

"Ümid sonda ölür" deyib atalar,
Bəs niyə sonunu gözləmədi ki...
Tək qalan zirvənin başın qar alar,
Ayrılıq qəlbi az közləmədi ki...

Bir kiçik qığılcım isidir məni,
Könlümdə ümidin gümanı qalıb.
Sanıram ayrılıq eşidir məni,
Başımda çiskinli dumanı qalıb.
19.04.2015

QƏM ÇƏKİB

Sevinc Arzulu

**Dur görüm**

Bulaq-könül çeşməmdir,
Sis-çəkilən eşməmdir.
Qarşındakı düşməndir,
Vur, balası, vur görüm.

Qəmin bağrın söksənə,
Üstünə daş töksənə.
Öz dünyanı təkcənə.
Qur, balası, qur görüm.

Dəniz çaya qarışıb,
Günəş aya qarışıb.
Fikrim suya qarışıb,
Dur, balası, dur görüm.

Sevinc Arzulu

**Dur, gülüm**

Bulud yenə qəmli-qəmli ağlayar,
Çaylar göz yaşıyla dolub çağlayar.
Şəlalələlər yollarını bağlayar,
Dəli sellər axar iti.gur,gülüm.

Uca dağam-dumansızam.çənsızəm,
Göy zəmiyəm-buğdasızam,dənsizəm.
Kədərliyəm,nə müddətdir sənsizəm,
Gəlişinlə ver gözümə nur,gülüm.

Mən Sevincəm,bax  ağıma.qarama,
Yad gözəlin tellərini darama,
Bu gəlişin məlhəm oldu yarama,
Gedək gəzək çöy çəməni, dur,gülüm

Sevinc Arzulu

**Durmusan**

Daha yar-yoldaşı seslemeyirsen,
Bir özge mehebbet beslemiyirsen.
Yad odun-ocağın istemeyirsen,
Gözünü gözüme dikib durmusan.

Ay üzü işıqlı, könlü ziyalı
Daha uzaqlara uçmaz xeyalın.
Indi önümdesen sakit, heyalı
Sevgini al güle büküb durmusan.

Zamansız sevgiye möhür salmısan,
Başqa cür gözellik, sehr salmısan
Dünyada tek bana mehr salmısan.
Elini telime çekib durmusan.

Alqışı, duanı haqdan umardın,
Qaraca niyyete gözün yumardın.
Benimçün en uca yaşıl çinardın.
Niye yarpağını töküb durmusan.

Sendemi gencliyi verdin yelece,
Yaşayıb yaratdın, güldün elece.
Illermi qocaldıb seni belece,
Karşımda dizüste çöküb durmusan.

Sevinc Arzulu

**Durularsanmı**

Durum addım-addım gəzim diyarı,
Kiminlə rastlaşıb kimi görəcəm.
Zəmanə qarının zamanmı yarı,
Könlümdə gəzişib simi görəcəm.

Çalacam mizrabsız sarı simi mən,
Qocaman aşıq tək kəşt eyləyəcəm.
Kövrəldə biləcəm görən  kimi mən,
Bu şirin canıma qəsd eyləyəcəm.

Ağlaya duracam yolların üstə,
Gözümün yaşını qurularsanmı.
Bir gül də qoymaram kolların üstdə,
Suyuna tökərsəm durularsanmı?
27.03.2018

Sevinc Arzulu

**Duyana gedir**

Başımın üstünde bir parça bulud,
Hayana gedirem, o yana gedir.
Bir elce teselli, bir parça ümid,
Derdimin qanına boyana gedir.

Mentek ovcundadır gözünün yaşı,
Yamanca qızarıb közünün daşı.
Dadlıdır, duzludur sözünün aşı
Onu anlayana, duyana gedir.

Arası yox onun üzügülmezle,
Dostunun göz yaşın tezce silmezle.
Bir işi yoxdu ki qedirbilmezle,
Üzünü yağışda yuyana gedir.

Sevinc Arzulu

**Duyaq dünyanı**

Günəş şölə saçsın, gur işıq olsun,
Libası bəzəkli,əlvan, şıq  olsun.
Daha gözəl olsun, yaraşıq olsun,
Mavi dalğalarla yuyaq dünyanı

Hərdən zəhər olar yediyim balım,
Hərdən elə əsər, tökülər kalım.
Dalınca  desək də əzazil, zalım
Bir dəfə halını duyaq dünyanın.

Dərdini deməyə dili lalsa da,
Sükuta qərq olub fikrə dalsa da.
Bizə şirin-şirin layla çalsa da.
Həmişə görək biz oyaq dünyanı.
02.12.2017

Sevinc Arzulu

**Duyğular**

Sevgimiz tez biten bir dram oldu,
Baş rolu oynadın nece ürekle.
Tamaşan kederli xatirem oldu,
Boş yerde ev qursan,uçar külekle.

Sen getdin,elimde ebedi qaldı,
Hesretin özü tek somsoyuq tozu.
Tenha üreyimi bed fikir aldı,
Gözlerim seçmedi qaranı,bozu.

Seni xeyalımın penceresinden,
Izledim,izledim sehere qeder.
Ayrıldın aşiqler şeceresinden,
Buzladım,buzladım qehere qeder.

Getdin,dağıdaraq bendi-bereni,
Bir de çekilmez ki teze yolumuz.
Beyaz çen bürüyüb dağı-dereni,
Ne sağımız belli,ne de solumuz.

Azmışıq xülyalar içinde,gülüm.
Ne sen günahkarsan,ne ben günahkar.
Belke de aldandıq seçimde.gülüm.
Bilmezdik feleyi bele tamahkar.

Seni benden alıb apardı neden,
Hele bir çox gördü ilk görüşü de.
Dırnağı etinden qopardı neden,
Dondurdu dodaqda bal gülüşü de.

Aldandıq qismetin zarafatına,
Dadını bilmeden  yedik acını.
Aldandıq ismetin xurafatına
Qiymetsiz eyledik vüsal tacını.

Sevinc Arzulu

**Duyğular qanadlandırır**

Duyğular ruhumu qanadlandırır,
Uçuban çatıram göyün qatına.
Nədən dostlar məni tərs adlandırır,
Tanrım, məni mindir fərəh atına.

Adım tək mənalı bal ömür sürüm,
Sözündə düz olan dostlar var olsun.
Oğul toyu gördüm, qız toyu görüm,
Düşmən qəhr edilsin, sonu xar olsun.

Tanrının verdiyi ömrü yaşayaq,
Kaş ki incitməsin bu fələk bizi.
Göylərə ucalan adı daşıyaq,
Savaba yazsın qoy cüt mələk bizi.
06.08.2014

Sevinc Arzulu

**Duyğularım**

DUYĞULARIM

Sevgimiz tez biten bir dram oldu,
Baş rolu oynadın nece ürekle.
Tamaşan kederli xatirem oldu,
Boş yerde ev qursan, uçar külekle.

Sen getdin, elimde ebedi kaldı,
Hesretin özü tek somsoyuq tozu.
Tenha üreyimi bed fikir aldı,
Gözlerim seçmedi qaranı, bozu.

Seni xeyalımın penceresinden,
Izledim, izledim sehere qeder.
Ayrıldın aşiqler şeceresinden,
Buzladım, buzladım qehere qeder.

Getdin, dağıdaraq bendi-bereni,
Bir deçekilmez ki teze yolumuz.
Beyaz çen bürüyüb dağı-dereni,
Ne sağımız belli, ne de solumuz.

Azmışıq xülyalar içinde, gülüm.
Ne sen günahkarsan, ne ben günahkar.
Belke de aldandıq seçimd, gülüm.
Bilmedik feleyi bele tamahkar.

Seni benden alıb apardı neden,
Hele bir çox gördü ilk görüşü de.
Dırnağı etinden qopardı neden,
Dondurdu dodaqda bal gülüşü de.

Sevinc Arzulu

**Duymuşam**

Kül tutub eşq fezasını,
Uzaq etməz qezasını.
Ayrılığın eəzasını
Araz olanda duymuşam.

Eritse de gün qarımı,
Pozmadım ki ilqarımı.
Feleyin sert ruzgarını,
“Ağac olanda duymuşam”.

Yel artırdı azarımı,
Dolu vurdu bazarımı.
Yaşamağın ezabını
Adam olanda duymuşam.

Sevinc Arzulu

**Duyqularım**

DUYĞULARIM

Qem qelbinde köç salıbdır,
Eşqden yağlı “heç” alıbdır.
Deyen ben tek qocalıbdır,
Üzü dönüb duyğuların.

Defn eyleyib mehebbeti,
Yoxdur diriltmek qüdreti.
Azalıbdır herareti,
Odu sönüb duyğuların.

Vesl evinde qonaq qalmır,
Şirin xeyallara dalmır.
Göy semada qanad çalmır,
Yere enib duyğularım.

Sevinc Arzulu

**Dümağ olubdur**

Yene çalxalanır mavi denizim,
Artır günü-günden telde den izi.
Qaçıb,yaman qaçıb betim,benizim
Qara qardaş olan dümağ olubdur..

Avandı görünmez şekilmişim ben,
Sonuncu heddedek çekilmişim ben.
Ne qeder sökübler,tikilmişim ben,
Yaşamım ömrüme yamaq olubdur.

Hesretden avara,hicrandan sefil,
Bir gün de önüne çıxacaq qefil.
Sevdiyin,görersen,ey dili-qafil,
Qocalıb-qocalıb yumaq olubdur.

Sevinc Arzulu

**Dünya**

Zirvede alaçıq salan ben idim,
Kasıba elaçıq,talan ben idim.
Dersinde elaçı olan ben idim,
De,niye verdin bes ikini,dünya.

Kederi odana çıraq eyledin,
Ferehi gözünden qıraq eyledin.
Beni de özünden iraq eyledin,
Indi kim çekecek yükünü,dünya.

Bir yerde dayanıb durmusan daha,
Çal-çağır meclisi qurmusan daha.
O qeder içmisen,vurmusan daha
Itirdin deyesen çekini.dünya.

Sevinc Arzulu

**Dünya bele getse**

Dünya belə getsə, deyən, əzizim,
Dumanlı beynimdən qan fışqıracaq.
Başına-gözünə döyən əzizim,
Halıma yanaraq “can”qışqıracaq.

Üstümə gələcək səhərin mehi,
Məni asta-asta küləkləyəcək.
Üzümə güləcək qəhərin şehi,
Arzumu yüz yerə diləkləyəcək.

Yenə qalacağam yarı yolda mən,
Nə sola gedəcəm, nə də ki sağa.
Məni sənsiz görüb solar göy çəmən,
Başıma həsrətin yağışı yağar.

Sevinc Arzulu

**Dünyada yaşadım**

Zalım fələk dediyimi etməyir,
Sevən ürək vəsli-kama yetməyir.
Hey gedirik,həsrət yolu bitməyir,
Gənc ömrümü mən xülyada yaşadım.

Sənlə görüşümüz baş tuta çətin,
Həsrətinə sinə gərrəm mərd,mətin.
Yaman əlçatmazdır saf məhəbbətin,
Əsl həyatı şən röyada yaşadım.

Fələk mənlə heç olmadı səmimi,
Göy dalğalar batırdı qəlb gəmimi.
Sənsizlik artırdı qüssə-qəmimi,
Kədər adlı bir dünyada yaşadım.

Sevinc Arzulu

**Dünyanın sonu**

Milyon defe sökülse de dan üzü,
Tutacaqdır vüsal bizden yan üzün.
Bu baharın olmadı ömrü uzun.
Hesret qaldıq yaşıl zerli donuna.

Insan bextin çaldığına qol açsa,
Cengelliyi yara-yara yol açsa.
Ne qeder de mene deyib-dolaşsa
Tabe olmam hicranın qem tonuna.

Mehebbetin pıçıltısı ündedir,
Tenha qalan ayrılıq nə gündedir.
Ele dedik yaxşı günler öndedir
Axır çatdıq bu dünyanın sonuna.

Sevinc Arzulu

**Düşdüm**

Derdin bilinmez huyu ya,
Kim oyana,kim uyuyaa.
Felek qazdığı quyuya,
Bir deyil,on kere düşdüm.

Yaxşıya şeytan demedim,
Dalana meydan demedim.
Kimseye böhtan demedim,
Sonucunda şere düşdüm.

Dünya-alem yırğaladı,
Qulağımı sırğaladı.
Yollar beni yırğaladı,
Tepe aşdım,dere düşdüm.

Sevinc Arzulu

**Düşecem bir gün**

Meyvəsi soğulmuş bir bağa dönüb,
Qapqara boğulmuş torpağa dönüb,
Küləkdən sovrulmuş yarpağa dönüb,
Ayağın altına düşəcəm bir gün.

Məğlub eyləyibən həsrət divini,
Alovda yandırram dərdin evini.
Sənlə bağlı olan qəm arxivini,
Başdan-ayağadək eşəcəm bir gün.

Uca çinar ilə yaşıd olacam,
Ömrün payızında yaşıl olacam.
Səninlə birlikdə yaşa dolacam,
Həsrətin odunda bişəcəm bir gün.

Sevinc Arzulu

**Düşer**

Fələk öz öynunu oynayar yaman,
Ayrılıq, uzaq dur vüsaldan, aman.
Qəflətən küçədə rastlaşan zaman,
Yadıma verdiyin quru söz düşər.

Sən öz saydığın say, fələk nə deyir,
Bir kimsə fələkdən görməyib xeyir.
Xalqın qismətinə ləli-cəvahir,
Eh, mənim bəxtimə çürük qoz düşər.

Bütün ümidlərim yanıb qor olar,
Sevənin hər zaman gözü kor olar.
Cavabsız sevginin işi zor olar.
Soyumuş ocağa isti köz düşər.

Sevinc Arzulu

**Düşmen**

Soldurdun qızılgülümü,
Susdurdun ol bülbülümü.
Şönən ocağın külünü,
Öz başına ələ.düşmən.
Nə bilirsən elə,düşmən.

Talan eylədin varımı,
Qana boyadın qarımı.
Özəlləşdirmə tarımı,
Dəyməzsən bir telə düşmən.
Nə bilirsən elə,düşmən

Sən çənsizsən.dumansızsan.
Həqiqətsiz,gümansızsan.
Gör necə də amansızsan,
Qurdun bizə tələ,düşmən.
Nə bilirsən elə,düşmən

Vətənin qədrin bilərik,
Çox sevərik,sevilərik.
Bilsən necə sevinərik,
Qurban olsan selə,düşmən.
Nə bilirsən elə,düşmən

Atəşkəsdir on səkkiz il,
Qarabağı beynindən sil.
Yadda saxla,onu da bil
Dünya getməz belə,düşmən.
Nə bilirsən elə,düşmən

Qəlblərdədir Babək-Xürrəm,
Həsrət ilə ömür sürrəm.
Düşməni sözlə öldürrəm,
Mərdlər sağdır hələ düşmən.
Nə bilirsən elə,düşmən.

Sevinc Arzulu

**Düşmüşüm**

Tufan olar,yel yağışa qarışar,
Çətin  vüsal həsrət ilə barışa.
Burda olum ilə yarışa,
Həqiqətlər meydanına düşmüşəm,

Açılmayan  bir ovsunam,bir sirrəm,
Qara şumdan qəm kərpicin kəsirəm,
Sənsizliyə mən ömürlük əsirəm,
Həsrətinin zindanına düşmüşəm,

Söylə,hanı ayrılıq yolun seçən,
Bu dünyadan baş götürüb tez köçən,
Göz önündə canlanır olub keçən,
Xatirələr ğüldanına düşmüşəm,

Kədərlidir sənsiz qalan dilbərin,
Bir də ğözə ğörünməz ki su pərin,
Çıxammıram ,qazılıbdır çox dərin,
Ayrılığın ovdanına düşmüşəm,

Kəpənəklər lalə kimi xallanıb,
Qızılgüllər gəlin təkin sallanıb,
Yanaqlarım deyən yenə allanıb,
Təbiətin sübh danına düşmüşəm.

Sevinc Arzulu

**Düşmüşüm ben de**

Ocaq his eyleyer yanana kibi,
Çerlersen anlamaz qanana kibi.
Seni xatırlayıb anana kibi,
Kiminse yadına düşmüşüm ben de.

Kim idi yalanı unlayıb öyen,
Hesreti görende yanlayıb söyen
Sen idin vüsalı danlayıb döyen,
Eh,senin badına düşmüşüm ben de.

Mehebbet şirindir xülyamız teki,,
Deniz tek derindir röyamız teki.
Başını itiren dünyamız teki,
Zamanın şadına düşmüşüm ben de.

Sevinc Arzulu

**Düşübdür**

Hesretin ocağı buzlar içimde,
Hicranın ağrısı sızlar içimde.
O qeder qadınlar,qızlar içinde
Feleyin tek mene gözü düşübdür.

Ezizim,gördüyün boş xeyal imiş,
Həyatın yolları derd-melal imiş.
Men ele bilirdim vüsal lal imiş,
Dilinden bircə "yox"sözü düşübdür.

Men doya bilmedim eşqin dadından,
Bir dünya itirdim sevgi adında.
Ruhumu  semanın uca qatından,
Eğyar düşürmeyib,özü düşübdür.

Sevinc Arzulu

**Düşün cemi**

Dərələri çən uyutdu,
Kədərini mən ovutdum.
Sevdiyini sən unutdun,
Ağ atından düşüncəmi?

Coşub daşan selə baxdın,
Bəyazlaşmış telə baxdın.
Həsrət ilə elə baxdın
Qarışdırdın düşüncəmi.

Qəm qışında büzülmə sən,
Qara sapa düzülmə sən.
Tək fikirdən üzülmə sən,
Ay ağıllım, düşün cəmi.
12.12.2017

Sevinc Arzulu

**Düyünlendi**

Güneş gülüb şefeq saçdı,
Zülmet ondan uzaq qaçdı.
Gül bülbüle könül açdı,
Düyüm-düyüm düyümlendi.

Mehebbetim mehek daşı,
Qiymetini bilmez naşı.
Bişirdiyim vüsal aşı,
Düyü-düyü düyülendi.

Ocaq odun köz xelefi.
Ben dünyanın söz selefi.
Ayrılığın boz kelefi,
Düyün-düyün düyünlendi.

Sevinc Arzulu

**Düz eledi?**

Hər tərəf sahmansızdı,
Gül baxçam bağbansızdı.
Qəm evi mehmansızdı,
Dəli külək düzlədi.

Ağ gəlməz qaram üstə,
Gün düşməz xaram üstə.
Ağrıyan yaram üstə,
Fələk tez duz ələdi.

Açmaz sabahlarımız,
Duyulmaz ahlarımız.
Qovuşmaz ruhlarımız,
Tanrımı düz elədi?

Sevinc Arzulu

**Düz meni**

Qocalırıq qəm-kərəddə,möhnətdə,
Niyə cavan ömrüm keçsin həsrətdə.
Bəlkə əbədilik qaldın qürbətdə,
Darıxarsan,bir doyunca süz  məni.

Ya həlim ol.ya müğənni,ya aşıq,
Səsin ilə ürəyimi yar aşıq.
Bilirsənmi necə verrəm yaraşıq.
Inci tək boyunbağıma düz məni.

Yer üzündə təkcə səni aradım,
Ürəyində heykəlini yaradım.
Ay əzizim,budur arzu,muradım
Mən gül olum,budağımdan üz məni.

Sevinc Arzulu

**Düz tutdum**

Dərd-qəmi ötürmədim,
Fərəhi götürmədim.
Işim düz gətirmədi,
Mən hayana üz tutdum.

Suları ləpələdim,
Kədəri təpələdim.
Pulları səpələdim,
Milyon atdım,yüz tutdum

Sənsizlik lal xatirə,
Qəmi sığmaz sətirə.
Getdim müqəddəs pirə,
Niyyətimi düz tutdum.

Sevinc Arzulu

**Düzen görürüm**

Buludu göydən aşağı,
Quş kimi süzən görürəm.
Anasız qalan uşağı,
Dodağın büzən görürəm.

Sevinməz ki, namərd yağı,
Mənsizlikdən de yüz ağı.
Sezmir gözlərim uzağı,
Dağları düzən görürəm.

Qızılgül-güllər göyçəyi,
ətir saçır hər ləçəyi.
Yarımı gülü.çiçəyi
Telimə düzən görürəm.

Toxunammaz yad daşıma,
Illər hopub yaddaşıma.
Yığışıb dost-yad başına,
Boldur mey-məzən,görürəm.

Sevinc.körpü sal yaşılı,
Xəyallara dal yaşılı.
Geyinəndə al yaşılı,
Gözəlsən bə`zən,görürəm.

Sevinc Arzulu

**Ebedi oldu**

Qurban olum torpağıma,elimə.
Ölüm sözün alammıram diliə.
Nifrətim var ayrılığa,ölümə.
Ata,söyüd sənsiz saçını yoldu.
Getdin,bu ayrılıaq əbədi oldu.

Səbr etməyə artıq məndə dözüm yox,
Odlanıram,ocağım yox,közüm yox.
Zalım fələk.mənim sənə sözüm yox,
Gözlərim bulud tək boşaldı,doldu.
Getdin,bu ayrılıq əbədi oldu..

Unuda bilmərəm səni heç zaman,
Könlüm inildəyən,ağlayan kaman.
Tənhalıq hey məni yandırır yaman,
Sənsiz həyat mənə bir heçdi.noldu.
Getdin.bu ayrılıq əbədi oldu.

Deyirlər ki səbr et,səbr etmək olmur.
Söyüdlər boş yerə saçını yolmur.
Hicranın.həsrətin vüsalı olmur.
Yolumu kəsən boz .tikanlı koldu,
Getdin.bu ayrılıq əbədi oldu.

Şəklinə baxanda boğur məni yaş,
Çətində hayıma yetəmməz qardaş.
Yenidən dünyaya sən gələydin kaş,
Sən getdin,çəmənim saraldı,soldu.
Getdin,bu ayrılıq əbədi oldu.

Sevinc Arzulu

**Ebedi xeyalımdasan**

Aramızda sərhəd vardır,
Keçilməz qala-sədd vardır.
Məhəbbətdə bir hədd vardır,
Əbədi xəyalımdasan.

Uzaqsan, çatmayır əlim,
Nəvazişə həsrət telim.
Onu bil ki mənim gülüm,
Əbədi xəyalımdasan.

Məni min rəngə boyama,
Gizli qonaq gəl röyama.
Sevinc gətir qəm dünyama,
Əbədi xəyalımdasan.

El tanınar yurd daşıyla,
Ev tikilməz yad daşıyla.
Insan yaşar yaddaşıyla,
Əbədi xəyalımdasan.

Sevinc səni darılmayır,
Axan sular durulmayır.
Göz yaşlarım qurumayır,
Əbədi xəyalımdasan.

Sevinc Arzulu

**Edalet**

Yenə dilə gələr "Yanıq Kərəmi",
Yenə qəlb oduyla çalar Ədalət.
Qəm notu bürüyər ərzi-kürəmi,
Şirin bir xəyala dalar Ədalət.

Aləmi qandırar sözünün odu.
Pisliyi dandırar közünün odu.
Özünü yandırar özünün odu,
Dincini çalmaqla alar Ədalət.

Bu dünya tanınar de,kimi ilə,
O çalar qəlbinin qəm simi ilə.
Sazının sehrli tilsimi ilə,
Əbədi dünyada qalar Ədalət.

Sevinc Arzulu

**Edeceksen**

Sanırdım xoşbəxtlik vardır ünündə,
Qara günlərimi mağ edəcəksən.
Heç bilməzdim günlərin bir günündə,
Mənim saf eşqimə lağ edəcəksən.

Dağıtmadın dumanımı,çənimi.
Oldun mənim saf eşqimin qənimi.
Artıraraq kədərimi,qəmimi
Zərrə günahımı dağ edəcəksən.

Başqa yerdə bağlananda bazarın,
Düşdü yenə bu yerlərə güzarın.
Bilməz idim allı-güllü gülzarı
Viranəyə dönmüş bağ edəcəksən.

Sevinc Arzulu

**El çeke bilmir**

Çiynində ağır yük daşıyan həsrət,
Vüsalın adını qaşıyan həsrət,
Hicranla bir yerdə yaşıyan həsrət,
Bəs niyə yaxamdan əl çəkə bilmir.

Nə batır,nə də ki yanır ayrılıq,
Namərddir,sözünü danır ayrılıq.
Özünü ağsaqqal sanır ayrılıq,
Dağdan ağır dərdi kəl çəkə bilmir.

Görüş olmalıykən onun mərəzi,
Vüsalın düşübdür mənlə qərəzi.
Taleyim zərgərdir,zaman tərəzi,
Tapdığı ən böyük ləl,çəkə bilmir

Sevinc Arzulu

**El işini gör**

Qem ayran tek üste çıxır,
Taleyimin evin yıxır.
Tumarlayıb sonra sıxır,
Dünyanın gerdişini gör.

Durmaz kamına yetmeden,
Sevmez eliboş getmeden.
Geler xeberdar etmeden,
Feleyin verdişini gör.

Insan neden sehlenkardır,
Hicre özü sebebkardır.
Zaman böyük senetkardır,
Üzümde el işini gör.

Sevinc Arzulu

**El uzatmışam**

Sevən aşiqinin sözündən öpüb,
Külək məhəbbətin közündən öpüb.
Gecələr hicranın üzündən öpüb,
Gündüzlər həsrətə əl uzatmışam.

Tale yazısını fərəhli yazsın,
Qoymasın ümidim zülmətdə azsın.
Öldürüb, qəbrimi özü də qazsın,
Əzazil xiffətə bel uzatmışam.

Bir zaman səmadan çaxıb ki məni,
Qızaran şişə də taxıb ki məni.
O qədər yandırıb-yaxıb ki məni,
Qocalan nifrətə dil uzatmışam.
23.02.2015

Sevinc Arzulu

**Elacımıydı**

Eşqin yolları qumsal,
Çalış, torpaqda him sal.
De, səncə şirin vüsal,
Dərdin əlacımıydı.

Uzaq dur tərslərindən.
Qana hərislərindən.
Kişilik dərslərindən,
Mərdin əlaçımıydı.

Dünya mənə oxşaya,
Kədər qəmi boşaya.
Yenə də şeş-qoşaya,
Nərdin əl açırmıydı.
09.09.2018.

Sevinc Arzulu

**Eldost müellim**

Şəni təbrik edir bu gün dost-tanış,
Ürəkdən şadlanıb gül, Eldost müəllim.
Şeirlə söz söylə, şeirlə danış,
Səsinlə açılsın gül, Eldost müəllim.

Qoşa övladındır başının tacı,
Ömür-gün dostundur Minarə bacı.
Bu həyat yolunuz görməsin acı,
Taleyin qədrini bil,Eldost müəllim.

Qönçə gül gətirər nəvən əlində.
Özünü taparsan nəvələrində,
Toyunu görəsiz nəvələrin də
Sürətlə şütüyür il,Eldost müəllim.
Fərəh göz yaşını sil,Eldost müəllim.
25.01.2013

Sevinc Arzulu

**Ele qorxmuşam ki..**

Ele qorxmuşum ki ayrılıqdan ben,
Bin il de görmesem yadıma düşmez.
Ele baxmışım ki ayrılığa ben,
Kölgesi bir daha adıma düşmez.

Yaman kövrelmişim,yaman bu axşam
Isitmir nedendir od-ocaq beni.
Deyen senin üçün çox darıxmışam,
Üstüme gelir hey künc-bucaq benim.

Qapı ağzındakı ayaq izlerin,
Nece var,elece durur.ezizim.
Vida günündeki qemli sözlerin,
Hele de könlümle vurur,ezizim.

Sen getdin,ben qaldım.Taleye bir bax,
Unudum o günü axı ben nece.
Qelbimde qaralan gileye bir bax.,
Beni tenha qoyub itdin o gece.

Bir de dönermisin? Çetin,nagüman
Arzumu ne tezce gözümde qoydun.
Aldatdı seni de,yalançı duman,
Tüstüsü çıxmamış közümden doydun.

Indi ben düşmüşüm hamıdan uzaq.
Tek-tenha qaralan bir komadayam.
Nebzim de vurmayır,üşütmür sazaq,
Sensiz yaşamırım,ben komadayam.

Qayıtsan,göresen sağalarmıyam,
Vurarmı yeniden dayanan ürek.
Doyunca hönkürüb ağlayarmıyam,
Belke göz yaşından oyanar ürek.

Sevinc Arzulu

**Ele solmuşam ki.**

Cumub xəyalların dərinliyinə,
Xəzinə axtarma.Tapammazsan ki..
Üzüb ümidlərin sərinliyinə,
Atını dördnala çapamazzsan ki...

Başımın üstündə ağ qağayılar,
Dənizin üstünə bir yol salarlar.
Daşımın üstündə ağ-ağ ayılar,
Nə ağac görərlər, nə kol qanarlar.

Süzülüb gedirəm torpağa  kimi,
Qəlbimin ağrısın çəkib aparsın.
Elə solmuşam ki yarpağa kimi,
Torpağın  üstünə çöküb ağarsın.
28.-6.2018

Sevinc Arzulu

**Ele-bele**

Yene alıb su dünyanı,
Yataq desti qu dünyanın.
Gören neden bu dünyanın,
Axır geldi sonu bele.

Tebiet verib payımı,
Sen de qış etme yayımı,
Kimse eşitmez hayımı.
Neynim,sesim tonu ele.

Dünya qeme qalmayır ki! ?
Qelb ferehle dolmayır ki.
Hamı xoşbext olmayır ki,
Yaşayırıq ele-bele.

Sevinc Arzulu

**Eleyhime işleyer**

İgidsense od-ateşe ger sine,
Bu ağrıya tab etmez ki, her sine.
Istediyin eder her vaxt tersine,
Tale senin eleyhine işleyer.

Görüşerik yene çetin, nagüman
Tek men oldum felekden insaf uman.
Istemez ki, üzün örtsün sis, duman
Güneş çenin eleyhine işleyer.

Gerek acı taleyimle barışım,
Axı nece cavanlara qarışım.
Günü-günden artır üzde qırışım,
Zaman menim eleyhime işleyer.

Sevinc Arzulu

**Eleyibsin**

Yağdırsam qan leysanı mən,
Gəl qarğıma fələyi sən.
Yer üzünün insanı mən ,
Göy üzünün mələyi sən.

Ay dünyanın biilqarı,
Niyə pozdun düz ilqarı.
Hey tökübən qara qarı,
Məni qəmə bələyibsən.

Qayıdıb qar, qış yerinə,
Dua et qarğış yerinə.
Səmadan yağış yerinə,
Qanlı daşlar ələyibsən.

Sevinc Arzulu

**Elim  üzülür**

Göy qurşağı-yerin boyunbağısı,
Hesret veslin qan düşmeni-yağısı.
Üzür beni ayrılığın ağısı,
Göz yaşlarım muncuq kimi düzülür.

Aman hicran,birce addım gende dur,
Alaçığın gende düzelt,gende qur.
Yaşayacaq ömür boyu gende "Şur",
Lal könlümden şeir-şeir süzülür.

Könül odam qüsse-qem duracağı,
Qaranlıqdı,zülmetdi her bucağı.
Felek alsa benden son tutacağı,
Bu dünyadan şair könlüm üzülür.

Sevinc Arzulu

**Ellerimi tut**

Üreyine düşüb,nedi
Vüsal gülü üşütmedi
Sen ki beni eşitmedin,
Ye hesretin köteyini.

Nedir yene yoxdur kefin,
Bahar gelir,buna sevin.
Xatırladır könül evin,
Balsız arı peteyini.

Sevinc Arzulu

**Elli yaşıma şükür**

Güneşin nurunu pay edir payız,
Yayı da özüne tay edir payız.
Sanki benim üçün toy edir payız,
Yarpağı şabaş tek başıma tökür.

Çetin ki ayrılıq kamına yetsin,
Hicranın cızdığı xett ile getsin.
Benden üz görmeyib bilmir ne etsin,
Hesretin kederi qaşıma çökür.

Arif olmayanlar çetin dil anlar,
Yolumu  hey kesir qara ilanlar.
Ruhen çox qocadır cavan olanlar,
Ilahi,bu elli yaşıma şükür.

Sevinc Arzulu

**Elli yaşın duyğuları**

(Şair Q.Nəcəfzadəyə)

Əsrin yarısını yaşamışam mən,
Yarsın da yaşaram,nə eyibi var.
Şeirdə özümə oxşamışam mən,
Bəlkə"dostlarımın"bir gileyi var.

Kiminsə yolunu kəsmişəm bəlkə,
Bir gün toyuğuna "kiş"demişəm mən.
Kiməsə dar gəlir mənli bu ölkə,
Kiminsə payını heç yemişəm mən?

Demişəm dostlara ikisini ver,
Mənə bircəciyi bəsdir,İlahi.
Yalandan itirər çəkisini yer,
Şair düzün deyən kəsdir,İlahi.

Daima qaynayar şeir bulağım,
Dostlarım sevinsin,düşmən xar olsun.
Tənqidə öyrəşib artıq qulağım,
Səmimi duyğular hər vaxt var olsun.

Açsa da ömrümün payız çiçəyi,
Bahar ətri gəlir tər nəfəsindən.
Jaləyə bürünsün hər bir ləçəyi,
Kainat bezməsin şair səsindən.

Dekabrın sonunda öpüşər illər,
Mə`nalı bir ömür yazıbdır qədər.
Sanki bir-biriylə ötüşər illər,
Bilirəm,əlli il getməyib hədər.

Qarşıda qız toyu,oğul toyu var,
O toyu-düyünü özləyirəm mən.
Neçə seviləsi nəvə boyu var,
Həsrətlə o günü gözləyirəm mən.

Ay Allah,bir zaman Baba olacam,
Sən də cavan Nənə,mənim əzizim.
O zaman mən artıq yaşa dolacam,
Gah daşar,gah coşar şeir dənizim.

Şərik ol,ay gülüm,bal sevincimə,
Duyğumu bildirrəm ikicə sözlə.
Evə gec gələrsəm,məndən incimə,
Əlinə xına yax,yolumu gözlə.

Sevinc Arzulu

**Elvida**

ELVİDA
(M.Kazımovu dinlerken)

Yamyaşıl ağacı mor görürüm ben,
Yaxını, uzağı zor görürüm ben.
Sensiz bu dünyanı tor görürüm ben,
Elvida, elvida, gözüm, elvida.

Tebiet açmaz ki küsküne kucaq,
Felek de qıymaz ki  bir kiçik bucaq.
Bir daha yanmaz ki bu od, bu ocaq,
Elvida, elvida, közüm, elvida.

Işin yollarımı pusmaq olacaq,
Şeklimi bağrına basmaq olacaq.
Qismetim ebedi susmaq olacaq,
Elvida, elvida, sözüm, elvida.

Sonudur, bilirim, sebrimin daha
Qazıblar deryada qebrimi daha.
Alıblar elimden sebrimi daha,
Elvida, elvida, dözüm, elvida.

Derib qopartdılar yaşıl çemenden,
Yoruban saldılar qara kemende.
Nece de etdiler ah, beni benden,
Elvida, elvida, özüm, elvida.
23.07.2013

Sevinc Arzulu

**Emilin ad gününe**

Bu gün senin ad günün,
Tebrik ederem,oğlum.
Gelsin xoş sedan, ünün
Qurban gederem,oğlum.

Ana öz övladını.
Bağrına basmaq ister.
Ezizleyib adını,
Köksünden asmaq ister.

De, neden yad olmusan,
Sen bu qeder  ay oğul.
Özgeye dad olmusan,
Verme keder, ay oğul.

Senin kiçik vaxtının,
Sözlerini deyirem.
Şəkilden mene baxan,
Gözlerini yeyirem.

Sözüm çoxdur, ay bala
Onsuz eşitməyirsen.
Tikanlıdır o qala,
Heç yere düşmeyirsen.

Bitib-tükenmeyir ki,
Ananın arzuları.
Könül tikemmeyir ki.
Mehv etme onu barı.

Salamat qal, ezizim
Bu mektubu bitirdim.
Seni, həyatda izim,
Dünyaya men getirdim.

Seni elimden alan.
O zalıma min lenet.
Bir zaman etdiklerin,
Getirecek min töhmet.

Çıxa bileceksenmi,
Sen o yükün altından.
Ana haqqı ödenməz,
Min pay versen altundan.

Nece safdın, temizdin,
Kim batırdı çirkaba.
Sen hamıdan ezizdin,
And içirem kitaba.

Sen meni sevməsen de,
Seni sevirem, oğlum.
Qapımdan girmesen de,
Sensen nabat-noğulum.

Ne qelbin ağrısını,
Acısın hiss edirsen.
O övlad oğrusunun,
Keleyine gedirsen.

Belemi demişdim men,
33 il bundan ezel.
Menim bahar ömrümü
Etdin payızı xezel.

Qaçıbdır uyğularım.
Yuxu yoxdur gözümde.
Artıbdır qayğılarım,
Sensen söhbet-sözüm de.

Beenden uzaq olsan da,
Tek xoşbextlik dilerem.
Könlüm sazaq olsa da,
Göz yaşımı silerem.

Bircə defe qapımı.
Açıb içeri girsen.
Qırdın xeyal sapımı,
Yene gözümde pirsen.

Ay oğul, eziz oğlum,
Beni tenha qoymusan.
Ana nevazişinden,
Usanmısan, doymusan.

Tale sene pis günü,
Göstermesin,ezizim.
Gör oğul düyününü,
Dalğalansın denizin.
23.10.2018

Sevinc Arzulu

**Eminsenmi**

Söylərdin cavan qalacam,
Bu dünyadan kam alacam.
Deyirdin xoşbəxt olacam,
Xoşbəxtliyə əminsənmi.

Sakit, dincin olanımdın,
Parlaq incim olan idin.
Sən sevincim olan idin,
Indi kədər-qəminsənmi.

Qara rəngdə libas geymə,
Haqsızı danlayıb döymə.
Özünü bu qədər öymə,
Xoş günlərə zəminsənmi?
11.11.2017

Sevinc Arzulu

**En son tost**

Yığılıb başıma qəmli duyğular,
Hərəsi bir dildə danışıb dinir.
Qapqara gözləri nəmli duyğular,
Qarşıma çıxanda hey diksindirir.

Tərəddüd eyləyib salam verirəm,
Qorxuram qapımı açıb girəsiz.
Yaltaqlıq eyləyib "balam"deyirəm,
Bəlkə qəminizdən qaçıb girəsiz.

Dərdi qovub olun siz xoş duyğular,
Mən də qucaqlayım köhnə dost kimi.
Içməmiş olubsuz sərxoş duyğular,
Görən söyllənəcək ən son tost kimin?

Sevinc Arzulu

**Endir, ne deyim**

Özüne qar kimi ağ köynek aldır,
Toylarda “Keremi” havası çaldır.
İstersen sevgimi göylere qaldır,
Istersen semadan endir, ne deyim.

Ahuya benzeyen göyçek qızların,
Qızılgül qızların,çiçek qızların,
Bu ceyran baxışlı ürkek qızların,
Heresin bir dilnen dindir, ne deyim.

Mene sevgin ile minnet edende,
Boğazdan yuxar hörmet edende,
Özgeni maşına devet edende,
Meni çin atına mindir,ne deyim.
24.02.2018

Sevinc Arzulu

**Ene bilmezsen**

Fələyin sehirli oynundasan sən,
Yenə də yalanın qoynundasan sən.
Hündürdə-dəvənin boynundasan sən,
Aşağı yatmasa,enə bilməzsən.

Namərdin özü tox,gözü ac olar,
Aldığı,verdiyi bac-xərac olar.
Getdiyin yolların dolanbac olar,
Azarsan,qayıdıb dönə bilməzsən.

Bir zərrə məhəbbət olsun adında,
Vüsal nəğməsi çal könül udunda.
Günahın var isə əzab odunda,
Əbədi yanarsan,sönə bilməzsən.

Sevinc Arzulu

**Enen vaxtıdır**

Gündüzün gözünə qaranlıq hopur,
Sal daşlar, qayalar zəhərdən çopur.
Hər gün yer titrəyir, zəlzələ qopur,
Zamanın tərsinə dönən vaxtıdır.

Yeni təhlükəylə üzbəüz bəşər,
Səmadan gündə bir dərd, bəla düşər.
Bürüyüb yer üzün riya, yalan, şər
Günəşin ulduz tək sönən vaxtıdır.

Matəmdə al-əlvan geyən dünyanın,
Kasıbı, yoxsulu yeyən dünyanın,
Axırı gəlibdir deyən dünyanın,
Xızırın göylərdən enən vaxtıdır.

Sevinc Arzulu

**Esger oğluma**

Bilsən sənsiz necə darıxıram mən,
Gözümün işığı, ziyası oğlum.
Bir əsgər görəndə karıxıram mən,
Qəmlənir könlümün dünyası, oğlum.

Nə yaman çox çəkdi həsrət müddəti,
Bilirəm, sənə də bizsiz çətindir.
Bir gün başa vurar hərbi xitməti,
Mənim Emil oğlum mərddir, mətindir.

Bir anda dəyişir dünyanın rəngi,
Xəyalım boylanır haradan hara.
Mənim gözlədiyim telefon zəngi,
Çəkir ayrılığı boğazdan dara.

Səsin təsəllidir mənimçün, oğul
Nisgilin üstünə sular səpələr.
Yəqin darıxmısan dənizçün, oğul
Tez qayıt, nəğməni desin ləpələr.

Sevinc Arzulu

**Esir düşdük**

Burda güclü külək əsir,
Oradasa şaxta kəsir.
Ikimiz də eşqə əsir,
Düşdk gülüm,düşdük gülüm.

Səni sıxır yaman qürbət,
Mən qalmışam sənə həsrət.
Sanırdım ki bu məhəbbət
Dağlarını aşdıq,gülüm.

Söylə,o günlər yadında,
Min bir sehr var dadında.
Ikimiz də eşq odunda,
Bişdik gülüm,bişdik gülüm.

Sevinc Arzulu

**Esir,neyneyim**

Bir kiçik çınqıya köz deyirəm mən,
Könlümə "Həsrətə döz"-deyirəm mən.
Hər səni görəndə titrəyirəm mən,
Ürəyim yarpaq tək əsir,neynəyim.

Mən özümü qəm timsalı bilirəm,
Ayrılığın göz yaşını silirəm.
Min ildir ki sənə doğru gəlirəm,
Yolumu hicranın kəsir,neynəyim.

Bu həyat zülm ilə dolu bir mənbə,
Şeirimi ürəkdən yazmayım mən bəs?
Yerim zil qaranlıq,rütubət məhbəs,
Düşmüşəm hicrinə əsir,neynəyim.

Sevinc Arzulu

**Esl sevgi**

Dastan qoşum her anına,
Baxım xoşbext zamanına.
Dözer iller hicranına,
Esl sevgi parçalanmaz.

Söz-söhbetim “çek” olubdur,
Esrin resmi tek olubdur.
Ebedilik hekk olubdur,
Esl sevgi fırçalanmaz.

Ayrılsa ürek dağlayar,
Tenha qalanlar ağlayar.
Iki seveni bağlayar,
Esl sevgi hacalanmaz.

Sevinc Arzulu

**Esmiraya mektub**

Mənim qırx illik dostum,
Cavanlıq nə tez keçdi.
Bəs nədəndir ayrılıq,
Bizi yaxını seçdi.

Görüşmədik neçə il,
Görən kimdi günahkar.
Hicranın sonudur, bil
Həmişə mutliliklar...

Yenidən qovuşmuşuq,
Sanki Araz ilə Kür.
Danışıb konuşmuşuq,
Bu günə də min şükür.

Bilirsən ki mən səni,
Necə çox istəyirəm.
Başın üstündən çəni,
Qəmi yox istəyirəm.

O zaman bizim kimi,
Dost idi analar da.
Xatirələr qalıbdır
O gözəl sonalardan.

Deyildik çörək dostu,
Necə mehriban idik.
Ay mənim ürək dostum,
Fərəhi ümman idik.

Ah, şirin xatirələr,
Tez-tez qapımı döyür.
Ürəyimdə ah nələr,
Dostluq hissi çox böyük.

Bütün  ülvi hissləri,
Qoruyub saxlamışıq.
Beşinci onilliyi,
Biz artıq haqlamışıq.

Sən oğlumun toyunda,
Qol qaldırıb oynadın.
Qəm kədərin boynunda,
Fərəhdən heç doyymadıq.

Eh, nə qədər cavanı,
Yolundan eyləmişdik.
Ay dərdimə yananım,
O zaman beləymişik.

Sənə neçə il sonra,
Tanrı gözəl pay verdi.
Onu gözündən qoyma,
Xoşbəxt olsun Fəridin.

Toyunda mən xalası,
Incə-incə süzüm də.
Gəlin ceyran balası,
Qədəminə gül dül düzümdə.

Yenə Allaha şükür,
Biz cavan görünürük .
Ayrılıq boynun büküb,
Vüsalda döyünürük.
28.04.2018

Sevinc Arzulu

**Esmiraya şeir-mektub**

ESMİRAYA ŞEİR-MƏKTUB

Mənim qırx illik dostum,
Cavanlıq nə tez keçdi.
Bəs nədəndir ayrılıq,
Bizi yaxını seçdi.

Görüşmədik neçə il,
Görən kimdi günahkar.
Hicranın sonudur, bil
Həmişə mutliliklar...

Yenidən qovuşmuşuq,
Sanki Araz ilə Kür.
Danışıb konuşmuşuq,
Bu günə də min şükür.

Bilirsən ki mən səni,
Necə çox istəyirəm.
Başın üstündən çəni,
Qəmi yox istəyirəm.

O zaman bizim kimi,
Dost idi analar da.
Xatirələr qalıbdır
O gözəl sonalardan.

Deyildik çörək dostu,
Necə mehriban idik.
Ay mənim ürək dostum,
Fərəhi ümman idik.

Ah, şirin xatirələr,
Tez-tez qapımı döyür.
Ürəyimdə ah nələr,
Dostluq hissi çox böyük.

Bütün  ülvi hissləri,
Qoruyub saxlamışıq.
Beşinci onilliyi,
Biz artıq haqlamışıq.

Sən oğlumun toyunda,
Qol qaldırıb oynadın.
Qəm kədərin boynunda,
Fərəhdən heç doyymadıq.

Eh, nə qədər cavanı,
Yolundan eyləmişdik.
Ay dərdimə yananım,
O zaman beləymişik.

Sənə neçə il sonra,
Tanrı gözəl pay verdi.
Onu gözündən qoyma,
Xoşbəxt olsun Fəridin.

Toyunda mən xalası,
Incə-incə süzüm də.
Gəlin ceyran balası,
Qədəminə gül dül düzümdə.

Yenə Allaha şükür,
Biz cavan görünürük .
Ayrılıq boynun büküb,
Vüsalda döyünürük.

Sevinc Arzulu

**Eş yerine**

Üzüyün barmağa takıncası yok,
Gözümün yaşının akıncası yok.
Bilirim,sana bir sakıncası yok,
Ümidim boylanır güneş yerine.

Axı ben ne dedim dili çürümüş,
Felek bunca beni yerle sürümüş.
Her yanı bir yanıq etri bürümüş.
Üreyim odlanır ateş yerine.

Şirin xatireler yanlamır beni,
Etdiyim sehf üçün danlamır beni.
Oduna yandığım anlamır beni,
Görürsün,qoymayır heç eş yerine.

Sevinc Arzulu

**Eşit, İlahi**

Derdimi danışdım lal axan suya,
Onun artacaqdır çekisi guya.
Qoyma ki naxelef ahımı duya,
Özün ah-zarımı eşit, İlahi.

Yolumun üstünde durur qara dağ,
Köztutmaz yaradır gözel Qarabağ.
Yaşanan günlerim tezad:qara-ağ,
Beni söz içinde üşüt, İlahi.

Deli-qudurmuşlar feqan eyleyir,
Açılan seheri al-qan eyleyir.
Çaparaq gör nece cövlan eyleyir,
Namerdi atından düşürt, İlahi.

Sevinc Arzulu

**Eşk, başına döndüyüm**

Solmuş gülü iyeəme,
Geden getsin, eyleme.
Gel bu qeder eyleme.
Meşq, başına döndüyüm.

Ağac çetir evezi,
Misra setir evezi.
Verrəm etir evezi,
Müşk, başına döndüyüm.

Axar sular duruxub,
Sessizlikden karıxıb.
Tenhalıqdan darıxıb,
Köşk, başına döndüyüm.

Zalım vaxtına düşüb,
Qara taxtına düşüb.
Kimin bextine düşüb,
Püşk, başına döndüyüm.

Mehebbetin bal dadı ,
Herden adam aldadı.
Bu sevginin esl adı,
Eşk, başına döndüyüm.
22.08.2013

Sevinc Arzulu

**Eşq dediyin**

Derd hörse uçalanar,
Qem görse haçalanar.
Qara suya calanar,
Eşq dediyin bumudur?

Elde çeni izleyen,
Telde deni izleyen,
Menden çox sensizleyen
Eşq dediyin bumudur?

Vüsal ile aldadar,
Baxışları  bal dadar.
Beyazı da al dadar,
Eşq dediyin bumudur?

Yaş artdıqca ucalar,
Yavaş-yavaş qocalar.
Ayrılıqdan öc alar,
Eşq dediyin bumudur?

Ülvi hissi andıran,
Xatiresi yandırar.
Özgürlüyü dandırar,
Eşq dediyin bumudur?

Sevinc Arzulu

**Eşq günahı**

Yuvası yıxılmış qaranquşların
Geriyə dönüşü olmaz ,əzizim.
Gözümün önündə şər bayquşları,
Bu cahan pislərə qalmaz əzizim.

Dünyanın əbədi qanunu belə
İsladan səmadır , islanan bizik.
Görəydim həyatın sonunu belə,
Deyəsən yağışdan paslanan bizik.

Savabı çox olar eşq günahının,
Yenə cin atına minib gəlmisən.
Köləsi olmusan sevgi şahının,
Atəşin sözlərlə dinib gəlmisən.
29.04.2018

Sevinc Arzulu

**Eşq sarayı**

Xatirinə dağ aşaram,
Pillə-pillə dırmaşaram.
Sütununa sarmaşaram,
Bəzəyinə mən yarayım.
De, hardadır eşq sarayı.

Damın üstü ağ tənəkə,
Pəncərəsi gül şəbəkə.
Ilğımmıdır görən bəlkə,
Göy üzündə hey arayım.
De, hardadır eşq sarayı.

Divarları zər-zibalı,
Nəfəsliyi dərd havalı.
Bağ-baxçası qəm nəvalı,
Çatarmı yara harayım,
De, hardadır eşq sarayı.

Sevinc Arzulu

**Eşq üçün**

Baxma hicrin sözünə,
Soyuq su tök közünə.
Əzrailin özünə,
Dəyərsənmi eşq üçün.

Sev göylərin asını,
Tut həsrətin yasını.
Düşmən darvazasını,
Döyərsənmi eşq üçün.

Hər söhbətə baş qoşma,
Hay-küy salıb da coşma.
Ürəkdən gələn qoşma,
Deyərsənmi eşq üçün.
19.07.2018

Sevinc Arzulu

**Eşqi sandın**

Hicri ötürəmmədim,
Vəsli götürəmmədim.
Tənha oturammadım,
Yaman sıxır künc-bucaq.

De, budurmu səadət,
Tezcə bitən məhəbbət.
Getsəm, ana təbiət
Görən açarmı qucaq.

O çağ geriyə dönməz,
Atəşi heç vaxt sönməz.
Vüsal qəlbinə enməz,
Eşqi sandın oyuncaq,
18.07.2013

Sevinc Arzulu

**Eşqim**

Ayaqlarım hara gedir,heç özüm de bilmirim ki,
Hicrin qara nişanını ağ alnımdan silmirim ki.
Görürsen ki yaşayıram,sensiz hele ölmürüm ki,
Üz dönderib benden yolun uzaqlara salan eşqim.

Ne ben çıxdım bu döyüşden,ne de ki sen qalib oldun,
Seçdin başqa bir gözeli,özgesine talib oldun.
Ezel bele deyildin heç,indi niye zalim oldun,
Xatiresi kölge kimi xeyalımda qalan eşqim.

Yağış döydü,külek çırpdı veslin yaşıl talasını,
Sel apardı al çöllerin süsenini,lalasını.
Öz elinle körpü üstde tikdin hesret qalasını
Demi demden,qemi qemden,beni benden alan eşqim.

Sevinc Arzulu

**Eşqimi**

Servet hezin-hezin laylanı çaldı,
Fikrini-zikrini ağlından aldı.
Mene ayrılığın ağ gülü qaldı,
Gör nece yatırtdı mürgün eşqimi.

Istidir, azacıq nesim çatmayır.
Vüsalın  sesine sesim çatmayır,
Allahım, sevdiyim kesim çatmayır.
De, nece qaytarım sürgün eşqimi.

Yalançı ilqara, ehde uymayın,
Doğrunu özgeden, yaddan duymayın.
Hemişecavandır, ona qıymayın,
Menimle defn edin bir gün eşqimi.
15.09.2013

Sevinc Arzulu

**Eşqin macerası**

Bu ayrılıq yüz illik,
Göz yaşın nece sillik.
Çetin bağlaya billik,
Qemin penceresini.

Ferehini derd yeyer,
Qaradan köynek geyer.
Hesret ezberden deyer,
Hicrin şeceresini.

Ayrılıq uymayıb ki,
El-üzün yumayıb ki.
Eh, kimler duymayıb ki,
Eşqin macerasını.
25.05.2018

Sevinc Arzulu

**Eşq-mehebbet**

Var olar heçimdəcə,
Qırmızı biçimdəcə.
Elə öz içimdəcə.
Doğular eşq-məhəbbət.

Zirvəyə ucalanda,
Günəşdən tac alanda
Kim deyir qocalanda.
Soğular eşq-məhəbbət.

Vüsalından tox olsa,
Görüş yeri yox olsa,
Göz yaşları çoxolsa,
Boğular eşq-məhəbbət.
13.05.2017

Sevinc Arzulu

**Etiraz dalğası**

Hər şey  dağınıqdır, uçuq ev kimi
Stullar hardadır, stol hardadır.
Ayrılıq dayanıb qara dev kimi
Bilməyir sağ harda,ya sol hardadır.

Beləcə keçərək  bütün sərhəddi,
Qara dev özü də  yaman çaşıbdır
Əyilib suala dönübdür qəddi,
Ala-boz dərisi qaralaşıbdır.

Ümid minə bilmir gediş atına,
Könlümdən kəməndin halqası keçir.
Dünyanın qəribə gedişatına,
Içimdən etiraz dalğası keçir.
01.01.2018

Sevinc Arzulu

**Etmişim**

Hesretin dadın görüb men hey ahu-zar etmişim,
Zilletin adın görüb göz yaşımı qar etmişim.

Ezizim,sen olduğun etirli,solmaz gülşende
Özümü bir qızılgül,eğyarımı xar etmişim.

Niye benden incik de düşüb ümid-xeyallarım,
Keçirdib ben hə yata,ebediyyen var etmişim.

Bilirə m,ağlar könül.yaralısan,qanın axır
Də li tek sevdiyimi özgesine yar etmişim.

Açmadım üreyimi,dedim özgeler ne deyer
Utanıb-qızarmışam,dost-tanışdan ar etmişim.

Telimi dağıtsa da deli külekler sayağı,
Vüsalın nalesine qulağımı kar etmişim.

Sevinc Arzulu

**Etri  vurmur**

Tar ayrılıb, kaman küsüb
Qan ağlayan zaman küsüb.
Küsüb benden, yaman küsüb
Xatireler yaxın durmur.

Quru kalmaz nem önünde,
Çoxluq öler kem önünde.
Bu qeder derd-qem önünde,
Duyğularım qala qurmur.

Hesret buzun közleyirim,
Görüş günün gözleyirim.
Dönüb-durub özleyirim,
Beni veslin etri vurmur.

Sevinc Arzulu

**Etri gelir**

Yenə bizə zalım fələk,
Qurar min cür hiylə,kələk.
Qapımıza qara mələk,
Təkcə məndən ötrü gəlir.

Sevgin bal tək ləziz.şirin.
Əbədidir qəlbdə yerin.
Ürəyimə lirik şeirin,
Neçə-neçə sətri gəlir,

Söhbət açaq gələcəkdən,
Xalı toxu al ləçəkdən.
Tanrım.niyə ağ cicəkdən,
Ayrılığın ətri gəlir.

Sevinc Arzulu

**Ey  Mecnun**

Beni gel sen eyleme özüne heyran,ey Mecnun.
Benim sevgimle olmaz virane seyran,ey Mecnun.
Senin tek nakamları bu dünyada çox görmüşüm,
Rastına çıxıbmı heç ben teki ceyran,ey Mecnun.

Görüşsek bağlanarmı qırılmayan ehdi-peyman,
İndiden qemli könül qalıb nigaran,ey Mecnun.
Üstümü alsa da çen,döyse yağış,dolu,tufan
Girmişim eşq evine.olmam sergerdan,ey Mecnun.

Bene Leyli gözüyle bilirim ki baxammazsan.
Amansız felek  ayrı saldı nigardan,ey Mecnun.
Mekkeni unudub da üzümü sene tutmuşam,
Sorağın gelir bilmem.hansı diyardan,ey Mecnun.

Sevinc Arzulu

**Ey dostum**

Yazıram, yaradıram gələndə ilham, ey dostum,
Şeriyyət ilə dolu mənim iç dünyam, ey dostum.
Gecədən sübhə kimi gözlərimi yummayıram,
Baxıram, cismim təkin əriyir ağ şam, ey dostum.

Sevginin  zirvəsində Yusifi-Kənan oturub,
Bunca bədbəxtlər içrə necə alır kam, ey dostum.
Titrəyir barmaqlarım toxunanda ağ vərəqə.
Bilmirəm hardan düşür qəfildən axşam, ey dostum.

Sevincəm, nə tüstümü, nə də yanğımı görərlər,
Ikiyə bölünmüşəm, deyiləm bir tam, ey dostum.
Vüsala çatmayıban bəlalara düçar oldum,
Ya rəqibim arifdir, yada ki mən xam, ey dostum.
26.05.2017

Sevinc Arzulu

**Eyledi**

Xar ne bilir sema nedir,
Külek nedir,seba nedir.
Üzü dönsün zemanenin
Vesli qara qul eyledi.

Könlüme şeir,nesr düşüb
Heqiqete kesir düşüb.
Kederime esir düşüb,
Seni qara qul eyledi.

Gur bulaqlar qaynasın da
Şen neğmeye oynasın da.
Ayrılığın aynasında,
Seni qara tül eyledi.

Sevinc Arzulu

**Eylemisen**

Danışıram öz-özümə,
Baxmayırsan heç sözümə.
Kimsə görünmür gözümə,
Dərdi duman eyləmisən.

Daha xəyal gəlmir kara,
Dünya yenə geyib qara.
Baş əymərəm namərd xara,
Sən nə güman eyləmisən.

Nələr dedi falabaxan,
Başımdakı şala baxan.
Gözlərimi yolabaxan,
Möcüz uman eyləmisən.

Qəm zəmisi indi dən-dən,
Dolu vursun onu hərdən.
Dəli könlü təkcə səndən,
Sevgi uman eyləmisən.

Sevinc Arzulu

**Eylemişim**

Qapqara libası qəmin atına,
Geydirib yaraşıq çul eyləmişəm.
Baş vurub sevginin dərin qatına,
Möhnəti bir qara pul eyləmişəm.

Gecəni gözümlə sabah edərək,
Yaşadım ömrümü min ah edərək.
Deyəsən mən böyük günah edərək,
Qəlbini könlümə qul eyləmişəm.

Yazıram qüssəli söz əllərimlə,
Tuturam atəşin köz əllərimlə.
Həsrəti öldürüb öz əllərimlə,
Hicranı əbədi dul eyləmişəm.

Sevinc Arzulu

**Eyleyecem**

Səninlə xoş gülüb,şirin danışıb,
Dilimi bal kimi qənd eyləyəcəm.
Mən yığıb başıma dostu,tanışı,
Bu kiçik obanı kənd eyləyəcəm.

Sevirəm dumanı,çəni,əzizim.
Saçında gördüyüm dəni,əzizim.
Bilirsən,axırda səni,əzizim,
Döndərib özümə bənd eyləyəcəm.

Mən səni uzaqdan edirəm seyr,
Əzrail fələkdən gözləmə xeyr.
Şəninə yazacam təzə bir şeir,
Qəlbini almaqçun fənd eyləyəcəm.

Sevinc Arzulu

**Eynimden keçer**

Xəyallara cumuram,
Mavi işıq umuram.
Gözlərimi yumuram.
Qatar beynimdən keçər.

Əvvəl plan çəkirlər,
Buz sarayı tikirlər.
Gülüm, bütün fikirlər
Necə, neynimdən keçər.

Qəm dərddən incələr də,
Fərəhim dincələr də.
Qaranlıq gecələr də
Mənim eynimdəm keçər.

Sevinc Arzulu

**Ez beni**

Yel sehradan getirib,
Daş üstde gül bitirib.
Göy üzünde itirib,
Yer altında gez beni.

Hesret girmez, ayıqdır,
Qem yuvası oyuqdur.
Allah, yaman soyuqdur,
Isindirer xez beni.

Yeme diri göz ile,
Alışdırma köz ile.
Demedim ki söz ile,
Doyuzdurub ez beni.

Sevinc Arzulu

**Ezab çekim**

Heqiqetin çat yerine,
Tapdığını at yerine.
Çıxım minacat yerine,
Sine dolu azan çekim.

O kederdir-qelbde susan,
O yalandlr-qapı pusan.
Baharı vesf eden rəssam,
Gül yerine xezan çekir?

Sabah olmaz dün evezi,
Seda çıxmaz ün evezi.
Niye yaxşı gün evezi.
Pis gün görüm, ezab çekim.

Sevinc Arzulu

**Ezabından doyulmur**

Bu dünyanı alğışları əbədi,
Üzü dönsə qarğışları əbədi.
Gözyaşı tək yağışları əbədi,
Bu dünyanın üz qabığı soyulmur.

O gözlərin ağlamış yenə nəmmi,
O gözləri ağladan yenə mənmi.
O gözlərdə oxunan dərdmi, qəmmi,
Bu dünyanın əzabından doyulmur.

Sevdalımın sevgisini duymadım,
Həqiqətin işığına uymadım.
Üzr istəyib günahımı yumadım,
Bu dünyanın dərdinə son qoyulmur.
05.12.2018

Sevinc Arzulu

**Ezizim**

Bax Arazın liline,
Suyla axan gülüne.
Dünyanı qan gölüne,
Dönderme gel, ezizim.

Ay yolumu pusanım,
Sensiz açmaz süsenim.
Heç ne üstde küseni,
Dindirme gel, ezizim.

Göz gözellik göresi,
Isteme göz kiresi.
Fırlanan yer küresin,
Dondurma gel, ezizim.

Sevinc Arzulu

**Fal, geceler**

Mənə zəhər yedirər,özgələrə bal gecələr.
Yatmıram,oyanıram hey yuxudan kal gecələr.
Çəkirəm keşiyini ulduzların sübhə kimi,
Həsrətdən ağlayıram,oluram bihal gecələr.

Ay da mən tək sevdiyi yarının həsrətin çəkir,
Qəmdən dili tutulub, danışmayır lal, gecələr.
Nakam eşqə yas tutur, onunçun qara geyinib,
Yağdırar göy üzündən qüsseyi-məlal,gecələr.

Görürəm darıxırsan sən də mən tək, yatammırsan
Rəqibə qonaq getmə,yolun bizdən sal gecələr.
Söhbət edək,dərdləşək,həm əhdi-peyman eyləyək
Bir dəfə biz də görək,necədir vüsal gecələr.

Neçə vaxtdır rəqibim aramıza sədd çəkibdir,
Darıxsan mənim üçün gəl yanımda qal gecələr.
Düysa ki sənin ilə gizli-gizli görüşürük,
Əğyar bitər arada sanki xar-qanqal,gecələr.

Əzizim, mənim kimi sən də hərdən keçmişi an,
Gələcək günlər üçün min xəyala dal,gecələr.
Sevinc,heç xeyri yoxdur,sən nə qədər rəml atsan da,
Zülmət olduğu üçün düz çıxmayır fal,gecələr.

Sevinc Arzulu

**Fatehlerin divanı**

Hər yan sudur, ruhum ada.
Tək-tənhayam bu dünyada.
İtirmişəm boz səhrada,
Karvanımın sarvanını.

Ayrılıq dönər yağıma,
Hicran keçər sol-sağıma.
Kim pıcıldar qulağıma
Vüsalın  son ünvanını.

Azadlıq şərbətin içib,
Sülhü yaxın həmdəm seçib.
Dünya çoxdan  görüb keçib,
Fatehlərin divanını.
16.10.2018.

Sevinc Arzulu

**Feda etdi**

Başın üstdə çən ahdımı,
Tanrı sənə pənahdımı.
Etdiklərin günahdımı,
Azadlığa vida etdin.

Belə gəldi zalım dövran,
Sevənlərə verməz aman.
Son sözünü dedi zaman
Nöqtəni də nida etdi.

Bu  yol çətin, daşlı yoldu
Əzəldən dərd-qəmi boldu,
Sevdasına qurban oldu,
Özünücə fəda etdi.
04.11.2017

Sevinc Arzulu

**Felek**

Yene de”Sensiz”i qoyub,
Telimde den izi qoyub.
Xezer tek denizi qoyub,
Göz yaşımda çimen felek.

Qem üstüme qanad gerib,
Yapıncısın yere serib.
Oz elimde düşdüm qerib,
Neynemişdim ki ben, felek.

Hardan gelib, hara getdin
Hesretin vesline yetdin,
Sene birce sual etdim,
Söyle, sençün kimim, felek.

Sevinc Arzulu

**Felek nece qıydı sene**

Dilində bəd duası yox,
Nə nazı, nə ədası yox.
Səs-səmiri,sədası yox,
Fələk necə qıydı sənə.

Çöl-çəməni gəzmədimi,
Tənhalıqdan bezmədimi.
Lal ürəyin dözmədimi,
Fələk necə qıydı sənə.

Əskik olmazdı alqışı,
Sevməzdi nalə-qarğışı.
Qarşılamaz gələn qışı,
Fələk necə qıydı  sənə.

Üzügülər, boyu bəstə
Dərd gətirdin sən dərd üstə.
Əzizlərin saldın xəstə,
Fələk necə qıydı sənə.

Haqq-nahaqqı görsün Tanrı,
Qəm çələngi hörsün Tanrı.
O dünyanı versin Tanrı,
Fələk necə qıydı sənə.

Sevinc Arzulu

**Feqan olur**

Sənsizlik əlindən göynəyir içim,
Kədərin libasın mən necə biçim.
Gecəni zülmətdə gördüyü üçün,
Səhər dan yerinin bağrı qan olur.

Sanma daş şəhərə təzə köçmüşəm,
Bu ensiz küçəni min yol keçmişəm.
Boylana bilmirik bəzən keçmişə,
Eh, insan nə yaman unutqan olur.

Bəzən düz demişik səhvə, yanlışa,
Ağıllı adamlar doğru danışar.
Insan güvənmiirsə dosta-tanışa,
Sonunda çəkdiyi ah-fəqan olur.

Sevinc Arzulu

**Ferağındayam**

Insanlar heç zaman tiran olmaya,
Könül gülzar ola, viran olmaya.
Vüsalın ömrü, eh, bir an olmaya
Gecə də gündüzün fərağındayam.

Allahın mərhəmət qapısın açım,
Xəyal qanadında göylərə uçum.
Bəlkə var, bəlkə yox azacıq suçum,
Tanrının bəmbəyaz varağındayam.

Təbiət geyibdir al-əlvan donu,
Asta eşidilir yelin səs tonu.
Deyəsən gəlibdir dünyamın sonu,
Ayrılıq yolunun qırağındayam.
25.02.2013

Sevinc Arzulu

**Fırtına keçir**

Bağışladım səhvsizliyi,
Alğışladım səssizliyi.
Qarğışladım sənsizliyi,
Içimdən fırtına keçir.

Ümid deyən yalan imiş,
Xəyal bizə qalan imiş.
Həyatımız talan imiş,
Ölüm yaxşıları seçir.

Yarpaq düşər budağından,
Öpər ana torpağından.
Vüsalın gur bulağından,
Heyf, ayrılıq su içir.
14.02.2018

Sevinc Arzulu

**Fikirler**

Duyğular qelbime olanda hakim,
Tek özüm oluram qem-evde sakin.
Yoxdur üreyimde ne nifret,ne kin,
Acı xatireler yaddan silinib,
Kim yaxşı,kim pisdir,çoxdan bilinib.

Ovçu tek serçeni gözünden vurdum,
Haqsızı ele öz sözünden vurdum.
Hicrana dermanı özünden vurdum,
Onunçun dumana bürünüb getdi,
Taqeti qalmadı,sürünüb getdi.

Deyirler yaxşılıq qalır dünyada,
Ferehin canın qem alır dünyada.
Işıqlı xeyala dalır dünya da,
Bir gözü ağlayır,bir gözü gülür.
Yaşarmış dideden ağ nur tökülür.

Insanın yazılmış qanunu vardır,
Dost dosta çetinde arxadır,yardır.
Neden bezi dostlar bietibardır,
Zaman öz sözünü deyib gedecek.
Eynine al köynek geyib gedecek.

Sevinc Arzulu

**Füzuli iqtibası**

Ildırım vurarsa kül ola billəm,
Ruha çevrilərək, tül ola billəm.
De, necə al rəngli gül ola billəm,
Fələyin mənimlə iltimasından.

Ölümlə olumda yaman fərq oldu,
Sanki buzlu Şimal isti Şərq oldu.
Elə bil qış günü nura qərq oldu,
Ruhunla ruhumun ilk təmasından.

Könül az qalır ki səhrada aza,
Qumların üstünə adını yaza.
Sevgimə tən edən bir anlamaza,
Gətirdim Füzuli iqtibasından.
16.10.2018.

Sevinc Arzulu

**Gecdi**

Həsrətindən yatammadım.
Vüsalında batammadım.
Qaçdımsa da çatammadım,
Göz önündən paşam keçdi.

"Çahargah"ı "Şur" etməyə,
Göz yaşımı gur etməyə.
Qəlb evimi nur etməyə,
Əğyar qara bir şam seçdi.

Sinəm üstə gül düzmüşəm,
Əcəl meyini süzmüşəm.
Bu dünyadan əl üzmüşəm,
Mənim üçün yaşam gecdi.

Sevinc Arzulu

**Gece  ve güneş**

Gecenin gözünden güneş boylanır,
Bu ne ağlasığmaz möcüze,Allah.
Yandırıb-yaxacaq ateş boylanır,
Qulunam,rehm eyle acize,Allah.

Boy vermir tonqala odu bir anlıq,
Heç qırıq sedası,sesi de çıxmır.
Bizim evimizi yıxan qaranlıq,
Bes niye onun da evini yıxmır.

Gecenin gözünden güneş boylanır,
Dünyamı deyişib,bizmi,bilmirim.
Gündüzün halına könlüm oylanır,
Tebiet qanunu düzmü,bilmirim..

Onu bilirim ki bu xeyanetdir,
Güneş gündüzünü aldadıb gedib.
Bu nece sevgidir,ne deyanetdir.
Kölgesin zülmetde daldadıb,gedib.

Her kesin öz yeri vardır dünyada,
Güneşin öz yeri,ayın öz yeri.
Bilirsin,nece de dardı dünya da,
Hamının üzünde sirrli söz yeri.

Sevinc Arzulu

**Gece ağlayır**

Gəzir, gəzir elbəel,
Pərişandır telbətel.
Göz yaşları selbəsel,
Gecə yaman ağlayır.

Əkməzlər şoranlığı,
Görməzlər viranlığı.
Kim sevər qaranlığı,
Gecə yaman ağlayır.

Özü dərd bazarında,
Qəmdir ahu-zarında.
Gündüz intizarında,
Gecə yaman ağlayır.
14.02.2018

Sevinc Arzulu

**Gece şirinmiş**

Yenə xəyallarla baş-başa qaldım,
Atımı dördnala çapdım göylərdə.
Yolumu günəşdən.ulduzdan salıb,
Bəlkə də bəxtimi tardım göylərdə.

Üfüq çox əlçatmaz, göy intəhasız
Burada quş olub uçmaq da olar.
Beş aldım həyatdan mən imtahansız,
Sevincdən lap qanad açmaq da olar.

Geçə də, gündüz də xəyala daldım,
Gördüm romantika necə şirinmiş.
Vüsalın könlünü bir anlıq aldım,
Gündüzün nurundan gecə şirinmiş.

Sevinc Arzulu

**Gece ve yuxu**

Gecənin qoynunda günəş uyuyur
 Alovu gör necə üzür gecəni
Gecənin oynunda atəş böyüyür,
Olub-keçənlərə düzür gecəni.

Dayanıb gecənin ayaq izində,
Boylanıb baxıram səhərə sarı.
Oyanıb günəşin al gündüzündə,
Darıxsan rəngarəng şəhərə sarıl.

Uyuyub yalanın daş qollarında,
Həqiqət necə də yuxuya gedib.
Min əngəl olaydı kaş yollarında,
Ağılı ətirli qoxuya gedib.
10.06.2018

Sevinc Arzulu

**Gece yazdığım şiir**

Ele ayaqyalın, başı da açıq
Qol-qanad açırdım lap külek kimi.
Qarşımı kesmezdi qara alaçıq,
Uçduqca uçurdum kepenek kimi.

Eh, neden unutdum o gözelliyi,
O şeirde dağların  etiri vardı.
Yerinde boyası ve; göz enliyi,
Üstünde buluddan çetiri vardı.

Indi ayılmışam, körpe uşaq tek,
Dodağım süd kimi qendi axtarır.
Kaş yene sözlerin içinde itek,
Gözlerim misranı, bendi axtarır

Indi başqa şeir yazıldı fövren,
Duyğular könlümü çekdi sınağa.
Ey şair, hemişe ilhama güven,
Dönme söz evinde vaxtsız qonağa.

Sevinc Arzulu

**Geceler**

Gülüşü ağlımı başımdan alır,
Fikrim sevdalımın yanında qalır.
Masmavi semada hey qanad çalır,
Xeyalsız ben nece yatım geceler.

Ayrılıq fidanın sehrada ekim,
Derdden azad olum,azalsın çekim.
Qızılgül leçeyin üstüme çekim,
Mehebbet etrine batım geceler.

Hesretin yamanca süzse de beni,
Hicran qem sapına düzse de beni.
Gündüzler tenhalıq üzse de beni,
Şipşirin vüsala çatım geceler.

Sevinc Arzulu

**Gecenin yalğızlığı**

Gecə məntək yalqızdır,
Gecə sanki qar qızdır.
Soyuqdanca üşüyür,
Qəlbində qəm daşıyır.
Əynində libası yox,
Çiynində əbası yox.
Ay onun öz danəsi,
Ulduzlar buz dənəsi,
Başqa cür parıldayır,
Başqa cür işıldayır ulduzların hərəsi.
Bəzən bu buz əriyir,
Yer üzərinə doğru sürət ilə yeriyir.
Düşüb yerə yox olur.
Bu gedişlər çox olub.
Gecə də qorxur yaman,
Bezib tənha qalmaqdan.
Mənimtək yalqız gecə,
Ovundurum mən səni
Gəlişimlə gizlicə.....
12.1.2013

Sevinc Arzulu

**Gecikmiş qerar**

Dedim,günahını bağışlayacam,
Qayıt gel ömrüme yeniden benim.
Bomboz heyatını naxışlayacam,
Tapmasın,ezizim, yeni den beni.

Ne beyaz telime baxıb köks ötür,
Ne yandır özgenin çırağın,gülüm.
Özünle şadlığı, ferehi götür,
Ben  olum ebedi qonağın, gülüm.

Il ötdü, qocaldıq biz yavaş-yavaş,
Yene de gözlerim hey seni arar.
Gelmisin qapıma gözlerinde yaş,
De, kime lazımdır gecikmiş qerar.

Sevinc Arzulu

**Gede bilmirim**

Yaramın közünü az qopar,gülüm,
Mən səndən ayrılıb gedə bilmirəm.
Qəlbimi özünlə gəl apar.gülüm,
Mən səndən ayrılıb gedə bilmirəm.

Üz-üzə dayansaq milyon il belə,
Axmaz Araz belə,olmaz lil belə.
Göz yaşından coşub daşsa Nil belə,
Mən səndən ayrılıb gedə bilmirəm.

Bulaq suyu təkcə bir udummu var,
Yenə yağış yağır,buludummu var.
Bir də görüşməyə ümidimmi var,
Mən səndən ayrılıb gedə bilmirəm.

Sevinc Arzulu

**Gedene bax**

Gelişiyle payız-qışı yaz eder,
Qem-kedərli keyfi bele saz eder.
Vallah, bütün oğlanlara naz eder,
Sallanıban gedene bax, gedene.

Yaman yelli, bu qız evi tikilmiş,
Gül siması ilahiden çekilmiş.
Göz qamaşar, ağ mermerden tökülmüş,
Aman Tanrım, bedene bax, bedene.

Sevdiyiyle danışmamış, gülmemiş
Bir dəfe de göz yaşını silmemiş.
-"Yaxınlaşma mene, elçi gelmemiş",
Dediyini edene bax, edene.

Sevinc Arzulu

**Geder**

“Var” yazılar “ol”üstüne,
Bülbül qonar kol üstüne.
Çıxmışam ağ yol üstüne,
Bu yol burula-burula geder.

Hesretden dağ da dillener,
Tüstüsü göye millener.
Sel gelende çox lillə ner,
Araz durula-durula geder.

Keder beni atmayıb ki,
Könlüm ona yatmayıb ki.
Hele başa çatmayıb ki,
Dünya qurula-qurula geder.

Sevinc Arzulu

**Gederdik**

Baxıram sevdanın kül torpağına,
Dalğalar sahildən aparıb gedir.
Arzular bənzəyir gül yarpağına,
Külək bircə-bircə qoparıb gedir.

Izdiham içindən durub baxırsan,
Olduğum nöqtəni tutmadınmı sən.
Özünə istehkam qurub baxırsan,
Tikanlı məftili atmadınmı sən.

Dönüb dalğalara üstümə gəlmə,
Qaya tək yerimdə dayanmışam mən.
Demə etibardan tək bircə kəlmə,
Sədaqət rənginə boyanmışam mən.

Niyə bu sevdanın üzü dönükmüş,
Sevinci sənindir, kədəri mənim.
Bu tənha odanın közü sönükmüş,
Eh, belə yazılıb qədərim mənim.

Bəlkə də hər şeyi kənara qoyub,
Üzbəüz oturub söhbət edərdik.
Gileydən-güzardan biryolluq doyub,
Səadət şəhrinə doğru gedərdik.
10.06.2018

Sevinc Arzulu

**Gedesen**

Söhbəti düzgünlər nəsdən diksinsə,
Qoşmalar, düzgülər pəsdən diksinsə,
Köhnəlmiş güzgülər səsdən diksinsə,
Gedəsən dünyanın axırınacan.

Qəlbini ümidsiz baxışlar üzə,
Yoluma buludsuz yağışlar düzə.
Kaş çata qəm-dərdsiz alqışlar yüzə,
Gedəsən dünyanın axırınacan.

Bu payız ömrümə son bahar gələ,
Atdığım bəxt zəri şeş-çahar gələ.
Yenə də görüşə aşiq-yar gələ,
Gedəsən dünyanın axırınacan.
22.07.2013

Sevinc Arzulu

**Gedesen dünyanın axırınacan**

Söhbəti düzgünlər nəsdən diksinsə,
Qoşmalar, düzgülər pəsdən diksinsə,
Köhnəlmiş güzgülər səsdən diksinsə,
Gedəsən dünyanın axırınacan.

Qəlbini ümidsiz baxışlar üzə,
Yoluma buludsuz yağışlar düzə.
Kaş çata qəm-dərdsiz alqışlar yüzə,
Gedəsən dünyanın axırınacan.

Bu payız ömrümə son bahar gələ,
Atdığım bəxt zəri şeş-çahar gələ.
Yenə də görüşə aşiq-yar gələ,
Gedəsən dünyanın axırınacan.
22.07.2013

Sevinc Arzulu

**Gedibdir**

Şenin ki güneşin batıbdır çoxdan,
Ömrünün ad günü keçmədi qırxdan.
Şeklini saxlayan qızılı mıxdan,
Xatiren özünü asıb gedibdir.

Eh,men ki evvəlki duyuq adamam,
Anlaram ilk sözden, ayıq adamam.
Qar-buzdan tökülmüş soyuq odama,
Keder varlı gelib, kasıb gedibdir.

Mehebbet tanınar bölgesi ile,
Qızılgül etirli ölkesi ile.
Ayrılıq öz qara kölgesi ile,
Vüsalın izini basıb gedibdir.
28.02.2018

Sevinc Arzulu

**Gedim, getmeyim**

Qında kəsər qılıncın da,
Islanmaz ki balıncın da.
Durmuşam yol ayrıcında,
Sənə gedim, ya getməyim.

Sən bir sevda müfəttişi,
Çoxmu sevirsən təftişi?
Əmr etməkdir yalnız işin.
Əməl edim, ya etməyim

Nə deyim alın yazıma,
Kim dözər işvə nazıma.
Qəlbimdəki murazıma,
Indi yetim, ya yetməyim?

Sevinc Arzulu

**Gedir**

“Var” yazılar “ol”üstüne,
Bülbül qonar kol üstüne.
Çıxmışam ağ yol üstüne,
Bu yol burula-burula gedir.

Hesretden dağ da dillenir,
Tüstüsü göye millenir.
Sel gelende çox lillenir,
Araz durula-durula gedir.

Keder beni atmayıb ki,
Könlüm ona yatmayıb ki.
Hele başa çatmayıb ki,
Dünya qurula-qurula gedir.

Sevinc Arzulu

**Gedirem**

Vüsalın hesretden basılı qalıb.
Ayrılıq zalımdan küsülü qalıb.
Xeyalım semadan asılı qalıb,
Ümidin elinden tutub gedirem.

Nə çıxar pisliye meyl elemekden,
Zövq de al hamıya xeyr elemekden.
Doymuram dağları seyr eləmekden,
Temiz havasından udub gedirem.

Ümidin varmı heç eşq dühasına,
Son görüş alınar qem bahasına.
Emanet edirem qar kahasına,
Ilk eşqimi,eh, unudub gedirem.
10.03.2018

Sevinc Arzulu

**Gedirik**

Həsrətin yol yoldaşım,
Baş götürüb gedirik.
Hicranın can yoldaşım,
Səni ötürüb gedirik.

Hey gedirik dönmədən,
Ulduzlar da sönmədə.
Tale quşum enmədə,
Onu itirib gedirik.

Sən könlün nalan yarı,
Qəm qaraldar ağ qarı.
Göz yaşıyla suvarıb,
Gül bitirib gedirəm.

Sevinc Arzulu

**Gedirim**

GEDİRİM

Hayana baxırsan kederdi, qemdi
Alagöz gözelin gözleri nemdi.
Deyişik salmışam yene de semti,
Üz  tutuban Şimal-Qerbe gedirim.

Seven könül sevdiyinden nurlanar,
Bir terefde Ay Güneşden nur alar.
Bir terefde uçan boşqab fırlanar,
Gördüklerim çox qeribe,gedirim.

Gerek neçe serhed keçim, post aşım
Ezizimle bayramlarda tostlaşım.
Ey insanlar, sizin ile dostlaşım
Yoldaş olun ben qeribe, gedirim.

Sevinc Arzulu

**Gedirsen**

Bu dünya qaranlıq bir mehbes deyil?
Hesretden qaçdığım heç ebes deyil.
Meni yandırdığın hele bes deyil?
Külümün içinden keçib gedirsen.

Göy üzü tutulub, yere qem yağır,
Fereh bir küncdece dayanıb fağır.
Hicranın kölgesi özünden ağır,
Zülümün içinden keçib gedirsen.

Qelbin günahsızdır, az onu danla,
Sevgi qefil geler, xasiyyet qanla.
Sevinc, aç gözünü, yaxşıca anla,
Ölümün içinden keçib gedirsen.

Sevinc Arzulu

**Gedirsin**

Bu dünya qaranlıq bir mehbes deyil? !
Hesretden qaçdığım heç ebes deyil.
Beni yandırdığın hele bes deyil,
Külümün içinden keçib gedirsin.

Göy üzü tutulub,yere qem yağır,
Fereh bir küncdece dayanıb fağır.
Hicranın kölgesi özünden ağır,
Zülümün içinden keçib gedirsin.

Kelbin günahsızdır,az onu danla,
Sevgi qefil geler,xasiyyet qanla.
Sevinc,aç gözünü,yaxşıca anla,
Ölümün içinden keçib gedirsin.

Sevinc Arzulu

**Gel**

(Sevdiyindden şehide)

Meni tenha qoyub getdin,
Kesilibdir amanım,gel.
Dünyadan tez doyub getdin,
Sensiz ağır zamanım,gel.

Qurban getdin bir namerde,
Saldın bizi yaman derde.
Qem yayılar perde-perde,
Ağı çalar kamanım,gel.

Biz necede mehribandıq,
Bir ürekde iki candıq.
Özümüzü xoşbext sandıq,
Bextine qan damanım,gel.

Sevinc Arzulu

**Gel daha ayrılaq**

Üstüme ulduzlar çökecek benim,
Sis,duman gözümü perdeleyecek.
Hesretin didiben sökecek beni,
Ayrılıq ömrümü rendeleyecek.

Ben “olmaz”desem de sen geleceksin,
Yene de yamyaşıl qovaq altına.
Saçında seyrekce den geleceksin,
Beni qoyacaqsan qınaq altına.

Axı kim ne bilir çekdiyimizi,
Bu yolda tufan da,qar da görmüşük.
Xoşbextlik bağında ekdiyimizi,
Müşkülde dermişik,darda hörmüşük.

Bizleri bağlayan kövrek ilme de,
Gör nece süzülüb,gör nece yanıb.
Daha sen söyleme birce kelme de,
Gündüzün önünde gece dayanıb.

Bağışla.ezizim,bağışla beni,
Bu bele taledir,bu bele baxtdır.
Duanla-senanla alqışla beni,
Istesen,bircə yol falına baxdır.

Qoy falçı söylesin düzünü ancaq,
Elini üzecek bizden ayrılıq?
Vüsalın eh,neden bele utancaq
Belke onun üçün biz de ayrıyıq.

Gel daha ebedi vidalaşaq biz,
Sen öz yolunla get,ben öz yolumla.
Hicranın sonunda nidalaşaq biz,
Barışaq ölümü ölen olumla.

Sevinc Arzulu

**Geleceyem**

Qəm gölünə çay gəlibdir,
Gözlə məni,gələcəyəm.

Hanı elin ehtişamı,
Kim söndürdü yanar şamı.
Yetişib vüsal axşamı,
Gözlə məni, gələcəyəm.

Qəlb evimdən daş tökülər,
Üzüyümdən qaş tökülər.
Gözlərimdən yaş tökülər,
Gözlə məni,gələcəyəm.

Könül evim viran qalıb,
Əzrail tək tiran qalıb.
Ölümümə bir an qalıb,
Gözlə məni, gələcəyəm.

Dərdi arayıb gəzərək,
Qəmi uzaqdan sezərək,
Fani dünyadan bezərək,
Mən də bir gün öləcəyəm,
Gözlə məni, gələcəyəm.

Sevinc Arzulu

**Gelek-gelek**

Sanki içib bir badə mey,
Bir barmaqla oxunar ney.
Yer üzünə yayılır hey,
Nəğmələri külək-külək.

Qaragözlü kəhər gəlir,
Işıqsözlü səhər gəlir.
Novruz qızı Bahar gəlir,
Bir üzünə gülək-gülək.

Külli-aləm "ol"üstdədir,
Bənövşələr kol üstdədir.
Keçəl, kosa yol üstdədir
Görüşünə gələk-gələk.

Sevinc Arzulu

**Gelende bilim**

Qelb evin uçuq qoyma,
Qemi bir buçuq qoyma.
Qapını açıq qoyma.
Gelende bilim.

Göyden enecek ruhum?
Gün tek sönecek ruhum?
Neye dönecək ruhum?
Ölende bilim.

Getmez qanın lekesi,
Derdin sonra çekesi.
Dost menle son tikesin.
Bölende bilim.

Yetişib üzüm eceb,
Parlayır üzü eceb.
Daldayıb düzü, eceb
Gülende bilim.

Saxla eşqin yasını,
Geyin qəm libasını.
Hesretin boz pasını,
Silende bilim.

Sevinc Arzulu

**Gelende gelir**

Məhəbbət yer üzün daim gəzər də,
Günəştək nur saçıb ömrü bəzər də.
Uzaqda dururam mən bəd nəzərdən,
Yolumdan dönürəm görəndə gəlir.

Başıma yığılar yar-yoldaşlarım,
Yamanca parlayar lə`l qaş-daşlarım.
Mənim gözlərimdən sevinc yaşları,
Səmimi ürəkdən güləndə gəlir.

Qəm gülün sevərək oxşayaq nədən,
Ömrü dərd içində yaşayaq nədən.
Demə qafiyələr baş-ayaq nədən,
Neynəyim,qəlbimə gələndə gəlir.

Sevinc Arzulu

**Gelerem**

Külək qurudub tağları,
Viran edibdir bağları.
Yolumu kəsən dağları,
Bir anda aşım,gələrəm.

Nəğmə dedim gülə-gülə,
Şeir qoşdum qızılgülə.
Çəməndə çiçəyə,gülə
Gülüm,dolaşım.gələrəm.

Sünbüli-süsənlər ilə,
Inciyib küsənlər ilə.
Qarşımı kəsənlər ilə.
Bircə dalaşım.gələrəm.

Yoxdur taqətim,amanım,
Dərdi azalmır adamın.
Məzarı üstdə atamın,
Axar göz yaşım,gələrəm.

Şeir-İlahidən səsdir,
Şairliyim mənə bəsdir.
Mənim üçün müqəddəsdir,
Torpağım,daşım gələrəm.

Yetişsinlər səs-ünümə,
Gəlsinlər toy-düyünümə.
Yığılsınlar xoş günümə,
Dostum,sirdaşım,gələrəm.

Sevinc,sevin kamın ilə,
Tanın öz ilhamın ilə.
Icazə ver,hamı ilə
Mən vidalaşım,gələrəm.

Sevinc Arzulu

**Gelermisen**

Hey çəkirəm təəssübün,
Yeri yox ki təəssüfün.
Mənə dərman təbəssümün,
Bir üzümə gülərmisən.

Teldə dəni gizləyirəm,
Çoldə çəni izləyirəm.
Təkcə səni gözləyirəm,
Məndən vüsal dilərmisən.

Ürəyimdə, canımda ol,
Ən fərəhli anımda ol.
Bir arzum var:"Yanımda ol",
Görüşümə gələrmisən.

Sevinc Arzulu

**Gelersen bir gün**

Gətirmə xoşbəxtlik iqtibasından,
Uzaq dur yalanın zər-zibasından.
Bezərək dünyanın qəm libasından,
Ölərəm.Üstümə gələrsən bir gün.

Həqiqət yalanla nədən barışıb,
Ocağı közüylə yaman qarışıb.
Həsrətin oduna aşkar alışıb,
Yanaram.Tüstümə gələrsən bir gün.

Dilərəm cahanda mənsiz çox yaşa,
Həyatın amansız çatmasın başa.
Sinəsi şəkilli bir mərmər daşa,
Dönərəm.Büstümə gələrsən bir gün.
04.02.2015

Sevinc Arzulu

**Gelhagelindir**

Səmaya tuşlanan şad baxışları,
Göylər əks etdirib qaytarar geri.
Tezcənə daşlanar yad naxışları,
Çünki qəlbimizdə yox onun yeri.

Sənin qulağında payızın səsi,
Gözünün önündə köçür durnalar.
Mənim ürəyimdə bahar nəfəsi,
Qarşımdan qatarla keçir durnalar.

Buludlar günəşin üzünü örtər,
Elə bil günəş bir təzəgəlindir.
Həqiqət yalanın yüzünü ötər,
Ay Sevinc, deyəsən gəlhagəlindir.
30.11.2017

Sevinc Arzulu

**Gelib gedecek**

Yenə nədən mənlə öc düşür günlər,
Zalım əğyar ilə öpüşür günlər.
Demə ki çox yavaş ötüşür günlər,
Papağın fırlat da,gəlib gedəcək.

Ah da çəkəmmirəm nəfəs dolusu,
Ürəyim buluddur,içi dolu su.
Elə güclü yağar həsrət dolusu,
Damını qırlat da dəlib gedəcək.

Tək məni ov seçər möhnətin gözü,
Tikanla örtülü nifrətin düzü.
Soyuqdan göyərmiş həsrətin üzü,
Min bir yol nurlat da ölüb gedəcək.

Sevinc Arzulu

**Gelimmi**

Tanrı qoçağın olub,
Yaşıl qovağın olub,
Vətən,  qonağın olub,
Qoynunda dincəlimmi?

Üstündən gün keçməyə,
Göy zəmini biçməyə,
Kür suyundan içməyə.
Söylə, mən də gəlimmi?

Yadıma oğrun düşər,
Yalanın, doğrun düşər.
Həmişə yorğun düşən,
Baxışları həlimmi?
15.07.2018

Sevinc Arzulu

**Gelin  köçüb**

Göy üzünde dan söküldü,
Şanki nece can çöküldü.
Üreyimden qan töküldü,
Baxışların delib keçib.

Külek varsa,serin meh ne,
Yağış yağan yerde şeh ne.
Dünya özü boyda sehne,
Bir gör kimler gelib keçib.

Çox qeribe dadır heyat,
Yarı teze,yarı boyat.
Indi bene yaddan da yad,
Arzularım gelin köçüb.

Sevinc Arzulu

**Gelin köçüb**

Göy üzündə dan söküldü,
Şanki necə can çöküldü.
Ürəyimdən qan töküldü,
Baxışların dəlib keçib.

Külək varsa, sərin meh nə,
Yağış yağan yerdə şeh nə.
Dünya özü boyda səhnə,
Bir gör kimlər gəlib keçib.

Çox qəribə dadır həyat,
Yarı təzə, yarı boyat.
Indi mənə yaddan da yad,
Arzularım gəlin köçüb.

Sevinc Arzulu

**Gelir**

Imkan olsa bəri bax,
Gör ölü, ya diriyəm.
Üz çevirmə sən Allah,
Səni sevən biriyəm.

Bəlkə bir nağıl olar,
Bizim görüşməyimiz.
Eh, başda ağıl qoyar,
Səmadan düşməyimiz?

Gül-çiçəyin üstünə,
Düşmüşük.Ətri gəlir.
Nədən könlümə daim.
Məhəbbət sətri  gəlir...
29.05.2018

Sevinc Arzulu

**Gelirim**

Derdi qem sapına düzür qayğılar,
Yene beni çep-çep süzür qayğılar.
Sinemin üstünde üzür qayğılar,
Sepelene-sepelene gelirim.

Payızmıyam.baharmıyam,yaymıyam
Güneşmiyim,ulduzmuyum,aymıyım.
Heç bilmirim denizmiyim,çaymıyım
Lepelene-lepelene gelirim.

Bağ-behreli yamyaşıl bir bağ idim,
Üzügüler,daim keyfi çağ idim.
Güneritmez ağ zirveli dağ idim,
Tepelene-tepelene gelirim.

Sevinc Arzulu

**Gelmişim,dünya**

Boş qalan xurcunu qaytarmaq üçün,
Nes gelen bürcümü qaytarmaq üçün,
Feleye borcumu qaytarmaq üçün
Hakkımı almağa gelmişim,dünya.

Deyirler yamanca gözügülersen,
Söhbeti semimi,sözügülersen.
Sen de benim kibi üzügülersen,
Mehrimi salmağa gelmişim,dünya.

Küsmüşüm bivefa dostdan,tanışdan
Bene söhbet açma sülhden,barışdan.
Lalezar yer göster,on beş qarışdan,
Qoynunda qalmağa gelmişim,dünya.

Sevinc Arzulu

**Gelsen**

Bir gün yaşıl xatirəndən
 qopub gəlsən,
Qış günündə bəyaz qarın havasına
hopub gəlsən nə olar ki.
Gül solar ki...
Addımların ürəyimin başındadır:taraq-taraq,
Gedişlərin göz yaşımdan verir soraq.
Göz yaşının şor tamından,
Sübhün şeir ilhamından
Uzaq durma.
Yalan əhdi-peymanlardan
Özünə bir yuva qurma.
Onsuz rəngi ağ olmaz ki,
Orda kefin çağ olmaz ki..

Sevinc Arzulu

**Gelsin**

Gedin deyin o mərd ərə,
Könül evim talan,gəlsin.
Yönün salıb bərilərə,
Ürəyimi alan gəlsin.

Dostluğunda qınandığım,
Dar günündə sınandığım.
Düzlüyünə inandığım,
Söyləməsin yalan,gəlsin.

İnsaf olar sevən kəsdə,
Gözlər yolda,qulaq səsdə,
Həsrət məni edib xəstə,
Acı dərdə salan gəlsin.

Sevinc Arzulu

**Genclik**

Sarılıb gencliyin qollarına men.
Deyirem ne olar, getme, dayan, dur.
Düşüb de kecliyin yollarına men,
Deyen yox yuxudan ayıl, oyan dur.

Üzünü çevir de bir az beriye,
Gencliyin bir daha dönesi deyil.
Ne qeder yalvarsan o İlahiye,
Qocalıq geriye çönesi deyil.

Elinin içinde saxla sen onu,
Daha ondan başqa hayanın yoxdur.
Qapısın daim döy, yoxla sen onu
Onun tek derdini duyanın yoxdur.
11.11.2017

Sevinc Arzulu

**Gencliyime ağlaram**

Həyat zalım,dünya ikibaşlıdır,
Ömrümüzün yolları sərt,daşlıdır.
Demə gözün niyə belə yaşlıdır,
Sənlə ölən gəncliyimə ağlaram.

Baxammadım həsrətinin gözünə,
Alışaraq yandım hicran közünə.
Heç uymadım böyüklərin sözünə,
Öz günümə,kəcliyimə ağlaram.

Daha geri dönməyəcək gül yarım,
Bircə anda soldu gözəl gülzarım.
Çətin keçər onsuz mənim güzarım,
Ötüb keçən dincliyimə ağlaram.

Sevinc Arzulu

**Gerek**

Yene xeyal evi yarıuçuqdur,
Geliri-çıxarı iki buçuqdur.
Ayrılıq yatmayıb,gözüaçıqdır,
Onu layla ile uyudam gerek.

Vüsalın qapısı bağlar qalıbdır,
Göz yaşı çay kibi çağlar qalıbdır.
Bilirsin,nece de ağlar qalıbdır,
Senli xatireni ovudam gerek.

Yene de çılğınlıq içinde azım,
Şenine terifli bir dastan yazım.
Eh,seni unutmaq neyime lazım,
Ben özüm özümü unudam gerek.

Sevinc Arzulu

**Gerekmiş**

Tenha, küskün bir yana,
Kasıb, miskin bir yana.
Duman, çiskin bir yana,
Çeni sevmək gerekmiş.

Vüsal gelmez havayı,
Çalınar qem harayı.
Sarı telden savayı,
Deni sevmek gerekmiş,

Ocaq-közümden evvel,
Kelam-sözümden evvel.
Deme özümden evvel
Seni sevmek gerekmiş.

Sevinc Arzulu

**Gereyem indi**

Sənin həsrətinin mehmanıyam mən,
Gur çayı qurumuş dərəyəm indi.
Bir qəmli baxışın qurbanıyam mən,
Dənizdə tək qalmış bərəyəm indi.

Bir zaman daş-qaşlı zər tac olmuşam,
Nədən qəm-kədərə möhtac olmuşam.
Həsrətdən quruyub qaxac olmuşam,
Bir köhnə,bir boyat çörəyəm indi.

Bağbanı tərk etmiş bir bağam artıq,
Kədərdən bozarmış torpağam artıq.
Budaqdan üzülmüş yarpağam artıq,
Ey fələk,de kimə gərəyəm indi

Sevinc Arzulu

**Geri dön**

Dostlar ferehi bölmezler,
Yamanlar erken ölmezler.
Nakesler qedir bilmezler,
Sevinc, geri dön, geri dön.

Olmayıb ki üzün qara,
Inden bele üzün hara.
Rast gelmedin düz ilqara,
Sevinc,geri dön, geridön.

Hanı senin ezizlerin,
Yol çeker ala gözlerin.
Yağış yuyacaq izlerin,
Sevinc,geri dön,geri dön.

Dost da sene yad kibidir,
Bir turşmeze dad kibidir.
Yalnız adın ad kibidir,
Sevinc,geri dön,geri dön.

Ağrıyacaqdır üreyin,
Qovuşacaqdır küreyin.
Kimse olmaz ki gereyin,
Sevinc,geri dön,geri dön.

Sanarlar ki düz ederler,
Dereni de düz ederler.
Derdini on,yüz ederler,
Sevinc,geri dön,geri dön.

Dilim üste su almışam
Bir cavabsız sualmışam,
Gölü qanla sulamlşam,
Sevinc,geri dön,geri dön.

Qebrin üste kim gelecek,
Başdaşını kim silecek.
Axı kim qedrin bilecek,
Sevinc,geri dön,geri dön.

Budur senin alın yazın,
"Hesret" deyer könül sazın.
Qurban olmaq neye lazım,
Sevinc,geri dön,geri dön.

Sevinc Arzulu

**Geri qayıtmaz**

Insan devdiyini aıdadarmı heç,
Gəlib deyirsən ki günahımdan keç.
Şirin sözlə qəlb almağın gecdir gec,
Könül quşum uçub,geri qayıtmaz.

Səninlə çəkilib çörəim,ruzum.
Əvvəlki dadını itirib düzum.
Axıbdır əzizim,tale ulduzum
Işığını saçıb, geri qayıtmaz.

Eşqin vüsalına biz qonaq gələk,
Göylərdə görüşər iki saf mələk.
Yenə yolun salıb bizlərdən fələk.
Qapımızı açıb,geri qayıtmaz.

Haqq elmini dərk eyləyib gedənlər,
Qəlbdə yerin bərk eyləyib gedənlər.
Dünyamızı tərk eyləyib gedənlər,
Əcəl suyun içib geri,qayıtmaz.

Axşam düşür,günəş gedir batmağa,
Yorulubdur,haqqı vardır yatmağa.
Az qalıbdır arzusuna çatmağa.
Qəm otunu biçib,geri qayıtmaz.

Düşmənə inanmaq  durur çox baha,
Baxmaram kədərə,baxmaram aha.
Qorxuda bilməzlər şairi daha,
Çətinlikdən keçib,geri qayıtmaz.

Göl dəniz tək sahilini daşammaz,
Dərdli ürək qarlı dağı aşammaz.
Sevinc daha bu dünyada yaşamaz.
Ölümünü seçib,geri qayıtmaz.

Sevinc Arzulu

**Get görüm**

Çox yarpaq düşüb ömürdən,
Yaşamışıq bir ömür tən.
Get, əzizim, get ömrümdən,
Həyatımdan get görüm.

Bu dünyadan istəyin nə,
Nə dilərsən istə yenə.
Hər arzuna , istəyinə,
Diləyinə yet görüm.

Demirəm ki ağla, inlə,
Şikayəti dəst-dəst çinlə.
Bircə dəfə məni dinlə,
Dediyimi et görüm.

Sevinc Arzulu

**Getdin**

Getdin.Üreyiminn zal otağından,
Özünle apardın genişliyi de.
Daha güller açmaz könül bağında,
Bu gediş sevgide eniş deyil de...

Yuxulu gözlerim açılmayır da,
Meni buraxmayır röyamdakı sen.
Olur ki hesretden qaçılmayır da,
Vüsalın yolunu bürüyür sis, çen.

Gecenin gündüzden ferqi nedir ki,
Gecəler yatırıq, gündüzler oyaq.
Senin vüsalının derdi nedir ki,
Yanımdan sakitce ötüşdü bayaq.

Ayağın büdreyer, dodağın qaçar,
Baş aça bilmezsen söz qammasından.
Heqiqet önünde donarsan naçar,
Quruyub qalarsan söz qanmasından.

Sındırıb dünenin keder güzgüsün,
Bu güne sifariş ne eylemisen.
Könlünde vüsalın şirin düzgüsü,
Dilinde qaranlıq "yox" söylemisn.
22.02.2018

Sevinc Arzulu

**Getdin sen**

Getdin,məni qoydun dərdlə baş-başa,
Ayağın altın yer titrəmədi?
Uzaqdan baxaraq etdin tamaşa,
Şəninə yazdığım şer titrəmədi7

Etdiyin bütüncə pislikləri mən,
Silməyə çalışdım könlümdən.Lakin
Sən demə əbədi gözümdən itən,
Olmusan yad eldə yad evə sakin.

Nə qanun bilirsən, nə də qadağa
Ovçu tək gəzirsən küçələri sən.
Deyirsən gözəllər mənə sadağa,
Eh, bədbəxt etmisən neçələrin sən.

Sevinc Arzulu

**Getdin..**

Getdin.
Geri dönmek ümidini de götürüb getdin.
Getdin.
Ayaqlarının toxunmadığı,
Alın yazının oxunmadığı bir diyara getdin.
Sen biyara getdin.
Seni daş daşımağa,
Gözünde yaş daşımağa mecbur edecekler.
Özün seçdin bu yolu,
Sen deli-dolu.
Geriye qayıtmağa cesaretin yoksa da,
Uduzdun bu oyunda göz ile görünmeyen
xesaretin yoxsa da.

Sevinc Arzulu

**Getme**

Getme, bu gedişin dönüşü yoxdur,
Getsen yollar seni qaytarmaz geri.
Yoxuşu bircedir, enişi çoxdur,
Yaralı qelbimde inilder yerin.

Eh, kimse bu yeri doldura bilmez,
Qoyma ki.ezizim, yerin boş qalsın.
Menim çekdiyimi qaldıra bilmez,
Ne sen, ne de dostun, ne de başqası.

Getsen yollarını qar bağlayacaq,
Ildırım çaxacaq, tufan esescek.
Gülün solmasına xar ağlayacaq,
Hesret ayna kimi qelbi kesecek.

Sevinc Arzulu

**Getme gel**

Nə yad sözə uyub aldan,
Uzaqda dur qeylü-qaldan.
Xəstə ürəyimi al qan,
Etmə,etmə gəl.
Getmə,getmə gəl.

Piyalələr taxçasında,
Qurumuş gül boxçasında.
Gülüm,əğyar baxçasında,
Ötmə,ötmə gəl.
Getmə,getmə gəl.

Düşmə həsrət qumsalına,
Dönmə nifrət timsalına.
Başqasının vüsalına,
Yetmə,yetmə gəl.
Getmə,getmə gəl.

Sevinc Arzulu

**Getme üstüne**

Qoşa adı daşa oymaz,
Rəngləməklə ürək doymaz.
Bir-birini tənha qoymaz,
Hey dən yağar dən üstünə.

Vülkan qara kül bürünər,
Düzənliklər gül bürünər.
Dağlar yenə tül bürünər,
Duman gələr çən üstünə.

Tikanlıdır kirpin sənin,
Daş döşəli körpün sənin.
Vüsal kiçik körpən sənin,
Çox da getmə sən üstünə.

Sevinc Arzulu

**Geyindim**

Qocalıban aciz olmam,
Dəb önündə lal,geyindim.
Ucalıban ucuz olmam,
Ən bahalı mal geyindim.

Bidar oldum vaxtsız zəngdən,
Qeylü-qaldan,nahaq cəngdən.
Zəhləm gedir qara rəngdən,
Onunçün də al geyindim.

Mehriban olum,şən olum,
Xar gözünü deşən olum.
Gül içində gülşən olum,
Ipək,əlvan şal geyindim.

Sevinc Arzulu

**Geyindimi**

Içki haram dinimizdə,
Imtahan var önümüzdə.
Bizim bu şad günümüzdə,
Son söz yenə meyindimi.

Zəmanənin yarı nənə,
Uca göyün sarı nənə
Gülüşümə qarı nənə,
Dodaqaltı deyindimi.

Köçkünün yağır günündə,
Qaçqının fağır günündə.
Vətənin ağır günündə,
Hərb paltarın geyindimi.

Sevinc Arzulu

**Gezir**

O ötən günləri geriyə gətir,
Heç əskik olmasln eşq dolu ətir.
Yazılır sözbəsöz, sətirbə sətir
Könlümdə sevginin nəvası gəzir.

Yaxşının üzünü "eh" pis eyləyir,
Sinəmin odundan şeh his eyləyir.
Qarğa da özünü şah hiss eyləyir,
Təpədə bir qartal yuvası gəzir.

Kaş mənim dərdimə sərin yetməyə,
Vüsal üzdə üzə, dərin getməyə.
Yayın istisini sərin etməyə
Başımda payızın havası gəzir.
31.07.2013

Sevinc Arzulu

**Gezirem**

Axtarıram xeyli vaxtdır,
Halı üzgünü gəzirəm.
Bilirəm ki sözü haqdır,
Andı düzgünü gəzirəm.

Hazırsan göydə çaxmağa,
Qəlbimi oda yaxmağa.
Qəmli üzümə baxmağa,
Qara güzgünü gəzirəm.

Göy gölünün qu sonası,
Suyun üstünə qonası.
Itib ömrümün mə`nası,
Sənli yüz günü gəzirəm.

Həmdəm olar ay,günəş də
Hicran ilə çıx güləş də.
Pərvanəm yanıb atəşdə,
Halı küskünü gəzirəm.

Saralıb çəmən də,düz də
Al badəmə zəhər süz də.
Hər simada,hər bir üzdə
Sənin cizgini gəzirəm.

Sevinc Arzulu

**Gil qalası**

Toz-torpağa tay olacaq,
Yerə-yurda pay olacaq.
Göz yaşından zay olacaq.
Arzuların gil qalası.

Baxmaz ki dumana, çənə,
Qüssə bəxş eyləyər mən.
Ayrılıq gələndə sən.
Inanma ki gül alası.

Böyük sözün eşit görüm,
Hicrdən az üşüt görüm,
Ürəyimi isit görüm,
Bir yaxına gəl, balası.

Sevinc Arzulu

**Gilelendi**

Vüsalın qapısın bağlımı gördün,
Dünyanı qaralı-ağlımı gördün.
Mehebbet-efsane nağlımı gördün,
Onçun  gözlerinde yaş gilelendi.

Bir zaman uymuşdun şöhrete,ada
Indi o günlerin düşürmü yada.
Fereh atlı oldu,sense piyada,
Heyf ki yolunda daş gilelendi.

Tanrının mehriban bendesi bizdik,
Yalanın,yamanın rendesi bizdik.
Riyazi biz idik,hendesi bizdik,
Oksigen üstünde haş gilelendi.

Sevinc Arzulu

**Gileylendi**

Ayın evin bulud yıxdı,
Əllərimi ulduz sıxdı.
Gecə yarı günəş çıxdı,
Zülmətimi gün eylədi.

Hey ağlayan arzularım,
Qəlb dağlayan arzularım.
Buz bağlayan arzularım,
Bahar gəldi, güneyləndi.

Qəm içində gördüm onu,
Başqasına verdim onu.
O qədər çox sevdim onu,
Axır özü gileyləndi.

Sevinc Arzulu

**Gizleder**

Qışqırmaz gur sesiyle,
Üşütmez nefesiyle.
Beyaz tül perdesiyle,
Duman özün gizleder.

Şer yalanın yasında,
Ağlar qem libasında.
Heqiqet arxasında,
Güman sözün gizleder.

Bilmez nedir seadet,
Uzaq düşer sedaqet.
Vefasızdan mehebbet,
Uman gözün gizledr.
28.02.2018

Sevinc Arzulu

**Gizlenim**

Fələk yenə keşikdədir,sayıqdır.
Arzularım tənha üzən qayıqdır.
Dərdin evi soyuqdan da soyuqdur,
Iki dərdin arasında gizlənim.

Bir-birinə qarışıbdır bəm,zilim.
Geri qayıt,göz yaşımı mən silim.
Üşüyürəm,yoxdu isti mənzilim,
Gözlərinin qarasında gizlənim.

Həsrət,mənə ağ güldən çələng toxu,
Hicran,az vur ürəyimə qəm oxun.
Hər yerində bəla əsir,qəm qoxur,
Bu dünyanın harasında gizlənim.

Sevinc Arzulu

**Gizlet**

Yaxşı-pisi seçsene,
Yolunu düz keçsene.
Yaraşmayır heç sene,
Tellerinde den, gizlet.

Bulud, yağdır leysanı,
Damlalar milyon sanı.
Qelbiqara insanı,
Ay duman, sis, çen gizlet.

Heyat vermez ki aman,
Qüsse qelbime daman,
Arxanda durum, zaman
Görünmeyim men, gizlet.

Sevinc Arzulu

**Gizli boylanım**

Ay ezizim, sen sevgiden tökmesen,
Saray uçar, himini berk tökmesen.
Göyerçin tek su getirib tökme sen,
Hesretinin ateşine qoy yanım.

Bu dünyanın naxşı qara-ağlıdır,
Zencirdedir arzularım, bağlıdır.
Onsuz ürek ayrlıqdan dağlıdır,
Qem-kedere esir düşen oy canım.

Ben ki sensiz ölemmirem, neyneyim
Saf eşqimi bölemmirim, neyneyim.
Yaxınına gelemmirim, neyneyim
Uzaqdanca gizli-gizli boylanım.

Sevinc Arzulu

**Gizlice**

Minərək taleyin səmənd atına,
Qəmimi kiminlə bölüm gizlicə.
Hopadaq torpağın dərin qatına,
Suyunu itirdi gölüm gizlicə.

Fələk yolun bizdən uzaq salmamış,
Könül şirin xəyallara dalmamış,
Bu fani dünyadan mən kam almamış,
Özünü yetirdi ölüm gizlicə.

Kimin olacaqır bu ulduz,bu ay,
Yenə də həsrətli günlərini say.
İstədi Sevincə bağışlaya pay,
Lalələr yetirdi çölüm gizlicə.

Sevinc Arzulu

**Gizli-gizli boylanım**

Ay ezizim, sen sevgiden tökmesen,
Saray uçar, himini berk tökmesen.
Göyerçin tek su getirib tökme sen,
Hesretinin ateşine qoy yanım.

Bu dünyanın naxşı qara-ağlıdır,
Zencirdedir arzularım, bağlıdır.
Onsuz ürek ayrlıqdan dağlıdır,
Qem-kedere esir düşen oy canım.

Ben ki sensiz ölemmirem, neyneyim
Saf eşqimi bölemmirim, neyneyim.
Yaxınına gelemmirim, neyneyim
Uzaqdanca gizli-gizli boylanım.

Sevinc Arzulu

**Göl qırağında**

Duyğular qalıbdır yene kesrde.
Onu tam etmez ki şeir, nesr de.
İlk defe deyesen keçen esrde,
El-ele tutuşduq göl qırağında.

O zaman nece de genc idik, Allah
Nece sakit idik, dinc idik, Allah
Şadlıqdıq, ferehdik,sevincdik, Allah
Qorxumuz yox idi el qınağından.

Dağ olsam, zirvemde dumanım ol sen,
Bitib-tükənməyən zamanım ol sen
Birce gün, ezizim, mehmanım ol sen,
Çox razı qalardım ol qonağımdan.
31.10.2018

Sevinc Arzulu

**Gördüm**

Durmusan hicranın düz qabağında,
Ezizim,istersen süz qabağında.
Heyat kitabının üz qabığında
Muncuqla işlenmiş neqşini gördüm.

Qeyd olduq hesretiin siyahısında,
Uzaq dur sevdanın siyahlısından.
Çaxan ildırımın nur ziyasından,
Yağışın külekle reqsini gördüm.

Benizi ağarıb neden qar  kibi,
Dayanıb durubdur o,lal-kar kibi.
Baxışın qaçırdır günahkar kibi,
Gözünde sözünün eksini gördüm.

Sevinc Arzulu

**Göre-göre**

Bir daha sezməzsən gulüm, məni də,
Dağlara tül olan duman, çəni də.
Günlərin birində nədən səni də,
Əlimdən aldılar göz görə-görə.

Fələyin işini tərsinə burdum,
Tək sənin qəlbində yurd-yuva qurdum.
Mən necə dayandım, mən necə durdum,
O lal baxışlarda söz görə-görə.

Ay Sevinc, gəl dayan qaya tək mətin,
Bilirsən, ayrılıq çətindən çətin.
Bu sənin taleyin, sənin qismətin,
Həsrətin zülmünə döz görə-görə.

Sevinc Arzulu

**Göresen**

Ben ki sene vurulmuşdum ezelden,
Sensizlikde seçilmirdim xezelden.
El çekmedin, yapışdın yad gözelden,
Beni senden kim aldı ki göresen.

O gözlerin gözlerimin yağıydı,
Tebessümün gül açan yaz bağıydı.
Gözel kızlar bene düşmen,yağıydı
Beni senden kim aldı ki göresen.

Xatireler yüreyimde buzlayar,
Deli könül hesretinden quzlayar.
Sevda yaram hey qanayar,sızlayar,
Beni senden kim aldı ki göresen.

Gedib tutdun başqasının elinden,
Anlamadın dünyanın derd-serinden.
Gec de olsa gel fikirleş derinden,
Beni senden kim aldı ki göresen.

Iller özü yaramızı sarıyar,
Tanıyanlar tekce seni darıyar.
Heç bilinmez kim öle ,kim qarıya
Beni senden kim aldı ki göresen.

Sevinc Arzulu

**Görmek istemirem**

Ömrün sonunu görmüşəm,
Qəmin donunu görmüşəm.
Dərdin onunu görmüşəm,
Yüzünü görmək istəmirəm.

Nə istərsən axı məndən,
Uzaq durmam duman, çəndən.
Elə zəhləm gedir səndən,
Üzünü görmək isrəmirəm.

Özün bürün palanına,
Qayğına çox qalanına.
Öyrənmişəm yalanına.
Düzünü görmək istəmirəm.

Sevinc Arzulu

**Görübler**

Uzun-uzun qarğılar,
Gören kimi qarğıyar.
Qara-qara qarğalar,
Meydanı boş görübler.

Eh,deyilmi kimse er,
Göz yaşımı kim siler.
Yoxsa bezi kimseler,
Üzümü xoş görübler.

Donu yox heqiqetin,
Sonu yox mehebbetin
Içdim ilham şerbetin,
Beni serxoş görübler.

Sevinc Arzulu

**Göründü melek**

Qaldırammaz yad daşımı,
Ya qayamı,ya daşımı.
Neçə dəfə yaddaşımı,
Eyləmişəm ələk-vələk.

Sonacan dolmadı badəm.
Cavan ömrüm getdi badə.
Qəlbiç geniş,özüm sadə
Bilməz idim hiylə-kələk.

Mən dünyayam,ərzi-kürrəm.
Solamz inci,parlaq dürrəm.
Yaşayırdım şadi-xürrəm,
Bəs niyə ağlatdı fələk.

Nədən artırdı cəbrimi,
Imtahan etdi səbrimi.
Dərin qazarsız qəbrimi,
Torpaq olar isti bələk.

Sevinc,gülü solan koldum,
Əcələ gedən ağ yoldum.
Bu dünyadan gedər oldum,
Gözümə göründü mələk.

Sevinc Arzulu

**Görünmür**

De,neye lazımdır zavallı olmaq,
Daima qem-keder ehvallı olmaq.
Üreye su seper çox varlı olmaq,
Milyonda görünür,yüzde görünmür.

Üzüme qayıdır derdin,möhnetin,
Yosunlu qayadır acı hesretin.
Sualtı qayıqdır eşq-mehebbetin,
Deniz dalğalısa,üzde görünmür.

Tülkü tek hiyleger,xain,bic dünya.
Serxoşluq eyleyir herden gic dünya.
Söyle bene, neden senin iç dünyan,
Yalanda görünür,düzde görünmür.

Sevinc Arzulu

**Görürüm**

Çen tutub gözüm önünü,
Düz kesib sözüm önünü.
Qan örtüb gözüm önünü,
Bu dünyanı mor görürüm.

Mene ana Kürü verin,
Dost olmağa hürü verin,
Al yox, qara kürü verin,
Yağ-pendiri şor görürüm.

Bu sonuncu duracaqdır,
Sinem sanki od-ocaqdır.
Ev-eşiyim yanacaqdır,
Her terefi qor görürüm.

Sandım yeni hevesdeyem,
Duyğulu ter nefesdeyem.
Indi bir dar qefesdeyem,
Etrafımı tor görürüm.

Deyme mene,aman,şair
Onsuz halım yaman,şair.
Dörd bir yanım duman,şair
Seni bele zor görürüm.

Sevinc Arzulu

**Görüş görürüm**

Pis günlər tez ötüşüb,
Küsülülər öpüşüb.
Sanma  qaranlıq düşüb,
Fonda gülüş görürəm.

Ürəyində cızılım,
Ocağında qızınım,
Dəbdən düşüb qızılı,
Donda gümüş görürəm.

Ay adımı anmayan,
Dərd-sərimə yanmayan.
Kart düzürəm yanbayan,
Sonda görüş görürəm.
05.12.2018

Sevinc Arzulu

**Görüşerik bir gün**

De, nədən keçməyir şən həytımız,
Heç əskik olmayır dərd bayatımız.
Göylərdə çaparsa vüsal atımız,
Gözündən qaçacaq gülüm, qəm mürgün.

Böyük bir eşq ilə sevdiyim üçün,
Bu yolda min riskə getdiyim üçün,
Sözün doğrusunu dediyim üçün,
Ən uzaq adaya edildim sürgün.

Başımın üstündə qara bulud var,
Köksümdə qəm çalan həzin bir ud var.
Könlümdə dəli bir istək, ümid var,
Yəqin görüşərik sənlə biz bir gün.

Sevinc Arzulu

**Götür meni**

Ala gözü xumar idim,
Sarı teli tumar idim.
Dümdüz idim, şümal idim,
Etmə kələ-kötür məni.

Neynirəm ipək qumaşı,
Yad rəhglərə tez bulaşır.
Yolum üstdə it ulaşır,
Yarəb, özün ötür məni.

Sarı saçı ağ qar etsəm.
Könül evin qübar etsəm,
Birinin yerin dar etsəm,
Bu dünyadan götür məni.
07.06.2015

Sevinc Arzulu

**Götür sen**

Könlümdə od qaladan,
Şaxtada buz yaladan
Gələn dərdi-bəladan,
Ötür məni, ötür sən.

Əhdi dana bilmirəm,
Közsüz yana bilmirəm.
Səni yona bilmirəm,
Çünki kələ-kötürsən.

Bələdəm qəm zatına,
Minər qara atına.
Göyün yeddi qatına,
Cənazəmi götür sən.

Sevinc Arzulu

**Götürme sen**

Ilğımı çay sanan gülüm,
Yad oduna yanan gülüm.
Sevgisini danan gülüm,
Vicdanını itirmə sən.

Şərik ol qəm çağlarıma,
Bax viranə bağlarıma.
Özün ilə dağlarıma,
Çiskinli çən gətirmə sən.

Səndin çiçək üzənim də,
Tellərimə düzənim də.
Mənim güllü düzənimdə,
Tikan,qanqal bitirmə sən.

Bilmirəm sənlə nə edim,
"Görüşməyək bir də"-dedim.
Əllərimi burax,gedim.
Lazım deyil,ötürmə sən.

Sevinc,qalxaq qala-qəsrə
Bir boylanaq ötən əsrə.
Qismətinə düşsə həsrət,
Çalış onu götürmə sən.

Sevinc Arzulu

**Götürmez**

Əcəl suyun bir şərbət tək içərəm,
Yolundakı tikanları biçərəm.
Uğrunda mən şirin candan keçərəm,
Sən də mən tək eşq yolunda öl görüm,
Kədərini,sevincini böl görüm.

Kəsilibdir ah,taqətim,amanım.
Hey inildər tarım,ağlar kamanım.
Gülüm,deyən gəlib axır zamanım,
Sanırdım mənimçün səhər olarsan,
Bilməzdim öldürən zəhər olarsan.

Arzularım boğuboğulubdur bələkdə,
Kimə çəkdin bu hiylədə,kələkdə.
Ömür boyu ələnirik ələkdə,
Yaxşı gedir tez dünyadan,pis qalır.
Dağ üstündə duman qalır,sis qalır.

Sözüm yoxdur daha zalım fələyə,
Saldı məni bu duzağa,tələyə.
Xeyri yoxdur lap dönsən də mələyə,
Əzabını,əziyyətini bilirəm.
Qəlbindəki niyyətini bilirəm.

Ildırım gecənin bağrını yarır,
Qəlbimi bir qorxu,həyəcan sarır.
Xəyalım gör məni hara aparır,
Bacarırsan,kitab kimi oxu sən,
Sətirlərin azı mənəm,çoxu sən.

Yollar birləşir bax,gör nə qəribə,
Biri şərqə gedir,birisi qərbə.
Yolunu itirmiş yazıq qəribə,
Doğma şəhərimdə oxşayıram mən.
Dörd yol ayrıcında yaşayıram mən.

Sən ki qəlbi çox kövrəksən,incəsən.
Vüsalını qoymusanmı dincə sən.
Niyə etdin bu zülmü Sevincə sən.
Bil sən.bu günahı Allah götürməz,
Bu amanı,ahı vallah götürməz.

Sevinc Arzulu

**Götürüb**

Düzü derviş edirler,
Pise verdiş edirler.
Hey sitayiş edirler,
Dünyanı büt götürüb.

Yalanları danmazlar,
Yaxşını şah sanmazlar.
Anlamazlar,qanmazlar
Dünyanı küt götürüb.

Elmle döyünmezler,
Savadla öyünmezler.
Eyne libas geymezler,
Dünyanı lüt götürüb.

Sevinc Arzulu

**Götürün beni**

Gündüzler güneşi yanar eyleyin,
Geceler ulduzu fener eyleyin.
Söhbetin elinden kenar eyleyin,
Sözünse yurdunda itirin beni.

Etirli keçibdir baharım,yazım.
Gelib quşlar kimi şirin avazım.
Tikanlı dağ-dere neyime lazım
Laleli çemende bitirin beni.

Istedim doyunca elimde tutam,
Bir anda soldu bax benim gül butam.
Indi hardasınız,ay anam,atam,
Yeniden dünyaya getirin beni.

Kimseye olmadı qelb sirrim agah,
Bu nece tesnifdir,bu nece desgah.
Könlümün siminde çalınar segah,
Muğamat üstünde götürün beni.

Haqqımı hemişe nadanlar yeyib,
Bu qeder haqsızlıq bence,çox eyib.
Hereniz birce bend şerimi deyib,
Dostlar,son menzile ötürün beni.

Sevinc Arzulu

**Göy çemeni**

Düşmen her vaxt geysin qara,
Düşsün çetinliye,dara.
Neden qaldı namerd xara,
Hey çağırır Göyçe beni.

Qulağına gelecek hay,
"Olanları ötenden say".
Geceyarı çıxacaq ay,
Nurladacaq Göy çemeni.

Qüsse yatar qara nurda,
Keder vardır "Segah","Şur"da.
Yaman darıxıram burda,
Gedek gezek göy çemeni.

Sevinc Arzulu

**Göy damar**

Bu dünyadan alamayıb kamını,
Onunçun da suçlu bilir hamını.
Fələk yaxşı qırlamayıb damını,
Narın yağan yağışdan da göy damar.

Nakam qəlbin xatirinə söz dəyər,
Soyuq könlün buz qatına köz dəyər.
Hey qorxurdun gül simana göz dəyər,
Ağ əlinin gözmuncuğu göy damar.

Hicran bağı bilsən necə bəhərli,
Ala gözüm ayrılıqdan qəhərli.
Indi mənim dörd bir yanım zəhərli,
Sağda ilan, solda ilan, göydə mar.

Sevinc Arzulu

**Göy kişneyer**

Səni əldən alan qismət,
Sonda razı qalan qismət,
Hamıya yar olan qismət,
Mənçün tərsə hey işləyər.

Qurar min bir hiylə-kələk,
Görüşünə nədən gələk.
Başım üstdə zalım fələk,
Əldə ölüm-mey, dinşəyər.

El danışar qüdrətindən,
Nur süzülər xilqətindən.
Yerə olan həsrətindən,
Ağlar-ağlar göy, kişnəyər.

Sevinc Arzulu

**Göy qurşağı**

Bu musiqi gününüdə,
Həzinlik var ünüündə.
Gözlərimin önündə
Səslənib göy qurşağı.

Lalələrim xallanıb,
Jalələrim ballanıb.
Yanaqları allanıb,
Süslənib göy qurşağı.

Yer səmaya baxmayır,
Səma ulduz taxmayır.
Ildırım da çaxmayır,
Hirslənib göy qurşağı.
22.02.2015

Sevinc Arzulu

**Göy sinemi**

Aramızda çəpər ola,
Adlamağa təpər ola.
Qəm önündə sipər olar,
İncimərəm, gey sinəmi.

Bu baltanın sapı kimin,
Bu dəlinin gapı kimin.
Dərdə bağlı qapı kimi,
Istəyirsən döy sinəmi.

Məndə yalqız qalan hal var?
Qəm çayında tənha sal var.
Ürəyimdə qara xal var,
Yandırıbdır göy sinəmi.
17.6.2014

Sevinc Arzulu

**Göy Üzünden**

Açıb sabahlarını,
Görüb pənahlarını,
Sevib günahlarını.
Asıldım göy üzündən.

Vüsal şirin yatmazdı,
Həsrət zərbə atmazdı.
Yerdə gücü çatmazdı,
Basıldım göy üzündən.

Çəmən boyu lalələr,
Qaralan xatirələr.
Nələr gördüm, ah,nələr
Sarsıldım göy üzündən.
04.06.2018

Sevinc Arzulu

**Göyem**

Uzaq, tənha adan olum,
Ayrılığı dadan olum.
Bir körpəcə fidan olum,
Məni yenidən göyərt.

"Şur"olum, "Segah"olum,
Dünyaya agah olum.
Ölüm, bəyaz ruh olum,
Qaldır sən məni göyə.

Qəm-kədəri ata yer,
Rahatcana yata yer.
Sən amansız AtaYer,
Mən qəlbi yumşaq Göyəm.

Sevinc Arzulu

**Göyerçin kimi**

Fərəhdən ürəyim dağa dönübdür,
Həsrətin kədərli nuru sönübdür.
Allahım, könlümə sevgi qonubdur,
Yurd-yuva arayan göyərçin kimi.

Ruhuma sarılır zaman küləyi,
Gəlişi könlümə daman küləyi.
Ərköyün etmisən yaman küləyi,
Qapımı döyür bax, ağ elçin kimi.

Işıqlı xəyala dalıb aparır,
Yoluma al xalı salıb aparır.
Qəlbimin acısın alıb aparır.
Qar yağır başıma hey əlçin kimi.
20.04.2015

Sevinc Arzulu

**Göyermez**

Sevən qəlbi aldatmaq böyük günah,
Haqsızın cəzasın verəcək Allah.
Gah ağlayar, gah da çəkər min bir ah,
Qaralar könlümün başı , göyərməz.
Bu dünyanın qara daşı göyərməz.

Ovulmaz qəlb evim, gülüm, kəc deyil,
Sən sevə bilmədin məni, guc deyil.
Hər işi öyrənmək heç vaxt gec deyil,
Yayda ağac əkər naşı , göyərməz.
Bu dünyanın qara daşı göyərməz.

Unudub səsinin qəm ahəngini,
Həsrətlə gözlərəm hərdən zəngini.
Dəyişməz heç zaman doğma rəngini,
Üzüyümün yaşıl qaşı göyərməz.
Bu dünyanın qara daşı göyərməz.

Sevinc Arzulu

**Göyertesinde**

Gülüm, estafeti yaş-yaşa verir,
Ağırlıq gücünü daş daşa verir.
Yenə də dalğalar baş-başa verib,
Ayrılıq zalımın göyərtəsində.

Hicranın  güzgüsün gecə silməyim,
Qəfil gəlişini vecə bilməyim.
Necə sevinməyim, necə gülməyim,
Istəkli dostların əhatəsində.

Vədləri keçmişi andıracaqsa,
Yaxşını yamana dandıracaqsa.
Indi vüsal məni qandıracaqsa,
Yaman yandıracaq gün ertəsində.
18.12.2018

Sevinc Arzulu

**Göyneyir**

Sevine bilmerem qefil yağışdan,
Bizi uzaq etdi elvan naxışdan.
Deyişik salmışam men ilk baxışdan,
Ayrılıq vüsala verib köyneyin.

Qaranlıq semadan nur asımı var,
Tez söndü ulduzlar, bir yasımı var,
Göresen şerikli mirasımı var,
Eh, böle bilmeyir yerle göy neyi?

Hesret öz kamını alınca qaçıb,
Araya qan-qada salınca qaçıb.
Ferehim kederin dalınca qaçıb,
Içimde sevincin yeri göyneyir.
03.04.2018

Sevinc Arzulu

**Göz aça bilmir**

Neden felek ondan şükrün kem edir,
Duasın,alqışın,zikrin kem edir.
Neçe yol çalışıb fikrin cem edir,
Könül duyğuları söz saça bilmir.

Doğma diyarından qovulacaqdır,
Külekle birlikde sovulacaqdır.
Küle dönenedek qovrulacaqdır,
Alışan ocaqdan köz qaça bilmir.

Qüdretin yozulmaz bir ana dönüb,
Xisletin çözülmez virana dönüb.
Hesretin dözülmez tirana dönüb,
Vüsal qorxusundan göz aça bilmir.

Sevinc Arzulu

**Göz dikibdir**

Yenə fikrə dalmısan sən, a dünya.
Qəmdən körpü salmısan sən, a dünya.
Gör nə günə qalmısan sən, a dünya,
Qartalın yerinə sar göz dikibdir.

Sökülübdür bu xalının ilməsi,
Qışa qaldı qarın qonaq gəlməsi.
Mənasızdır hər sözü, hər kəlməsi,
Bülbülün yerinə xar göz dikibdir.

Bağda gül əvəzi ot, qanqal əkər,
Dünyanı rəsmində baş-ayaq çəkər.
Elə ilk kəlmədən zəhərin tökər,
Insanın yerinə mar göz dikibdir.

Sevinc Arzulu

**Göz göre-göre**

Bir daha sezməzsən gulüm,məni də,
Dağlara tül olan duman, çəni də.
Günlərin birində nədən səni də,
Əlimdən aldılar göz görə-görə.

Fələyin işini tərsinə burdum,
Tək sənin qəlbində yurd-yuva qurdum.
Mən necə dayandım,mən necə durdum,
O lal baxışlarda söz görə-görə.

Ay Sevinc,gəl dayan qaya tək mətin,
Bilirsən, ayrılıq çətindən çətin.
Bu sənin taleyin,sənin qismətin,
Həsrətin zülmünə döz görə-görə.

Sevinc Arzulu

**Göz göresi**

GÖZ  GÖRESİ

Könül yaram sızıldayar,
Dil-dodağım mızıldayar.
Barmaqlarım gizildeyer,
Hele neçe söz höresi.

Dar günümde sıxdıqlarım,
Döyüşdece yıxdıqlarım.
Min zülümle yığdıqlarım,
Elden gedir göz göresi.

Ol Güneşin al zeriyik,
Yer üzünü gezeriyik.
Ezizim, biz Azeriyik
Her kesenin öz töresi.

Sevinc Arzulu

**Göz görsi**

Könül yaram sızıldayar,
Dil-dodağım mızıldayar.
Barmaqlarım gizildəyər,
Hələ neçə söz hörəsi.

Dar günümdə sıxdıqlarım,
Döyüşdəcə yıxdıqlarım.
Min zülümlə yığdıqlarım,
Əldən gedir göz görəsi.

Ol Günəşin al zəriyik,
Yer üzünü gəzəriyik.
Əzizim,biz Azəriyik
Hər kəsənin öz törəsi.

Sevinc Arzulu

**Göz muncuğu**

Su qayadan süzülübdür,
Gül budaqdan üzülübdür.
İpək sapa düzülübdür,
Ürəyimin söz muncuğu.

Kür Arazla yarışır bax,
Sonda sular qarışır bax.
Tək özünə yaraşır bax,
Hər insanın öz muncuğu.

Fələk vəslin işin əyir,
Heç görməzsən ondan xeyir.
Gülüm,sənə tez göz dəyir,
As üstündən göz muncuğu.

Sevinc Arzulu

**Göz olmuşam**

Otluq şirin mürgü yeri,
Qürbət uzaq sürgün yeri.
Dönəcəksən bir gün geri,
Mən ki səndən söz almışam.

Aşiq sevgisin danacaq.
Mə`şuqsa onu anacaq.
Qəlb tonqalı hey yanacaq,
Atəşindən köz almışam.

Eşq vüsalı sınayacaq,
Dər kədəri qınayacaq.
Həsərt,hicran cırnayacaq.
Üstlərində göz olmuşam.

Sevinc Arzulu

**Göz yaraşığı**

Yox olmur insanın heç qayğıları,
Gün-gündən azalır bal uyğuları.
Hər sevən insanın öz duyğuları,
Hər gülün-çiçəyin öz yaraşığı.

Anlayaq,əzizim, bu həqiqəti,
Insan qocaldıqca umur diqqəti.
Alimin elmdir əsl ziynəti,
Şairin, nasirin söz yaraşığı.

Qızıldan tökülər sevgi heykəli,
Qiymətdən düşməz ki almazın-ləli,
Heyranı olduğun nazlı gözəlin,
Bəzəkli simada göz yaraşığı.
25.01.2015

Sevinc Arzulu

**Göz yaşım**

Yaranıb xilqetin bir zerresinden,
Qapqara dünyanın qoynuna düşdüm.
Yorulub hesretin menzeresinden,
Amansız feleyin oynuna düşdüm.

Axır öz-özüne axır göz yaşım,
Almazdan qaş-daş da taxır göz yaşım.
Özümü yandırmaq besi deyilmiş,
Göreni ateşe yaxır göz yaşım.
21.04.2018

Sevinc Arzulu

**Göz yaşlarım**

Hey dalaşar qədər ilə,
Çaxıb gedər göz yaşlarım.
Dost-tanışa kədər ilə,
Baxıb gedər göz yaşlarım.

Yuvasından üzülər hey,
Muncuq kimi düzülər hey,
Gözlərimdən süzülər hey,
Baxıb gedər göz yaşlarım.

Könül dərdlə solan çağı,
Qəm əridər bəyaz dağı.
Boynuma duz boyunbağı,
Taxıb gedər göz yaşlarım.

Sevinc Arzulu

**Göz yaşlarıma**

Dumanım tək,çənim tək,
Durma eşqə qənim tək.
Gülüm,sən də mənim tək,
Bələn göz yaşlarıma.

Açdın gül kolu kimi,
Qalxdın dağ yolu kimi.
Sən göydən dolu kimi,
Ələn göz yaşlarıma.

Sonu var dözümün ki,
Cüt bulaq gözümünkü.
Dərdimi özününkü,
Bilən göz yaşlarıma.

Çətində haya yetən,
Özü içində itən.
Heykəl qoyun mənlə tən,
Ölən göz yaşlarıma.

Sevinc Arzulu

**Gözel duyğular**

Nə qədər ki uşaq idi,kiçik idi nə qədər,
Arzuları ürəyində mışıl-mışıl yatmışdı.
Asimana çatan ürək bəxş etmiş ona qədər,
Röyalarda ümidlərin gül ətrinə batmışdı.

Yuxularda buludların üstü ilə uçardı,
Zirvələrə hakim olan bir qartala dönərdi.
Kainatı əzizləyib mehribanca qucardı,
Günəş tək işıq saçsa da nuru çətin sönərdi.

Gələcəyi göz önündə canlanardı kitab tək,
Özü də heyran qalardı belə gözəl yozuma.
Üz tutuban Allahına söyləyərdi xitab tək,
"Tanrım,çatdır hər vaxt məni istəyimə,arzuma".

Ağ xalatlı həkim kimi görərdi o özünü,
Əlləriylə verəcəkdi xəstə insana şəfa.
Sonda tale deyəcəkdir öz qiymətli sözünü,
Görəcəkdi ağ bəxtindən əhdə etibr,vəfa.

Əgər düşsə çətinliyə,bilir Zərifə xanım
Köməyinə çatacaqdır həm atası,qardaşı.
Qabaqlaya bilməyir ki insan gələn zamanı,
Kim olacaq görən onun uzaq yolda sirdaşı.

Hər bir qadın istəyər ki gələcək ömr yoldaşı,
Olsun igid kimi cəsur,olsun kişi tək mətin.
Insan bəzən ağır günlə,şad günlə də yollaşır,
Bu həyatın dolanbacı keşməkeşli,çox çətin.

Öz-özünə sual verir-"Kim olacaq sadiq ər,
Mənim ilə yaşayacaq xoşbəxt ömür uzunu.
Aman Allah,kimdir görən aradığım bəxtəvər".
Birdən dondu.Xatırladı bir gəncin mərd üzünü.

Min bir sual oxuyurdu gizlin baxan baxışdan,
O gözlərdən gözlərinə atəş yaman gur yağdı.
O qoruna bilmədi ki sevgi adlı yağışdan,
Ürəyinə işıq yağdı,ürəyinə nur yağdı.

Iki gəncin məhəbbəti ülvi idi,təmizdi
Bu sevdanın saflığına dostlar heyran qalardı.
Arzuları,ümidləri ləpələnən dənizdi,
Bir ürəkdə döyünərək xoş xəyala dalardı.

Toy etdilər.Özləri tək sadə və təmtəraqsız,
Onlar üçün şadlıq dolu toy mağarı quruldu.
Aç onların ömr kitabın,oxu böyük maraqla.,
Həyatları Kür-Araz tək birləşərək duruldu.

Ailə də müqəddəsdir,peşəsi də müqəddəs,
Müqəddəs bir qadın-ana obrazıydı Zərifə.

Kədəri də müqəddəsdir,nəşəsi də müqəddəs,
Qismətindən,taleyindən çox razıydı Zərifə.

Alim kimi həkimlərin içində çox hörməti,
Ana təki keşiyində dudurdu cüt balanın.
Bilirdilər ki dost bilir hər zaman həqiqəti,
Əsla yaxın qoymaz idi,düşməniydi yalanın.

Heç vaxt qalxan eyləməzdi ərinin vəzifəsin,
Öz işiylə,öz gücüylə məşğul olardı xanım.
Ailənin üstündəydi daim isti nəfəsi,
Quş illəri yola salıb yaşa dolardı xanım.

Gözlərinin işığıydı Sevili və İlhamı,
Gecələri yatmasa da səhər erkən durardı.
Onun belə dözümünə heyran qalardı hamı,
Yorulsa da gülüşüylə yeni dünya qurardı.

Sevərdi o uşaqların,hər qayğısın çəkərdi,
Çalışardı ömür sürmək onlarçun asan olsun.
Uşaqların ürəyində nur toxumu əkərdi,
Istəyərdi övladları layiqli insan olsun.

Ağ qırçınlı göy sularda üzdü xəyal gəmisi,
Kapitana tapınaraq üz tutdu uzaqlara.
Bir gün gördü yetişibdir ülvi istək zəmisi,
Yaxşı günlər arzuladı dünənki uşaqlara.

Bir gün göz açıb gördü ki Sevili də həkimdir,
Anası tək müqəddəs  işin ucundan tutub.
Bu taleyin diqtəsiylə verilən bir hökmdür,
Ürəyinə təpər gəlib,dərdi-qəmi unudub.

O qadındır,qəlbən bağlı gur işıqlı evinə,
O,alimdir: əsərləri  kitab-kitab yazılıb.
O,anadır: övladların uğuruna sevinən,
Gördüyü xoş uyğuları avandına yozulub.

Illər keçdi.İlhamı da göz önündə böyüdü,
Rusiyada oxuyaraq başa vurdu təhsilin.
Qulağında cingildəyər ata,ana öyüdü,
Yalnız Vətən sevgisinə köklənərdi qəlb simi.

Bu cür gözəl uşaqları olan necə sevinməz,
Fəxr etməyə,öyünməyə dəyər Zərifə xanım.
Günəşin al şəfəqinə yalnız gecə sevinməz,
Qəbrin üstdə xalq başını əyər,Zərifə xanım.

Bir-birinin arxasınca iki toy da etdiniz,
Gözləriniz yaşla doldu çalınanda “Vağzalı”.
Qayınana olmaq kimi murada da yetdiniz,
Sən demə xoşbəxtliyin hələ gəlirmiş dalı.

Atalar hər məsəli yer-yerində,saz deyib,
Köçəri ərəblərin var-dövləti dəvədir.
Şükür,bizim varımız,dövlətimiz az deyil
Baba üçün,nənəyçün ən qiymətli nəvədir.

Nur bəxş edər dünyaya gözəl-göyçək nəvələr.
Ah,necə müqəddəsdir bu sevincin duyğusu.
Öz şirin sözləriylə əzizləyər nənələr,
Bir şikayət eyləməz,əsirgəməz qayğısın.

Bir gün yeni vəzifə verdilər yoldaşına,
Uzaq Rusiyada da tək qoymadın sən onu.
Vətən eşqi köçmüşdü sənin qan yaddaşına,
Qürbətdə haqq dünyana qovuşmaq oldu sonun.

O soyuq məzarını isitsə də əzizlər,
Ruhun Vətən göyündə qanad çalardı daim.
Bilirdin Azərbaycan sənin yolunu gözlər,
Bir gün döndün elinə.oldun əbədi sakin.

Əbədiyyət evində yerin ol behişt olsun,
Necə də narahatdır dalğın baxan gözlərin.
Anasan,istəməzsən oğullar şəhid olsun,
Yalnız mən eşidirdim pıçıldanan sözləri.

"Insanlar,qoy sülh ilə alınsın torpaq geri,
Oğlumun köməyiylə bitər ağrı-acımız.
Könüldə el həsrəti,qəlbdə Qarabağ yeri,
Şuşamızda parlasın bizim zəfər tacımız".

Arxayın ol,ay Ana,bütövləşər Vətənim
Müharibə qurtarar,zəfər marşı çalınar.
Xatırlanar şəhidim,iz-soraqsız itənim,
Faşıst ermənilərdən qisasımız alınar.

Yolumuzu gözləyir qədim Şuşa qalası,
Üçrəngli bayrağımız zirvəsində ucalar.
Qədirbilməz xainlər ölümə yol salası,
Neçə-neçə igidim düşmənlərdən öc alar.

Məhz o Qələbə günü gəlib qəbriniz üstə,
Sizə raport verəcəm Azərbaycan adından.
Iftixarla baxaraq qoşa ucalan büstə,
Sizə də pay düşəcək könüllərin odundan.

Sevinc Arzulu

**Gözele**

Şıltaq xatirələr qapımı döyür,
Gah da pəncərədən girir gizlicə.
Hərəsi bir yandan özünü öyür,
Qəlbimin kodunu qırır gizlicə.

Ilk dəfə sənlnlə tanış olanda,
Yavaşca adını söylədin:Gözəl.
Məktəbdə riyazi yarış olanda,
Yazımız gəzirdi bizim əlbəəl.

Gör neçə il keçib o xoş günlərdən,
Indi ikimiz də artıq nənəyik.
Həmişə görüşək toy-düyünlərdə,
Biz artıq keçilmiş bir ənənəyik.

Daha çətinliklər geridə qalıb,
Xoş ömür sürürük ailəmizlə.
Susqun xatirələr bəridə qalıb,
Sevinc, fərəh olsun ailəmizdə.

Çox gedib çıxmışam Bakıxanova,
Sən də bir bizlərə tərəf gəl, bacı.
Bizsiz darıxırmı görən el-oba,
Məsafə olmaz heç əngəl, bacı.
10.10.2017

Sevinc Arzulu

**Gözelim qezel**

Gecələr sübhə kimi yatmayıram,dünya bilir,
Səni mən tək saf ürəkdən sevən olmaz,gözəlim.
Duruban başım üstdə ilham pərim,gözüm silir,
Həsrəti-ayrılıqdan gözlərim dolmaz,gözəlim?!

Özü tək alışdırıb odlara çatmasa məni,
Şəklimi rəsm edərək qəlbinə yapmasa məni,
Gəzib bu yer üzünü axtarıb tapmasa məni,
Dönübən lal söyüdə telini yolmaz gözəlim?!

Intiqam hissi ölməz düşmənindən öc alsan da,
Özünü ağır apar lap göylərə ucalsan da.
Saçların tökülsə də, üz qırışıb qocalsan da,
Gözünün gözəlliyi heç zaman solmaz,gözəlim.

Yaşadır yaddaşında neçə gözəl anı dünya,
Pis ilə yaxşını seç,dost-düşməni tanı dünya.
Padşahi-Süleymana qalmayan bu fani dünya,
Onu bil ki nə sənə,nə mənə qalmaz, gözəlim.

Ah,bir gün görməyəndə necə görünür yeri,
Deyirəm nə olaydı,dönəydi o günlər geri.
Bəyənməyir nə məni,nə yazdığım qəzəl-şe`ri,
Mənim tək boş-boşuna xəyala dalmaz gözəlim.

Sevinc Arzulu

**Gözle qaş  arasnda**

Tebiet nece de ürek sıxmasın?
Meşenin evini insan yıxmasın.
Tüstüsü zirveye çıxsın, çıxmasın
Qalmışam quruyla yaş arasında.

Beledir dünyanın dövri-gerdişi,
Yaxşını şerlemek pisin verdişi.
Ne bilmek olar ki dünyanın işin,
Eh, ölüm göz ile qaş arasında.

Güneş nuru düşmez zülmət kahaya,
Hesretin zerresi geler bahaya.
Ayrılıq dönmeye şaxta babaya,
Donub da  qalmaya kaş arasında.
13.09.2018.

Sevinc Arzulu

**Gözle, gülüm**

İlk məhəbbət qumar deyil,
Hər sığal saf tumar deyil.
Vüsal yolu hamar deyil,
Yolumuzu düzlə, gülüm.

Dərdlə dolu künc-bucağım,
Mən tək qəmli olacağım.
Getdin, söndü od-ocağım,
Yanmaz soyuq közlə, gülüm.

Boş xülyadan böyüdü şər,
Qəbul etməz öyüdü şər
Bir gün yəqin sizdən düşər,
Sən yolumu gözlə, gülüm.

Sevinc Arzulu

**Gözlerem**

Ey könül hissleri, azca qarışın,
Heyata keçmekçün ancaq yarışın.
Saçımın biri ağ, biri sarışın
Yolunu ölünce gözlerem senin.

Bir gün görüşerik, felek yar olsa,
Ayrılıq daşlanıb elde xar olsa,
Eger yağış yağsa, eger qar olsa
Könlümün  içinde gizlerem seni.

Hesretin plovu çekili qalar,
Gözümde gözünün şekili qalar.
Ele hey yoluna dikili qalar,
Geceli-gündüzlü izlerem seni.

Sevinc Arzulu

**Gözlerem  seni**

Ey könül hissleri,azca qarışın,
Heyata keçmekçün ancaq yarışın.
Saçımın biri ağ,biri sarışın
Yolunu ölünce gözlerem senin.

Bir gün görüşerik,felek yar olsa,
Ayrılıq daşlanıb elde xar olsa,
Eger yağış yağsa,eger qar olsa
Könlümün  içinde gizlerem seni.

Hesretin plovu çekili qalar,
Gözümde gözünün şekili qalar.
Ele hey yoluna dikili qalar,
Geceli-gündüzlü izlerem seni.

Sevinc Arzulu

**Gözlerim**

Küskün-küskün nə baxırsan,
Hey çəkirsən yol, gözlərim.
Çaylar kimi nə axırsan,
Bulud kimi dol, gözlərim.

Acı sözlə deyişmə heç,
Rəqib gözlə döyüşmə heç.
Odu közlə dəyişmə heç,
Özün kimi ol, gözlərim.

Mavi səma uca,əngin
Könül varlı, xəyal zəngin.
Azalmasın yaşıl rəngin,
Nurun olsun bol, gözlərim.

Sevinc Arzulu

**Gözlerim üstde**

Bilirəm, ruh üçün nə gündüz, gecə
Boran da . şaxta da gəlməyir vecə.
Başını söykəyib astaca necə,
Xatirən ağlayır dizlərim üstdə.

Yaralı könlümü çiskin sıxıbdır,
Könlümün evini həsrət yıxıbdır.
Daha görüş yeri yaddan çıxıbdır,
Ot-qanqal bitibdir izlərim üstdə.

Kimsəyə göstərmə, yarəb, təkliyi
Ovçuya tuş etmə gözəl kəkliyi.
Əıimdə tutduğum gülər şəklini,
Öpüb də qoyuram gözlərim üstdə.
04.05.2015

Sevinc Arzulu

**Gözlerimden**

Gülüm, mavi bulud kimi,
Yağış yağar gözlərimdən.
Ən sonuncu ümid kimi,
Şimşək çaxar gözlərimdən.

Dar gündə şeir yaraq olar,
Qəm çölündə oraq olar,
Sənsiz bir cüt bulaq olar,
Qan, su axar gözlərimdən.

Şərbət olar bal yerinə,
Ləkə üzdə xal yerinə.
Görürsən, vüsal yerinə,
Hicran baxar gözlərimdən.

Sevinc Arzulu

**Gözlerime baxma**

Gözerime baxma, gülüm
Bir az nemdi, bir az qemdi.
Üreyime boylan, gülüm
Bir bax, orda ne alemdi.
Bülbül oxur, sevgisinden
ceh-ceh çekir,
Qızılgüller sevincinden
qeh-qeh çekir.
Qaynayır şeir bulağı,
Yaşıllaşır eşq budağı.
Külek yoxdur, sirin meh var.
Par-par yanan inceşeh var.
Qanad açır duyğularım,
Şenlik edir uyğularım.
Yaddan çıxıb qocalığım,
Zirvededir ucalığım.
Benövşeler deste -deste ,
Sepilibdir yolum üste .
Güne. parlaq şöle saçar.
Derdi-bela uzaq qaçar.
Ne olsun ki son baharsan,
Üreyimde daim varsan.

Sevinc Arzulu

**Gözlerinde**

Səninlə son dəfə görüşən zaman,
Nələri kəşf etdim, nələri.Aman.
Istilik axtardım, üşüdüm yaman,
Elə bil yağıbdır qar gözlərində.

Günəş nur əvəzi nəm saçır nədən,
Vüsalın al gülü kəm aşır nədən.
Fərəh yaxın gəlir, həm qaçır nədən
Deyəsən gizlənib xar gözlərində.

Qədimdən qədimdir sevginin yaşı,
Məni anlayamaz hər bədbəxt naşı.
Ayrılıq yükünü çiynində daşı,
Hicranın kədəri var gözlərində.

Qaranlıq səmada ildırım çaxır,
Yeri də, göyü də yandırıb yaxır.
Gülərdi əvvəllər, somsoyuq baxır,
Deyən məskən salıb mar gözlərində.

Həsrətdən əriyib gözümün yağı,
Seçə də bilmirəm qaranı-ağı.
Heyf, çox tez keçdi cavanlıq çağı,
Nələr oxuyardım yar, gözlərindən.
25.01.2015

Sevinc Arzulu

**Gözleyir beni**

Nedendendir, görende şirin dindirir,
Güneşi, ayı da göyden endirir.
Gelenden-gedenden xeber gönderir,
Bu payız yamanca gözleyir beni.

Deyirdim, daş üstde bir daşım olsun,
Lal könlüm açılmaz sirr daşım olsun.
Isteyir en yaxın sirdaşım olsun,
Hey axan zamanca özleyir beni.

Yaxşının evini bedesil yıxır,
Ele bil düşmenden heyfini çıxır.
Sıxır üreyimi, birbaşa sıxır,
Derd notlu kamanca közleyir beni.

Sevinc Arzulu

**Gözleyirem**

Məni yalan söz tutub,
Sanma yaram köz tutub.
Qiblə tərəf üz tutub,
Ölümü gözləyirəm.

Sanırdım qəm qaçacq,
Fərəh işıq saçacaq.
Yə`qin bir gün açacaq,
Gülümü gözləyirəm.

Sevgimi necə danım,
Damarda donar qanım.
Ürəyim göydə yanıb,
Külümü gözləyirəm.

Sevinc Arzulu

**Gözucu baxdım**

Büründün ayrılıq kürkünə, gülüm,
"Yox"dedin olası mümkünə, gülüm.
Dünyanın bütün mal –mülkünə, gülüm,
Sənin yoxluğunda gözucu baxdım.

Gül ilə bülbülün ilk təmasından,
Məhəbbət  oxunar nur simasından.
Qaranlıq gecənin yaz səmasında,
Tufandan qorxaraq közucu  çaxdım.

Yenə bahar qızı yaşıl geyinər,
Qoca qış uzaqdan baxıb deyinər.
Vəslin ürəyinin dərinliyinə,
Deyəsən, əzizim, sözucu axdım.
16.10.2018

Sevinc Arzulu

**Gözü  yaşlı xatire**

Tökür göz yaşını xatirələrin,
Ən gözəl ağı da kiridə bilmir.
Atıb söz daşını xatirələrin,
Dənizə düşəni dirildə bilmir.

Soyuyub qapqaynar xatirələrin,
Közərmiş könlümə qısılıb yatır.
Bir zaman şən, oynaq xatirələrin,
Ayrılıq zalıma basılıb yatır.
30.04.2018

Sevinc Arzulu

**Gözü tökülmüş**

Yaxşılar içinde ad olacaqdır,
Pisliye hemişe yad olacaqdır.
Deyesen dünyanı od alacaqdır,
Çinar meşesine közü tökülmüş.

Xeyalın sehrine batıb da gedir,
Qemine bal fereh qatıb da gedir.
Addımın yavaşca atıb da gedir,
Ayaqlar altına sözü tökülmüş.

Her saçı uzuna melek demeyir,
Şirin zarafata kelek demeyir.
Niye yar dediyin felek demeyir,
Hanı o ayrılıq,gözü tökülmüş.

Sevinc Arzulu

**Gözü yaşıl gozel**

Dönüb keçmişine boylanan gözel,
Orda ne görürsen qemden savayı.
Göz yaşı içinde aylanan gözel,
Sesin nece çıxar bemden savayı.

Gündüzler güneşin pasibanısan,
Geceler ulduzlar möhtacın olur.
Sen fani dünyanın qeribanısan,
Sevginin vüsalı baş tacın olur.

İndi ne axtarıb ne itirirsen,
Ötenler geriye qayıtmaz daha.
Qızılgül içinde xar bitirirsen,
Xatire tebessüm oyatmaz daha.

Sevinc Arzulu

**Gözü yoldamı**

Gece işığını söndürüb gedir,
Bes güneş nurunu haradan alır?
Mehebbet üreyi dindirib gedir,
Nedendir rengini qaradan alır.

Alın yazısıyla razılaşıram,
Alnımdan torpağa ele yol damır.
Sefere çıxmağa hazırlaşıram,
Gören gözlerinin gözü yoldamı?
21.04.2018

Sevinc Arzulu

**Gözüm ağrıyır**

Bürünür yalan ətrinə,
Sürünür talan çətrinə,
Xalalarının xətrinə,
Öyəndə sözüm ağrıyır.

Birrəng, qara naxışıyla,
Aldadıcı yağışıyla,
Məni məkr baxışıyla,
Döyəndə dözüm ağrıyır.

Yolum uzun, gedirəm ki,
Tozu yola yedirəm ki.
Elə nifrət edirəm ki,
Görəndə gözüm ağrıyır.

Sevinc Arzulu

**Gözümün işığı, qayıt**

Heç sadiq olmadı sənə cavanlıq,
Qayıt, dön nə olar lap bircə anlıq.
Bu dünya gözümdə zülmət, qaranlıq
Qayıt, gözlərimin işığı, qayıt.
Yatmış xatirəni yuxudan ayılt.

Isti yay günün sərin havası,
Yaralı qəlbimin dərman-davası.
Heç vaxt  boş qalmasın insan yuvası,
Qayıt, gözlərimin işığı, qayıt.
Yatmış xatirəni yuxudan ayılt.

Gör neçə müddətdir sənə həsrətəm,
Özüm özlüyümdə dərdəm, möhnətəm.
Mən tuncdan tökülmüş saf məhəbbətəm,
Qayıt, gözlərimin işığı, qayıt.
Yatmış xatirəni yuxudan ayılt.
28/12/2012

Sevinc Arzulu

**Gözün aydın**

Yerdən göyə hərb körpüsü salınsın,
Tezlik ilə torpaq geri alınsın.
Qarabağda zəfər marşı çalınsın,
Fərəh dolu şeir yazım yenə mən.
Deyəm-”Gozün aydın olsun,ay Vətən”.

Batmasın bir damla şəhid qanı da,
Onlardır vətənin şöhrət-şanı da.
Gözlərik həsrətlə gözəl anı da,
Qovuşaq o doğma yurda yenidən,
Deyəm-”Gozün aydın olsun,ay Vətən”.

Yox dünyada diyarımın bənzəri,
Üstümüzdə olsun Allah nəzəri.
Seyr eyləyək gur işıqlı Xəzəri,
Üstünü almasın daha duman,çən.
Deyəm-”Gozün aydın olsun,ay Vətən”.

Sevinc Arzulu

**Gözün aydın olsun**

Yerden göye herb körpüsü salınsın,
Tezlik ile torpaq geri alınsın.
Qarabağda zefer marşı çalınsın,
Fereh dolu şeir yazım yene men.
Deyem-”Gozün aydın olsun, ay Veten”.

Batmasın bir damla şehid qanı da,
Onlardır vetenin şöhret-şanı da.
Gözlerik hesrtle gözel anı da,
Qovuşaq o doğma yurda yeniden,
Deyem-”Gozün aydın olsun, ay Veten”.

Yox dünyada diyarımın benzeri,
Üstümüzde olsun Allah nezeri.
Seyr eyleyek gur işıqlı Xezeri,
Semanı almasın daha duman,çen.
Deyem-”Gozün aydın olsun,ay Veten”.

Sevinc Arzulu

**Gözün aydın olsun**

Yerden göye herb körpüsü salınsın,
Tezlik ile torpaq geri alınsın.
Qarabağda zefer marşı çalınsın,
Fereh dolu şeir yazım yene men.
Deyem-”Gozün aydın olsun, ay Veten”.

Batmasın bir damla şehid qanı da,
Onlardır vetenin şöhret-şanı da.
Gözlerik hesrtle gözel anı da,
Qovuşaq o doğma yurda yeniden,
Deyem-”Gozün aydın olsun, ay Veten”.

Yox dünyada diyarımın benzeri,
Üstümüzde olsun Allah nezeri.
Seyr eyleye k gur işıqlı Xezeri,
Semanı almasın daha duman,çen.
Deyem-”Gozün aydın olsun,ay Veten”.

Sevinc Arzulu

**Gözün toxmu**

Yenə də yoldadır qəm yüklü qatar,
Kim onun qarşısın saxlayıb tutar.
Sevdiyim insandan vəfa, etibar,
Sədaqət umuram, səncə bu çoxmu?!

Çiskin nə edər ki çənin yanında,
Toxumlar öyünməz dənin yanında.
Ay mənim əzizim. sənin yanında,
Azacıq qədirim, qiymətim yoxmu?!

Həsrətin odunda yandım tək özüm,
Bir daha lışmaz közərən közüm.
Həmizə dövlətə ac olan gözün,
Indi zəifləyib, cörəsən toxmu?!

Sevinc Arzulu

**Guman olacaq**

Demirəm fidan ol, yenidən göyər,
Yer əgər qadınsa, uca göy ər.
Yalan nərdivanla  dırmaşsa göyə,
Həqiqət bir az da uman olacaq.

Yaxşı-pis ayrılıb seçilməyibsə,
Sıldırım yollardan keçilməyibsə,
Andınız ürəkdən içilməyibsə,
Sədaqət dayazda ümman olacaq.

Ayaq izləriniz qalmaz qumsalda,
Azarsız həllolmaz çətin misalda.
Incidib küsdürsəz şirin vüsal da,
Xəyalət olacaq, güman olacaq.
01.12.2017

Sevinc Arzulu

**Gül  eylen**

Neden yene hesret oxur qelb simi,
Xarın yeri,söyle,benden qelbimi.
Ay ezizim,seni seven qelbimi,
Yandırıban kül eyleme,gül eyle.

Igid öler,amma elinden dönmez,
Bembə yaz den qara telinden enmez.
Sevgi  közü hicran yelinden sönmez,
Ayrılıqdan azca danış,gileylen.

Yol geliben yorulmağın tamaşa,
Bexş etdiyin nurdan gözüm qamaşar.
Bilirsinmi sene nece yaraşar,
Ağ  elinde al qırmızı gül,eylen.

Sevinc Arzulu

**Gül açmadı**

Bu dünyanı güzgü bildi,
Iməkləyib tozun sildi.
Məhəbbətim körpə öldü,
Böyüyübən dil açmadı.

Duası yox, alqışı yox
Ürək açan baxışı yox.
Üstündə bir naxışı yox,
Məni qara tül açmadı.

Duyğularım incə idi,
Sevgi hissi öncə idi.
Tumurcuqdu, qönçə idi
Arzularım gül açmadı.

Sevinc Arzulu

**Gül butası**

Gah şad, gah da qəmgin olar,
Göy səması əngin olar.
Rənglər ilə zəngin olar,
Xəyallarım gül butası.

Qəmlə sevinc düz gəlsə də,
Ömrümüzə yüz gəlsə də.
Dünya-aləm düzəlsə də,
Düzəlməz ki dil xatası.

Düşək fərəh sarayına,
Yumşaq telin darayına.
Arzuların harayına,
Neçə-neçə il çatası.

Sevinc Arzulu

**Gül etrine**

Məhəbbətdən nurlanım,
“Segah”lanım, “Şur”lanım.
Burulğan tək fırlanıb,
Bürünüm gül ətrinə.

Yuxuları yozum ki,
Içindəcə azım ki,
Elə şeir yazım ki,
Görünüm tül sətrinə.

Hicri danmaq istərəm,
Səni anmaq istərəm.
Alovlanmaq istərəm,
Sürünüm kül çətrinə.

Sevinc Arzulu

**Gül olmadım**

Dərd sel tək gəlir üstümə,
Baxan yoxdur lal büstümə.
Dünya yığıldı tüstümə,
Ocağında kül olmadım.

Gecə-gündüz əzizləyəm,
Qəlbdən qəmi təmizləyəm.
Səni günəşdən gizləyən
Pəncərəndə tül olmadım.

Inandım sözü göyçəyə,
Sığındım kiçik dibçəyə.
Döndüm sarıtel çiçəyə,
Baxçanda al gül olmadım.

Sevinc Arzulu

**Gül qoxulum**

Kedere uymayıram,
Rengini duymayıram.
Etrinden doymayıram,
Ay menim gül qoxulum.

Göyde lepirin olsun,
Yerdese  pirin olsun.
Yat, yuxun şirin olsun,
Ay menim bal yuxulum.

Yusifdir senin adın,
Sevinsin dostun-yadın.
Gülmeşekerdir dadın,
Ay menim qend-noğulum.

Sevinc Arzulu

**Gül toxumu**

GÜL  TOXUMU

Pencereni miller açsın,
Acı sözlü dilller qaçsın.
Qoy üzüne güller saçsın,
Sepim beyaz gül toxumu.

Duman tülün göyçek serib,
Yalan yerli, gerçek qerib.
Bahar ne çox çiçek derib,
Niye bu yaz gül toxumur.

Sendin  benim bal-çöreyim,
Dar günümde hal-gereyim.
Kederlidir lal üreyim,
Hava ayaz, gül toxunmur.

Sevinc Arzulu

**Güldür meni**

Dərd əlində oyuncağam,
Sanki hissiz oduncağam.
Vaxtsız yanan od-ocağam,
Yağ yağış tək,söndür məni.

Şaxta vurmuş ağ köynəyəm,
Qəm içindəcə göynəyəm.
Yerdə deyiləm,göydəyəm,
Şirin söz de,endir məni.

Yağdı  hicran yağışımız,
Soldu əlvan naxışımız.
Pıçıldaşar baxışımız,
Nolar,bir yol dindir məni

Nə zilim,nə bəmim oldu,
Vüsal ümid gəmim oldu.
Ayrılıq dərd-qəmim oldu,
Öz əlinlə öldür məni.

Gəl gedək üzü günəşə
Bəlkə bəxtə bir gün düşə.
Həsrətəm şirin gülüşə,
Bircə dəfə güldür məni.

Sevinc Arzulu

**Gülem men**

Bu dünyanın nəyi ayrı,nəyi düz.
Yenə sisə bürünübdür çəmən,düz.
Qəbrim üstdə öz əlinlə çiçək düz,
Onda mənim yoxluğumu duyarsan,
Əl-üzünü göz yaşıyla yuyarsan.

Oxşamıram gül üstündə xala mən,
Vurmuşam gah mıxa,gah da nala mən.
Qəlbdə sözüm,dönmüşəm lal-kara mən.
Danışdırma,danışmağa yox halım,
Yaman pisdir mənim keyfim,əhvalım.

Sevinc,dərin xəyallara dalmısan.
Gözəl gəncliyini yada salmısan.
Indi dostlarından geri qalmısan.
Çətin yenə cani-dildən güləm mən,
Xar əlində vaxtsız solan güləm mən.

Sevinc Arzulu

**Gülen, beri**

Ay bu dağın beyaz qarı
Ay igidin gözel yarıı
Bir anlıq bax bize sarı,
El-obanın Gülenberi.

Bext güzgünü toz almasın,
Heyat gülün sozalmasın.
Etrin heç vaxt azalmasın,
Tebietin gül enberi.

Qanadsız uçmaq olmayır,
Gün tek nur saçmaq olmaylr.
Qismetden qaçmaq olmayır,
Dön,taleye gülen,beri.

Sevinc Arzulu

**Gülmeyeceyem**

Əzrail oynayar qəm daşlarıyla,
Insansa fəxr edər lə`l qaşlarıyla.
Bilirəm əzizim,göz yaşlatıyla,
Mən səni qaytara bilməyəcəyəm.

Bu fani dünyada dərd hər zaman var,
Fələk dost yanında etdi məni xar.
Qəbrimi döysə də yağış,külək,qar
Adını ürəkdən silməyəcəyəm.

Sən məni bir axtar,ara təbəssüm,
Görəsən yox oldun hara təbəssüm.
Üzümdə görünər qara təbəssüm,
Ürəkdən danışıb gülməyəcəyəm.

Sevinc Arzulu

**Gülmüşüm,gülüm**

Neden gen dünyamız qeme bürünür,
Fereh dizin-dizin yerde sürünür.
Benim ne çekdiyim içden görünür,
Çölümün közüne tülmüşüm,gülüm.

Hercayi al-elvan düzleri görmez,
Qoşa lepirleri,izleri görmez.
Arayıb gezse de bizleri görmez,
Zülümün gözüne külmüşüm,gülüm.

Bu qeder dost içre tekmişim ki ben,
Özümçün gül-çiçek ekmişim ki ben.
O qeder qehqehe çekmişim ki ben,
Ölümün özüne gülmüşüm,gülüm.

Sevinc Arzulu

**Gülsen**

Gülsən təbəssümüm yelə dönər ki,
Ağlasan göz yaşım selə dönər ki...
Dünya məhvərindən elə dönər ki,
Axtarıb tapmazsan sən orbitini.

Yoluna dikilib hələ də gözüm,
Qurtarmaq bilməyir söhbətim-sözüm.
Alışmaq isttəmir közərən közüm,
Kim verdi mənə bu qəm kibritini.

Təbiət al narı meyxoş edibdir,
Baharın əhvalın hey xoş edibdir.
Ayrılıq özü tək sərxoş edibdir
Hicranla həsrətin dəm hibridini.
09.12.2017

Sevinc Arzulu

**Gülüm, sensizlemişim**

Çənim var, dumanım yox,
Bir görüş umanım yox.
Dönməyə gümanım yox,
Gülüm, sənsizləmişəm.

Allam vecə, çəkirəm,
Gündüz-gecə çəkirəm.
Bilsən necə çəkirəm,
Zülüm, sənsizləmişəm.

Dönəcəm tək qovağa,
Xəzəl olan yarpağa.
Qarışacaq torpağa,
Külüm, sənsizləmişəm.

Sevinc Arzulu

**Gülümse, Allah**

Ayrılıq erköyün, vüsalsa laldır.
Xoşbextlik ilğımdır, şirin xəyaldır.
Nolar, birce defe başını qaldır,
Gülümse üzüme, gülümse,Allah.

Güneş heç Ay ile görüşe bilmir,
Sevirmi, sevmirmi-soruşa bilmir.
Neden yar yarına qovuşa bilmir,
Ayrılıq çekilmez zülümse,Allah.

Geceni özüme pasiban sansam,
Gündüzü severek daima ansam.
Bir gün de hesretden  od tutub yansam,
Denize tökülsün külümse, Allah.

Sevinc Arzulu

**Gülüşü düşüb**

GÜLÜŞÜ  DÜŞÜB

Eyvanın küncüne söykenib durub,
Yene xeyalında min plan qurub.
Baxışı yolları yamanca yorub,
Başından örpeyi sürüşüb, düşüb.

Semada boz duman, çiskin ağlayır,
Gör nece elacsız, miskin ağlayır.
Qalıbdır qelbinde nisgil, ağlayır,
Yadına yarla son görüşü düşüb.

Eh, daha güneş tek gur işıq saçmır,
Dünyanın gedişi könlünü açmır.
Zarafat edirim, dodağı qaçmır,
Torpağa bir parça gülüşü düşüb.
22.08.2013

Sevinc Arzulu

**Gülüzaram**

Qəm şahına vəzirəm,
Qocalığa nəzirəm.
Xatirələr gəzirəm,
Ağsaçlı kargüzaram.

Coşur mavi dənizim,
Silir sahildən izim.
Bir qulaq as, əzizim
Acı giley-güzaram.

Könül dərddən qaralmış,
Xəzəl kimi saralmış.
Gen yollarım daralmış,
Məhv olmuş gülüzaram.

Sevinc Arzulu

**Gülzarı könlümün**

Dərd çəkməyə taqət,amanı yoxdur,
Sevginin yaxşısı ,yamanı yoxdur.
Daha gizlətməyin zamanı yoxdur,
Var həsrət tək bir azarı könlümün.

Tənhalıqda yad eyləyər dənizi,
Qəm-kədərdən solub gözəl bənizi.
Yoxdur ona qurban olan kənizi,
Bağlanıbdır qul bazarı könlümün.

Yeraltı çaylar tək çağlayar gizlin,
Açıq qapıları bağlayar gizlin.
Tökər göz yaşların,ağlayar gizlin,
Eşidilməz ahu-zarı könlümün.

Tükətdilər əsəbimi,səbrimi
Artırıban çox etdilər cəbrimi.
Gözdən uzaq qazın mənim qəbrimi,
Dost qəlbində var məzarı könlümün.

Son günlərin keçiribdir həsrətdə,
Ömrü axıb daim dərddə,möhnətdə.
Qala bilmir daha uzaq qürbətdə,
Düşüb Şirvana güzarı könlümün.

Bağ əkdi,bağında sürmədi səfa,
Yar yolunda çəkdi daima cəfa.
Görmədi kimsədən e`tibar,vəfa,
Çəkilməzdir intizarı könlümün.

Pəncərədən seyr edərək yağışı,
Qulağına gələr ata alqışı.
Sevincəm,tez düşdü ömrün sərt qışı,
Solub gözəl al gülzarı könlümün.

Sevinc Arzulu

**Gümanlar kibi**

Ulduzun parlaqdır,bürcün zernişan,
Düzünü göstermez bilsen,her nişan.
Durmusan önümde halı perişan,
Baxırsan sedeqe umanlar kibi.

Saf suyu azalan Nilsen,ezizm.
Ağ günü qısalan ilsen,ezizim.
Benim ah-feqanım bilsen,ezizm
Göylere yükseler dumanlar kibi.

Denizin coşmağı eşqine timsal,
Bağrına basdığı torpaq da qumsal,
Qorxuram.gözümü bir anlıq yumsam,
Sen de yok olarsan gümanlar kibi.

Sevinc Arzulu

**Gümüş közleri**

Hər gələn dalğada ahım batmayır,
Deyəsən dilimə adı yatmayır,
Nə də ki kənara addım atmayır,
Söyüdün altında görüş gözləyir.

Şərdən uzaqlaşıb xeyr edirəm mən,
Deyirlər göylərə meyl edirəm mən.
Durub pəncərədən seyr edirəm mən,
Parlayır səmanın gülüş gözləri.

Çaylar yuxusundan oyanıb axır,
İldərəm rənglərə boanıb çaxır.
Üzündə təbəssüm dayanıb baxır,
Yandırır qəlbimi gümüş közləri.
11.11.2017

Sevinc Arzulu

**Gümüşü rengde**

Olanları belə bil,
Qar da yağıb telə, bil.
Yeni ildir elə bil,
Şəhər gümüşü rəngdə.

And  içərəm ilqara,
Geyinməz ki dil qara.
Gecələrim zil qara,
Səhər gümüşü rəngdə.

Kədər soyuq, dərd ayaz,
Qəmin bəxtin dərdə yaz,
Göz yaşları bəmbəyaz,
Qəhər gümüşü rəngdə.
05.12.2018

Sevinc Arzulu

**Gün işığı**

Göydə rahat yatmayır,
Dərdi qəmə satmayır.
Mənə dişi batmayır,
Kölgəmə gün şığıyır.

Yolumuz kəsişmir ki,
Çəkişib bərkişmir ki.
Bircə damcı düşmür ki,
Bölgəmə gün işığı.

Bir quruca bəy olar,
Haqqında yüz rəy olar.
Yeri uca göy olar,
Düşməz ki gün aşağı.

Qırma muncuq sapımı,
Eşitmə hap-gapımı.
Nədən döyür qapımı,
Gilavar gün aşırı.

Əlimdə qara ələm,
Hüzuruna tək  gələm.
Çoxdur mənim hövsələm,
Səbrimi gün daşırır.

Sevinc Arzulu

**Gün keçir**

Yavaş-yavaş gün keçir,
Qəfildən axşam olur.
Səda gəlir, ün keçir
Bizə qalan şam olur.

Gecə sükut içində,
Kim yatmayıb, oyaqdır.
Şəhər zərif biçimdə,
Üzündə ağ boyaqdır.

Al rəngi dan yerinin
Yanağına gül düzür.
Günəş asta yeriyir,
Nurlu olsun gün üzü.
01.01.2018

Sevinc Arzulu

**Günaha  kibi**

Xeyalım gözünü yumacaq,Allah
Kölgesi düşecek yamaca.Allah.
Işığa qerq eder yamanca,Allah
Yene de qalxıbdır gün aha kibi.

Hesreti,hicranı heçe bilersen,
Yalanı doğrudan seçe bilersen.
Istesen,bir addım keçe bilersen,
Var tövbe qapısı günaha kibi.

Dünyanın qanunu pozular,gülüm
Röyalar tersine yozular,gülüm.
En uca zirvede yazılar,gülüm
Uzaqdan görüner günah "A kibi.

Sevinc Arzulu

**Günahı boynuma.**

Hərdən ağladıb da qucmağı vardır,
Hərdən aldadıb da uçmağı vardır,
Hərdən anladıb da sancmağı vardır,
Günahı boynuma xatirələrin.

Hardasa nazənin gəlin ağlayır,
Kim olub eşqinə qənim, ağlayır.
Deyil ki görüşə əmin, ağlayır,
Alıbdır qoynuna xatirələri.

Elə soyudur ki içim qaynayır,
Gözümün önündə rənglər oynayır.
Neynəyim, kimsəni yaxın qoymayır,
Düşmüşəm oynuna xatirələrin.
26.04.2018

Sevinc Arzulu

**Günahım ne**

Uçuq ev tək çökənmişəm,
Gözdən qan-yaş tökənmişəm.
Mən bitmişəm, tükənmişəm
Ana, mənim günahım nə.

Bu dünyanın işi zordu,
Dəli sevda məni sordu.
Taleyimin gözü kordu,
Ana, mənim günahım nə.

Aydın səmam duman oldu,
Ümidlərim güman oldu.
Dərd şilləsi yaman oldu,
Ana, mənim günahım nə.

Kədərimi çəpəri yox,
Ürəyimin təpəri yox.
Sənsizliyin səfəri yox,
Ana, mənim günahım nə.

Əlli ilə çatır yaşım,
Bəyazlaşıb artıq başım.
Çoxlarıyçun ağır daşım,
Ana, mənim günahım nə.

Sevinc Arzulu

**Günahkar tebssümün**

Göz önündən getməyir ki,
Vüsalıma yetməyir ki..
Istilik bəxş etməyir ki,
Dağlarda qar təbəssümün.

Üzüyə qaş olmasa da,
Gözündə yaş olmasa da.
Mənlə yoldaş olmasa da,
Ruhuma yar təbəsümün.

Ayrılığı bilər məndən,
Yaz yağışı çilər.Mən də....
Əfv olunmaq dilər məndən,
Bu günahkar təbəssümün.
06.10.2018

Sevinc Arzulu

**Gündüz gözünde**

Axtarır şeytanı dəccal, tapmayır,
Özünə havayı əcəl tapmayır.
Fərəh sevinməyə macal tapmayır,
Dərdim gecələyir gündüz gözündə.

Titrək-titrək yanan şam pilənibdir,
Tək qalan ruh üçün can dilənibdir.
Yenə də dünyaya qan çilənibdir,
Lalələr açılıb dümdüz üzündə.

Pərişan könlümü yandırb yaxan,
Bir zaman sən idin damardan axan.
Olma yadlar kimi kənardan baxan,
Məzarım üstünə gül düz özün də.
11.03.2015

Sevinc Arzulu

**Gündüz ve gece**

Gündüzün sevinci özü boydadır,
Bilmirim geceni kim sevindirir.
Nur saçan işığı közü boydadır,
Belke de geceni sim sevindirir.

Çalıb asta-asta bildiklerinden,
Burnunun altında zümzüme edir.
Enib qarlı dağın gediklerinden,
Özü de bilmeden zülüme gedir.

Gecenin kederi başının altda,
Gündüzün ferehi göz önündedir.
Qüssesi parlayar qaşının altda,
Şadlığı gündüzün öz ünündedir.

Sevinc Arzulu

**Gündüzüm**

Beziben yalanın yaraşığından,
Gah ona,gah yada yar aşiqinden.
Güneşin yandıran gur işığından,
Gecenin qoynunda yatar gündüzüm.

Xeyalı,ümidi elvan dondadır,
Sade danışığı sakit tondadır.
Günlerin heresi bir vaqondadır,
Son sefer edecek qatar gündüzüm.

Tököb qaş-qabağın,eh,bizden küsüb
Torpaqdan,semadan,denizden küsüb.
Ele özciyezi gündüzden küsüb
Qorxuram teklikden batar gündüzüm.

Sevinc Arzulu

**Güneş güler**

Fələk başıbağlı gəzər,
Zaman qəlbidağlı gəzər.
Bulud qaşqabağlı gəzər,
Günəş gülər üzünə.

Ay tək-tənha qalanım,
Kədərdən zövq alanım.
Tez qaralar yalanım,
Nur tökülər düzümə.

Eşq-ömrümə kəmənddir,
Sevgi-əlvan dəmənddir.
Bircə qırpıma bənddir,
Dan sökülər gözümə.

Sevinc Arzulu

**Güneşin zerresi**

Güneşin zerresi çaya düşübdür,
Geceler işığı aya düşübdür.
Gelişi boğanaq yaya düşübdür,
Xeyalın qayıdıb yaz seferinden

Yolunun üstüne çıxıb durubdur,
Işıqlı dünyamı yıxıb durubdur.
Elini köksüne sıxıb durubdur,
Danışa bilmeyir heç qeherinden.

Qaralan üzüyü de, nece taxım,
Qupquru sehraya su olub axım?
Ben nece boylanım, ben nece baxım,
Boranlı, şaxtalı qış seherinden.
18.10.2018

Sevinc Arzulu

**Günü getir**

Ömür yolu anındaca qırılan sap,
Bu dünyanın uzununa atını çap.
Söylədim ki.mənim üçün bir həyan tap,
Demədim ki sən üstümə günü gətir.

Göy qurşağı, əskik etmə naxışını,
Bulud, artır işıq dolu yağışını.
Ulu Tanrım, əsirgəmə baxışını
Toy-nişanlı, al xonçalı günü gətir.

Zülmət, səni sevməyirəm, gözümdən qaç,
Ay dan yeri, sökül, tezcə səhəri aç.
Al günəşim, istəyirəm parlaq nur saç,
Üşüyürəm, qızınmaqçun günü gətir.

Sevinc Arzulu

**Günüm menim**

Gizli-gizli baxırsan,
Yandırırsan,yaxırsan.
Qəlbim qədər yaxınsan,
Gəl ömrüm-günüm mənim.

Xəyal atın çapmısan,
Lal büstünü yapmısan.
De, rahatlıq tapmısan?
Qəmə sürgünüm mənim.

Demədim həsrəti seç,
Qaladığın oddan keç.
Inan ki,olmayıb heç,
Sənsiz bir günüm mənim.

Sevinc Arzulu

**Günün qayğısı**

GÜNÜN QAYĞISI

Unudulmaz çağı olar,
Şipşirin bal nağıl olar.
Bir qeder de paxıl olar,
Gecenin gündüz duyğusu.

Ah çekse deniz çekilir,
Yerine qem-den ekilir.
Ala gözünden tökülür,
Gündüzün gece uyğusu.

Göz önünü toran eder,
Azca mehi boran eder.
Bax,belece dövran eder,
Azalmaz günün qayğısı.

Sevinc Arzulu

**Günün qayğısı**

Unudulmaz çağı olar,
Şipşirin bal nağıl olar.
Bir qədər də paxıl olar,
Gecənin gündüz duyğusu.

Ah çəksə dəniz çəkilər,
Yerinə qəm-dən əkilər.
Ala gözündən tökülər,
Gündüzün gecə uyğusu.

Göz önünü toran edər,
Azca mehi boran edər.
Bax, beləcə dövran edər,
Azalmaz günün qayğısı

Sevinc Arzulu

**Güzgü-göz**

Gözlerin güzgüdür.
Görerdim olanı-biteni,
Görerdim öleni-iteni.
Durardın küçenin başında.
Qırmızı qerenfil elinde,
Belke de hirsliydin elimden.
Bu qeder naz etme,gel çıx daaa...
Gözledin,gelmedim.
Yağış da yağmağa başladı,
Sen ise bextini daşladın.
Sanırdın gelerem qaçaraq.
Quş kibi uçaraq.
Gelmedim.
Üstünden keçibdir otuz il.
Kiçikmiş bu şeher,
Rastlaşdıq bir seher.
Beni tanımadın.
Bense tanıdım seni,
O güzgü gözlerinden.

Sevinc Arzulu

**Ha yandır**

Həsrət, hicran doğulubdur bir gündə,
Dərd dilənir, əyin-başı bir gündə.
Nefti azsa. sönəcəkdir bir gün də,
Məhəbbətin çırağını ha yandır.

Süfrəmizə bol neməti düzdü düz,
Yalan ilə işi olmaz, düzdü düz.
Hansı yana baxsan elə düzdü, düz
Bu qatarın son durağı hayandır.

Payız ətri gəlir yenə, yazsa da
Qəm duyulmaz bu məclisdə, yassa da.
Hey haqqımda dedi-qodu yazsa da,
Şair könlüm qəribana hayandır.

Sevinc Arzulu

**Ha yazam**

Günü-gündən pisləşsə də sağlığım,
Azalmaz ki ilahiyə bağlığım.
Ayrılıqda görünməz ki ağlığım,
Qaraların arasında bəyazam.

Günəş kimi gendən baxan atəşəm,
Püskürübən dağdan axan atəşəm.
Könülləri oda yaxan atəşəm,
Nə şaxtayam,nə sazaq,nə ayazam.

Hicran gedər ayrılığın köçündə,
Görüş,vüsal hərəsi bir biçimdə.
Qurumayan gur bulaq var içimdə,
Qurtarmaz ki könül duyğum,ha yazam.

Sevinc Arzulu

**Hacıxanımsan**

HACIXANIMSAN
(Bacı tək əziz olan Leylaya)

Ilk baxışdan sən Arifi ovladın,
Daim xoşbəxt olsun qoşa övladın.
Şirin nəvələrdir ləzzətin, dadın,
Gözəl ailənin  tacı xanımsan..

Acılı günləri unuda bilsən,
Dərdini-qəmini ovuda bilsən,
Mənə də əzizsən, onu da bil sən.
Esiyə, Tərişə bacı xanımsan.

Ən böyük arzuya, kama yetmisən,
Tanrı işığına-Həccə getmisən.
Islam qanununa əməl etmisən,
Allah adamısan, Hacıxanımsan.
02.05.2018

Sevinc Arzulu

**Hanı.ezizim**

Namerdle duz-çörek kesiben yeme,
Qaynamaz kelbinin qanı,ezizim.
Kelbinin sirrini kimseye deme,
Dost ile düşmeni tanı,ezizim.

Bilirsin,sözünde düzem,deqiqim,
Kiymeti bilinmez lelem,eqiqim.
Şeni seyr etdiyim beşce deqiqe,
Ömrümün en gözel anı, ezizim.

Üfüqlüm qızarır al dodaq kibi,
Xeyalım dolaşır ac torpaq kibi.
Uzaqdan yellenir ağ bayraq kibi,
Hanı xoş günümüz,hanı.ezizim.

Sevinc Arzulu

**Haralısan**

Göyləri şahin,sar alar,
Zirvələri ağ qar alar.
Sənsiz daim yetim qalar,
Bu yerlərin maralısan.

Yolunun üstündə durmuş,
Yenə duzaq,tələ qurmuş.
Hansı ovçu səni vurmuş,
Ürəyindən yaralısan.

Sənsiz deyib-gülməyirəm,
Göz yaşımı silməyirəm.
Məskənini bilməyirəm,
Söylə görüm,haralısan.

Sevinc Arzulu

**Hardan bildin**

Hardan bildin gur telimi
Külek sensiz daramır.
Hardan bildin nur selimi
Veslin gözü aramır.

Hardan bildin ala gözler
Qaralıb da axmayır.
Hardan bildin şirin sözler,
Can alıb da  yaxmayır.

Hardan bildin üreyimin
Sapları üzülübdür.
Hardan bildin qem şerabı,
Bademe süzülübdür.

Hardan bildin qapımı heç,
Döymeyecek ilk bahar.
Hardan bildin daş zirveme
Dayanmadan yağır qar.

Hardan bildin, de, ezizim
Hardan bildin sen bunu.
Bütün vaxtsız sevgilerin
Ayrılıq olur sonu? ! .

Sevinc Arzulu

**Hardasan**

HARDASAN

Tüstüsü ozünden kiçik,,
Istisi közünden kiçik aşkım.
Hardasan?

Kölgesi izində n uzaq,
Ölkesi dizində n uzaq aşkım.
Hardasan?

Kederime sığınan,
Ferehime uğunan aşkım.
Hardasan?

Vüsalı hesret dadan,
Hicranı fereh udan aşkım.
Hardasan?

Üzümü gül açan,
Dözümü kül saçan aşkım.
Hardasan?

Qeddimi bir eden,
Addımın pir eden aşkım.
Hardasan?

Duyğusu saf olan,
Qayğısı Qaf olan aşkım.
Hardasan?

Gözünde qem,
Közünde nem olan aşkım.
Hardasan?

Yanağı solğun,
Qınağı dolğun  olan aşkım.
Hardasan?

Budağında xar oturan,
Dodağında qar oturan aşkım.
Hardasan?

Yarpağı ocağında çatan,
Torpağın qucağında yatan aşkım.
Hardasan?

Zabitesi heyretamiz
Rabitesi qeyretamiz aşkım.
Hardasan?
18.09.2013

Sevinc Arzulu

**Hardasan ağ atlı oğlan**

Hardasan ağ atlı oğlan,
Illər boyu səni gəzdim,tapammadım.
Sanırdım ki təkcə mənimçün doğulan,
Yanınca at çapammadım.
Nə sən gəldin,nə göründü bəyaz atın,
Nə gəlibən ürəyimə vurulan qəm yarasını
sən sağaltdın.
Bu yollarda mən bitdim də,tükəndim də
Gələcəyin o yollarda neçə koma tikəndim də....
Sən gəlmədin,
Mən ölmədim.
Ağ atının yerişi çox yorğa oldu,
Arada qan-qada oldu,qovğa oldu.
Sən gecikdin düz on beş il,
Bilirdik ki,o məhəbbət nə sənə,
nə də ki mənə mənsub deyil.
Tutammadıq saf sevginin əllərindən,
Yığammadıq gül-çiçəyi eşqin geniş çöllərindən.

Ay ağ atlım,eşq baratlım,
Sevgi dadlım,de,hardasan.
Borandasan ya qardasan.
Billəm,səni qaytaramaz gözlərimin yaşı geri,
Yandıracaq izlərimin yaşı yeri.
Ağ atını qara etdi bu çərx-fələk,
Başın üstün tezcə aldı ölüm-mələk.
Rastlaşsaydıq vaxtında biz,
Oturardıq xoşbəxtliyin taxtında biz.
Heç olmasa on beşcə il.
Keçib o gözəl günlərdən gör neçə il.
Ağ atlı şahzadəm mənim,
Özüm sənin hüzuruna gələcəyəm,
Mən də bir gün öləcəyəm....

Sevinc Arzulu

**Hardasan qezel**

Gecə-gündüz alışıb sönməyir ki dərdli sinəm,
Qapqara rəngdədir bax bir vaxt bəyaz olan binəm.
Qəlb simi qan ağlarkən mən hecə şadlıqla dinəm,
Eniş-yoxuş yolları zülm ilə yoran,hardasan.

Göydə cövlan eyləyən ruhun yolu düşdü yerə,
Ovçu vurmuş qartalın qanad- qolu düşdü yerə.
Niyə birdən-birə qar yağdı,dolu düşdü yerə.
Bürüdü boz səhranı tufanla boran,hardasan.

Bilmədik həsrət,ölüm ömrümüzə necə gəldi,
Könüldə yuva salan lal duyğular vecə gəldi.
Günəşli gündüzüm yox,bir buludlu gecə gəldi,
Aldı gözüm önünü qaranlıq,toran hardasan.

Nə bileydim sevdiyim başqasına yar olacaq,
Azacıq artmış dənim tellərimdə qar olacaq.
Səni əlimdən alan el içində xar olacaq,
Məni gözü görməyib özgədən soran,hardasan.

Al gülün harayına zalım bülbül yetişməyir,
Göz yaşımla sulanan sarı sünbül yetişməyir.
Nə bir çiçək bitməyir,nə də ki gül yetişməyir,
Gözəl bağı-baxçamı etmisən şoran,hardasan.

Sevinc Arzulu

**Hardasan qezeli**

Gecə-gündüz alışıb sönməyir ki dərdli sinəm,
Qapqara rəngdədir bax bir vaxt bəyaz olan binəm.
Qəlb simi qan ağlarkən mən hecə şadlıqla dinəm,
Eniş-yoxuş yolları zülm ilə yoran,hardasan.

Göydə cövlan eyləyən ruhun yolu düşdü yerə,
Ovçu vurmuş qartalın qanad- qolu düşdü yerə.
Niyə birdən-birə qar yağdı,dolu düşdü yerə.
Bürüdü boz səhranı tufanla boran,hardasan.

Bilmədik həsrət,ölüm ömrümüzə necə gəldi,
Könüldə yuva salan lal duyğular vecə gəldi.
Günəşli gündüzüm yox,bir buludlu gecə gəldi,
Aldı gözüm önünn qaranlıq,toran hardasan.

Nə bileydim sevdiyim başqasına yar olacaq,
Tək –tək ağarmış dənim tellərimdə qar olacaq.
Səni əlimdən alan el içində xar olacaq,
Məni gözü görməyib özgədən soran,hardasan.

Al gülün harayına zalım bülbül yetişməyir,
Göz yaşımla sulanan sarı sünbül yetişməyir.
Nə bir çiçək bitməyir,nə də ki gül yetişməyir,
Gözəl baği-baxçamı etmisən şoran,hardasan.

Sevinc Arzulu

**Hava kimiyem**

Heyat deyil oyuncaq,
Yaşamaq lazım ancaq.
Bir az sakit,utancaq
Bir az yava kimiyem.

Güneşe boylanıram,
Şefeqle oynayıram.
İçimden qaynayıram,
İsti lava kimiyem.

Darıxdım leysan üçün,
Vuruşmam ad-san üçün.
Sevdiyim insan üçün
Temiz hava kimiyəm.

Sevinc Arzulu

**Hava kimiyim**

Həyat deyil oyuncaq,
Yaşamaq lazım ancaq.
Bir az sakit,utancaq
Bir az yava kimiyəm.

Günəşə boylanıram,
Şəfəqlə oynayıram.
İçimdən qaynayıram,
İsti lava kimiyəm.

Darıxdım leysan üçün,
Vuruşma ad-san üçün.
Sevdiyim insan üçün
Təmiz hava kimiyəm.

Sevinc Arzulu

**Havasına oynadım**

Payız gəlsin,toy-düyünlər başlasın,
Yarım sən ol,neyniyirəm başqasın.
Məni məndən alammazdı başqası,
Bir sarı tel havasına oynadım.

Günəş qoyub başa qaşlı tacını,
Ürəyində silib ağrı-acını.
Əlvan güllər bəzəyibdir saçını,
Bir sarıtel havasına oynadım.

Aramızda xəyalların ağ tülü,
Ala gözlər yenə yarımürgülü.
Çalınsa da "Ruhani","Heyvagülü",
Bir "Sarıtel"havasına oynadım.

Sevinc Arzulu

**Havasında**

Həsrətindən kəsilmədim,
Kədərindən pəsinmədim.
Neynəyim ki isinmədim,
Tonqalın qor havasında.

Fərəh evi yıxılar ki,
Sevgidən eşq çıxılar ki.
Dərdli ürək sıxılar ki,
Dünyanın gor havasında.

Gözdən axan qanlı sudur,
Fələyin yazdığı budur.
Nəfəs alma bircə udum,
Hicranın kor havasında.

Sevinc Arzulu

**Hayandır**

Hesret,hicran doğulubdur bir günde,
Derd dilenir,eyin-başı bir günde.
Nefti azsa.sönecekdir bir gün de,
Mehebbetin çırağını ha yandır.

Süfremize bol nemeti düzdü düz,
Yalan ile işi olmaz,düzdü düz.
Hansı yana baxsan ele düzdü,düz
Bu qatarın son durağı hayandır.

Payız etri gelir yene,yazsa da
Qem duyulmaz bu meclisde,yassa da.
Hey haqqımda dedi-qodu yazsa da,
Şair könlüm qeribana hayandır.

Sevinc Arzulu

**Hayıf,hayıf**

Esme acı ruzigar tek.
Gözel varmı ben nigar tek,
Axı sevmek deyil ayıb,
Hayıf benden.hayıf,hayıf.

Kimler oxur "Sensiz"imi,
Torpaq örter sert dizimi.
Sile bilmedin izimi,
Yel sesimi çoxdan yayıb,
Hayıf benden,hayıf,hayıf.

Tanrıdan nurlu paymışıq,
Hem ulduz,hem de aymışıq.
Ele her vaxt biz saymışıq,
Sonda gör felek ne sayıb..
Hayıf benden,hayıf,hayıf.

Sevinc Arzulu

**Hayındayam**

Zaval yoxdur doğruya,
Lə`nət olsun oğruya.
Qocalıqdan ağrıyan,
Canımın hayındayam.

Qəlbimdə şimşək çaxar,
Nəni yandırar-yaxar.
Gözümdən qanla axan,
Qanımın hayındayam.

Ömür zəmisin biçən,
Dostu qoyub yad seçən.
Güllə tək ötüb keçən,
Anımın hayındayam.

Sevinc Arzulu

**Heca şeklinde**

Bir azca sebr eyle,qızarma ey dan,
Yuxulu ümidim olunar edam.
Ele ozün kimi vefasız sevdan,
Beynimde dolaşır heca şeklinde.

Etiraz eylemek,ezizim,çox gec,
Günahın üstünden addımlayıb keç.
Kimsenin sözüne inanmayır heç,
Xeyalın dolaşır gece şeklinde.

Her kitab oxuyan olmaz ki alim,
Hesretin qeminden pejmürde halim.
O qeder ezablar verirsin,zalim
"Niye"ler görünür "nece" şeklinde.

Sevinc Arzulu

**Heç vaxt**

Bəzən baş açmıram özüm-özümdən,
Qəfil bulaq axar ala gözümdən.
Heç kəs söz açmasın səbr, dözümdən,
Mən səni unuda bilmərəm heç vaxt.

Gör neçə il keçib o son görüşdən,
Saçlarım fərqlənməz indi gümüşdən.
Çox uzaq düşmüşəm şirin gülüşdən,
Mən səni unuda bilmərəm heç vaxt.

Tikanla doludur sevda yolları,
Qapqara açılar çiçək kolları.
Dibindən kəsilib sanki qollarım,
Mən səni unuda bilmərəm heç vaxt.

Şeirlər Allahın ruzisi, gülüm.
Ürəyim eşqinin qazisi, gülüm.
Bu tale alnımın yazısı, gülüm,
Mən səni unuda bilmərəm heç vaxt.

Yuxuda gördüyüm butam oldun sən,
Özgəyə verilən ətam oldun sən.
Sevmək günahdırsa, xətam oldun sən.
Mən səni unuda bilmərəm heç vaxt.

Sevinc Arzulu

**Hemen hemendi**

Zərlərim qoşa çıxdı,
Açdı könül dəməndi.
Heyf ki,boşa çıxdı,
Atdığım eşq kəməndi.

Meh budağı əyməyir,
Qapımızı döyməyir.
Heç gözümə dəyməyir,
Kim mindi boz səməndi.

Daha sənə sözüm yox,
Alışmağa közüm yox.
Qayıtmağa lüzum yox,
Dünya həmən həməndi.

Sevinc Arzulu

**Heminki adam**

Xatirələr qəlbdə uyur,
Üzümü göz yaşı yuyur.
Dostum, sən də təşrif buyur,
Qəmdən tökülmüş odama.

Zirvə aşan təpə döyər,
Səma yağış səpə, döyər.
Yaraşıqdır ləpədöyən,
Dənizdə tənha adama.

Kədərindən aman-aman,
Xatirəndir qəlbə daman.
Dəyişə bilməyib zaman,
Elə həminki adamam.
18.02.2018

Sevinc Arzulu

**Heqiqet aşiqi**

Həqiqət aşiği deyirlər mənə,
Ancaq ki yalanın önündə lalam.
Acılı sözlərlə dəyirlər mənə,
Nə qədər dözümlü imişəm, balam.

Çəkdiyin ahların say-hesabı yox,
Nə olar, bir dəfə ürəkdən gülsən.
Xeyirxah əmənin bil, savabı çox,
Heyf  vaxtsız solan, saralan gülsən.

Məni arzularım çəkib aparır,
O uzaq üfüqün bitdiyi yerə.
Qaranlıq üstümə çöküb aparır,
Işığın əbədi bitdiyi yerə...

Sevinc Arzulu

**Heqiqet utanar**

Öldqürsən olarmı  qanı bir kasa,
Bir kimsə üzülməz, batmaz heç yasa.
Yalan bürünəndə doğru libasa,
Həqiqət utanar çılpaqlığından.

Kim deyir parlayan daş-qaş ucuzdur,
Səmanın yaxası uduz-ulduzdur.
Yalana ilk andan yaman uduzdu,
Düzgünlük danışmaz qorxaqlığından.

Doğrunun payını əlindən alar
Guya qayğısına, qeydinə qalar.
Çəkilib oturub köşkündə yalan,
Axı kim danlayar axmaqlığından.
11.11.2017

Sevinc Arzulu

**Heqiqetim**

Her teref keçilmez sıldırım, dünya.
Bu yükü ben nece qaldırım, dünya.
Çaxdırır başımsa ildırım, dünya.
Yuxarı baxmağa yoxdur taqetim.

Adını qayaya qazıb qalmışam,
Derdimi şeirle yazıb qalmışam.
Dağların qoynunda azıb qalmışam.
Ah, budur eşqime son sedaqetim.

Her teref qorxulu, her teref dehşet.
Sanki yaxınlaşıb axiret-mehşer.
Qoymaram xeyirde gecelesin şer,
Gizlinde qalmasın bu heqiqetim.
21.07.2018

Sevinc Arzulu

**Her şey yaxşı olacaq**

Yuvasından üzülən,
Yanağına düzülən,
Gözlərindən süzülən,
Qəm yağışı olacaq.

Göz yaşıdır tökdüyüm ,
Qəlb evidir sökdüyüm.
Mənim zərlə tikdiyim,
Eşq naxışı olacaq.

Sözümdən çıxma, gülüm
Evimi yıxma, gülüm.
Qəlbini sıxma, gülüm
Hər şey yaxşı olacaq.

Sevinc Arzulu

**Hesret**

Özüne zil qara libas alıbdır,
Nakamlarçun yeni bir deb salıbdır.
Qelbi qan ağıayır,tenha qalıbdır
Bir vaxtsız sevdanın quludur hesret.

Köhne deyirman tek soğulubdur o,
Özü öz içinde boğulubdur o.
Sanırdım benimçün doğulubdur o,
Sen deme uludan uludur hesret.

Rastlaşsa seninle bil,vermez xeyir.
Eynine daima tül paıtar geyir.
Feleyin emrine-”baş üstde”-deyir,
Möhnetin,nisgilin duludur hesret.
Çox yaşayar,canı suludur hesret.

Sevinc Arzulu

**Hesret dayaır**

Fərəh qəmi ürküdəcək,
Dərd gölündə üzdürəcək.
Bir an keçsə püskürəcək,
Içimdə vulkan oyanır.

Sevgilisi deyil köhnə
Vüsal gedir yenə göynən,
Gözlərimdə yer nə, göy  nə
Al rəngə yaman boyanır.

Çiçək ol, yad eldə bitmə,
Zərrə ol, gözümdən itmə.
Bu sevda yoluynan getmə,
Sonunda həsrət dayanır.

Sevinc Arzulu

**Hesret yükünün**

Mənim gülüm, ömrün boyu,
Daşı həsrət yükünü.
Kimsə bilmir neçə olur,
Yaşı həsrət yükünün.

Inanmadıq doğrusuna,
Döndü vüsal oğrusuna.
Heç dözməz ki ağrısına,
Naşı həsrət yükünün.

Asılıbdır göydən çən tək,
Etibarsız deyil sən tək.
Ağarıbdır deyən mən tək,
Başı həsrət yükünün.

Sevinc Arzulu

**Hesretem, gel**

Düz çıxmadı ilqarın,
Yaman yağdı ilk qarın.
Özgənin olsun varın.
Yoxuna həsrətəm, gəl.

De, ananın nə suçu,
Yolunda oldu suçu.
Göynər burnumun ucu,
Qoxuna həsrətəm, gəl.

Kim bağlayıb gözünü,
Dəyişdirib özünü.
Şirin-şirin sözünün
Çoxuna həsrətəm, gəl.

Sevinc Arzulu

**Hesreti,dünya**

Duyğular cengellik,keçilmeyir ki.
Yaxşılar içinden seçilmeyir ki,
Ayrılıq il ile ölçülmeyir ki,
Eynidir miladı,hicreti,dünya.

Emr et,dediyini ederem,inan
Yolunda Sibire gederem,inan.
Neçeye olsa da öderem,inan
De,nedir vüsalın hücreti,dünya.

Qapısın bağladım,kilide saldım,
Ayağı altına zili de saldım.
Özümü neçe cür cilide saldım,
Azdıra bilmedim hesreti,dünya.

Sevinc Arzulu

**Hesretin**

Qoyub qarşısına körpe uşaq tek,
Hesretin saçıma el de gezdirib.
Şıltaqlıq edende vurub da kötek,
Verdiyi notanı elde gezdirib.

Qadağan eyleyib qonuşmağı da,
Bizim ne heddimiz üz-üze duraq.
Qadağan eyleyib qovuşmağı da
Nece çemen üstde iz-ize duraq.

Hesretin ocağı közüme möhtac,
Bir atsam,min defe alışacaqdır.
Üreyim sebire,dözüme möhtac
Fikirler beynime doluşacaqdır.

Qederin töhmeti yarımçıq qalıb,
Onunçun başıma qar eleyir bax.
Kederin zehmeti-alaçıq qalıb,
Su töker aşıma xar meleyi,bax.

Şirini acıdan acı eyleyer,
Balımı zehere dönderer benim.
Zülmeti başımın tacı eyleyer,
Qaranlıq dünyaya gönderer beni.

Sevinc Arzulu

**Hesretin sesi**

Gözlərim yol çəkir səhərə qədər,
Bu yolun yolçusu sən olmalıydın.
Kövrəlib durmuşam qəhərə qədər,
Bu bayram günündə şən olmalıydım.

Niyə xatirələr dəymədüşərdir,
Hərə bir tərəfə üz tutub gedib.
Həsrətin hər işi böhtandır, şərdir
Yaxşını tezcənə unudub gedib.

Könlümün evində qar-boran olar,
Elə səhərədək üşüdərəm mən.
Həyat səmasında lal toran olar,
Həsrətin səsini eşidərəm mən.

Sevinc Arzulu

**Hesretin ulayır**

Həsrətin ulayir sanki yalquzaq,
Yenə dişlərini yaman qıcıyıb.
Nə mənzil yaxındır nə də yol uzaq,
Ayrılıq xəmiri çoxdan acıyıb.

Əlinə götürər qara bayrağı,
Sanar ki böyük bir inqilab eylər.
Hicranın köç etsə vüsala yaxın,
Ürək bunca dərdə necə tab eylər.

Vüsalın sevincdən uzaq qaçmağı,
Məhəbbət üçün  lap sıxıntı olar.
Sevdanın küsüb də uzaqlaşmağı,
Vəfasız  zalımçun çıxıntı olar.
29.04.2018

Sevinc Arzulu

**Hesretine dözemmirem**

Solub yaşıl baxça-bağım,
Yoluna gül düzəmmirəm.
Bürünübdür çənə dağım,
Zirvəsində süzəmmirəm.

Açılmayır bağlı qapım,
Açarını hardan tapım.
Düyün düşüb tale sapım,
Açammıram.çözəmmirəm.

Sehrliymiş eşq dünyası,
Kimlər anlayıb duyası.
Eşq dünyası-qəm dəryası,
Əl-qol atıb üzəmmirəm.

Gənclik həyatın yazıdır,
Ədası,işvə-nazıdır.
El ağzı-çuval ağzıdır,
Qaytanını büzəmmirəm.

Sevinc,dosta ərk edəcəm,
Həqiqəti dərk edəcəm.
Bu dünyanı tərk edəcəm,
Həsrətinə dözəmmirəm.

Sevinc Arzulu

**Hesretini çekirim**

Yenə mənə qəmli baxsa,eybi yox,
Bulaq kimi qəlbə axsa,eybi yox.
Yandırıban məni yaxsa,eybi yox,
Gözlərinin həsrətini çəkirəm.

Bu sevdanın yolunda neynəmədi,
Təkcə qara nuru gün eyləmədi.
Ürəyində qaldı,heç söyləmədi,
Sözlərinin həsrətini çəkirəm.

Sevən aşiq təkcə dərdi dost seçməz,
Qəm-bulaq suyundan doyunca içməz.
Bir də bizim qapımızdan yar keçməz,
Izlərinin həsrətini çəkirəm.

Sevinc Arzulu

**Hevesim oldun**

Çapdın xəyal atında,
Göyün yeddi qatında.
Köklendin qəm notunda,
Inildəyən sim oldun.

Ipək deyil,bezmişəm.
Yaşamaqdan bezmişdim.
Sevdiyini sezmişdim,
İsti nəfəsim oldun.

Dəniz kimi çağlayan,
Bulud olub ağlayan
Yollarımı bağlayan.
Sehr oldun,tilsim  oldun.

Nə çıxacaq ağıdan,
Öcünü al yağıdan.
Kədərimi dağıdan,
Həyat həvəsim oldun.

Atəşimə atəldım,
Ocaq kimi çatıldım.
Eşq yolunda tutuldum
Zindan,məhbəsim  oldun.

Doğma bağlar bülbülə,
Çəkdin dağlar bülbülə.
Döndüm ağlar bülbülə,
Bağlı qəfəsim oldun.

Sevinc,gözəl dad ikən
Kədərləndin şad ikən.
Uzaq ikən,yad ikən
Ən yaxın kəsim oldun.

Sevinc Arzulu

**Hey dedim ki....**

Hey dedim ki ayrılıqdan qorun sen,
Yanmaz idin yoxsa qorun-qorun sen.
Ümidimin üfüqünde görün sen,
Çevril bir vaxt el çatası adaya.

Lal hesretin şillesi ters vurular,
Çetin ona bir mehkeme qurular.
İller keçer,axar sular durular,
Dünya döner rahat,gözel odaya.

Aman hicran,ferehi az edirsin,
Dadlı sevinc,qışımı yaz edirsin.
Eh,ay vüsal,bene hey naz edirsin
Dözecemmi gören sonsuz ə eaya.

Sevinc Arzulu

**Hey dedim ki.**

Hey dedim ki ayrılıqdan qorun sen,
Yanmaz idin yoxsa qorun-qorun sen.
Ümidimin üfüqünde görün sen,
Çevril bir vaxt el çatası adaya.

Lal hesretin şillesi ters vurular,
Çetin ona bir mehkeme qurular.
İllər keçer,axar sular durular,
Dünya döner rahat,gözel odaya.

Aman hicran,ferehi az edirsen,
Dadlı sevinc,qışımı yaz edirsen.
Eh,ay vüsal,mene hey naz edirsen
Dözecemmi gören sonsuz edaya.

Sevinc Arzulu

**Hey meni**

Qocalırıq qəm-kərəddə,möhnətdə,
Niyə cavan ömrüm keçsin həsrətdə.
Bəlkə əbədilik qaldın qürbətdə,
Darıxarsan,bir doyunca süz  məni.

Ya həlim ol.ya müğənni,ya aşıq,
Səsin ilə ürəyimi yar aşıq.
Bilirsənmi necə verrəm yaraşıq.
Inci tək boyunbağıma düz məni.

Yer üzündə təkcə səni aradım,
Ürəyində heykəlini yaradım.
Ay əzizim,budur arzu,muradım
Mən gül olum,budağımdan üz məni.

Sevinc Arzulu

**Heyat yoldaşıma**

Qurtarmaq bilmeyir sevgi definem,
Gözüme nur verir işıqlı alem.
Ferehli günleri görüb sevinnem,
Çekdiyim acılar yadıma düşmez.

Qocalar içinde en dinc olacam,
Xeyallar elinden girinc olacam.
Ele ömür boyu Sevinc olacam,
Kederin işığı adıma düşmez.

Sene doğma oldu benim her izim,
Daim dalğalandı sevgi denizim.
Sen beni bextever etdin, ezizim.
Bu qismet her gözel kadına düşmez.
21.07.2018

Sevinc Arzulu

**Heyat, ne qeribesen**

Mən ki sənin dərd daşınam,
Qıymırsan qəmdən daşınam,
Unudulmaz yaddaşınam,
Rəhm etmirsən qəribə sən,
Həyat, sən nə qəribəsən.

Tuşlasam da göz səmtimi,
Unutnaram söz səmtimi.
Itirmişəm öz səmtimi,
Eh, bu mənəm-qərib əsən,
Həyat, sən nə qəribəsən.

Yüz il davam etməyirsən,
Muradına yetməyirsən.
Üç qərinə getməyirsən,
Bir ya iki qərinəsən.
Həyat, sən nə qəribəsən.

Sevinc Arzulu

**Heyatın sonudur**

Sonda ölən ümid olar,
O, ürəyin tül donudur.
Hər tərəf ağ bulud olar,
Lal gecənin göy fonudur.

Sevgi hissi aşıb-daşır,
Vüsal hərdən yolun çaşır.
Bax, yarpaqlqr pıçıldaşır,
Bu, onların səs tonudur.

Qəlbdə fəryad aha dönər,
Taxta çıxar, şaha dönər.
İnsan bir gün ruha dönər,
Ölüm-həyatın  sonudur.

Sevinc Arzulu

**Heyf**

Neçə xoş an vardı  illər içində,
Bəmim seçilirdi zillər içində.
Zaman baxçasından güllər içindən
Özümə bir çələng hörmədim, heyf.

Sanırdım qarşımda uzun bir yoldu,
Bəs niyə vaxt-vədəm belə tez doldu.
Iki qız köçürtdüm, baba da oldum,
Cüt oğul toyunu görmədim, heyf.

Bu qədər zülm etdim ürəyə, niyə,
Ağu-zəhər qatdım çörəyə, niyə.
Üzbəüz gələndə fələyə, niyə
Sonuncu salamı vermədim, heyf.
02.10.2014

Sevinc Arzulu

**Heyf oçağlara**

Bir göz qırpımında keçdi gəncliyim,
Heç olmadı rahatlığım,dincliyim.
Baha başa gəldi mənim kəcliyim,
Yolum düşməz bir də uca dağlara,
Heyf ötən günə,ötən çağlara.

Ərköyündüm,saymazdım heç bir kəsi,
Qəlbimdə sevilmək,sevmək həvəsi.
Duyulanda payızın ilk nəfəsi,
Qonaq gedərdim meyvəli bağlara,
Heyf ötən günə,ötən çağlara.

Nədən ömrü-günü puçdum,hədərdim,
Başdan ayağadək möhnət,kədərdim.
Gəncliyimdə olmaz idi bir dərdim,
Dəniz kimi həsrətindən çağlaram,
Heyf ötən günə,ötən çağlara.

Sevinc Arzulu

**Hezin layla**

Gözümün yaşını silən tapılmaz.
Içimin acısın bilən tapılmaz.
Olmayan sevgini dilən, tapılmaz
Sınıb da tökülər parlayan şüşəm.

Kədərli etmisən duyğularımı,
Gözümdən qovmusan uyğularımı.
Artırıb azalan qayğılarımı,
Əvvəlki tək olmaz soyuyan nəşəm.

De, mənə inamın azalmayıb ki.
Bağında qızılgül sozalmayıb ki..
Görən xatirəni toz almayıb ki,
Keçmişin tozunu silməkdir  peşəm.

Sərin meh astaca pıçıldar yaman,
Bəzən məlhəm olmur hicrana zaman.
Dilə gəlməyir tar, dillənmir kaman
Günəşdən nur almır qızılı guşən.

Qalmayıb heç səndən mənə yadigar,
Kəsir aramızı kəsir lay divar.
Mənim hər şerimdə həzin layla var,
Hanı əvvəlki mən. Həm çılğın, həm şən.
17.07.2018.

Sevinc Arzulu

**Hıçqırıqları**

Elə bil xəzinə tapıb keçibdir,
Baharın əlindən qapıb keçibdir.
Payız da dördnala çapıb keçibdir,
Xəzəllə doludur köç qıraqları.

Həsrət nədən mindi qəzəb atına,
Baxmadı verdiyim qızıl altuna.
Saldı gümanımı ayaq altına,
Köksünə batırmı heç qırıqları?

Ayrılıq yolunu bəxtindən saldı,
Bu qəfil gəlişdən qismət də laldı.
Getdin, ürəyimdə əbədi qaldı
Ümidin amansız hıçqırıqları.
19.02.2018

Sevinc Arzulu

**Hicr anın**

Mermer pillelerin üstdə oturub,
Astaca söykendim daş sütununa.
Şipşirin vüsalı geri ötürüb,
Boylandım gözünün yaş sütununa.

Islandım somsoyuq küleyinden men,
Üşütdü bir anda küreyimi nem.
Neden baş açmadım diləyindən mən,
Mezara dönderdi üreyimi qem.

Görürsen, nece de qucaqlaşıbdır,
Senin hesretinle menim hicranım.
Mehebbet ebedi uzaqlaşıbdır,
El çəkmez yaxamdan senin hicr anın.

Sevinc Arzulu

**Hicrin sonu**

Qış gele de, sevirem,
Qar elede. Sevirem.
Men hele de sevirem,
Seni ilk bahar kimi.

Bu qaranlıq gecede,
Qem gelmeyir vece de.
Gör üreyim nece de,
Esir ruzigar kimi.

Hesrete dözmeyirem,
Aralı gezmeyirem.
Oturub gözleyirem,
Hicrin sonu var kimi...

Sevinc Arzulu

**Hicrin zehmi**

Vesli tenha göremmezsen ha izle,
Hesret ondan aralanmaz ha bizle.
Qaytarım de,indi neçe faizle
Nahaq yere aldım eşqin sehmini.

Dön geri bax.,eh, sensiz ne halımdı,
Ayrılığın üzümde qem xalımdı.
Bilirsen ki zalımdan da zalımdı,
Görmüsenmi heç eğyarın rehmini.

Aylar,iller öten yaşıma gelir,
Gözdeymeler almaz qaşıma gelir.
Üreyime daman başıma gelir,
Kimse duymaz lal könlümün fehmini.
Hiss elemez ben tek hicrin zehmini.

Sevinc Arzulu

**Hönkürdünmü**

Al lalələr düzdə qalıb,
Qara xalı üzdə qalıb.
Bilirəm ki sizdə qalıb,
Dağlar, verin hönkürtümü.

Qəm bəbədi ayrılığa,
Dərd gəbədi ayrılığa.
Bu əbədi ayrılığa,
Şəlalələr hönkürdümü.

Sakit gölə daş atmaqçun,
Xatirəni yaşatmağçun,
Ürəyini  boşaltmağaqçun.
Dəli kimi hönkürdünmü?
06.10.2018

Sevinc Arzulu

**Insan**

Ferehi sel kimi axında görüb,
Hey acı çekmeye alışır insan.
Hesreti, hicranı yaxında görüb,
Özünden qaçmağa çalışır insan.

Deyesen her zülm qadına qalıb,
Ayrılıq zalımı adına alıb.
Gelecek gününü yadına salıb,
Ötən keçmişiyle barışır insan.

Gözünün yaşını hey udub gedir,
Ağlar xatireni ovudub gedir,
Yamanı tezcene unudub gedir,
Sevib-sevilene qarışır insan.

Sevinc Arzulu

**İçek bulağından**

Bele derdi hara yazaq,
Aramızda esir sazaq.
Hesret, hicran durmur uzaq,
Vüsalın bal dodağından.

Ayın nuru işıldasa,
Külek azca mışıldasa,
Yarpaq eger yaşıldırsa,
Ayrılmaz ki budağından.

Düşek genclik hevesine,
Alışaq od nefesine.
Qalxaq dağın zirvesine,
Içek serin bulağından.
24.02. 2018.

Sevinc Arzulu

**İç-içedir**

Həyatı tən böləmmədik,
Eşq uğrunda öləmmədik.
Niyə biz də biləmmədik,
Vüsalın dadı necədir.

Sevda yolu deyil dümdüz,
Ərafına çiçək, gül düz.
Sevinc hissi bəyaz gündüz,
Ayrılıq zülmət gecədir.

Həsrət heç vaxt yan ötüşməz,
Fərəh mənlə heç öpüşməz.
Bir-birindən ayrı düşməz,
Kədərlə qəm iç-içədir.

Sevinc Arzulu

**İçin**

Eşqin yolu qumsaldırsa,
Izlərimiz su saldısa.
Qismətimiz vüsaldısa,
Bəs ayrıldıq biz nə üçün.

Daş həsərtin özü yaşlı,
Böş söhbəti,sözü yaşlı.
Gülümsədim gözü yaşlı,
Sən ağladın için-için.

Kəsdi yolu qara kəhər,
Boğdu bizi acı qəhər.
Badəmizə süzüb zəhər,
Bəx əmr edib dedi-"İçin".

Sevinc Arzulu

**İçinde**

Mən qalmışam təkçə,tənha,
Azmışam min ər içində.
Sən demə bu aciz dünya,
Boğulurmuş şər içində.

Biz deyirdik dünya yalan,
Demə dünya özü yalan,
Nədir bu dünyada qalan,
Cavab axtar sər içində.

Dağılıbdır dünyam mənim,
Uçulubdur qayam mənim,
Qorxuludur röyam mənim,
Ayılıram tər  içində

Sevinc Arzulu

**İçşimdeki acılar**

Bir an səngiməyir ki,
Içimdəki acılar.
Kədər cəng deməyir ki,
Başında gül tacı var.

Qəm qalib, fərəh məğlub.
Dünyanın işi belə.
Bu yarış daim olub,
Dövrün gərdişi belə.

Nə udduq, nə uduzduq,
Biləmmədik doğrusu.
Biz nəyi ucuz tutduq,
Olduq sevda oğrusu.

Nə vaxt sevdik, sevildik
Kimsələr görmədi ki...
Hicran qəmə meyildir,
Daş barı hörmədi ki...

Arasından su sızmaz,
Hicran ilə həsrətin.
Yalan vədlə qəlb qızmaz,
Hökmüdür məhəbbətin.

Indi mənim cnımda,
Qarışqalar gəzinir.
Günahım var yanında,
Bir gün gələr,çözülür.

Görərək həqiqəti.
Bəlkə təslim olarıq.
Ucaldıb sədaqəti,
Milyon  yaşa dolarıq.

Nə söz-sözə gəllik,
Nə də ayrılarıq biz.
Daim göz-gözə gəllik,
Dərddən sıyrılarıq biz.
01.10.2018

Sevinc Arzulu

**İl bilenim**

Beni tenha qoymayan gül,
Kederimden doymayan gül.
Üreyimi  oymayan gül,
Tekce sensen dil bilenim.

Dünya yene melekleyib,
Üz-gözümü külekleyib.
Toz-torpağı elekleyib,
Sarı qumu gil bilenim.

Bu dünyanı yaxşı tanı,
Ay ömrümün şöhret-şanı.
Bensiz keçmez heç bir anı,
Ayı, günü il bilenim.

Sevinc Arzulu

**İlahi sesdir,gülüm**

Bal dünyadan ayrılaq biz,
Kal röyadan ayılaq biz.
Lal sevdadan sıyrılaq biz,
Həvəsdi, ta bəsdi, gülüm.

Ağırdır dərdi qürbətin,
Sonu puçmuş məhəbbətin.
Görən bu zalım həsrətin,
Nədi biznən qəsdi, gülüm.

Hər çağıran aşıq olmaz,
Hər nur saçan işıq olmaz.
Hər istəyən aşiq olmaz,
Aşiq sevən kəsdir, gülüm.

Köz bağlamaz yaramız da,
Qəm yurd salar qaramızda.
Nədən bizim aramızdan ,
Acı yellər əsdi, gülüm.

Həyat asan misal deyil,
Qəm torpağı qumsal deyil.
- "Qismətiniz vüsal deyil,"-
Bu,  ilahi səsdir, gülüm.

Sevinc Arzulu

**İlahi, qoru**

Ilahi, sən özün bizləri qoru,
Biz sənin sevimli bəndələrinik.
Qoyub getdiyimiz izləri qoru,
Baxışın altında rəndələnirik.

Günahlar sıyrılıb talaşa olur,
Yer-göyü bürüyüb qırıntı, təmiz.
Insan nurlaşanda tamaşa olur,
Kükrəyib salama gəlir göy dəniz.

Suları çox yuyub günahımızı,
Indi özü belə dalğa-dalğadır.
Qoy silib aparsın çən ahımızı,
Hisslərlə çarpışmaq özü qovğadır.

Üzüb ayağını göylərə qədər,
Elə bil səmadan ümid istəyir.
Çağırma sən onu, çağırma hədər
Xəyalən masmavi bulud üstədir.

Sevinc Arzulu

**İlahiye**

Ayağım vüsalın astanasında,
Sıcacıq sevgini gözüm axtarır.
Neden fereh gezir qem libasında,
Üreyim bir parça dözüm axtarır.

Dünyanın kederi başıma vurub
Alıbdır elimden sevincimi de.
Beyazı gözüme-qaşıma vurur,
Tanrı decel etdi en dincimi de.

Ilahi, hamıdan uca, qadirsin,
Aç bu zor işimin kor düyününü.
Merhemet umduğum Tanrım, adilsin
Ağıya dönderme toy-düyünümü.

Özün qapımızı aç da taybatay,
Nurunu bizlerden esirgeme heç.
Heyat çetin olur neden aybaay,
Günahım var ise bağışlayıb keç.

Qıyma ki ürekler yansın, alışsın
Tonqalın üstüne su da sepele.
Küsülü ulduzlar göyde barışsın,
Hezin layla çalsın narın lepeler

Işimiz hemişe qoy avand olsun,
Qarşımı kesmesin ne düşmen-yağı.
Qurana and olsun, sene and olsun,
Qoymaram saralsın heqiqet bağı.

Tanrım, qebul eyle iltimasımı,
Qurtar da oğlumu beladan-derdden.
Qoy geyim eynime zer libasımı,
Qoru ezizmi zalım namerdden.

Sevinc Arzulu

**İlahiye  xitab**

Ey Allahım,üz tutmuşam sene ben,
Qoşulmadım dumana ben,çene ben.
Hüzuruna gelmişim de yene ben,
Bir günahım varsa,efv et,İlahi.
Düşmenleri özün mehv et,İlahi.

Kederimden qorun-qorun yanıram,
Ötenleri yada salıb anıram.
Tekce seni qiblegahım sanıram,
Şehvimizi,suçumuzu bağışla.
Ömrümüzü beze teze naxışla.

Razı olma zülüm-zülüm ağlayım,
Istə mirim nur yolunu bağlayım.
Evvelkitek deyib-gülüm,çağlayım
Sen adilsen,rehm et bize,İlahi.
Gelek ferə hle üz-üze,İlahi.

Uşaqların her ikisi xoşbə xt olsun,
Sevincimden ala gözlerim dolsun.
Nə bir yarpaq saralsın,ne gül solsun
Yer küresi yaşıllığa bürünsün.
Ayrılıqlar sürüm-sürüm sürünsün.

Sağlam eyle sen oğlumu,ey Tanrım,
Aç düyünün her bağlımın,ey Tanrım.
Alma başdan heç ağlımı,ey Tanrım,
Cavanlara özün qıyma,İlahi.
Heyat yolun yarı qoyma,İlahi.

Sevinc Arzulu

**İlahiye xitab**

Ilahi, qızımı sən xoşbəxt eylə,
Tezliklə qovuşsun sadiq yarına.
Yerini həmişə uca təxt eylə,
Heç kölgə enməsin etibarına.

Dolaşıq düşməsin sevinc kələfi,
Yolu aydın olsun, çıraqban olsun.
Mənim tək insanın gözəl xələfi,
Daima gülərüz, mehriban olsun.

Bir gün sevindirib məni ürəkdən,
Yenidən bəxtəvər nənə eyləsin.
Dualar göndərim səmum küləkdən,
Məhəbbət ətirli nəğmə söyləsin.
06.01.2018

Sevinc Arzulu

**İlğım, ezizim**

Günəşin zəriylə bur tellərini,
Daha da bəzəsin nur tellərini.
Dəniz tək dalğalı gur tellərini,
Uzaqdan mən necə yığım, əzizim.

Burda xatirələr gəlməyir vecə,
Hər tərəf qaranlıq, hər tərəf gecə.
Səni tək  buraxdım.İndi mən necə
Daş məzar altına sığım, əzizim.

Acı göz yaşların çiskin deyil ki?
Ürəyin dünyadan küskün deyil ki?
Mənsiz keçirdiyin pis gün deyil ki?
Bir də görüşümüz ilğım, əzizim.
25.04.2018

Sevinc Arzulu

**İlham  perim**

Hanı benim ilham perim,
Başım üstde qanad çalsın.
Puçur-puçur axsın terim,
Üreyimi sevinc alsın.

Yene beni daş-qayaya
Doğru gönde,ilham perim.
Rast gelmesin daş qayaya,
Yağış ender,ilham perim.

Qoy islanım yağışında,
Beyaz derim yamyaş olsun.
Bezenim al naxışında,
Qızıl tacım lel qaş olsun.

Benim gözel ilham perim,
Uzaq durma benden,nolar.
Qoy azalsın derdi-serim,
Yoxsa işim çetin olar.

Gözüm gülsün,qelb sevinsin
Mehebbeti könlüm duysun.
Insanlar sevsin-sevilsin
Geceleri rahat uysun.

Bir insanın üreyinde,
Derd qalmasın,qem qalmasın.
Eşqin uca göylerinde,
Buludlar da nem olmasın.

Benim sadiq ilham perim,
Terk eyleme beni heç vaxt.
Ferehle keçsin günlerim,
En bextever beni seç,baxt.

Sevinc Arzulu

**İlham perisi**

Kim deyir ki gözü toxdur,
Hər baxışı sanki oxdur.
Özü kimi namərd yoxdur,
Ayrılıq hicran hərisi.

Acı günlər tez ötüşür,
Həsrət tənha qalıb üşür.
Sözlər gedib dəyir, düşür,
Dəmirdən bərkdir dərisi...

Şəri qapı pusan görüb,
Həqiqəti susan görüb.
Bunca yazan insan görüb,
Utanır ilham pərisi.
21.11.2017.

Sevinc Arzulu

**İlk bahar-son bahar**

Bu dünyanın namərdi nə, mərdi nə
Di yaxşı bax, bayquş qonub pərdinə.
Sevənlərin sevinci nə, dərdi nə
Sağalarmı könlümüzün yarası,
Ilk baharla son baharın arası.

Ağlar ürək, kiprikləri yaş edər,
Ayrılığı hicran daim baş edər.
Nolar, Allah, zaman özü kaş edə,
Əbədilik tapa vəslin çarasın.
Ilk baharla son baharın arası.

Hanı, xoşbəxtliyin bəyaz çaparı
Fələk məndən səni niyə qoparıb.
Çoxdandır ki ağını qəm aparıb,
Sənsən mənim gözlərimin qarası.,
Ilk baharla son baharın arası.
18.05.2013

Sevinc Arzulu

**İlller qoruyub**

Kədər məndən gen qaçmayır,
Fərəh qəlbə nur saçmayır.
Vüsal pərisi uçmayır,
Tənhalıqdan qarıyıb.

Nə çəkirəm kimsə bilməz,
Seyrə çıxsam qəlbim gülməz.
Qızılgülün ətri gəlməz,
Çünki kolu quruyub.

Kədər çayı coşub daşar,
Yenə də sərhəddi aşar.
Xatirələr qəlbdə yaşar,
İllər onu qoruyub.

Sevinc Arzulu

**İman yiyesi ol, kişi**

Həqiqətdən qala qurdun,
Yalanın başını vurdun.
Sözünün üstündə durdun,
Iman yiyəsi ol,kişi.

Bu cavanlar dəli-dolu,
Dinşəməzlər sağı-solu.
Sən həmişə haqqı qoru,
Qılınc tiyəsi ol, kişi.

Sevirsən gülü-çiçəyi,
Oxşayarsan tər ləçəyi
Sualların ən göyçəyi,
Neyçün? Niyəsi ol, kişi.

Sevinc Arzulu

**İnanarsanmı**

Ayrılmışıq nə müddətdir,
Görən məni anarsanmı.
Alovlanan məhəbbətdir,
Atəşimə yanarsanmı.

Qalmışam həsrət gəlişə,
Qalmışam həsrət gülüşə.
Qalmışam həsrət  görüşə,
Varlığımı danarsanmı.

Əcəl məni sənsiz bilib,
Qapımıza qonaq gəlib.
Desələr ki Sevinc ölüb,
Xəbərə inanarsanmı.
Dünya uçdu,sanarsanmı.

Sevinc Arzulu

**İnciden düşüb**

Her fikri,niyyeti qelbde düz tutum,
Bir atım,on atım,sonda yüz tutum.
Ben kime yalvarım,kime üz tutum,
Könlüme könlümü inciden düşüb.

Gözümün önünden neçe an keçir,
Damardan süretle qızıl qan keçir.
Baxan tek görünür genclik yan keçir,
Telime gümüşü inci den düşüb.

Naxelef insandan sözüm yaşınar,
Namerd ocağından közüm yaşınar.
Bilirsin,ezizim.gözüm yaşına
Zeriflik,parlaqlıq inciden düşüb.

Sevinc Arzulu

**İncimerem**

Su axar şərab əvəzi,
Meh əsər sərab əvəzi.
Badənə şərab əvəzi,
Qanımı süz, incimərəm.

Içiləməz yaş-qayanı,
Kiçiləməz baş qayanı,
Keçiləməz daş-qayanı,
Yoluma düz, incimərəm.

Yuxularım yozulmayan,
Yazdıqlarım pozulmayan.
Sənə doğru uzanmayan,
Əlimi üz. incimərəm.

Sevinc Arzulu

**İndi**

Benimçün seçibdir qem zorbasını,
Hey bene içirder derd şorbasını.
Bir vaxt dolu olan söz torbasını,
Ağzını qaytanla büzmüşüm indi.

Axan göz yaşımı heç vaxt silmeyib,
Derdimi özüne yaxın bilmeyib.
Bir defe benimle deyib-gülmeyib,
Elimi dünyadan üzmüşüm indi.

Bu ömür verilmir bizlere selem,
Ayrılıq öndedir, başüste elem.
Hemişe tutarmı ellerim kelem,
Sözleri dalbadal düzmüşüm indi.

Sevinc Arzulu

**İndi gümüşü**

Fəxr edim postum ilə,
Deyilən tostum ilə.
Bir yaxın dostum ilə,
Vardır görüşüm.Zənglə...

Uzaq düşübdür ellər,
Xəbər gətirər yellər.
Gördüyün sarı tellər,
Indi  gümüşü.Rənglə...

Dilimdə şer-ağılar,
Desəm dünya dağılar.
Bu halıma yağılar,
Baxıb gülüşür.Cənglə...

Sevinc Arzulu

**İndi kimim**

Dalğa-dalğa lepelendim,
Çiçek-çiçek sepelendim.
Topraq-topraq tepelendim
Indi kimim,bilmirim ki.

Göz yaşlarım durulsa da,
Xar köksünden vurulsa da.
Vüsal bize burulsa da
Indi kimim,bilmirim ki.

Arzularım köz-köz olub,
Ümidlerim göz-göz olub.
Misralarım söz-söz olub,
Indi kimim.bilmirim ki.

Sevinc Arzulu

**İnsansan**

Həsrətin qorxusunda,
Hicranın qoxusunda,
Ayrılıq ordusunda
Gizir olan insansan.

Yolun haradır, qardaş
Gözlərimi döyür yaş.
Qohumlar içində baş,
Nazir olan insansan.

Dərd ilə döyüşməyə,
Qəm ilə deyişməyə,
Dünyanı dəyişməyə
Hazır olan insansan.
14.02.2018

Sevinc Arzulu

**İntihar**

Ben geldim görüşe mavi Xezerle,
Sen bakdın üzüme soyuq nezerle.
Ele bezenib ki kızılı zerle,
Kimin şad gününde yanacaq ağ şam.

Felek yene beni yada salıbdı,
Ümid denizimde ada salıbdı.
Hönkürtün kelbimi oda salıbdı,
Bu nece ağlamaq,bu nece oxşam.

Heqiqet quyusu gör ne derinde,
Heç zaman olmayıb su qederinde.
Bezib de dünyanın qem-kederinden
Intihar edecem ele bu axşam.

Sevinc Arzulu

**İntizar içinde**

Nə söyləyim bu cəlala,
Saldı məni dərd-məlala.
Yenə də sənli xəyala,
Daldım  intizar içində.

Söz soruşdum, dinmədilər
Sanki qara ilmədilər.
Qiymətimi bilmədilər,
Qaldım ahu-zar içində.

Yaman darmış dərd köynəyi,
Qəlbimdə yerin göynəyir.
Qəm-kədəri satdım.Nəyi,
Aldım bu bazar içində.
21.11.2017.

Sevinc Arzulu

**İrade-solmaz**

Beş bacıdırlar,
Baş tacıdırlar
Hərə ərinə,
Getmə dərinə.

Hərə bir yerdə
Ömrünü sürür.
Işığı yanır,
Itisə hürür.

Iki bacılar,
Bakıda yaşar.
Şən gülüşləri
Xəzəri aşar.

Xanım-xatındır
Sarışın Solmaz.
Adicə sözdən
Gözləri dolmaz.

Bir az məğrurdur,
Bir az mətindir.
Kimə hirslənsə,
Işi çətindir.

Yaxşı qaynana,
Yaxşı anadır.
İlahi necə
Gözəl yaradıb.

Mənim əzizim,
Canım İradəm.
Səni sadiq dost
Sanım İradəm.

Geridə qalıb
Məktəb illəri.
Birgə geçirtdik
Çox fəsilləri.

Payız da gördük,
Boranlı qış da.
Çələng də hördük,
Gördük alqış da.

Nənə də olduq,
Artıq ay bacı.
Heç vaxt görməyək
Biz  ağrı-acı.

Sevinc Arzulu

**İraq olum**

Sen Qeys-Mecnun,Yusif-Kenan,
Qismetini Leyli sanan.
Başın üstde daim yanan
Kiymetli çılçıraq olum.

Hicran evi viran olsun.
Qıyma hesret tiran olsun.
İstemirim bir an olsun,
Gözlerinden iraq olum.

Qoy aynaya bakım,gelim
Daş-qaşımı takım,gelim.
Vüsalına yakın gelim.
Ayrılıqdan qıraq olum.

Sevinc Arzulu

**İslanıb**

Vesle geden yollarımız ayrıdır,
Hesret yene qem atını seyridir.
Görmürsenmi nece boynu eyridir,
Benövşeler kederimden süslenib.

Eskik etme,Tanrım,ol pənahımı,
Sen bağışla kiçicik günahımı.
Terefine çekib menim ahımı,
Hava yaman dumanlanıb,sislenib.

Deli ürek qüsse yeyib,qem çekib,
Gül yerine köksünde tikan ekib.
Ele bilme yağış yağıb,qar töküb
Geniş düzler göz yaşımdan islanıb.

Sevinc Arzulu

**İsterem, gülüm**

Vüsalın telini daramasam da,
Dərdinə-sərinə yaramasam da.
Şad gündə axtarıb aramasam da,
Qəmimdə sənicə istərəm,gülüm.

Yenə də xatirə marağındayam.
Dəftərin sonuncu varağındayam.
Səninlə bir görüş sorağındayam,
Lap elə indicə istərəm,gülüm.

Bulud tək mehimdən dağılacaqsan,
Gözümün yaşında boğulacaqsan.
Qəlbimin ahından doğulacaqsan,
Arzular,eh,necə istərəm,gülüm.

Sinəmi yandırar közümün odu,
Həsrəti əridər dözümün odu.
Özümü yandırar özümün odu,
Mən bunu sadəcə istərəm,gülüm.

Bir nadan qəlbimə dəysə,eybi yox.
Gülümün budağın əysə,eybi yox.
Ölüm ağ qapımı döysə,eybi yox,
Bu axşam.bu gecə istərəm,gülüm.

Sevinc Arzulu

**İstesen**

Istəsən sən məni yenidən yarat,
Istəsən baş-ayaq eylə fikrimi.
Istəsən qaranlıq günündən yarat.
Heç zaman dəyişməm dua-zikrimi.

Istəsən insan yox, qaranquş eylə,
Baharı gətirib gəlim özümlə.
Demirəm ömrümü boran-qış eylə,
Sınanım çətində, darda dözümlə.
04.06.2018

Sevinc Arzulu

**İstesen yarat**

Istəsən sən məni yenidən yarat,
Istəsən baş-ayaq eylə fikrimi.
Istəsən işıqlı günündə yarat.
Heç zaman dəyişməm dua-zikrimi.

Istəsən insan yox, qaranquş eylə,
Baharı gətirib gəlim özümlə.
Demirəm ömrümü boran-qış eylə,
Sınanım çətində, darda dözümlə.

O gözəl təbiət heç olub gedib,
Istəsən məni də yox eyləyərsən.
Deyirəm, gəncliyim tez solub gedib,
Barı qocalığı tox eyləyərsən.
30.04.2018

Sevinc Arzulu

**İstesen yeniden yarat**

Istəsən sən məni yenidən yarat,
Istəsən baş-ayaq eylə fikrimi.
Istəsən işıqlı günündə yarat.
Heç zaman dəyişməm dua-zikrimi.

Istəsən insan yox, qaranquş eylə,
Baharı gətirib gəlim özümlə.
Demirəm ömrümü boran-qış eylə,
Sınanım çətində, darda dözümlə.

O gözəl təbiət heç olub gedib,
Istəsən məni də yox eyləyərsən.
Deyirəm, gəncliyim tez solub gedib,
Barı qocalığı tox eyləyərsən.
30.04.2018

Sevinc Arzulu

**İsteyir**

Heqiqetin büstü beyaz,
Başdan çıxan tüstü beyaz.
Göy denizin üstü beyaz,
Su da yazılmaq isteyir.

Üzerine çöken yoxdur,
Göz yaşları töken yoxdur.
Bir ovuc den eken yoxdur,
Torpaq qazılmaq isteyir.

Ahı yeri-göyü alıb,
Üreyime insaf salıb.
Qemden düyün-düyün qalıb,
Kelef çözülmek isteyir.

Sevinc Arzulu

**İsteyir könül**

Bilmirəm nə hikmət var zəngində ki,
Vüsalmı həsrətin daş cəngində ki..
Ildırım çaxanda  al rəngindəki
Işığa boyanmaq istəyir könül.

Necə uzaq düşdüm taleyi kəmdən,
Didələr qurumaz heç zaman nəmdən.
Gecələr yuxusuz qalsa da qəmdən,
Fərəhlə oyanmaq istəyir könül.

Hər il yaş gəldikcə yaşının üstə,
Eh, kimlər su  tökdü aşının üstə.
Təkcə Tanrı olsun başının üstdə,
Zirvədə dayanmaq istəyir könül.
19.07.2018

Sevinc Arzulu

**İşığına belenim**

Qədir ağacı əkəm,
Dibinə bol su tökəm.
Yenə tənhayam, təkəm
Yox hayıma gələnim.

Şəninə yazaram şer,
Ayaq altdan qaçar yer.
Zülmətdəyəm, izn ver,
Işığına bələnim.

Gizlin baxıb tüstünə,
Sarılım qəm büstünə.
Kədərinin üstünə,
Narın qar tək ələnim.
16.10.2018

Sevinc Arzulu

**İşim keçer**

Bu dağlara sar qalsa,
Bu bağlara nar qalsa,
Bir sən, bir əğyar qalsa,
Görən könlüm nə seçər,

Bu nahamar canımla,
Andımla, vicdanımla,
Suvararam qanımla,
Eşqi könlümdə becər,

Girmə payız donuna,
Bax səsinin tonuna.
Noqtə qoyma sonuma,
Işim vergüldən keçər,

Sevinc Arzulu

**İşleyer**

İgidsənsə od-atəşə gər sinə,
Bi ağrıya tab etməz ki hər sinə.
Istədiyin edər hər vaxt tərsinə,
Tale sənin əleyhinə işləyər.

Görüşərik yenə çətin,nagüman
Tək mən oldum fələkdən insaf uman.
Istəməz ki üzün örtsün sis,duman
Günəş çənin əleyhinə işləyər.

Gərək acı taleyimlə barışım,
Axı necə cavanlara qarışım.
Günü-gündən artır üzdə qırışım,
Zaman mənim əleyhimə işləyər.

Sevinc Arzulu

**İtgin gelinem**

Ürəyim alışar, görünməz tüstüm,
Hamıdan ucasan, hamıdan üstün,
Gözümün önündə mərmərdən büstün,
Qəmli baxışında itkin gəlinəm.

Usanmış buludlar qarlamasa da,
Zirvəyə yığılıb xarlamasa da,
Daha əvvəlki tək parlamasam da
Qiymətdən düşməyən almaz  ləlinəm.

Dost-tanış qəmimi görə bilməyir,
Ağarmış telimi hörə bilməyir.
Bir kimsə nəsihət verə bilməyir,
Sənin vurğununam, sənin dəlinəm.
19.02.2018

Sevinc Arzulu

**İtirmeyim deye**

Gözlərini əhəng tutub,
Sözlərini ahəng tutub.
Duman əlimdən bərk tutub,
Çəni itirməyim deyə.

Yollar uzun sərhəd çəkər.
Qollar istəyə  hədd çəkər,
Kollar qarşıma sədd çəkər,
Səni ötürməyim deyə.

Günəş zərini yan edər,
Atəşinə büryan edər.
Tellərim də üsyan edər,
Dəni götürməyim deyə.
12.02.2018.

Sevinc Arzulu

**İzleyirm men**

Aradan neçə il ötüb keçsə də,
Hələ də yolunu gözləyirəm mən.
Ruhun ən ətirli gülə köçsə də,
Bənövşə kolunu özləyirəm mən.

Neyniyim, taleyin sərt üzü belə,
Gecəsi qaranlıq, gündüzü belə.
Muğan, Şirvan elə, Mil düzü belə
Hey qarı, dolunu izləyirəm mən.

Gah külək qıy vura, gah tufan qopa,
Könlümə yağışın ətiri hopa.
Fərəh ayrı gəzir, dərdi-qəm topa,
Sağımı, solumu düzləyirəm mən.

Sevinc Arzulu

**İztirabım**

Aylı gecə ləkim görən,
Alım vecə, əkim görən?
Allah, necə çəkim görən,
Bunca dərdi, iztirabı.

Hicran vəsli dalamaz ki,
Qəmi duz tək yalamaz ki?
Bilirsənmi, qalamaz ki
Həsrət verər isti, tabım.

Hanı dar gündə gərəklər,
Şad günümdə göbələklər.
Vız-vız  durub ağ vərəqlər
Oxunacaq üst kitabım.
20.12.2017

Sevinc Arzulu

**Kaçılmazdır**

QAÇILMAZDI

Bu baxışı bilirsin ki,
Ömrün naxşı bilirsin ki...
Özün yaxşı bilirsin ki,
Bu ayrılık qaçılmazdır.

Könlümde qal kül yerine,
Ruhumu al gül yerine.
Baxçada al gül yerine,
Sarı güller açılmazdı.

Beyaz duman sürünseydi,
Yer-göy ona bürünseydi.
Dünya qara görünseydi,
Güneşden nur saçılmazdı.
18.09.2013

Sevinc Arzulu

**Kafirleşib**

Iç dünyamı devirmisən,
De, Allahı sevirmisən.
Bəs niyə üz çevirmisən,
Zikrlərin kafirləşib.

Lal könlünün dayəsi yox,
Amalı yox, qayəsi yox.
Bircə damcı mayəsi yox,
Fikirlərin kefirləşib.

Vüsal evin sökürsən ki,
Üstünə od tökürsən ki.
O qədər qəm çəkirsən ki,
Şükürlərin kifirləşib.

Sevinc Arzulu

**Kar etmişim**

Həsrətin dadın görüb mən hey ahu-zar etmişəm,
Zillətin adın görüb göz yaşımı qar etmişəm.

Əzizim, sən olduğun ətirli, solmaz gülşəndə
Özümü bir qızılgül, əğyarımı xar etmişəm.

Niyə məndən incik də düşüb ümid-xəyallarım,
Keçirdib mən həyata, əbədiyyən var etmişəm.

Bilirəm, ağlar könül.yaralısan, qanın axır
Dəli tək sevdiyimi özgəsinə yar etmişəm.

Açmadım ürəyimi. dedim özgələr nə deyər
Utanıb-qızarmışam, dost-tanışdan ar etmişəm.

Telimi dağıtsa da coşgun küləklər sayağı,
Vüsalın naləsinə qulağımı kar etmişəm.

Sevinc Arzulu

**Karabağı kaytarın**

Şehid edildi Xocalı,
Kırıldı uşak-kocalı.
Yigidlerim,siz öc alıb,
Bu torpağıı kaytarın.
Karabağı kaytarın.

Aman verme bir kesine,
Nece kaçır sine-sine.
Zalım düşmen sinesine,
Çekin dağı,kaytarın.
Karabağı kaytarın.

Haray çeker şair,edib,
Güzel eller elden gedib.
Işğalçıları mehv edib,
Cennet bağı kaytarın.
Karabağı kaytarın.

Sevinc Arzulu

**Kardaş**

Vüsalın beli bükülür,
Qara daşdan ev tikilir.
Ürəyimdən qəm tökülür,
Sözlərimdən çiskin, qardaş.

Boylanıb yola baxırsan,
Gah sağa-sola baxırsan.
Gözlərin dola baxırsan,
Olma fağır, miskin, qardaş.

Aydınlaşar zülmət gecə,
Xatirələr gəlməz vecə.
Heç bilmirəm nəcür, necə
Verək sənə təskin, qardaş.

Oda qalanıb gəzirsən,
Varı talanıb gəzirsən.
Tənha dolanıb gəzirsən,
Fələk etdi küskün, qardaş.

Bir ulduzun axşı olar,
Qaranlıqda naxşı olar.
Çətin hər vaxt yaxşı olar,
Bu da belə pis gün, qardaş.
05.12.2018

Sevinc Arzulu

**Kaş kipriyinden**

Xatire qoçağın elinden tutub,
Tez keçdim hesretin daş kipriyinden.
Öten günlerimi sanki unudub,
Nemlendim xiffetin yaş kipriyinden.

Gör hara apardı arzular meni,
Ümidim-gümanım sarsılar menim.
Bir anda tellerim qarsılar menim,
Od saçar nifretin qaş-kipriyinden.

Semadan masmavi baxış yağardı,
Güneşden al-elvan naxış yağardı.
Üzünden-gözünden yağış yağardı,
Axmazdı xilqetin kaş kipriyinden.

Sevinc Arzulu

**Kaş qalıb**

Qara rəngi götürüblər,
Gül üstdə xal bitiriblər.
Özlərini itiriblər,
Ağrılarım çaş-baş qalıb.

Dağları duman bürüyə,
Kədər üstümə yürüyə..
Qoyma, ay gedən, quruya
Gözümdə  damla yaş qalıb.

Eh, qocalıq ləngiməz ki,
Nəfəsi heç təngiməz ki.
Təəssüflər səngiməz ki,
Dilimin ucunda "kaş" qalıb.
20.12.2017

Sevinc Arzulu

**Keçer**

Al seherin yeridi dan,
Sinem üste yeridi dan.
Ayrılığın meridian,
Üreyimi kesib keçer.

Güneş hörer qızıl telin,
Nazla süzer bahar selin.
Hesretinin qara yeli,
Tufan kimi esib keçer.

Gözden yağar yorğunluğum,
Bal dünyaya vurğunluğum.
Mehebbetin durğunluğu,
Ya qismet,ya nesib keçer.

Sevinc Arzulu

**Keçib geldim**

Bu da bir sevda nağılı,
Başda qoymaz dərd ağılı.
Sənə gələn yollar bağlı,
Xatirəndən keçib gəldim.

Ayrılıq nə üzlü dəccal,
Vüsalına verməz macal.
Mənimlə dost olub əcəl.
Şərbətini içib gəldim.

Fələk plan quracaqdır,
Ürəyimdən vuracaqdır.
Bu da ki son duracaqdır,
Əbədilik köçüb gəldm.
14.05.2018

Sevinc Arzulu

**Keçilib daha**

Bu yolların eni ten,
Düşer tele yeni den.
Tapdalama yeniden,
Bu yol keçilib daha.

Süsen sünbül özgenin,
Qaralan kül özgenin.
Al qızılgül özgenin,
Bu kol seçilib daha.

Güneş gündüz yatmayır,
Ay geceler batmayır.
Heyf, sene çatmayır,
Bu qol kiçilib daha.

Sevinc Arzulu

**Keçmedi**

İstilənib yaylasa da,
Çağırıban haylasa da.
Həsətin qəm paylasa da,
Biz vüsaldan vaz keçmədik.

Xilas olaq qollarından,
Içməm qara şollarından.
Hicrin çətin yollarından,
Sənin ilə az keçmədik.

Çimib arınmaq istədik,
Günə yarınmaq istədik.
Vəslə yarınmaq istədik,
Nə əda,nə naz keçmədi.

Sevinc Arzulu

**Keçmişe dönüş**

Sen olmusan bene cennet ved eden,
Söyle.billur bulaqların hardadır.
Ey hesreti dünya boyda derd eden
Çinar,yaşıl budaqların hardadır.

Kölgesinde oturuban dincelek,
Şabaş kimi hey tökülsün yarpaqlar.
Geri dönüb cavanlaşaq.incelek
Xınalansın nazik,şümşad barmaqlar.

Qızıl nişan üzüyüm de taxılsın,
Acıq verim seni seven xar qıza.
Xonçalara baxıldıqca baxılsın,
Hicran donsun,dönsün hissiz qar qıza.

Güneş bizim sevgimize alışsın,
Qızıl zere boyansın ağ naxışlar.
Küsen bulud öz yarıyla barışsın,
Sepelensin üzüme ağ yağışlar.

Gel tutuşaq uşaq kimi el-ele,
Dövre vuraq,iliyedek islanaq.
Qem içine düşer sonsuz velvele,
Keder-qüsse yağış altda paslanar.

Sevinc Arzulu

**Keçmişim**

Atıb ocağına odunlarını,
Yığmısan başına adamlarını.
Senin heca-heca addımlarını,
Ben bend-bend qaçaraq ötüb keçmişim.

Vüsal qalasına top atıb neden,
Yarın-yaraşığın qopardıb neden.
Xatire defterin qapadıb neden,
Vefasız büküben atıb keçmişe.

Keder.gözlerime qara sürmesen,
Ne olar,köyneyi bir gün hörmesen.
Gözünü açıb da beni görmesen,
Demek bu dünyadan itib köçmüşüm.

Sevinc Arzulu

**Keder dostu**

Ayrılığın yox əlacı,
Yedirtdiyi ağu-acı.
Qaradır hicran ağacı,
Yarpaqları sarı-sarı.

Göz yaşını heçə bilməm,
Dostu-yarı seçə bilməm.
Addımlayıb keçə bilməm,
Nə ucaymış dərd hasarı.

Yaman verir acı, yaram,
Oxu minbir tilsim, sarı.
Ürəyimə acıyıram,
Kədər dostu, qəm simsarı.
27.11.2018

Sevinc Arzulu

**Kedere töhmet**

Gündüz-gecə ovudum,
Gəlmir vecə, ovudum.
Axı necə unudum,
Bunca dərdi-möhnəti,

Xeyir soraqlı olaq,
Üeir yaraqlı olaq.
Necə maraqlı olar,
Sazla sözün söhbəti.

Tellərimdə dən közü,
Lal dilində mən sözü.
Sevinc, indi sən özün,
Ver kədərə töhməti.
29.04.2018

Sevinc Arzulu

**Kederine tox olam**

Kövrek neğme yazmayam,
Sevdalı bülbüllere.
Çemenlikde azmayam,
Toxunmayam güllere.

Gözellik neye gerek,
Sen olmasan ezizim.
Ahengle vurmaz ürek,
Dalğalanmaz denizim.

Seni sevmek min ezab,
Min keder-qem getirdi.
Oxumadığım kitab,
Sehirli dem getirdi.

Indi özün de, nece
Çıxarım seni yaddan.
Teper gelmeyir vece,
Doymuşam acı daddan.

Intihar şekillenir,
Gözəl-göyçek qız kimi.
Gelmeyir seda, henir
Durmuşam yalqız kimi.

Bilirsenmi neceyem,
Sensiz darıxırammı?
Bu qaranlıq geceden,
Qorxub karıxırammı?

Sakit, sessiz gecede
"Qu"-dan qulaq tutular.
Kim deyir vaxtsız sevda,
Tezcene unudular.

Seni unutmaq üçün
Gerek özüm yox olam.
Hicranın acısına.
Kederine tox olam.

Sevinc Arzulu

**Kederli deqiqeler**

Nə sənin gözlərin bir an qüssəsiz,
Nə mən qəm- kədəri az oldum, gülüm.
Daima ağlarıq sədasız. səssiz,
Çiçəyi tez solan yaz oldum, gülüm.

Mənim ürəyimi sıxar qüssə, qəm,
Dərdimi deməyə kimsə tapılmaz.
Ala gözlər ola daima yaş. nəm,
Duzlu göz yaşıyla heykəl yapılmaz.

Çaşıb küçənizdən keçəsi olsam,
Nə salam verməyək, nə alaq salam.
Bir gün bu dünyadan köçəsi olsam,
Tək sənin könlündə əbədi qalam.

Sevinc Arzulu

**Kelb kırıkları**

Illər yorub məni, düşmüşəm selə,
Qaranlıq yaraşmır ağaran telə.
Üzü  Kürdəmirdən,Bakıdan belə,
Dolanıb gəzirəm ayrılıqları.

Fərəh əsir düşüb, kədər qalib şah,
Titrəyə dururam, çəkirəm min ah.
Elə hey özümü görürəm,Allah,
Hər yerdə güzgü tək qəlb qırıqları.

Nədən güvəndiyim dağ başı qardır,
Bəlkə təkcə orda həqiqət vardır.
Deyən sevdalımın qulağı kardır,
Dünyanı bürüyüb hıçqırıqlarım.
05.12.2018

Sevinc Arzulu

**Kelbi daşdı**

Eşq gülünü soldurma sən,
Yarpağına yoldurma sən.
Qəm badəsin doldurma sən,
Daha bəsdi,səbrim daşdı.

Büstüm xəyala dalacaq,
Üstünü qar da alacaq.
Hələ neçə il qalacaq,
Dağılmaz ki qəbrim,daşdı.

Aşiq yarıyçun neyləməz,
Gecəni gündüz eyləməz?!
Bircə kəlmə "HƏ"-söyləməz,
Sevdalımın qəlbi daşdı.

Sevinc Arzulu

**Kelmesiyim ben**

Ömrü nurlatmağa parlaq incim yox,
Könlü şurlatmağa bol sevincim yox.
Bele yaşamağa vallah,gücüm yox
Hesretin ebedi kölesiyim ben.

Zirve tek dumana bürünmüşüm ki,
Uzaqdan bembeyaz görünmüşüm ki.
Ne zaman ilan  tek sürünmüşüm ki,
Kederin yerdeki kölgesiyim ben.

Bilmirim,hesreti hicran neyleyir,
Onu özünece qolbend eyleyir.
Çoxu misra-misra yalan söyleyir,
Zamanın en doğru kelmesiyim ben.

Sevinc Arzulu

**Kem calayar**

Yayı da dönderib yaz eyleyende,
Nurunu qısqanıb az eyleyende.
Buludu görüben naz eyleyende,
Güneşin özünü dan qamçılayar.

Göyden başımıza daş tökülende.
Röyada üzükden qaş tökülende.
Benim gözlerimden yaş tökülende,
Senin qılıncından qan damcılayar.

Üzde söylese de ”Vüsalına çat”,
Daldada ayrılıq bexş edir heyat.
Qüsseni,kederi verir qatbaqat,
Ruhuma ferehi can kem calayar.

Sevinc Arzulu

**Kem silecek**

Keder ile barışacaq,
Qüsse ile tanışacaq.
Derd dalımca danışacaq,
Üzümese bem gülecek.

Külek indi verib ara,
Yanağıma salıb qara.
Bax quruca silen xara,
Dost desmalı nem silecek.

Yumruğunu vuran felek,
Minbir duzaq quran kelek.
Başım üstde duran melek,
Göz yaşımı kem silecek.

Sevinc Arzulu

**Kemi gelibdir**

Həsrət edib məni həyatdan küskün,
Solubdur al rəngim,olmuşam üzgün.
Uzaq bir adaya edildim sürgün,
Məni aparmağa gəmi gəlibdir.

Yetişib ömrümün boranlı qışı,
Azalmır küləyi,qarı,yağışı .
Axır öz-özünə axır göz yaşım,
Deyən gözlərimin nəmi gəlibdir.

Qalmışam odunda hey yana-yana,
Ürək sevgisini çətin ki dana
Mən sənin yolunda düşsəm zindana,
Deyərlər Sevincin kəmi gəlibdir.

Sevinc Arzulu

**Kendine qayıt**

Dərələr görünər,çən yox olarsa,
Dünya qara geyməz mən yox olarsam.
Yazıqsan,dağılıb sən yox olarsan,
Araz tək daşma gəl,bəndinə qayıt,
Qayıt özünə gəl,kəndinə qayıt.

Minmə ayrılığın kəhərini sən,
Içində çalış boğ qəhərini sən.
Tökməyə çalışma zəhərini sən,
Qayıt şəkərinə,qəndinə qayıt.
Qayıt özünə gəl,kəndinə qayıt.

Sən əyri yolu da hamar etmisən,
Röyada murada,kama yetmisən.
Neçəsin özünə aşiq etmisən,
Əvvəlki kiçikcə bəndinə qayıt,
Qayıt özünə gəl,kəndinə qayıt.

Sevinc Arzulu

**Kendir kimisen**

Kədər boylananda fərəh yox olar,
Gün-gündən qüssə-qəm artıb çoxalar.
Məni öz” Mən”imdən dartıb çıxaran,
Içimdən asılan kəndir kimisən.

Belə yaşamağa dözüm qalmayıb,
Sənə deyiləsi sözüm qalmayıb.
Daha allışacaq közün qalmayıb,
Həniri azalan təndir kimisən.

Mən Günəş olanda, sən Ay olarsan,
Məcnuna, Fərhada nə tay olarsan?
Yerə düşən zaman min pay olarsan,
Ipindən üzülən qəndil kimisən.
25.07.2013

Sevinc Arzulu

**Kes elllerimi**

Şöküb dağıdacaq yollar hasarı.
Özündən  çıxanda yollara sarıl,
Boylanıb baxırsan yollara sarı,
Uzaqdan görmürsən bəs əllərimi.

Bir az şıltaq ıdı, bir az utancaq,
Bir az alət idi, bir az oyuncaq.
Qoy zərif əlindən tutsun doyunca,
İncitsə dibindən kəs əllərimi.

Dostluğa eytiyac yaxşımı, pismi,
Bu yazı kömürmü, bu yazı hismi,
Bilirsən, güclüdür altıncı hissi,
Çağırır pıçıltı səs əllərimi.

Sevinc Arzulu

**Kış adası**

Qəm otarar quzumuzu,
Gün əritməz buzumuzu.
Olub-qalan ruzimizi,
Qar-boranlı qış udası.

Isti yayı anacaqsan,
Sibirdəsən-sanacaqsan.
Soyuğunda donacaqsan,
Şaxtalıdır qış odası.

Dərd fərəhə yarımır heç,
Yar yarıyla qarımır heç.
Neçə ildir ərimir heç,
Qəlbindədir qış adası.

Sevinc Arzulu

**Ki men gülüm**

Könlümdədir gündüz-gecə,
Dərdimi oxşayır necə.
Qar-yağışı almaz vecə,
Göz yaşımda çimən gülüm.

Azca mehdən sel tək çağlar,
Qollarına qara bağlar.
Gah gizli, gah aşkar ağlar,
Sənsiz qalan çəmən, gülüm.

Danışmayaq əhd-ilqardan,
Nə də vəfa-etibardan.
Niyə ol sevgili yardan,
Ayrı düşdüm ki mən, gülüm.

Sevinc Arzulu

**Kim aldadır**

Dünya  haqqa sakit,susdur,
Bu “soyqırım”yalan “sos”dur.
Hey deyirler “xalqlar dostdur”,
Adamı qum him aldadır.

Yola az daş düz,ermeni
Şer torbanı büz,ermeni.
Türkden elin üz,ermeni
Senin dostun Şimaldadır.

Özü ölü,şeri diri,
Yuyammaz ki üzden kiri.
Dünyanı feth eden şiri,
Qaraqulaq Bim aldadır.

Indi yolun de,haradır
Dilendiyin pul-paradır.
Qerb aleti qapqaradır,
Yalan çalan sim aldadır.

Hem türkün üstüne hürsün,
Hem riyadan çeleg hörsün.
Bütün dünya indi görsün,
Onu her vaxt kim aldadır.

Sevinc Arzulu

**Kim anlayar**

Azalmayır qayğılarım,
Gözden qaçıb uyğularım.
Içimdeki duyğuları,
Kim anlayar benim kimi

Şirindir yar tebessümü,
Aynadakı tecessümü.
Kelbimdeki telatümü,
Sim anlayar benim kimi.

Eşq oduna düşenlerim,
Vüsal üçün şişenlerim.
Berkə-boşa düşenleri,
Him anlayar benim kimi.

Sevinc Arzulu

**Kim biler**

Kim bilər ki nədir qəlbdən keçənim,
Ay ölümü məndən əvvəl seçənim.
Baş götürüb bu dünyadan köçənim,
Bircə anlıq qayıt geri,barışaq.
Sevənlərin cərgəsinə qarışaq.

Bilirsənmi vəslin üzü yaman sərt,
Ayrılığın özü belə olar pərt.
Yolum üstdə dayanıbdır bir afət,
Deyən onun bəlasına düşmüşəm.
Bir  əsarət qalasına düşmüşəm

Könül,sənin sirrini mən yaymadım,
Ürəyimin ağrısından doymadım.
Dərd üzünün maskasını soymadım,
Axıracan oynadı öz rolunu,
Yenə bizdən saldı qara yolunu.

Güneylərdə əlvan çiçək,gül dərdim
Quzeylərə bir dəmət də göndərdim.
Yenə mənim başıma kül əndərdi,
Nə zalımmış sultan dünya,xan dünya.
Damarımdan ağ rəngdə axan dünya.

Qulağımda hicrin səsi səslənər,
Buz qoynunda ilanları bəslənər.
Sözüm vardır mənim sevən kəslərə,
Sevginizin yollarında azmayın.
Məhəbbətdə heç zaman uduzmayın.

Doğrudan da demə on üç nəs imiş,
Mənə ayın otuz günü bəs imiş.
Dabanından soyulsa da Nəsimi,
"Ənəlhəq"dən,uca həqdən dönmədi,
Günəş oldu,alovlanıb sönmədi.

Sevən ürək eşqin odunda yanar.
Sevməz olsa bir gün qəfil dayanar.
Ay gec batar,günəş erkən oyanar.
Zülmət gedər,nurla dolar gündüzlər.
Sərgiləyər neçə əlvan gül,düzlər.

Sevinc Arzulu

**Kim bilir**

Bahar gələr, çəmənlik seyran olar,
Könül dostum yaralı ceyran olar.
Hamı onun hüsnünə heyran olar,
Daş qalanın ağırlığın him bilir.

Ürəyimdə dərd ocağı qalanıb,
Xatirələr bir-birinə calanıb.
Yoxdur daha onu şövqlə çalanı,
Tar-kamanın nə çəkdiyin sim bilir.

Bahar ömrə tufan gəldi qar-qışla,
Bacarmadıq fələk çəkən naxışla.
Yazmışam ki, günahımı bağışla,
Som məktubun ünvanını kim bilir.

Sevinc Arzulu

**Kim görübdür,kim**

Itirdim  könlümün söz qaşlarını,
Soyuda bilmirə m köz daşlarını.
Benim dalğa-dalğa göz yaşlarımı.
Qırılıb tökülen sim görübdür,sim.

Insanı yaşadan ümidlermidir?
Soyuq buza dönen ümidlerimdir.
Gizlin defn etdiyim ümidlerimi
Qem evi altında him görübdür,him.

Dünyanı  harayla zengler tebiet,
Insanı yarayla cengler tebiet.
Günahı qarayla rengler tebiet,
Gümanın rengini kim görübdür,kim.

Sevinc Arzulu

**Kim qala**

Təbəssümüm vurulsa,
Üstdə saray qurulsa.
Ümidlərim qırılsa,
Üz tutaram Şimala.

Fərəh xoş qalmaq istər,
Kədər boş qalmaq istər.
Dolub, boşalmaq istər
Ürəyimi sim ala.

Hicranın bəhrəsindən,
Həsrətin təkməsindən,
Bu dünya səhnəsindən
Kim yox ola, kim qala.

Sevinc Arzulu

**Kim qarıya**

Döndərəməz kilsə məni,
Namərd etməz kinsə məni.
Anlamayaz kimsə məni,
Mən özümün simsarıyam.

Gümanlandım,qəsdə düşdüm,
Qəm havalı bəstə düşdüm.
Leyli kimi xəstə düşdüm,
Qəlb yaramı kim sarıya.

Dərdin izi silinməz heç,
Şaxtada su ilinməz heç.
Bu taledir,bilinməz heç,
Kim qocala,kim qarıya.

Sevinc Arzulu

**Kim unudar**

Hesret qara nemer olar,
Vüsal qızıl kemer olar.
On beş günlük qemer olar,
Yolumuza işıq tutar.

Dünya sanki yanan ocaq,
Addımlarsan yalın ayaq,
Ayrılığı düşmen sayaq,
Tanrım, bizi qemden qurtar.

Gel terpetme yad daşını,
Saf hissleri yad daşımır.
Tezeleyim yaddaşımı,
Ötenleri kim unudar.

Sevinc Arzulu

**Kim yanandı**

Yer üzünə qarğış yağdı,
Qara rəngli naxış yağdı.
Göydən mavi yağış yağdı,
Arzularım kimyalandı.

Niyə düşür dən, nə bilim,
Niyə gəlir çən, nə bilim.
Allah, indi mən nə bilim,
Kim doğrudu, kim yalandı.

Qara ağac çiçək açdı,
Dörd yanına ətir saçdı.
Öz sözündən sonda qaçdı,
Tüpürdüyün kim yaladı,

Xəyallara gülürsənmi,
Çəkdiyini silirsənmi.
Məndən başqa, bilirsənmi
Atəşinə kim yanandı.
1.04.2013

Sevinc Arzulu

**Kimdir günahkar?**

Bir zamanlar izleyerdin beni kölge kibi.
Indi o kölgenin süründüyü torpaq yola
asfalt çekilib,qara asfalt.
Bir zamanlar baxışların üzümde-gözümde gezerdi.
Indi  o baxışlar semtini deyişib külekler kibi.
Bir vaxt bene gül vererdin-
en çox sevdiyim tebii ağ qızılgül.
Indise özgeye gül verirsin-süni qırmızı qerenfil.
Bir vaxt her axşam saat sekkizde bene zeng ederdin.
Danışmasan da nefesinden hiss ederdim sen olduğunu.
Indi yad nömre yığır barmaqların üreyinden xebersiz.
Gözlerini telefondan çekmirsin,birden çaşarsan deye.
Benimse nömremi gözüyumulu yığardın.
Üz-üze gelmekden de qorxursan artıq.
Kimdir günahkar?

Sevinc Arzulu

**Kime deyim**

Göynəyirəm göyüm-göyüm,
Qaraya çevrilib göyüm.
Ahımdan yanar yer-göyüm,
Mən dərdimi kimə deyim.

Gecə-gündüz qəm içində,
Üşüyürəm nəm içində.
Kədərli bir dəm içində,
Mən dərdimi kimə deyim.

Bir xoş günüm,saatım yox,
Bir toyum,bir büsatım yox.
Sənsiz mənim həyatım yox,
Mən dərdimi kimə deyim.

Sənsiz dərmərəm laləni,
Doldurram qəm piyaləmi.
Eşidirsənmi naləmi,
Mən dərdimi kimə deyim.

Xatirələr həzin-həzin,
Qulağıma gəlir səsin.
Dərdi çoxdur sevən kəsin,
Mən dərdimi kimə deyim.

Sevinc Arzulu

**Kimem sensiz**

Kədər qara nurun çox saçacaqdır,
Ayrılıq vüsaldan gen qaçacaqdır.
Üstümdə qurulan ev uçacaqdır,
Su ilə yoğrulmuş qum himəm sənsiz.

İnsan var sevgisin qaş-daşa verir,
İnsan var sirrini sirdaşa verir.
Ahımdan buludlar baş-başa verir,
Daim qan ağlayan bir siməm sənsiz.

Çoxuna xoş gələn mələhətim var,
Həsrətə tab edən mətanətim var,
Kədərdən doğulan məhəbbətim var,
Özüm də bilmirəm mən kiməm sənsiz.

Sevinc Arzulu

**Kimem, gülüm**

Dünya nədən gedər böylə,
Yenə qara geyər göylər.
Əl vursan min ağı söylər,
Kövrək, sarı siməm, gülüm.

Qəmdən uzaq qaçmaram mən,
Yada qucaq açmaram mən.
Sel də gəlsə uçmaram mən,
Qaya tək bərk himəm, gülüm.

Qəm suyundan içən ömrüm,
Dərd zəmisin biçən ömrüm.
Sən mənimçün keçən ömrüm,
Mən sənincün kiməm, gülüm.

Sevinc Arzulu

**Kimler keçdi**

Soyulandan  Nəsimimiz,
Kədər oldu nəsibimiz.
Indi qonaqdır nəslimiz,
Dünya, səndən kimlər keçdi.

Qələm şairin var-yoxu,
Yazdıqların bəmdən oxur.
Vəslə çatmaq istər çoxu,
Ayrılığı nakam seçdi.

Qüssəni xara satalar,
Fərəh gölündə batalar.
Düzün söyləyib atalar,
“Bu dünyanın sonu heçdi”.

Sevinc Arzulu

**Kiraye  qalır**

Indi ben seninçün özge,yadam da
Dilin dönmediyi soyuq adam da.
Neden birotaqlı könül odamda,
Ayrılıq daimi kiraye qalır.

Görüşe herbçi tek geyib gedirsin,
Bilmirsen ne qeder eyib edirsin.
Sözünü yavaşca deyib gedirsin,
Gözünün içinde kinaye qalır.

Şeir orbitinden  çıxa bilmeyem,
Dişimi dişime sıxa bilmeyem.
Qorxur ki hesreti yıxa bilmeyem,
Odur ki vüsal da kömeye qalır.

Sevinc Arzulu

**Kiyametim var**

Yağdırmayın dolunu,
Ezmesin gül kolumu.
Bağlamayın yolumu,
Vesle ziyaretim var.

Göy üzünden nur yağır,
“Segah”yağır,”Şur”yağır.
Qoy işıqlar gur yansın,
Axşam ziyafetim var.

Hesretine gülürüm,
Hicrana dost deyirim.
Hele hara ölürüm,
Kurdla kiyametim var.

Sevinc Arzulu

**Kor bucağa qısıldı**

Aramışda xətir-hörmət varıymış,
Ayrılığın üzü yenə bəridir.
Etibarı təpələrin qarıymış,
Bircə anlıq günəş çıxdı, əridi.

Ilk görüşün dadı hələ damaqda,
Son görüşə buludlar da çağladı.
Təbəssümün donub qalıb dodaqda,
Ayrılığa ümidlər də ağladı.

Sənin ömrün yarıdaca qırıldı,
Mənim ömrüm uzandıqca uzandı.
Vüsal yenə kor bucağa qısıldı,
Zalım fələk bəxti qara yazandı.
28.06.2018

Sevinc Arzulu

**Kor bucağında**

Sənsiz xatirən də yetim qalıbmış,
Ətrini gül üstdə şehdən alıbmış.
Görürsən vüsalı, necə zalımmış,
Dayanıb həsrətin kor bucağında.

Səmtini dəyişən məsdər fellənir,
Daz başlar ümiddən gerçək tellənir.
Ayrılıq kəndirdə elə yellənir,
Sanki uyuyubdur tor qucağında.

Fikrimi səmadan alqış endirib.
Rəsmimi bəzəkli naxış dindirib.
Onu külək döyüb, yağış söndürüb,
Bir də alışmaz ki qor ocağında.

Sevinc Arzulu

**Kor bucaq**

Almaz vecə, nur yanar,
Gündüz-gecə qur, yanar.
Gör necə də gur yanar.
Xatirələr ocağı.

Qalmaram söz altında,
Atəşim köz altında,
Qalıbdır gözaltında,
Həsrətin kor bucağı.

Ümid çəkisindədir,
Rəngləri əksindədir.
Fərəhin köksündədir
Qəmin qurtaracağı.

Sevinc Arzulu

**Köç görüm**

Acı sözdən sancır mənim dalağım,
Sakitliyə möhtac həssas qulağım.
Günü-gündən gurlaşır şeir bulağım,
Diş göynədən saf suyundan iç görüm.

Yavaş-yavaş çəkilir bəyaz tülüm,
Bir az keçsin.cəh-cəh vurar bülbülüm.
Mühasirə eyləyiblər al gülü,
Yolundakı tikanları biç görüm.

Aqil insan xoş simasından bəlli,
Adil insan kömək edər ikiəlli.
Acizlərsə lətifə,qaravəlli.
Ilk baxışdan gəl onları seç görüm.

Heyfslənmə sən olana,ötənə.
Heç inanma əzizim.hər yetənə.
Hey deyirsən bağlıyam bu Vətənə,
Onun üçün şirin candan keç görüm.

Xoşlamıram,heç sevmirəm minnəti,
Gərək görək bu dünyada cənnəti.
Sevinc,uca tut şeiri,sənəti.
Şair kimi ürəklərə köç görüm.

Sevinc Arzulu

**Köçmek isterem**

Yığıb içimdəki qüssəni-qəmi,
Özümdən ayrılıb köçmək istərəm.
Uzaqdan seyr edib fani aləmi,
Arxa qapısından keçmək istərəm.

Eşq hissi həmişə ali olub da,
Könül sarayında vali olub da.
Dünyanın işindən hali olub da,
Yaxşını yamandan seçmək istərəm.

Nə ləzzət alarsan üzüm kalından,
Heç doya bilməzsən beçə balından.
Bezib bu aləmin qeylü-qalından,
Dünyadan kosmosa köçmək istərəm.
12.08.2014

Sevinc Arzulu

**Köçmüşüm**

Tufan yene itiribdir yolunu,
Hey yağdırır başım üstden dolunu.
Xar ekdiyi qaratikan kolunu,
Ellerimle qıra-qıra biçmişim.

Felek hicrin lal büstünü yona tek,
Alışa tek,odlana tek,dona tek.
Qanla dolu al badeni sonadek,
Zaman ile bura-bura içmişim.

Mat qalmışam bele çetin bölüme,
Gözüm düşüb sonaların gölüne.
Yuxumdaca düşmüşüm şiir çölüne,
Misraları sıra-sıra seçmişim.

Derd qocalıb,düzeltmez ki qeddini,
Cavanlıqda bilmedi ki heddini.
Ayrılığın özü boyda seddini,
Kölgesinde dura-dura keçmişim.

Baş eymedim hesret adlı qorxağa,
Vesiyyə tim yazılıbdır yarpağa.
Üzgünler tek ölmemişim,torpağa
Ayağımı vura-vura köçmüşüm.

Sevinc Arzulu

**Köçüb  gelmişim**

Görürsün,nece de serxoşam,gülüm,
Hesretin meyinden içib gelmişim.
Daha şeş düşmeyir zer qoşam,gülüm,
Sayları beynimden biçib gelmişim.

Batan güneş kibi solan vaxtımdır,
Adice bir sözden dolan vaxtımdır.
Eh,daha ağbirçek olan vaxtımdır,
Dost ile; düşmeni seçib gelmişim.

Qırma budağından kövrek saplağı,
Saralan rengiyem yaşıl yarpağın.
Qoynunu geniş aç ana torpağın,
Yanına ebedi köçüb gelmişim.

Sevinc Arzulu

**Köçüb gedeceyem**

Hökmünü oxuyub-linç yaşamağa,
Qıymaz ki balaca günc yaşamağa.
Xatirən qoymayır dinc yaşamağa,
Köçüb gedəcəyəm mən bu şəhərdən.

Səni xatırladır hər dalan, hər tin,
Olmadan yaşamaq çətindən çətin.
Düşüncəm ciddidir,qərarım qəti
Köçüb gedəcəyəm mən bu şəhərdən.

Gözümün önündə qəm təbəssümün,
Şeh kimi işıldar nəm təbəssümün,
Üzümdən əbədi kəm təbəssümüm,
Köçüb gedəcəyəm mən bu şəhərdən.

Sirrimi ulduza, aya deyəcəm,
Sözümü dənizə, çaya deyəcəm.
Kiçik baş daşına qaya deyəcəm,
Köçüb gedəcəyəm mən bu şəhərdən.

Ayrılıq axtarıb cahil aradı.
Hicranın telini həsrət daradı.
Ulduzu işıqsız, günü qaradı,
Köçüb gedəcəyəm mən bu şəhərdən.

Sevinc Arzulu

**Köçüb geldim**

Bu da bir sevda nağılı,
Başda qoymaz dərd ağılı.
Sənə gələn yollar bağlı,
Xatirəndən keçib gəldim.

Ayrılıq nə üzlü dəccal,
Vüsalına verməz macal.
Mənimlə dost olub əcəl.
Şərbətini içib gəldim.

Fələk plan quracaqdır,
Ürəyimdən vuracaqdır.
Bu da ki son duracaqdır,
Əbədilik köçüb gəldm.
14.05.2018

Sevinc Arzulu

**Köçüb gelmisin**

Dəli, gur selləri axın bilmədin,
Dənizi əziz dost seçib gəlmisən.
Gündüzü ruhuna yaxın bilmədin,
Gecənin içindən keçib gəlmisən.

Sən məni yaşadan odlu nəfəsdin,
O fani dünyaya bağlayan kəsdin.
Yanıma gəlməyə nahaq tələsdin,
Əcəl şərbətin tez içib gəlmisən.

Məhəbbət selində axmayan gülüm,
Qəlbini atəşə yaxmayan gülüm,
Bir dəfə üzümə baxmayan gülüm,
Yanıma əbədi köçüb gəlmisən.

Sevinc Arzulu

**Köçüme düşer**

Adamın bir neçə hecası olmaz,
Edamın alçağı, ucası olmaz.
Odamın qapısı, bacası olmaz,
Dərd topu fırlanıb içimə düşər.

Mən necə dənizi qaldırım, axar,
Qartalın məskəni sıldırım, baxar.
Masmavi səmada ildırım çaxar,
Onun da bir ucu köçümə düşər.

Bəxtimə düşəni axır, son yıxar,
Əynimi geydiyim qara don sıxar.
Hamının bəxtinə min, milyon çıxar,
Sıfırlı sonsuzluq heçimə düşər.
24.07.2013

Sevinc Arzulu

**Köçündeyem**

Içimdədir ağrı-acım,
Qəm qardaşım, kədər bacım.
Başımdadır şahlıq tacım,
Mən zamanın köçündəyəm.

Demirəm ki yola gül düz,
Ya yolumu eylə dümdüz.
Axı nədən gecə-gündüz
Iztirabın içindəyəm.

Yoxdur hicrana marağım,
Xatirələrdir yarağım.
Düşmür əlimdən orağım,
Gecə-gündüz biçindəyəm.

Sevinc Arzulu

**Köçürler bir-bir**

Durmuşam cahanın dayağı altda,
Yuxusuz, mürgülü oyağı altda
Qalmışam günlerin ayağı altda,
Üstümden adlayıb keçirler bir-bir.

Insanın qelbinde minbir dilek var,
Güneş var, dolu var, soyuq külek var.
Çiynimiz üstünde iki melek var,
Yaxşını-yamanı seçirler bir-bir.

Tekce men bilirim dözümün günün,
Bir kimse eşitmez sözünün ünün.
Tez-tez dumanlanır gözümün önü,
Yaxınlar dünyadan köçürler bir-bir.

Sevinc Arzulu

**Köçürtme**

Dodağından ad dama,
Şirin-şəkər dad dama.
Gedib qonar yad dama,
Qəlb quşunu uçurtma.

Düzünə çiçək əkdir,
Dizinə bulaq çəkdir.
Sevdiyin tənha-təkdir,
Fürsətini qaçırtma.

Araya qan salarsan,
Yaman razı qalarsan.
"İki"qiymət alarsan,
Başqasından köçürtmə.

Sevinc Arzulu

**Kök altındadır**

Gülüm,oxuduğun derdliyin kibin,
Bunca qelb ağrıdan sertliyin kibin.
Deyen insanlığın,merdliyin kibi
Xeyali sevgin de kök altındadır.

Yerin qayğısını indiden çekin,
Quruyar boz torpaq,azalar ekin.
Şireye yığışmış arılar tekin,
Dünyanın köksünü sök,altundandır.

Namerdin sözüne yalnız merd gülmüş,
Dilinden çıxan söz sanki mergümüş,
Gözünü nurladan qızıl ve gümüş,
Torpağın üstüne çök,altındadır.

Sevinc Arzulu

**Köklenib**

Daha xoş xeyala az-az dalıram,
Qüsseden kedere körpü salıram.
Sen yada düşende donub qalıram,
Yeriye bilmeyir şeir köhlenim.

Dünyanın qemini qelbde tek daşı,
Itibdir üzüyün firuze qaşı.
Bes neden axmayır gözümün yaşı,
Ezabmı azalıb,derdmi köhnelib.

Bu fani dünyanı etmedim seyr,
Heç acı sevdadan görmedim xeyr.
Benim tek kövrekdir yazdığım şeir,
Qelbim ancaq qem notuna köklenib.

Sevinc Arzulu

**Köksümden imiş**

Qılıncdan itidir, biçir  içimden,
Qanımı su kimi  içir içimden.
Bir ağrı qatarı keçir içimden,
Qaranlıq tuneli köksümden imiş.

Qalmayıb dağların axar-baxarı,
Çeni evez edir tüstü-buxarı.
Deyesen seninle o namerd xarın,
Davası cavanlıq eksimden imiş.

Sevgide sözüne mesul axtardım,
Qatqısı olmayan mehsul axtarıdm.
Gözlerin hemişe mehcul axtardı,
Tenliyin cavabı iksımdan imiş.
17.10.2018

Sevinc Arzulu

**Kölesiyem men**

Ayrılıq könlümü tarimar edir,
Məni öz içimdə zəlil, xar edir.
Həsrətin hələ də istismar edir,
Sanır ki əbədi köləsiyəm mən.

Ahıma olubdur hamı kar, axı
Odumun üstünə yağmır qar axı.
Mənim səndən başqa kimim var axı,
Dərdimi sənlə böləsiyəm mən.

Yaxşını ayırma, Yarəbbim, mərddən,
Uzaq et könlümü alçaq namərddən.
Elə bu əzabdan, elə bu dərddən,
Günlərin birində öləsiyəm mən.
14.05.2018

Sevinc Arzulu

**Kölg kimi**

Bal şirinlik udda qalar,
Al istilik odda qalar.
Sənli dünyam yadda qalar,
Naməlum bir bölgə kimi.

Duyğuların dəqiqi yox,
Qızılı yox, əqiqi yox.
Ümidimin hüququ yox,
Tanınmayan ölkə kimi.

Şirin, əziz xatirələr,
Su tək təmiz xatirələr.
Lirik, həzin xatirələr
Izləyir bax,  kölgə kimi.

Sevinc Arzulu

**Kölge**

Mənim işıq həyatımdan qaranlıq bir kölgə kimi keçib getdin.
Qapqaranı bu dünyada istəyərək, bilə-bilə seçib getdin.
Kölgə adın nur ömrümə damla ziya salmadı heç,
Mənim parlaq yaddaşımda  acı riya qalmadı heç.
Elə keçdin, elə getdin izinsə də düşmədi,
Amma ötən o bircə il ağrısız ötüşmədi.
Sənlə bağlı ağrım-acım yaman tez yaddan çıxdı,
Tüstülənən könül evim əbədi oddan çıxdı.
Həm adımdan, həm yadımdan silindin sən,
Riyakardın, yalançıydın.Bilindin sən.
Indi durub keçmişimə acı-acı baxıram mən,
Eşqin mavi dənizinə təmiz su tək axıram mən.
Daha mənim ürəyimdə ,inan, sənə yer də yoxdur,
Rastalaşarsaq günün biri mənim qısa salamım da
sənin üçün ,vallah, çoxdur.

Sevinc Arzulu

**Kölgeli**

Şair ömrü yaşayıram,
Ağır bir yük daşıyıram.
Altındaca üşüyürəm,
Vüsalın özü kölgəli.

Küsülülər barışır, bax,
Fərəh qəmə qarışır, bax.
Pıçıltıyla danışır, bax.
Hicranın sözü kölgəli.

Tanrı çəkib naxışımı,
Yağdırıb gül yağışımı.
Qaldırammır baxışını,
Həsrətin gözü kölgəli.

Sevinc Arzulu

**Kölgemi**

Kölgəmi tapdayan ayaq izisən,
Ya mən qıraq durum, ya da sən çəkil.
Sən mənim Ayımın oyaq üzüsən,
Ya mən rəsm olum, ya da sən şəkil.

Aldığım zərbələr göyərmir nədən,
Elə diş-diş olub batır sinəmə.
Ümidlər gözümə heç dəymir nədən,
Eləcə kül olub yatır sinəmə.

Dolaşıq fikirlər didir bağrımı,
Üzüm günəşədir, küləyə deyil.
İlahi, sən götür könül ağrımı,
Haqsız söz ox olub ürəyə dəyir.

Elə itirmişəm indi özümü,
Ayağım hardadır, başım hardadır.
Qarışdır  od alsın, dindir közümü
Bilmirəm gözümün yaşı hardadır.

Düşərək ocağın üstünə bəlkə,
Qəfildən diksinib "cız" edəcəkdir.
Bilirsən, salmaram tüstünə kölgə,
Ətiri qəlbimi buz edəcəkdir.
11.11.2017

Sevinc Arzulu

**Kölgene**

İnsaf eylə, gəl az dara çək məni,
Hicranınla qoyma təkbətək məni.
Ağac olum, susuz çöldə ək məni,
Hərdənbir də gəl kölgəmdə kölgələn.

Mən nə deyim tale adlı zalıma,
Dəymiş qaldı, əl uzatdı kalıma.
Kədərlənsəm yanarsanmı halıma,
Ağlayaram, göz yaşımdan kölgə nəm,

Dünya tilsim, sirrin açа bilməzsən,
Günəş olub işıq saça bilməzsən.
Daha məndən uzaq qaça bilməzsən,
Mən dönmüşəm bir əbədi kölgənə.

Sevinc Arzulu

**Kölgesi**

Üşüyerem istinde,
Boğularam tüstünde.
Başımızın üstünde
Ayrılığın kölgesi.

Bülbül tek öten olmaz,
Yad diyar veten olmaz.
Hayına yeten olmaz,
Olma eşqin kölesi.

Qul kimi satılarsan,
Odlara çatılarsan.
Kül olub atılarsan.
Olmaz ağlayan kesn.
10.03.2018

Sevinc Arzulu

**Könlüm isiner**

Sevdası mənimdir, sözü dünyanın
Alovu mənimdir, közü dünyanın.
Dolanıb gəlsə də düzü-dünyanı,
Yenə xatirələr qəlbimə sinər.

Ayrılıq zalıma nuş olmuşam ki,
Yuvaı dağılan quş olmuşam ki...
O qədər kədərə tuş olmuşam ki,
Azacıq fərəhdən könlüm isinər.

Sevgini verən də, allan da  Allah,
Həsrətin zülmündən hey çəkirsən ah.
Ruhun qulağıma pıçıldayır, bax
Mən qurban olaram sənin səsinə.
14.11.2018

Sevinc Arzulu

**Könlümü**

TƏ NHA  KÖNLÜMÜ

Hə srə tlə barışmaz ki,
Hicranla tanışmaz ki.
Küsübdü, danışmaz ki,
Dindir sə n ha könlümü.

Və sli cığal edibdir,
Sə rsi sığal edibdir.
Kə də r işğal edibdir,
Mə nim tə nha könlümü.

Bulağı quruyubdur,
Ağacı çürüyübdür.
Ə bə di bürüyübdür,
Bə yaz çə n ha könlümü.

Sevinc Arzulu

**Könlümün**

Hərdən leysan olur gözümün yaşı,
Azalmır bəs nədən qəmi könlümün.
Dərdlə rastlaşıram hər addımbaşı,
Sevincdir,fərəhdir kəmi könlümün.

Kim deyir sevənin qəlbi daş olar,
Sevgisi könlündə almaz qaş olar.
Ulduz tək parıldar,daim yaş olar,
Qurumaz gözünün nəmi könlümün

Bülbül öz sözünü sübh çağı deyər,
Dolaşar al güllü bir bağı,deyər.
Çalınsa qəm simi min ağı deyər,
Həm zili,həm də ki bəmi könlümün.

Sevinc Arzulu

**Könlümün başı**

Köçəri durnalar elə dönübdür,
Saçlarım ağappaq telə dönübdür.
Bir qəmli nəğmədən selə dönübdür,
Neynəyim, qurumur gözümün yaşı.

Kəsilmək bilməyən leysan kimiyəm,
Özgəyə verilən ehsan kimiyəm.
Ikiyə bölünmüş insan kimiyəm,
Dərdimi anlamaz hər nadan, naşı.

Yenə göy üzünü alıb duman, çən,
Sis-duman içində ah çəkirəm mən.
Yadıma düşəndə artıq yoxsan sən.
Od tutub alışar könlümün başı.

Sevinc Arzulu

**Könül**

Bütün alem şenlik edir,ne ağlarsan sen qan,könül
Yarın qemi-qüssesini ilk baxışdan qanan könül.
Seni bezdirmek eger bu dünyadan xar meqsedi
O anda xeyal olar sene hemdem,canan, könül.

Yorub yola salmısan da  neçe-neçe nehs illeri,
Elece sen olmusan  ol atrşe yanan,könül.
Indi ne fikirdesen,barışarmısan yar ilen,
Inciyib küsdüyünü göz yaşıyla danan könül.

Sene ben,bilirem ki,ne cefalar çekdirmişem.
Yene de beni hemdem,en yaxını sanan könül.
Gözümün yaşını de,qurudarmı badi-seba,
Bilirim,dönüb  geri gelmez Yusif-Kenan,könül.

Senin o gur telini bundan sonra kimler darar,
Gözel Xumarın eşqine dinden döndü Senan,könül.
Bu gedimli dünyada çox padişah taxtdan düşüb,
Özgeye uyan aşiq olmaz seni anan,könül.

Sevinc Arzulu

**Könül  hayım**

Yanaram köze,bilmirim
Hicrana döze bilmirim.
Onsuz da üze bilmirim,
Bulanıqdır vüsal çayı.

Beni el içre xar eden,
Dünyanı başa dar eder.
Ağlamağa vadar eden,
Esir eder günü,ayı.

Dolu-göyün hiddetidir,
Çovğun-yerin nifretidir.
Neynim,tale qismetidir,
Yaman çoxdur keder payım.
Eşidilmez könül hayım.

Sevinc Arzulu

**Könül açıram Allaha**

Əlim Tanrı kitabında,
Diləyə arzu axtarır.
Dərd fələyin girdabında,
Boğulmağa su axtarır.

Istəyirəm arzu gülüm,
Açsın, bir daha solmasın.
Hamı tək danışım, gülüm
Gözüm yaş ilə dolmasın.

Ay ürəyim, nolar, dincəl,
Sürət ilə getmə daha.
Bir az macal versin əcəl,
Könül açıram  Allaha.

Deyirəm  ey qadir Allah,
Mehribanım, ulu Tanrım.
Sənsən dar günümdə pənah.
Yalnız sənə minnətdaram.

Bunca sevgi verdiyinçün,
Belə gözəl qəlbə görə.
Məni belə sevdiyinçün,
Minnətdaram milyon kərə.

Imtahan hesab edirəm,
Bu kədəri, iztirabı.
Gecə-gündüz yol gedirəm,
Dərgahına çatım barı.

Bilirsən, hər imtahandan,
Üzü, alnı ağ çıxmışam.
Hər cür qadadan, bəlada
Ölməmişəm, sağ çıxmışam.

Hər göz yaşı ağ mirvari,
Çəkdiyim ah çən-dumandır.
Xoşbəxt olsun ömür barı,
Özlədiyim tək gümandır.

Sənin sevgin qəlbimdədir,
Ağladar da için-için.
Sarı simi qəlb inlədir,
Qəm şərbətin içim-içim.
11.11.2018

Sevinc Arzulu

**Könül duyğularım**

Mənim könül duyğularım,
Doğulur öz içimdə.
Neçə-neçə rəngi vardır,
Hərəsi bir biçimdə.

Paklıq qar tək parlaq, bəyaz,
Nifrət sarı rəngdədir.
Könlümdəki saf duyğular,
Sularla ahəngədir.

Vurğunuyam bu aləmin,
Neçə cür hiss yaradır.
Azalmayan dərdi-qəmin,
Rəngi zülmət qaradır.

Qırmızı rəng sevgi gücü,
İnsanlığın rəmzidir.
Mavi rəng dünya sevinci,
Könlümün dənizidir.

Uca Tanrıya sevgimin,
Rəngi tünd yaşılıdır.
Şevinc incə, saf hissini,
Ürəyində yaşadır.

Sevinc Arzulu

**Könül gölüm**

Ölümdən qorxmuram ki,
Allah əmridir ölüm.
Əmrindən çıxmıram ki,
Dalğalı könül gölüm.

Bu gölün sahilində,
Kiçicik ağac da var.
Qaç elin cahilindən,
Bax,başında tac da var.

Gölüm dalğalanaraq
Ümmanı da andırır.
Hərdən sevdalanaraq,
Sevməyəni yandırır.
29.04.2018

Sevinc Arzulu

**Könül şamım**

Ömrün-günün bu çağında,
Asıldım gül budağından,
Zamanın gur bulağından,
Ben su içdim qetre-qetre.

Yüzlüklerle doğulan pul,
Öz içinde boğulan pul.
Haramlıqla yığılan pul,
Xerclener de fitre-fitre.

Pis yaxşını danır,Allah
Özün haqlı sanır,Allah.
Bax,nece de yanır,Allah
Könül şamım titrek-titrek.

Sevinc Arzulu

**Köyümü**

Camaatı gösterse de deyanet,
Sağlığına veren yox ki zemanet.
Ulu Tanrım,verrem sene emanet,
Qoyma ki apara seller köyümü.

Evvelki yarı yox,yaraşığı yox,
Gecenin bezeyi ay işığı yox.
Derdini demeye haqq aşiqi yox,
Aşikar ağlayar eller köyümü.

Daha ben köçümü çekib gedirim,
Baxaraq içimi çekib gedirim.
Ağ kefen biçimi çekib gedirim,
Deyen uçuracaq yeller köyümü.

Qanla ekiz olan qadaya benzer,
Sakinsiz,buz kibi odaya benzer.
Uzaqdan baxanda adaya benzer,
Ehate eylemiş göller köyümü.

Qalmayıb xoş günü, ne xoş senesi,
Ne evvelki sebri,ne hövselesi.
Hanı qelb açmağa bir kimsenesi,
Bürüyüb tikanlı çoller köyümü.

Sevinc Arzulu

**Köz  yağışı**

Kölge tek sürünüb yanımca axır,
Duanı-senanı balınca taxır.
Hayana gedirim.dalımca baxır,
Islandım altında göz yağışının.

Bezen sual olub qeddini eyir,
Kiminle? harada? nece ve neyi?
Bezen de incidib xetrime deyir,
Paslandım altında söz yağışının.

Baxışı baxşıma qarmaq atır,bax
Hicranı başımı nece qatır,bax.
Ateşi könlümde ocaq çatır,bax
Süslendim altında köz yağışının.

Sevinc Arzulu

**Köz bağladı**

Hesret meni başa düşdü,
Gücü gözde yaşa düşdü.
Arzu vaxtım qışa düşdü,
Sinem üstü buz bağladı.

Acını da şirin yedim,
Qem demidir, durum gedim.
Aşiqden aşığa dedim,
Neçe dastan söz bağladı.

Hicran qara rengi seçen,
Vüsal dövlet-maldan keçen.
Özüne al libas biçen,
Yaralarım köz bağladı.
28.10.2013

Sevinc Arzulu

**Köz kiresi isteyir**

Bir nəfər var: həm simic, həm tamahkar,
Qış günündə alammazsan ondan qar.
Aşaraq daşsa da onda dövlət-var,
Xoşladığın göz gorəsi istəyir.

Bir kimsəyə verməyir ki xeyir o,
Səhər-axşam doymayaraq yeyir o.
"Dünya-aləm mənim olsun "-deyir o,
Gördüyündən göz kirəsi istəyir.

Baş açmazsan söhbətindən , sözündən,
Biclik yağar  göy hiyləgər gözündən.
Doymayır ki bu boyda yer üzündən,
İlahidən göy kürəsi istəyir.

Sevinc Arzulu

**Köz közü**

Dünya zülmət,toranlıq
Qəlbimdə nigaranlıq.
Hava yaman qaranlıq,
Seçirmi heç göz-gözü.

Görürsən namərd yarı,
Necə əzizlər xarı.
Bir mənnən də de barı,
Gətirəndə söz-sözü.

Gül-çiçəkli yamac yox,
Dərdimə bir əlac yox.
Yad oda ehtiyac yox,
Yandıracaq köz-közü.

Sevinc Arzulu

**Köz misraları**

Kim deyir ürəkdə qəmim olmayıb,
Ayrılıq vüsala qənim olmayıb.
Fərəhdən, sevincdən kəmim olmayıb?
Bəzən heyran edər öz misralarım.

Qızılgül qönçəsi sübh açа bilər,
Ətrindən həsrət də gen qaça bilər.
Bircə oxunuşdan od saça bilər,
Yandırar dünyanı köz misraları.

Ah çəksən dumanım, çənim də olar,
Tökülər telimə, dənim də olar.
Hərdənbir özümə qənim də olar,
Üşüdər qəlbimi söz misraları.

Sevinc Arzulu

**Köz yağışının**

Yenə qaranlıqdır sevda ölkəsi,
Həsrətin yamanca ərinməz olub.
Hicranın üstünə düşüb kölgəsi.
Vüsalın özü lap görünməz olub,

Kim deyir ayrılıq ürəyi sıxmaz,
Şaxta-boranıyla, qar-qışlarıyla.
Bu gecə boğular, sabaha çıxmaz,
Qadın axıtdığı göz yaşlarıyla.

Hərə bir tərəfdən gəlir üstümə,
Qalmışam altında söz yağışının.
Düşmən yığılacaq korun tüstümə,
Çalmışam altundan köz yağışını.
10.06.2018

Sevinc Arzulu

**Köz-köz oldu**

Gözden uzaq adam vardı,
Qerq olası qadam vardı.
Dünya boyda odam vardı,
An içinde göz-göz oldu.

Çoxaldıqca qayğılarım,
Buxarlandı uyğularım.
Havalandı duyğularım,
Misralanıb söz-söz oldu.

Yay çıxıb artıq oxundan,
Ne xeberin derd toxundan.
Sevdiyimin bir "Yox"undan,
Könlüm evi köz-köz oldu.

Sevinc Arzulu

**Köz-köze qaldıq**

Özümlə götürüb alagöz yarı,
Dedim xoşbəxt olaq bir anlıq barı.
Sandıq yol gedirik bahara sarı,
Sonunda payızla üz-üzə qaldıq.

Söylədim yolunu bir bizlərdən sal,
Bir kəlmə demədi, sanki oldu lal.
Bizdən üz döndərdi vəfasız vüsal,
Həsrətin özüylə göz-gözə qaldıq.

Nəfəs də almağa vermədi imkan,
Heç əskik olmadı qasırğa, tufan.
Atəşsiz, alovsuz yandırdı hicran,
Yenə sevdiyimlə köz-közə qaldıq.
05.11.2017

Sevinc Arzulu

**Közüm qalmayıb**

Bilirsən, ayrılıq necə ağırdır,
Hicranın tufanı yeri dağıdır.
Yenə də yollara yağış yağıbdır,
Izinə sürtməyə izim qalmayıb.

Şad olan vaxtımda düşmürsən yada,
Daha hərləməyir məni qan-qada.
Kədər atlı olub, mənsə piyada.
Dərdə deyiləsi sözüm qalmayıb.

Yalanın əynində tülü də yoxdur,
Doğrunun ətirli gülü də yoxdur.
Sevgi ocağının külü də yoxdur,
Onsuz yandırmağa közüm qalmayıb.

Sevinc Arzulu

**Közümün üstüne**

Çərx-fələyin kar vaxtıdır,
Dağda bəyaz qar vaxtıdır.
Əsəbimin dar vaxtıdır,
Söz demə sözümün üstünə.

Göz yaşarar ürək dinsə,
Üzüm dönsün könlüm dönsə.
Alovlanmaz bir də ,sönsə
Su tökmə közümün üstünə.

Ölüm saymaz varı-yoxu,
Mənə qalar dərdin çoxu.
Yayındakı kədər oxu,
Sancılar dözümün üstünə.

Sanki yağış hədər yağar,
Ağ buluddan kədər yağar.
Ala gözdən qəhər yağar,
Tökülər özümün üstünə.

Azalmayir cəbrim daha,
Deyən hazır qəbrim daha.
Qalmayıbdır səbrim daha,
Qar yağıb dözümün üstünə.

Sevinc Arzulu

**Közünde axtarıram men**

Deyəsən qulağım düşübdür səsə,
Torpaq yollar ilə gedirəm kəsə.
Ayağımda çarıq, əlimdə əsa
Səni yer üzündə axtarıram mən.

Sarıbdır qəlbimi xoş həyəcanım,
Yorğunam, qalmayıb heç yarı canım.
Anam tək sevdiyim Azərbaycanın,
Çölündə, düzündə axtarıram mən.

Məhəbbət mələyi səmadan enməz,
Ürək sevdiyindən ayrılmaz, dönməz.
Qəlbimin atəşi heç zaman sönməz,
Odunda, közündə axtarıram mən.

Sevinc Arzulu

**Kurtardığı yer**

Bu yolun sonu qem, dayan, ezizim,
Kederdir qapımı döyen,ezizim.
Bilsen, üreyimdir deyen, ezizim
Allahu-ekberin qurtardığı yer.

Azalmır dumanım, çnim, a dünya,
Sevincim özüme qenim, a dünya.
Tek menim qelbimdir, menim, a dünya
Qüssenin ferehi qaytardığı yer.

Başımın üstündei lham meleyi,
Eskiltmez elimden qelem-leleyi.
Neden heç görünmür çerxi-feleyin,
Qurdu quzu ile; otardığı yer.

Sevinc Arzulu

**Kükreyir**

Şıltaq ləpələr kimi.
Qızıl səpələr kimi.
Torpaq təpələr kimi,
Xəyallarım kükrəyir.

Sevinci unudursan,
Yaman ucuz tutursan.
Acını tez udursan,
Fərəh dalğan çəkməyir.

Qəmli həsrət  havası,
Sanki gətirib yası.
Neynim,dünyanın pası,
Ürəyimə çökməyir.
02.10.2018

Sevinc Arzulu

**Kül olarsan**

Bu dünyanın dərdi-qəmi,
Mənə qalıb deyəsən.
Nə olar ki bircə dəfə,
Qəlb qapısın döyəsən.

Soruşasan:-`Nə var, nə yox,
Mənim gülüm, necəsən.
Bilirəm ki qayğılar çox,
Yatırsanmı gecə sən.

Gözlərinin altı yenə,
Kölgələnib, qaralıb.
Bir diqqətlə baxım sənə,
Rəngin yaman saralıb.

Nə çəkirsən bu dünyanın,
Dağdan ağır dərdini.
Anla gülüm, bilməyəcək
Kimsə sənin qədrini.

Qaladığın bu atəşə,
Təkçə özün yanarsan.
Yaxınlaşma çox günəşə
Sonunda kül olarsan.

Sevinc Arzulu

**Külek yatır**

Hardasa əsməmiş bir külək yatır,
Hardasa dənizdə lal həsrət batır.
”Səmalar durnanın uçan yeridir”
Şeir söz-çiçəyinaçan yeridir.

Dilin ucundadır atəşi,közü.
Bişirib çıxarar şair hər sözü.
Anlarını “Anlar”da əks etdirər,
Kədərini gözündə rəqs etdirər.

Hər şeir sözümün mabədi deyil,
Hər ürək məhəbbət mə`bədi deyil.
Analar önündə siz də diz çökün,
Çətindir daşımaq vallah,duz yükün.

Açılar üzünə qırxıncı qapı,
Qırılar fələyin sehirli sapı.
Bir durna görməyi arzulayan mən,
Bir durna səsinə qəribsəyən sən.

Arzum budur çətinlikdə sınanma,
Inanmırsan yuxulara,inanma.
Nə uzaqda xarı bülbül ağlasın,
Nə yaxında qəm dənizi çağlasın.

Sehrli yuxular tərsə yozulmaz,
Taleyin yazdığı yazı pozulmaz.
Insan gəlir ölüm ilə üz-üzə,
Hələ vardır bu dünyada “Möcüzə”

Pəncərədən baxan aya qapı aç,
Xəyalının səmasında qanad aç
Arzumdur söz atın sən dördnala çap,
“Axtar,bu dünyada yaxşıları tap”.

“Ağrımayan ürək verək biz ona”,
Nağıl kitabı da yetişdi sona.
Mənim də nağılım burada bitdi,
Hələlik,ay Reyhan,sağ ol mən getdim.

Sevinc Arzulu

**Külek yayası**

Dərdin qara rəsmin çəkin,
Önündəcə siz diz çökün.
Ağlayıban yaş da tökün,
Gəlib çıxdı dərd yiyəsi.

Dərd muncuq təkin düzülər,
Bircə-bircə can üzülər.
Dərddən qəm-qüssə süzülər,
Bal bilibən kim yeyəsi.

Dərdin yerin nəm eyləyin,
Duz-çörəyin kəm eyləyin.
Az bir yerə cəm eyləyin,
Onsuz da külək yayası.

Sevinc Arzulu

**Külekler**

Soyuq bir qış günü,gece yarısı
Tufanda vüsala çatar külekler.
Dünyanın en decel qoca-qarısı,
Mehebbet gölünde batar külekler.

Qovar uzaqlara yaz nesimini,
Ancaq qıra bilmez qem tilsimini.
Hey çalar könlümün keder simini,
Möhneti qüsseye qatar külekler.

Qarşısın kesecek neçe qala var,
Dincini almağa çemen,tala var.
Ne gözel adlardır:Xezri,Gilavar,
Xezerin qoynunda yatar külekler.

Sevinc Arzulu

**Külekler daraya**

Bu fani dünyanın elinden tutdum,
Aparıb çıxardı haraya beni.
Heqiqet quşunu göye uçurtdum,
Şer,riya aldılar araya beni.

Üstüne keyfli çağ sepe idim,
Hesretin önünde dağ-tepe idim.
Okean ömründe ağ lepe idim,
Bes neden tapşırdın qaraya beni.

Deme neden keder.qem çalan udam,
Sonunda ayrılıq olacaq qudam.
Vüsalın etrinden bir içim udam,
Külekler telimi daraya benim.

Sevinc Arzulu

**Küleyin laylası**

Fərəh, sevinc gəlsin çayla,
Coşub daşsın hay-harayla.
Külək sizə çalsın layla.
Pəncərəni açın, yatın.

Dərd önündə sərvaxt olun,
Bəyaz tale, ağ bəxt olun.
Ömür boyu xoşbəxt olun,
Qəm-kədərdən qaçın, yatın.

Demirəm ki riya olun,
Mavi rəngli röya olun.
Başdan başa ziya olun,
Zülmətə nur saçın, yatın.

Sevinc Arzulu

**Küleyin mesajı...**

Nahamar yolları düzlenibdir bax,
Qapqara cild ile üzlenibdir bax.
Saxta tebessümü gizlenibdir bax,
Hicrin qan qoxulu dodaqlarında.

Insan qismetinden uzağa qaçmaz,
Şam yansa dibine heç işıq saçmaz.
Ne bir buğda bitmez,ne çiçek açmaz,
Taleyin şoraket torpaqlarında.

Söyüdler başların yere eyirler,
Az qala budaqlar suya deyirler.
Gören pıçıldayıb neler deyirler,
Küleyin mesajı yarpaqlarında.

Sevinc Arzulu

**Kündesi**

Yol gedə bilmirəm,
Sol gedə bilmirəm.
Həll edə bilmirəm,
Misalın həndəsi.

Əsərmi meh görən,
Qalarmı şeh görən.
Hardadır, eh, görən
Vüsalın bəndəsi.

Ürəkdən gülməz ki,
Fələkdən bilməz ki,
Küləkdə gəlməz ki
Qumsalın kündəsi.
15.08.2014

Sevinc Arzulu

**Kürdemir**

Aşiqə sevdiyi yarı şirindir,
Bəxtə düşən bəxtiyarı şirindir.
Hər insana öz diyarı şirindir,
Mənim üçün doğma vətən Kürdəmir.

Həmişə gur yansın odun-ocağın,
Anasan, kimsədən yox umacağın.
Nə yaxşı ki çox istidir qucağın,
Torpağında "qızıl" bitən Kürdəmir.

Neynəyim ki səndən uzağa düşdüm,
Tənha ağac kimi soldum, bürüşdüm.
Nə yaxşı ki bu gün sənlə görüşdüm,
Güllərin içində itən Kürdəmir.

Torpağında ululların qəbri var,
Ürəyimin təpəri var, səbri var.
Gözlərimdə o günlərin qəhri var.
O kədəri yaşadıq tən, Kürdəmir.

Sevinc deyər sənsən mənim gülzarım,
Şinən üstdən düşər hər vaxt güzarım.
İlk beşiyim, son beşiyim-məzarım,
Dar günümdə haya yetən Kürdəmir.

Sevinc Arzulu

**Küsdü duyğular**

Torpaq gül bitirməz heç, şoran olsa,
Dərdini aç danış, hal soran olsa.
Çöldə tufan olsa, qar-boran olsa,
Könlümü qızdırar isti duyğular.

Vüsalı dost, yaxın sanası olsam,
Həsrətin zəhmini qanası olsam,
Atəşin yerinə yanası olsam,
Bacamdan çıxacaq tüstü duyğular.

Hər vaxt lovğalanıb çox öyündülər,
Ürək ritmim ilə bir döyündülər.
Sevinc, çox incitmə, ərköyündülər,
Bir də görərsən ki küsdü duyğular.

Sevinc Arzulu

**Küser de geder**

Rastına gəlməsin eşqin saxtası,
Batar qəm gölündə vüsal yaxtası.
Həsrətin buz kimi soyuq şaxtası,
Qəlbini qılınc tək kəsər də gedər.

Bu gün də yaş gələr yaşının üstə,
Sabah nə yazılar daşının üstə.
Qarlı bir qış günü başının üstdən,
Sərt şimal küləyi əsər də gedər.

Qüssədən gözləri dolan dünyada,
Yel,tufan telini yolan dünyada.
Bu qədər haqsızlıq olan dünyada,
Həqiqət yalandan küsər də gedər.

Sevinc Arzulu

**Küskün olar**

Duman olar.çiskin olar,
Bütün aləm miskin olar.
Elə dolar dəli könlüm,
Kainatdan küskün olar.

Göynəyirəm göyüm-göyüm,
Qaralıbdır yerim-göyüm.
Hər tərəfi qan bürüyüb,
Qırmızıya dönüb göyüm.

Payız gələr,ayaz olar.
Sarı saçım bəyaz olar.
Bircə qaşıq su istəsəm,
Kür quruyar,dayaz olar.

Bu qayanın başı haça,
Əcəl məndən uzaq qaça.
Bu bəxt ki məndə var,çətin
Eşq günəşi işıq saça.

Ürəyim qəm yığnağıdır,
Dərdi dostun qınağıdır.
Sevinc də başqaları tək,
Bu dünyanın qonağıdır.

Sevinc Arzulu

**Küsüb itirmişem**

Insan öz-özünü bəzən öyər də,
Kimsəyə hirslənib dizinə döyər də.
Bir çiçək yetirə,ağac göyərdə.
Pusub oturmuşam şoranlıqları.

Ağrıdan-acıdan başqa nə verib,
Qara qanadını üstümə gərib.
Dolub dayanmışam, olmuşam qərib,
Susub itirmişəm seyranlıqları.

Yol-izi cəngəllik,keçilməyirdi
Gün-gündən artırdı, kiçilməyirdi..
Gündüzü gecədən seçilməyirdi,
Küsüb  bitirmişəm toranlıqları.

Sevinc Arzulu

**Laçın, deniz**

Günəş nurun səpələr,
Al geyər göy təpələr.
Nəğmə söylər ləpələr,
Suları qırçın dəniz.

Ağ ləpələr yarışar,
Qum sulara qarışar.
Su pərisi sarışın,
Qayası yalçın dəniz.

Xəzərimin tayı yox,
Sevənlərin sayı yox.
Dostun tək qağayı yox,
Olsun sar,laçın dəniz.

Sevinc Arzulu

**Lal qayalar**

Yaşıl mamırdır üzəri,
Nə tayı var, nə bənzəri.
Sahilində göy Xəzərin,
Sıralanıb lal qayalar.

Tərpətməyin siz, amandır,
Oturuşub nə zamandır.
Sirr saxlayan bir şamandır,
Yaranışdan lal qayalar.

Şeirlikdir, qəzəllikdir,
Çox nadir bir özəllikdir.
Bir bənzərsiz gözəllikdir,
Yer üzünə xal qayalar.

Sevinc Arzulu

**Lal qübar kimi**

Azıbdır yolunu məhəbbət köçün,
Soruşma harada, soruşma neyçün.
Sənin ki həsrətdə yoxdur bir suçun,
Dayanma önündə günahkar kimi,
Əsmə başım üstdə ruzigar kimi .

Gül açar nə vaxtsa kol, gözləyərəm.
Qayıt, əvvəlki tək ol, gözləyərəm.
Hələ də kədərlə yol gözləyərəm.
Bu nakam sevdanın sonu var kimi,
Qəm yağar başıma qara qar kimi.

Taleyin gərdişi pozularmı de,
Röyalar tərsinə yozularmı de,
Sənsiz mənə xoş bəxt yazılarmı de,
Fələk də naləmi duymaz kar kimi,
Həsrət göz önündə bitər xar kimi.

Sevərək sevilmək  sən demə günah,
Görüşə ümid var , Allaha pənah.
Əzizim, ürəkdən heç çəkmə sən ah,
Adın ürəyimdə sadiq yar kimi,
Yaşaram həyatda bəxtiyar kimi.

İndi aramızı kəsib uçurum.
Qəm quşun yuvadan tezcə uçurum.
Gözünü gözümə necə köçürüm,
Hicran aramızda lay divar kimi,
Möhnət qəlbdə yaşar lal qübar kimi.

Sevinc Arzulu

**Lal xatireler**

Ayrılıq görmek ağırdır,
Şirin –şeker röyamızda.
Toy-düyündür, çal-çağırdır,
Indi yaşıl dünyamızda.

Ümidimin ayağından,
Hesretin yamanca dartır.
Gözelliyin sorağında
Olanların yaman artıb.

Yaşayır  lal xatireler,
Danışmağa  sözü yoxdur.
Üşüyür  xal xatireler,
Qızınmağa közü yoxdur.
16.09.2018.

Sevinc Arzulu

**Lal Xatiren**

Isti, ilıq nur saçıb kürəyimə səpildi,
Xatirən hövlank qaçıb ürəyimə təpildi.
Qaragözlü xatirə  gizlənməyə yer gəzir,
Oddan qalan külüylə ürəyimi çox əzir.

Meylini salıb mənə qucaqlayıb durubdur,
Tez-tez yalvarıb  mənə, bucaqlayıb durubdur.
Eh, məni səndən də çox istəyir bal xatirən,
Nə dili, nə ağzı yox, danışmır lal xatirən.

Sevinc Arzulu

**Lalan, aşiq**

Yol üstündə boynun burub,
Qalan aşiq, qalan aşiq.
Qəm əlindən məni durub,
Alan aşiq, alan aşiq.

Dəymədüşər, cığalmısan,
Saçlarıma sığalmısan,
Sən də mənim tək qalmısan,
Nalan aşiq, nalan aşiq.

Bahar don geyməz xəzəldən,
Zövq alaq şerdən, qəzəldən,
Bu dünya özü əzəldən,
Yalan aşiq, yalan aşiq.

Yar çətin yarsız keçinə,
Qoşula yarın köçünə,
Düşüb saf eşqin içinə,
Talan aşiq, talan aşiq.

Sevinc qəmdən qaçmayacaq,
Aləmə nur saçmayacaq,
Solub daha, açmayacaq,
Lalan aşiq, lalan aşiq.

Sevinc Arzulu

**Laleye**

Çox sevirem lale gülün,
Araya çekmesin tülü.
Bu gün senin fereh  günün.
Öten esrden qalmısan.
Demirem ki qocalmısan.

Neçe gözel ad görmüşük,
Seni güler, şad görmüşük.
Ne vaxt seni yad görmüşük?
Düşmenindən öc almısan.
Demirem ki qocalmısan.

Qırx sekkiz il nə yaşdı ki,
Aprelde çaylar daşdı ki.
Illər ömre şabaşdı ki,
Yenə xeyala dalmısan,
Demiremki qocalmısan.

Dünyaya gelişin ile,
Edalı yerişin ile,
Kişmişi gülüşün ile.
Gözelliye yol salmısan,
Demirəm ki qocalmısan.

Görmeyesen heç acı sen,
Bize en kiçik bacı sen.
Hamımızın baş tacı sen,
Sen en dadlı xəyalımsan,
Demirem ki qocalmısan.

Sen ananın ala gözü,
Sen bacının  şirin sözü.
Daim güler olsun üzün,
Kehkeşanlı celalımsan,
Demirem ki qocalmısan.

Sevinc göz yaşlarını sil.
Bu heyatın qedrini bil.
Baban kimi ömr et-yüz il,
Aya, güne ucalmısan,
Demirem ki qocalmısan

Sevinc Arzulu

**Layla de**

Üreyimi söz alsın,
Qara gülüm sozalsın.
Ağrılarım azalsın,
Ana,bene layla de.

Başıma qar eleyib,
Beyazlığa beleyib.
Ağlayır qelb meleyi,
Ana,bene layla de.

Keder,qem düzümlüyüm,
Deme ki dözümlüyüm.
Derdliyim,hüznlüyüm
Ana,bene layla de.

Felek yaman cövr eder,
Zaman terse dövr eder.
Yaralarım qövr eder,
Ana,bene layla de.

Üz-gözümde celalım,
Dağılıbdı melalım.
Gel ey başı belalım,
Ana,bene layla de.

Sevinc Arzulu

**Lelek kimi**

Boylanırsan qaşın üstdən,
Atlanırsan yaşın üstdən.
Ömrüm-günüm, başım üstdən
Əsib keçdin külək kimi.

Kədərimi az eylədin,
Keyf-damağım saz eylədin.
Payız ömrü yaz eylədin,
Qanadlandın mələk kimi.

İstədiyim aldıracam,
Səndən bir tel saldıracam.
Dara düşsəm yandıracam,
Nağıldakı lələk kimi.

Sevinc Arzulu

**Leyli-Mecnun**

Elçatmaz eşq-sevgi,uca mehebbet,
Muğamın muğama qarışmağıymış.
Belke de,ezizim, esl seadet,
Leylinin Mecnuna qovuşmağıymış.

Deme Mecnunluqmuş ürekden sevmek,
Deme sevgi –keder möhnetmiş,gülüm.
Sevgili yarına qovuşmaq,yetmek,
Qadınçun en böyük töhmetmiş,gülüm.

Ben Leyli olmadım,ola bilmedim,
Sen de  tez el çekdin divanelikden.
Mehebbet  yolunda öle bilmedim,
Dedin ki ne çıxar pervanelikden.

Keçibdir Mecnun-Qeys,Keremler dövrü,
Bu sevgi-mehebbet nağıllaşıbdır.
Keçibdir şah dövrü,heremler dövrü,
İndiki Mecnunlar ağıllaşıbdır.

Müasir gözeller pul axtarırlar,
Sevgi yox,mal-dövlet,servet gezirler.
Bezen qırx yaşında dul axtarırlar,
Mehebbet evezi şöhret gezirler.

Sevinc Arzulu

**Loğmanısan sen**

Ağrıyır ürəyim,dərdi var yenə,
Həmişə qəm-möhnət gətirdin mənə.
Baxma telimdəki bəmbəyaz dənə,
Gəl ki ürəyimin fərmanısan sən.

Gah bikef oluram,dəmli oluram,
Sevincli oluram,qəmli oluram.
Hərdən də gözləri nəmli oluram,
Sağalmaz dərdimin dərmanısan sən.

Durub yollarını kəsir ürəyim,
Düşüb gözlərinə əsir ürəyim.
Niyə belə quş tək əsir ürəyim,
Sevincin qəlbinin loğmanısan sən.

Sevinc Arzulu

**Mat, gördüm**

Heç zaman gecikmə görüş yerinə.
Qızılı işlətmə gümüş yerinə.
O qara gözlərdə gümüş yerinə,
Qüssə-kədər gördüm,qəmi-dərd gördüm.

Arayıb axtardım şaman insanı,
Ucaldıb qocaldır zaman insanı.
Nakişi görmüşəm yaman insanı,
Yaxşını həmişə kişi.mərd gördüm.

Kədərli  ürəyim bir az narahat,
Taleyin işinə lap qalmışam mat.
Dünya mənim ilə oynadı şahmat,
Başqasıyla oynar dama,nərd gördüm.

Gülüm,aramızda əsdi ruzigar,
Sənə gedən yolu kəsdi ruzigar.
Bu qədər zülm etmə.bəsdir ruzigar,
Taleyin üzünü mən çox sərt gördüm.

Vurulmuşam qızılgülün ətrinə,
Çiləyərəm şerimin hər sətrinə.
Nahaq dəydim yaxın dostun xətrinə,
Dayanıbdır mə`lul.müşkül.mat gördüm.

Sevinc Arzulu

**Mavi gül**

Benim kimi qoca zaman,
Hesret qaldın taca zaman.
Semadan da uca zaman,
O xoş ilimi neynedin.

Benden tezce küsen külek,
Yolum üstün kesen külek.
Baxça-bağda esen külek,
Qönçe gülümü neynedin.

Düzü duman bürüyübdür,
Vesl ağacı çürüyübdür.
Neden suyu quruyubdur,
Mavi gölümü neynedin,
Vaxtsız ölümü neynedin.

Sevinc Arzulu

**Mavi buludlar**

Göy üzü dalğalanır,
Mavi-mavi buludla.
Eşqimiz lovğalanır,
Bir azacıq ümidlə.

Ayrılıq bir bəladır,
Vüsal ilə görüşə.
Yer eşqə mübtəladır,
Göylər hazır döyüşə.

Ildırımlar çaxacaq,
Şimşəklər oynayacaq.
Sellər-sular axacaq,
Yer üzü doymayacaq.

Məhəbbət əfsanəsi.
Dillərdə dolaşacaq.
Min könül təranəsi,
Yallı tək qollaşacaq.

Hücum edər dalğalar,
Sahilə axşam çağı.
Ayrılğı yırğalar,
Dərd olar solu-sağı.

Biz də belə böyüdük,
Zaman-zaman, a dostum.
Sevməzdik ki öyüdü.
Aman-aman, a dostum

Indi məğlub olmuşuq,
Quru yox kəlməsinə.
Qəhərlənib dolmuşuq,
Hicranın gəlməsinə.

Bilirəm,ömrüm boyu,
Sevdan qəlbimdən getməz.
Həsrətlə hicrin toyu,
Olsa da sona yetməz.

Bu kədərli dünyanın.
Şahı özüm olacam.
Qəm qədərli dünyanın.
Ahı özüm olacam.

Sevinc Arzulu

**Mavi göz yaşları**

MAVİ GÖZ YAŞI

Nə hərb, nə dava ola,
Tərtəmiz hava ola.
Hər tərəf səma olar,
Mavi göz yaşlarıyla.

Həsrətin güllələnir,
Hicranın şillələnir.
Fəxr edib qürrələnir,
Dəniz öz daşlarıyla.

Qəm torpağı quraqdır,
Fərəh sərin bulaqdır.
Şeir daha parlaqdır,
İnci söz qaşlarıyla.
30.04.2018

Sevinc Arzulu

**Mavi yaş**

Nə hərb, nə dava ola,
Tərtəmiz hava ola.
Hər tərəf səma olar,
Mavi göz yaşlarıyla.

Həsrətin güllələnir,
Hicranın şillələnir.
Fəxr edib qürrələnir,
Dəniz öz daşlarıyla.

Qəm torpağı quraqdır,
Fərəh sərin bulaqdır.
Şeir daha parlaqdır,
İnci söz qaşlarıyla.
30.04.2018

Sevinc Arzulu

**Meh çekmişdim**

Qızlar içrə ən göyçəkdim,
Bəyaz qar tək ağ ləçəkdim.
Təzə açmış tər çiçəkdim,
Göy buluddan şeh çəkmişdim.

Qəmin yolun daraltmışdım,
Dərdin rəngin saraltmışdım.
Göy qurşağı yaratmışdım,
Yeddi rəngli zeh çəkmişdim.

Şeirsiz həyat nəyə lazım,
Gedib çoxum,qalıb azım.
Nəğmə qoşdu könül sazım,
Musiqili meh çəkmişdim.

Sevinc Arzulu

**Meh darayı**

Susar sözüm, eşidərəm,
Dolar gözüm, eşidərəm.
Təkcə özüm eşidərəm,
Könlümün ah harayını.

Qan ağlayar göylər, dinsəm,
Mizrab dəyən sarı simsə...
Uçurda bilməz ki kimsə,
Qəlbimin şah sarayını.

Sevən hicrə dözə bilməz,
Yuxunu tərs  yoza bilməz.
Tufan belə poza bilməz,
Saçımın meh darayını.
06.12.2018

Sevinc Arzulu

**Mehe benzer**

Xatirələr qalaq-qalaq,
Oxuyuram varaq-varaq.
Ömrüm ağ-qaralı zolaq,
Qar üstündə zehə bənzər.

Boşa çıxmaz tələşlarım,
Tərk edər dost-yoldaşlarım.
Könlə axan göz yaşlarım,
Gül üstündə şehə bənzər.

Dar gündə köməyim, Allah
Qoyma ki göynəyim, Allah.
Gizlicə çəkdiyim ol ah,
Qəlb titrədən mehə bənzər.

Sevinc Arzulu

**Mehebbet dastanı**

Çağir, gülüm, şeriyyetde ustanı,
Yazılacaq bir mehebbet dastanı.
Eşitmişdim ikinci bir genclik var,
Bu heyatda ne rahatlıq, dinclik var.

Sen sevirsen ömrün yarı yaşında,
Min bir xülya, min bir istek başında.
Xatireler sesden iti uçağın,
Arzularsan döne cavanlıq  çağın.

Sanarsan ki, ilk mehebbet yaşarsan,
Dara düşse qarlı dağlar aşarsan.
Üreyinde min bir arzu, kam olar,
Hey ağlarsan, ala gözün nem olar.

Qem dağına belke bir gün yağar qar,
Zaman öter, könül yaran sağalar.
Ne ömür-gün yoldaşını itirme,
Ne bağında özge çiçek bitirme.

Qaranquş tek mehebbet de köçeri,
Bu kederin keçeridir, keçeri.
Sene heç ne vermeyecek mehebbet,
Nahaq yere eyleme gel sen xiffet.

Uşaqlaşan bir qoca görmüsen heç,
Geri dönmek senin üçün gecdir gec.
Xam xeyalı defn ele öz qelbinde,
Gizli ağla, hesrete döz qelbinde.

Yadda qalar onun qemli baxışı,
Pozammarsız tale çeken naxışı.
Ne olsun ki birleşmemiş ayrıldız,
Siz günahın qılıncından sıyrıldız.

Qoy gelmesin üstüne qem karvanı,
Sen özün ol həyatının sarvanı,
Yene ders al heyat gözelliyinden,
Keçib getme qemin xezelliyinden.

Qoyma dolsun ala, gözel gözlerin,
Qalmasın heç qəebinde şeir-sözlerin.
İncisen de üreeyinde sev, inci,
Eskik etme üreyinden sevinci.

Sevinc Arzulu

**Mehebbet efsanesi**

Daha hicran can alamaz,
Üreyimden qan alamaz.
Mavi gemin yan alamaz,
Uçub könül tersanesi.

Özümüzü oda salaq,
Denizde bir ada salaq.
Qu gölünü yada salaq,
Beyaz ölüm-su sehnesi.

Çoxaldıqca paxılımız,
Saralmadı taxılımız.
Bizim sevgi nağılımız,
Bir mehebbet efsanesi.

Sevinc Arzulu

**Mehebbetim**

Esrlerin sınağından keçib geldin,
Dost-tanışın qınağından keçib geldin,
mehebbetim.
Sen su qeder saf,temizdin,
Gur dalğalı bir denizdin
batmaq isterdim qoynunda,
Uduzdum ben eşq oynunda bile-bile.
Göz yaşlarım töküldükce gile-gile
ağ varağa
Dönürem tenha qovağa.
Ümid evim kilidlenmiş,
Xeyallarım dilimlenmiş,
kiçilmişdir.
Arzularım köç etmişdir sehra boyu.
Ben kederden nece doyum.
Gör nece de qucub beni,
Könül quşum uçub benim,
daha dönmez.
Sanırdım ki alovlanan qelb ateşim
bir de sönmez.
Heyf,söndü.
Taleyimin üzü döndü,
yaman döndü.

Sevinc Arzulu

**Mehriban xanıma**

MEHRİBAN  XANIMA
(H.Əliyev adına fondun pre-
zidenti Mehriban Əliyevaya.)

Adı kimi özü də çox mehriban,
Ad özünə,özü ada yaraşır.
Onun kimi varmı gülər bir insan,
Qüssə-kədər ancaq yada yaraşır.

Doğulubdur bir alimlər evində,
Jurnalist və yazıçıydı babalar.
Gəlişinə hamı qəlbən sevindi,
Al geyindi bütün ellər,obalar.

Ağıllıydı,həm də sadəydi bu qız,
Həm də məğrur.Uca qayalar kimi.
Oxumaqda bütün diqqəti yalnız,
Yaxına qoymazdı nifrəti,kini.

Həm alimdir,həm müəllim anası,
Həyat dərsin ilkin öyrəndi ondan.
Analardır ömür boyu yanası,
Tez itirdi anasını,heyf,sonda.

Dildə əzbər gözəl ağlı,kamalı
Ailəsi onun ilə öyünər.
Pəri kimi yaraşıqlı camalı,
Təmiz qəlbi saf hisslərlə döyünər.

Yaxşı  ailənin oldu gəlini,
Onu çox sevərdi Zərifə xanım.
Sıxdı səadətin bəyaz əlini,
Taledən yarımaq gözəl,ay canım.

Üç nəvə bəxş etdi Əliyevlərə,
Qızları gözəldi,oğlusa igid.
Bol sevinc paylayır qəmii evlərə,
Yaxşının özün gör,adını eşit.

Leyli tək gözəldir onun Leylası,
Qoşa oğulun da anasıdır o.
Özü tək həzindir ana laylası,
Şam kimi övladçun yanasıdır o.

Insaqnların xoşbəxtliyi arzusu,
Əlindən gələni daim edər o.
Hələ gəncdir,çox cavandır Arzusu,
Bir gün o da quş təkin köçüb gedər.

Babanın adını daşıyan Heydər,
Hələ məktəblidir,hələ oxuyur.
Böyüyər,o olar Koroğlu tək ər,

Gözəl qızlar üçün çələng toxuyar.

Yaraşıqda seçilməz ki qızlardan,
Baxan deyər budur gəlir üç bacı.
Göz çəkilməz atəşin ulduzlardan,
Könlünüzdə olmasın ağrı-acı.

Anasının yoxluğuna qəmlələr.
Sevindirər atanın var olmağı.
Qara gözü lal qüssədən nəmlənər,
O bacarar vəfalı yar olmağı.

Neçə ildir İlhamına dayaqdır,
Yaxşı gündə,pis gündə də həmdəmdir.
Ana kimi gecələr də oyaqdır,
Ürəyində həm sevinci,həm qəmi.

Atası tək qaynatasın sevərdi,
Səhər-axşam qulluğunda durardı.
Mehribanca danışıb dindirərdi,
Onun üçün isti ocaq qurardı.

Prezident gəlinindən razıydı,
Ata kimi çəkərdi də nazını.
Sanırdı ki dost-doğmaca qızıydı,
Tale pozdu belə gözəl yazını.

Fələk gəldi soldurdu baxça-bağı,
Acgöz gözü nə usandı,nə doydu.
Bu xalqın da qəlbinə çəkdi dağı,
Prezidentin həyatına son qoydu.

Nə yaxşı ki yerinə oğlu gəldi,
Atasının ad-sanını artırar.
Çətinlikdə xalqa uzanan əldi,
Öz işiylə şöhrətini qaldırar.

Prezident yoldaşı olmaq çox çətin,
Onun da min dərdi,min qayğısı var.
Qadın da olmalı kişi tək mətin,
Könlündə sevgi tək saf duyğusu var.

O evinin həm istəkli xanımı,
Həm də gözəl anadır üç övlada.
Xalq uğrunda verər də öz canını,
Uymaz nə şöhrətə,nə də ki ada.

Onun da həyatda işi az deyil,
Özünün min bir cür işi-gücü var.
Xalqına xidmətə salıbdır meyl,
Bu yolda daima olsun ona yar.

Rəhbərlik eyləyər böyük bir fonda,
Xalqına çalışar o kömək etsin.
Danışar hamıyla mülayim tonda,
Çalışar kasıbın dadına yetsin.

Gah baxça tikdirər,gah da ki məktəb,
Xalqına xidməti borc hesab edər.
Onunçun açılar qaranlıq mətləb,
Xəstənin məsrəfin fondu da odər.

Ehtiyac olarsa əməliyyata,
Fondundan bir kömək istər köməksiz.
Könlündən dərdini,qəmini atar,
Özünü hiss etməz daha kimsəsiz.

Hər zaman uzadar kömək əlini,
Ona dua-səna edər xəstələr.
Unudar tənhalar öz təkliyini,
Könül baxçasından çiçək dəstələr.

Onun köməyinə bel bağlayaraq,
Qəbula gələrlər yaxın-uzaqlar.
Ana qəlbi ilə hey çağlayaraq,
Onunçun övladdır bütün uşaqlar.

Uşaq evlərinin qapısı açıq,
Üzünə daima Mehriban xanım.
Səni görən kimi qüssə də qaçır,
Xeyirxah mələksən,bunu nə danım.

Yaxşı insan yaxşı işlə ucalar,
Daim uca zirvələrdə olun siz.
Sevər sizi bütün gənclər,qocalar
Ömür sürün,lap yüz yaşa dolun siz.

Başınız üstündə Tanrı nəzəri,
Həmişə işiniz qoy  rəvan olsun.
Seyr eylə alagöz,nazlı Xəzəri
Ömrünüz ən gözəl ətirlə dolsun.

Həyat yoldaşınla ömür sür xoşbəxt,
Xalqın duasıyla səni min yaşa.
Qismətin olsun qoy əsil səadət,
Belə xoş günlərin çatmasın başa.

Bu gənc yaşında sən olmusan nənə,
Maşallah,amma ki heç oxşamırsan.
Nəvələr dalbadal gələcək yenə,
Bu istək ilə sən çox yaşamısan.

Onların toyunda şənlik edərək,
Həyat yoldaşınla rəqs eyləyərsən.

Hər işi həll olan tənlik edərək,
Ömrünə-gününə nəqş eyləyərsən.

Sevinc Arzulu

**Melahet**

Hər parlayan dövləti-var deyilmiş,
Hər bəyazlıq təmiz ağ qar deyilmiş.
Dünya ona vəfalı yar deyilmiş,
Ölümün vəslinə yetdi Məlahət.

Fələyin üzünün maskasın soyub,
Qapqara qəlbinin fe`linə uyub.
Zülmətdən,zillətdən,əzabdan doyub,
Başını götürüb getdi Məlahət.

Kim söyləyib ölümsüzlük nağlını,
Kim açar ki haqdan gələn bağlını.
Tənha qoyub qoşa çinar oğlunu,
Hamını pərişan etdi Məlahət.

Yolunun üstünə ağ çiçək düzüb,
Xatirə dəftərin gözucu süzüb.
Dünyanın dərdindən,qəmindən bezib,
Uzaqlaşıb gözdən itdi,Məlahət.

Dost-tanış ağlayır bax,anan kimi,
Pərvanə odlara hey yanan kimi.
Sonu yazılmayan bir roman kimi,
Beləcə yarımçıq bitdi Məlahət.

Sevinc Arzulu

**Melek  beni**

Qara gözlü semend tapım,
Üzü doğru Sehend,çapım.
Qoluma bazubend taxım,
Tez tanısın felek beni.

Yaxın dostum ağ şamandır,
Meyli yalnız ağ şamadır.
Yaman yerde axşamladım,
Tora saldı kelek beni.

Derdden sınmaz qelb qururum,
Qarşısında qala qurum.
Başım üstde dövre vurur,
Çağırır ağ melek beni.

Sevinc Arzulu

**Melek kimi**

Həsrətin olubdur ən yaxın sirdaş,
Sədası gözümdə parlayan daş-qaş,
Duyğular əlində qalmışam çaş-baş,
Hissim cövlan edir hey külək kimi.

Daima döyüşüb yaxşı yamanla,
Insan necə yaşar ahu-amanla.
Görüşə gəlmişəm ötən zamanla,
Dərdini çəkirsən, ey ürək, kimin.

Deyirdim kimsəyə vermərəm səni,
Adını ağ güllə hörmərəm sənin.
Aşkarda bir daha görmərəm səni,
Nə olar, yuxuma gəl mələk kimi.
05.08.2014

Sevinc Arzulu

**Meleklendim**

Daş atdım qəm yuvasına,
Göz yumdum eşq səfasına,
Qəfildən şeir havasına,
Mən kökləndim.

Cənnət kimi guşə gəzir,
Vüsal deyən boşa gəzir,
Nədən hamı qoşa gəzir,
Mən təkləndim.

Qəmli könlü şad istədim,
Ayrılığı yad istədim,
Tanrıdan qanad istədim,
Lələkləndim,
Mələkləndim.

Sevinc Arzulu

**Men beri**

Üz tutuban yad diyara gedənim,
Getdiyin yollardan qayıt,dön bəri.
Hey şeytanın dediyini edənim,
Boylan geri,mənə sarı.çön bəri.

Həsrətindən sarı tellər ağarmış,
Isti yayda səhraya qar yağarmış.
Eh,vüsalın nə zalımmış,dağarmış
Günəş uzaq gedər,duman,çən bəri.

Tanrıdan gələn xoş nidaydın,səsdin.
Sərin külək kimi ömrümə əsdin.
Həsrət aramızı çay kimi kəsdi,
Sən qaldın o tayda ağlar,mən bəri.

Sevinc Arzulu

**Men bilersen**

Ürəyinə alov düşər,
Könlün eşqə girov düşər.
Saçlarına qırov düşər,
Sənsə onu dən bilərsən.

Qar yağar, izin tutular,
Qəm gələr, üzün tutular.
Ağlasan, gözün tutular,
Tül pərdəni çən bilərsən.

Məhəbbəti əzəl görsən,
Sözü şeir-qəzəl görsən,
Harada bir gözəl görsən,
O gözəli mən bilərsən.
12.12.2017

Sevinc Arzulu

**Men Denizem**

Doqquz aydır yol gəlirəm,
Üzərək sağ-sol gəlirəm.
Arzuları bol gəlirəm,
Sarışın, ağbənizəm,
Mən-Dənizəm.

Nuranənin nübarıyam,
Fəridin də ilk barıyam.
Saçları qızıl sarıyam,
Bələk libası təmizəm,
Mən -Dənizəm.

Yastığımdır bənövşə,
Kipriklərim sıx meşə.
Bənzəyirəm günəşə,
Ən gözəl bəndənizəm,
Mən- Dənizəm.

Mən anamın ilk barıyam,
Mən atamın nübarıyam.
Saçları qızıl sarıyam,
Bələk libası təmizəm,
Mən -Dənizəm.

Sevinc Arzulu

**Men dolanım**

Vüsal gülünü böyüt tək,
Sözümü eşit öyüd tək.
Tək-tənha bitmiş söyüd tək,
Həsrətdən saçını yolanım.
Qoy başına mən dolanım.

Nə başqa bir görüşə get,
Nə də özgə vüsala yet.
Varlığımı sən qəbul et,
Neynəyim,budur olanım.
Qoy başına mən dolanım.

Baxışında şimşək çaxan,
Göz yaşları sel tək axan.
Uzaqdan həsrətlə baxan,
Qüssədən gözü dolanım.
Qoy başına mən dolanım.

Yandıraram közünü mən,
Unutmaram sözünü mən.
Sənin qara gözünü mən,
Darıxanda min yol anım.
Qoy başına mən dolanım.

Sevincəm, çən tülüm kimi,
Suya enər külüm kimi.
Çiçəyim tək,gülüm kimi,
Vaxtsız,vədəsiz solanım.
Qoy başına mən dolanım.

Sevinc Arzulu

**Men İdim, Allah**

Qara reng etdiler çöhre ağımı,
Qırıb mehv etdiler pöhe bağımı.
Qaytar, qaytar geri körpe çağımı,
O vaxtlar nece de şen idim, Allah.

Gül-çiçek xeyanet qoxuyan zaman
Xar gizlin yalanlar toxuyan zaman,
Ayrılıq hökmünü oxuyan zaman,
Men özüm deyildim, sen idim, Allah.

Nurluydu geceler xeyalatımda,
Ele hey çapırdım xeyal atında.
Uçurdum semanın xeyal qatında,
Bax.onda felekle ten idim, Allah.

Gah gözün ağardıb susdurdu meni.
Gah dar ağacından asdırdı meni,
O zalım torpağa basdırdı meni,
Ele bil bir ovuc den idim, Allah.

Ahımı, nalemi leysan eyledim,
Gelecek günleri ehsan eyledim.
Bir gün de qalxaraq  üsyan eyledim,
Bax, onda özümdüm, men idim, Allah.

Sevinc Arzulu

**Men İradeyem**

Ömür yoldaşım-başımın tacı,
Əziz dostlarım mənim –dörd bacım.
Yaxın düşməsin nə kədər, nə qəm
Mən İradəyəm.

Nəvələrimdir Vidadi, Fidan
Bir dəfə  görən çətin  unudar.
Ürəyi açıq, hamıya həmdəm,
Mən İradəyəm.

Nur damlasıyam mavi dənizin,
Yer kürəsini axtarın, gəzin
Bu gen dünyada məndən var bəyəm
Mən İradəyəm.

Demə qocaldıq, dostum, onu bil,
Yaşanacaqdır yüzlərcə fəsil.
Hələ dolmamış incə badəyəm,
Mən İradəyəm,

Sevinc Arzulu

**Men qayğıyam**

Dənizin üstüylə uçan,
Mavi ləpələri qucan
Ağ qağayıyam.

Yoxluğuna çətin dözülən,
Gözlərindən astaca süzülən
Uyğuyam.

Xəyalında məskən salmış,
Könlünü əsir almış
Duyğuyam.

Səmimi danışan,
Ən yaxın dosta,tanışa
Sayğıyam.

Zərifcə işığa,
Körpəcə uşağa
Qayğıyam.

Sevinc Arzulu

**Men qerib**

Qərib idim, mən qərib də qaımışam,
Qərib-qərib min xəyala dalmışam.
Qəribliyə aparan bir yolmuşam,
Duman qərib, çiskin qərib,çən qərib.
O qəribdir, sən qəribsən, mən qərib.

Qəriblikdə ürəyim də, özüm də,
Qəriblikdə söhbətim də, sözüm də.
Qəriblikdə alışmayır közüm də,
Vətənində qəribə dönən qərib.
O qəribdir, sən qəribsən, mən qərib.

Mən görmədim heç qəribin şadını,
Çox hiss etdim qəribliyin dadını.
Qərib tək daşıdım qərib adını,
Qəriblikdə ulduz tək sönən qərib.
O qəribdir, sən qəribsən, mən qərib.

Yoxlamayın səbirini qəribin,
Nərddə düşən sə-birini qəribin.
Dayaz qazın qəbirini qəribin,
Qəriblikdən qəbirə enən qərib.
O qəribdir, sən qəribsən, mən qərib.

Qərib olmaq yaman yıxar Sevinci,
Tək qəriblər başa çıxar Sevinci,
Qəriblikdə həsrət sıxar Sevinci,
Qəriblərin içində mən ən qərib.
O qəribdir, sən qəribsən, mən qərib.

Sevinc Arzulu

**Men sensiz**

Sözümdə saf,düzgünəm,
Alagözü süzgünəm.
Qəm-kədərdən üzgünəm,
Yaşamıram mən sənsiz.

Donmuş gölə bənzərəm,
Sönmüş külə bənzərəm.
Solmuş gülə bənzərəm,
Yaşamıram mən sənsiz.

Çətin görüşək bir gün,
Gözümdə həsrət mürgün.
Bu dünya mənə sürgün,
Yaşamıram mən sənsiz.

Yox dərdimin əlacı,
Itib könlümün tacı.
Qəlbimdə ağrı-acı,
Yaşamıram mən sənsiz.

Dörd dövrəmdə yağılar,
Dünyam qəmdən qağılar.
Dilimdə şeir-ağılar,
Yaşamıram mən sənsiz.

Sevinc Arzulu

**Men sevdim**

Ay  zaman, bir anlıq dur,
Seslensin Bayatı-Şur.
Qelbimin sözünde nur,
Men sevdim qezel-qezel.

Sel geldi, daş ağartdı,
Yel geldi,yaş  ağartdı.
Telimi “kaş” ağartdı.
Men sevdim özel-özel.

Sendin sakitim, dincim,
Ağ  mirvarim, dürr-incim.
Sensen menim sevincim,
Men sevdim gözel-gözel.
21.04.2018

Sevinc Arzulu

**Men Solmazam**

Bir xanımam məğrur, mətin
Əsiriyəm məhəbbətin.
Həyat mənə deyil çətin
Dünyanı gəzib gəlmişəm.

Dünyamızı almasın qəm,
Alagözlər olmasın nəm.
Ayağımın altında qəm,
Kədəri əzib gəlmişəm.

Çıxaq Kürün qırağına,
İsinək gün çırağına.
Eh, şerin də sorağına,
Nəsrdən bezib gəlmişəm.

Cavanam,, azdır sinnim də,
Nəvələr iman-dinim də.
Cəfərin "Od gəlini"ndə,
Adımı sezib gəlmişəm.

Gənc nənəyəm, adım Solmaz,
Tayım-bərabərim olmaz.
Üzüyümün qaşı almaz,
Xalları düzüb gəlmişəm,
Gözümü süzüb gəlmişəm.

Sevinc Arzulu

**Men Şuşasız**

Men Şuşasız, sen Şuşasız,
Hanı  o dilbər guşemiz.
Bu ayrılıq bes deyilmi,
Ucalan gur ses deyilmi.
Yatanlar tez  ayılacaq,
Şuşa geri qayıdacaq.
Ordumuzun gücü ile,
Fexr ederem  öcüm ile.
Menim qalib esgerlerim,
Herbe talib esgerlerim.
Ermənini qovacaqdır,
Torpağımı alacaqdır
Zalımların daş elinden,
Utanmaz heç emelinden
Faşist xisletli ermeni.
Sonda halını görmeli.
Durar qorxaq tülkü kimi,
Gözünde parlayar kini.
Olmasaydı rus ayısı,
 Amerikan daydayısı,
Çoxdan geri çekilerdi,
Düşmen qanı tökülerdi
Işğal edilmiş torpağa,
Kelbimiz dönerdi dağa.
Tezlikle o gün gelecek,
Olacaq mümkün, gelecek.
Biz qelebe çalacayıq,
Yurdu geri alacayıq.
Qelben salam vereceyik,
Sevinerek güleceyik.
Boy-boy açacaq laleler,
Gur axacaq şelaleler.
Vesle çatacaq arzular,
Könlüm o günü arzular.
27.10.2018

Sevinc Arzulu

**Men üçün**

Geymişəm qara köynəyi,
Qəlbimdə həsrət göynəyi.
Burnumun ucu göynəyir,
Qan ağlaram mən sən üçün.

Ürəyinə kimsə dəyib,
Gülüşünü mənimsəyib.
Bir gör necə qəribsəyib,
Dağ darıxar sis, çən üçün.

Köçün sürüb gedir karvan,
Başçısıdır Məcnun-sarvan.
Hər vaxt sənə ollam qurban,
Ölən varmı heç mən üçün.

Sevinc Arzulu

**Men yarımı**

Kim deyir eşq yolu dümdüz,
Bu yol boyu qızılgül düz.
Axtarıram gecə-gündüz,
Arayıram mən yarımı.

Məhəbbət ən uca taxtdır,
Taleyimə düşən baxtdır.
Görəmmirəm neçə vaxtdır,
Gizlədibdir çən yarımı.

Ürəyində silinmişəm,
Düzünmüşəm,çölünmüşəm.
Mən ikiyə bölünmüşəm
Itirmişəm tən yarımı.

Sevinc Arzulu

**Men zerresi**

Yarpaq yaşıldır ezel,
Sonunda olar xezel.
Geceden daha gözel,
Gündüzün menzerəei.

Alovlandır közünü,
Odda bişir sözünü.
Nurlatmaz yer üzünü,
Ulduzun min zerresi.

Qelb güzgüm toz olmasın,
Saralıb sozalmasın.
Hele ki azalmasın,
Dünyanın ben zerresi.
02.10.2018

Sevinc Arzulu

**Menbedi**

Fələk girər min bir dona,
Ah-zar təsir etməz ona.
Eşq dastanı yetdi sona,
Yoxdur onun mabədi.

Qəm-kədər verib əl-ələ,
Saldılar hay-küy,vəlvələ.
Qopdu dəhşətli zəlzələ,
Uçdu könül məbədi.

Fələk qoymaz mən kam alım,
Qəlb evimə bir şam alım.
Axı  nədən ilham alım,
Dərdim bitməz mənbədi.

Sevinc Arzulu

**Mene cavab verin**

Əsri geri döndərdim,
Sənə göyərçin qanadında
Məktub göndərdim.
Çatdımı, çatmadımı.

Qəlbimin qəm anıyla,
Ürəyimin qanıyla.
Yazmışdım o məktubu,
De görüm əlin qana,
Batdımı, batmadımı.

Ey insanlar,könlümü
vermişdim namərd yara.
O da günün birində
onu o zalım xara
Satdımı, satmadımı.
Mənə bir cavab verin.

Sevinc Arzulu

**Mene halal et**

Xalında kədərli ilmədim sənin,
Bircə yol göz yaşın silmədim sənin.
Vaxtında qədrini bilmədim sənin,
Çəkdiyin əzabı mənə halal et.

Alaca gözünü nəm eyləmişəm,
Sevinci, fərəhi kəm eyləmişəm,
Şadlığı həmişə qəm eyləmişəm,
Acı iztirabı mənə halal et.

Hanı o gül-çiçək qoxuyan dağlar,
Arzu-kam çələngin toxuyan çağıar.
Dərdli həyatını oxuyan ağlar,
O qara kitabı mənə halal et.

Sevinc Arzulu

**Meni**

Tərki-dünya yaşayırdım,
Tənhalığı oxşayırdım.
Sənsizlikdən üşüyürdüm,
Qucaqladı ölüm məni.

Gəzdim eli naşı kimi,
Dondum çaylaq daşı kimi.
Suları göz yaşı kimi,
Yuyacaqdır gölüm məni.

Dünya rahat gor vermədi.
Tonqalından qor vermədi.
Dağ bir qarış yer vermədi,
Qəbul etdi çölüm məni.

Sevinc Arzulu

**Meni atdın**

Məni atdın atəşə,özün durub gülə baxdın.
Köksümdən qopub düşən soyumamış külə baxdın.
Mən bəmə adladıqca sən isə hey zilə qalxdın,
Indi də bilməyirəm nə imiş mənim günahım.

Gündüzü zülmət gecə,bülbülü sən sar eylədin,
El içrə"Leyli"deyib məni yaman xar eylədin.
Axır bir gün əğyarı çox bəxtəvər yar eylədin,
Tutacaq sənin inan yaxandan fəryadım,ahm.

Qalmışam həkimlərdə,dərdə əlac tapmayıram.
Vüsalın al düzündə ağ atımı çapmayıram.
Mən ki başqaları tək yad yarını qapmayıram,
Niyə dərd ilə,məlal ilə açılar sabahım.

O görüş yerlərini bir,on deyil,yüz gəzərdim,
O şirin günlərimdən qalıbmı bir iz,gəzərdim.
Sənə qalsa çoxdannan dəli olub düz gəzərdim,
El bilir tək Tanrıdır mənim ümidim,pənahım.

Indi sən düş çöllərə Məcnun kimi diyar-diyar,
Yox imiş gözəlçənlə aranızda əhdi-ilqar.
Varını,dövlətini əlindən aldı o "nigar",
Sən də bir tarix oldun taxtdan düşən baxtsız şahım.

Sevinc Arzulu

**Meni atdın qezeli**

Məni atdın atəşə,özün durub gülə baxdın.
Köksümdən qopub düşən soyumamış külə baxdın.
Mən bəmə adladıqca sən isə hey zilə qalxdın,
Indi də bilməyirə nə imiş mənim günahım.

Gündüzü zülmət gecə,bülbülü sar eylədin,
El içrə"Leyli"deyib məni yaman xar eylədin.
Axır bir gün əğyarı çox bəxtəvər yar eylədin,
Tutacaq sənin inan yaxandan fəryadım,ahm.

Qalmışam həkimlərdə,dərdə əlac tapmayıram.
Vüsalın al düzündə ağ atımı çapmayıram.
Mən ki başqaları tək yad yarını qapmayıram,
Niyə dərd ilə,məlal ilə açılar sabahım.

O görüş yerlərini bir,on deyil,yüz gəsərdim,
O şirin günlərimdən qalıbmı bir iz,gəzərdim.
Sənə qalsa çoxdannan dəli olub düz gəzərdim,
El bilir tək Tanrıdır mənim ümidim,pənahım.

Indi sən düş çöllərə Məcnun kimi diyar-diyar,
Yox imiş gözəlçənlə aranızda əhdi-ilqar.
Varını,dövlətini əlindən aldı o "nigar",
Sən də bir tarix oldun taxtdan düşən baxtsız şahım.

Sevinc Arzulu

**Meni hesretin**

Gəlibdir bayram axşamı,
Adına yandırdım şamı.
Eşq oxum dəydi daşamı,
Qocaltdı məni həsrətin.

Hicranının yaşı çoxdur,
"Yox"sözün qəlbimə oxdur.
Ayrılığın sonu yoxdur,
Vüsala çatmır qüdrətin.

Vərəqlə qan yaddaşını,
Unutma dost-sirdaşını.
Gəl sil gözümün yaşını,
Üzü dönüb məhəbbətin.

Ürəyimi açammadım,
Qəlbinə nur saçammmadım.
Qəmdən uzaq qaçammadım,
Haqladı məni möhnətin.

Yerə düzdüm min incini,
Sən tez seçdin minincini.
Yada salsan Sevincini,
Tezcə qalxar hərarətin.

Sevinc Arzulu

**Meni qabağlama**

Tale qatdı aşına kül,
Səpim qara daşına gül.
Qoy mən olum başına tül,
Duman, məni qabaqlama.

Ayrılığı yıxım, gedim.
Vəslin əlin sıxım, gedim.
Öz yolumla çıxım gedim
Zaman, məni qabaqlama.

Şadlıq, fərəh göyə ərsin,
Dərd önündə sinə gərsin.
Ümidlərim tez göyərsin,
Güman, məni qabaqlama.

Sevinc Arzulu

**Meni senden kim aldı ki.**

Mən ki sənə vurulmuşdum əzəldən,
Sənsizlikdə seçilmirdim xəzəldən.
Əl çəkmədin, yapışdın yad gözəldən,
Məni səndən kim aldı ki görəsən.

O gözlərin gözlərimin yağıydı,
Təbəssümün gül açan yaz bağıydı.
Gözəl qızlar mənə düşmən, yağıydı
Məni səndən kim aldı ki görəsən.

Xatirələr ürəyimdə buzlayar,
Dəli könül həsrətindən quzlayar.
Ürək yaram hey qanayar, sızlayar,
Məni səndən kim aldı ki görəsən.

Gedib tutdun başqasının əlindən,
Anlamadın dünyanın dərd-sərindən.
Gec də olsa gəl fikirləş dərindən,
Məni səndən kim aldı ki görəsən.

Zaman özü yaramı da sarıyar,
Tanıyanlar təkcə səni darıyar.
Heç bilinməz kim ölə, kim qarıya
Məni səndən kim aldı ki görəsən.

Sevinc Arzulu

**Meni unut**

O yamyaşıl gözlərin,
Eh, yaraşıq gözlərin.
Çox yaraşır gözlərin
Dolan bulud, əzizim.

Nə qalıb ki sabaha,
Inan naləyə, aha.
Dönməyəcəm bir daha,
Məni unut, əzizim.

Tale oynuna düşüb,
Həsrət boynuna düşüb.
Kədər payına düşüb,
Sevinci ud, əzizim.

Sevinc Arzulu

**Menim heyatım**

Telli-duvaqlı olar,
Əli çıraqlı olar,
Kimə maraqlı olar,
Mənim səssiz həyatım.

Ayrılıq suyun içib,
Həsrət zəmisin biçib.
Necə deyim ki keçib,
Mənim səhvsiz həyatım.

Gözdən irağa bənsər,
Sözdən qırağa bənzər.
Bəyaz vərəqə bənzər,
Mənim sənsiz həyatım.

Sevinc Arzulu

**Menim mehebbetim**

Baxışla qandırar səni,
Gözdü mənim məhəbbətim.
Toxunma yandırar səni,
Közdü mənim məhəbbətim.

Ürəyimdə yurd qurunca,
Yaşar bu dünya durunca.
Kim deyir ki, qupquruca,
Sözdü mənim məhəbbətim.

Bənzəməz ki,qara quşa,
Dönər gözəl qaranquşa.
Gülüm, neçə qara,qışa,
Dözdü mənim məhəbbətim.

Sevinc Arzulu

**Menim olanı**

Üreyi teklikden ağrımayıb ki,
Ezabdan göylere bağırmayıb ki.
Kimsəler üzüne qarğımayıb ki,
Andı özünece qenim olanı.

Yalandan üzüme gülümseyir, bax
Utanmır heç, menden gül isteyir, bax.
Ayrılıq haqqımı menimseyir, bax
Elimdən qoparır menim olanı.

Belke de sebrdir dözümden yağan,
Alovdur, ateşdir közümden yağan.
Geceler yağış tek gözümden yağan,
Gündüzler dumanım, çenim olanım.
18.02.2018.

Sevinc Arzulu

**Menli günlerin**

Zalım hesretin yolu bizden düşür seraser.
Yene de başlanıbdır qem gülünü derhader.
Saysan olar yeqin ki, bir-biriyle bereber,
Menim senli günlerim, senin menli günlerin.

Ümidim al ipekden yeni libas biçmez ki,
Ayrılıq bulağından bir damcı su içmez ki.
Birleşiben ebedi göz önünden keçmez ki
Menim senli günlerim,senin menli günlerin.

De hardasan, de harda, menim könül sultanım,
Sensiz doğmaz güneşim, sensiz sökülmez danım.
Bilirsen, razı olmaz yene qem içre yanım
Menim senli günlerim, senin menli günlerin.

Sevinc Arzulu

**Mensiz yaşaya bilmeyeceksen**

Şirin vüsalımın qədrin bil,gülüm.
Ayrılıq sözünü unut,sil gülüm.
Mənimlə birlikdə sən də gül,gülüm.
Başqa vaxt ürəkdən gülməyəcəksən.
Sən mənsiz yaşaya bilməyəcəksən.

Hərdən çəkir bizi sınağa həyat,
Hərdən qırış salır yanağa həyat.
Baxmayır tanışa,qonağa həyat.
Bir daha dünyaya gəlməyəcəksən.
Sən mənsiz yaşaya bilməyəcəksən.

Sənsiz dünya mənə əbədi sürgün,
Yolunu gözlərəm gözləri süzgün.
Dünyadan gedəri olsan da bir gün,
Mənimçün heç zaman ölməyəcəksən.
Sən mənsiz yaşaya bilməyəcəksən.

Çalış,əməlinlə xarüqə yarat,
Bizə bircə dəfə verilir həyat.
Məni unutmağa çalışsan,heyhat.
Sevinci,kədəri bölməyəcəksən.
Sən mənsiz yaşaya bilməyəcəksən.

Mən idim sakitin,mən idim dincim,
Mən idim mirvarin,mən idim incin.
Itirə bilməzsən daha Sevinci,
Itirsən,göz yaşın silməyəcəksən.
Sən mənsiz yaşaya bilməyəsəksən.

Sevinc Arzulu

**Mensizliyi göreceksen**

Bir gün ölsəm məzarımın başına,
Kimlər ilə gələcəksən,ay qızım.
Sığal çəkib qəbirüstü daşıma,
Qızılgüllər sərəcəksən,ay qızım.

Ruhum sənin yollarına çıxacaq,
Yavaşcadan əllərini sıxacaq.
Qanım sənin damarından axacaq,
Bəyaz çiçək dərəcəksən,ay qızım.

Körpə quş tək qəmgin-qəmgin ötərsən,
Tellərinə qara öpək örtərsən.
Darıxıban məni görmək istərsən,
Dərdə sinə gərəcəksən,ay qızım.

Ötəcəkdir yenə sona bülbüllər,
Saralıban töküləcək sünbüllər.
Açacaqdır qəbrim üstdə al güllər,
Əlvan çələng hörəcəksən,ay qızım

Öz-özünə axacaqdır göz yaşın,
Başın üstdə duracaqdır qardaşın.
O olacaq məndən sonra sirdaşın,
Mənsizliyi görəcəksən,ay qızım.

Sevinc Arzulu

**Merde kimi**

Göz yaşın sel təkin tökəmmirəm ki,
Hicranın önündə çökəmmirəm ki.
Ilməsin birbəbir sökəmmirəm ki.
Xatirən önümdə ağ pərdə kimi.

Məhəbbət qeydimə qalır,aparır,
Ağlımı başımdan çalır, aparır.
Xəyallar qoynuna alır,aparır,
Gözlərim yol çəkir lap dərdə kimi.

Olmaz ki sərgərdan, avara, veyil
Ancaq xoş əmələ salacaq meyl.
Düşmənin  önündə əyilən deyil,
Tapşırdın,İlahi, sən mərdə kimi...

Sevinc Arzulu

**Merdi var**

Bilirsinmi,sen ey keder baxışlım,
Üzü-gözü hesret,hicran naxışlım.
Kainatın yolu eniş-yoxuşlu
Döngelerin eyrisi var,serti var.

Ya özünü qem gölüne atasan,
Ya riyalar qoynundaca yatasan.
Pulun yoxsa,çetin kama çatasan,
Yaşamağın neçe-neçe şerti var.

Boz sehrada yaşıl pöhre ekilmez,
Viranede abad saray tikilmez.
Tekce senin gücün ile çekilmez,
Bu dünyanın özü boyda derdi var.

Diqqetle bax,gülüm,könül aynana,
Birce sözden bulaq kimi qaynama.
Heyat ile çiling-ağac oynama,
Daması var,şahmatı var,nerdi var.

Al güneşin istisine yanırsan,
Her güleni özüne dost sanırsan.
Ilk baxışdan,vallah,çetin tanırsan
Insanların namerdi var,merdi var.

Sevinc Arzulu

**Meteor yağışı**

Şındırıb könlümün pəncərəsini,
Özünü içəri saldı xəyalət.
Tez-tez vərəqləyib şəcərəsini,
Alaçiy fikirə daldı xəyanət.

Ümidin üzülmüş ayaqlarından,
Selə damcı-damcı qan çisəkləyir.
Buludun süzülmüş dayaqlarında,
Elə qamçı-qamçı can çiçəkləyir.

Bu gecə ulduzlar töküləcəkdir,
Meteor yağışı olacaq deyən.
Dan yeri lap tezdən söküləcəkdir,
Göylərin naxışı solacaq deyən.

Sevinc Arzulu

**Mewq edirem**

Ömrün neçə qanunu var,
Həllin  yolu deyil hamar.
Yarəb, məni dardan qurtar,
Zülümü məşq edirəm.

Hanı kəndirin son ucu,
Deyəsən boynumu  qucur.
Neynəyim ki mən sonuncu,
Bölümü məşq edirəm.

Ürək saatını qurub,
Axırıncı nəqşi vurub.
Hər gün gecə yarı durub,
Ölümü məşq edirəm.
07.05.2018

Sevinc Arzulu

**Mexmeri daraq**

Keç qelbimden, keç, qırıqdır,
Bütövünü seç, qırıqdır.
Içim dolu hıçqırıqdır,
Men sükutun harayıyam.

Vüsalın derdli siması,
Hesretin qemle teması.
Sen eşqin qara koması,
Men yaqutu sarayıyam.

Tebiete saldım soraq,
Xatireler varaq-varaq.
Elimde mexmeri daraq,
Derdin telin darayıram..
24.03.2018

Sevinc Arzulu

**Meylim vüsaladır**

Səni xəyalımın pəncərəsindən,
Gizlicə baxmaqla seyr edirəm mən.
Ruhumu dincəldən həzin səsindən,
Qüssəli səhəri xeyr edirəm mən.

Həsrətdən gizlənmək, qəmdən yaşınmaq
Hərdənbir odlanıb, hərdən üşünmək.
Nə gözəl  an olur səni düşünmək,
Hissimi, duyğumu şeir edirəm mən.

Ayrılıq sözünü beynimdə oyub,
Göz yaşı tökməkdən əbədi doyub,
Hicranın gözünü yollarda qoyub,
Deyəsən vüsala meyl edirəm mən.
05.08.2014

Sevinc Arzulu

**Mezarüstü düşünceler**

Durmuşam cüt məzar qarşısında mən,
Qüssəylə baxıram hər ikisinə.
Göz yaşı yaradır göz önündə çən,
Ton belə çatmaz ki dərd çəkisinə.

Bilirəm. Ruhunuz başımın üstdə,
Göyərçin kimi hey qanad da çalır.
Bir yaş da gələcək yaşımın üstə,
Sizin yoxluğunuz könül dağlayır.

Mən sizi sevirəm.Sanki sağsınız,
Unutmaq olarmı ata-ananı.
Ağ ipək çalmalı qoşa dağsınız,
Siz yoxsuz, yox daha dərdə yananım.

Nə qədər əzablar çəkmişəm, ata
Nə qədər qəm-qüssə yatıb sinəmə.
Əlimlə sarı gül əkmişəm, ata
Sizsizlik ox olub batır sinəmə.

Kaş yenə bir dəfə qapımı döyüb,
Içəri girəydiz qoşaca, ana.
Bu şair qızını söz ilə öyüb,
Həsrəti sayaydıq boşaca, ana.

Əlli bir yaşım var, qocalmışam da,
Əvvəlki ərköyün Sevinc deyiləm.
On ili fələkdən bac almışam da,
Qədərin əlindən girinc deyiləm.

Indi böyüyübdür uşaqlarım da,
Özüm də tezliklə nənə olacam.
Günəşdən gur yanır işıqlarım da
Təəsüf, mən sizsiz yaşa dolacam.

Ruhunuz hər zaman köməyim olar,
Sanki yanımdasız hər zaman mənim.
Bu şeir kiçikcə əməyim olar,
Artar sarı teldə gün-gündən dənim.
1.08.2013

Sevinc Arzulu

**Mezhekesi**

Qəlb sındırma acı sözlə,
Od qalama soyuq közlə.
Günahkarsan,səni gözlər,
Bir gün vicdan məhkəməsi.

Məni qəmgin səs etmisən,
Yaşamımı bəs etmisən.
Dünyanı məhbəs etmisən,
Hər yan polis məntəqəsi.

Qəlb saatı daha durub,
Fələk başda bardaş qurub.
Tale bəxtlə yüz-yüz vurub,
Bu sonuncu məzhəkəsi.

Sevinc Arzulu

**Mitinq eyleyer**

Yumub qara gözlərin,
Deyiblər son sözlərin.
Bağlayaraq özlərin,
Yollar mitinq eyləyər.

Dərdini biləni yox,
Göz yaşın siləni yox.
Gedəni-gələni yox,
Yollar mitinq eyləyər.

Arazlaşıb, Kürləşib
Çirkinləşib, kirləşib.
Sonda möhkəm birləşib,
Yollar mitinq eyləyər.

Gah körpüdən keçərlər,
Gah tuneli seçərlər.
Əkiblər ki biçələr,
Yollar mitinq eyləyər.

Aldanmaz qəm nağlına,
Uymaz kədər nağlına.
Baxıb insan oğluna,
Yollar mitinq eyləyər.

Sevinc Arzulu

**Mixaylo dastanı**

Uzaq, yad sahillərdə,
Bir qərib məzar vardır.
Yazda ətrafı çiçək,
Qışdasa üstü qardır.

Azərbaycan oğludur,
Qərib məzarda yatan.
Günəş tək sübh  doğulub,
Ay kimi erkən batan.

Mehdidir onun adı,
Çağrılırdı Mixaylo.
Vətən qismət olmadı,
Qəriblikdə qaldı o.

Abşeronda doğulan
Mehdi rəsm çəkirdi.
Bənzədirdi nağıla,
Gül üstə sis çökürdü.

Elə təbiidir ki ,
Çəkdiyi natürmotlar.
Sanki kişnəyəcəkdir
Indicə köhlən atlar.

Hərdən partizan –şair,
Gözəl şeir yazardı.
Vətən ab-havasının,
Içindəcə azardı.

"Süd verib qoynunda bəslədin məni,
Mən sənin gözünə qurbanam, Vətən.
Qoymaram incidə yad ellər səni,
Bil ki etibarlı oğlunam,Vətən"

Uzaq Adriatikdə,
Sülh üçün döyüşdü o.
Əli daim tətikdə,
Fazişmlə öc düşdü o.
.....

Səksən il bundan əvvəl,
Başladı müharibə.
Faşist Almaniyası
Vurdu dünyaya zərbə.

Dünyanı işğal etmək,
Hitlerin baş planı.
Dəli arzuya yetmək,
Məqsədiydi ilanın.

Nə uşaq, nə də qoca,

Vecinə deyildi ki.
Adı ikicə heca,
Nifrətə geyildi ki.

Sanki bütün dünyanın,
Ağası olacaqdır.
Qərb də, Şərq də faşizmin
Adası olacaqdır.

Bax, həqiqət belədir,
Taun kimi  faşizm.
Zalım Hitler əmr elədi,
Məhv oldu humanizm.

Düşmən vermədi aman,
Nə kişiyə, qadına.
Dünya oldu qalanan,
Faşistlərin oduna.

Yandı körpə uşaqlar,
Ölüm kamerasında.
Əsdi soyuq sazaqlar,
Müharibə erasında.

Hamı Hitlerin qulu.
Köləsiymiş sən demə.
Kim sevməsə bu yolu,
Öləsiymişsən demə.
.....
Vətən müharibəsində.
Iştirak etdi Mehdi.
Düşmənin üzərinə.
Igid tək getdi Mehdi.

Neçə-neçə faşisti,
Etdi qanına qəltan.
Düşmənə əsir düşdü,
Sanki dayandı zaman.

Çox ağır olar fəqət,
İnsan düşərsə əsir.
Bunca əzab, həqarət,
Gətirər şənə kəsir.

Əsirlikdən qaçaraq
Igid partizan oldu.
Düşmənə od saçaraq,
Dillərdə dastan oldu.

Mixaylodan od kimi,
Çox qorxurdu almanlar.
Düşmənə nifət- kini,

Zülmü görənlər anlar.

Qərargah partlatmışdı.
Ölmüşdü neçə zabit.
Körpülər odlamışdı,
Döyüşlər qeyri-sabit.

Kino-teatrı həmən,
Gizlin minalamışdı.
Məhv edib neçə düşmən,
Qisasını almışdı.

Ah, günlərin birində,
Mühasirəyə düşdü..
Əsgər andı dilində,
Ölüm ilə öpüşdü.

Ürəyinəcə sıxdı,
əsir düşməsin deyə.
Elə o anda qalxdı,
Mehdinin ruhu göyə.

Indi Ana vətənin,
Mavi səmasındadır.
Şəkillərdən boylanan
Gözəl simasındadır.

Sovet İttifaqının,
Qəhrəmanıdır Mehdi.
Azad Azərbaycanın,
Şöhrət-şanıdır Mehdi.

Onun abidəsini,
Daima yad edirik.
Verib şer töhfəsini,
Ruhunu  şad edirik.

Bu gün işğal edibdir,
Qarabağı erməni.
Alcaq alman  faşistdən,
Yoxdur ki onun fərqi.

Bir gün igidlər üçün,
Hərbi marş çalınacaq.
Işğaldakı torpaqlar.
Geriyə alınacaq.

Şəhid ruhuyla birgə
Mehdilərin ruhu da,
Sevinib şad olacaq.
Vətən azad olacaq.

Vətən abad olacaq.
05.11.2018

Sevinc Arzulu

**Möcüze diyarı**

Ümidin son pilləsi ,
Eh, kimlərə dərs oldu.
Həsrətin sərt şilləsi,
Ah, necə də tərs oldu.

Ağrıyıb da zaman-zaman.
Yeri necə göynədi.
Hicranından aman-aman,
Bilmədim yer-göy nədi.

Acılara hazır olmaq,
Bizlərin işi deyil.
Qəm yurduna nazir olmaq,
Mənim vərdişim deyil.

Sən hamıdan ağıllıydın,
Ya elə görünürdün?
Şeirliydin, nağıllıydı,
Qəlbimlə döyünürdün.

Səni sevmək kimə asan,
Kimə çətin olardı.
Sən nəsənsə elə osan,
Kaş ki mətin olardım.

Unudardım an içində,
Olanları, keçəni.
Könlüm yenə qan içində,
Addımlayır küçəni.

O küçədə izlərin var,
Donub qalan təbəssüm.
Ağlar qalan sözlərim var,
Bir də yalan təbəssüm.

Kim bilir nə çəkdiyimi.
Addımlarım sayılmır.
Önündə diz çökdüyümün
Xatirəsi ayılmır.

Nə müddətdir gözləyirəm,
Bəlkə geri dönəsən.
Işığını özləyirəm,
Qorxuram ki sönəsən.

Bir müqəddəs arzu kimi.
Qəlbimdəsən hər zaman.
Əlçatmayan ruzi kimi,
Sevimlisən sən yaman.

Gözlərimin qarasında,
Kədər yuva salıbdır.
Gör  dünyanın harasında,
Möcüzələr qalıbdır.

Gəl əlindən tutum gedək
Möcüzə diyarına.
Qəhərimi udum, gedək
Bəlkə həsrət barına.

Sevinc Arzulu

**Muğamat**

Neçə vaxtdır ağlamamışdım belə,
Məni məndən necə aldı muğamat..
Dəniz idim,çağlaqmamışdım belə,
Məni nə hallara saldı muğamat.

Ilahidən gələn nidaya bənzər,
"Əlvida"söyləyən vidaya bənzər.
Mən dəniz,o isə adaya bənzər,
Dalğayla təkbətək qaldı muğamat.

Ürəyim ağlayır,gözlərimsə nəm.
Taqətim yox bir danışam,bir dinəm.
Mən güllər içində parlayan şəbnəm,
Lalənin üzündə xaldı muğamat.

Yoxdur tayı nə Turanda,Yəməndə.
Sehri ilə saldı məni kəməndə.
Qəmimlə dost olub şehli çəməndə,
Mənimlə xəyala daldı muğamat.

Sevincəm,nəğmədən coşa gəlmişəm,
Ömür sürüb mən qırx yaşa gəlmişəm.
Dünyaya kədərlə qoşa gəlmişəm,
Həm şirin,həm acı baldı muğamat.

Sevinc Arzulu

**Muqeddes arzu**

Üreyimde ne sevgi var, ne nifret
Içimde boşluq var, boşluqdur içim.
Başımın üstünde ilahi qüdret,
Qüsse bir biçimde, keder bir biçim.

Qocalıq qapını döyür astaca,
Qanımda qem çayı axaraq qaldı.
Cavanlıq köçünü sürür ustaca,
Gözlerim dalınca baxaraq qaldı.

Bir de heç kimseni sevmerem daha,
Qelbim heyecanla vurmayacaqdır.
Bu vaxtsız yaşlanmaq geler çox baha,
Illerin qaçışı durmayacaqdır.

Daha eşq-mehebbet kitabı bağlı,
Daha şeirler de yazmayacağam.
Daha uzaqlarda qalmaz ki ağlım,
Xeyallar içinde azmayacağam.

Bu güne bağlıyam ebedilik men,
Sabah ne olacaq, bilmeyirem ki.
O qeder ağrılı bu olub-biten,
Qara damlaları silmeyirem ki.

Tek neve isteyi qelbimde yatır,
Nenelik ilahi ruzumdur menim.
Tezlikle, ay Allah, arzuma çatım
Bu arzu müqeddes arzumdur menim.

Sevinc Arzulu

**Murov düşüb**

Ayrılıq qılınc tək kəsir,
Hicran yeli yaman kəsir.
Könlüm həsrətinə əsir,
Qəmsə mənə girov düşüb.

Eşq həyatın günəşidir,
Həsrət qəlbin atəşidir.
Sarı tellər gümüşüdür,
Saçlarıma qırov düşüb.

Nə tikan, nə xar istərəm,
Bir vəfalı yar istərəm.
Bəyaz, təmiz qar istərəm,
Ürəyimə Murov düşüb.

Sevinc Arzulu

**Muştuluq**

Elleri göyçekler döysün qoy beni,
Al güller.çiçekler öysün qoy beni.
O diller-dilçekler söysün qoy beni,
Bu da çox az olar ben şuluq üçün.

Düzengah çöllerde tepelenirim,
Masmavi sularda lepelenirim.
Bütün Yer üzüne sepelenirim,
Ezelden ölürüm xoş qulluq üçün.

Dayanın,ben size şad xeber verim,
Taleyin sesine gur semer verim.
Siz de evezine bir nemer verin,
Yaman darıxmışam muştuluq üçün.

Sevinc Arzulu

**Muxtar ressam**

MUXTAR  RƏSSAM
Sevimli rəssamımız, Feysbukun görən gözü
Muxtar müəllimə həsr etdiyim şeir

Ən gözəl rəsmləri,
Çəkib paylaşır Muxtar.
Fırça tutan əllərin,
Rəngə bulaşır, Muxtar.

Hamının sevimlisi,
Ən əziz rəssamıdır.
Çox gözəldir hər işi.
Muxtar rəsm adamıdır.

Şeirlər də yazırıq,
Çəkdiyi şəkillərə.
Rəng içində azırıq,
Qovuşuruq güllərə.

Əlin, qolun var olsun,
Sənin ay Muxtar rəssam.
Tale sənə yar olsun,
Təbiət versin ilham.

Olun xoşbəxt, bəxtiyar,
Tanrı qorusun sizi.
Hələ neçə rəsm var,
Sevindirərsiz bizi,
04.05.2018

Sevinc Arzulu

**Müntezirem**

Sənin ol hicrinə,yarım.elə ki mən dözürəm,
Həsrətin boz kələfin hey ayırır,hey çözürəm.
Başımın üstdə durub heykəl kimi nə istərsən,
Onsuz da həm əmrinə,hər sözünə müntəzirəm.

Qələmin sınsın,fələk,bu nə yazıdır yazmısan,
Məhəbbət ölkəsində o padişah,mən vəzirəm.
Dayanıb qarşımda dağ tək püskürür,əmr verir,
Qızılgül axtarıram,tikanlar içrə gəzirəm.

Nədən qiymət verməyir varlığıma bivəfa yar,
Sanki o dua edən,fitrə verən,mən nəzirəm.
Ayağım altındadır bir vaxt verdiyi süni gül,
Acığım ondan çıxıb tapdalayıban əzirəm.

Sevinc Arzulu

**Müntezirem qezel**

Sənin ol hicrinə,yarım.elə ki mən dözürəm,
Həsrətin boz kələfin hey ayırır,hey çözürəm.
Başımın üstdə durub heykəl kimi nə istərsən,
Onsuz da həm əmrinə,hər sözünə müntəzirəm.

Qələmin sınsın,fələk,bu nə yazıdır yazmısan,
Məhəbbət ölkəsində o padişah,mən vəzirəm.
Dayanıb qarşımda dağ tək püskürür,əmr verir,
Qızılgül axtarıram,tikanlar içrə gəzirəm.

Nədən qiymət verməyir varlığıma bivəfa yar,
Sanki o dua edən,fitrə verən,mən nəzirəm.
Ayağım altındadır bir vaxt verdiyi süni gül,
Acığım ondan çıxıb tapdalayıban əzirəm.

Sevinc Arzulu

**Müşfiqe**

Bir cavan yatağa uzanıb səssiz,
Saymasın özünü tənha, kimsəsiz.
Başının üstündə daim anası,
Oğlunun dərdinə şam tək yanası.

Biçarə dayanıb  durubdur ata,
Hey çəkər siqaret, qüssəyə batar.
Gözüyaşlı qalıb, neynəsin bacı,
Bilməyir heç nədir dərdin əlacı.

Yastığı başında bibi-xalalar,
Mərəzin əlindən necə alalar?
Allahım, sən özün rəhm et Müşfiqə,
Tezliklə sağalsın, çıxsın xoş günə.

Sevinc Arzulu

**Müşfiqe ağı**

Qəlbində gül bitirdi,
Boya-başa yetirdi.
Ana oğul itirdi,
Çox gəncəcik yaşında.

Dərdi azdıracaqdı,
Adın qazdıracaqdı
Şeri yazdıracaqdır,
Oğlunun baş daşında.

Xəbər acıdan acı,
Ağlar dost-qohum, bacı.
Tapılmadı əlacı,
Dünyanın bu başında.

Sevinc Arzulu

**Nağıl**

Gecənin uzunu olmur əzizim
Həsrətin ölçüsü ağıla gəlməz.
Quyu su tökməklə dolmur,əzizim
Daha pərilər də nağıla gəlməz.

Daha pərilərin gülməyir üzü,
Divlər də adamı basıb yeməyir.
Bilinməz sevdanın gecə-gündüzü
Varlının qazancın kasıb yeməyir.

Daha qisasını almayır Basat,
Çəkilib kahaya azman Təpəgöz.
Qurulmur obada nə toy, nə büsat,
Nə sağlıq deyilir, nə quruca söz.
11.11.2018

Sevinc Arzulu

**Nağıl, sevgilim**

Namərddən uzaq ol,yapış mərdindən,
Baş açа bilməzsən düşmən fərdindən.
Daha dözəmmirəm,sənin dərdindən
Əriyib könlümün yağı,sevgilim.

Mənə tək həsrət.möhnət qalınca,
Ayrılıq köçünü bizdən salınca.
Inan,əgər desən sənin dalınca,
Aşaram ən uca dağı,sevgilim.

Nifrətim düşmənə sancılan bir ox,
Daha məndə taqət,dözüm yoxdur,yox.
Nə edim.mən səni çox sevirəm,çox.
Gözümün qarası,ağı sevgilim.

Ayrılıq köçünü bizdən salınca,
Mənə tək həsrəti-möhnət qalınca.
Inan ki istəsən sənin dalınca,
Aşaram ən uca dağı,sevgilim.

Soruşdum hicranın səbəbi nədir,
Məcnun da gözündə bir divanədir.
Səninçün məhəbbət mif,əfsanədir.
Danışma gəl mənə nağıl,sevgilim.

Başından düşməsin xoşbəxtlik tacın,
Olmasın ömründə bir ağrln-acın.
Sənin daha mənə yox ehtiyacın,
Vermərəm heç sənə ağıl,sevgilim.

Aludə olmaram eşq şərbətinə,
Sevinc inanmayır söz-söhbətinə.
Əgər xain çıxsan məhəbbətinə,
Qırılmış muncuq tək dağıl,sevgilim.

Sevinc Arzulu

**Nağıldı**

Hey ötüşdü ümidlər,
Suya düşdü ümidlər.
Külək əsdi,buludlar
Bir andaca dağıldı.

Daim qazan hörməti,
Ver özünə qiyməti.
Insanın ləl-ziynəti
Qızıl deyil, ağıldı.

Gül açmaz qurumuş kol,
Qarşına çıxsın ağ  yol.
Çalış, qəhrəmanı ol,
Bu dünya bir nağıldı.
18.02.2018

Sevinc Arzulu

**Nakam eşqimiz**

Nələr gözləyirdim nələr taledən,
Osa mənim ilə oyun oynadı.
Heç uzaq olmadım kədərdən,qəmdən
Xoşbəxt etməyinə boyun olmadı.

Nə bir söhbət oldu,nə bir söz oldu,
Təkcə qəlblərimiz danışdı bizim.
Xəbislər həmişə bizə göz oldu,
Həsrətdən söz açdı mavi dənizim.

Şəbnəm tək parlayır gözümün yaşı,
Ürəyim yamanca sıxılır indi.
Yenə də göynəyir könlümün başı,
Ömrümdən gərəhim çıxılır indi.

Bu gün Sevgi günü.Müqəddəs,əziz,
Şeirimlə mən səni təbrik edirəm.
Ürəyim çağlayan qəmli bir dəniz,
Sənin işığında mən yol gedirəm.

Gedirəm,nə vaxtsaqurtarar bu yol,
Onda birləşərik əbədilik biz.
Bu ömrün kədəri,qüssə-qəmi bol,
Bir rahatlıq tapar nakam eşqimiz.

Sevinc Arzulu

**Nalan dünya**

Namərdləri xoşbəxt etdi,
Əhd-peymanı yalan dünya.
Necəsini bədbəxt etdi,
Səni məndən alan dünya.

Pis-yaxşını yarışdırmaz,
Küsənləri barışdırmaz.
Sevənləri qovuşdurmaz,
Araya qəm salan dünya.

Ürəkləri dağlatmısan,
Vüsal yolun bağlatmısan.
Çoxlarını ağlatmısan,
Kaş sən də qal nalan,dünya.

Sevinc Arzulu

**Naleni, neynim**

Çəkmə gəl sən məni belə dara, gül.
Sonda qismət oldun zalım xara, gül.
Könlümün başında bitib qara gül,
Al rəngli o gözəl laləni neynim.

Olacaq özümə qənim, göz yaşım,
Çiskinim, dumanım, çənim göz yaşım.
Gül üstə süzülər mənim göz yaşım.
Yuyacaq o parlaq jaləni, neynim.

Həyatın mənası uzaqda qaldı.
Şəklimiz əbədi bulaqda qaldı.
Əzizim, sədası qulaqda qaldı,
Unuda bilmirəm naləni, neynim.

Sevinc Arzulu

**Nar ağacıyam**

Vüsalın boynumdan asılı qalıb,
Əlləri hər yerdən kəsili qalıb.
Beynində intihar üsulu qalıb,
Mən fani dünyanın dar ağacıyam.

Yaşılı geyib də soyar adamlar,
Bilməz heç eyib də, oyar adamlar.
Sözümdən yeyib də doyar adamlar,
Həmişə ətirli bar ağacıyam.

Bu sevgi nağılı deyən uzundur,
Üşüyən qəlbimi sözlə qızındır.
Dəyişə bilmərik, alın yazımdır,
Meyvəsi sevilən nar ağacıyam.

Sevinc Arzulu

**Naxış döyübdür**

Hicrandan uzağa qaçammadım ki,
Zülmete gur işıq saçammadım ki,
Xatire boxçasın açammadım ki,
Üstünü qar alıb, yağış döyübdür.

Hesretin neğmesi bestelenibdir,
Vüsalın odası tüstülenibdir.
Üreyim qefilden istilenibdir,
Qapısın alovlu baxış döyübdür.

Göyneyir sarışın peri, ağrıyır,
Dönemmez bir daha geri, ağrıyır.
Qelbimde her zaman yeri ağrıyır,
Sensizlik ebedi naxış döyübdür.

Sevinc Arzulu

**Naxış yağır**

Dan üzü tez sökülür
Sanki al rəng çökülür.
Gündüzdən nur tökülür.
Gecədən yağış yağır.

Isinərəm közündən,
Çıxammaram sözündən.
Sevdiyimin gözündən
Sevdalı baxış yağır.

Asılıb göy qurşağı,
Baxır üzü aşağı.
Sevindirir uşağı,
Qövs-qüzeh naxış yağır.
26.04.2015

Sevinc Arzulu

**Naxış-naxış qamçısı**

Ben ne deyim bele qismet yazana,
Zalım felek hesretden ne qazanar.
Ildırımdan şimşeyedek uzanar,
Göy üzünün naxış-naxış qamçısı.

Qayalardan fereh arxı çapılar,
Üzümüze açılar daş qapılar,
Üreyimin yanğısına sepiler,
Nur yağışın axış-axış damcısı.

Qovuşarsaq meger dünya dağılar,
Ezberidir qelbimin qem ağılar.
Narın-duzlu göz yaşına boğular,
Xatirenin baxış-baxış kamçısı.

Sevinc Arzulu

**Ne  bilim**

Hardadır gözümün içine dolmuş,
Çağlayan denizin sonu,ne bilim.
Necedir bir anda saralıb-solmuş
Ağlayan benizin tonu,ne bilim.

Daha isindirmez güneşin bele,
Ağlayıb sızlayar güleşin bele.
Bir vaxt yaşıl olan küleşin bele,
Xezele dönübdür donu,ne bilim.

Xara qismet oldu qızılgül kolum,
Sındı lal üreyim,qırıldı qolum.
Vüsal qapısında gözlerken yolun,
Mezar udacaqdır onu,ne bilim.

Sevinc Arzulu

**Ne olub gören**

Bir terefin Araz,bir terefin Kür,
Tebiet hirslenib gur leysan tökür.
Gah güclü sel olur,gah torpaq çökür,
Nurani dünyaya ne olub gören.

Qalibler yeniden meğlubu yıkmır,
Çaylarsa qızışıb yatağa sığmır.
Hamı tek benim de heç başım çıkmır,
Bu cani dünyaya ne olub gören.

Torpaq su içinde,evler su altda,
Gözeller görünmür daha suatda.
Alimler kesiler birce sualdan,
Bu fani dünyaya ne olub gören?

Sevinc Arzulu

**Ne ben ölesi**

Eh,igid sandığım şir olmadı ki,
Derd artıb-azaldı,bir olmadı ki.
Görüş yerlerimiz pir olmadı ki
Tek bizik sevdanın sadiq kölesi,
Ne sen dönesisin,ne ben ölesi.

Daha dincliyimiz pozulub bizim,
Yuxumuz tersine yozulub bizim.
Bextimiz belece yazılıb bizim,
Ferehe ortağıq,derdi bölesi,
Ne sen dönesisin,ne ben ölesi.

Sis,duman dereye çökülür artıq,
Gül üste jaleler tökülür artıq.
Deyesen dan yeri sökülür artıq,
Üzümden sezilir sübhün şölesi,
Ne sen dönesisin,ne ben ölesi.

Sevinc Arzulu

**Ne bilim**

Dünyanın rəngi bombozmuş,
Qara gördüm,mən nə bilim.
Içi susuzmuş,bomboşmuş
Yalançıymış çən,nə bilim.

Il keçdi,qəm cavanlaşdı,
Çörəyimiz yavanlaşdı.
Hey sərtləşdi,yamanlaşdı
Nədən artdı dən,nə bilim.

Başım üstdə ilham pərim,
Azalmayır alın tərim.
Bir də nə vaxt üzübəri,
Dönəcəksən sən,nə bilim.

Sevinc Arzulu

**Ne deyim**

Bir könül sındırmaq sence doğrumu,
Heyf,gec tanıdım sevda oğrumu.
Qarlı qış eyledin payız ömrümü,
Eh,sene ne deyim,sene ne deyim.

Bir dünya sevgini bölünmez etdin.
Qüsseli üreyi döyünmez etdin.
Yaxşını,yamanı görünmez etdi,
Sis,çene ne deyim,çene ne deyim.

Ellerim odundan köz de götürüb,
Onun istisini qelbe ötürüb.
Içimde ikinci bir "Ben" oturub,
Ben bene ne deyim,"Ben"e ne deyim.

Sevinc Arzulu

**Ne gözeldir**

Payız, donun xəzəldir,
Sarı rəngi özəldir.
Ayrılıq nə gözəldir,
Telini kim darayıb,

Ölçüsüyük zamanın,
Elçisiyik amanın.
Yaxın qoyma yamanı,
Eh, ondan kim yarıyıb.

Işin yox xar afətlə,
Baxmaz ki məhəbbətlə.
Qosqocaman həsrətlə,
Hicran birgə qarıyıb.
07.11.2017

Sevinc Arzulu

**Ne mutlu 'Türk'deyene**

Vüsal yaman axsayır,
Hesret onu “yox” sayır.
Lal könlümü oxşayır,
Bir bayatı de yene.

Fikirleşmez mest beyin,
Şux görüner dest geyim.
Axı nece dost deyim,
Üreyime deyene.

Yolda biter xar kimi,
Haqq eşitmez kar kimi.
Sersem qonşular kimi,
Hey qapını döyene.

Yumub xain gözünü,
Deyib yalan sözünü.
Ucaldıban özünü,
“Tarixim var”-öyene.

Baş eyek qüdretine,
Ol Turan dövletine.
Xalqına,milletine
Ne mutli Türk deyene.

Sevinc Arzulu

**Ne olacaq**

Dalsan bu dünyanın özelliyine,
Düşsen kainatın xezelliyine.
Vurulsan payızın gözelliyine.
Fereh ne olacaq,qem ne olacaq.

Üstüne Tanrının alqışı yağsa,
Qurşağın yeddi reng naxışı yağsa,
Sevdanın gözünden yağışı yağsa,
Quru ne olacaq,nem ne olacaq.

Başından yuxarı çox durursan sen,
Efsane xeyala hey uyursan sen.
Parlaq gelecekden dem vururs an sen,
Demirsin taleyi kem ne olacaq.

Sevinc Arzulu

**Ne olub  gören**

Bir terefi Araz,bir terefi Kür,
Tebiet hirslenib gur leysan tökür.
Gah güclü sel olur,gah torpaq çökür,
Nurani dünyaya ne olub gören.

Qalibler yeniden meğlubu yıxmır,
Çaylarsa qızışıb yatağa sığmır.
Hamı tek benim de heç başım çıxmır,
Bu cani dünyaya ne olub gören.

Torpaq su içinde,evler su altda,
Gözeller görünmür daha suatda.
Alimler kesiler birce sualdan,
Bu fani dünyaya ne olub gören?

Sevinc Arzulu

**Ne olub bes**

Özün gör nə halımdı,
Əğyar özgə, zalımdı.
Kədər üzdə xalımdı,
De,sənə nə olub bəs.

Dağlar yenə tək, yalqız,
Zirvəsində mən –qar qız.
Deyək, yağmır qar,yağış,
Sis,çənə nə olub bəs.

Bilməm,varmı,yoxmusan,
Vəslin evin yıxmısan.
Sən bivəfa çıxmısan,
Eh,mənə nə olub bəs.

Sevinc Arzulu

**Ne qeribesen**

Men ki senin derd daşınam,
Qıymırsan qemdən daşınam,
Unudulmaz yaddaşınam,
Rehm etmirsen qeribe sen,
Heyat, sen ne qeribesen.

Tuşlasam da göz semtimi,
Unutmaram söz semtimi.
Itirmişem öz semtimi,
Eh, bu menem-qerib esen,
Heyat, sen ne qeribesen.

Yüz il davam etmeyirsen,
Muradına yetmeyirsen.
Üç qerine getmeyirsen,
Bir ya iki qerinesen.
Heyat, sen ne qeribesen.

Sevinc Arzulu

**Ne verdi,gülüm**

Azalmayan qelb ağrısı bekş etdi,
Soyumayan can yanğısı bekş etdi
Qurtarmayan eşq qayğısı bekş etdi,
Alışaraq yandım,qaldı tek külüm.
Seni sevmek bene ne verdi,gülüm.

Qapımızı döymedi bir ilk bahar,
Pozuldu  ehd- peyman,pozuldu ilqar.
Göyden yere elenmedi yağiş-qar,
Yetişerek saralmadı sünbülüm.
Seni sevmek bene ne verdi,gülüm.

Oldum sene ben sadiq yar,ağladım.
Çaldı kaman,dillendi tar,ağladım.
Gah gizlı,gah da aşikar ağladım,
Göz yaşımdan al geyindi ağ tülüm.
Seni sevmek bene ne verdi,gülüm.

Şevincem,heyatım canlı bir kitab,
Üreyim hicrana getirermi tab.
Ömrüm boyu  göreceyem min ezab,
Bu yolda çekdim ben iztirab,zülüm.
Seni sevmek bene ne verdi,gülüm.

Sevinc Arzulu

**Ne zaman  ki....**

Ne zaman ki
ağlayaram,üzüm gülmez,
Danışanda sözüm gülmez,
Dost-tanışı gözüm görmez.
Demek onda qocalmışam.

Ne zaman ki
addımlarım yavaş olar,
Keder bene sirdaş olar.
Her saniyem,her deqiqem
dünya ile savaş olar.
Demek onda qocalmışam.

Ne zaman ki
tesir etmez etir bele,
Qem-yağışdan qorumasa çetir bele,
Yazammasam şeir birce setir bele
Demek onda qocalmışam.
Demek onda qocalmışam.

Sevinc Arzulu

**Nece yaşayarsan**

Etmə mənə belə zülüm,
Açılmamış solar gülüm.
Yannam,qalar təkcə külüm,
Mənsiz necə yaşayarsan.

Qəm əlindən qaçıb getsəm,
Son nurumu saçıb getsəm.
Əbədilik uçub getsəm,
Mənsiz necə yaşayarsan.

Sakit axan Araz olsam,
Şaxta olsam,ayaz olsam.
Eşidilməz avaz olsam.
Mənsiz necə yaşayarsan.

Xəzri kimi yelə dönsəm,
İnildəyən telə dönsəm.
Axıb gedən selə dönsəm
Mənsiz necə yaşayarsan.

Dərddən bağlar dəstə,Sevinc
Cavan,boyu bəstə Sevinc.
Əgər düşsə xəstə Sevinc,
Mənsiz necə yaşayarsan.

Sevinc Arzulu

**Neceydim.**

Ayrılıq-çekilmez melal,
Aşiqlerin dostu-hilal.
O qeder verdin ki sual
Islanmış cüceye döndüm.

Mekan quraq Qaf dağında.
Qartal, quzğun sol-sağında.
Günün günorta çağında,
Qaranlıq geceye döndüm.

Dalğalanar göy denizim,
Qum üstünde qalmaz  izim,
Özün bilirsin ezizim,
Neceydim, neceye döndüm.

Sevinc Arzulu

**Neceymiş gören**

Hanı rahat, gözəl çağ,
Fəlakətlər edir ağ.
Neçə milyon il qabaq,
Dünya necəymiş görən.

Dinləri ayırmışlar,
Min cür büt qayırmışlar.
Qüssəni sayırmışlar,
Kədər vecəymiş görən.

Göyün üzü toranlıq,
Yerin düzü şoranlıq.
Indi daha qaranlıq,
Gecə gecəymiş görən?

Sevinc Arzulu

**Neçe dilim**

Odlan köz həyatımdan,
Ocaq, köz həyatımdan.
Səni öz həyatımdan
Necə silim axı mən.

Şərin ölmədiyini,
Xeyri bölmədiyini.
Gəlib-gəlmədiyini
Necə bilim axı mən.

Bu qədər kədər bəsim,
Fərəhin üstdə əsim.
Ömür tortundan kəsim,
Neçə dilim, axı mən
18.02.2018.

Sevinc Arzulu

**Neçedir yaşım**

Mən niyə beləyəm, mən niyə belə,
Örtübdür üzümü çən niyə belə.
Tez düşdü telimə dən niyə belə,
Həyat saçlarımı qüssədən hördü.

Hicran oxşar bir riyasız mələyə,
Həsrət bicdir, heç düşməz ki tələyə.
Neynəmişdik bilməm zalım fələyə,
Bu şirin sevdanı bizə çox gördü.

Hansı sehr oxuyar,necə eyləyər,
Ayrılıq gündüzü gecə eyləyər.
Bilirsən, ay gülüm, neçə eyləyər,
Mənim öz yaşıma vuranda dördü.

Sevinc Arzulu

**Neden**

Fələk yenə ocaq çatıb, tonqal qurub içimdə,
Ürəyimi bişirir o, səngiyən köz üstündə.
Neçə rəngli tüstülərin hərəsi bir biçimdə,
Nədən mənə cəza verir bir haqsız söz üstündə.

Nədən belə qüssəliyəm, nədən bağrım şan-şandır,
Nədən mənim ağlar qəlbim qəm-qüssəyə nişandır.
Nədən xəstə, saf könlümü bir də salıb azara,
Nədən bu gün küskün ruhun beləcə pərişandır.

Bəlkə, gülüm,sanırsan ki səni unudaram mən,
Bircə qəmli musiqidən duyğularım coşandır.
Bu ilahi məhəbbəti ucuzmu tutaram mən,
Sevdiciyin nakam eşqə şeir-qəzəl qoşandır.

Sevinc Arzulu

**Nem olur**

Yalançı ümidlər boşuna gəlir,
Aşiqlər bir dəstə-qoşuna gəlir.
Səni ağlatmağım xoşuma gəiir,
Qaraca gözlərin necə nəm olur.

Gözündə parıltı gur işıq deyil,
Indiki cavanlar yaraşıq deyil?
Sevməyən onsuz da heç aşiq deyil,
Sevənin son sözü sevirəm olur.

Yenə məni səslər çəmən, çöl-bayır,
Küləklər sözümü hər yana yayır.
Yarəb, dərd-kədərdən məni tez ayır,
Qüssədən öləndə zilim bəm olur.
14.11.2017

Sevinc Arzulu

**Nem qarışıb**

Nədən belə şair könlüm,
Sevincinə qəm qarışıb.
Şəkər tökdün, deyil şirin,
Çayın deyən kəm qarışıb.

Qara geyib bu olacaq,
Sinən altı buz olacaq.
Yanmayacaq bu od-ocaq,
Qurusuna nəm qarışıb.

Düşmüsən möhnət quyuna,
Kim su içə,kim yuyuna.
Bir bax Kür-Araz suyuna,
Sanki suya dəm qarışıb.

Həsrət şirin məqam deyil,
Qışda dolu yağan deyil.
Bu, sevdiyim muğam deyil,
Zilinə pəs, bəm qarışıb.

Göy buludun tökdüyü nə,
Qəmin daş-daş sökdüyü nə.
Sənin daim çəkdiyinə,
Daha acı təm qarışıb.

Sevinc Arzulu

**Nem yaylıq**

Yollar çınqıl-çınqıl döşənib qalıb,
İzlər qəlpə-qəlpə keçir sinəmdən.
Vüsal qorxusundan üşənib qalıb,
Sözlər körpə-körpə köçür sinəmdən.

Dolaşır ilhamım dar küçələri,
Özünə əbədi girov axtarır.
Köksümün üstündə qar gecələyir,
Gözlərim səhərlər qırov axtarır.

Havanı bürüyüb yanıq qoxusu,
Daha nəfəs belə almayıram mən.
Əgər olmasaydı qanun qorxusu,
Həsrəti öldürə bilərdim həmən.

Nə çaylar qovuşar, yollar birləşər,
Sanki təbiətin yatan vaxtıdır.
Nə gözlər görüşər, qollar birləşər
Hücranın vüsala çatan vaxtıdır.

Tez çək  ayağını qəm oylağımdan,
Insafsız, göz yaşı nəyimə mənim.
Təpər də qalmayıb nəm yaylığımda,
Qorxuram libas tək geyinə məni.
26.04.2018

Sevinc Arzulu

**Nemi azalmaz**

Gedin deyin biilqara,
Könlümün qəmi azalmaz.
Dönük çıxdı etibara,
Gözümün nəmi azalmaz.

Qəm çölündən keçə-keçə,
Çiçək yığdım seçə-seçə.
Lövbər atıb neçə-neçə,
Dərd dolu gəmi azalmaz.

Hicran içimdə yuxular,
Könül kədərdən yuxalar.
Hər gün artıban çoxalar,
Fərəhin kəmi azalmaz.

Sevinc Arzulu

**Nemli üzünden**

Başımı götürüb haraya qaçım,
Sənli xatirələr qapımı açır.
Qızılı günəşi hələ nur saçır,
Mən öpdüm payızın nəmli üzündən.

Çətin ki xoş günlər geriyə dönə,
Ka ki ayrılığın çırağı sönə.
Uca zirvəsindən aşağı enək,
Keçək bu dağların çənli düzündən.

Qüssənin əlində nacaq qalmayaq,
Zamanı unudub fikrə dalmayaq.
Təkcə uşaqlıqdan xəbər almayaq,
Fərəhli qırxından, qəmli yüzündən.
30.11.2017

Sevinc Arzulu

**Nereler kaldı**

Dağ dağ ilə qurşağ tutdu,
Arada dərələr qaldı.
Qum dənizin suyun uddu,
Quruda bərələr qaldı.

Payızda göz qamaşarmı,
Duyğuyla hiss dalaşarmı.
Heç sizlərə yaraşarmı,
Havada nərələr qaldı.

Əbrəşləri quş apardı,
Kürələri qış apardı.
Çobanı hey huş apardı,
Burada kərələr qaldı.

Sevinc Arzulu

**Neşem menim**

Könül yaram köz bağlayıb,
Göz yaşlarım duz bağlayıb.
Duyğularım buz bağlayıb,
Donubdur qəlb guşəm mənim.

Fərəhim az, kədərim çox,
Qəmin gözü olmayır tox.
Daha başqa bir işim yox,
Dərd çəkməkdir peşəm mənim.

Ömrümdə qəm birincimi.
Fərəh sönən bir incimi,
Aldın əldən sevincimi,
Azalıbdır nəşəm mənim.

Sevinc Arzulu

**Neveler**

Könlümüzün başıdı,
Bahalı daş-qaşıdı.
Neslin qan yaddaşıdı,
Şirin-şeker neveler.

Tükenmez maraqları,
Duyular soraqları.
Yazdığım vereqleri,
Cırıb töker neveler.

Severler ucaları.
Gezerler bacaları.
Edib biz qocaları,
Cavan noker, neveler.

Şirin dilleri ile,
Gözel gülleri ile,
Rengli elleri ile,
Şekil çeker neveler.

Böyüdünüz meger siz,
Olacaqsız esger siz,
Olmasanız eger siz,
Sema çöker, neveler.

Sevinc Arzulu

**Nevem Yusife**

Neylesen, bize xoşdur,
Nenene şeir qoşdur.
Evimiz sensiz boşdur,
Hesretin bağrını del,
Gel, heyatım, ömrüm, gel.

Baban yuxuda görer,
Al-elvan çeleng hörer.
Dost-tanış seni sorar,
Kişi kimi uzat el,
Gel, həyatım, ömrüm, gəl.

Neve baldan şirindir,
Neve qan keçmişindir.
Qelben gülmek işindir,
En qiymetli yaqut, lel
Gel, heyatım, ömrüm, gel.

Sevinc Arzulu

**Neyinem  bes**

Sen benim dağ çiçeyimsin:bir az solğun,bir az yorğun
Sen benim gül leçeyimsin:bir az dalğın,bir az dolğun
Sen benim qelb küleyimsin:bir az küskün,bir az çiskin.
Sen benim eşq meleyimsin:bir az üzgün,bir az süzgün.
Ben senin neyinem bes?

Sevinc Arzulu

**Neyini sevim**

Həyat kitabını oxumuşam mən,
Sözlərdən nur-çələng toxumuşam mən.
Elə bil əzəldən yox imişəm mən,
Mən belə dünyanın nəyini sevim.

Varlının gözünü örtüb pul-para,
Qaranı ağ edər,ağı da qara.
Haqq sözün üstündə çəkilləm dara,
Mən belə dünyanın nəyini sevim.

Yaxşının həmişə üzü ağ olsun,
Istəməm yamanın keyfi çağ olsun.
Dağı düzən olsun,bağı dağ olsun
Mən belə dünyanın nəyini sevim.

Ey insan,işinlə zirvəyə ucal,
Ağ yalan verməz ki doğruya macal.
Dəvətsiz qonaq tək tez gələr əcəl,
Mən belə dünyanın nəyini sevim.

Bir şirin gülüşü üzümdən soyar,
Göz yaşı içməkdən çətin ki doyar.
Bu qədər dost içrə tək-tənha qoyar,
Mən belə dünyanın nəyini sevim.

Yaralı ürəyim onsuz sızıldar,
Külək,başım üstdə az öt,mızıldan.
Mənə qəbir verər o,saf qızıldan
Mən belə dünyanın nəyini sevim.

Bu evin ucalan tüstüsü hanı,
Ocağın həniri,istisi hanı.
Həyatın zülümə "bəs"disi hanı,
Mən belə dünyanın nəyini sevim.

Sevinc Arzulu

**Neyini sevim?**

Heyat kitabını oxumuşum ben,
Sözlerden nur-çeleng toxumuşum ben.
Ele bil ezelden yox imişim ben,
Ben bele dünyanın neyini sevim.

Varlının gözünü örtüb pul-para,
Qaranı ağ edir, ağı da qara.
Haqq sözün üstünde çekillem dara,
Ben bele dünyanın neyini sevim.

Yaxşının hemişe üzü ağ olsun,
Istemem yamanın keyfi çağ olsun.
Dağı düzen olsun, bağı dağ olsun
Ben bele dünyanın neyini sevim.

Ey insan, işinle zirveye ucal,
Ağ yalan vermeez ki doğruya macal.
Devetsiz konaq tek tez geler ecel,
Ben bele dünyanın neyini sevim.

Bir şirin gülüşü üzümden soyar,
Göz yaşı içmekden çetin ki doyar.
Bu qeder dost içre tek-tenha qoyar,
Ben bele dünyanın neyini sevim.

Yaralı yüreyim onsuz sızıldar,
Külek, başım üstde az öt, mızıldan.
Bene qebir verer o, saf qızıldan
Ben bele dünyanın neyini sevim.

Bu evin ucalan tüstüsü hanı,
Ocağın heniri, istisi hanı.
Heyatın zülüme "bes"disi hanı,
Ben bele dünyanın neyini sevim.

Sevinc Arzulu

**Neynedi  seni**

Sen çoxdan dönmüşdün ürek oğruma,
Indi dözemmirim hesret ağrıma
Axtarıb-arayıb basdı bağrına,
Yeraltı seltenet neynedi seni.

Felekmi su tökdü eşq ocağına,
Qısıldın heyatın bir bucağına.
Verdi yad ellerin yad qucağına,
O güclü mehebbet neynedi seni.

Biz nece qet etdik dönge-dalanı,
Havaya sovurduq olub-qalanı.
De,niye seçmedin acı yalanı,
O dilsiz heqiqet neynedi seni.

Sevinc Arzulu

**Neynedi seni**

Sen çoxdan dönmüşdün ürek oğruma,
Indi dözemmirim hesret ağrıma
Axtarıb-arayıb basdı bağrına,
Yeraltı seltenet neynedi seni.

Felekmi su tökdü eşq ocağına,
Qısıldın heyatın bir bucağına.
Verdi yad ellerin yad qucağına,
O güclü mehebbet neynedi seni.

Biz nece qet etdik dönge-dalanı,
Havaya sovurduq olub-qalanı.
De,niye seçmedin acı yalanı,
O dilsiz heqiqet neynedi seni.

Sevinc Arzulu

**Neyneyim**

Ulduzlar üstüme axın gelibler,
Bir qeder çepeki baxıb gelibler.
Ne qızıl-gümüş var,taxıb gelibler
Kehkeşan yolları dardı,neyneyim.

Hesreti görende deyişir halım,
Qüsseden qaralıb üzdeki xalım.
Uzağa qovduğum ayrılıq zalım,
Indi ben yazığa yardı,neyneyim.

Alem sele-suya qerq olan yerde,
Şimal-Qerb dönüben Şerq olan yerde,
Geceler işığa berq olan yerde,
Könlümü ateşin sardı,neyneyim.

Sevinc Arzulu

**Neynim**

Canıma qarınca daraşıb,gülüm,
Bezen göz yaşından kar aşır,gülüm.
Bene al-elvanlıq yaraşır,gülüm
Bülbülün geydiyi sarını neynim.

Genclik hevesiyle uça bilmirim,
Güneş tek kelbe nur saça bilmirim.
Soyuq baxışından qaça bilmirim,
Iziyle getdiyim qarını neynim.

Çiçekden vurulmuş taya benimdir,
Mermerden qurulmuş qaya benimdir.
Gözün tek durulmuş dünya benimdir,
Dalınca hönküren xarını neynim.

Vüsalın göyünde tek oğlu tekdim,
Resmini parlayan ulduzdan çekdim.
Hicranın başını birteher ekdim,
Delice qudurmuş harını neynim.

Insana xoş xeyal,inan,yetmeyir.
Lal olan xatire gözden getmeyir.
Daha xoşbextlikden söhbet etmeyir,
Simlə ri qırılmış tarını neynim.

Çek veslin hesretin,cefalı ise,
Gez eşqin bağını,sefalı ise.
Benim özce yarım vefalı ise,
Özgenin bivefa yarını neynim.

Yene ildırımlar qıyqacı baxır,
Ateşi yer-göyü yandırıb yaxır.
Seninle görüşmek isterdim,axı
Arada ucalan barını neynim.

Sevinc Arzulu

**Neynim qezel**

Ürəyim fəqan edir,ah-nalə çəkir gecələr,
Qalmayıbdır ,ey gülüm, səndən bir nişan, neynim.
Inan ki gözlərimə qaranlıq çökür gecələr,
Olmadım sənin üçün gözəl zərnişan,neynim.

Gənc idim, gözəl idim bilməz idim dərd-qəm nədir,
Nə bileydim ki sevgi,məhəbbət,eşq əfsanədir.
Nakam aşiq hamının gözündə bir divanədir,
Gəzirəm Leyla kimi halı pərişan,neynim.

Nə vaxtdır eşitmirəm səsin,həsrətəm sözünə,
Özün öz əlin ilə su caladın eşq közünə.
De,necə ağlamayım,gözüm baxmayır gözünə,
Qəlbimdir göz yaşıyla daim qarışan,neynim.

Mən sənsiz olan gündən bircə dəfə gülməsəm də,
Sel kimi axan yaşı gözlərimdən silməsəm də.
Etdiyin zülümləri bağışlaya bilməsəm də,
Ürəyim olacaqdır sənlə barışan,neynim.

Sevinc,sən bir qartalsan,dostların da şahin,sardır
Uca dağ zirvəsində ağaran bəmbəyaz qardır.
Ürəyimdə Allahdan təkcə bir istəyim vardır,
Olsun bəxt ulduzumuz qoşa sayrışan,neynim.

Sevinc Arzulu

**Nicata**

Nicat, mübarək ad günün,
18 yaşın-şad günün.
Gecə-gündüz test eylədin,
Direktora jest eylədin.
Fəxri oldun İmişlinin,
Doğma kəndin Telişlinin.
Vurub keçdin altı yüzü,
Atan çox gözlərdi, düzü.
Çalaraq zəfər, qələbə
Gözəl ad aldın-tələbə.
Daxil oldun sən Aziyə-
Hazır ol mübarizəyə.
Tələbəlik asan deyil,
əla almaq asab deyil.
Nicat, sənə uğur olsun,
Könlün fərəh ilə dolsun.
07.09.2017

Sevinc Arzulu

**Nigaram**

Bu dağlar, qoca dağlar
Dərəni quca dağlar.
Dörd yanım uca dağlar,
Əsir düşmüş ruzgaram.

Könül qəmə dalası,
Kədərdən söz salası.
Çinarboy qız qalası,
İllərdən yadigaram.

Ruh tərk edər bədəni,
Tənha qoyar bəndəni.
Koroğlunun həmdəmi,
Alagözlü Nigaram.
Taleyindən nigaran.

Sevinc Arzulu

**Niye**

Zirvə bəyaz olar başı qar ikən,
Aşiq xoşbəxt olar vəsli-yar ikən.
Bu geniş dünyada vüsal var ikən,
Acı bir həsrətə tuş etdin niyə.

Qəlbimdə nə qədər ağrı-acım var.
Bir sevən könülə ehtiycım var.
Qartal tək ucaya qalxmaq gücüm var,
Sən məni qüvvətsiz quş etdin niyə.

Inan,darda olmaz kimsə köməyin,
Bir anda yıxılar eşqin dirəyi,
Göz yaşıyla yoğurduğum çörəyi,
Könül xoşluğuyla nuş etdin niyə.

Sevinc Arzulu

**Niye döndü**

Sürüb ömrün qalanını,
Gəzdim eşqin dalanını.
Neynəyirəm yalanını,
Düzün məndən niyə döndü.

Gəl oynama səbirimlə,
Qurda dönmüş bəbirimlə.
Qoşalaşmaz ləpirimlə,
Izin məndən niyə döndü.

Qəmlə keçər ayım-ilim,
Göz yaşımı necə silim.
Günahımı söylə,bilim,
Üzün məndən niyə döndü.

Sevinc Arzulu

**Nizami dastanı**

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gencede izzü-ehtişamı dağılan.
Olmayıbdır cahanda bir seninle mentek,
Beyti, evi, mektebi, kelamı dağılan.
Seyid Ezim Şirvani

Şeyx babam, Nizami babam
Qurulub nizamın, babam.
Gözeldir her ehtişamın.
Gündüzün. Hem de axşamın.

Şerqin şeir peyğemberi,
Sensen dilimin ezberi.
Daşlaşıban heykel oldun,
Az qala min yaşa doldun.

Farsın dilinde yazsan da,
Kelam içinde azsan da
Şeir dünyasında teksen.
Sen fars deyilsen, sen türksen.

Mine yaxınlaşıb yaşın,
Daha çatılmasın qaşın.
Ucadan  Gence eline,
Baxan ruhun da seviner.

Durmuşam meqbere önünde.Fikren
Dönüb qayıtmışam ötenlere men.
Nizami babama verirem salam.
Sesimde duyulur böyük ehtiram.

Qoca Şerqin qocalmayan şairi,
Sevdirdin bizlere müqeddes şeri.
Çox ele yayılıb,  ezberdir "Xemse"n,
Özüne ebedi heykel qoydun sen.

Sen ey Nizami babam,
Dardadır elim, obam.
Ermeni faşistleri,
Qıcırdaraq dişlerin
Cennet torpağımızı,
Gözel Qarabağımızı
Tutub  esir etmişdir.
 Arzusuna yetmişdir.
Qelem alıb eline.
Esir qıza-geline,
Yazardın neçe dastan,
Yaşasaydın  sen  bu an.

Eh... biz neler görmüşük,

Neçe şehid vermişik
Igid-igid erenler,
Müharibe görenler.
Bu gencecik yaşında,
Ağlım çıxır başımdan
Şehidleri andıqca.
Yoxluğuna yandıqca.

Qayıt Nizami babam,
Kömek ele bizlere.
Meğlub edib ders verek,
Bu faşist dinsizlere.

Qalx ayağa,  şeirle
Xalqı qisasa sesle.
Şer vuruşur Xeyirle,
Gör nece de hevesle.

Sonda meğlub olacaq,
Ermeni xisletli şer.
Zefere el çalacaq.
Bizleri seven kesler.

Biz de meğlub ederik,
Tezlik ile hayları.
Üstlerine gederik,
Eşidiler vayları.

Azad Qarabağımız,
Qerq olar nur gölüne.
Qoymarıq vetenimiz,
Yene iki bölüne.

Sen ey Nizami babam,
Oyaqsan sübh çağından.
Şuşa  o gözel qalam,
Nur saçar sülh çağında.

Oğullar esger geder,
Zefer ile qayıdar.
Vetene borcun öder,
Sülh quşunu oyadar.

Qanad çalar göyerçin,
Mas-mavi semamızda.
Sülh  marşı eşidilsin,
Her zerre havamızda.

Ağ göyerçin-sülh quşu,
Daş ellerine qonar.
Xatireler bir qoşun,
Adının üstde donar.

Doqquz yüz  illiyini,
Her yerde qeyd ederik.
Bütün Qarabağ boyu,
Gezib yallı gederik.

Menim nurani babam,
Helelik.Seni yordum.
Azad olsun el-obam,
Qelebe çalsın ordum.
09.10.2018

Sevinc Arzulu

**Not ve duyğular**

Könül duyğularımı gözel misralarla
ifade etmek  istedim.
Not defteri elime keçdi.
Xettin ortasından başlayıb yazdım:
Do-doğulmaq,
re-rahatlıq,
mi-mehebbet,
fa-fereh,
sol-subaylığa son,
lya-uşaqlara çalınan hezin layla,
si-sevdanın sesi.
Cemi bir oktava.
Yene eşq qoxuyur bu hava.

Sevinc Arzulu

**Noxudun üstünde yatan şahzade**

Sen hele uşaqsan,hele körpesen,
Sen eşqden sevgiye asma körpüsün.
Söyle,bal yuxunda kimi  görmüsün,
Noxudun üstünde yatan şahzade,

Özün yatmısan da baxtın oyaqdır,
Susuban dinmeyen taxtın oyaqdır.
Saatın adlayır,vaxtın oyaqdır,
Noxudun üstünde yatan şahzade.

Gelecek gününe qarantlı oğlan,
Elleri çiçekli,baratlı oğlan.
Girdimi yuxuna ağ atlı oğlan,
Noxudun üstünde yatan şahzade.

Azıban qalmısan tenlik içinde,
Qızarmış yanağın enlik içinde.
Oyandın yuxudan şenlik içinde,
Noxudun üstünde yatan şahzade.

Özünden qabaqda edası gelir,
Dalınca meftunu,fedası gelir.
Deyecen musiqi sedası gelir,
Noxudun üstünde yatan şahzade.

Sevinc Arzulu

**Nöqte kimi**

Özün dartma, ucalıqda
Geyinərsən nöqtə kimi.
Bilirsənmi qocalıqda,
Deyinərsən nöqtə kimi.

Yüzlük deyil, bir onluqsan
Almaram, adi donluqsan.
Tez qurtaran boz sonluqsan,
Öyünərsən nöqtə kimi.

Sən vergülün gərəyində,
Arzusunda,diləyində.
Kainatın ürəyində
Döyünərsən nöqtə kimi.

Sevinc Arzulu

**Növbesi  yox**

Beni görcek qem yaşındı,
Salam vermekden daşındı.
Dünya neheng bir maşındı,
Yadda qalan nömresi yox.

Her gün neçe can alandır,
Ele vay-şiven salandır.
Ölüm tenha,tek qalandır
Qebulunda növbesi yox.

Ürek nece onsuz olar,
Qışda çinar donsuz olar.
Derdin ömrü sonsuz olar,
Axırıncı nöqtesi yox.

Sevinc Arzulu

**Nurlu sabah**

Benim ayrılığa sedaqetim yox,
Ailem olmasa seadetim yox.
Üreyim ağrıyır, heç taqetim yox,
Addımı zülmle atıram daha.

Beni ol zülmetin nuru tek görme,
Eynime qaranlıq dar libas hörme.
Ilahi, sen özün icaze verme,
Pislikle dost olum, batım günaha.

Hicranın, hesretin evini yıxım,
Sevimli sevdamın elini sıxım.
Solmayan ümidle, gülerüz çıxım,
Her defe açılan nurlu sabaha.
27.10.2018

Sevinc Arzulu

**Nübarı eşqim**

NÜBARI,  EŞQİM

Qüsseden, keder sözüm yaşınır.
Kiminle bölürsendözüm aşını,
Yene ne tökürsen g[zwn yaşını
A yalın könlümün qubarı eşqim.

Il ötdü, heç seni arayammadım,
Ağaran telini darayammadım.
Sed heyf,  ben seni qoruyammadım,
Cavanlıq çağımın nübarı eşqim.

O qeder gezmisin qayada, daşda
Feleyin zülümü yazılıb başda.
De, nece geriye dönüm bu yaşda,
Eh,  benem qadınlıq kübarı, eşqim.
17.07.2013

Sevinc Arzulu

**Nümayişi**

Sevən ürək üzülməsin,
Gözlərdən yaş süzülməsin.
Muncuq kimi düzülməsin,
Budur qəlbin fərmayişi.

Kədər yolu məndən başlar,
Ala gözdə çəndən başlar.
Bilirsənmi səndən başqa,
Kim pozar ki asayişi.

Dəyişməyib,dünya həmin.
Üzəmməyir arzu gəmin.
Yaman olur dərdlə-qəmin,
Toy günündə nümayişi.

Sevinc Arzulu

**O da meni**

Düşmən muradına yetməz,
Qorxaq mərdin üstə getməz.
Gülüm, heç kim məğlub etməz,
Süd yerinə od əməni.

Gün tək çıxdın, ay tək batdın,
Qəlbini şeytana satdın.
Özün bilə-bilə atdın,
Dirigözlü oda məni.

Çox məğrurdun,qaya-saldın,
Daim xəyallara daldın.
Sevinc,gör nə günə qaldın,
Bəyənmədi o da məni.

Sevinc Arzulu

**O duman, eşkim**

Gecəni gündüz tək kəhkəşan edər,
Elə bil səmada toy-nişan edər.
Nədir səni belə pərişan edən,
Çılçılpaq qayadan ot uman eşqim.

Sözünə əminsən, ümidvar kimi,
Arzular ürəkdən, unudar kimi.
Qapqara qaralıb buludlar kimi,
Yalanı gizlədir o duman, eşqim.

Həsrətim qəlbini dondurmayacaq,
Üstünə toz belə qondurmayacaq.
Bilirsən, əlini yandırmayacaq,
Qor olmuş ocaqdan od  uman eşqim.

Yenə sevda gülüm ləçək-ləçəkdir,
Əl vursam torpağa töküləcəkdir.
Baharda geriyə dönməyəcəkdir,
Yaralı uçubdur o durnam, eşqim.

Dünyamız durduqca sənlə varsam,
Sevdiyim insana ən sadiq yarsam.
Arzu edilməyən məclisə varsam,
O yerdə dəqiqə oturmam, eşqim.
04.12.2018

Sevinc Arzulu

**O gözler**

Bu dünyanın alğışları əbədi,
Üzü dönsə qarğışları əbədi.
Gözyaşı tək yağışları əbədi,
Bu dünyanın üz qabığı soyulmur.

O gözlərın ağalamış, yenə nəmmi,
O gözləri ağladan yenə mənmi.
O gözlərdə oxunan dərdmi, qəmmi.
O gözləri incidən göz oyulmur.

O gözlərin dediyini duymadım,
O gözlərdə göz yaşımı yumadım.
O gözlərdən başqasına uymadım,
O gözlərin əzabından doyulmur.

Sevinc Arzulu

**Ocağında**

Qelbe qara qan verirem,
Neçe qemli an verirem.
Bax, nece de can verirem.
Men hesretin qucağında.

Yaşla dolu göz olmuşam,
Titrek, hezin söz olmuşam.
Yanıb-yanıb köz olmuşam,
Mehebbetin ocağında.

Ömür sürrəm men ikili,
Derdin evi nem tikili.
Qalmışam boynubükülü,
Xeyanetin bucağında.

Sevinc Arzulu

**Oğlum**

Oğlum menim, dar günümde penahım,
Yaman düşdün bu dünyanın berkine .
Derya qeder sebri olan Allahım,
Ne vaxtacan dözecekdir erkine .

Meh  esende; qaldırmağa çöp arar,
Yalan yalın elleriyle gop arar.
Seni bizden uzağaca aparar,
Ay ezizim, minme pisin terkine .

Bir de çetin süret üste qonarsan,
Heqiqeti dırnağınla yonarsan.
Soyuğundan üşüyersen, donarsan,
Gel bürünme ayrılığın kürküne .

Güneş olub çıx da, Ay olub batma
Yeri-göyü bir-birine heç qatma.
Könlümün başında od-ocaq çatma,
Döze bilmem hesret adlı bürküne .

Sevinc Arzulu

**Oğlum**

OĞLUM
(Qehreman Şehid atadan oğluna)

Elimle ucaltdım qem sarayını,
Gülleyle ödedim düşmen payını.
Heyf, içe bilmedim şirin çayını,
Ecel şerbetini işmişem, oğlum.

Qovub çıxararken namerd düşmeni,
Qanımla boyadım yaşıl çemeni.
Arayıb-axtarıb tapmazsan meni,
Tanrı dergahına köçmüşem, oğlum.

Sevincle duydum men zefer dadını,
Eşitdim Şuşanın lirik ladını.
Qanımla qazandım ŞEHİD adını
Vetençün canımdan keçmişem, oğlum.
17.04.2016

Sevinc Arzulu

**Oğluma**

Anayam, başa tacam,
Oğul mehrine acam.
Kimseni aramıram,
Tekce sene möhtacam.

Üzünü bir göreydim,
Öpüb salam vereydin.
“Necesen ana”-deyib,
Ehvalımı soraydın.

Qaranlıq yer üzünde,
Ot da bitib izinde.
Uzaq düşdün hamıdan.
Laleli gül düzünde.

Sessiz harayam, hayam
Sensiz tekce-tenhayam.
Gündüzler nursuz güneş,
Geceler solğun ayam.
21.03.2018

Sevinc Arzulu

**Oğul**

Ananın evini yıxdın,
Düşmənin əlini sıxdın.
Niyə belə namərd çıxdın,
Niyə belə, ay oğul.

Bilmədin ki qiymətimi,
Zay elədin sərvətimi.
Mənim bunca zəhmətimi,
Verdin yelə, ay oğul.

De, qüssədən hara qaçım,
Azalmayır ağrım-acım.
Dəyişmişəm sarı saçı,
Bəyaz telə, ay oğul.

Sevinc Arzulu

**Ol sen**

Gül üstündə şəbnəmim,
Parlayan şehim ol sən.
Qəlbdə qalmasın qəmim,
Küləyim,mehim ol sən.

Haraya gedir karvan,
Deyən naşıdır sarvan.

Göylərimdə al-əlvan,
Qövzi-qüzehim ol sən.

Şeir yazmaq dövlətim,
Tükənməyən sərvətim.
Xoşbəxtliyə də`vətim,
Şənliyə behim ol sən.

Sevinc Arzulu

**Ol, qayıt**

Bulud qanad gəribsə,
Yerə kölgə səribsə,
Mənim üçün qəribsə,
Bir azacıq dol,qayıt.

Əsr olar il sənsiz,
Ağı deyər dil sənsiz.
Ay əzizim,bil sənsiz,
Solar yaşıl kol,qayıt.

Rəhm et taleyi kəmə,
Batırma məni qəmə.
Bir kimsəyə bənzəmə,
Elə özün ol,qayıt.

Sevinc Arzulu

**Ola bilmez**

Iç bulağın suyundan.
Çırmalanıb yuyun da.
Saflıq varsa soyunda,
Insan qəlp ola bilməz.

Daş asılar sinəmdən,
Yağış yağar dünəndən.
Uzaq dur gec dinəndən,
Yumşaq qəlb ola bilməz.

Dünya bilmir çoxunu,
Nə acını, toxunu.
Dəyişməz ki oxunu,
Şimal qərb ola bilməz.
12.12.2017

Sevinc Arzulu

**Olacağam**

Gözlerken ilqar beni,
Meğlub etdi xar beni.
Baxışınla yar beni,
Çün hissiz oduncağam.

Yar eşqimi uyudub,
Beni tamam unudub.
Felek çox atıb-tutub,
Elinde oyuncağam.

Hesret iblis donunda.
Qemin qara fonunda.
Bu tunelin sonunda,
Işık ben olacağam.

Sevinc Arzulu

**Olacaq**

Könül üzüyünün almaz qaşı var,
Badamı gözleri,qara qaşı var.
Hele ne görüb ki,on beş yaşı var
Bu qız kimin vefadarı olacaq.

Bu yollar getdikce uzanacaqdır,
Özüne yaşıl don qazanacaqdır.
Bu qızın oduyla qızınacaqdır,
Yayda da buzlayan soyuq olacaq.

Dünyanın en ulu bir qürdetinden,
Böyük sevgisinden,mehebbetinden.
Bu qızın qelbinin heraretinden,
Yeniden yanacaq közeren ocaq.

Sevinc Arzulu

**Olacaq qezel**

Bilməz idim sevginin yolu belə dar olacaq,
Bu yolda müsibəti-çovgun,şaxta-qar olacaq.
Sanırdım zirvələrdə qartallar məskən salacaq,
Sən demə rast gəldiyim tərlan,şahin,sar olacaq.

Tək qalıb lap vəhşiyə dönüb ağappaq kəhərin,
Niyə qəm-kədər ilə açılır nurlu səhərin.
Axır bir gün üstümə yamanca tökdün zəhərin,
Nə bileydim sevdiyim tez çalan şahmar olacaq.

Çən-duman bürünübdür indi sənin Qoşqar dağın,
Uçuban gedib dönməz bir də o xoş dəmli çağın.
Soluban saralıbdır viran olmuş baxça-bağın,
Fürsət  tapıb dərdiyim tək gülöyşə nar olacaq.

Özgələr çalacaqdır sənə nəğmə,layla,gülüm.
Qəmi-hisranın ömrü ölçülməyir ayla,gülüm.
Məni görsən də uzaqdan nə çağır,hayla,gülüm,
Bu gündən çağrışına qulaqlarım kar olacaq.

Çıxın uca zirvəyə,bəlkə görək boyunuzu,
Bir kəlmə söz desəniz anlayarıq soyunuzu.
Simfonik orkestrlə sizlər edin toyunuzu,
Sevincəm, şənliyimdə saz,kamança,tar olacaq.

Sevinc Arzulu

**Olacaqmış**

Hesret qedrimi bilse de ,
Göz yaşımı hey silse de ,
Hamı sevib-sevilse de .
Eşqimiz suç olacaqmış.

Buludlar qara bağladı,
Dolub-dolub hey ağladı.
Ayrılıq gündüz hağladı,
Geceden köç olacaqmış.

Qadasını alma xarın,
Tez saralar alma, narın.
Göyden düşen almaların,
Sayısı üç olacaqmış.

Sevinc Arzulu

**Olan gülüm**

Qəmin qəlblə tənasübü,
Üzündə xal olan gülüm.
Çiçək açan təbəssümü.
Məlhəmi-bal olan gülüm.

Xatirələr gözəl-göyçək,
Xoş xülyalar olmaz gerçək.
Danışsa da məni görcək,
Bir anda lal olan gülüm.

Sünbül ağlar dənsizlikdən,
Dağ darıxar çənsizlikdən.
Üzülüben mənsizlikdən,
Hərdən bihal olan gülüm.

Sevinc Arzulu

**Olan vaxtıdır**

Ömrümü yolunda bir çıraq etdim,
Indusə ziyamın solan vaxtıdır.
Kədəri gözündən mən iraq etdim,
Qüssədən gözümün dolan vaxtıdır.

Həmişə yamyaşıl, hər vaxt xoş dəmli,
Su içir Arazdan gözləri nəmli.
Yenə dayanıbdır qüssəli,qəmli,
Söyüdün saçını yolan vaxtıdır.

Daha bircə kəlmə söz də göndərmə.
Həsrətə tab edib döz də, göndərmə.
Sönən ocağımçun köz də göndərmə,
Sevincin qaynana olan vaxtıdır.

Sevinc Arzulu

**Olar**

Könlümü tek sene e`tibar etsem,
Qelben sevdiyimçün iftihar etsem.
Olmasan,derdinden intihar etsem,
Feleye en böyük e`tiraz olar.

Ayrılıq benimçün acıdan acı,
Bir daha parlamaz gözellik tacı.
Könlünde yurd salar sevginin gücü,
Gözünde kederli ehtiras olar.

Bir kimse duyarmı derdi sonsuzu,
Sanırdım eriyer ayrılıq buzu.
Hesretin heyatı uzundan uzun,
Vüsalın ömrüse,eh,bir az olar.

Sevinc Arzulu

**Olarmış**

Qarşıma ocağın közü gəlibdir,
Istinin yerinə sözü gəlibdir.
Elə bil dünyaya özü gəlibdir,
Bu qədər naşükür  insan olarmış.

Çıxa bir pirani haqq-nahaqq bölə,
Sanki daş atılar susqun, lal gölə.
Qorxuram yer üzü çiçəkdən ölə,
Ananın göz yaşı leysan olarmış.

Dünyanın bir üzü qara, biri ağ,
Sənin nə vecinə, keyfin daim çağ.
Balaca təpələr gözündə bir dağ,
Ayrılıq bu qədər asan olarmış.

Sevinc Arzulu

**Olarmış,allah**

Bir acı sözlə qəlb dağlamaq olar,
Ömür qapısını bağlamaq olar.
Sözümü deməsəm ağlamaq tutar,
Qəzəbdən gözlər də dolarmış,Allah.

Pəncərəm səmaya açılan zaman,
Gözlərim önündə açılar zaman.
Həsrətin zərrəsi saçılan zaman,
Vüsalın çiçəyi solarmış,Allah.

Bu dünya kədərdən iki bölünmüş,
Yenə qan ağlayan susuz çölümmüş.
Atamın ölümü xoşbəxt ölümmüş,
Ölümün xoşbəxti olarmış,Allah.

Anamın getməyi şillə tək dəydi,
Dostumun yoxluğu qəddimi əydi.
Xoşbəxtlik axtarmaq nahaqca səydi,
Insana ayrılıq qalarmış,Allah.

Sınayır insanı o,boşda-bərkdə,
Tale gedişini eyləyir diqtə.
Işıqda baxanda görünər nöqtə,
Ürəyim qüssədən qaralmış,Allah.

Sevinc Arzulu

**Oldu daha**

Görən gedir hara bulud,
Mənidə bir ara bulud.
Boşalmışdı qara bulud,
Göz yaşıyla doldu daha.

Görürsənmi qızılgünü,
Hər zərrəsi qızıl-gümüş.
Əkdiyimiz gızılgülün,
Gözəl rəngi soldu daha.

Gedib çoxum,qalıb azım,
Bu kədəri hara yazım.
Təsəlliniz nəyə lazım,
Mənə olan oldu daha.

Sevinc Arzulu

**Oldum**

Geri dön bir anlığına,
Bax şöhrəti-şanlığına.
Mən könlünün xanlığına,
Sənə layiq sultan oldum.

Mənim üçün həyat durdu,
Fələk yeni plan qurdu.
Namərd ovçu oxla vurdu,
Al qanıma qəltan oldum.

Ömr lazım dəyişməkçün,
Aşıq gərək deyişməkçün.
Iblis ilə döyüşməkçün,
Mən də dönüb şeytan oldum.

Sevinc Arzulu

**Oldumu**

Azalmayan qayğılar,
Uyuşmayan uyğular,
Yaşadığım duyğular,
Sətir-sətir oldumu,

Al günəş nur saçanda,
Dərd  kədərlə qaçanda,
Qızılgüllər açanda,
Ətir-ətir oldumu.

Qaldım qəm bazarında,
Fərəh kəm bazarında.
Ağsaqqal huzurunda,
Götür-gətir oldumu.

Sevinc Arzulu

**Olmadım**

OLMADIM,

Düşdüm qem ocağına,
Sığındım bucağına.
Çoxunun acığına,
Yox olmadım, olmadım.

Hesretin qeybetinden,
Derdinden, möhnetinden,
Sözünden, söhbetinden,
Tox olmadım, olmadım.

Ne deyim kederimden,
Taleyi hederimden.
Ele öz qederimden,
Çox olmadım, olmadım.

Sevinc Arzulu

**Olmadın**

OLMADIN

Evvelce süzdürüb göz-qaşlarını,
Yağdırıb başına söz daşlarını,
Ümidsiz ümidin köz yaşlarını,
Astaca qurudan güman olmadı?

Bend olub hicranın fitne-feline,
Ağappaq qerenfil taxıb teline
Uyub da çiskinin şirin diline,
Qisası unudan duman olmadı?

Ayrılıq zalımdan halımı sorub.
Zemane başıma corab da hörüb.
Bir damla sevinci  bene çox görüb
Zülmetden qızıl dan uman olmadın?

Sevinc Arzulu

**Olmayan yerde**

Dərdini qəmdən qoparsan,
Fərəhdən yel tək çaparsan.
Axtar gəz, bəlkə taparsan,
Özünü.Olmayan yerdə.

Xatirələri paslatma,
Qara qüssəni süslətmə.
Soyuq su ilə islatma,
Gözünü.Dolmayan yerdə.

Gözəl-göyçəyə bənzət gəl,
Mavi ləçəyə bənzət gəl.
Gülə-çiçəyə bənzət gəl,
Sözünü.Solmayan yerdə.
25.05.2018

Sevinc Arzulu

**Olmuşam**

Günlər,aylar bir-biriylə ötüşüb,
Bülbül güllə, gül bülbüllə öpüşüb.
Ay Günəşlə əzəl gündən öc düşüb,
Illər keçib, mən də yaşa dolmuşam.

Mən aşiqəm, bilmirəm kimə bəndəm,
Mən mizrabam, bir sarı simə bəndəm.
Ağlayaram, bir kiçik himə bəndəm,
Dindirməyin, bulud kimi dolmuşam.

Günəş olub daim işıq saçmışam,
Dərd əlindən baş götürüb qaçmışam.
Sanırdım ki təzə cığır açmışam,
Sonra gördüm bir keçilmiş yolmuşam.

Azərbaycanımdır doğma məkanım,
Mən olmuşam şeirin bənna, kənkanı.
Yollarımı kəsən qanqal, tikanı
Lap kökündən çıxardaraq yolmuşam.

Çal aşıq, çal "Heyratı"mı,"Cəngi"mi,
Unutmaram ritmimi, ahəngimi.
Deyirlər ki itirmişəm rəngimi,
Nədən belə saralmışam, solmuşam.

Şair, yenə şeirlər içində az,
Həmdəm olsun sənə kaman, telli saz.
Daha yaşıl geyməz gəlsə bahar, yaz,
Qol-budağı quruyan bir kolmuşam.

Dost içində olub mənim öz yerim,
Qalmamışam heç vaxt kimsədən geri.
Uca tutdum hər vaxt sözü, şeiri
Sevincəm, özüm də şair olmuşam.

Sevinc Arzulu

**Olsun**

Dünya kar,neynim.neynim.
Həsrət yar,neynim,neynim.
Evim dar,neynim,neynim
Ürəyim geniş olsun.

Dərd əlin sıxammıram,
Hicranı yıxammıram.
Qocaldım,çıxammıram,
Yoxuşun eniş olsun.

Özün öyməyə nə var,
Xarı döyməyə nə var.
Sözdə deməyə nə var,
Özündə dönüş olsun.

Sevinc Arzulu

**Olur**

Sensizlik elinden göyneyir içim,
Kederin libasın men nece biçim.
Geceni zülmetde gördüyü üçün,
Seher dan yerinin bağrı qan olur.

Sanma daş şehere teze köçmüşem,
Bu ensiz küçeni min yol keçmişem.
Boylana bilmirik bezen keçmişe,
Eh, insan ne yaman unutqan olur.

Bezen düz demişik sehvə, yanlışa,
Ağıllı adamlar doğru danışar.
Insan güvenmiirse dosta-tanışa,
Sonunda çekdiyi ah-feqan olur.

Sevinc Arzulu

**Onda, ezizim**

Sən məni sevsəydin,sevsəydin nə qəm
Nə kədər olardı sonda,əzizim.
Sən məni sevsəydin dünyayla bahəm,
Olmazdım qapqara donda,əzizim.

Gələrdi ömrümün xoşbəxt baharı,
Ötməzdi həyatın sürət qatarı.
Qalmayıb vüsalın qəlbdə tutarı,
Həyatım qaranlıq fonda,əzizim.

Yenə dalğalanar mavi dənizim,
Artar tellərimdə artar dən izi.
Bir gün görüşümüz olsaydı bizim,
Neynərdik görəsən onda,əzizim.

Sevinc Arzulu

**Onu yox**

Yada düşsən gözümdən yaş süzülər,
Muncuq kimi yanağıma düzülər.
Çətin əlim əllərindən üzülər,
Bu sevdanın əvvəli var,sonu yox

Dəli könül göz yaşıyla dinibdir,
Gözlərimin gur işığı sönübdür.
Taleyimin üzü yaman dönübdür,
Həqiqətin zər tülü var,donu yox.

Könlüm qəm yurdunda qara ev tikir,
Ağlımı başımdan alıbdır fikir.
Mənim dərdim nə bir deyil, nə iki,
Dərmanımın biri vardır,onu yox.

Sevinc Arzulu

**Onuna  kimi**

Demirim sağını-solunu göster,
Demirim yağışı-dolunu göster.
Sen bene şöhretin yolunu göster,
Varıb gedeceyem sonuna kimi.

Hesretin işığın leng çekeceyem,
Qapısı önüne zeng çekeceyem.
Qaranın üstüne reng çekeceyem,
Vüsalın bembeyaz fonuna kimi.

Hicranın gülüşü saxtadan saxta,
Zaman göz qoymayır ötüşen vaxta.
De,kimler çıxacaq en uca taxta,
Dözerem yalanın onuna kimi.

Sevinc Arzulu

**Otardım**

Qoyunları çapmadım,
Qurdu quzu yapmadım.
Yerdə otlaq tapmadım,
Axırda göy otardım.

Səmaya”TU”buraxdım,
Saf gölə qu buraxdım.
Çəmənə su buraxdım,
Cücərdi göy,otardım.

Çobanlar naşı idi,
Qayanın daşı idi.
Gözlərim yaşıl idi,
Oldu gömgöy,otardım.

Sevinc Arzulu

**Ovunmağı var**

Zirve tek möhteşem,uca dünyada
Benim tek şagirde xoca dünyada,
Gelimli-gedimli qoca dünyada
Gözümün gözüne sığınmağı var.

Gören üreyinde ne plan qurub,
Heykel tek yolumun üstünde durub.
Elini elimin üstüne vurub,
Kiçicik sehvime uğunmağı var.

Ezizim,ebedi sen unut kini,
Çırpın lal köksümde xoş ümid kibi.
Eh,ele dolar ki ağ bulud kibi,
Tekce göz yaşından ovunmağı var

Sevinc Arzulu

**Oxu, Qedir**

Ilahidən gələn səsə nə deyim,
Xoş avaza,xoş nəfəsə nə deyim.
Qəm,kədərin önün kəsə,nə deyim.
Dərd-möhnətin yollarını bağlaram,
Oxu Qədir,oxu Qədir ağlaram.

Yada düşər Qarabağ bülbülləri,
Görünməz olubdur mavi tülləri.
Daha açmaz inan,sənsiz gülləri,
Səsin ilə ürəyimi dağlaram.
Oxu Qədir,oxu Qədir ağlaram.

Qaçqın düşdün elin,elatın kimi,
Dayanıbdır zaman saatım kimi.
Şəhid verdik Çingiz,Salatın kimi.
Leysan yağar,çaylar kimi çağlaram,
Oxu Qədir,oxu Qədir ağlaram.

Sevinc Arzulu

**Oxucu ver**

Fikrim sığışarmı sözə,bilmirəm,
Hicrana,həsrətə dözə bilmirəm,
Dolaşıq kələfi çözə bilmirəm,
İlahi,Sən mənə bir ipücü ver.

O uca göylərdən mələk- ruh baxır,
Həsrəti qəlbimi yandırıb yaxır.
Biliəcəm səbəbin mən əvvəl-axır,
Daha nə olacaq.bir ip ucu ver.

Fələk həsrət ilə məni süzməsin,
Ayrılıq boynuma daş-qaş düzməsin.
Yazdığım şeirə ağız büzməsin,
Məni başa düşən bir oxucu ver.

Sevinc Arzulu

**Oxunmayacam**

Ayrılığa bitabam,
Dərd evinə yatabam.
Itirilmiş kitabam,
Bir  də oxunmayacam.

Sevin, şənliyə qarış
Gülüşün mənə tanış.
Fərəhli gündən danış,
Dərdə toxunmayacam.
19.07.2018

Sevinc Arzulu

**Oyana  benim**

Zülmetde kederin elinden tutdum,
Aparıb çıxardı hayana beni.
Eh,olub keçeni neden unutdum,
Kaş yatan yaddaşım oyana benim.

Ulduzun üstünde naxşı seçmişim,
Yamanı saymayıb yaxşı seçmişim.
“Elvida”-söyleyem qara keçmişe,
Gelenim al-elvan boyana benim.

Vedesi,zamanı olar baxtın da,
Şadlığım,sevincim,dur gel vaxtında.
Xeyalım yatanda uca taxtında
Ümidim keşikde dayana benim.

Sevinc Arzulu

**Oyana adam**

Kimin ne heddi var sözünü kese,
Ya da ki yel olub yanından ese.
Demir ağacından elinde esa,
Söykenib gedirsen hayana, adam.

Qemin ilmeyini milden çıxaraq,
Işıqlı sözləri dilden çıxaraq.
Qaranlıq geceden birden  çıxaraq,
Güneşin rengine boyana adam.

Hamıya ders keçen xoca olsa da,
Istəyi zirveden uca olsa da,
Yuxuya gedende qoca olsa da,
Yuxudan cavanca oyana adam.
24.10.2017

Sevinc Arzulu

**Oyana benim**

Zülmetde kederin elinden tutdum,
Aparıb çıxardı hayana meni.
Eh, olub keçeni neden unutdum,
Kaş,  yatan yaddaşım oyana menim.

Ulduzun üstünde naxşı seçmişem,
Yamanı saymayıb yaxşı seçmişem.
Elvida”-söyleyem qara keçmişe
Gelenim al-elvan boyana menim.

Vedesi, zamanı olar baxtın da,
Şadlığım, sevincim, dur gel vaxtında.
Xeyalım yatanda uca taxtında
Ümidim keşikde dayana menim.

Sevinc Arzulu

**Oyanım, gülüm**

Mən səni itirdim.Tapa bilmərəm,
Arayıb-axtarsam dünyanı,gülüm.
Sən yoxsan,ürəkdən bir də gülmərəm,
Olmayacaq məni duyanım,gülüm.

Bu dünyada görən kimdir ən yazıq,
Çiskinsiz qarıyan duman,çən yazıq.
Özün söylə,axı necə mən yazıq,
Bu həsrətə dözüm,dayanım,gülüm.

Kimsə verməz daha mənə təsəlli,
Sinəm olub yanar vülkan məsəlli.
Hamı tutub bu dünyadan beşəlli.
Bir sənsən həyatdan doyanım,gülüm.

Tək özümü qarsır könül yanğısı,
Səslənir bax "Bayatı-Şur"çalğısı.
Aparanda məni həsrət ağrısı,
Izn ver.nuruna boyanım,gülüm.

Acı  kədər bəxş eylədin Sevincə,
Bilməyirsən əzab çəkirəm necə.
Əgər girsən sən yuxuma bu gecə,
Çətin bir də səhər oyanım.gülüm.

Sevinc Arzulu

**Oydu hesretin**

Başım altda qoyub söz balıncını,
Yaramı astaca soydu həsrətin.
Saplayib qəlbimə qəm qılıncını,
Bir anda içimdən oydu həsrətin.

Yolunu gizlicə burdan salıbmış,
Hicranın könlünü ələ alıbmış.
Elə bil neçə il susuz qalıbmış,
Gözümün yaşıyla doydu həsrətin.

O da zalım imiş zəmanə kimi,
Yanıram oduna pərvanə kimi.
Çöllərə salaraq divanə kimi,
Məni nə günlərə qoydu həsrətin.

Sevinc Arzulu

**Oyun**

Itirmisən simsarını,
Alıb əldən xar yarını.
Kədərin dərd paltarını,
At əynindən soyun,soyun.

Nə deyim eşq mələyinə,
Telində ağ lələyinə.
Taleyin qəm fələyinə,
Könül,əymə boyun,boyun.

Ürək vəslə çətin yetər,
Hicran həsrət içrə itər.
Nə tükənər,nə də bitər,
Bu dəhşətli oyun,oyun.

Sevinc Arzulu

**Oyun oynayır**

Fələk bə`zən acı dilin qənd edər,
Vüsalına çatmaq üçün fənd edər.
Məni vaxtsız bir sevdaya bənd edər,
İçimdəki sərin bulaq qaynayar,
Tale yenə mənlə oyun oynayar.

Nə mən danım bu sevdanı, nə sən dan,
İlahinin yandırdığı oda yan.
Kipriklərdə söküləçək yenə dan,
Qara gözlər məhəbbətə ayna yar,
Tale yenə mənlə oyun oynayar.

Bu sevdanın yox əvvəli,yox sonu,
Kədərlidir,qüssəlidir səs tonu.
Başa düşməz əğyar heç zaman onu,
Ancaq sevən sevdiyini anlayar,
Tale yenə mənlə oyun oynayar.

Sevinc Arzulu

**Oyundu dünya**

OYUNDU DÜNYA

Evvel-evvel özün sakit aparar,
Sanarsan quzudu,qoyundu dünya.
Birden coşar,ele tufan qoparar,
Görüb bilersen ki oyundu dünya.

Gah hamını dost ve mehriban eyler,
Ömrünü xoş,günün firavan eyler.
Gah da görersen ki nahaq qan eyler,
Yaşıl paltarını soyundu dünya.

Nəğme deyer,şenlik eder ellerin,
Daha coşmaz,sakit axar sellerin.
Çiçək açar ağacların,güllerin
Sevin,bu gün senin toyundu,dünya.

Senin olsun bu sevgiler,alqışlar.
Qulağımız eşitmesin qarğışlar.
Toqquşdu buludlar,yağdı yağışlar,
Tertəmiz çimerek yuyundu dünya.

Igidler tanınar merd işleriyle,
Qocalar yaşayar verdişleriyle.
Özünün narahat gerdişleriyle,
Körpe uşaq kimi öyündü dünya.

Yarpaqlanıb yaşıl-yaşıl budaqlar,
Tebessümle gülümseyir dodaqlar.
Dağdan axan gur çeşmeler,bulaqlar
En gözel,en temiz suyundu,dünya.

Sevinc deyer işıq saça bilmezsen,
Qismetinden uzaq qaça bilmezsen.
Ne qeder elleşsen aça bilmezsen,
Başdan ayağadek düyündü dünya.

Sevinc Arzulu

**Oyundu, Dünya**

Əvvəl-əvvəl özün sakit aparar,
Sanarsan quzudu,qoyundu dünya.
Birdən coşar,elə tufan qoparar,
Görüb bilərsən ki oyundu dünya.

Gah hamını dost və mehriban eylər,
Ömrünü xoş,günün firavan eylər.
Gah da görərsən ki nahaq qan eylər,
Yaşıl paltarını soyundu dünya.

Nəğmə deyər,şənlik edər ellərin,
Daha coşmaz,sakit axar sellərin.
Çiçək açar ağacların,güllərin
Sevin,bu gün sənin toyundu,dünya.

Sənin olsun bu sevgilər,alqışlar.
Qulağımız eşitməsin qarğışlar.
Toqquşdu buludlar,yağdı yağışlar,
Tərtəmiz çimərək yuyundu dünya.

Igidlər tanınar mərd işləriylə,
Qocalar yaşayar vərdişləriylə.
Özünün narahat gərdişləriylə,
Körpə uşaq kimi öyündü dünya.

Yarpaqlanıb yaşıl-yaşıl budaqlar,
Təbəssümlə gülümsəyir dodaqlar.
Dağdan axan gur çeşmələr,bulaqlar
Ən gözəl,ən təmiz suyundu,dünya.

Sevinc deyər işıq saça bilməzsən,
Qismətindən uzaq qaça bilməzsən.
Nə qədər əlləşsən aça bilməzsən,
Başdan ayağadək düyündü dünya.

Sevinc Arzulu

**Öldüm seninle**

Qüssədən,kədərdən uzaq qaçardım,
Suları tər-təmiz göldüm sənlə.
Fərəhdən,sevincdən çiçək açardım,
Laləli,nərgizli çöldüm sənlə.

Əridi bir anda zirvənin qarı.
Uçdu uzaqlara könlümün sarı.
Dar gündə kədəri biz çəkdik yarı,
Şad gündə sevinci böldüm sənlə.

Heç seçə bilmədin ağı qaradan,
Köməyin olmadı uca yaradan.
Sən cavan yaşında köçdün dünyadan,
Mən qəlbi arzusuz öldüm sənlə.

Sevinc Arzulu

**Öldür meni**

Qoyma, ağızda söz olum,
Odda yanım, köz-köz olum.
Qıyma, derdle üz-göz olum,
Allah, qefil oldür meni.

Tezelensin qan yaddaşım,
Yaxın olsun dost-sirdaşım.
Ferehimden aşım-daşım.
Qemden sefil öldür meni.

Dünya kime qalandırsa,
Dedikleri yalandırsa,
Hicran qara ilandırsa,
Hesret efi, öldür meni.

Sevinc Arzulu

**Öldürme, kardaş**

Səmada dolanır ölüm mələyi,
Başını yuxarı qaldırma,qardaş.
Deyəsən var yenə minbir kələyi,
Sən də heç özünü aldırma,qardaş.

Ölümün üzü boz,rəngi qapqara,
Əcəl çox bənzəyir müxənnət yara.
Qorxuram,çəkərlər səni də dara,
Badəni şərabla doldurma,qardaş.

Fələk,qəm verməkdən doyuban usan,
Dünyadan ayrılmaq deyildir asan.
Sənsiz gül açmaz ki,bağı-gülüstan,
Baxçamı və`dəsiz soldurma,qardaş.
Yaşamaq hissini öldürmə,qardaş.

Sevinc Arzulu

**Öle bilmedim**

Təbiət qarşılar yağışla məni,
Buludun göz yaşın silə bilmədim.
Bağışla,əzizim,bağışla məni,
Vaxtında qədrini bilə bilmədim.

Sən kimə tarşırdın taleyi kəmi,
Yamanca tez gəldi ayrılıq dəmi.
Sevinci,fərəhi,kədəri,qəmi,
Heyf ki,sənilə bölə bilmədim.

Yüz mə`na anladım bircə sözündə,
Qəm yuva salmışdı qara gözündə.
Işığı azalmış bu yer üzündə,
Sənin əvəzinə ölə bilmədim.

Sevinc Arzulu

**Ölmüş  ümidler**

Görürsen.qudurmuş qebirqazanı,
Ümidim ölmüşe qebir de qazmır.
Üstünü örtecek payız xezanı,
Gümanlar,belkeler qelbimde azmır.

Özümce çiynime götüreceyem,
Bir çinar yarpağı tabut olacaq.
Yokluğun beynime ötüreceyem,
Mehebbet ebedi tabu olacaq.

Daha anmayacam canı yanmışı,
Sözünü yadıma salmayacağam.
Beni gecelerin danı sanmışın,
Közünü ocağa almayacayam.

Kölgesi qalacaq ayağım altda,
Ele oradaca can verecekdir.
Feleyin yazdığı qara saatda,
Bozaran torpağa qan verecekdir.

Elimle defn edib geri dönecem,
Kiçicik ehsan da qıymayacağam.
Masmavi semadan yere enecem,
Kimsenin bakışın duymayacağam.

Sevinc Arzulu

**Ölsem torpağınam**

Hezin bir şirinlik vardır dadında,
Bes ned\en hisslerin minor ladında.
Menim köhne dostum,söyle yadında,
O gün ne söyledi alagöz senem?
“Ölsem torpağınam,qalsam seninem”

Namerd ölüm ile döyişmişem men,
Ayrılıq zalımla deyişmişem men.
Çoxdandır rolumu deyişmişem men,
Men özüm deyilem,men artıq senem.
“Ölsem torpağınam,qalsam seninem”

Dünyanı sezerdin gözümden menim,
Xeberim yox daha dözümden menim.
Od al da sönmeyen közümden menim,
Gece de,gündüz de alışır sinem.
“Ölsem torpağınam,qalsam seninem”.

Sevinc Arzulu

**Ölüm dayanır**

Neçə ildir xəstəlikdən
Əzab çəkirdin, bacım.
Əllərinlə nəm torpağa,
Ümid əkirdin, bacım.

Neynəyək ki göyərmədi
Əkdiyin o toxumlar.
Sən demə bu xəstəliyin
Axırında ölüm var.

Ölüm adlı o zalımın
Bir damla insafı yox.
Soruşmadı bir halını,
Qədərin heç safı yox.

Cənnət adlı məmləkətə,
Güzarın düşüb artıq.
Ölüm dolar qana-ətə,
Dərdlə öpüşüb artıq.

Bir bax, kiritmək olmayır,
Bəyaz saçlı ananı.
Neçə ildə sənin kimi
Od-alova yananı
.
Boynubükük övladların,
Gözlərində qəm-kədər.
Demə xoşbəxtliyin sonu
Olacaq belə hədər.

Gözü dolub qardaşının,
Nalə çəkir bacılar.
Bir gör ömür sirdaşını,
Çəkilməzdir acılar.

Sənin vaxtsız gedişinə
Qohum-qardaş, dost yanır.
Bu dünyanın gərdişi nə,
Sonunda ölüm dayanır.

Bu, Tanrının yazısıdır,
Həkim daha neynəsin?
Allah versin o dünyanı,
Ruhunu şad eyləsin.
29.!2.2017

Sevinc Arzulu

**Ölüm dolaşır**

Dərdin sənsizliyi var,
Qəmin mənsizliyi var.
Məzar səssizliyi var,
Içimdə ölüm dolaşır.

Qəlbə axın deyirlər,
Sözə baxın deyirlər.
Yola yaxın deyillər,
Içimlə çölüm dalaşır.

Ayrılmaram sirdaşımdan,
Siləmmərəm yaddaşımdan
Sel tək axan göz yaşımdan,
Içim də, çölüm də daşır.
14.02.2018

Sevinc Arzulu

**Ölüm eyleşib**

Elinin istisi meni üşüdür,
Ele bil içimde buz qatı vardır.
Yeqin ki ruhun da meni eşidir,
Bizim aramızda söz qatı vardır.

Ruhunun hardasa dincelmesiyçün,
Gerek xatirenden bir oda yapım.
Susan qelb tarımın dillenmesiyçün,
Güneşe açılsın pencerem, qapım.

Oxumur könlümün sarı bülbülü,
Rengini deyişib, dilin deyişib.
Daha çağırmayır bağda gül-gülü,
Çünki şah taxtında ölüm eyleşib.
23.04.2018

Sevinc Arzulu

**Ölüm, gedim**

İnan,odum elə sönüb,
Təkcə qalıb külüm,gedim.
Könlüm sanma səndən dönüb,
 Susubdur bülbülüm,gedim.

Dağlar yenə çənə qalsın,
Çöllər sarı dənə qalsın.
Şeirlərim sənə qalsın,
Mirasımı bölüm,gedim.

Bulaq sızar lal qayadan,
Göz qamaşar gur siyadan.
Daha bezdim bu dünyadan,
Icazə ver,ölüm gedim.

Sevinc Arzulu

**Ölüm, gülüm**

Həsrətin məni dondurur,
Qəmim sənlə bölüm.gülüm.
Içim özümü yandırır,
Özgələri çölüm.gülüm.

Gül-çiçəklər aranıbdır,
Ləçəkləri daranıbdır.
Göz yaşından yaranıbdır,
Xəzər kimi gölüm,gülüm.

Sevinc şair sayılacaq,
Yuxusundan ayılacaq.
Bizi ancaq ayıracaq,
Əcəl adlı ölüm,gülüm.

Sevinc Arzulu

**Ölümden beter**

Küsülü baxışlar gözümə axmır,
Kürsülü naxışlar közümə çaxmır.
Gursulu yağışlar sözümə baxmır,
Beləcə yaşamaq ölümdən betər.

Səndən mənə yalnız  kədər qalsa da,
Könlümü boz duman əsir alsa da,
Içimdə qış-boran yuva salsa da,
Masmavi çiçəklər çölümdə ötər.

Həsrətin daşını uzaq atarıq,
Hicransız qayğısız, azad yatarıq.
Başımın üstündə durna qatarı,
Yaralı xəyallar gölümdə itər.

Sevinc Arzulu

**Ölümden qayıtdım**

Əlini üzməz ki yardan,
Sevən qəlb bezməz biyardan.
Məhəbbət adlı diyardan,
Tutdum dilimdən, qayıtdım.

Dərdli ürək vərəm oldu,
Həsrətinə hərəm oldu.
Məcnun oldun, Kərəm oldun,
Yandım, külümdən qayıtdım.

Axır ki döndün səfərdən,
Xəyal adlanan şəhərdən.
Xəbərin yoxdu xəbərdən,
Öldüm, ölümdən qayıtdım.

Sevinc Arzulu

**Ölüme geden birisi**

ÖLÜME  GEDEN

De, ne duydun son anında,
Ölüme  geden birisi.
Şermi dolaşdı qanında,
Ölüme geden birisi.

Gördüyün röya qorxulu,
Derd hörüklü,qan qoxulu.
Gözünü açsan yox olur,
Ölüme geden birisi.

Gülün, çiçeyin de, hanı
Sevgi le,eyin de, hanı.
Xilas meleyin de, hanı
Ölüme geden birisi.

Ümidlerin dil açmadı,
Süsenin sünbül açmadı.
Mehebbetin gül açmadı,
Ölüme geden birisi.

Bir andaca güneş solar,
Dünya milyon yaşa dolar.
Ruhun sönmez ulduz olar.
Ölüme geden birisi.

Heç fikrinden daşınmadın,
Xoflanmadın,üşünmedin.
Dost-tanışı düşünmedin,
Ölüme geden birisi.

Dünya sene ne verdi, ne
Urcah etdi qara çene.
Yaşam artıq bir efsane,
Ölüme geden birisi.

Sevinc Arzulu

**Ölümle gizlenpaç oynama,oğlan**

Ferehi,neşesi bola dönürsün,
Sağa boylanırsın,sola dönürsün.
Daş yoldan çınqıllı yola dönürsün,
Ölümle gizlenpaç oynama,oğlan.

Semadan yere ters baxıb gedirsin,
Üzüne tebessüm taxıb gedirsin.
Sel kimi denize axıb gedirsin,
Ölüm le gizlenpaç oynama,oğlan.

Qartalsan,neynirsin terlanı,sarı
Elcek tek deyişme günde bir yarı.
Atanı,ananı fikirleş barı
Ölümle gizlenpaç oynama,oğlan.

"İkiyüz" sürmeye çatır qüdretin,
Dost-tanış bilir ki çoxdur cüretin.
Ne olar,sen azalt bunca süreti
Ölümle gizlenpaç oynama,oğlan.

Düşün ki qefilden bir qeza olar,
Bu sene en böyük bir ceza olar.
Ruhunun meskeni boş feza olar,
Ölümle gizlenpaç oynama,oğlan.

Sevinc Arzulu

**Ölümsüz mehebbetim**

Ümidin kəsili qaldı,
Uduzdun, basılı qaldın.
Havadan asılı qaldın,
Ay özülsüz məhəbbətim.

Gedişini şərh etmədin,
Həsrətini qəhr etmədin.
Ayrılığa səbr etmədin,
Ay dözümsüz məhəbbətim.

Dərdi oxla vuracaqsan,
Qəmə tələ quracaqsan.
Dünyayla tən duracaqsan,
Ay ölümsüz məhəbbətim.

Sevinc Arzulu

**Ölümün xeyir**

Eşqin gözün ovacaqlar,
Vüsalını qovacaqlar.
Sönəcək yanan ocaqlar,
Insan,ölümün xeyir.

Iynədə sapın döyülər,
Söhbətin,gapın döyülər.
Qaranlıq qapın döyülər,
Insan,ölümün xeyir.

Qüssə yağır bilə-bilə,
Göz yaşları gilə-gilə.
Budur,çatdın son mənzilə,
Insan,ölümün xeyir.

Sevinc Arzulu

**Ölürüm**

Başıma min filir.min xəyal dolub,
Dərd çəkməkdən saralıb rəngim,solub.
Əvəzimə söyüdlər saçın yolub,
Bu hala günahkar özüm,ölürəm.

Niyə heç işlərim gətirməyir düz,
Bircə dərdim artdı,artdı oldu yüz.
Dəli könül,bu dünyadan əlin üz,
Daha yanmayacaq közüm,ölürəm.

Mənim könül odam bağlı bir kitab,
Düşüb qəmə əsir,gedirəm yatab.
Inan.bu dərdlərə gətirmirəm tab.
Qalmayıb qəlbimdə dözüm,ölürəm.

Kimlərsə su qatdı isti aşıma.
Acı işlər nədən gəldi başıma.
Baxmazlar hey axan qanlı yaşıma,
Çətin ki quruyar gözüm.ölürəm.

Həsrət qaldım bir duaya,alqışa
Bahar ömrüm rast gəlibdir sərt qışa.
Bir gün ruhum dönərsə qaranquşa,
Qoyun rahat göydə süzüm,ölürəm.

Ayrılığa səbəb tutma Arazı,
Olardımı Araz həsrətə razı.
Bilirəm ki deyildir məndən narazı,
Dost yanında ağdır üzüm,ölürəm.

Dağdan axmaz daha şaqraq şəlaləm,
Gül üstündə donub qalıbdır jaləm.
Qaraya bürünüb qırmızı laləm,
Saralıbdır yaşıl düzüm,ölürəm.

Bu dünyamız qaralıdır,ağlıdır
Nədən belə sevən qəlbim dağlıdır.
Səadətə gedən yolum bağlıdır,
Düyünləri necə çözüm,ölürəm.

Yaşıl dağlarımı çən,duman aldı,
Əcəl öz yolunu bizlərdən saldı.
Deyərsiz Sevincdən bizə nə qaldı,
Qəlbdə yaşar söhbət-sözüm,ölürəm.

Sevinc Arzulu

**Ömrüm**

Girdim payız donuna,
Sarı rəngin tonuna.
Deyən sənin sonuna,
Çatmışıq, şükür, ömrüm.

Dostu olar günəş, ay
Şular tək salmaz haray.
Özünə qəmdən saray,
Qızıldan tikir  ömrüm.

Necə unudum onu,
Soyunum əlvan donu.
Yaxşı olacaq sonum,
Eyləmə fikir, ömrüm.
22.02.2018

Sevinc Arzulu

**Ömrümde**

Sen özge bir rengsen,sen doğma dadsan,
Menimle bu qefil görüşe şadsan.
Vüsalın dostusan, hesrete yadsan,
Çehrayı gülümsen xezel ömrümde.

Bu sevda uğurlu lahiyem oldu
Etiri getməyen rahiyem oldun,
Ilham söylediyi qafiyem oldun,
Dastana çevrilen qezel ömrümde.

Acı heqiqeti zaman udamaz,
Insan sevdiyini heç unudamaz.
Bilirsen, yerini kimse tutamaz,
Olmusan hamıdan ezel ömrümde.

Sevinc Arzulu

**Ömrüme geldin**

Sen yeknesek yay ömrüme geldin bahar mehi kimi.
Baxışların serinletdi lal ruhumu parlaq seher şehi kimi.
Bezen ele oldu ki lap üşüdüm men,
Tez-tez qulaq kesilirdim belke sesin eşidim men.

Harda qaldı şirin,hezin gülüşlerin,
Olmayacaq mehlemize daha gediş-gelişlerin.
Serin mehken güclü külek oldun neden,
Qan ağlayan,qan ağladan soyuq ürek oldun neden.
Indi yoxsan,o günlerin xatiresi menimledir,
Indi bildim sevenlere qenim nedir.
Ah,ayrılıq,senden beter ölüm de var,
Çekilmeyen zülüm de var.
Ancaq borcun,çekmelisen,
Gecə-gündüz qanlı yaş da tökmelisen sevdiyinçün,
Ağla könül,için-için.
Öz sesini eşidersen tekce özün,
Son günedek közereçek könül közün.

Sevinc Arzulu

**Ömür qatarı**

Dayanmışam elde bayraq, demir yolun kenarında,
Yol ötürrem,azalıbdır gur işığı fanarın da.
Gözleyirem gelib keçsin heyatımın qatarı,
Ne önüne yüyürerem, ne sonuna çataram.

Tez-tez ötür gözlerimden senedli kinolent tek,
Bileti de cibimdedir, yandırır aliment tek.
Bu qatarı kimse sürmür, gedir üzü aşağı,
Ezilir bax, teker altda xatireler başağı.

Yeddi vaqon uşaqlığın gülüş dolu şekili,
O günlerin deyirman tek çoxdan suyu çekilib.
Bu on vaqon xeberleyer savad veren metlebden,
Heç zaman uzaq düşmerik heyat adlı mektebden.

Ondan sonra sona yetdi menim rayon həyatım,
O günlerin her birisi çağrılmamış bayatı.
Dörd vaqondan sonra atdım subaylığın daşını,
Tanrı qismetiyle seçdim ömür-gün yoldaşını.

Sonra da ki uşaqlar bu dünyaya geldiler.
Keyfleri isteyen vaxt ağladılar, güldüler.
Illər keçdi,men qocaldım, uşaqlarsa böyüdü.
Eh, indiki cavanlar da dinlemir ki öyüdü.

Bu helelik sonuncudur, qırx sekkizinci vaqon,
Yaşayaram sevinc ile, demerem ki zaman,don.
Sonra biri, sonra elli.Görecemmi o günü.
Hesret ile gözlediyim uşaqların toy günü.

Mehz hemin gün cavanlaşıb yallı belə gedecem,
Aman felek, ondan sonra dediyini edecem.
Ulu Tanrım, vaqonların sayı senden asılı,
Neçe ki mavi semamız sanki çenden asılı.

Sevinc Arzulu

**Öpüm**

Bir qəfil haraya qurban gedərlər,
Sağalmaz yaraya qurban gedərlər.
Aşiqlər qaraya qurban gedərlər,
Izn ver, gözünün ağından öpüm.

Ümidlər yenə də dil açıb deyən.
Həqiqət səsini zil açıb deyən.
Solunda qönçələr gül açıb deyən,
Işıqlı simanın sağından öpüm.

Sözümü aləmə yayıb gedərəm,
Vüsalı bəstəkar sayıb gedərəm.
Üzündən öpməyə ayıb edərəm,
Ağarmış telinin tağından öpüm.
12.02.2015

Sevinc Arzulu

**Öpüm, gedirem**

Ayrılıq edibdir bir təhər məni,
Gizlicə boğur, bax, lal qəhər məni.
Bezdirib sonunda bu şəhər məni,
Izn ver, gözündən öpüm, gedirəm.

Həsrətin özüylə yollaşıb deyə,
Hicran vüsal ilə dalaşıb döyər.
Sənin taleyinə dolaşıb deyə,
Açacam bəxtimin ipin, gedirəm.

O üzdə yamyaşıl dünlərim qalıb,
O düzdə yanıqlı ünlərim qalıb.
Mənim də sanılı günlərim qalıb,
Bomboşdur yaşamın küpü, gedirəm.

Sevinc Arzulu

**Öteri sevgi deyilmiş**

Artıq külə dönmüş odam,ocağam,
Qəlbimi nə ilə ovudacağam.
Sanırdım hər şeyi unudacağam,
Bu sevgi ötəri sevgi deyilmiş.

Yenə də ağrıyır könlümün başı,
Yenə qapqaradır üzüyün qaşı.
Yenə qurumayır gözümün yaşı,
Bu sevgi ötəri sevgi deyilmiş.

Əzizim,bir dəfə olmadın mehman,
Pozuldu əvvəlki səliqə,sahman.
Yenə də çəkirəm sənsiz ah-aman,
Bu sevgi ötəri sevgi deyilmiş.

Qəlbimdə cəmlənib dünyanın qəmi,
Sən kimə tapşırdın taleyi kəmi.
Inan,qurumayır gözümün nəmi,
Bu sevgi ötəri sevgi deyilmiş.

Kim deyir asandır qəlbi ovutmaq,
Qəmli xatirəni qəlbdə uyutmaq.
Çətindən çətindir səni unutmaq,
Bu sevgi ötəri sevgi deyilmiş.

Sevinc Arzulu

**Ötkünümmenim**

Qara gözü yaşla dolub,
Özü mənnən yaşıd olub.
Eşqi on üç yaşa dolub,
Sevgisi yetkinim mənim.

Dərdi-qəmi çox olmuşan,
Pis gözlərə ox olmuşan,
Nədən indi yox olmusan,
Hardasan itkinim mənim.

Birdəfəlik gedər oldun,
Ruhsuz qalan bədən oldun,
Dediyini edən oldun,
Sözləri ötkünüm mənim.

Sevinc Arzulu

**Ötüşdüler bax**

Qədrini bilmədik o gözəl anın,
Əsiri olduq biz ötən zamanın.
Mənim həsrətimlə sənin hicranın,
Gözümüz önündə öpüşdülər,bax.

Tək Leyli-Məcnunmu sevgi timsalı,
Yandırdı qəlbimi möhnət qumsalı.
Sənin vəslin ilə mənim vüsalım,
Heç nəyin üstündə öc düşdülər, bax.

Nur saçmır gecələr yarımçıq hilal,
Örtübdür üzünü dərdi-qəm, məlal.
Bizim yanımızdan ümidlə xəyal,
Gizlicə necə də ötüşdülər,bax.

Sevinc Arzulu

**Öz bulağım**

Kədər dövran sürür nədən,
Günlər həsrət hörür nədən.
Yenə də tor görür nədən,
Nəmlənibdir göz bulağım.

Qəzəllərdə gül-rəna var,
Şeirlərdə min məna var.
İlahidən təmənnam var,
Qurumasın söz bulağım.

Gül-sərgimə siz də baxın,
Təbəssümlər axın-axın.
Yad çayını qoymam yaxın,
Mənə doğma öz  bulağım.

Sevinc Arzulu

**Öz duyğularım**

Haqqı basıb yedilər,
"Dadı yoxmuş"-dedilər.
Qəlbimə həkk edilər,
Mənim göz duyğularım.

Bəzisi qeylü-qallı,
Bəzisi şəkər-ballı.
Əl-ələ gedər yallı,
Mənim söz duyğularım.

Bəyaz qardan seçilməz,
Göy zəmidir, biçilməz,
Xırdalanmaz, kiçilməz,
Mənim öz duyğularım.

Sevinc Arzulu

**Öz içinde**

At hesretin daşını,
Sil veslin göz yaşını.
Xeyanetin başını,
Özünce ez içinde.

Qaranlıqdan uzaq qaç,
Güneş kimi işıq saç.
Hamıya qelbini aç.
Özün de gez içinde.

Ay ezizim, qedr bil,
Ayı yeni bedr bil.
Yaxşı ne, pis nedir, bil
Özünde, öz içinde.

Sevinc Arzulu

**Öz qaydası var**

Ey insan,yenidən doğularsanmı,
Kədərin içində boğularsanmı.
Dünya,mən olmasam dağılarsanmı,
Sənə ölümümün nə faydası var.

Mən necə yoxluğa var tək yanaşım,
Onunla sakitcə,şirin danışım.
Məndən xoşu gəlmir köhnə tanışın
Nifrətin,kinin də öz qaydası var.

Ah çəksəm,ahımdan qaya çapılar,
Gözümün yaşında almaz tapılar.
Üzümə bağlanıb bütün qapılar,
İlahi,qorxunun nə boydası var.

Sevinc Arzulu

**Öz üzünü**

Harda yurd salıb nur, gün
Sanki olublar sürgün.
Bəlli eylədi bir gün,
Təbiət boz üzünü.

Ala göz qəmdən süzgün,
Halı pərişan, üzgün.
Göstərməyir bəxt güzgün,
Basıbdır toz üzünü.

Qəm küləyin yaz əsdir,
Yolum üstün az kəsdir.
Gizlədin daha bəsdir,
Sən göstər öz üzünü.

Sevinc Arzulu

**Özgeler**

Qayalarda qaldı ünün,
Alışdırsan bir köz, gələr.
Ay əzizim, yaxşı günün
Dərdə-qəmə sən döz, gələr.

Sevgi qəlbdə daim yaşar,
Sahilini bəzən aşar.
Xəzər kimi dolub-daşan,
Ürəyimə min söz gələr.

Fələk aparar çoxumu,
Səpələr həsrət toxumu.
Ayrı düşər qan qohumu,
Doğmalaşar yad özgələr.

Sevinc Arzulu

**Özüm menim**

Dönmə eşqin kənizinə,
Saralmış qul bənizinə.
Xəyalımın dənizinə,
Cumma, cumma gözüm mənim.

Olub-keçənləri unut,
Ürəyini dərdlə ovut.
Soyuq qəlbdən atəşin od,
Umma, umma közüm mənim.

Hicrin evi uçuq olsun,
Həsrət baxıb qıcıq olsun.
Daim əlin açıq olsun,
Yumma, yumma özüm mənim.
09.08.2018

Sevinc Arzulu

**Özüm oldum**

Göy səmadan ulduz axdı,
Fələk qola qandal taxdı,
Ağlamırdım neçə vaxtdı,
Səni gördüm, gözüm doldu.

Kədər bizi pusub durdu,
Vüsalsa qan qusub durdu.
Rastlaşanda susub durduq,
“Salam”-ilk, son sözüm oldu.

Açılmayan koddu həsrət,
Közü sönməz oddu həsrət.
Bu oyunda uddu həsrət,
Uduzansa dözüm oldu.

Qəm üstündə dayanıram,
Qarasına boyanıram.
Neynəyim ki hey yanıram,
Sönəmmirəm, közüm boldu.

Aldanmadım şan-şöhrətə,
Layiqdim saf məhəbbətə.
Bu hicrana, bu möhnətə.
Günahkar tək özüm oldum.

Sevinc Arzulu

**Özüm yıxdım**

Demədim ki qəmlə barış,
Qara rəngə boyan, qarış.
Yaxın durmadı dost-tanış,
Ayrılığı özüm yıxdım.

Dəbdən qalan geyəmmədim,
Düzə yalan deyəmmədim.
Dərdi yavan yeyəmmədim,
Üstünəcə dözüm sıxdım.

Göy səmadan qüssə yağır,
Yer buluddan kədər sağır.
Namərd xarın nəfsi ağır,
Elə baxdı, gözüm çıxdı.

Sevinc Arzulu

**Özümün işığım**

Izində izimin izi var,
Üzündə közümün işığı.
Ə lində hə srə tin buzu var,
Dondurma, gözümün işığı.

Qanatsan, dayanmaz qanım da,
Olaram sonuncu anımda.
Bilirsə n, Tanrının yanında
Nurlanar sözümün işığı.

Qar yağıb sə brimin üstünə ,
Də rd vermə cə brimin üstünə .
Şam qoyma qə brimin üstünə ,
Bə simdir özümün işığı...

Sevinc Arzulu

**Paralama  gel**

Ne tumarına möhtac,ne sığalına
Benim lal könlümü yaralama gel.
Dönmüşüm dünyanın en cığalına,
Sevinci ferehden aralama gel.

Sevirim sevgiyle dolu heyatı,
Dilimde hemişe qoşma,bayatı.
Işıqlı görürken bu kainatı,
Alemi gözümde qaralama gel.

Yaşamın qedrini bilmek istesen,
Ürekden deyiben gülmek istesen.
Hemişe başında görmek istesen,
Xoşbextlik tacını paralama gel.

Sevinc Arzulu

**Parçalama**

Döndün vüsal oğrusuna,
İnanmadın doğrusuna.
Dözemmirem ağrısına,
Üreyimi parçalama.,

Gur eyleme yağışımı,
Süzgün etme baxışımı.
Alabezek naxışımı,
Qara rengle fırçalama.

Qemi derdle barışdırar,
Yaxşı-pisi qarışdırar.
Qığılcımı alışdırar,
Sönen közü qurcalama.

Sevinc Arzulu

**Parlamaz**

Acılı günüm bitmeyir,
Qüssem yox olub itmeyir.
Tanrıya ünüm yetmeyir,
Yalnız sene çatır elim.

Sensen benim havadarım,
Çalır minbir hava tarım.
Sebri çekib hava tarım,
Bu yağışda hara gelim.

Deli sevda var içimde,
Derd xırmanda,qem biçinde.
Bu qeder ağrı içinde
Parlamaz ki almaz lelim.

Sevinc Arzulu

**Paslanmış yaddaş**

Bulud qar yuxudan oyanıb gedər,.
Gedər istəklərin bitdiyi yerə.
Gah mavi, gah qara boyanıb gedər,
Gedər nəm rənglərin bitdiyi yerə.

Əsəbdən qaralan şişman buludlar,
Çökür,şəhərimin üstünə çökür.
Xəyal oylağıma düşmən ümidlər,
Sökür qəhərimi, içindən sökür.

Tanrının istəyi, arzusu qədər,
Üz tutub gedirəm sonuna kimi.
Bunca göz yaşları getdimi hədər,
Bir nakam sevginin sonu var kimi.

Izləyir küləklər addımbaddım,
Hisslərim köksümə sığışmır, neynim.
Yaxşınının  üstündə yazılıb adı,
Pislərim özünə yığışmır, neynim.

Qaralmış toxumu göy çəmənlərə,
Səpərlər ümidin göz yaşı kimi.
Saralmış xatirən itər beynimdən,
Xəyalın paslanmış yaddaşı kimi.
26.04.2018

Sevinc Arzulu

**Payız**

Heyf, qarşıladın soyuq ürəklə,
Görüşə gəlmişdim min bir diləklə.
Yağışda islandım, dəlii küləklər
Ağarmış saçımı qurutdu, payız.

Bir zaman o idi fəxrim, vüqarım,
Ən uca zirvədə ağappaq qarım.
Sən tək etibarlı deyilmiş yarım,
Eh, məni yamanca unutdu, payız.

Bərk  tufan yellədir qovaqlarımı,
Şaxta, qar  dondurub budaqlarını.
Mənim xəzan vurmuş yarpaqlarımı,
Torpaq ana kimi ovutdu, payız.
22.11.2017

Sevinc Arzulu

**Payız elllisinde**

El-üzümü şehle yudum,
Hava aldım birce udum.
Tor atdım ki balıq tutum,
Deli Kürün eyrisinde.

Qelbde ocaq qalayacaq.
Alov kimi yalayacaq.
Sonda mütleq dalayacaq,
Xarı görcek eyri sin de.

Xatirenle yaşıyırım,
Keder yükü daşıyırım.
Bilsen nece üşüyürüm,
Ömrün payız ellisinde.

Sevinc Arzulu

**Payıza sarı**

Yanağı hesretden bozardı qaldı,
Dodağı xiffetdən sozaldı qaldı.
Ayağın altını toz aldı qaldı,
Bir gözəl üşüyür payıza sarı.

Itirdim özümü söz bazarında,
Ocağım alışmır, köz azarında.
Meni heç anlamır öz yazarım da,
Bir gözel üşüyür payıza sarı.

Sanır ki ömrünün xezan çağıdır,
Ayrılıq  ömrüne hicran dağıdır.
Yerlerde  sürünen qaş-qabağıdır,
Bir gözel üşüyür payıza sarı.
24.02.2018

Sevinc Arzulu

**Payızda  yağacaq...**

Hə yatım Tanrıdan razı keçibdi,
Gə ncliyin ə dası, nazı keçibdi.
Ilahi, ömrümün yazı keçibdi,
Payızda yağacaq yaz yağışları.

Musiqi oxşayır ancaq ruhumu,
Oxudun “Rast”ımı, hə m “Segah”ımı.
Özüm eşidə cə m yalnız ahını
Payızda yağacaq yaz yağışları.

Qə lbimdə sevdanın izi itibdi,
Tə nhalıq hə srə tlə kama yetibdi.
Ömrümün yarıdan çoxu ötübdü.
Payızda yağacaq yaz yağışları.

Sevinc Arzulu

**Payızda yağacaq**

Həyatım Tanrıdan razı keçibdi,
Gəncliyin ədası, nazı keçibdi.
Ilahi, ömrümün yazı keçibdi,
Payızda yağacaq yaz yağışları.

Musiqi oxşayır ancaq ruhumu,
Oxudun "Rast"ımı, həm "Segah"ımı.
Özüm eşidəcəm yalnız ahını
Payızda yağacaq yaz yağışları.

Qəlbimdə sevdanın izi itibdi,
Tənhalıq həsrətlə kama yetibdi.
Ömrümün yarıdan çoxu ötübdü.
Payızda yağacaq yaz yağışları.

Sevinc Arzulu

**Payızda yağacaq.**

Heyatım Tanrıdan razı keçibdi,
Gencliyin edası, nazı keçibdi.
Ilahi, ömrümün yazı keçibdi,
Payızda yağacaq yaz yağışları.

Musiqi oxşayır ancaq ruhumu,
Oxudun "Rast"ımı, hem "Segah"ımı.
Özüm eşidecem yalnız ahını
Payızda yağacaq yaz yağışları.

Qelbimde sevdanın izi itibdi,
Tenhalıq hesretle kama yetibdi.
Ömrümün yarıdan çoxu ötübdü.
Payızda yağacaq yaz yağışları.

Sevinc Arzulu

**Payızın etri geler**

Sanmazdım ömrümü belə bəzərlər,
Bəlkə də duymazdım onu əzəllər.
Ayağım altında sarı xəzəllər,
Burnuma payızın ətiri gələr.

Bir yaş da artır bax, yaşımın üstə
Daha daş tökülməz daşımın üstə.
Göydən dolu yağsa, başımın üstə
Sevgi ağacının çətiri gələr.

Qısqanma, əzizim, sevinc yaşıma,
Sən də fərəhlə bax ləl qaş-daşıma
Hara addım atsam, mənim qarşıma,
Dünyanın gəliri-götürü gələr.

Sevinc Arzulu

**Payızın küleyi**

Sahildə oturub fikrə dalarsan,
Heykəl tək yerində donub qalarsan,
Ruhun asimanda qanad çalarsa,
Bədənin torpağın altda çürüyər.

Bəzən yer üzünü duyğular alar,
Xəyalım fikrimi hara aparar.
Kainat elə bir tufan qoparar,
Dünyanı ayrılıq tozu bürüyər.

Bulud sevdalanıb hey ağlayarsa,
Eşqdən havalanıb cığallayarsa,
Baharın nəsimi sığallayarsa,
Payızın küləyi qumu sürüyər.
25.06.2018

Sevinc Arzulu

**Payızın rengi**

Payızın rəngidir üzümə çökən,
Nə qədər yusam da dadı getməyir.
Ilahi kədərdir gözümə çökən,
Gözümün önündən adı getməyir.

Samuray axtarır bu axşam könlüm,
Mən ona "Yox" deyim, xakari etsin.
Neynəyim Tanrıya, başına dönüm
Məni həyatının şəkəri etsin.

Təkərə  düşmüşəm deyən yamanca,
Elə bil dünyanın axırı çatıb.
Mənə dost olmayır zalım zamanca.
Içibdir həsrətin çaxırın, yatıb.

Yenı xatirələr hücuma keçdi,
Sağımdan-solumda vurdular məni.
Yüz hissin içindən vüsalı seçdim,
Ayrılıq çətin ki durdurar məni.

Sahilə can atan ləpə kimiyəm,
Qızılı qumlara hopacağam mən.
Torpaqdan ibarət təpə kimiyəm,
Azacıq yağışdan qopacağam mən.
02 12.2017

Sevinc Arzulu

**Payza sarıl**

Külək  qara teli qarışıq edib,
Səni daha gözəl, yaraşıq edib.
küsdüyün insanla barışıq edib,
Yollaşıb gedərsən payıza sarı.

Gecələr həsrətin əlindən tutub,
Ayrılıq qəhrini qəhərlə udub.
Sevgilin  baharda səni  unudub?
Sən də acığa düş, payıza sarıl.

Baharın rəsmini çəkdin, nə gözəl,
Həyatım beləydi mənim də əzəl.
Qurumuş ağaclar, dibində xəzəl,
Yolumun üstündə payız hasarı.
20.07.2018

Sevinc Arzulu

**Penah olar**

Qan ağlar göy nədən, gülüm,
Qəmi qəlb göynədən gülüm.
Heç bilmirəm nədən, gülüm,
Səni sevmək günah olar.

Könül evidir sökdüyüm,
Qüssə gülüdür əkdiyim.
Sonuncu dəfə çəkdiyim,
Qəlbdən qopan min ah olar.

Dərd oturub ağ taxtımda,
Səadət yoxmuş baxtımda.
Ən çətin , ağır vaxtımda,
Təkcə Tanrım pənah olar.

Sevinc Arzulu

**Penahın  olar**

Iller yaş artırar yaşının üste,
Bir daş da artıtrar daşının üste.
Özgesin axtarma,başının üstde,
Allahın hemişe penahın olar.

Qorusun sevgini ilahi qüdret,
Hicran qarşısında göster deyanet.
Heç vaxt sevdiyine etme xeyanet,
Bu senin en böyük günahın olar.

Qemli baxışların sal kemenddimi,
Laleler etirli bir demenddimi.
O uca göylere sis bülenddimi,
Benim öldüyüm gün son ahın olar.

Sevinc Arzulu

**Pencere önünde**

Pəncərə önündə əyləşən gözəl,
Nədir ala gözlər yenə yol çəkir.
Gecələr xəyalla əlləşən gözəl,
Deyən ayrılığa daha qol çəkir.

Gəldin mən deyənə, şükür, İlahi
Öyrənə bildinmi xar xislətini.
Göz yaşın sel kimi tökür, İlahi
Ah, necə çəksin ki yar xiffətini.

Kimin yalanına belə uymusan,
Kim imş yolundan çıxardan səni.
Axır səhv etdiyin özün duymusan,
Yox, başa salıblar yuxardan səni.

Sevinc Arzulu

**Perimsen, gülüm**

Hicranla bərk dostam, rəfiqəm nədən.
Ziyası qaralmış əqiqəm nədən.
Mən sənin sevincli dəqiqən, nədən,
Sən mənim ağrılı yerimsən, gülüm.

Sən həyat bağından çiçək yığmayan,
Vüsalın bir anlıq əlin sıxmayan.
Min sətrə, misraya, bəndə sığmayan,
Hələ yazılmamış şeirimsən,gülüm.

Duyğular içində bəzən azıram,
Könüllü ölümə belə hazıram.
Sənin həsrətindən şeir yazıram,
Mənim ilham adlı pərimsən, gülüm.

Sevinc Arzulu

**Perişandır**

Xeyallarım serhedleri aşandır,
Deniz kibi çağlayıban daşandır.
Bir de daha azalmaz ki ağrısı,
Derdli ürek qem elinden şan-şandır.

Yay gününde zirveye yağan qaram,
Qüsse varsa,demek orda ben varam.
Qanayacaq,bilirim ki qelb yaram,
Çünki odlu ateşlere nişandır.

Çox gur axar dağdan gelen sellerin,
Sürgündedir benden uzaq ellerim.
Şelale tek axan sarı tellerim,
Ayrılığın mehinden perişandır.

Sevinc Arzulu

**Perişanım, hardasan**

Tale özü ayrılığa qol çəkər,
Yenə sənsiz ala gözlər yol çəkər.
Qəm mizanı dərd-kədərdən bol çəkər,
Ulduz olub sayrışanım,hardasan?

Qərib-qərib doğma eldə gəzərdin,
Qəmgin-qəmgin baxışlarla süzərdin.
Ürəyimi incidərdin,üzərdin,
Həsrət ilə yarışanım, hardasan?

Nə bileydim fələk adlı zalım var,
Nə bileydim qəm ilməli xalım var.
Görürsənmi necə küskün halım var,
Qismətiylə barışanım,hardasan?

Nədən belə həsrət bizə tuş oldu,
Vüsal küsüb gedən qaranquş oldu,
Ötdü neçə yaz-yay,payız , qış oldu,
Sonzuzluğa qarışanım,hardasan?

Bə`zən məni gözlərim də aldadır,
Tez bükülən dizlərim də aldadır,
Qayıt de ki, sözlərim də bal dadır,
Qəmlə dolub arı şanım,hardasan?
Ay saçıarı pərişanım,hardasan?

Sevinc Arzulu

**Perlenir**

Iş-dözümün üstünde
Qış-dizimin üstünde.
Bax,düzümün üstünde
Neçe yalan herlenir.

Edam şeytana düşür,
Şimşek meydana düşür.
Haqqım böhtana düşür
Heqiqetim şerlenir.

Sema-könül mekanım,
Xeyal-can istehkamım.
Yetmeyen arzu-kamım
Qanadlanır,perlenir.

Sevinc Arzulu

**Pervane kibi**

Ağac-uğac bol çekiler,
Etrafına kol çekiler.
Üreyimden yol çekiler,
O giden kervane kibi.

Qem elinde talanaram,
Derd oduna qalanaram.
Durub-durub dolanaram,
Başına pervane kibi.

Beyaz duman-çen olasan,
Sarı telde den olasan.
Istemirim sen olasan
Mecnuni-divane kibi.

Sevinc Arzulu

**Peşimanam**

Dalğa olsam,dənizlərdə uyardım,
Sularında dərdlərimi yuyardım.
Pis adamı ilk baxışdan duyardım,
Peşimanam,peşimanam,peşiman.

Alışdıra bilməyəcəm közümü,
Ağlamaqdan kor etmişəm gözümü.
Kimə deyim dərd-sirrimi,sözümü
Peşimanam,peşimanam,peşiman.

Dostlarımın Kə`bəsiyəm,piriyəm,
Sanırlar ki ölməmişəm,diriyəm.
Mən ki mə`nən ölmüşlərdən biriyəm,
Peşimanam,peşimanam,peşiman.

Dünya özü boyda  riya,yalanmış.
Verdiyindən on qat artıq alanmış.
Qəlb sarayım neçə ildir talanmış,
Peşimanam,peşimanam,peşiman.

Sevinc daim xəyallara dalandı,
Həyat puçdur,şeirlərsə qalandır.
Dəli könlüm atəşlərə qalandı,
Peşimanam,peşimanam,peşiman.

Sevinc Arzulu

**Peşman olmuşam**

Şadı ötürdüyümə,
Qəmi götürdüyümə,
Səni itirdiyimə
Yaman peşman olmuşam.

Dostam məlalın ilə,
Fikri-xəyalın ilə.
Şirin vüsalın ilə,
İndi düşmən olmuşam.

Vermə ki pay ünündən,
Gizlənər hay dünündə.
Bir zaman yay günündə,
Soyuq  çeşmən olmuşam.
20.07.2018

Sevinc Arzulu

**Petrol sevgilim**

Bir zaman qalxmışdıq göyün qatına.
Minmişdik fələyin qarğı atına.
Nə vaxt ki düşürəm yerin altına,
Yadıma düşürsən metro sevgilim.

Həsrət hicran ilə vüsala çatır,
Ayrılıq gölündə gör kimlər batır.
Xatirən hələ də sinəmdə yatır,
Ay mənim qədimi, retro sevgilim.

Payız gələn kimi rəngin sozalır,
Üzünü-gözünü yaman toz alır.
Qiymətin gah artır, gah da azalır,
Kömür tək qapqara, petrol gevgilim.
04.02.2015

Sevinc Arzulu

**Planeti paylaşaq**

Yığışaraq uşaqlar,
Zooparka gedək biz.
Yaxın olsun uzaqlar,
Qoysun ömrümüzdə iz.

Bu canlı heyvanların,
Yerləri dar qəfəsdir.
Bizim duyduqlarımız
Eşidilməyən səsdir.

Necə xilas eyləyək
Qəfəsdən heyvanları.
Unutduraq onlara,
Bu kədərli anları

Ana yer kürəsini
Səyahət edib dolaşaq.
Sevimli dostlar ilə
Planeti paylaşaq.

Axı quşların yeri,
Geniş mavi səmadır.
Təbiət heyvanlara
Qayğısevər anadır.

Balıql üzsün dənizdə,
Səhra sevir ilanlar.
Heyvanlar da bizim tək,
Mehr salar, dil anlar.

Cəngəllikdə meymunlar,
Ayı  kahada qışlar.
Hər heyvanın yurdu var,
Azadlığa alqışlar.

Sevinc Arzulu

**Portret**

Darıxdım,
Hesretinden karıxdım.
Senli duyqularımı,
Senli qayqılarımı
Ketana tökmek istedim,
Portretini çekmek istedim.
Asılıb qelbimden daş,
Kömeye çatacaqmı
sade,rengli karandaş...
Ucun azca yaşladım,
Ressamlığa başladım.
Bu üzün,bu qaşın,
Bu da qar yağmış başın.
Tellerini yan daradım,
Üzünde sevgi yaradım.
Bu qulağın,bu dodağın,
Bu da telaşdan qızarmış al yanağın.
Gözel,şahane duruşun,
Xatırladır Don Kixotun deyirmanın
çerxi ile vuruşun.
Bes gözlerin? Gören onlar ne rengdedir,
Kelbim senli ahengdedir.
Xatırladım o anı.
O son görüş zamanı bizi şeher udmuşdu,
Gözlerini kederli,acı qeher tutmuşdu.
Allahımdan dilerem,
nece vere bilerem o parlaq göz yaşını.
Itirdim lap başımı.
Fikre,xeyala daldım,
Axır yadıma saldım
üzüyün qopub düşmüş,
elime hopub düşmüş parlayan  cüt qaşını,
Tekce o evez eder resmde göz yaşını.
Yanaşdım lap astaca,
Yerine qoydum ustaca o zerif,qoşa qaşı.
Tezelendi yaddaşım.
Mezelendi yaddaşım.
Elbette ki bu senesen,
Benim sevdiyim insan.
Bunca ayrılıq çekmek olmayıb sene asan.
Dünyada en bahalı portreti bitirdim,
Bu işıqlı dünyaya seni yeniden getirdim....

Sevinc Arzulu

**Puç eyledi**

Qurtardım dağ yolu kimi,
Qurudum gül kolu kimi.
Qəfil yağdı dolu kimi,
Qəm ömrümü puç eylədi.

Ov tapmayır eşq səyyadı,
Eşidilməz qəlb fəryadı.
Başına yığıb dost-yadı,
Vüsal burdan köç eylədi.

Günəş zərrəsin sayırdı,
Nurun aləmə yayırdı.
Aşiqləri tez ayırdı,
Fələk böyük suç eylədi.

Sevinc Arzulu

**Puç olan  sevgi**

Esil siman üze çıkdı nehayet,
Yalanların düze çıkdı nehayet.
Benim seni sevmeyimmi qebahet,
Senin bene xeyanetin günah,suç.

Üzbeüz de gelsek daha xeyri yox,
Bal vüsalın deyen bene meyli yox.
Tebietin ezelki tek seyri yox.,
Könül quşum,bu diyardan uzaq uç.

Dost-tanışdan gizlediyim sevginin,
Qar-yağışdan gözlediyim sevginin,
Ne bileydim özlediyim sevginin,
Eh,belece olacaqdır sonu puç.

Sevinc Arzulu

**Qaç görüm**

Zalım felek inanmadı gapıma,
Ele qara muncuq düzdü sapıma.
Paslı açar düşemez ki qapıma,
Bacarırsan,kilidimi aç görüm.

Yağan leysan axıb-axıb sellener,
Söz içinde herfler çox şellener.
Göz yaşlarım Araz tek qem lillener,
Derdli iken güneş tek nur saç görüm.

Eşq-mehebbet bazarında sehm yox,
Üreyinde öncegörme,fehm yox.
Eh,ay Sevinc,qocalıqda rehm yox,
Hünerin var hüzurundan qaç görüm.

Sevinc Arzulu

**Qaça bilmedim**

Çəksən düşər qan,adımı,
Könül yaran qanadımı.
Sındırdın qol-qanadımı,
Uça bilmədim.bilmədim.

Qəlbimdə həsrətdən yara,
Fərhad gərək dağlar yara.
Ürəyimi dosta,yara,
Aça bilmədim,bilmədim.

Verdik nəzir-niyazı da,
Yola saldıq bu yazı da.
Tale yazan bu yazıdan,
Qaça bilmədim,bilmədim.

Sevinc Arzulu

**Qaçaq,ezizim**

Şirin uyğularda birce qesb de var,
Şenli duyğularda ince vesf de var,
Sahibin gözleyen neçe keşf de var,
Biz de yeni qanun açaq,ezizim

Heqiqet saxlanar kilid içinde,
Vüsalın yaşayar ümid içinde.
Ay tekin gizlenek bulud içinde,
Gün kimi qelbe nur saçaq,ezizim.

Feleyin gözüne çıraq taxırlar,
Quruca divara palçıq yaxırlar.
Görürsün.nece de ters-ters baxırlar,
Gel qaçaq dünyadan,qaçaq,ezizizm.

Sevinc Arzulu

**Qaçılmazdı**

Bu baxışı bilirsen ki,
Ömrün naxşı bilirsen ki...
Özün yaxşı bilirsen ki,
Bu ayrılıq qaçılmazdır.

Könlümde qal kül yerine,
Ruhumu al gül yerine.
Baxçada al gül yerine,
Sarı güller açılmazdı.

Beyaz duman sürünseydi,
Yer-göy ona bürünseydi.
Dünya qara görünseydi,
Güneşden nur saçılmazdı.
18.09.2013

Sevinc Arzulu

**Qaçırtdı**

Hicran dolu günlər bitməz,
Qəm sədalar,ünlər bitməz.
Özündə al güllər bitməz,
Röyan yuxuimu qaçırtdı.

Su toplanar çuxurluqda,
Nə çıxar ki çuğulluqdan.
Sonda axır paxıllıqdan,
Azın çoxumu qaçırtdı.

Gün nurundan qaralmadı,
Rəngi solub saralmadı.
Mağarada tək qalmadı,
Ruhun "dux"umu qaçırtdı.

Sevinc Arzulu

**Qaçmadım**

Başımın üstündə qadir Allahım,
Imtahan eyləyir, yoxdur günahım.
Dağıdılmış məbəd oldu pənahım,
Nuru kafir  kilsəsinə saçmadım.

Qəm dağını çıxıb-çıxıb qaldırdım.
Həsrətini yıxıb-yıxıb soldurdum,
Gümanları yığıb-yığıb doldurdum,
Ümidlərin kisəsinə, açmadım.

Qar-şaxtanı xeyr eylədim sazaqda,
Vüsalına meyl eylədim, azaq da.
Gözü yaşlı seyr eylədim uzaqdan,
Ayrılığın busəsinə qaçmadım.
27.12.2017

Sevinc Arzulu

**Qadası**

Daha danışmıram eşq-mehebbetden,
Yaşarmır gözlerim acı hesretden.
Xeber gözlemirem uzaq qürbetden.
Üreyim bir boş mehebbet odası.

Benzeyirsen tenha qalmış qurda sen,
Döneceksen geri,doğma yurda sən.
Axtardığın tapacaqsan burda sen,
Menim könlüm xəzineler adası.

Çoxu gedib,azı qalıb ömrümün,
Uçub Göy gölünden qazı ömrümün.
Daha cilvelenmir nazı ömrümün,
Yoxdur daha evvelki tek edası.

Kederim lalenin üzünde xaldır,
Elini ver mene,ucaya qaldır.
Könlüm semalarda süzen qartaldır,
Geler bir gün uzaqlardan sedası.

Icaze ver.daxil olum köşküne,
Etir qatım,enber qatım müşküne.
Şeir çıxdı Sevincin de püşküne,
Ne gizledim senden daha,qadası.

Sevinc Arzulu

**Qadın**

Ürəkdə bəslənirsən,
Gül kimi süslənirsən.
Çox həzin səslənirsən,
Bilinməz ladın, qadın.

Təknəndə yox boyatın,
Qoşular şeir, bayatın.
Vurğunusan həyatın,
Gözəldir adın, qadın.

Qığılcım közümünkü,
Bu yağış gözümünkü.
Almadı özününkü,
Sən oldun yadın,qadın.
30.05.2018.

Sevinc Arzulu

**Qadın yaşayır**

Susub ürəyimin sarı bülbülü,
Rəngini dəyişib, dilin dəyişib.
Daha çağırmayır bağda gül-gülü,
Çünki şah taxtında ölüm əyləşib.

Ruhumun hardasa dincəlməsiyçün,
Gərək xatirəndən bir oda yapım.
Susan qəlb tarımın dillənməsiyçün,
Günəşə açılsın pəncərəm, qapım.

Pəncərəm önünə göyərçin qonar,
Susaraq baxaram uçmasın deyə.
Sadəcə qapımı döy, içim donar
Inlərək dönərəm yaralı neyə.

Xəyalım çapacaq səma boyunca,
Axtarıb ruhunu tapacaq yəqin.
Söhbət edəcəklər birgə doyunca,
Dünya məhvərindən qopacaq yəqin.

Səninlə danışıb gülməsəm də mən,
Yaralı qəlbimdə adın yaşayır.
Dünyanı tərk edib ölməsəm də mən,
Qaraya bürünmüş qadın yaşayır.
12.12.2017

Sevinc Arzulu

**Qal arasında**

Həsrətindən başım elə şişib ki,
Qalmışam qeyl ilə qal arasında.
Dərdindən ürəyim elə bişib ki,
Rəngi narıncıyla al arasında.

Başımı yazmaqla qatıram eşqim,
Röyada vüsala çatıram, eşqim.
Kədər dənizində batıram, eşqim,
Xilasım gəmiylə sal arasında.

Sevinc, sən bu yolda çox çəkdin zillət,
Sevilmək olubdur ən böyük töhmət.
Bir tərəfdə həsrət, birində möhnət,
Dözə bilirsənsə qal arasında.

Sevinc Arzulu

**Qal görüm**

Bu aləmin qara zərdən naxşı var,
Hər insanın həyata öz baxşı var.
Tez dəyişir dünyasını yaxşılar,
Gülüm,pislə di təkbətək qal görüm.

Vüsalının bağlı qalıb qolları,
Quruyubdur al qızılgül kolları.
Seçəmməzsən,görünməz dağ yollari,
Duman, sislə di təkbətək qal görüm.

Fələk ilə bacarmaz ki qüdrətin,
Vəslə gedən yolu kəsib həsrətim.
Bilirəm ki,səni üzür möhnətim,
Acı hisslə di təkbətək qal görüm.

Sevinc Arzulu

**Qal, dediler**

Küsüb məndən alagözlüm,
“Get könlünü al”-dedilər.
Kəlmə kəsmir şirin sözlüm,
“Bəlkə olub lal”-dedilər.

Görən mənlə barışarmı,
Nəfəsimiz qarışarmı.
Şeriyyətdə yarışarmı,
“Sözü şəkər bal “-dedilər.

Al çiçəklər qurub halə,
Billur təkin parlar jalə.
Yaraşıqdır gözəl lalə,
“Üzündə var xal”-dedilər.

Baxışları süzgün olar,
Onsuz bir gün yüz gün olar.
Canım qəmdən üzgün olar,
“Qalmaz səndə hal”-dedilər.

Yurdu qalıb, köçüb ləläm,
Gözlərində dərd -qəm, ələm.
İstədim ki dönəm, gələm,
“Sevinc, qonaq qal”-dedilər.

Sevinc Arzulu

**Qal, qadan alım**

Gözlərim şipşirin uyğuya möhtac,
Qəlbim həzin, lirik duyğuya möhtac.
Olmuşam təsəlli, qayğıya möhtac,
Gəl mənim könlümü al, qadan alım.

Insan ümid bağlar səcdəgahına,
Tapınar müqəddəsa qibləgahına.
Dönsən bu dünyanın qəm dərgahına,
Məni də yadına sal, qadan alım.

Düşmən ocağında su ilinməsin,
Çəkdiyim ağrılar qoy bilinməsin.
Adın ürəyimdən heç silinməsin,
Əbədi qəlbimdə qal, qadan alım.

Sevinc Arzulu

**Qalar külekler**

Sinesi  hemişe nağıllı olub,
Yolunu könlümden salar külekler.
Bir de görersen ki, ağıllı olub
Şair tek xeyala dalar külekler.

İstese semadan ruzi sepeler,
Çiçeye bürüner düzler, tepeler.
Yorulsa hmdemi olar leper,
Yatıban dincini alar külekler .

Ağacların yarpağını qaçırdar,
Qem-kederi yuvasından uçurdar.
Qulağıma hezin sözler pıçıldar,
Ebedi könlümde qalar külekler.

Sevinc Arzulu

**Qaldı şehidler**

Yazdı şöhretini öz qanı ile,
Tarixe hekk oldu qem anı ile.
Vetenini qorudu canı ile,
Ebedi bizimle qaldı şehidler.

Şehid oldu hem cavan,hem de qoca,
Şehidlik zirvesi ucadan uca.
Baxın zirvedeki parlayan taca,
Onu qanlarıyla aldı,şehidler.

Qorudular Vetenin torpağını,
Çemenini,düzünü,hem dağını.
Azad etmek üçün Qarabağını,
"Hücuma"-marşını çaldı şehidler.

Babeklerin ruhu yaşar canında,
Azerbaycan eşqi qaynar qanında.
Uyuyub "Şehidler xiyabanı"nda,
Ebedi xeyala daldı şehidler.

Veten üçün canlarından keçdiler,
Düşmenleri alaq kimi biçdiler.
Ayrılığın şerbetin tez içdiler,
Sevinc önünüzde laldı,şehidler.

Sevinc Arzulu

**Qaldıq**

Özümlə götürüb alagöz yarı,
Dedim xoşbəxt olaq bir anlıq barı.
Sandıq yol gedirik bahara sarı,
Sonunda payızla üz-üzə qaldıq.

Söylədim yolunu bir bizlərdən sal,
Bir kəlmə demədi, sanki oldu lal.
Bizdən üz döndərdi vəfasız vüsal,
Həsrətin özüylə göz-gözə qaldıq.

Nəfəs də almağa vermədi imkan,
Heç əskik olmadı qasırğa, tufan.
Atəşsiz, alovsuz yandırdı hicran,
Yenə sevdiyimlə köz-közə qaldıq.

Sevinc Arzulu

**Qaldır**

Tarixin tekerin dönderen zaman,
Ayrılıq küleyin yaman esdirib.
Vüsalın qapıma geldiyi zaman,
Hesretin benimle kebin kesdirib.

Bir vaxt aramızdan su da keçmezdi,
Serheddin zamanın ölçüsü olub.
Sen beni özünden ayrı seçmezdin,
Ilhamım zamanın elçisi olub.

Sen benim sevdiyim etirli çiçek,
Istemem qelb deşen tikanın olsun.
Qaldır,sevgimizin adına içek,
Kelbimiz en sıcaq mekanı olsun.

Sevinc Arzulu

**Qaldırıb**

Bir duyğulu bendeyem ben,
Özümdeyem,bendeyem ben.
Allah,nece gündeyem ben,
Ağrılarım baş qaldırıb.

Qara yazar qara lelek,
Öhdesinden nece gelek.
Yene de o zalım felek,
Kipriyimi yaş qaldırıb.

Damarda qan şırıldayır,
Qelb qapısı cırıldayır.
Pırım-pırım pırıldayır,
Sanki könlüm daş qaldırıb.

Sevinc Arzulu

**Qalıb**

Hesret nem elini  çekib üstüme.
Ağlı kem gelini çöküb büstüme,
Sema qem selini töküb tüstüme.
Gördüyün gözelin yarısı qalıb.

Sanırdım belece gürşad olacam
Yanırdım elece naşad solaçam..
Danırdım külecer abad qalaçam,
Hördüyün ezelin barısı qalıb.

Könlümü almağa barıncası yox,
Bir qonaq qalmağa qarıncası yox.
Xalı tek salmağa narıncısı yox,
Serdiyin  xezelin sarısı qalıb.

Sevinc Arzulu

**Qalmasın**

Acıqlı baxışdan gözlerim dolar,
Ağlasam söyüdler saçını yolar.
Menimçün qızıldan qiymetli olar,
Dan yeri parlayan zer şeh damlası.

Gün çıxır, üfüqde od qalanır, bax
Tebiet rengiyle lovğalanır, bax.
Nece hezin-hezin yırğalanır, bax
Çinarın başında ağ meh çalması.

Buludlar semada axıb sevinsin,
Üzüne tebessüm taxıb sevinsin.
Hamı keçmişine baxıb sevinsin,
Heç kimin qelbinde kaş "Eh" qalmasın.

Sevinc Arzulu

**Qalmışam**

Insanlar,ateşin eşq ile sevin,
Şair,sen de baxıb onlara sevin,
Xeyalım dolanır xatire evin,
Qelemim elimde donub qalmışam.

Yalın ellerimde köz tutammıram,
Şeriyyet çayından söz tutammıram.
Daha geleceye üz tutammıram,
Elece geriye dönüb qalmışam.

Sen idin bir zaman elin qoçağı,
De.harda qaldı bes senin o çağın.
Evvelki şövq ile yanmır ocağım,
Hesretden ateşim sönüb,qalmışam.

Sevinc Arzulu

**Qalx ayağa, Veten**

Daha bir şəhid verdik bu gün.
Başın sağ olsun,Vətən.
Bir "Vağzalı" da çalınmamış qaldı.
Bir bəylik libası,bir gəlinlik paltarı
dəfn edildi bu gün.
Başın sağ olsun,Vətən.
Atəşkəsdən bəri nə qədər şəhid vermişik görən.
Onmu,yüzmü,minmi.
Axı biz bu şəhidlərlə,bu vaxtsız itkilərlə
Qarabağı geri ala bilərdik.
Bir qız sevdiyini itirdi,
Bir ana oğlunu,
Bir ata arxasını.
Bir bacı qardaşını,
Bir el əzizini.
Başın sağ olsun,Vətən.
Birinci Qarabağ savaşında şəhid olanların
çoxunun heç olmasa yadigarı var.
Bu 18-20 yaşlı uşaqların nə nişanəsi qaldı,Vətən.
Sağalmayan azarmı,özləri boyda məzarmı.
Azalmayan göz yaşımı,küskün baxan baş daşımı.
Nə vaxta qədər bu baxtsız,vaxtsız itkilərə dözəcəyik?
Qalx ayağa,Vətən.qalx ayağa.

Sevinc Arzulu

**Qanadsız quş**

Ürəyim sıxılır.Aralarında
Qalmışam həsrətlə hicranın, aman.
Sinəmə vurduğu yaralarından.
Elə bil  zövq alır bu zalım zaman.

Isidib könlümü bir şirin sözlə,
Çəkdiyim acıyçun danlayanım yox.
Təbəssüm bəxş edən gülümsər gözlə,
Halıma yanaraq anlayanım yox.

Xəyalın qanadsız quşa bənzəyir,
Gözümün önündən çəkilmir bir an.
Ayrılıq qəm yeyib, nuşa bənzəyir
Dağıdıb ömrümü, qoyubdur viran.
12.09.2018

Sevinc Arzulu

**Qanunidir?**

Günəş gecə batmaq istər,
Ay gündüzlər yatmaq istər.
Yar yarına çatmaq istər,
Bu həyatın qanunudur.

Nədən duzu kəm çörəyin,
Dərd lavaşın,qəm çörəyin.
Al qırmızı qəlb çörəyi,
Yoğurduğum qan unnudur.

Istəyimi tamah sayan,
Ayrılığı xan,şah sayan.
Vüsalımı günah sayan,
Məgər həsrət qanunidir?

Sevinc Arzulu

**Qapının o üzünde**

Bu qapının o üzündə duman vardır,
Ayrılığın sonücüna güman vardır.
Baxışların buxarlanıb tüstü-tüstü,
Naxışların toparlanıb isti-isti.

Orda neçə xatirə var. Açılmayıb.,
Günəşim var, hələ nuru saçılmayıb.
Ordan gəlir babaların ayaq səsi,
Eşidilir keçmişlərin təntənəsi.

Aç qapını, keç içəri, mənim dostum,
Qızıl-gümüş xatirədir altı-üstü.
Mən də gəlim, xatirələr lal olmasın,
Dəyişib də zər rəngləri al olmasın.
26.04.2018

Sevinc Arzulu

**Qapısı bağlıdır**

Ilahi, bu nedir, ne seksekedir.
Başıma qem yağır tarap-turupla.
Yene getir-götür və çekçekedir,
Men kime üz tutum bu durumumla.

Qapısı bağlıdır xatirelerin,
Üstünde qapqara qıfıl asılıb.
Sinesi dağlıdır xatirelerin,
Fereh məğlub olub, derde basılıb.

Içimi titreden kövrek duyğular,
Neden esim-esim yere tökülür.
Daha çin çıxmayır şirin uyğular,
Könül xalımızın ipi sökülür.

Dolaşıq fikirlər üze düşübdür,
Ayrılıb getmeyir yanımdan menim.
Ezrail deyesen ize düşübdür,
Edecek tezlikle canımdan meni.

Güle kül qonduran ayrılqları,
Intiqam odunda yandıram gərek.
Qanımı donduran ayrılıqları
Ele öz adında qandıram gerek.

Sevinc Arzulu

**Qapısı bağlıdır.**

Ilahi, bu nedir, ne seksekedir.
Başıma qem yağır tarap-turupla.
Yene getir-götür və çekçekedir,
Men kime üz tutum bu durumumla.

Qapısı bağlıdır xatirelerin,
Üstünde qapqara qıfıl asılıb.
Sinesi dağlıdır xatirelerin,
Fereh meğlub olub, derde basılıb.

Içimi titreden kövrek duyğular,
Neden esim-esim yere tökülür.
Daha çin çıxmayır şirin uyğular,
Könül xalımızın ipi sökülür.

Dolaşıq fikirlər üze düşübdür,
Ayrılıb getmeyir yanımdan menim.
Ezrail deyesen izə düşübdür,
Edecek tezlikle canımdan meni.

Güle kül qonduran ayrılqları,
Intiqam odunda yandıram gerek.
Qanımı donduran ayrılıqları
Ele öz adında qandıram gerek.
14.12.2017

Sevinc Arzulu

**Qapqara düşdü**

Tez ötdü gənclik qatarı,
Qalmadı qəlbin tutarı.
Mən gəzirdim ilk baharı,
Yolum boran,qara düşdü.

Sevirəm narın yağışı,
Qarın çəkdiyi naxışı.
Çox tez gəldi ömrün qışı,
Könlüm yaman dara düşdü.

Görən nə ımiş günahım,
Tərk eylədi məni şahım.
Dünyanı yandırdı ahım,
Ağ şəklim qapqara düşdü.

Sevinc Arzulu

**Qar ağacı**

Necə ki bəyənib qurbağa divi.
Div də qurbağanı eləcə sevir.
Yamanca süslənib yalanın evi,
Həqiqət asılıb dar ağacından.

Adil qalib gələr bir gün nəhayət,
Zalımdan gözləmə sən heç mərhəmət.
Ağaca bənzəyir əsl məhəbbət,
Heç əskik olmayır bar ağacından.

Bir sünbül dənəsi artar, yüz olar,
Doğrunun ilqarı rəvan, düz olar.
Əriyər, şaxtadan donub buz olar,
Sırsıra sallanar qar ağacından.

Sevinc Arzulu

**Qar altını**

Beyenmedin o bucağı,
İstemedin derd qucağın.
Qoyub isti od-ocağı,
Özün seçdin qar altını.

Yorulmuşam, yoxdu heyim
Kökden düşüb, çalmır neyim.
Istemezsen yeqin deyim:
-”Allah kessin qaraltını”.

Düzü tufan bürüyecek,
Yel yarpağı kürüyecek.
Yaz gelentek eriyecek,
Neyneyirem qar altunu.

Beş menden de, üç özünden,
Ayaqyalın keç közünden.
Xar utandı heç sözünden,
Qızıl qanın qaraltdımı?

Hesret ömrü viran eden,
Qelbi şaxta, boran eden.
Geceleri toran eden,
Gündüzüne qarantdımı?

Sevinc Arzulu

**Qar havası**

Yehersiz-yüyensiz at olacağam,
Semanın köksünde çat olacağam.
Deyesen sonunda mat olacağam,
Feleyin menimle çox davası var.

Nahaqdan güvendim taleye, baxta
Sen deme yazısı ezelden saxta.
Dondurar insanı amansız şaxta,
Deyesen Bakıda qar havası var.

Odluyam, yamanca köz qoxuyuram,
Saitden, samitden söz toxuyuram.
Ezizim, bir azca döz, oxuyuram
Başımda heyatın xoş nevası var.

Sevinc Arzulu

**Qar heykelciyi**

Əlimdə həsrətin qar heykəlciyi,
Gözümdə vüsalın eynəyi vardır.
Burnumda titrəyir ətirin, iyin
Qəlbimdə hicranın göynəyi vardır.

İşti otaqdaca heykəl əridi,
Özü də beləcə əriyəydi kaş.
Suyu damla-damla yerə səpildi,
Sevindi baxdıqca gözümdəki yaş.

Vermə həllolunmaz misalı mənə,
Qədərin bizimlə  axı nə qəsdi.
Niyə  dost olmadı vüsalın mənə,
Ayrılıq eləcə yolumu kəsdi.
23/11/2017

Sevinc Arzulu

**Qar meleyim**

Qara həsrət mənim oldu,
Ahım duman-çənim oldu.
Öz-özümə qənim oldum,
Sən mənim xar ürəyimsən.

Ocağımdan köz alırsan,
Baxışınla söz alırsan.
Rastlaşanda qızarırsan,
Sən mənim nar çiçəyimsən.

Dərdə hicran daşıdıram,
Qəmli nəğmə eşidirəm.
Görcək yaman üşüdürəm,
Sən mənim qar mələyimsən.
09.03.2015

Sevinc Arzulu

**Qara çölündeyik**

Dalğalanar söz dənizim,
Saralıbdır gül bənizim.
Dediyimiz olmaz bizim,
Çün, taleyin əlindəyik.

Xəyal atımıza minək,
Göydə çapaq ,yerə enək.
Qoşa qu quşuna dönək,
Biz  sonalar gölündəyik.

Dəcəlləşək, qoçaqlaşaq,
Qocaldıqca uşaqlaşaq.
Tezcə burdan uzaqlaşaq,
Qəmin qara çölündəyik.

Sevinc Arzulu

**Qara nağıl**

Sadəlövh günlərim geridə qalıb,
Eh, indi hamıdan ağıllıyam mən.
Köksümdə atəşin yeri də qalıb
Qoşma, bayayatılı, nağıllıyam mən.

Bəlkə bir gün gələr Basat köməyə,
Dəmir qapıları aşıb da keçər.
Bəlkə div adamı daha yeməyə,
Məni də özünə yaxın dost seçə.

Demə ki nağıla inanmırsan sən,
Bu sevdan bir qara nağıl deyilmi?
Haqq-nahaq danlanıb qınanmırsan sən,
Köhnəlmiş paltarlar daha geyilmir.

Yalanı həqiqət bilib hər dəfə,
Sonunda doğruya yol almadın ki?
Gözümü yumuram günah tək səhvə,
Ardınca zindana yollanmadım ki?

Indi ikimiz də düşmüşük əsir,
Əvf edən olacaq görən bizləri?
Yalvarıb sıtqamaq şənimə kəsir,
Qumda ədalətin ayaq izləri.
25.03.2018

Sevinc Arzulu

**Qara olacaq**

Ay həyatı hədərim,
Fələk yazdı qədəri.
Sənsizliyin kədəri,
Gözlərimə dolacaq.

Çağrıldı qəm bayatın,
Qara geydi bəy atın.
Nə bileydim həyatın,
Cavan ikən solacaq.

Fələk sözün deyibdir,
Ağlamaq de,eyibdir?
Sənsiz qara geyibdir,
Bu ev-eşik,olacaq.

Qəm ilə doldu gözün,
Qəlbində qaldı sözün.
Daha alışmaz közün,
Çoxdan sönüb od-ocaq.

Açılmaz qəlbin donu,
Tənha qoydular onu.
Bilmədim ömrün sonu,
Belə qara olacaq.

Sevinc Arzulu

**Qara torpaqdır**

Günəş öz nurunu saçıb da gedər,
Başından örpəyin açıb da gedər.
Həsrət vəsli görcək qaçıb da gedər,
Tülkü tək həm bicdir,həm də qorxaqdır.

Vüsalın telləri qıvırcıqsa da,
Hələ çox kiçiksə,yumurcuqsa da,
Uşaqlıq çağları tumurcuqsa da,
Insanın gəncliyi yaşıl yarpaqdır.

Ay gedən əzizim,qayıt,dön gəl də,
Fərəh-qəm sığışmaz bir qoşa əldə.
Necə gözəl demiş aşıq Veysəl də,
"Mənim sadiq yarım qara torpaqdır."

Sevinc Arzulu

**Qara tül**

Həsrət yenə namə göndəribdi, bax,
Üzünü vüsala çöndəribdi, bax.
Gündüzü gecəyə döndəribdi, bax
Qara tül toxuyur sönən ocağıın.

Üstümə göndərir axın, doymayır,
Hicranın gözünü baxın, oymayır.
Ayrılıq  nəğməmi yaxın qoymayır,
Dərdi-qəm oxuyur küncün-bucağın.

Nə vaxtsa bir qəlbdə iki can idik,
Dillərdə əzbərdik, şöhrət-şan idik.
Bir zaman necə də mehriban idi,
Qaranlıq qoxuyur soyuq qucağın.
19.07.2018

Sevinc Arzulu

**Qarabağı qaytarın**

Məhv oldu uşaq-qocalı,
Şəhid edildi Xocalı.
İgidlərim,siz öc alıb
Bu torpağı qaytarın.
Qarabağı qaytarın.

Düşmənlər çıxsın Şuşadan.
Əl çəksin cənnət guşədən.
Səs eşidilər meşədən,
Deyər ağı,qaytarın.
Qarabağı qaytarın.

Güllərim saralıb solar,
Bülbüllərin gözü dolar.
Qarşınızda məğlub olar,
Düşmən-yağı,qaytararın,
Qarabağı qaytarın.

Səndən qaçar sinə-sinə,
Aman vermə bir kəsinə.
Zalım düşmən sinəsinə,
Çəkin dağı,qaytarın.
Qarabağı qaytarın.

Haray çəkər şair,ədib.
Gözəl ellər əldən gedib.
İşğalçıları məhv edib,
Cənnət bağı qaytarın.
Qarabağı qaytarın.

Sevinc Arzulu

**Qarabağımqaytarın**

Yolunu gözləyir Laçın.Kəlbəcər,
Oğlumuz Babəkdir.qızımız Həcər.
Torpağı azad et. Sonra ək,becər,
Hər vaxt sadiq qalaq bu torpağa,gəl.
Qarabağa gəl.

Düşmənینə vermə döyüşdə aman,
Erməni hiyləgər.bic olur yaman.
Qələbə marşını çaldığın zaman,
Artsın sevincimiz dönsün dağa,gəl.
Qarabağa gəl.

Vətən olsun söhbətin də.sözün də,
Fərəh yaşı parıldasın gözündə.
Xarıbülbül yığaq Cıdır düzündə,
Şeyda bülbül kimi qon budağa,gəl.
Qarabağa gəl.

Dərdləri deməklə gəlməyir başa,
Yolunu gözləyir Ağdərə,Şuşa.
Gözəl Ağdam bir yaraşıq,tamaşa,
Başına od-alov yağa-yağa gəl.
Qarabağa gəl.

Yadına sal unu qan yaddaşını,
Səslə döyüşlərə yar-yoldaşını.
Sevinc deyər hər vaxt dik tut başını,
Əyilmə düşmənə,qalx ayağa,gəl.
Qarabağa gəl.

Sevinc Arzulu

**Qaraçı**

Sular tek durulub akırsan qemli,
Şimşek tek semada çakırsan qemli.
De,neden  üzüme bakırsan qemli
Vurma üreyime oxu, qaraçı.
Bextimi elimden oxu,qaraçı.

Ğizliçe alışan ateş-qormuşum,
Bu yolları yorum-yorum yormuşum.
Qızılı da,gümüşü de görmüşüm
İstemirim varı-yoxu,qaraçı.
Bextimi elimden oxu,qaraçı.

De,neden beledir bextim,taleyim
Çoxdan uçub gedib qartalım,leyim.
Eski dost-tanışdan vardır gileyim,
Unudubdur beni çoxu,qaraçı.
Bextimi elımden oxu,qaraçı.

Başıma yağıbdır dağların qarı,
Neynirim dövleti, neynirim varı.
Derdime yanan yox,birçe sen barı
Bir ümid çelengin toxu,qaraçı.
Bextimi elimden oxu,qaraçı.

Ben Sevinçim,özüm de bir şamanam,
Heç yaxşı gelmedi dövri- zamanam,
Olacaqlar üreyine damanam.
Çin çıxar gördüyüm yuxu, qaraçı.
Bextimi elimden oxu,qaraçı.

Sevinc Arzulu

**Qaranlıq olar**

Aşiq neynəyər ki vəslə yetməsə,
Qaydaya-qanuna əməl etməsə.
Əgər ki işlərim düzcə getməsə,
Gündüzüm gecəm tək qaranlıq olar.

Küləklər qəfildən cövlan eyləyər,
Dünyamı dağıdıb al qan eyləyər.
Məni öz səhvimə peşman eyləyər,
Əkdiyim  torpaqlar şoranlıq olar.

Rəngini qaraldıb bunca nifrət, kin,
Yaraşıq verməyir amma və lakin.
Əgər bircə bayquş olarsa sakin,
Abad olan ellər viranlıq olar.
20.!2.2018

Sevinc Arzulu

**Qarası etdi**

Söykənib simsiyah nəm sürahiyə,
Baxıram üfüqə, bilmirəm niyə.
Elə minnətdaram o İlahiyə,
Səni gözlərimin qarası etdi.

Narın-narın yağan yağışın məlhəm,
Al-əlvan görünən naxışın məlhəm.
Hər sözün məlhəmdir, baxışın məlhəm
Sağaldı qəlbimin yarası,getdi.

Nədir bu suallar, nədir bu sorğu,
Mənim  dediklərim həqiqət, doğru.
Min il yol gəldilər vüsala doğru,
Qovuşdu iki çay arası, yetdi.

Sevinc Arzulu

**Qarasına söykenim**

Sevincdən,fərəhdən bəzən çıxıllam,
Möhnətsiz,qüssəsiz vallah sıxıllam.
Sözünün ağına batsam.yıxıllam,
Gözlərinin qarasına söykənim.

Qocalmısan,eynək ilə yaraqlan,
Açıb könül kitabımı varaqla.
Dinlə mənim söhbətimi maraqla,
Iki sətrin arasına söykənim.

Fərəhli həyatın qəm nəğməsi yox,
Həyatın qaranlıq daş lövhəsi yox.
Istinad etməyə bir nöqtəsi yox,
Bu dünyanın harasına söykənim

Sevinc Arzulu

**Qarda, ezizim**

Toya çağırdılar , gedə bilmədim,
Çünki sən yox idin orda, əzizim.
Könlümün dediyin edə bilmədim,
De, indi hardasan harda , əzizim.

Acı həqiqətin üzünü gördüm.
Qaraya boyanmış düzünü gördüm.
Yalanın onunu, yüzünü gördüm,
Üşüdüm boranda, qarda, əzizim.

Tale yenə verdi macal əğyara,
Ərköyün əğyara, dəcəl əğyara.
Sən niyə baş əydin əcəl əğyara,
Söylə, nə görmüşdün xarda, əzizim.

Sevinc Arzulu

**Qare meni qezel**

Nə etmişəm sənə tanrım, çəkirsən darə məni.
Bu nə gün,nə dövrandır,etdin bəxti-qarə məni.
Üzümü göyə tutub hey dua-səna etmişəm,
Döndərdin urəyi al qanla dolu narə məni.

Deyirlər xəstə yatır yatağında ismi-pünhan,
Təbibi-loğman buyurmuş dərdinə çarə məni.
Əgər ölsəm qürbətdə, kim itirib-axtaracaq,
Kim yada salıb anar nalani-biçarə məni.

Ümidim tək sənədir,ey gözəgörünməz Tanrım.
Nə dinim,nə danışım döndər lalə,karə məni.
Durub bulaq üstündə boynun burub bənövşə tək,
Bilirəm ki gözləyir tənha qəlbi yarə məni.

Həzin çalan kamandım, de nədən bəs dəyişdin,
Simləri qırılaraq nalə çəkən tarə məni.
Qəlbimdə bircə arzu əbədilik məskən salıb,
Yetirsin Allahım ol şən,gülərüz yarə məni.

Sağlığımda tapmadın,gülüm,bu geniş dünyada
Ölümümdən sonra gəz məzarımı,arə məni.
Sevincəm,ölsəm əgər qışda, vəsiyyət edirəm,
Bükün kəfən yerinə təzə yağmış qarə məni.

Sevinc Arzulu

**Qarışıq**

Seni sevdim gözlerinde qüsse-keder qarışıq,
Şükür etdim taleyime qismet-qeder qarışıq.

Ne edim ki sonunacan birleşmedi yolumuz,
Içimde bir boşluq vardır,heyf,heder qarışıq.

Duyğularım,fikirlerim nizam-nizam düzülür,
Burda benim günahım yox,felek eder qarışıq.

Göy semada birleşibdir Şimal-Cenub küleyi,
Fırlanıban burular hey göyle geder qarışıq.

Yolun düşse,ay ezizim,eger gülli-gülzara,
Qızılgülü yasemenle,nergizle der qarışıq.

Sevinc Arzulu

**Qar-yağışa gedirem**

Ötüb keçer gencliyimin qatarı,
Payıza yox, üzü qişa gedirem.
Qalmayıbdır üreyimin tutarı,
Hesret qaldım bir alqışa, gedirem.

Öz işinde mahir,usta qocalıq,
Qapımızı döyür asta , qocalıq.
Eder meni derdli, xeste qocalıq,
Aldanıban lal baxışa, gedirem.

Sal qayalar sert külekden daldadar,
Vüsal çetin benim üçün bal dadar.
Fələk şirin  sözleriyle aldadar,
Vuruluban zer naxışa, gedirem .
Baxmayaraq qar-yağışa, gedirem.

Sevinc Arzulu

**Qatar gede**

Ucalıqda dinəsən,
Güc aldıqda sinəsən.
Qocalıqda minəsən,
Gəncliyə qatar gedə.
Çıxan gün batar gedər.

Parladıqca baş tacın,
Soyumaya qəlb sacın.
Qurtara ağrın-acın,
Dincliyə qatar gedə.
Zalım yar atar gedər.

Əriyib buzum deyə.
Sönüb ulduzum deyə.
Nərddə uduzum deyə,
"Pənc"liyə qatar gedə.
Xain dost satar gedər.
24.06.2013

Sevinc Arzulu

**Qayalar**

Yaşıl mamırdır üzəri,
Nə tayı var,nə bənzəri.
Sahilində göy Xəzərin,
Sıralanıb sal qayalar.

Tərpətməyin siz, amandır,
Oturuşub nə zamandır.
Sirr saxlayan bir şamandır,
Yaranışdan lal qayalar.

Şeirlikdir,qəzəllikdir,
Çox nadirdir, özəllikdir.
Bir bənzərsiz gözəllikdir,
Yer üzünə xal qayalar.

Sevinc Arzulu

**Qayğılar**

QAYĞILAR

Bu fani dünyaya benimle geler,
Benimle danışar,benimle güler.
Könülde oyanar,qelbde mürgüler,
Canıma,qanıma hopan qayğılar.

Söz deyer hedefe lap gülle kibi,
Buludlar düzüler ağ pille kibi.
Üzüme deyer bax,sert şille kibi
Zamanın elinden qopan qayğılar.

Tellerin bezeyib süslemirler ki,
Dözülmez ezabı pislemirler ki.
Eh,benden ayrılmaq istemirler ki,
Gözümün üstünden öpen qayğılar.

Sevinc Arzulu

**Qayğılar tek**

Tanrı dərgahına uzanı qollar,
Tek ona aparır bütün bu yollar.
Başımın üstünde şirin xeyallar,
Fırlanır bembeyaz qağayılar tek.

Hesretin odunda bişeceyik biz,
Hicrin havasına şişeceyik biz.
Deyesen ezizim, düşeceyik biz,
Qırmızı kitaba ağ ayılar tek.

Onsuz da günleri veririk yele,
Min sığal çekirik ağarmış tele.
Sen de gel, ay yağış, az insaf ele
Başımın üstüne yağ, qayğılar tek.
17.10.2018

Sevinc Arzulu

**Qayıdacağam**

Bu da bir imtahan, sınaqdır bəlkə,
Sən canlı mələksən, mən cansız kolgə.
Ayrılıq zalımı hicranla birgə,
Dəfn edib geriyə qayıdacağam.

Oturma həsrətin qor qucağında,
Quruyub qalarsan kor bucağında.
Kini  nifrətimin gur ocağında,
Məhv edib bəriyə qayıdacağam.

Uzaq-uzaq edib qara selləri,
Seyr edib dənizdən mavi yelləri,
Hər zaman kəsilən sarı telləri,
Əvf edib hörüyə qayıdacağam.
11.11.2017

Sevinc Arzulu

**Qayıt**

Yürekler dolaşar hey mehin üste,
Çiçekler dalaşar ol şehin üste.
Hesretden üşüyen ferehin üste,
Keder öz yorğanın salınca qayıt.

Şirin bir duyğu var meyin qanında,
Sevgiye sayğı var neyin canında.
Seherin sübhünde,göyün danında
Güneş öz yerini alınca qayıt.

Şahidi olmayım heç xeyanetin,
Hisslerin içinden seç deyaneti.
Daha eylemesin köç,mehebbetin.
Istisi qelbimde qalınca qayıt.

Birce acı sözden bükülermiş diz,
Yerinde qalarmış görünmeyen iz.
Nece mehribanıq ikilikde biz,
Vüsalın derdini bölünce qayıt.

Qızaran gözünün yaşına dönüm.
Könül üzüyünün qaşına dönüm.
Gel qayıt geriye,başına dönüm,
Senli xatireler ölünce qayıt,

Sevinc Arzulu

**Qayıt gel**

Təkcə sənsən gümanım,
Ay çiskinim,dumanım.
Sən taqətim,amanım,
Xatirələr oyat gəl,
Qayıt gülüm,qayıt gəl.

Gülşəninəm,gülünəm.
Susmaz bir bülbülünəm.
Ocağında külünəm,
Gəlişinlə çovut gəl,
Qayıt gülüm,qayıt gəl.

Masmavi dənizinəm,
Qulunam,kənizinəm.
Şənin ağbənizinəm,
Ürəyimi ovut gəl.
Qayıt gülüm.qayıt gəl.

Şəkərimsən,qəndimsən.
Belimdə kəməndimsən.
Şeirimdə şah bəndimsən,
Ayrılığı soyut gəl,
Qayıt gülüm.qayıt gəl.

Sən qonaq gəl Sevincə,
Röyamdasan hər gecə.
Gülüm,məni gizlicə
Sən yuxudan ayılt gəl,
Qayıt gülüm,qayıt gəl.

Sevinc Arzulu

**Qayıt geri**

Qızılgülü göz yaşıyla suladım,
Əllərimi öz qanıma buladım.
Gecə-gündüz eşq tonqalı qaladım,
Qayıt geri,qayıt geri sevdiyim.

Mən dedim ki eşqimizin tacı ol,
Demədim ki şirin ikən acı ol.
Nolar,qayıt.dərdimin əlacı ol
Qayıt geri,qayıt geri sevdiyim

Bu dünyanın ilk bəstəsi-məhəbbət,
Sevənlərçün gül dəstəsi-məhəbbət.
Edib məni eşq xəstəsi məhəbbət,
Qayıt geri,qayıt geri sevdiyim.

Başın üstdə əsər hey səmum yeli,
Dağıdar hüsnünü bəzəyən teli.
Sənə məhəbbətim coşqun dağ seli,
Qayıt geri,qayıt geri sevdiyim

Çiçək kimi bitər kolda sevdiyin,
Axtar sağda,axtar solda sevdiyin.
Qoyma qala gözü yolda sevdiyin
Qayıt geri,qayıt geri sevdiyim.

Sevinc Arzulu

**Qayıt öldür sen**

Içimdə boz boşluqlar.
Qayıt doldur,doldur sən.
Həsrət gülün xoşluqla,
Qayıt soldur,soldur sən.

Qəlb bacarmaz sərabla,
Dərddən halı xərabla.
Eşq badəsin şərabla,
Qayıt doldur,doldur sən.

Fəxr etdin ləlin ilə,
Sevdiyin gəlin ilə.
Məni öz əlin ilə,
Qayıt öldür,öldür sən.

Sevinc Arzulu

**Qayıt uşaqlığım**

Qayıt uşaqlığım, qayıt bir anlıq,
Keçmişi tezeden anmaq isterem.
Yatmış xatireni ayılt bir anlıq,
Oduna tezeden yanmaq isterem.

Dönem uşaqlığın şirin çağına,
Yene de yüyürem, yenə de qaçam.
Dönse de dünyamız cennet bağına,
Ilk bahar etrine, ah, nece acam.

Ese gencliyinin serin küleyi,
Bir az üşüyesen, bir az uçasan.
Bir baxış ovlaya tenha üreyi,
Sen de diksinesen,geri qaçasan.

Sevinc Arzulu

**Qayıtdım**

QAYITDIM

Elini üzmez ki yardan,
Seven qelb bezmez eyardan.
Mehebbet adlı diyardan,
Tutdum dilimden, qayıtdım.

Derdli ürek verem oldu,
Hesretine herem oldu.
Mecnun oldun, Kerem oldun,
Yandım, külümden qayıtdım.

Axır ki döndün seferden,
Xeyal adlanan şeherden.
Xeberin yoxdu xeberden,
Öldüm, ölümden qayıtdım.

Sevinc Arzulu

**Qayıtmısan, bilim**

Mənəm səndən qayğı uman,
Dönməyinə varmı güman.
Üstünü alıb sis,duman
Çalxalanlr mavi gölüm.

Riya olmaz məhəbbətdə,
Uzaq durram söz-söhbətdən.
Yad eldə,soyuq qürbətdə,
Razı olma sənsiz ölüm.

Dost olaq sadə,səmimi.
Suya qərq etmə gəmimi.
Istəyirəm ki qəmimi,
Sevicimi sənlə bölüm.

Göz önündə şərqli pəri,
Oxuyar bal şərqiləri.
Nağıllaşan Şərqin əri,
Sənsiz ötməz ayım,ilim.

Yaşılı et göy gizlicə,
Həm özünü öy gizlicə.
Qapımızı döy gizlicə,
Geri qayıtmısan bilim.

Sevinc Arzulu

**Qaynayıram men**

Yenə də gözlərim həsrətdən nəmdir,
Qəlbimdə vüsalın lal yeri kəmdir.
Dörd yanım qüssədir, dörd yanım qəmdir,
Kədərin acısın iyləyirəm mən.

Hey kəsir qarşımı döngə, ya dalan
Saralmış gündəlik tək mənə qalan.
Bilməm etdiklərim doğru, ya yalan,
Özüm də bilmirəm neynəyirəm mən.

Zülmətə bürünüb işıqlı aləm,
Daha gül açmaz ki qan rəngli laləm.
Nə səbrim qalıbdır, nə də hövsələm.
Elə içimdəncə qaynayıram mən.

Sevinc Arzulu

**Qaytar**

Apaydın səmada ulduz görünür,
Necə də tək-tənha, yalqız görünür.
Gözümə yenə də o qız görünür,
Ilahi, qaytar o günləri mənə.

O qızın kədəri, qəmi bilinməz,
Ö qızın gözünün nəmi ilinməz.
Qəlbindən dərdlərin cəmi silinməz,
Ilahi, qaytar o günləri mənə.

O qızın bəxtinin yatan vaxtıydı,
Həsrətin vüsala çatan vaxtıydı.
Hicranı havayı satan vaxtıydı,
Ilahi, qaytar o günləri mənə.

Dodağı səyriyir, ağlamaq istər,
Xəzərə qoşulub çağlamaq istər.
Sevdiyi gənclə əhd bağlamaq istər,
Ilahi, qaytar o günləri mənə.

Illər nə tez ötür, qocalıb o qız,
Nənəlik taxtına ucalıb o qız.
Ayrılıq zalımdan öc alıb o qız.
Ilahi, qaytar o günləri mənə.

Sevinc Arzulu

**Qaytar eşqimi**

Sevgiylə qoyulub dünyanın himi,
Məhəbbət de, xoşbəxt edibdir kimi.
Qorxuram qırıla kamanın simi,
Doyunca ağlasın qoy tar eşqimi.

Səni and verirəm qadir Allaha,
Yarıda  tərk edib batma günaha.
Sən onun qədrini bilməzsən daha,
Ey gedən, özümə qaytar eşqimi.

İmtihar halına çatacaq indi,
Özünü dənizə atacaq indi.
Dalğalar qoynunda batacaq indi,
Ilahi, nə olar ,qurtar  eşqimi.
05.09.2018

Sevinc Arzulu

**Qaytaro günleri mene**

Apaydın səmada ulduz görünür,
Necə də tək-tənha, yalqız görünür.
Gözümə yenə də o qız görünür,
Ilahi, qaytar o günləri mənə.

O qızın kədəri, qəmi bilinməz,
Ö qızın gözünün nəmi ilinməz.
Qəlbindən dərdlərin cəmi silinməz,
Ilahi, qaytar o günləri mənə.

O qızın bəxtinin yatan vaxtıydı,
Həsrətin vüsala çatan vaxtıydı.
Hicranı havayı satan vaxtıydı,
Ilahi, qaytar o günləri mənə.

Dodağı səyriyir, ağlamaq istər,
Xəzərə qoşulub çağlamaq istər.
Sevdiyi gənclə əhd bağlamaq istər,
Ilahi, qaytar o günləri mənə.

Illər nə tez ötür, qocalıb o qız,
Nənəlik taxtına ucalıb o qız.
Ayrılıq zalımdan öc alıb o qız.
Ilahi, qaytar o günləri mənə.
13.12.2017

Sevinc Arzulu

**Qebir üstde**

Ana, qebir üsteyem,
“Segah”am, “Şikeste”yem.
Sizsiz yaman xesteyem,
Ağlamaq isteyirem.

Yaman dolubdur içim,
Derdi tapdayıb keçim.
Sürülüb sanki köçüm.
Ağlamaq isteyirem.

Illerim gedir bada,
Fereh qismetdir yada.
Sanki tekem dünyada,
Ağlamaq isteyirem.

Felek göyden hey baxır,
Qara ildırım çaxır.
Göz yaşlarım sel, axır,
Ağlamaq isteyirem.

Arada ağac bitib,
Şekliniz gözdən itib.
Meni etdiniz yetim,
Ağlamaq isteyirem.

Sevinc Arzulu

**Qeder  qarışıq**

Sevdim səni gözlərində qüssə, kədər qarışıq,
Şükür etdim taleyimə qismət, qədər qarışıq.

Nə edim ki sonunacan birləşmədi yolumuz,
Içimdə bir boşluq vard;r heyif, hədər qarışıq.

Bahardan vaxt almışdıq  biz vüsal gününə kimi,
Payızla qış birləşərək borcu ödər qarışıq.

Duyğularım, fikirlərim nizam-nizam düzülməz,
Burda mənim günahım yox, fələk edər qarışıq.

Göy səmada birləşibdir Şimal-Cənub küləyi,
Fırlanıban burular hey göylə gedər qarışıq.

Yolun düşsə, ay əzizim,əgər gülli-gülzara,
Qızılgülü yasəmənlə, nərgizlə dər qarışıq.

Sevinc Arzulu

**Qeder  yazan**

Dostu düşmenden seçmedin,
Günahımdan heç keçmedin.
Qapını döydüm,açmadın
De,hardasan qeder yazan.

Felek,hesed et tabıma,
Qulaq as derd xitabıma.
Benim ömür kitabıma,
Fereh sözün heder yazan.

Dünyanın en gücsüzü ben,
Efsanesi,düzgüsü ben.
Qem eks eder güzgü sinem,
Qismetime keder yazan.

Sevinc Arzulu

**Qeder getirdi**

Gümanın günahla əlaqəsi yox,
Necə ki ümidlər gəlmir boşuna.
Görən bəyənərmi həqiqəti çox,
Ya da ki yalanlar gələr xoşuna.

Yenə hardan əsdi şimal küləyi.
Özüylə bir bulud kədər gətirdi.
Qorxuram dayana şair ürəyim,
Məni bu yerlərə qədər gətirdi.

Təbiət quymətli tablo kimidir,
Gözümün önündə yaşıl mənzərə.
Məhəbbət qəlbimin sarı simidir,
Özüm də köklənmiş tara bənzərəm.
11.11.2017

Sevinc Arzulu

**Qeder yazan**

Dostu düşməndən seçmədim,
Günahımdan heç keçmədin.
Qapını döydüm,açmadın
De, hardasan qədər yazan.

Fələk, həsəd et tabıma,
Qulaq as dərd xitabıma.
Mənim ömür kitabıma,
Fərəh sözün hədər yazan.

Dünyanın ən gücsüzü mən,
Əfsanəsi, düzgüsü mən.
Qəm əks edər güzgü sinəm,
Qismətimə kədər yazan.

Sevinc Arzulu

**Qedir, oxu**

(Q.Məmmədova)

Sevdiyinin gözü ala,
Yenə də xəyala dala.
Rö`yada yetdin vüsala,
Çin çıxaydı yuxu,Qədir.
Oxu, Qədir,oxu Qədir.

Sevgin sənə qənim oldu,
Göz yaşları mənim oldu.
Ahın duman,çənim oldu
Eşq çələngin toxu,Qədir.
Oxu Qədir,oxu Qədir.

Sən oxudun gözündə yaş,
Niyə ağlayırdın qardaş.
Kədərini böləydim kaş,
Mənim olaydı çoxu,Qədir.
Oxu Qədir,oxu Qədir.

Həmdəmisən sevən kəsin,
Qida verər xoş nəfəsin.
Yaralayar məni səsin,
Neynəyirəm oxu,Qədir.
Oxu Qədir,oxu Qədir.

Yoxla zilini,bəmini
Unutma heç xoş dəmini.
Ürəyimin dərd-qəmini,
Gözlərimdən oxu,Qədir.
Oxu Qədir,oxu Qədir.

Sevinc Arzulu

**Qedrimi  bilmeyeceksen**

Şəninə həmişə söz deyəcəyəm,
Hicrana, möhnətə “döz”-deyəcəyəm.
Yolunu həsrətlə gözləyəcəyəm,
Bilirəm, heç zaman gəlməyəcəksən.
Sən mənim qədrimi bilməyəcəksən.

Köksünü ötürmə hər addımbaşı,
Nə mən xam deyiləm, nə də sən naşı.
Bəlkə də könlünə axır göz yaşın,
Bir daha ürəkdən gülməyəcəksən.
Sən mənim qədrimi bilməyəcəksən.

Gözümdən süzülür könlümün qəmi,
Sənə təsir etməz gözümün nəmi.
Qəlbimdə taqətlə dözümün cəmi,
Bu dərdi mənimlə bölməyəcəksən.
Sən mənim qədrimi bilməyəcəksən.

Sevinc Arzulu

**Qedrimi bilenim**

Nolar, dön elaçıma,
Kesilmez elacıma.
Payız rengli saçıma,
Yaz  yağışı çilenir.

Bülbül uçnaz kol üstden,
Qem uyumaz qol üste.
Hesret durub yol üstde,
Eşq-mehebbet dilenir.

Ferehimden coşaram,
Hezin neğmə qoşaram.
Tek seninçün yaşaram,
Ay qedrimi bilenim.
16.10.2018

Sevinc Arzulu

**Qefesdi, gülüm**

Qəm-kədər içində daim azıram,
Göz yazı tökməyə hər an hazıram.
İlhamım gələndə şeir yazıram,
Bu həvəs bir özgə həvəsdi, gülüm.

Qartallar hər zaman yerə enməyir,
Güclü qar-yağışdan günəş sönməyir,
Ötənlər bir daha geri dönməyir,
Keçmişi dərd etmək əbəsdi, gülüm.

Kədərdən fərəhin evi yıxılır,
Həyatımdan yaxşı günlər çıxılır,
Ürəyim darıxır, qəlbim sıxılır,
Bil, sənsiz bu dünya məhbəsdi, gülüm.

Uçaraq dağılıb təxti-rəvanım,
Quruyar damarda axan al qanım,
Kəsilib taqətim, qalmayıb canım,
Aldığım quruca nəfəsdi, gülüm.

Sənə mən gözucu baxa bilmirəm.
Kür olub dənizə axa bilmirəm,
Salmısan,buradan çıxa bilmirəm,
Sənsizlik qaranlıq qəfəsdi.gülüm.

Sevinc Arzulu

**Qefil deyim**

Uşaqken atamız neler alardı,
Gelen günü anıb fikre dalardıq.
Indi maşınlardır, arabalardır.
Daha dövletimiz deve, fil deyil.

Ayrılıq eritmez zirvede qarı,
Menim de ömrümün gəler baharı.
Boylanıb baxsa da yollara sarı,
Könül ne avara, ne sefil deyil.

Ebedi sakinem daş sarayında,
Qüsseli neğmeyem qem harayında.
"Senin yerin yoxdur eşq diyarında",
Qanımı dondurar bir qefil deyim.
20.04.2018

Sevinc Arzulu

**Qeher içinde**

Ayrılıq həsrəti qəlbini yaxır,
Hicranın kədəri göyündə çaxır.
O qara gözləri ümidlə baxır,
Görəsən nə duyur kəhər içində.

Başımız üstündə günəş var, ay var.
Dənizin səsində hay var, haray var.
Neçə imarət var, neçə saray var,
Min qala qurulub şəhər içində.

Tənha ürəyimdir səni anan ki,
Pərvanətək şam oduna yanan ki/
Ilahi buyruğu olsa inan ki,
Yüz dərman taparsan zəhər içində.

Xoşbəxtlik insanın xoş amalıdır,
Həsrət üzümüzdə kədər xalıdır.
Hər günüm sirlidir, müəmmalıdır,
Görən nə gizlədib səhər içində.

Yenə kim fırladıb tərsinə onu,
Çərx-fələyin dəyişilib səs tonu.
Bu sevdanın yox əvvəli, yox sonu,
Ayrıldıq, ay gülüm, qəhər içində.

Sevinc Arzulu

**Qehere kimi**

Qara gözlərinin işığında men,
İnan,yol gederem sehere kimi.
Arada mesafe zaman ilə ten,
Uzanar rayondan şehere kimi.

Qüsseden,kederden kökelirem men.
Hesretin içinden dikelirem men.
Deyesen neçe il yol gelirem men,
Gözümün yaşından qehere kimi.

Ulduzla doludur parlaq semamız,
Hezin neğme deyer serin sebamız.
Yene de qaynayar qedim obamız,
Görersen quzudan kehere kimi.

Sevinc Arzulu

**Qelb oğrusudur**

Eşq dünyanı bərq edən,
Kim bu nuru fərq edən.
Məni qəmə gərq edən,
Dözülməz ağrısıdır.

Sevgi məkan,zamansız.
Oxur tarsız,kamansız.
Bu,taleyin amansız
Sualı-sorğusudur.

Başım üstdə duman,çən,
Gözü yaşlı olan mən.
Sevməyəni sevmə sən,
Məncə  bu doğrusudur.
Qəlbin qəlb oğrusudur.

Sevinc Arzulu

**Qelbi qara hesret**

Dağların da dizi yerə qatlanar,
Bulaqların soyuq suyu ilinməz.
Şəlalələr qayalardan atlanar,
İntiharın səbəbi nə, bilinməz.

Bu gedişin dönüşü də möhtəşəm,
Addımları daha yeyin olacaq.
Sevənlərin görüşü də möhtəşəm,
Çərx-fələyin gözləri də dolacaq.

Izlərində gül yerinə xar əkir,
Ayrılığın yönü yenə haradır?
Hər səninlə görüşəndə ah çəkir,
Bu həsrətin qəlbi tamam qaradır.
10.06.2018.

Sevinc Arzulu

**Qelbin simi**

Ayırmıram yazı-qışı,
Hesret eşqin qem qarğışı.
Çetin eşidim alqışı,
Qırılıbdı qelbin simi.

Gülmez vüsalın çöhresi,
Böyümez yaşıl pöhresi.
Düz deyilmiş bünövresi
Viran olub eşqin himi.

Tez ayrıldıq neden, niye
Möhtac olduq teselliye.
Yalvarardıq İlahiye,
Tanrı xoşbext etdi kimi.

Sevinc Arzulu

**Qem**

QEM  PIÇILTISI

Yalan sözle yar tovlanmaz,
Bir baxışdan qelb ovlanmaz.
Daha bir de alovlanmaz,
Közünde nem pıçıltısı.

Yağış ferehi isladar,
Külek derdini pasladar.
“Sevirim” deyir astadan,
Sözünde bem pıçıltısı.

Ayrı düşüb öz elinden,
Yaman üzür derd selinde.
“Xoşbextem”-deyir dilinde,
Gözündə qem pıçıltısı.

Sevinc Arzulu

**Qem  pıçıltısı**

QEM  PIÇILTISI

Yalan sözle yar tovlanmaz,
Bir baxışdan qelb ovlanmaz.
Daha bir de alovlanmaz,
Közünde nem pıçıltısı.

Yağış ferehi isladar,
Külek derdini pasladar.
“Sevirim” deyir astadan,
Sözünde bem pıçıltısı.

Ayrı düşüb öz elinden,
Yaman üzür derd selinde.
“Xoşbextem”-deyir dilinde,
Gözünde qem pıçıltısı.

Sevinc Arzulu

**Qem arayım**

Hanı məndə o ağıl, o fərasət
Hicran ilə edə idim ticarət.
Birdən-birə tikilməz ki imarət,
Pillə-pillə ucalar qəlb sarayım.

Buğda iyi duz-çörəkdən gəlmirsə,
Həsrət təri düz kürəkdən gəlmirsə
Inan, gülüm, sidq-ürəkdən gəlmirsə,
Təsir etməz kimsəyə qəlp harayım.

Qartal uçan zirvələri sar aşmaz,
Həsrət dağın tək-təkcənə yar aşmaz.
Ay əzizim, bilirsən heç yaraşmaz,
Bu yaşımda dərd gəzim, qəm arayım.

Sevinc Arzulu

**Qem çekib**

Kim duya bilər ki həyacanımı,
Ağrılı, həm də ki şirin anımı.
Şüası isitməz soyuq canımı,
Günəş də mənim tək deyən qəm çəkib.

Küləyin işinə meh qarışmayır,
Işvə-naz satıram,heç alışmayır,
Əbədi küsübdür, eh, barışmayır,
Vüsalın özü də deyən nəm çəkib.

Ağrını-acını çox görüb qədər,
Ayları-illəri verməyib hədər.
Bəxtimə yazıbdır bolluca kədər,
Bal kimi gülüşü deyən kəm çəkib.

Sevinc Arzulu

**Qem dumanında**

Vüsalım  hicranın nuşu.
Başdan alıb ağılı,huşu.
Qanad çalmaz könül quşu,
Həsrətin asimanında.

Bu acılar dözülməz ki,
Bağlı kələf çözülməz ki.
Dost-düşmən kim, sezilməz ki,
Könlümün qəm dumanında.

Dərddən tonqal qalanar hey,
Üstümə od calanar hey.
"Segah"la "Şur" çalınar hey,
Ayrılığın kamanında.
03.12.2018

Sevinc Arzulu

**Qem elendi**

Bu imiş tale naxışı,
Yağdı dərd-möhnət yağışı.
Tez gəldi ömrün sərt qışı,
Yer-göy ağ qara bələndi.

Sənsizlikdən qəlb nəm çəkdi,
Sevinc,fərəhi kəm çəkdi.
O qədər qüssə-qəm çəkdi,
Gözüm altı kölgələndi.

Quru qazdım,yaşa çıxdı,
Dəniz suyu başa çıxdı.
Ümidlərim boşa çıxdı,
Xoş günlər geri gələndi?!

Qəm göydə şimşək tək çaxar,
Odu qəlbi yaxar,yaxar.
Göz yaşlarım axar,axar
Ayrılıq ürək dələndi.

Həsrət qaldım sevən yara,
Xatirələr yetməz kara.
Ağ buludlar geydi qara,
Göydən yerə qəm ələndi.

Sevinc Arzulu

**Qem küleyi**

Ele bildim naşı olar,
Lal qayamın daşı olar.
Gözlerimin yaşı olar,
Hardan esir qem küleyi?

Könlüm başı sızıldayar
Damcı düşse cızıldayar.
Yeni neğme mızıldayar,
Hardan esir qem küleyi?

Sanırdım bir qerib gelib,
Qanadını gerib gelib.
Derd dünyasın görüb gelib,
Hardan esir qem küleyi?

Sözlerinden duz tökülmez,
Yalanından düz tökülmez.
Qaraqabaq, üzügülmez
Hardan esir qem küleyi?

Güneşinin köksü qara,
Güleşinin reqsi qara.
Ateşinin eksi qara,
Hardan esir qem küleyi?

Sevinc Arzulu

**Qem notuna köklenib**

Daha xoş xəyala az-az dalıram,
Qüssədən kədərə körpü salıram.
Sən yada düşəndə donub qalıram,
Yeriyə bilməyir şeir köhlənim.

Dünyanın qəmini qəlbdə tək daşı,
Itibdir üzüyün firuzə qaşı.
Bəs nədən axmayır gözümün yaşı,
Əzabmı azalıb, dərdmi köhnəlib.

Bu fani dünyanı etmədim seyr,
Bir acı sevdadan görmədim xeyr.
Mənimtək kövrəkdir yazdığım şeir,
Qəlbim ancaq qəm notuna köklənib.

Sevinc Arzulu

**Qem odası**

Bircə anda doyulacaq,
Ancaq tamı duyulacaq.
Ləpələrdən yuyulacaq,
Məhəbbətin qum adası.

Vüsaldan vaz keçilməz ki,
Qüssə dərddən seçilməz ki.
Al rəngdədir, içilməz ki,
Göz yaşlarım qan dadası.

Çətin ki yalan düz ola,
Bir acısı on, yüz olar.
Içi şaxtalı, buz olar,
Könül evim qəm odası.

Sevinc Arzulu

**Qem olub**

Nədən bilmirəm,ey gül,mənə dost tək qəm olub,
Bunca ömür sürmüşəm mən, fərəh-şadlığım kəm olub.
Başımın üstündə hey şimşək çaxıb,yağış yağıb,
Alagöy didələrim qurumayıb heç,nəm olub.

Intizar günlərində üzüm Tanrıya tutmuşam,
Özümü,özlüyümü əbədiyyən unutmuşam.
Kim deyir nakam eşqi xəyaldan ucuz tutmuşam
Içimdə ağlamaqdan səsim tutulub,bəm olub.

Saxtalar parçalanar,izlər görünər həqiqi,
Günəşin al zərrəsi parıldatmaz daş əqiqi.
Qaçıban uzaqlaşar məndən necə də rəfiqim,
Qəlbimin qəm günündə tək ayrılıq həmdəm olub.

Sevinc Arzulu

**Qem olub qezel**

Nədən bilmirəm,ey gül,mənə dost tək qəm olub,
Bunca ömür sürmüşəm mən, fərəh-şadlığım kəm olub.
Başımın üstündə hey şimşək çaxıb,yağış yağıb,
Alagöy didələrim qurumayıb heç,nəm olub.

Intizar günlərində üzüm Tanrıya tutmuşam,
Özümü,özlüyümü əbədiyyən unutmuşam.
Kim deyir nakam eşqi xəyaldan ucuz tutmuşam
Içimdə ağlamaqdan səsim tutulub,bəm olub.

Saxtalar parçalanar,izlər görünər həqiqi,
Günəşin al zərrəsi parıldatmaz daş əqiqi.
Qaçıban uzaqlaşar məndən necə də rəfiqim,
Qəlbimin qəm günündə tək ayrılıq həmdəm olub.

Sevinc Arzulu

**Qem pıçıltısı**

Yalan sözle yar tovlanmaz,
Bir baxışdan qelb ovlanmaz.
Daha bir de alovlanmaz,
Közünde nem pıçıltısı.

Yağış ferehi isladar,
Külek derdini pasladar.
“Sevirem” deyir astadan,
Sözünde bem pıçıltısı.

Ayrı düşüb öz elinden,
Yaman üzür derd selinde.
“Xoşbextem”-deyir dilinde,
Gözünde qem pıçıltısı.
1.09.2013

Sevinc Arzulu

**Qem qaynayar**

Həsrət yallısına süzsəm,
Tacıma dərd qaşı düzsəm,
Ayrılığın gülün üzsəm.
Içimdə bir qəm qaynayar.

Yol açıqdır keçmək üçün ,
Bu dünyadan köçmək üçün.
Əcəl çayı içmək üçün,
Ölüm otu kəm qaynayar.

Ömrün-günün bu çağında,
Bir qara nur var ağında.
Təkcə cavanlıq bağında,
Bir bulaq zəm-zəm qaynayar.

Sevinc Arzulu

**Qem tufanı**

Tərsə axmaq istərəm,
Aya  baxmaq istərəm.
Göyə qalxmaq istərəm,
Kim tutar nərdivanı.

Üstündən gün adladı.
Yerin bağrı çatladı.
Bomba-atom partladı,
Zəhərlədi havanı.

Dağ zirvəsi qarlanar,
Qaldıqca da xarlanar.
Dünya tərsə fırlanar,
Başlanar qum tufanı.

Sevinc Arzulu

**Qem yarışarmı**

Duyğularım olubdur cəm,
Yarı sevinc, yarı da qəm.
Biz ayrılsaq dünya-aləm,
Bir-birinə qarışarmı?

Dərdi- qəmdən ucuz nə var.
Kədər alan çox uduzar.
Yerdə küsən cüt ulduzlar,
Uca göydə barışarmı?

Haqqı-sayım var boynunda,
İlan bəsləmə qoynunda,
Çərxi-fələyin oynunda,
Fərəhlə qəm yarışarmı?

Sevinc Arzulu

**Qem yelkeni**

Güneş hele oyaqdımı,
Üzündeki boyaqdımı.
Tekce bizim qayıqdamı
Derd avarı, qem yelkeni?

Könül sevinc aldırammır,
Ferehe yol saldırammır.
Baş denizçi qaldırammır,
Göz yaşımdan nem yelkeni.

Laylay desem qüsse uyar,
Ęl-üzünü buzla yuyar.
Ümidimi verdim suya,
Yaraşıqlı, kem yelkeni.

Sevinc Arzulu

**Qemden savayı**

Gözümdə göz yaşı dayanmaz daha,
Qəlbimdə məhəbbət oyanmaz daha.
Təbiət min rəngə boyanmaz daha,
Bir  kimsəm yox mənim qəmdən savayı.

Üzümə gülənin üzünü gördüm,
Beşini, onunu,yüzünü gördüm.
Güzgüdə ölümün özünü gördüm,
Nə artdı saçımda dəndən savayı.

Həsrətindən bağrım olubdur şan-şan,
Ülkər ulduzuyam göydə sayrışan.
Seyincəm, gəzirəm halı pərişan,
Dərdimə kim yanar səndən savayı.

Sevinc Arzulu

**Qemi kimi**

Aran olmaz yaylağım,
Qurumaz söz çaylağım.
Mənim şeir oylağım,
Münbitdir zəmi kimi.

Qələmimi götürdüm,
Hislərimi ötürdüm.
Özümü tez yetirdim,
Lap Nuhi-gəmi kimi.

Göydən yerə endirər,
Atəşimi söndürər,
Ürəyimi dondurar,
Dünyanın qəmi kimi.

Sevinc Arzulu

**Qemin  kem**

Dönmüşüm lal qonağa,
Tuş gelmişim qınağa.
Hey çekirsin sınağa,
Dünya, senin qemin kem.

Hesretden oxuyarsan,
Gül-qefes toxuyarsan.
Az keçmez yox olarsan,
Derya, senin nemin kem.

Derd etri var tüstünde,
Qem sezilir büstünde.
Bir ot bitmez üstünde,
Qaya, senin zemin kem.

Ben bir evin xanımı,
Derd isitmez qanımı.
Göster gözel anımı,
Röya, senin demin kem.

Toy mağarı qurulsun,
Qelb ferehle qoy dolsun.
İsteyirim, qoy olsun,
Riya, senin kemin kem.

Sevinc Arzulu

**Qemin bucağında**

Qızlar çöldə qu tək süzür,
Tellərinə çiçək düzür.
Buludlar içində üzür,
Çölüm, çənin bu çağında.

Xəbər aldım lap indicə,
Gündüz gəlir, gedir gecə.
Sevincimi axı necə ,
Bölüm qəmin bucağında.

Qalmasın bülbül qəfəsdə,
Düşməsin eşqdən, həvəsdən.
Ana, qayıt son nəfəsdə,
Ölüm sənin qucağında.
30.11.2017.

Sevinc Arzulu

**Qemin Kem**

Dönmüşüm lal qonağa,
Tuş gelmişim qınağa.
Hey çekirsin sınağa,
Dünya, senin qemin kem.

Hesretden oxuyarsan,
Gül-qefes toxuyarsan.
Az keçmez yox olarsan,
Derya, senin nemin kem.

Derd etri var tüstünde,
Qem sezilir büstünde.
Bir ot bitmez üstünde,
Qaya, senin zemin kem.

Ben bir evin xanımı,
Derd isitmez qanımı.
Göster gözel anımı,
Röya, senin demin kem.

Sevinc Arzulu

**Qemin keşiyinde**

Açı xəyala dalıram,
Çiçəkdən naxış salıram.
Yerimdə donub qalıram,
Həsrətindən üşüyəndə.

Yel tək çapa bilmirəm ki,
Bir iş yapa bilmirəm ki
Cavab tapa bilmirəm ki,
Ayrılıq söz döşüyəndə.

Dar yolları yorursanmı,
Sarı çələng hörürsənmi,
Ayrılığı görürsənmi,
Durub qəmin keşiyində.
01.01.2018

Sevinc Arzulu

**Qerib  deyilim**

Qüsse,keder yaşar sisde,
Tek sen benden fereh iste.
Öz elimle qebrim üste,
Gül-çiçek serib gedirim.
Ana,ben qerib deyilim.

Hicran keçer gül düzünden,
Ayrılığın gündüzünden.
Sene mavi göy üzünden,
Ulduzlar derib gedirim.
Ana,ben qerib deyilim.

Kesilmeyen herb-qovğayam,
Hesretine ben doğmayam.
Üstüme gelen dalğaya,
Sinemi gerib gedirim.
Ana,ben qerib deyilim.

Sevinc Arzulu

**Qerib düşen könlüm**

Sevgin ömrə qida imiş.
Bir həyata nida imiş.
Bu baxış son vida imiş,
Mənim qərib düşən könlüm.

Duy həyatı indi barı,
Telin dağın bəyaz qarı.
Itirmisən nakam yarı,
Mənim qərib düşən könlüm.

Fərəh yaraşır harama,
Tanrı,əlac et yarama.
Düşməniçrə dost arama,
Mənim qərib düşən könlüm.

Dərd qəlbin həmdəmi imiş,
Sonu hicran dəmi imiş.
Sinirin daş-dəmir imiş,
Mənim qərib düşən könlüm.

Geri dönməz ötən günün,
Ona çatmaz səsin,ünün.
Qəmlə keçər toy-düyünün,
Mənim qərib düşən könlüm.

Sevinc Arzulu

**Qerib gedirim**

Gülüm.güclü əsir hicran küləyi,
Həsrətə sinəni gərib gedirəm.
Yaman uzaq düşdü vüsal mələyi,
Onunçun ai güllər sərib gedirəm.

Kədərdən qaralar bəyaz tülümüz,
Bir də alışmaz ki ,soyuq külümüz.
De,nədən açmadı murad gülümüz,
Qəm bağından çiçək dərib gedirəm.

Əğyarın gözləri heç nəm olmadı,
Sevinc fərəh ilə heç cəm olmadı.
Bir kimsə qəmimə həmdəm olmadı,
Qəriban gəlmişəm,qərib gedirəm.

Sevinc Arzulu

**Qerib külekler**

Yağışdan ayrılıb qara gedirlər,
Geyinib tül kimi xara, gedirlər.
Haradan gəliblər, hara gedirlər,
Zamanın özü tək qərib küləklər.

Xəbər göndərərlər qovaqlar ilə,
Gələr yağış-qar tək qonaqlar ilə.
Tökülən sapsarı yarpaqlar ilə,
Çölə qızıl xalı sərib küləklər.

Gah sola boylanar, gah da ki sağa,
Qoymaq ki səmadan od-alov yağa.
Bağbandan iznsiz girib də bağa,
Meyvənin yaxşısın dərib küləklər.
14.02.2015

Sevinc Arzulu

**Qerib mezar**

Yolumun üstünde bir qerib mezar,
Sakitce boylanır etrafa sarı.
Etmeyir kimseden heç giley-güzar,
Baş çekek arada biz ona barı.

Amansız davaya şahid oldu o,
Türk esger ömrüne anında qıydı.
Bizim yolumuzda şehid oldu o,
En şirin.müqeddes canın da qıydı.

Emr oldu-”Alınsın düşmen qalesi”,
Tez qalxdı ayağa,”yox”da demedi.
Deydi sinesine namerd güllesi,
Bir defe dillenib “ox”da demedi.

Qebri etrafına gül-çiçek ekek,
Onun son menzili gülüzar olsun.
Bu tenha mezarın qayğısın çekek,
Daim etir saçan bir gülzar olsun.

Bütün şehidlerin qedrini bilek,
Her şeirde,neğmede onları anaq.
Tanrıdan onlara rehmet dileyek,
“Şehidler yaşayır bizimle”-sanaq.

Sevinc Arzulu

**Qerib xatiren**

Qəlbimiz qəm-kədər yığnağı olub.
Sevgimiz el-oba qınağıı olub.
Tanrının əbədi qonağı olub,
Ən gözəl çiçəyi dərib xatirən.

Nə vaxtdır batmışam yasa.,bilmirəm
Həsrəti boğazdan asa bilmirəm.
Üstünə ayaq da basa bilmirəm,
Yerə qara xalı sərib xatirən.

Eh, neçə illərdir susub da dinmir,
Vüsalın yolunu pusub da dinmir.
Dostdan-aşinadan küsüb də dinmir,
Elə özün kimi qərib xatirən.
07.07.2015

Sevinc Arzulu

**Qeribe gedirem**

Hayana baxırsan kədərdi, qəmdi
Alagöz gözəlin gözləri nəmdi.
Dəyişik salmışam yenə də səmti,
Üz  tutuban Şimal-Qərbə gedirəm.

Sevən könül sevdiyindən nurlanar,
Bir tərəfdə Ay Günəşdən nur alar.
Bir tərəfdə uçan boşqab fırlanar,
Gördüklərim çox qəribə, gedirəm.

Gərək neçə sərhəd keçim, post aşım
Əzizimlə bayramlarda tostlaşım.
Ey insanlar, sizin ilə dostlaşım
Yoldaş olun mən qəribə, gedirəm.

Sevinc Arzulu

**Qetiyyetim**

Bumudur taleyin günahı, suçu,
Neden xoş günlerin burulub puçu.
Vüsalın nuruna öyreşen üçün,
Ağırdır hesretin hakimiyyəti.

Alıbdır elimden alagöz  yarı,
Uzaqdan görmeye lütf etsin barı.
Heç yaxşı demirler ezazil xarı,
Bizi ayırmaqdır fikri, niyyeti.

Xar ile yarımın arasın vuram,
Çin sedde benzeyen lay divar quram.
Sözümün üstünde möhkemce duram,
Dostlara xoş geler bu qetiyyetim.
18.10.2018

Sevinc Arzulu

**Qeyb olan iller**

Qelbime tuşlanan min oxa döndü,
Kederim hey artdı,lap çoxa döndü.
Heçlikde eridi, bir yoxa döndü,
Seninle birlikde qeyb olan iller.

Güneştek zirveden enmeyecekdir,
Könülde od-ateş sönmeyecekdir.
Bir daha geriye dönmeyecekdir,
Seninle birlikde qeyb olan iller.

Üzüme hesretle baxıb gedibdir,
Ayrılıq üzüyün taxıb gedibdir.
Kür kimi denize axıb gedibdir,
Seninle birlikde qeyb olan iller.

Duman yene dağdan asılı qalıb,
Qar yağıb,buz yollar kesili qalıb.
Benimle ömürlük küsülü qalıb,
Seninle birlikde qeyb olan iller.

Sen getdin,sevinc de beni terk etdi,
Eynime qem qarın soyuq kürk etdi.
Deyen hamıdan çox bana erk etdi,
Seninle birlikde qeyb olan iller.

Sevinc Arzulu

**Qeybe  çekilib**

Boynuma zencirin taxmayacağam,
Göyünün üzünde çaxmayacağam.
Deyib ya deymeyib,baxmayacağam,
Hesretin bağında meyve ekilib,

Neden ben olmuşam eşqine qemxar,
Sadelövh çiçekler yamaca qalxar.
Göresen günahın bilecekmi xar,
Gözünün önünde tövbe şekili.

Qalxdığım zirveden enmeyirim ki,
Hicranı görende sinmeyirim ki.
Donub da qalmışam,dinmeyirim ki,
Sozümün bulağı qeybe çekilib.

Sevinc Arzulu

**Qığılcım**

QIĞILCIM

Üstümə tökülən qığılcımınla,
Bilmirəm heç nədir fikrin, niyyətin.
Yarıb da qəlbimi qəm qılıncınla,
Allaha bağlımı zikrin, niyyətin.

Həsrətin qapımı döydü qəfildən,
Sevdalı könlümdə lal külək əsdi.
Nələr əsirgəyim mən bu səfildən,
Ağrıyıb sıxılma,ay ürək, bəsdir.

Qızaran üfüqə dikilən gözlər,
Nə vaxtsa yorulub sıxılacaqdır.
Lazımsız zamanda deyilən sözlər,
Elə öz-özündən yıxılacaqdır.

Yenə də əvvəlki səliqə-səhman,
Üstünə zərrəcə toz belə qonmaz.
Işini astaca görəcək zaman,
Soyuq baxışlardan üşüməz, donmaz.

Dünyanın qəribə əyyamı gəlib,
Bir az utancağıq, bir az da çılğın.
Deyən son görüşə ,eh, hamı gəlib,
Bir az sərt baxarıq, bir az da dalğın.
29.04.2018

Sevinc Arzulu

**Qırx yaşa qaldım**

Mən ömür yolunda atımı çapdım,
Bilmədim sənincün qırılmış sapdım.
Fərəhi itirdim, kədəri tapdım,
Yenə də dərdimlə baş-başa qaldım.

Mas-mavi səmada çaxmazdım belə,
Hər yetən könülə axmazdım belə.
Dövlətə gözucu baxmazdım belə,
Yalandan parlayan daş-qaşa qaldım.

Bir acı kəlmədən sıxılar Sevinc.
Kənar, yad baxışdan yıxılar Sevinc.
Toplanmaz, həmişə çıxılar Sevinc.
Axırda dirəndim, qırx yaşa qaldım.

Sevinc Arzulu

**Qısa olacaq**

Yene başın qarışıqdır,üreyim
Tıqqıltıya alışıqdır üreyim.
Kederine sarmaşıqdır üreyim,
Bilirdim ki sonda nese olacaq.
Bu  sevdanın ömrü qısa olacaq.

Xeste könlün al riyanı seçecek,
Qara gözün lal röyanı seçecek.
Deli ruhum bal dünyanı seçecek,
Heqiqetin yolu kese olacaq.
Bu  sevdanın ömrü qısa olacaq.

Gülüşümü söz edecek sevdiyim
Ateşimi köz edecek sevdiyim.
Çevriliben tez gedecek sevdiyim,
Vüsalının üzü terse olacaq.
Bu  sevdanın ömrü qısa olacaq.

Sevinc Arzulu

**Qış qışlayacaq**

Həyat al gülləri dayaz əkəcək,
Üstünə əlini ayaz çəkəcək.
Üzümə -gözümə payız çökəcək,
Qəlbimdə əbədi qış qışlayacaq.

Ürəyim yuxadan nazik olacaq,
Bir azca ovulub əzik olacaq.
Qiyməti bilinməz üzük olacam,
Təbiət zərgər tək qaş qaşlayacaq.

Lal klönlüm dərd-qəmə əcəb nişangah,
Olanlar –ötənlər muğamat, Segah.
Bu dünya əzəldən güllü seyrangah,
Mələklər ov edib quş quşlayacaq.
28.03.2013

Sevinc Arzulu

**Qızğın olma**

Hər gün, hər saat anıram,
Həsrət odunda yanıram.
Mən səni qartal sanıram,
Iti dimdik quzğun olma.

Yeganəsən, yox bənzərin,
Dalğalansın göy Xəzərin.
Sərrasr olsun qoy nəzərin,
Baxışları süzgün olma.

Çay unutmaz mənsəbini,
Boğ hirsini, əsəbini.
Öyrən işin səbəbini,
Gəl bu qədər qızğın olma.

Sevinc Arzulu

**Qızıl balığın nağılı**

QIZIL BALIĞIN NAĞILI

Gözlerim dünyanın mey güzarında,
Ruhum serxoş oldu,göyüne çatdı.
Bir gün de ayılıb dan qızaranda,
Torumu xeyalın gölüne atdım.

Dedim belke tutam bir qızıl balıq,
Arzumu anında hasil eylesin.
Derdli üreyime acıyan xalıq,
Seni yer üzünde nazil eylesin.

Yene evvelkitek tutaq el-ele,
Qaçışaq körpece uşaqlar kimi.
Ildırım da çaxsa,qopsa zelzele
Sayrışaq rengbereng işıqlar kimi.

"Güneşim"-söyledim,Ayıma döndün,
Nurun çickin kimi serdin üstüme.
Sen benim elçatmaz payıma döndün,
Bulud tek qanadın gerdin üstüme .

Ne ben nağılçıyım,ne sen dinleyen
Heyf,tükü tükden seçemmedik biz.
Benim üreyimdir neyde inleyen,
Hesretin daş seddin keçemmedik biz.

Bizim aramızı hören ayrılıq,
Ne bilir quruca daş da ne çekir.
Vüsalın gelişin gören ayrılıq
Ayaqda şen olur,başda qem ekir.

Heyf,tutammadım qızıl balığı,
Çetin ki arzular bir de çin ola.
Dünyanın bu oldu bene qalığı,
Yaşam günlerimin sayı min olar.

Sevinc Arzulu

**Qızıl payız**

Durum ayağına qızıl payızın
Eyilib sarışın zerinden öpüm.
Mehebbet çölünde qalan yalqızım,
Elece alnının terinden öpüm.

Girmisen heyatın dar dalanına,
Qayıdıb çıxmağa yolun da yoxdur.
Aldandın zamanın kar yalanına,
Heqiqet sağında, solunda yoxdur.

Astaca seslener şur damcıları,
Üreyin aheste döyüner senin.
Töküler yağışın gur damcıları,
Bulud göz yaşıyla öyünər yeni?
10.03.2018

Sevinc Arzulu

**Qızım**

Eh, neler var başında,
Qara qelem qaşın da.
Durma bulaq başında,
Teli söyüdü qızım.

Yoxdur ki eziyyeti,
Çoxdur ki meziyyeti.
Dinlemir nesiheti,
Sevmir öyüdü, qızım.

Odur iki gözüm de,
Söhbetim de, sözüm de.
Bilmirem ki özüm de,
Ne vaxt böyüdü qızım.
04.04.2018

Sevinc Arzulu

**Qızıma**

Üzünü-gözünü bezeyen ağ nur,
Geydiyin gelinlik donundan düşüb.
Kim deyir ferehin göz yaşı olmur,
Eh,öten günler gör nece ötüşüb.

Qapıdan çıxanda boylandın geri,
Gözünde bir damci yaş parıldadı.
Ata ocağında görüner yerin,
Tacına taxdığın qaş parıldadı.

Başından düşmesin xoşbextlik tacın,
Olmasın ömründe ne keder, ne qem.
Yağışla yuyulsun her ağrın-acın,
Üzüne açılsın sehrli alem.

Çalınır "Vağzalı", ağlayıram men,
Atan da sakitce sükuta dalıb.
Hesretin yolunu bağlayıram men,
Qelbimi hicranın qorxusu alıb.

Keçir göz önünden kinolent kimi,
Şirin körpeliyin,uşaqlıq çağın.
Eline toplayıb qezebi, kini
Hüner gösterdiyin qoçaqlıq çağın.

Böyüdün, gülerüz periye döndün,
Doğma yurdumuzun gözeli oldun.
Bir gün de "yox"sözün "heri"ye döndü,
Ananın şeiri, qezeli oldun.

Men size xoşbextlik, qızım,dilerem
Süresen erinle bextever ömür.
Heyat yoldaşını oğlum bilerem,
Alova çevrilen mehebbet ölmür.

Oğlunun, qızının elinden tutub,
Bir zaman gelersen sen evimize; .
Kederi.qüsseni artıq unudub,
Körpeler sesinden şen evimize .

Yığılar başıma bütün neveler,
Senin, qardaşının şen körpeleri.
Şeirli, nağıllı olar neneler
Onlar meni sever, men körpeleri.

Yarebbim, sen meni arzuma yetir,
Şirin ümidlerim gerçeye dönsün.
Özünle , ay ilim, toy-nişan getir
Hesretin işığı, ziyası sönsün.

Sevinc Arzulu

**Qızıma şeir**

Bele getirdi baxtım,
Geldi qocalıq vaxtım.
Qardaşın şahlıq taxtım,
Sen başımın tacısan.

Şen közümün işığı,
Den dözümün işığı
Sen gözümün işığı,
Qardaşına bacısan.

Zirveye ucalıram,
Felekden bac alıram.
Il-ilden qocalıram,
Bir halıma acısan.
16.10.1018

Sevinc Arzulu

**Qoca dünya ve ben**

Seyahet eyledim qoca dünyanı,
Gördüm yaxşısından yamanı çoxdur.
Ziyaret eyledim uca dünyanı,
Sordum söz demeye zamanı çoxmu.

Bembeyaz saqqalın tumarladı da,
Bir qeder dayandı,bir qeder durdu.
Qarışıq fikrini hamarladı da,
Şıltaq uşaq kimi bene göz vurdu.

Dedi senin kibi gözel qadına,
Kelbimin sirrini nece açmayım.
Inan,yaraşırsan özel adına,
Xetrine ben nece işıq saçmayım.

Neynim.zemanenin özü qedimdir,
Benimle hemyaşıd,benimle tendir.
Qedim ataların sözü qedimdir,
Gözünü açdığın torpaq-Vetendir.

Anlayın Vetenin ehtiyacını,
Sevib ezizleyin,bilin qedrini.
Silin üzündeki ağrı-acını,
Yox edin gözüne çökmüş derdini.

Bilirim,Veteni seven qehreman
Onu yad yağıdan geri alacaq.
Qelebe mahnısı çalınan zaman,,
Beyaz quşa dönüb qanad çalacaq.

Qoruyun Veteni qarı düşmenden,
Nurlu gözünüzün qarası olsun.
Qoruyun Veteni geri düşmeden.
Alınmaz heqiqet qalası olsun.

Sevinc Arzulu

**Qocaldıq**

(Emrah Neroğlunun “Qocaldıq”
türküsüne cavab)
Deyen yene pencereden daş gelir,
Ala gözden xumar-xumar yaş gelir.
Iller ötür, yaş üstüne yaş gelir,
Istemeden özümüz de, qocaldıq.

Dünyamızı gezib eyledik seyr,
Gözelliye daha çox saldıq meyl.
Bilirem ki bitib-tükenen deyil,
Söhbetimiz-sözümüz de, qocaldıq.

Intizar qalmasın heç arzu, dilek,
Yoxsa çetin dözer hesrete ürek.
Gece de, gündüz de hey esse külek,
Alıışmaz ki közümüz de, qocaldıq.
Şebnem donar gözümüzde, qocaldıq.
27.03.2018

Sevinc Arzulu

**Qocalığım**

Qar nənə tək dağdan enir.
Ağir-ağir qocalığım.
Susur,danışıb dinməyir,
Fağır-fağır qocalığım.

Vəfalıdır mənə yar tək,
Ömrə gələr son bahar tək.
Hey başıma soyuq qar tək,
Yağır,yağır qocalığım.

Həsrət qaldım al köynəyə,
Qüssədən qəlbim göynəyər.
Darda gəncliyi köməyə,
Çağır,çağır qocalığım.

Ala gözü daim nəmli,
Qar ovqatlı,şaxta dəmli.
Gəncliyin dalınca qəmli,
Baxır,baxır qocalığım.

Sevinc, oda alış,yan tək,
Ötən ömrün getdi an tək.
Damarımdan qızıl qan tək,
Axir,axır qocalığım.

Sevinc Arzulu

**Qocalığın qeddi**

Qaşını oynadıb lalca danışar,
Qırmızı geyinib alca danışar,
Ayrılıq yene de dalca danışar.
Izn ver,bildirim ona heddini.

Indi de deb düşüb döyüşsüz qayda,
Yoxsa ki savaşdan bize ne fayda.
Vüsal o taydadır,bense bu tayda,
Kim nece keçecek bu Çin seddini.

Heqiqet yalanın donunda gedib,
Mehebbet misranın sonunda gedib.
Benim cavanlığım onunla gedib,
Onun qocalığı eyib qeddini.

Sevinc Arzulu

**Qocalırıq**

İndi şəklinə baxıram,
Dərdi yandırıb yaxıram.
Sənin üçün darıxıram,
Ayağına dəyməsin daş,
Qocalırıq yavaş-yavaş.

Yaşımız olur əlli beş,
Bəxtə düşdümü qoşa şeş.
Öləziyir yanan atəş,
Ötən günlər dönəydi kaş,
Qocalırıq yavaş-yavaş.

Nəvələr də böyüyür bax,
Fərəhlə açılsın sabah.
Köməyimiz olsun Allah,
Özü üçün bacı-qardaş,
Qocalırıq yavaş-yavaş.
11.05.2017

Sevinc Arzulu

**Qocalmışam daha**

Bağımda bülbül uçmayır,
Arzularım gül açmayır.
Kədər məndən yan qaçmayır,
Dünya mənə zindan,kaha.
Demək qocalmışam daha.

Qaranlıqdır hər səhərim,
Yoröun düşüb boz kəhərim.
Didir qəlbimi qəhərim,
Dözmürəm naləyə,aha.
Demək qocalmışam daha.

Çoxalıbdır dərdi-sərim,
Azalmayır alın tərim.
Kömək etmir ilham pərim,
Şeir yazmaq gəlir baha.
Demək qocalmışam daha.

Sevinc Arzulu

**Qocalt meni**

Həsrətdən olmuşam tox,
Vüsala demərəm yox.
Aşağıda yerim yox,
Zirvəyə ucalt məni.

Parlar üzüyün qaşı,
Axmaz gözümün yaşı.
Heç vaxt eyləmə naşı,
Hər işdə bacart məni.

Ver bir aman, öldürmə,
Gözəl zaman, öldürmə.
Nolar, cavan öldürmə,
Allahım, qocalt məni.

Sevinc Arzulu

**Qoçağım**

Qəmi dondura bilməm,
Dərdi sındıra bilməm.
Bir də yandıra bilməm,
Közü sönmüş ocağı.

Ürəyimdə him yeri,
Sinəm üstdə sim yeri.
Qaytaracaq kim geri,
Uçub gedən o çağı.

Qışda, sazaqdasan sən,
Torda, duzaqdasan sən.
Yaman uzaqdasan sən,
Ay igidim, qoçağım.

Sevinc Arzulu

**Qonağa meni**

Köynək geydim,qəm göynədən
Kədər içdim diş göynədən.
Ulu Tanrım,bilməm nədən
Sən çəkdin sınağa məni.

Qocayam,eşməm yanımda,
Ağacam,çeşməm yanımda.
Dost ilə düşmən yanında,
Tuş etmə qınağa məni

Taxtlı gəlib taxtsız gedən,
Baxtlı gəlib baxtsız gedən,
Vaxtlı gəlib vaxtsız gedən
Döndərmə qonağa məni.

Sevinc Arzulu

**Qonaq gelecek**

Üzün qəm suyuyla yuyub,
Həsrətin felinə uyub.
Axır öz səhvini duyub,
Deyən qədrimi biləcək.
Yar bizə qonaq gələcək.

Samovarım cızıldayır,
Həzin nəğmə mızıldayır.
Könül yaram sızıldayır,
Gözüm yaşını siləcək .
Yar bizə qonaq gələcək.

Bu sevdamız düşər dilə,
Qiymətimi barı bilə.
Daha gəzməz əğyar ilə,
Mənimlə deyib-güləcək .
Yar bizə qonaq gələcək.

Sevinc Arzulu

**Qonşum**

Məni çox kövrəltdi sənin sözlərin,
Ömrün uzun olsun ay əziz qonşum.
Ölümdən danışsan dolar gözlərin,
Könlü saf, niyyəti pak, təmiz qonşum.

Dilində Tanrıya duan, şükrün  var,
Eh, neçə niyyətin, neçə zikrin var.
Hələ söylənəcək gözəl fikrin var,
Qəlbində duyğular gur dəniz, qonşum.

Payız-qış ötüşər, yaya yetərsən,
Günəşə çatarsan, aya yetərsən.
Çətinə düşəndə haya yetərsən,
Axı neynəyərik biz sənsiz, qonşum.
23.11.2017

Sevinc Arzulu

**Qoruyub**

Kədər məndən gen qaçmayır,
Fərəh qəlbə nur saçmayır.
Vüsal pərisi uçmayır,
Tənhalıqdan qarıyıb.

Nə çəkirəm kimsə bilməz,
Seyrə çıxsam qəlbim gülməz.
Qızılgülün ətri gəlməz,
Çünki kolu quruyub.

Kədər çayı coşub daşar,
Yenə də sərhəddi aşar.
Xatirələr qəlbdə yaşar,
İllər onu qoruyub.

Sevinc Arzulu

**Qorxunu**

Narı gülöyşə göndər
Etginən peşə göndər.
Mənə bənövşə göndər
Hiss eləyim qoxunu.

Rastlaşmayaydıq gərək,
Gəldin, əlində çiçək
Bircə dəstə ver görək,
Neynəyirəm çoxunu.

Qonaq gələr hər gecə,
Kimsəni  almaz vecə.
Heç bilmirəm ki necə,
Uzaq tutum  qorxunu.

Həsrətimlə barışma,
Qəm oduna alışma.
Gizlətməyə çalışma,
Gözlərindən oxunur.

Xarı seçib getməyin,
Ona köçüb getməyin,
Yad tək keçib getməyin
Ürəyimə toxunur.
12.12.2017

Sevinc Arzulu

**Qoşa beş**

Dərsdən aldığım beşlər,
Qeydə qaldığım beşlər,
Meyl saldığım beşlər,
Indi qoşa gəlmisiz.

Dayanmısınız məğrur,
Yenə başdadır gürur.
Gətirin mənə uğur,
Yaman coşa gəlmisiz.

Döyməyin gözünüzü,
Deyin qəlb sözünüzü.
Göstərin özünüzü,
Deməm boşa gəlmisiz.
21.8.2017

Sevinc Arzulu

**Qoşqarı**

Ay gəlinə sirr açan,
Tənhadır həyət-bacan.
Yıxılıb yazıq qocan,
Harayına qoş, qarı.

Ala gözlər dolarmı?
Çiçək vaxtsız solarmı?
De, çovğun tək olarmı,
Yanınaca qoş qarı.

Səyahətə meyl edən,
Işlərini xeyr elə.
Göz dolusu seyr elə,
Babadağı, Qoşqarı.

Sevinc Arzulu

**Qovur meni**

Xəyalım bir yerdə tutmayır qərar,
Sərgərdan küləklər hey qovur məni.
Söyləmə,şənlikdə qalmağa nə var,
Həzin nəğmə çalan ney qovur məni.

Ümidim ağappaq səmənd olsa da,
Fikrim günəş rəngli dəmənd olsa da,
Ahım asimana büləmd olsada,
Saxlaya bilməyir göy,qovur məni.

Qəm məskən salmışdır qara çadırda,
Ədası,işvəsi göz aldadır da.
Içmək istəmirəm,zəhər dadır da
Tale əldə şərab,mey qovur məni.

Sevinc Arzulu

**Qoxlayıram**

Gözlərimdə min bir sual,
Ürəyimdə acı məlal.
Önündəcə duruban lal,
Yaddaşını yoxlayıram.

Yaxşı günlər əldən gedib,
Vüsalına "vida"dedim.
Ayrılığa təəəsüf edib,
"Ax"layıram, "ox"layıram.

Qəm pərisi seçək kimi,
Qan ağlayan ləçək kimin.
Vaxtsız solmuş çiçək kimi,
Xatirəni qoxlayıram.

Sevinc Arzulu

**Qoxulu olur**

Qəlbimdə sevdanın qızıl heykəli.
Ümidlər bir az da ona söykənir.
O qədər gecələr yol gedib-gəlir,
Xəyalım gündüzlər yuxulu olur.

Məni dost bilənə dost oluram mən,
Dərd-qəmi ötürən süst oluram mən.
Yadıma düşəndə məst oluram mən,
Xatirən bənövşə qoxulu olur.

Başımdan məhəbbət qovğası keçir,
Önümdən vüsalın ağası keçir.
Könlümdən etiraz dalğası keçir,
Gördüyüm səhnələr qorxulu olur.
13.12.2017

Sevinc Arzulu

**Qoydu hesretin**

Başım altda qoyub söz balıncını,
Yaramı astaca soydu həsrətin.
Saplayib qəlbimə qəm qılıncını,
Bir anda içimdən oydu həsrətin.

Yolunu gizlicə burdan salıbmış,
Hicranın könlünü ələ alıbmış.
Elə bil neçə il susuz qalıbmış,
Gözümün yaşıyla doydu həsrətin.

O da zalım imiş zəmanə kimi,
Yanıram oduna pərvanə kimi.
Çöllərə salaraq divanə kimi,
Məni nə günlərə qoydu həsrətin.

Sevinc Arzulu

**Qoynunda yatır**

Lal hesret sevenin hansında yox ki,
Zerif kepeneyin "tans"ında yox ki,
Geriye dönmeye şansın da yox ki,
Gümanlar belkeler boynunda yatır.

Kül,barıt qoxusu davaya mexsus,
Boran,qar qorxusu havaya mexsus.
Heresi bir yurda-yuvaya mexsus,
Ümmanlar ölkeler qoynunda yatır.

Sedaqet gözümün qarasıdır ki,
Yağış asimanın parasıdır ki.
Ezizim,dünyanın harasıdır ki,
Zamanlar kölgeler oynunda yatır.

Sevinc Arzulu

**Qoyub gedeceyem xatireleri**

.

Getdiyin yolların üzü bərimi,
Gizlicə söylədim düzü hərimi.
Yayıbdır aləmə dərdi-sərimi,
Qoyub gedəcəyəm xatirələri.

Sanasan soyuqda istimə gəlir,
Qoşun tək hamısı üstümə gəlr,
El-oba yığışıb tüstümə gəlir,
Qoyub gedəcəyəm xatirələri.

Biri o birinin sözünü kəsir,
Dayana bilmirəm, ürəyim əsir.
Əl-qolum bağlıdır, ediblər əsir,
Qoyub gedəcəyəm xatirələri.
01.05.2018

Sevinc Arzulu

**Qoyub gedeceyem.**

Biri o birinin sözünü kəsir,
Dayana bilmirəm, ürəyim əsir.
Əl-qolum bağlıdır, ediblər əsir,
Qoyub gedəcəyəm xatirələri.

Məni keçmişimə heç də bənd etmir,
Acılı bibəri şəkər-qənd etmir.
Pisliyi yaradır, yaxşı vəd etmir.
Qoyub gedəcəyəm xatirələri.

Ağlımı başımdan almır bir daha,
Məni qəm gölünə salmır bir daha.
Könlüm xəyallara dalmır bir daha,
Qoyub gedəcəyəm xatirələri.
11.08.2014

Sevinc Arzulu

**Qubar  azan**

Dağların qarı qaralar,
Bağların bağı saralar.
Veslin menzili daralar,
Ne namerdsen qeder yazan.

Yene de “Quran”oxunar,
Könlün simine toxunar.
Bu derd tanışdır çoxuna,
De, hardasan qebir qazan.

Zencir eşqin qollarında,
Xar yurd salar kollarında.
Bu dünyanın yollarında,
Üreyinde qubar azan.

Sevinc Arzulu

**Qubar azan**

QUBAR  AZAN

Dağların qarı qaralar,
Bağların bağı saralar.
Veslin menzili daralar,
Ne namerdsen qeder yazan.

Yene de “Quran”oxunar,
Könlün simine toxunar.
Bu derd tanışdır çoxuna,
De, hardasan qebir qazan.

Zencir eşqin qollarında,
Xar yurd salar kollarında.
Bu dünyanın yollarında,
Üreyinde qubar azan.

Sevinc Arzulu

**Qubarı**

Mənlə əyişib deyən,
Daim döyüşüb deyən.
Dünya dəyişib deyən.
Yoxdur sığal-tumarı.

Eşqi ucuz tutan sən,
Əhdini unudan sən.
Uduzan mən, udan sən
Kim öyrətdi qumarı.

O gün qəti olacaq,
Könül mətin olacaq.
Billəm, çətin olacaq
"Qürurumun qubarı."
14.07.2013

Sevinc Arzulu

**Qucağında qalmışam**

Dərd çölünün torpaqları şorakət,
Heç vaxt verməz sevən kəsə bərəkət.
Buz tək dondum,edəmmirəm hərəkət,
Qəm evinin bucağında qalmışam.

Niyə tanrı verir mənə zülümü,
Açılmadan coldurdu al gülümü.
Nədən kimsə götürmədi külümü,
Həsrətinin ocağında qalmışam.

Boylanıram,su üstdə sona kimi,
Dərdin sayı artıbdır ona limi.
Basıb məni bağrina ana kimi,
Ayrılığın qucağında qalmışam.

Sevinc Arzulu

**Qul eylemişim**

Qapqara libası qəmin atına,
Geydirib yaraşıq çul eyləmişəm.
Baş vurub sevginin dərin qatına,
Möhnəti bir qara pul eyləmişəm.

Yazıram kədərli söz əllərimlə,
Tuturam atəşin köz əllərimlə.
Həsrəti öldürüb öz əllərimlə,
Hicranı əbədi dul eyləmişəm.

Gecəni gözümlə sabah edərək,
Yaşadım ömrümü min ah edərək.
Deyəsən mən böyük günah edərək,
Qəlbini özümə qul eyləmişəm.

Sevinc Arzulu

**Qum adası**

Sən sahildə sal qayasan,
Mən dənizdə bir qum-ada.
Qumu çətin dost sayasan,
Hərlər məni hey qan-qada.

Yuyuluram yavaş-yavaş,
Oyuluram yavaş-yavaş.
Dərdi-qəmi çox olacam,
Axır bir gün yox olacam.

Nədən sonsuz məsafə var
Ay əzizm, aramızda.
Nisgil yatar, kədər yatar
Bizim könül yaramızda.

Əllərinə əlim çatmaz,
Qumlarıma sənin daşın.
Mənə qovuşmaq fikrindən,
Əbədilik ,gülüm,daşın.

Daim mənim başım üstdə,
Qara-qara şimşək çaxır.
Göy sulara qarışacam,
Belə getsə əvvəl-axır.

Mən sənintək daş olmadım,
Əbədilik qalım deyə.
Nə gözündə yaş olmadım,
Üzündə iz salım deyə.

Sadəcə bir qum adası,
Olmağa tək gücüm çatdı.
Neynəyim ki, ay qadası
Arzu gəmim tezcə batdı.

Sən daş oldun, daş qalarsan,
Mənim kimi qum olma, bax.
Alınmayan bir qalasan,
Zirvəndən gözmuncuğu tax..

Sevinc Arzulu

**Qum-adam**

Qum  adamdım,deniz geldi üstüme,
yuyulmaqdan qorxdum,geri çekildim.
Qum adamdım.ayağım altda yer titredi,
bir yana qaçammadım,zerre-zerre çöküldüm.
Ilahi sözlerle yoğurdu beni yeniden,
şeirden töküldüm.
İnsan-adam oldum sonunda.
Qadın-şair donunda.

Sevinc Arzulu

**Qumsal verdi**

Ağacdan yarpaq istedim,
Üreyime simsar verdi.
Tanrıdan torpaq istedim,
Qurumayan qumsal verdi.

Gözde qoysa da dileyi,
Qarğımayaq gel feleyi.
Neden menə eşq meleyi,
Elçatmayan vüsal verdi.

Acılasam dil inciyer,
Qoxlamasam gül inciyer.
Ilahi men biliciye,
Helledilmez misal verdi..

Sevinc Arzulu

**Qur görüm**

Bulaq-könül çeşməmdir,
Sis-çəkilən eşməmdir.
Qarşındakı düşməndir,
Vur, balası, vur görüm.

Qəmin bağrın söksənə,
Üstünə daş töksənə.
Öz dünyanı təkcənə.
Qur, balası, qur görüm.

Dəniz çaya qarışıb,
Günəş aya qarışıb.
Fikrim suya qarışıb,
Dur, balası, dur görüm.

Sevinc Arzulu

**Qurban**

Günəş çıxıb ay  batanda,
Ulduz göyə naz satanda.
Vaxtı-vədəsi çatanda,
Dünyanı tərk etdi Qurban.

Adın qəlbimizə oyub,
Əziyyət çəkməkdən doyub,
Dost-qohumu  tənha  qoyub,
Ölümə ərk etdi Qurban.

Gecə-gündüz  fikrə dalmış,
Könlündə qəm yuva salmış.
Ata-ana tənha qalmış,
Son anda dərk etdi Qurban.
29.11.2018

Sevinc Arzulu

**Qurban eyledim**

Sen idin igidim,sendin qoçağım,
Hardadır gencliyin,senin o çağın.
Istedim yeniden yansın ocağın,
Odumu közüne qurban eyledim.

Ardımca telesen izlerin gülmür,
Daha evvelki tek sözlerin gülmür.
Neden kederlidir gözlerin,gülmür,
Nurumu gözüne qurban eyledim.

Hesreti dindirdim-qınanmaq üşün,
Vüsalı güldürdüm-sınanmaq üçün
Şaf olan sevgime inanmağınçun,
Özümü özüne qurban eyledim.
Sebrimi dözüme qurban eyledim.

Sevinc Arzulu

**Qurban getdi, ezizim**

Qızmar qumun üstündə,
Bəyaz qardan ev qurdum.
Bir andaca əridi,
Yerimdəcə qurudum.

Xəyalların eviydi,
Tikdiyim o qalaça.
Sanırdım ki, illərlə
Tikdiklərim qalacaq.

Nədən belə oldu bəs,
Nədən belə. əzizim.
Qurban getdi sevən kəs,
Açı felə, əzizim.

Sevinc Arzulu

**Qurban olum**

"Eh"-in duman,çənim olsun,
Seyfin mənə qənim olsun.
Sağdakılar sənin olsun,
Sollarına qurban olum.

Göydən yağış tək tökülən,
Dən tək biznesə əkilən.
Çeklərin üstə çəkilən,
Qollarına qurban olum.

Sən inan birüzlüyümə,
Saflığıma,düzlüyümə.
Sənin o şax yüzlüyünə,
Dollarına qurban olum.

Dolları tez-tez ötürən,
Manatı mənə yetirən.
Həmişə səni gətirən,
Yollarına qurban olum.

Çox puldan başın itirər,
Qəpiyi yerdən götürər.
Üstündə avro bitirən,
Kollarına qurban olum.

Sevinc Arzulu

**Qurban olum qezel**

Getmisən nə bir namə,nə bir xəbər göndərmirsən,
Həsrətin edib məni lap nitqi lal,qurban olum.
Mənim cavan ömrümü cəhənnəmə döndərmisən,
Düşübdür ürəyimə silinməz xal,qurban olum.

Nə sən Məcnun olmadın, nə də ki mən gözəl Leyli,
Bəxtimiz gətirmədi: sən narazı, mən gileyli.
Gözümdən uzaq düşdün, özgələrə saldın meyli,
Bircə dəfə yolunu bizlərdən sal,qurban olum.

Xəyalın həmdəm idi mənimlə uzun gecədə,
Görünmürsən gözümə, itkin düşmüsən necə də.
Necə əl üzdürmüsən dünyadan sən eləcə də,
Canımı birdəfəlik özün gəl al,qurban olum.

Yoxdur əvvəlki gücün,yoxdur o ölməz qüdrətin,
Tez sönüb bir zamanlar dillərdə gəzən şöhrətin.
Aldanıban dollara əsiri olma sərvətin,
Dünyada qalacaqdır dövləti-mal,qurban olum.

Məhəbbət həmişə ən müqəddəs,pak hiss sayılıb,
Haqqında əfsanələr,şeir-qəzəllər yayılıb.
Heç olmasa bir dəfə qəflət yuxundan ayılıb,
Anıban sevdiyini xəyala dal, qurban olum.

Mənim sevən qəlbimdir səmada şimşək tək çaxan,
Könlümün atəşidir hər şeyi yandırıb yaxan.
"Sevginə qovuşarsan"-deyib mənə falabaxan,
Bəs niyə düz çıxmayır açdığı fal,qurban olum.

Qartal tək məğrur olan,göyə ucalan Sevincin,
Düşmənindən həmişə qisas,öc alan Sevincin,
Daha  dözmür həsrətə dərddən qocalan Sevincin,
Əbədilik sən qayıt,yanında qal,qurban olum.

Sevinc Arzulu

**Qurbanı  oldum**

Sen benim eşqimin azadlığında,
Ben senin sevgine mehkum olmuşam.
Sen benim derdimin uzaqlığında,
Hey ezab çekmeye tehkim olmuşam.

Qorxacaq vüsalın gözüyaşlıdır,
Canlanan xatiren dadına yetmir.
Belke de xeyalın özü yaşlıdır,
Bir ümid,teselli kadına yetmir.

Ayrılıq dadmışam,hicrinden tokam,
Ben ki sessizliyin bir anı oldum.
Gözünü açıb da görsen ben yokam,
Bil ki sensizliyin qurbanı oldum

Sevinc Arzulu

**Qurtardı**

Xara ipək çitdi daha,
Qoşa ulduz itdi daha.
Vaxtsız sevda bitdi daha,
Hər şey qurtardı,qurtardı.

Qoy özümə kəfən biçim,
Gecə-gündüz yanır içim.
Dərd əlindən mən nə içim,
Al mey qurtardı,qurtardı.

Zalım fələk məni satdı,
Kədərimi qəmə qatdı.
Ömrün sonu gəlib çatdı,
De hey qurtardı,qurtardı.

Sevinc Arzulu

**Qurtardığı yer**

Bu yolun sonu qem,dayan, ezizim,
Kederdir qapımı döyen,ezizim.
Bilsen,üreyimdir deyen,ezizim
Allahu-Ekberin qurtardığı yer.

Azalmır dumanım,çenim,a dünya,
Sevincim özüme qenim,a dünya.
Tek benim qelbimdir,benim,a dünya
Qüssenin ferehi qaytardığı yer.

Başımın üstünde ilham meleyi,
Eskiltmez elimden qelem-leleyi.
Neden heç görünmür çerxi-feleyin,
Qurdu quzu ile otardığı yer.

Sevinc Arzulu

**Qurtarıb**

Sevginin ezabı danacağı yox,
Hissine en eziz sanacağı yox.
Daha alışmağa yanacağı yox,
Kelbimde eşq adlı kömür qurtarıb.

Payızda durnalar uzaq köçürler,
En isti yerleri sevib-seçirler.
Iller süret ile ötüb keçirler.
Bir de göreceksen ömür qurtarıb.

Telleri hesretden beyazım gelmir,
Ruhuna mektublar ha yazım,gelmir.
Neynim,xoş neğmeli avazım gelmir,
Sesim boşa çıxır,semir qurtarıb.

Sevinc Arzulu

**Quruldu**

Qızılgül tez solandı,
Söyüd saçın yolandı.
Ay keçdi,il dolandı,
Sandım sular duruldu.

Baxanda daş büstünə,
El yığılar tüstümə.
Nədən bəxtin üstünə,
Qara möhür vuruldu.

Dərd var hicran payımda,
Kədərli harayımda.
Mənim eşq sarayımda,
Qəm büsatı quruldu.

Sevinc Arzulu

**Qurulmağıdır**

Qəlbimi göynədir gülün acısı,
Könlümə yaradır dilin acısı.
Sənsiz keçirdiyim ilin acısı,
Günlərin həsrətə vurulmağıdır.

Başımın üstündə bilmirəm nədən
Asiman görüməz olubdur birdən.
Gözümü çıxardan, qəlbimi didən,
Qəmin burulğan tək burulmağıdır.

Ucadan ucadır məhəbbət, gülüm ,
Var olsun hər zaman sədaqət, gülüm.
Aşiqlərçün böyük səadət, gülüm,
Bir toy mağarının qurulmağıdır.

Sevinc Arzulu

**Qurulmaq gerek**

Sevən sevdiyinə qəsd eləyibdir,
Yalançı vədlərlə məst eyləyibdir.
Nifrət sevgi hissin üstələyibdir,
Çalxanıb təzədən durulmaq gərək.

Dağların sinəsi yüz oyulmayıb,
Astarın yerinə üz soyulmayıb.
Deməli təməli düz qoyulmayıb,
Yenidən tikilib qurulmaq gərək.

Qıyma ki gözünü mavi yaş alsın,
Uyma ki sözünü almaz qaş salsın.
Qoyma ki özünün könlün boş qalsın,
Özgə birisinə vurulmaq gərək.
25.02.2015

Sevinc Arzulu

**Qurulmuşam**

Bu dünya naşı.kar olub,
Sevgim axır aşkar olub.
Şözəbaxan şikar olub,
Öz ovçuma vurulmuşam

Yatammıram bəd fikirdən,
Bezdim axır yad zikirdən.
Təmizlənib pasdan, kirdən,
Axar su tək durulmuşam.

Kainatın qəm neyiyəm,
Göy səmanın sar,leyiyəm.
Əvvəlki Sevinc deyiləm,
Mən yenidən qurulmuşam.

Sevinc Arzulu

**Qurumumu**

Mən özümü heç öymərəm,
Əğyar qapısın döymərəm.
Qarşısında baş əymərəm,
Sındırmaram qururumu.

Doğularam bir də,ölləm
Açılmayan sirrdə ölləm.
Gözdən uzaq yerdə ölləm,
Kimsə görməz qürubumu.

Yalanın üsrün düz örtüb,
Ocaq yerini köz örtüb.
Xatirəmi tək toz örtüb,
Meh təmizlər qurumumu.

Sevinc Arzulu

**Quş adası**

Qaraca gözünü süzüb dayanıb,
Yaralı könlümü üzüb dayanıb.
Yene başıbağlı gezib dolanır.
Dözmürüm yarımın qış edasına.

Qızılgül açılar sonda solmaqçun,
Buludlar reqs eder göyde,dolmaqçun.
Bir azca dincelib rahat olmaqçun,
Özümü verecem nuş odasına.

Sağ ol gösterdiyin bunca sayğıya,
Könül möhtac olar ince qayğıya.
Bir gün ruhum döner ağ qağayıya,
Üzünü çevirir quş adasına

Sevinc Arzulu

**Quşlar**

Sinem üste qonan quşlar,
Her biri qara inciden,
Üreyimi çox inciden
Ağrı-acını denleyin.
Neçe-neçe derd-belanın,
Qarşısın alın,önleyin.

Mehebbetin bürcündeki,
Benim könül mücrümdeki,
Xatireye toxunmayın.
Istemirim,oxunmayım
sizin cik-cik lehcenizde.
Gözlerim mavi denizde.
qulaqlarım külekdedir.
Her insanın sevgi şeiri
daxilinde,ürekdedir.
Sinem üste qonan quşlar,
Kederimden donan quşlar.

Sevinc Arzulu

**Qübarı gör**

Kədərdə məziyyətə bax,
Verdiyi əziyyətə bax.
Düşdüyüm vəziyyətə bax,
Əllərimin qabarın gör.

Yalan çıxar nədən doğru,
Hanı fərəh gəzən oğru.
Yaman tutub yenə ağrı,
Ürəyimin qübarın gör.

Batsın könül adan, əğyar
Daim vüsal dadan əğyar.
Uduzan mən, udan əğyar,
Bu fələyin qumarın gör.

Sevinc Arzulu

**Qüdretdeyem**

Tərk eyləyib hüzur məni,
Hicran gizlin süzür məni.
Bu ayrılıq üzür məni,
Sənsiz sanki qürbətdəyəm.

Kəsməyir ki qəm ülgücüm,
Ürəyimdə qaldı öcüm.
Günü-gündən artar gücüm,
Sarsılmaz bir qüvvətdəyəm.

Fərəhimə qəm də çatmaz,
Sevincimdə kədər yatmaz.
Güllə dəyməz,nə ox batmaz,
Sevgi adlı qüdrətdəyəm.

Sevinc Arzulu

**Qüdretindeyem**

Gedişinin-gelişinin,
Şirin-şirin gülüşünün,
Benimle son görüşünün,
Hesretindeyem.

Sözü saqqız tek çeyneme,
Yalanı düz tek söyleme.
Ayrılığı defn eylemek
Qüdretindeyem.

Yaz gelmemiş erir qarın,
Suya döner ehd-ilqarın.
Bilirim ki zalım xarın,
Nifretindeyem.

Sevinc Arzulu

**Qürub çağında**

Lal meşeye dönmüşüm,
Boz şüşeye dönmüşüm.
Benövşeye dönmüşüm,
Ayrılığın bağında.
Ömrün qürub çağında.

Haqq aşiq darda qalmaz,
Heyifi xarda qalmaz.
Eriyer, qar da qalmaz,
Derdin uca dağında.
Ömrün qürub çağında.

Hicran vida eylemez,
Vüsal gülün iylemez.
Bülbül neğme söylemez ,
Çinarın budağında.
Ömrün qürub çağında.

Sevinc Arzulu

**Qürur günü**

Iyirmi beş il keçib
O qanlı gecəmizdən.
Şəhidlik yan ötməyib
Görəsən neçəmizdən.

Rus  tanklarının səsi
Qulağımdan getməyib.
Amansız  namərd yağı
Arzusuna yetməyib.

Azadlıq hissimizi
Boğa bilmədi düşmən.
Dalğalanır bayrağım,
Ayaq üstdədir Vətən.

Vətən, şəhid olsa da,
O gecə oğlun-qızın.
Daha da alovlandı
Sənin azadlıq arzun.

Düşmənin pis niyyəti,
O gecə pozulubdur.
Müstəqillik aktımız.
Qan ilə yazılıbdır.

Yatdığınız torğağı,
Al qərənfillər bəzər.
Hər bir şəhidin adı
Indi dillərdə əzbər.

Bu gün şəhid günümüz,
Qürur hissimiz coşar.
Qurban gedər övladlar,
Vətən müstəqil yaşar.
20.01.2015

Sevinc Arzulu

**Qürurlanır**

Gecə kədər ələyir,
Yeri qəmə bələyir.
Dönübdür çərx-fələyi,
Zaman  geri fırlanır.

Fərəh çəkmədi keşik,
Ondan boş qalıb beşik.
Damımız deşik-deşik,
Göz yaşıyla qırlanır.

Yağışın qətrəsindən,
Ulduzun titrəsindən.
Günəşin zərrəsindən,
Dünya-aləm nurlanır.

Saz  məşhurdur teliylə,
Yaz tanınar seliylə.
Ayrılığın əliylə,
Sevincim oğurlanır.

Çaylar durmaz daşmadan,
Dəniz əsmə-coşmada.
Yazdığım yüz qoşmadan,
Ürəyim qürurlanır.

Sevinc Arzulu

**Qururumun qübarı**

Menle eyişib deyen,
Daim döyüşüb deyen.
Dünya deyişib deyen.
Yoxdur sığal-tumarı.

Eşqi ucuz tutan sen,
Ehdini unudan sen.
Uduzan men, udan sen
Kim öyretdi qumarı.

O gün qeti olacaq,
Könül metin olacaq.
Billem, çetin olacaq
"Qururumun qubarı."

Sevinc Arzulu

**Qüsse qatıbdır**

Fərəh qaranquşu artıq köçübdür,
Könlün ayrılığı sevib-seçibdir.
Neçə aylar, günlər gəlib-keçibdir,
Getdiyin yolların tozu yatıbdır.

Xəyal səpələnib törlü-tökülü,
Istünə illərin tozu çökülü.
Elə mən qalmışam boynubükülü,
Hicran vüsalına çoxdan çatıbdır.

Sulara qarışıb axmağı da yox,
Şimşək tək səmada çaxmağı da yox.
Bir yana boylanıb baxmağı da yox,
Sevincin başını qüssə qatıbdır.
25.06.2018.

Sevinc Arzulu

**Qüsseli guşe**

QÜSSƏLİ  GUŞƏ

Ürəyim dözməyir hıçqırığına,
Qaragöz vüsala gəl-gəl deyirəm.
Toxunma xəyalın qırıqlığına,
Mən ki ayrılığa əngəl deyiləm.

Izləyib gedişi ta sonunadək,
Özüm addım-addım geriləmişəm.
Qalxıb ulduzların ta yanınacan,
Buludun üstündə yer eləmişəm.

Həyat daha aydın görünür ordan,
Gözümün önündə olub-keçənlər.
Ürək də sürətlə döyünür orda,
Vüsal badəsini dolu seçənlər.

Həsədlə baxıram gedən qocaya,
Görəsən nə varmış dağarcığında.
Daha cırcırama nəğmə oxumur,
Köksümüm qaralan qabarcığında.

Bəzən dizin-dizin süründüyümdən,
Ömrümün yolunu şüşə etmişəm.
Sənsizlik tülünə büründüyümdən,
Könlümü qüssəli guşə etmişəm.
26.04.2018

Sevinc Arzulu

**Qüssem**

Baxışları incələyir,
Naxışları necələyir.
Gözlərində gecələyir,
Yatmış qüssəm.

Demirəm döz qədərinə,
Öyrənmə söz bədərinə.
Axır ki öz kədərinə
Çatmış qüssəm.

Qırışdan ayaz alını,
Görməzsən dayaz halını.
Başından bəyaz şalını,
Atmış qüssəm.
20.12.2017

Sevinc Arzulu

**Rekviyem**

Şehid getdi neçe qızlar,oğullar.
Yene de Ferize,İlham doğular.
Düşmenimiz qan içinde boğular,
Geldik sizi eyleyek yad,şehidler.
Ruhlarınız qoy olsun şad,şehidler.

Iyirmi il keçib qan gecemizden,
Çıxmazsınız heç zaman qelbimizden.
Rekviyem seslenir üreyimizde.
Geldik sizi eyleyek yad,şehidler.
Ruhlarınız qoy olsun şad,şehidler.

Yeridiniz tank üste eliyalın,
Uğrunda getdiniz gözel amalın.
Şirin xeyallara ebedi dalın.
Geldik sizi eyleyek yad,şehidler.
Ruhlarınız qoy olsun şad,şehidler.

Candan eziz bildiz Azerbaycanı,
Duşmenler qırdılar neçe cavanı.
Unutmarıq dehşetli,qemli anı.
Geldik sizi eyleyek yad,şehidler.
Ruhlarınız qoy olsun şad,şehidler

O qanlı yanvardan keçib neçe il,
Qan ağlayır veten torpağı dil-dil.
Sizin qismetiniz min-min qerenfil.
Geldik sizi eyleyek yad,şehidler.
Ruhlarınız qoy olsun şad,şehidler

Sevinc Arzulu

**Remzi oldum.**

Al soyunar,şal geyinər
Bəyənməsə hey deyinər.
Qəlbim ilə bir döyünər,
Bu dünyanın nəbzi oldum.

Könüllərin əfqanıykən,
Qəlbdən keçən al qanıykən.
Sən yerlərin xaqanıykən,
Mən göylərin şəmsi oldum.

Həsrət alan sarayında,
Viran qalan sarayında,
Sənin yalan sarayında
Həqiqətin rəmzi oldum.

Sevinc Arzulu

**Resmimi çek**

Ay rəssam , rəsmimi  çək,
Kədərimi,duysunlar.
Hər tərəf olsun çiçək,
Göz yaşımı yusunlar.

Elə bir yerdə çək ki,
Nə dağ olsun, nə dərə.
Dayansın o ürək ki,
Sevməyibdir bir kərə.

Təbiət naxışını,
Yaşılı, mavi rənglə.
Qüssəli  baxışımı
Bir az səmavi rənglə.,

Sevmirəm qırmızını,
Neynəyim,  gül rəngidir.
Vəsf et Tanrı qızını,
Ağrımı çox səngidir.

Şağ ol,ay rəssam qardaş,
Ümidimi artırdın.
Məni gözlərimdə yaş,
Ötənlərə qaytardın.
04.05.2018.

Sevinc Arzulu

**Ruh adamı**

Xəyanətlə çarpışmışam,
Xəyalətə alışmışam.
Köhnəliklə barışmışam,
Əzəldən Nuh adamıyam.

Baxşındanam, görməsinlər,
Naxşındanam, hörməsinlər
Yaxşındanam, deməsinlər
Qaragüruh adamıyam.

Gedişimə  köz düzülər,
Yerişimə göz süzülər,
Yazammasam söz üzülər,
Mən elə ruh adamıyam.
11.11.2017

Sevinc Arzulu

**Sabah menim ad günüm**

Sabah mənim ad günümdür,
Həm özəl,həm yad günümdür.
Bu günümdə xatırlaram itirdiyim insanları,
Niyə yoxdur zəmanədə bircə qırıq insaf barı.
Istəyərdim atam olsun,anam olsun yanımda,
Mənimlə bir şənlənsinlər ən sevincli anımda.

Hanı qəlbən sevdiklərim?
Onlar görən necoldu?
Mənim vaxtsız,baxtsız sevdam,
gəlişin çox gec oldu.
Sən gecikdin neçə illər,neçə aylar.
Indi tənha qalan könlüm səni anar,səni haylar.

Bircə dəfə görüşmədik,
O müqəddəs duyğuları bölüşmədik ikilikdə.
Hey sevərək əzab çəkdik ikimiz də.
Nə mən sənə namərd dedim,nə sən mənə vəfasız,
Bilirdik ki vaxtsız sevda heç olmaz ki cəfasız.
Bunca qüssə,bunca kədər,
Heyif ki getdi hədər.
Nə edək ki belə yazmış alnımıza
çoxuna xoş qismət yazan amansız tale-qədər.
Nə yatdıq ki yuxu görək bu bəlalı sevgidə.
Qismətimiz deyilmiş ki bu fərari sevgi də.

Uçub getdi əlimizdən bir ağ göyərçin kimi,
Hicran qəfil  çıxdı küpdən qapqara lal cin kimi.
Alıb getdi bircə anda könül sevincimizi,
Pərən-pərən,səpə-səpə dağıtdı incimizi.

Sevinc Arzulu

**Sabahın xeyir**

Xəyal tək hər yerə səpələnmişəm,
Torpaq tək bərkiyib təpələnmişəm.
Yenə də coşuban ləpələnmişəm,
Gölüm, sabahın xeyir.

Deyirlər, gülənin vardır min dərdi,
Üstün gəl həmişə, çulla min dərdi.
Özümü yandırar içimin dərdi,
Çölüm, sabahın xeyir.

Tale ağacını Tanrı göndərib,
Neynəsin, əllərim barı göy dərib.
Ay aman, dodağım yaman göyərib,
Ölüm, sabahın xeyir.
27.02.2013.

Sevinc Arzulu

**Saf dilekleri**

Bağrıqan laləli düz göndəribdir,
Dərd-qəmi bir deyil,yüz göndəribdir.
Mənim tək sevgidən üz döndəribdir,
Səmtinə əsməyir səmt küləkləri.

Fələk aldığını vergi saymayır,
Necə də acgözdür, gözü doymayır.
Əzizim,bizi heç tənha qoymayır,
Başımız üstündə dərd mələkləri.

Ağ dünya sənin öz evindir,Allah,
Qaranlıq dünya tək divindir,Allah.
Hamı tək məni də sevindir,Allah,
Gözümdə qoyma heç saf diləkləri.

Sevinc Arzulu

**Safari Solmaz**

Mehriban insan, gözəl ana, qayğıkeş nənə,uzaq səfərlər
vurğunu dostum Solmaz xanıma zarafatyana şeir

Dünyanın ən soyuq qütbündə azaq,
Bizə təsir etməz nə soyuq, sazaq.
Bircə an düşmədin Vətəndən uzaq,
Olmadın heç zaman fərari, Solmaz

Əvvəldən beynində min plan qurar,
Sonuncu nöqtəni ürəklə vurar.
Sözünün üstündə kişi tək durar,
Pozmaz ki verdiyi qərari, Solmaz.

Nəvələr yanında qoçaq olanda,
Ani qığılcımdan ocaq olanda.
O uzaq ellərə qonaq olanda,
Bizi də yadına sal bari, Solmaz.

Neçə dərə keçir, neçə dağ aşır,
Gəzir qarış-qarış Yeri, dolaşır.
Bilirsən necə bir maşın yaraşır,
Ağ atın olsun qoy Ferrari,Solmaz.

Sonsuz kainata yol eyləyərsən,
Xatirə gülünü bol eyləyərsən.
Bir zaman gedib də ov eyləyərsən,
Adını qoyuram Safari Solmaz.
25.06.2018

Sevinc Arzulu

**Sağ meni**

Uzaqdan “Ey”çağırır,
Qəm çalan ney çağırır.
Qoynuna hey çağırır,
Dərə-düzən, dağ məni.

Dünya,dərd-qəmin unut,
Ürəyimdə min ümid.
Olum həmdəmin, bulud
Yer üzünə yağ məni.

Sübh şəfəqin oyatsan,
Səmanı al boyatsan.
Bir gün geri qayıtsan,
Görərmisən sağ məni.

Sevinc Arzulu

**Sağ ol**

Turş eyledin ayranımı,
Ağ ol, dostum, ağ ol, ağ ol.
Tebrik etdin bayramımı,
Sağ ol, dostum, sağ ol, sağ ol.

Al laleler dize çıxar,
Ceyran-cüyür üze çıxar.
Heç olmasa üze çıxan,
Yağ ol, dostum, yağ ol, yağ ol.

Xeyallarda at çapmıram,
Rengli sergiler yapmıram.
Söykenmeye yer tapmıram,
Dağ ol, dostum, dağ ol, dağ ol.

Sevinc Arzulu

**Sağalmaz**

"Bayatı-şur"icinə,
Düşmüşəm nur icinə.
Ləl-cəvahir içinə,
Sol zümrüddür, sağ almaz.

Ölləm rəqib gəlməsə,
Xari-həbib gəlməsə.
Əgər təbib gəlməsə,
Könül yaram sağalmaz.

Görünməsə hilalım,
Azalmasa məlalım.
Uçammasa xəyalım,
Duyğularım sağ qalmaz.

Sevinc Arzulu

**Sağam hele**

Qış kolumu saraltmayıb,
Qar  yolumu daraltmayıb.
Güneş meni qaraltmayıb,
Evvelki tek ağam hele.
A dostlarım, sağam hele.

Unudulmaz baxış olub,
Ovudulmaz naxış olub.
Lirik, narın yağış olub,
Isteyirem yağam hele.
A dostlarım, sağam hele.

Bezdim bayır-bacalıqdan,
Nə işim var qocalıqda.
Yerim vardır ucalıqda,
Meğrur duran dağam hele,
A dostlarım, sağam hele.

Sevinc Arzulu

**Sahile axsın**

Fikrimi oxuyur gece nesimi,
Yayar uzaqlara nece sesimi.
Menim üreyimin penceresini,
Denize  açın ki sahile baxsın.

Çox görüb qoynunda şer qovğaları,
Köksüne yaraşmır neft halqaları.
Dünyanın en hündür şen dalğaları,
Gerek asta-asta sahile axsın.

Dünya malı üçün vuruşmaq ebes.
Nahaqdan qan tökmek deyilmidir bes.
Göylere yaraşıq ildırımla reqs,
Zefer çelengini sahile taxsın.
15.10.2018

Sevinc Arzulu

**Salam, ana**

SALAM, ANA.

Dünyanın qəm düzündə,
Gecəbəgündüzündə.
Al lalənin üzündə,
Qapqara xalam, Ana.
Salam, Ana.

Layla oxuyanım yox,
Xalı toxuyanım yox,
Daha qoruyanım yox,
Dağılıb qalam, Ana.
Salam, Ana.

İndi sənə həsrətəm,
Özüm boyda möhnətəm.
Nə deyim bu zillətə,
Susuram, lalam Ana.
Salam, Ana.
16.5.2013

Sevinc Arzulu

**Salam, Şamaxı**

Əzəl gündən sən yurdum,olacağım,
Daim yanar ,sönməz odun-ocağın.
Mənimçün mehriban ata ğucağı,
Yolumu sinəndən salam,Şamaxı.
Salam,Şamaxı.

Babaların ruhu yatır bu yerdə,
Qəmi yatır,ahı yatır bu yerdə.
Şirvanşahlar şahı yatır bu yerdə,
Alınmaz möhtəşəm qalam, Şamaxı.
Salam, Şamaxı.

Qəlbimdə əbədi atamın yeri,
O da sənin övladlarından biri,
Dağlar arasında Şıx Eyyub piri.
Mən də bir təpəyəm,yalam Şamaxı,
Salam,Şamaxı.

Nə ayın batmasın,nə də günəşin,
Veribdir görüşə və`də günəşin.
Meşələr içində Dədə Günəşin,
İstərəm qoynunda qalam,Şamaxı.
Salam,Şamaxı.

Bir zamanlar oxunardı fərmanın,
Əllərdə gəzərdi otun,dərmanın.
İndi daha azalıbdır ormanın,
Meşələr qoynunda talam,Şamaxı.
Salam,Şamaxı.

Səsin,ünün olum, sədan olum mən,
Dolanım başına fədan olum mən.
Üz sürtüb torpağa qadan alım mən,
Vətən sevgisinə lalam,Şamaxı.
Salam.Şamaxı.

Burda Sabirimin nəfəsi vardır,
Nəsimi,Səhhətin gur səsi vardır.
Sevincin də şerə həvəsi vardır,
Qoynunda xəyala dalam,Şamaxı.
Salam,Şamaxı.

Sevinc Arzulu

**Salam, Tanrım**

Salam Tanrım, bu menem,
Sevib-seçdiyin benden.
Esrin keçdiyi bendem.
Necesen?
Soruşmuram, bilirrim ehvalını
Billirim, sende günah yox.
Zaman terse oxudur qırıq olan valımı.

Bilirim ki, bu sensen,
meni derdden-beladan,
Min cür taun-vebadan
qoruyan xilqet sensen.
En böyük qüdret sensen.
Ey ulu yaradanım,
Sensiz sökülmez danım.
Sensiz güneşim çıxmaz.
Sensiz derdin evini
Fereh bir anda yıxmaz.

Salam.ey ulu Tanrım,
Salam gözüm işığı.
Men ki acgöz deyilem,
Bilirsen ki bes eder
Mene közün işığı.
Bu işığın ucundanca
tutub gederem sona.
Ele senin ovcundaca
Girerem yeni dona.
Yene bu dünyaya gellem.
Fidan olub göyerrem.

Sevinc Arzulu

**Salam,elli yaşım**

Neçe vaxtdır geceyarısı
qapım döyülür astaca.
Qorxuram açmağa.
Birden bela olar, birden derd olar,
Feleyin boz üzü yaman sert olar.
Bu gün ad günümde berk-berk döyülür qapım,
Açım ya açmayım.
Sual budur bu.
Qaçıb gözlerimden ilham yuxusu.
Alıram lime baltanın sapını.
Üreyim ese-ese açıram qapını,
Eh, bu ki, gelenilki elli yaşımdır.
Gözlerindeki sevinc yaşıdır.
Xoş gördük, elli yaşım,
qedemlerin mübarek!
Hele bir ilden sonra,
sen gele idin gerek.
Neden bele tez geldin,
Ayaqları toz geldin.
Göyden duman kimi,
Neydən güman kimi geldin
və dinceldin ocağımın başında.
Görürsenmi,
xatirələr boylanır her daşından.
Xoş görmüşük elli yaşım,
xoş gördük can sirdaşım!
Bele qefil gelişinden
çatlamaz ki sirr daşım.
Ne müddetdir gözleyirdim yolunu,
Qırx doqquz
və elli bir də tutubdur sağ-solunu.
Yarım əsr, buyur, yerin lap yuxarı.
Deyesen tutub seni şöhretin nem buxarı.
Asqırırsan, öskürürsen, qrip olmusan deyen.
Görürsenmi,
senden başqa qapımı yoxdur döyen.
Salam menim elli yaşım,
salam ömür-gün dostum,
Ele senin varlığına deyilecek ilk tostum.
Elli yaşın işığına yığışacaq dost-tanış,
Bade verim sağ eline, birce kelmese danış.
De ki, meni çox sevirsen,
darıxırdın menimçün,
Şeir havasından doğan teravetli çenimçün.
Xoş sözünle ağlat, kövrelt üreyimin başını,
Men de ipek yaylıq ile silim zerif yaşını.
Gelişine quzu kesim,
qedemlerin mübarek!
Hem altmışda, hem yetmişde,
menle olasan gerek!.

Sevinc Arzulu

**Salama geldi**

Arzular gen çölde sahilsiz zemi
Hele bir zerresi biçilməyibdir.
Ümidler ağ gölde sahibsiz gemi,
Sayır öz yerinde, kiçilmeyibdir.

Büküb arzuları gül yarpağına
Tikanlar esgeri salama gəldi.
Baxıb xeyalların gül yanağına,
Ümidler yamyaşıl talama geldi.
21.04.2018

Sevinc Arzulu

**Salamı nedir**

Işi zor olası ayrılıqların,
Özü qor olası ayrılıqların
Gözü kor olası ayrılıqların,
Qayəsi, məqsədi, məramı nədir.

Naxələf çıxmasın sevib-seçdiyim.
Yolunda canımdan belə keçdiyim.
Bəzən zəhər olur yeyib-içdiyim,
Bilmirəm halalı, haramı nədir.

Anlamır nə qədər edirəm nifrət,
Özüylə gətirir qaranlıq, zülmət.
Yaman başa çıxır bu zalım həsrət,
Mənimlə bu haqqı-salamı nədir.
25.04.2018

Sevinc Arzulu

**Salamlar olsun**

Yoluna al güllər tökülmədi heç,
Həsrətin qəm evi sökülmədi heç.
Fələyin kölgəsi çəkilmədi heç,
Biz xoşbəxt olmadıq, olanlar olsun.

Sevgidən on deyil, yüz də danışaq,
Gəl əyri oturub düz də danışaq.
Arxada deməyək, üzdə danışaq
Istəməm arada yalanlar olsun.

Bir payız günündə şimşək çaxar da,
Ardından aramsız yağış yağar da.
Rastlaşaq həmişə toyda-mağarda
Bizdən əhli-beytə salamlar olsun.

Sevinc Arzulu

**Salınmadımı**

Seni sözlerimin xarasındaca,
Seni közlerimin arasındaca,
Seni gözlerimin qarasındaca
Defn etmek istedim,alınmadımı.

Elalar görübdür sefalı könlün,
Belelar görübdür cefalı könlün.
Bene ved etdiyin vefalı könlün,
Özgesi terefden çalınmadımı.

Quyruğu tapdandı qara ilanın,
Açılıb töküldü xeyli yalanı.
Eh,başa çıxmadı senin planın,
Vüsaldan hicre yol salınmadımı.

Sevinc Arzulu

**Salmısan neden**

Sənsiz dünya mənə əbədi sürgün,
Gözümdən tökülər bal yuxun,mürgün.
Fikirli dəyirsən gözümə bu gün,
Yenə lal xəyala dalmısan nədən.

Könüllər naşaddır,ürəklər üzgün,
Baxışlar qəmlidir,gözlərsə süzgün.
Sən məni gəl anla,başa düz düzgün,
Cəllad tək canımı almısan,nədən.

Şeir-İlahidən gələn gözəl səs,
Eşq uğrunda əzab çəkmək çox əbəs.
Mənim ilə niyə danışmırsan bəs,
Kəsilib söhbətin,lalmısan nədən.

Şad günümə yaraşıqsan,bir behsən,
Bir küləksən,səmum yelisən.mehsən.
Gül üstünə düşən parlaq,zər şehsən.
Bulud kimi de, qaralmısan nədən.

Təkcə səni qəlbə həmdəm sanıram,
Yada salıb,xatırlayıb anıram.
Gecə-gündüz odlanıram,yanıram .
Sevinci atəşə salmısan nədən.

Sevinc Arzulu

**Sandım**

Küləkdən başlayar yarpaq əsimi,
Qoy olsun,əzizim,sevinc nəsibin.
Elə qəzəbliydi,elə əsəbi
Fərəh zülmün bağrın sökəcək sandım.

Anladım,hikmət var Tanrım,səbirdə.
Məzarlıq önünə gəlib də bir də.
Hicranı dəfn etdim qara qəbirdə,
Həsrət üstündə yaş tökəcək sandım.

Alıbdır üstümü çiskin,dumanlıq.
Mənim xəyal evim zülmət,toranlıq.
Gözümü səmadan çəksəm bir anlıq,
O zaman göy yerə çökəcək sandım.

Sevinc Arzulu

**Sanıb meni**

Küsdüyümə barışmayıb,
Söz deməyə alışmayıb.
Haqqımda pis danışmayıb,
Dillər doğru sanıb məni.

Düşmənimdən öc almışam,
Zirvəyədək ucalmışam.
Demə niyə qocalmışam,
İllər yorğun salıb məni.

Nə bilər ki qədrin naşı,
Üzə gülər uzaqbaşı.
Xəbəri yox yar-yoldaşın,
Sellər oğrun çalıb məni.
28.11.2018

Sevinc Arzulu

**Saraldım**

Şöylə.necə unudum dərd-sərimi,
İtirmişəm ilham adlı pərimi.
Gün işığı rəngləməzdi dərimi,
Həsrətinin kölgəsində qaraldım.

Qaşsız qalıb dünyanın sevgi tacı,
Möhnətini çəkmək acıdan acı.
Ürəyimdən su içdi qəm ağacı,
İlk ildəncə "Nevroz"adlı bar aldım.

Bəyaz quşlar qəm rəqsinə süzdülər,
Əllərimi bu dünyadan üzdülər.
Sevənləri bir sıraya düzdülər,
Yoxluğundan qubarlandım, saraldım.

Sevinc Arzulu

**Saralıb xatirelerin**

Acılı günleri de, ötüşübmü?
Xeyirle dostlaşıb hey görüşübmü?
Payızı deyesen erken düşübdür,
Yaşılı saralıb xatirelerin.

Atılan addımlar yamanca sıxır ,
Adice meh bele yamaca yıxır .
Her sözden-söhbetden tapmaca çıxır,
Ehvalı qaralıb xatirelerin.

Bu dünya onunçun qapalı qefes,
Daha yaşamağa qalmayıb heves.
Havası çatışmır, almayır nefes,
Yolları daralıb xatirelerin.
26.03.2018

Sevinc Arzulu

**Sarar meni**

Haqqım vardır öyünməyə,
Fərəh ilə böyünməyə.
Tanrım, qoyma bölünməyə
Qəm qılınc tək yarar məni.

Araz kimi durularam,
Obamıza burularam
Fərəhdən heç yorularam?
Kədər, qüssə yorar məni.

Qurulubdur belə bəşər,
Yarı xeyir, yarı da şər.
Düşmənlərim itkin düşər,
Qəlb dostlarım arar məni.

Bu dünyada ədalət var.
Zirvəni fəth eyləməz sar.
Geri dönsə naxələf yar,
Görən kimdən sorar məni.

Yada düşər köçənlərim,
Əcəl suyu içənlərim.
Dərd zəmisin biçənlərim,
Acı duyğu sarar məni.

Sevinc Arzulu

**Sarışın qız**

Ömrün pəncərəsindən,
Boylanan sarışın qız.
Sənin rəngli sevdana
Mən necə qarışım, qız.

Üstünə toz qonmamış,
Külək aldı, apardı.
Kədərində donmamış,
Həsrət tufan qopardı.

Sən bəxtinin düyünün
Açıb çözə bilmədin.
Hisranın acısına
Durub dözə bilmədin.

Gözündən itib yarın,
Xatirəsi sinəndə.
Köklənmiş könül tarın,
Çalmaz eşqin sönəndə.

Saçları sarışın qız,
Ocağım sən,közüm sən.
Dön geri, barışım qız,
Sən ki mənim özümsən.
15.12.2017

Sevinc Arzulu

**Sarışın xanım**

Sənin yarın gözü yaşıl,
Sarışın bir xanımdır.
Nə geysə ona yaraşır,
Ürəyimdir, canımdır.

Sevirəm bu gözəli mən,
O ki mənim özümdür.
Neynirəm şer, qəzəli mən,
Ən  qiymətli dözümdür.

Dözüm varsa yaşayarsan,
Həyat hər acını.
Sən özünə oxşayarsan
Taxıb inci tacını.
07.05.2018

Sevinc Arzulu

**Sarsılası**

Şirin şeker duza döndü,
Vüsal kara qıza döndü.
Arzularım buza döndü,
Bu,taleyin sırsırası.

Özüne bir tay tapmadın,
Ulduz gezdin,ay tapmadın.
Ox axtardın,yay tapmadın
Bir gileyin son sırası.

Deyilecek söz yerinde,
Kösöv durar köz yerinde.
Ürek ağlar,öz yerinde
Qemden beyin sarsılası.

Sevinc Arzulu

**Sat sözünü**

Adı telefondan silmək asandır,
Düzəltsən kəndirdən ilmək, asandır.
Özgəni aldada bilmək asandır,
Var isə hünərin aldat özünü.

Həsrətin büstünü yonub qalsan da,
Üstünə kədər-qəm qonub qalsa da.
Qışın şaxtasında donub qalsan da,
Düşmənin oduna az çat közünü.

Köhnə köçün sürüb, gəlib təzə il,
Tor tutub deyəsən, gözlərini sil.
Dəyərin azaltma, qiymətini bil,
Neçə yüz milyona sən sat sözünü.
05 01 1018

Sevinc Arzulu

**Sataydım, gülüm**

Unudub qüssəni,unudub qəmi,
Kədəri qəlbimdən ataydım,gülüm.
Unudub möhnətlə dolu aləmi,
Sənin eşq gölündə bataydım,gülüm.

Məni xəyallardan qoparan əlsən,
Qapımı qəfil döy,içəri gəl sən.
Sənin gəlişinə sevinib qəlbən,
Sevinci fərəhə qataydım,gülüm.

Bitməyir fələyin sərt oyunları,
Tale açacaqmı bu düyünləri.
Sənsiz keçirdiyim qəmli günləri,
Fələyin özünə sataydım,gülüm.

Sevinc Arzulu

**Satdın meni**

Görsəm ulduzun üzünü,
Tezcə sayaram yüzünü.
Deyəndə sözün düzünü,
Nədən alıb-yatdın məni.

Işim-düyün düşmüş kələf,
Saf eşqimi etdin tələf.
Sevdiyim çıxdı naxələf,
Gör kimlərə satdı məni.

Sevinc yaşar qadın kimi,
Ən uzaq bir yadın kimi.
Duyğusuz bir odun kimi,
Ocağında çatdın məni.

Sevinc Arzulu

**Satılmaz ki.**

Sağa atdım, sola düşüb,
Fikrim quru kola düşüb.
Qatar artıq yola düşüb
Ha qaçsan da çatılmaz ki.

Dünya məşhur ləl-dürrüylə,
Gizlin qalar yüz sirriylə.
Dalaşarlar bir-biriylə
Dərdə fərəh qatılmaz ki.

Qəlbə həmdəm nihan sevgim.
Eh, hamıdan pünhan sevgim.
Mənə verən ilham sevgim,
Milyonlara satılmaz ki.
15.05.2015

Sevinc Arzulu

**Savaşı dağların**

Ən əziz qonağı telli saz olar,
Yayda da gecəsi sərt,ayaz olar.
Həmişə zirvəsi bəmbəyaz olar,
Kədərdən ağarıb başı dağların.

Kim deyir ki həramiyə bənzəyir,
İşıqsaçan nuraniyə bənzəyir.
Ağsaqqal bir piraniyə bənzəyir,
Çatılıbdır çatma qaşı dağların.

Üzünü gizlədən aya dönübdür,
Bəs nədən toyları vaya dönübdür.
Gah coşan,gah daşan çaya dönübdür,
Qurumaz gözünün yaşı dağların.

Uçmağa can atan tərlan,sara bax,
Zirvəyə yığılmış bəyaz qara bax,
Olubdur həmişə cənnət Qarabağ,
Almaz üzüyünün qaşı dağların.

Sevinc zirvəsini süzüb dayanıb,
Telinə gül-çiçək düzüb dayanıb.
Gör neçə illərdir dözüb dayanıb,
Var düşmənlə min savaşı dağların.

Sevinc Arzulu

**Saxlamaz**

Gəl zülməti gündüz eylə,
Dolayları dümdüz eylə.
Sən gördüyün quduz sellər,
Daha çağlamaz,çağlamaz.

Özün qəmə salan ürək,
Xəyallara dalan ürək.
Kim deyir tək qalan ürək,
Sənsiz ağlamaz,ağlamaz.

Qəm sındırdı qollarımı,
Soldurdu gül kollarımı..
Sənə gedən yollarımı,
Fələk bağlamaz,bağlamaz.

Könül çətin dostdan keçə,
Fikrimdəsən gündüz-gecə.
Qəfil ölüm,söylə necə,
Ürək dağlamaz,dağlamaz.

Həsrətin qəlbə hakimsə,
Kədər əbədi sakinsə.
Qovuşmaq istəsəm kimsə,
Məni saxlamaz,saxlamaz.

Sevinc Arzulu

**Saya meni**

Fələk nədən urcah etdi,
Bu dəli sevdaya məni.
Sakit axan bir arx idim,
Döndərdilər çaya məni.

Vəslin üzü ağ olaydı,
Kefi daim çağ olaydı.
Kaş ki anam sağ olaydı,
Doğaydı dünyaya məni.

Dibçəkdə al gül əksinlər,
Dibinə qan-yaş töksünlər.
Ağ-qırmızı de çəksinlər,
Çəkməsinlər saya məni.

Sevinc Arzulu

**Sayılmadıq**

Həsrətin lal qorxusundan,
Dünyanın kal qoxusundan,
Sevdanın bal yuxusundan,
Ayılmadıq, ayılmadıq.

Hiss-düyğudan bolduq,amma,
Qəm gülünü yolduq,amma,
Hərdən xoşbəxt olduq,amma,
Bayılmadıq, bayılmadıq.

Çiynimizdə zərif lələk,
Vəslin görüşünə gələk.
Tanrım, heyf qoşa mələk,
Sayılmadıq, sayılmadıq.

Sevinc Arzulu

**Seadet evi**

Həsrət gülü bitib, apar.
Birdəfəlik itir, apar.
Özün ilə götür apar,
Bu qəm mənə deyil gərək.

Tanrım, bizə göy fəza ver,
Namərdə ağır cəza ver.
Nə olar ki, icazə ver,
Bir fərəhin üzün görək.

Sevinc gəlsin cərgə-cərgə,
Kədər uzaqlaşa bəlkə.
Sevdiklərim ilə birgə,
Səadət evinə girək.
25.06.2018

Sevinc Arzulu

**Sebir daşıyam**

Sönməz günəşiydin şeir dünyamın,
Dadlı duyğusuydun şirin röyanın,
Qəmə məxsus olan qanlı qayanın,
Nə bir çınqılıyam, nə bir daşıyam.

Yalanın pərdəsi soyulacaqdır,
Qüssədən, bir anda doyulacaqdır.
Ölsəm başım üstdə qoyulacaqdır,
Mərmədən qoyulan qəbir daşıyam.

Hər eldə, obada səni gəzirəm,
Fələyin kələfin çətin çözürəm.
Mən dağam ki, ayrılığa dözürəm
Kədərdən çatlamaz səbir daşıyam.

Sevinc Arzulu

**Sebir ver**

Onu  görcək itirirəm özümü,
Gözlərinə dikəmmirəm gözümü.
Ey Allahım, əsirgəmə dözümü,
Bu cəfanı çəkməyə lal səbir, ver.

Bilirəm ki, məndən yaman gileyli,
Başqasına salacaqmı o, meyli.
Qovuşmadıq. O Məcnun, mən də Leyli,
Dolaşmağa bir Səhrayi-Kəbir ver.

Namərdə döndərmə, İlahi, mərdi,
Mərd çəkə bilərmi bu ağır dərdi.
Oynaya bilmirəm onsuz da nərdi,
İstərsən ya sə-dü,ya da sə- bir ver.

Sevinc Arzulu

**Seç, ana**

Lalələr baharın al xətitəsi,
Qayalar torpağın sal xəritəsi.
Qırışlar könlünün lal xəritəsi,
Xəttini özüncə oxu, seç, Ana.

Qapqara saçında bəyaz toz gördüm,
Mənalı baxışda söhbət-söz gördüm.
Fələk öz işini yaman tez gördü,
Dünya bir pəncərə, baxıb keç, Ana.

Daha ağ əllərin qapımı döyməz,
Oğullar fəxr edib özünü öyməz.
Sənin varlığına min qızıl dəyməz,
Bu aləm gözümdə sənsiz heç, Ana.

Sevinc Arzulu

**Seç.allah**

Yaddaşımda ol məsəllər,deyimlər
Düymələri düyüm -düyüm düyümlər.
İşim müşkül,bağlı qalıb düyünlər,
Aç içimin düyününü,aç Allah.

Ərşə çıxıb gözlərimin yuxusu,
Təsir etmit al güllərin qoxusu.
Bu dünyada yox heç kimin qorxusu,
Pisə kömək eyləməkdən qaç,Allah.

Çox gur keçir imamların yığnağı,
Ağır olur eı töhməti,qınağı.
Biz hamımız bu dünyanın qonağı,
Qəlbimizə işığını saç,Allah.

Tanrı mərhəməti böyük olurmuş,
Açılan çiçəklər bir vaxt solurmuş.
Söyüdlər həsrətdən saçın yolurmuş,
Bəxtim üçün tək vüsalı seç,Allah.

Qəlbimdə edirəm sənlə söhbət,
Yaşayır könlümdə sənə məhəbbət.
Ulu tanrım,özün eylə məthəmət,
Zəhmətimi gəl eyləmə heç,Allah.

Yüksəlməsin göyə nə naləm,ahım
Bu dünyada təkcə sənsən pənahım.
Əgər varsa zərrə qədər günahım,
Qulun günahından özün keç,Allah.

Həsrətin,hicranın yolunu kəsim,
Göylərə ucalsın harayım,səsim.
Mənə verdiklərin bəsimdir,bəsim
Sevincinin ürəyinə köç,Allah.

Sevinc Arzulu

**Seçe bilmirim**

"Sən Allah, yuxuma girmə gecələr",
Yoxsa ki səhəri aça bilmirəm.
Vüsal badəsini vermə gecələr,
Içsəm günəştək nur saça bilmirəm.

Nə səsin gəlməyir, nə də sorağın
Kədər zəmisini biçmir orağın.
Özgənin əlində güzgü-darağın,
Necə sığal verim saça, bilmirəm.

Qaragöz hicranın ulduzu sönüb,
Ilahi sevginin gül üzü dönüb.
Ana Yer kürəsi tərsinə çönüb,
Ayağım dolaşır, qaça bilmirəm.

Sənsiz nə ümidim, nə gümanım var,
Nə məndən məhəbbət, eşq umanım var.
Demədin gözünü tez yumanım var,
Xəyallar qoynunda uça bilmirəm.

Gözümün yaşına tab eyləmə gəl,
Məni zalım xara bab eyləmə gəl.
Qanımı qapqara ab eyləmə gəl,
Dumduru suyu da içə bilmirəm.

Mənəm məhəbbətin ən sadiq qulu,
Hicrandır həsrətiin tək qalan dulu.
Dünyanın dərdləri uludan ulu,
Yol tapıb içindən keçə bilmirəm.

Fərəhi, sevinci qəm yoran görüm,
Ömrün payız fəsli qış-boran görür.
Itirər nurunu göz, toran görür
Sənsiz işığı da seçə bilmirəm.

Sevinc Arzulu

**Seçimdedir**

Göy düzde çen görməmisen?
Sünbülde den görmemisen?
Deme ki sen görmemisen,
Keder de men biçimdedir.

Geceler uya bilmezsen,
Sebebin guya bilmezsen.
Baxmaqla duya bilmezsen,
Şeir benim içimdedir.

Ay işığı xoşa geler,
Vüsal deyen boşa geler.
Qoşa geder, qoşa geler,
Hicran hesret köçündedir.

Yandırıb qem çırağını,
Gezdim sahil qırağını.
Itileyib orağını,
Felek artıq biçindedir.

Aşiq hara getsın,bilmir.
Nece yara yetsin, bilmir.
Kimi xoşbext etsin, bilmir,
Tanrı hele seçimdedir.

Sevinc Arzulu

**Seda meni qezel**

Mən əvvəldən çərx-fələkdən dərd-bəlayçun iznliyəm,
Bilirsənmi,ay sevgilim,nədən belə hüznlüyəm.
Ayrılığın önündəcə vüqarlıyam,əzmliyəm
Nə sındırar,nə dondurar avareyi-gəda məni.

Bu gün ayın on üçüdür,bütün işim nəsə düşüb,
Əzraili gətirən yol bu dəfə də kəsə düşüb.
Aman Allah,qulaqlarım nədən yenə səsə düşüb,
Çağıraraq haraylayır bir nisgilli səda məni.

Vüsal gülün vəsf etməklə dünya üzrə birinciyəm,
Indi təkcə ayrılığın,lal həsrətin girinciyəm.
Məni sayıb-seçməsən də dostlarımın sevinciyəm,
Qocalsam da tərk eyləməz nə naz,nə də əda məni.

Vətənimin göylərini indi qara bulud almış,
Neçə-neçə kənd,qəsəbə Dəli Kürün altda qalmış.
Sel-suları qara yolun yenə bizim eldən salmış,
De,haraya sürükləyir tükənməyən qada məni.

Son zamanlar qəmlənirəm,göynəyirəm göyüm-göyüm,
Kədərimin tüstüsündən qaraya bürünüb göyüm.
Əlimdən almayın mənim Ana Yeri,Ata Göyü,
Insafınız olsun barı, satmayın siz yada məni.

Sevinc Arzulu

**Sele yaxşıdır**

Uzatsam əllərim çatarmı sənə,
Əğyar öz kəməndin atarmı sənə.
Kainat sevincin satarmı mənə,
Tökülsə qəm-qüsəm selə, yaxşıdır.

Mənim öz sevdiyim, sənin öz sevdan
Dalğalar qoynunda batar eşq adan.
Istəməm olasan ayrılıq dadan,
Qoşulma hər fitnə-felə, yaxşıdır.

De, necə gizlənim gözündən sənin,
Baş açа bilmirəm sözündən sənin.
Xəbərin varmıdır özündən sənin,
Bəyaz  dən düşməsin telə, yaxşıdır.

Sənin sevgin məni ayaz eyləyib,
Fərəhim səmada pərvaz eyləyib.
Demə ki sevdiyin min naz eyləyib,
Əbədi qonağam elə, yaxşıdır.

Bil ki bu dünyanı tutub durmarıq,
Kədərin üstündə saray qurmarıq.
Şad gündə, düyündə badə vurmarıq,
Sağ ol, ay əzizim, belə yaxşıdır.

Sevinc Arzulu

**Semend oldu**

BÜLEND  OLDU

Bezdim artıq sessizlikden.
Uzağammı sehvsizlikden?
Bilirsenmi, sensizlikden,
Ahım göye bülend oldu.

Qem gölünde illenmedim,
Bulanmadım, lillenmedim.
Ne soruşdum, dillenmedin
Sözün elde demend oldu.

Bir göreydim büsatını,
Tanrının xoş saatını.
Arzuladım ağ atını,
Mindiyim boz semend oldu.
1.09.2013

Sevinc Arzulu

**Sen ağlama**

Qəlbdə ucaltdıb büstünü,
Yaşayarıq tən,ağlama.
Alsa başının üstünü.
Duman,çiskin,çən ağlama.

Bel bağlayıb mərhəmətə,
Layiq olma məzəmmətə.
Sadiq qalıb məhəbbətə,
Döz həsrətə sən,ağlama.

Su dayazdır,get dərinə,
Həsrət qalmayaq sərinə.
Gülüm,sənin də yerinə
Ağlayaram mən,ağlama.

Ək qızılgül kollarını.
Uzat mənə qollarını.
Qayıt geri,yollarını
Gözləyir Vətən,ağlama.

Ömrün ən gözəl çağında,
Sevinc,fərəh sol-sağında.
Meyvəli,yaşıl bağında
Qızılgül bitən,ağlama.
Gül içrə itən,ağlama.

Sevinc Arzulu

**Sen alma, qardaş**

ALMA,  QARDAŞ

Yaşaram dünyanın derdi-qeminde,
Min nale gizlenib eşqin himinde.
Çalırsan könlümün sarı siminde,
Yazığam, yanıqlı gel çalma, qardaş.

Tenha xatireler yaman üşüdü,
Anamın laylası yadıma düşdü.
Neden yaxşı günler tezce ötüşdü,
Qüsseli anlarda çox qalma, qardaş.

Dağ sebrim, iradem dözümde qalsın,
Sevgimin istisi közümde qalsın.
Izn ver, göz yaşım  özümde qalsın,
Derdimin qadasın sen alma, qardaş.
24.09.2013

Sevinc Arzulu

**Sen deme**

Qopdu tufan, yene yağdı yağışlar,
Hava soyuq, vüsalın harda qışlar.
Alnımdakı derin-derin qırışlar,
Ezabımın acısıymış sen deme.

Keder-qüsse, qemi-derddir dörd yanın,
Senin üçün ferqi yoxdur zamanın.
Tanımadan salam veren hicranın,
Hesretinin bacısıymış sen deme.

Daş qelblerden ay merhemet uman, din
Dolu qara gemi ilə liman, din.
Ayrılığa sığınan o iman, din
Mehebbetin hacısıymış sen deme...
04.12.2017

Sevinc Arzulu

**Sen geldin ömrüme**

Sən gəldin ömrümə bir mələk kimi,
Sevgidən güc alıb inadlanmışam.
Mən gəldim ömrünə kür külək kimi,
Sevincdən ucalıb qanadlanmısan

Sən mələk, mən külək. Haqqıq hansımız,
Görən çalacaqmı məhəbbət zəfər.
Bilirəm, var bizim bircə şansımız,
Gözləyir qarşıda çox uzun səfər.

Birgə addımlayaq bu uzaq yolu,
Sən məni, mən səni hey əzizləyək.
Qıraq önümüzdən tikanlı kolu,
Sevgi dünyamızı cüt təmizləyək.

Sevinc Arzulu

**Sen gelende**

Ay, ulduzla tən gedirdim,
Gah qəmli, gah şən gedirdim.
Sən gələndə mən gedirdim,
Görmədiyim ellərə.

Göy üzündə qara xaldım,
Işığımı xardan aldım.
Ah, necə də həsrət qaldım,
Hörmədiyim tellərə.

Itirmişəm kübarımı,
Izin yuyub su, barımı.
Kədərimi,qübarımı,
Vermədiyim  yellərə...
09.08.2018

Sevinc Arzulu

**Sen gülende**

Xəzriyə sinəsin gərib dalğalar,
O kövrək dalğalar, zərif dalğalar.
Edərək  hüsnünü tərif dalğalar,
Üstümə-üstümə gəlirlər həmən,
Dolub dayanıram sən güləndə mən.

Bilirəm, gülüşün mərhəm kimidir,
 Yaralı qəlbimə məlhəm kimidir.
Bir qədər sirlidir, mübhəm kimidir.
Dostu mdur arabir, yad olur hərdən.
Dolub dayanıram sən güləndə mən.

Sən gülsən qaralıb tüstü oluram,
Kədərin ən çirkin büstü oluram.
Sevdanın xəstəsi, süstü oluram,
Bir kimsə olmayər dərdimə həmdəm,
Dolub dayanıram sən güləndə mən.

Sevinc Arzulu

**Sen olmayanda**

Alışdırram közümü,
Hey silərəm gözümü.
Itirərəm özümü,
Neynəyərəm mən onda.
Gülüm,sən olmayanda.

Saçları ağ olaram,
Bir qarlı dğ olaram.
Viranə bağ olaram,
Görünnəm qara donda.
Gülüm.sən olmayanda.

Uzaqlaşdır sis.çəni
Lap yaxından gör məni.
Sevirəm təkcə səni,
Mən də olmaram sonda.
Gülüm,sən olmayanda.

Könlümün şan-şöhrəti,
Gəl qovaq bu həsrəti.
Ay ömrümün qüdrəti,
Sevgi yaşarmı qanda.
Gülüm,sən olmayanda.

Qızılgüllər solarmış,
Gözüm yaşla dolarmış.
Əbədilik olarmı,
Iki ürək bir canda.
Gülüm,sən olmayanda.

Sevinc Arzulu

**Sen olsaydn**

Açıldı al gülüm, derdim,
Ləçeklerin yere serdim.
Ömür boyu gülümserdim,
Sen olsaydın.

Qaraldıqca sönen közüm,
Qəmlenerdi ala gözüm.
Ruhumu oxşardı sözün
Sen olsaydın.

Xeyal mavi gemidimi,
Indi xeyal demidimi.
Itirmezdim ümidimi
Sen olsaydın.

Görüşümüz gec olmazdı,
Vaxtın özün seç-olmazdı.
Arzularım heç olmazdı,
Sen olsaydın.

Sevinc Arzulu

**Sen perimsen**

Sən könlümə yaxın, əziz
Su tək parlaq, şəffaf,təmiz.
Göylər kimi əsrarəngiz,
Yer təkin təzə-tərimsən.
Sən mənim alqış pərimsən.

Ləzzətimdə, dadımdasan,
Fərəhimdə, adımdasan.
Hafizəmdə, yadımdasan,
Sən ki mənim əzbərimsən.
Sən mənim baxış pərimsən.

Günəş tək al səhərim ol,
Işıqlı, nur şəhərim ol.
Bir udumluq qəhərim ol,
Taleyimsən, qədərimsən.
Sən mənim naxış pərimsən.
14.11.2017

Sevinc Arzulu

**Sen qelbimde**

Qızılı seç, büründü yox
Ləl tək parlaq bir inci yox.
Bircə anlıq sevinci yox,
Qəm dərd ilə tən qəlbimdə.

Məhəbbətdən bezə bilməz,
Xəyanətə dözə bilməz.
Başqasını sezə bilməz,
Mehman olub çən qəlbimdə.

Ayrılıq ölümdən betər,
Könül çətin vəslə yetər,
Başqaları gəldi-gedər,
Əbədisən sən qəlbimdə.

Sevinc Arzulu

**Sen ve men**

Səni hündür-hündür ağlayacağam.
Məni alçaq-alçaq kiridəcəksən.
Səni mundir-mundir bağlayayacağam,
Məni qoçaq-qoçaq dirildəcəksən.

Səni sətir-sətir tökəcəyəm mən,
Məni misra-misra hörəcəkmisən.
Sənə çətir-çətir çökəcəyəm mən,
Məni sısqa-sısqa görəcəkmisən.

Səni diqtə-diqtə yeridəcəyəm,
Sən məni sözbəsöz oxuyacaqsan.
Səni nöqtə-nöqtə çürüdəcəyəm,
Sən məni közbəköz toxuyacaqsan.

Sevinc Arzulu

**Sen yağışın ilk damlası**

Harda bitir buludlarla seyahetin en son ucu,
Sen yağışın ilk damlası,ben sonuncu.
Yol yoldaşı olsaq da biz,gor yoldaşı olammadıq.
Bir yerdece ömür sürüb,birge yaşa dolammadıq.
Sen hovuzun içinece,
Ben ovucun içinece sığışmadıq,
Özümüze yığışmadıq.
Gah  yubandın,gah telesdim,
Gök üzünden boylananda görünerdi:
Sen çinardın,ben velesdim.
Bir deyildi ne kökümüz,ne soyumuz.
Olmadı ki  son baharda sema altda
yarpaq tek yaşıl toyumuz.
Birleşmedik,
Arazlaşıb Kürleşmedik çoxu kimi.
Vaxtın olsa bu şeiri de oxu,kimin.
Bumudur eşqin sonucu?
Sen yağışın ilk damlası,
Ben sonuncu...

Sevinc Arzulu

**Sen yaşa, dünya**

( S.Vurğuna)

Olum ölüm ilə əl-ələ gəzir,
Insanlar içində vəlvələ gəzir.
Yenə od püskürür, zəlzələgəzir,
Düşmüşük yamanca təlaşa, dünya.

Gah gözü alasan,gah da qonursan,
Bizi yandırırsan, özün donursan.
Əvvəlcə sıxırsan, sonra yonursan,
Etmisən bizləri talaşa, dünya.

Insana bir dəfə verilir həyat,
Onu yaşamırıq şadlıqla, heyhat.
Yolumu gözləyir sonsuz kainat,
Aylı-ulduzlu göy tamaşa, dünya.

Sahilə sığmayan dəniz olmuşam,
Kədərli, qüssəli bəniz olmuşam.
Vəfasız həyata kəniz olmuşam,
Mənə də şənliklər yaraşa, dünya.

Şair libasını geyibdir Vurğun,
Halalca çörəyin yeyibdir Vurğun.
Sözün yaxşısını deyibdir Vurğun,
"Biz gəldi-gedərik, sən yaşa,dünya.

Sevinc Arzulu

**Sene**

Sensizliyin ağrısını,acısını
bu gün daha hiss etdim ben.
Yandım,yandım ateşinde,
Yaş ağac tek his etdim ben.
Kimse görmez tüstümü,yox,
Kimse yapmaz büstümü yox.
Senden başqa.
Sen yoxsan ki üreyimde
zaman-zaman yuva salıb qara keder.
Sen yoxsan ki bu,dünyada
en,en haqsız tale,qeder.
Ne şekil yox,ne yadigar baxıb etirini alım.
Derdli halda nece qışın qara çetirini alım.
Hesret bana hep qaranlıq bexş eyleyir,
Hicran yene hep toranlıq neqş eyleyir.
Ne edim ki,dözürüm ben.
heyatımdan,yaşamımdan bezirim ben.
Bes uşaqlar? Onların ne teqsiri var.
Men onları xoşbext görsem,
toy gününün gül çelengin özüm hörsem
sevinirim,şadlanırım
Belke onda dünyanın en xoş bendesi adlanırım.
Ne edim ki indi sensiz dözmeliyim.
Ben deliyim:
sessizlikden,sensizlikden,sehvsizlikden..
Tanrı ne vaxt reva bilse onda sene geleceyim.
Gözle,bir gün öleceyim.

Sevinc Arzulu

**Sene çatmaq üçün**

Kədərliyəm gündüz-gecə,
Şadlanmaq heç gəlmir vecə.
Bilsən, darıxıram necə,
Gülüm, sənə çatmaq üçün.

Dan yeri gec söküləcək,
Qəmdən ürək çöküləcək.
Kür çayına töküləcək,
Külüm, sənə çatmaq üçün.

Qəm qəlbimə çökən lildir,
Ağı deyən dodaq,dildir.
Mən çəkirəm neçə ildir,
Zülüm, sənə çatmaq üçün.

Hekayətim gəlməz dilə,
Dərdimi çəkmirəm zilə.
Həyatımı kimin ilə,
Bölüm, sənə çatmaq üçün.

Əsr əsri ötəcəkdir,
Illər yolda itəcəkdir.
Köməyimə yetəcəkdir,
Ölüm, sənə çatmaq üçün.

Sevinc Arzulu

**Sene doğru**

Sene doğru gelen yollar,
Gencliyimden keçir, bax.
Uzanıqlı qalan qollar,
Gencliyimi seçir, bax.

Rastlaşmışıq hesretinle,
Dayanmışıq üzbeüz.
Yaşamışam xiffetini,
Neçe iller düzbedüz.

Ne men geri çekilirem.
Ne de o addım atır.
Kederimden çökülürem,
Hissi adıma yatır.

Gülümseyir.Üzündece
Tebessümü görürem.
Alaqmıdır izindeki?
Heyretimden ölürem.

Gör ne vaxtdır görmeyirem,
Yollarıı ot basıbdır.
Danışmırsan, dinmeyirem,
Vüsal özün asıbdır.

Addımının kölgesini
Gizletmeyir divarlar.
Bu mehebbet olkesini
Hicran gezib o ki var.

Iqtidarım yox ki gelim,
Soyuq mezar üstüne.
Izace ver, men de ölüm,
Baxıb mermer büstüne.
04.04.2018.

Sevinc Arzulu

**Sene minnetdaram**

Boylanaraq hey quzeyə,
Yollarına yağan qaram.
Ürəyim dönüb muzeyə,
Savgisinə sadiq yaram.
Gülüm,sənə minnətdaram.

Bağımda gül bitirmişəm,
Sənə dəstə gətirmişəm.
Lal könlümü itirmişəm,
Ov axtaran tərlan,saram.
Gülüm,sənə minnətdaram.

Şeir yazdım məhəbbətdən,
Uzaq düşdüm şan-şöhrətdən.
Yoğrulmuşam sədaqətdən,
Satqınlarla yoxdur aram.
Gülüm,sənə minnətdaram.

Kədərin evin yıxaram,
Çətin qəlbimi sıxaram.
Nə eşqə xain çıxaram,
Nə bülbülə rəqib xaram,
Gülüm,sənə minnətdaram.

Çiçəyəm.saman deyiləm,
Yaxşıyam,yaman deyiləm.
Inləyən kaman deyiləm,
Şən musiqi çalan taram,
Gülüm,sənə minnətdaram.

Sevinc Arzulu

**Sene şiir dedim...**

Sene şiir dedim ayrılıqdan ben,
Xeyala dalıban susub oturdun.
Sene şiir dedim ayrılıqdan ben,
Derinden “ah” çekdin,köksün ötürdün.

Ahın duman olub göye yükseldi,
Yer üzü bir anda silkelendi,bax.
Dereden,tepeden.dağdan ses geldi,
Söyüdün saçları kilkelendi,bax.

Sene şiir dedim ayrılıqdan ben,
Içim parçalandı,gözlerim doldu.
Sene şiir dedim ayrılıqdan ben,
Kövrelib titreyen sözlerim doldu.

Gör nece hıçqırdı kederli sözler,
Here bir terefe üzünü tutdu.
Darıxma,bu şiirin sonunu gözle
Deyen deyeceyim bendi unutdum.

Sene şiir dedim ayrılıqdan ben,
Qelbime dammışdı.ayrılacağıq.
Daha görüş yeri olmaz göy çemen,
Çetin ki hesretden sıyrılacayıq.

Sevinc Arzulu

**Sene yalan dedim...**

Sene yalan dedim,
Başının üstünden
uzaqlara baxa-baxa.
Alnımdan ter puçur-puçur axa-axa.
“Sevdiyim var, gelecekdir.
Heyatını menimle ten
bölecekdir.”
Bir anlığa dünya durdu,
Üreyimin qızıl qanı üzüme vurdu.
Gözüne baxmaqdan qaçdım.
Nemli baxışlarını,
qemli yağışlarını görmemek üçün.
Bir söz bele söylemeden dönüb getdin,
Ah, ne etdin.
Sene yalan dedim.
Sen inandın,
Men utandım.

Sevinc Arzulu

**Sene yazıram**

Əzizım,deyirəm nə vaxtsa bir gün,
Əllərim əlinə toxunacaqmı.
Şəninə yazdığım şeir-əsərlər,
Sənin tərəfindən oxunacaqmı.

Sən duya bilərsən könül qəmimi,
Yazdığım şeirdə,dediyim sözdə.
Çiskinli payızın duman-çənini,
Sən görə bilərsən ağlar,nəm gözdə.

Bəlkə də mənim tək dərd çəkməyirsən,
Şənin öz dünyan var,mənim öz dünyam.
Öz  könül baxçanda qəm əkməyirsən,
Sənə tanış deyil mənim söz dünyam.

Çəkdiyim ağrını şeirə çevirib,
Misralar içində hərdən azıram.
Əzizim,otaqda tənha oturub,
Bu şeri tək sənə,sənə yazıram.

Sevinc Arzulu

**Senger qururam**

Söz içinde azmaq çetin,
Yeni şeir yazmaq çetin.
Yazılanı pozmaq çetin,
Elimde sünger dururam.

Şükrün bağlıma dolaşır,
Zikrin nağlıma dolaşır.
Fikrin ağlıma dolaşır,
Yerimde lenger vururam.

Dolun durur,boşun çekir,
Keder götür,xoşun çekir.
Xatireler qoşun çekir,
Önünde senger qururam.

Sevinc Arzulu

**Seni apardı, apardı**

Əsdi qəmin qara yeli,
Bəyaz etdi sarı teli.
Kədər dolu gur dağ seli,
Məni apardı,apardı.

Xəbər yoxdur səs-ünündən
Uzaq düşdün xoş günündən.
Dəli külək göz önündən,
Çəni apardı,apardı.

Fələk gəzər min bir donda,
Ağlar qoyar bizi sonda.
Əcəl gəldi,bircə anda,
Səni apardı,apardı.

Sevinc Arzulu

**Seni axrarıram**

Vüsalın ipek telini darayıram,
Seni axtarıb arayıram.
Geceler üreyimin ayazı ile
Gündüzler gözümün ziyası ile.
Gül üstdeki qanlı şehde,
Dağdan esen serin mehde
arayıram,tapammıram.

Belke dalğın baxışımda,
Belke her vaxt ilıq yağan
yağışımda gizlenmisin.
Bilmirim ki...
Seyr etdiyin dağların her qarışında,
Suyundan içdiyin bulağın göz yaşında
seni gezirim.
Ümidler denizinde üzürüm.
Batacam,bilirim.
Ne vaxtsa ben sene çatacam,bilirim.
Bilirim,bilirim,bilirim.

Sevinc Arzulu

**Seni defn eyledim**

Beni axtaran kes hesretden sorsun,
Dağ-daşı dolanıb özünü yorsun.
Durdum ayaqdaca, ildırım vursun.
Ağacda hicranı oymamaq üçün.

Köksümü oxlara sen nişan etme,
Hicranın evini zernişan etme.
Heç zaman halımı perişan etme,
Hevese, marağa doymamaq üçün.

Qurdlarla otlasın quzularım da,
Halallıq  duyulsun ruzularımda.
Seni defn eyledim arzularımda.
Gözümden irağa qoymamaq üçün.
27.10.2018

Sevinc Arzulu

**Seni gördüm**

Seni gördüm-baxışların nur saçırdı,
işığını gur saçırdı.
O gözlerin nurunda men
yol gederdim seheredek,
Tebessümden qeheredek.
O gözlerin gözlerimin qenimiydi,
Qem-kederi menimiydi.
Qaçırardım gözlerimi,
Uçurardım sözlerimi çerpeleng tek.
De, hardasan, tez gel görek.
Bilirem ki günahkaram,
Vaxtsız gelen ayrılığa  sebebkaram.
Neden düşdü aramıza qara hicran,
Heç çıxmadı yuxumuzdan şaxta-boran.
Xoşbextlere darıldıq biz,
Cansız-ruhsuz şekillere sarıldıq biz.
Şeklin ile danışardım men her axşam,
İndi şeklin önündece yandırıram böyük ağ şam.
Belke yanıb qurtaracaq seheredek,
Bir kimseye görünmez ki yanan ürek.

Bu ne gündür,  ne güzeran,
Dan yeritek al qızaran derdin gözü.
Soyumaz ki derdin közü.
Özü yanar, yandırar da
Istisiyle.
Gözlerimi çıxarar da tüstüsüyle.

Sevinc Arzulu

**Seni görmek isteyirem**

Səni görmək istəyirəm.
Bəyaz geysin çölüm deyə,
Görüm,sonra ölüm deyə.

Səni görmək istəyirəm.
Ürəyimi açım deyə.
Qəmdən uzaq qaçım deyə.

Səni görmək istəyirəm.
Dağılsın dumanım,çənim.
Eşq olmasın mənə qənim.

Səni görmək istəyirəm.
Ağrımasın qoy ürəyim,
Qəm çəkməkdən doy ürəyim.

Səni görmək istəyirəm.
Vüsalına çatım deyə,
Dərd-möhnəti atım deyə.

Səni görmək istəyirəm.
Bircə dəfə gülsün üzüm.
Badəmə al şərab süzüm.

Səni görmək istəyirəm.
Arzum qəlbdə qalmasın kaş,
Axmasın gözlərimdən yaş.

Səni görmək istəyirəm.
Nirla açılsın səhərim,
Gözdən yox olsun qəhərim.

Səni görmək istəyirəm.
Qonaq gəlsin ilham pərim,
Görüşərik Allah kərim.

Sevinc Arzulu

**Seni sevirim**

Mənə xoşbəxtlik gətir
İlim, səni sevirəm.
Sözündən yağır ətir,
Dilim, səni sevirəm.

Kədər ömür karvanı,
Şair onun sarvanı.
Mənə doğma Şirvanım,
Milim, səni sevirəm.

Ay ümidim, gümanım,
Məndən qayğı umanım.
Sən ol sisim, dumanım,
Tülüm, səni sevirəm.

Xoş fikirli, xəyallı
Çiçəklər gedər yallı.
Laləsi qara xallı,
Çölüm, səni sevirəm.

Bəm çalar qamış neyim,
Əynimə kəfən geyim.
Dünyadan köçsəm deyim:
-"Ölüm, səni sevirəm".

Sevinc Arzulu

**Seni sevirirm**

Mənə xoşbəxtlik gətir.
Ilim,səni sevirəm.
Sözümdən yağır ətir,
Dilim,səni sevirəm.

Gəl çatma qaşlarını,
Uzaq at daşlarını.
Gülüm,göz yaşlarını
Silim,səni sevirəm.

Kədər ömür karvanı,
Şair onun sarvanı.
Mən doğma Şirvanım,
Milim,səni sevirəm.

Ay ümidim.gümanım
Məndən qayğı umanım.
Sən ol sisim,dumanım
Tülüm,səni sevirəm.

Vüsal yol salmayacaq,
Xəyala dalmayacaq.
Yandırsan qalmayacaq,
Külüm,səni sevirəm.

Həmişə tənha olan,
Daim gözləri dolan
Gec açılıb tez solan,
Gülüm,səni sevirəm.

Xoş fikirli,xəyallı
Çiçəklər gedir "Yallı".
Laləsi qara xallı,
Çölüm,səni sevirəm.

Heç öyünmə çəninlə,
Saçındakı dəninlə.
Kədərimi səninlə,
Bölüm,səni sevirəm.

Əcəl aşından yeyim,
Əynimə kəfən geyim.
Dünyadan köçsəm deyim,
Ölüm,səni sevirəm.

Sevinc Arzulu

**Seni unutmaq üçün**

Kövrək nəğmə yazmayam,
Sevdalı bülbüllərə.
Çəmənlikdə azmayam,
Toxunmayam güllərə.

Gözəllik nəyə gərək,
Sən olmasan əzizim.
Ahənglə vurmaz ürək,
Dalğalanmaz dənizim.

Səni sevmək min əzab,
Min kədər-qəm gətirdi.
Oxumadığım kitab,
Sehirli dəm gətirdi.

Indi özün de, necə
Çıxarım səni yaddan.
Təpər gəlməyir vecə,
Doymuşam acı daddan.

Hələ  böyüməmişəm,
Hələ  yumşaq kimiyəm.
Illər heç sərt etməyib,
Körpə uşaq kimiyəm.

Intihar şəkillənir,
Gözəl-göyçək qız kimi.
Gəlməyir səda, hənir
Durmuşam yalqız kimi.

Bilirsənmi necəyəm,
Sənsiz darıxırammı?
Bu qaranlıq gecədən,
Qorxub karıxırammı?

Sakit, səssiz gecədə
"Qu"-dan qulaq tutular.
Kim deyir vaxtsız sevda,
Tezcənə unudular.

Səni unutmaq üçün
Gərək özüm yox olam.
Hicranın acısına.
Kədərinə tox olam.
10.06.2018

Sevinc Arzulu

**Senin baxışlarından**

Dünya qaranlıq mağar,
Güneş batar, ay doğar.
Ilıq yağışlar yağar,
Senin baxışlarından.

Ilahiden dilersen,
Şehi gözden silersen.
Ne hiss ede bilersen,
Çenin naxışlarından.

Keder oxumaq olar,
Libas toxumaq olar.
Hesret qoxumaq olar.
Qemin axışlarından.
15.10.2018

Sevinc Arzulu

**Senin ne  vecine**

SENİN  NE  VECİNE  1

Senin ne vecine, benimçün dünya,
Qefesden dar paltar geyib, oturub.
Senin ne vecine, alagöz xülya
Sonucda içimi yeyib, oturub.

Senin ne vecine, göz yaşlarımı
Inci tek üzüme düzüb durmuşam.
Senin  ne vecine, söz daşlarımı
Bir-bir yuvasından üzüb durmuşam.

Senin ne vecine, neler çekirim,
Gecemle gündüzüm deyişik düşüb.
Zamanın qatarın meler çekirim,
Vüsalın hesretle eyişib,düşüb.

Sevinc Arzulu

**Senin ne vecine**

Senin ne vecine,benimçün dünya,
Qefesden dar paltar geyib,oturub.
Senin ne vecine,alagöz xülya
Sonucda içimi yeyib,oturub.

Senin ne vecine,göz yaşlarımı
Inci tek üzüme düzüb durmuşam.
Senin ne vecine,söz daşlarımı
Bir-bir yuvasından üzüb durmuşam.

Senin ne vecine,neler çekirim,
Gecemle gündüzüm deyişik düşüb.
Zamanın qatarın meler çekirim,
Vüsalın hesretle eyişib,düşüb.

Sevinc Arzulu

**Senin yokluğun**

Şənin yoxluğunu dərk eyləyəndən,
Ürəyim ən nazik sapdan asılı.
Vüsal əbədilik tərk eyləyəndən,
Xatirən bir qoşun dərdə basılı.

Bilirsən,sənsizlik çalıb da çapır,
Qəlbimin işıqlı arzularını.
Elə bil özünə yurd-yuva tapır,
Qurda yem eyləyir ruzularımı.
09.08.2018

Sevinc Arzulu

**Senin yokluğunla...**

Tanrıdan daş-qaşlı tac istediler,
Güngörmez sevgiden bac istediler.
Yanıb qovrulublar,sac üstdedirler
Senin yoxluğunla benim varlığım.

Bir defe heç sola getmediler ki,
Birleşib qol-qola getmediler ki.
Ezelden heç yola getmediler ki
Senin yoxluğunla benim varlığım.

Könlümde qem evi tikmedilermi,
Günümü eskiye bükmedilermi.
Peşiman olub yaş tökmedilermi,
Senin yoxluğunla benim varlığım.

Sevinc Arzulu

**Senle qalaram**

Qəlbən tənha olanda.
Xəyallara dalaram.
Bulud kimi dolanda.
Dənizə yol salaram.

Qumlu cığırıq,izik.
Vəslə yetməyən bizik.
İstəsən qızıl üzük,
Özüm sənə alaram.

Ürək çətin yana tək,
Şevgisini ana tək.
Ömrümün sonunadək,
Mən səninlə qalaram.

Sevinc Arzulu

**Senli günler**

Məni gözü yaşlı qoyub,
Gözdən itdi sənli günlər.
Yəqin artıq məndən doyub,
Daha bitdi sənli günlər.

Təkcə qaldım yer üzündə,
Çəmənində,çöl-düzündə.
Qəm oxuram,yar,gözündə.
Nələr etdi sənli günlər.

Zirvəyəm,çəndən xəbərsiz,
Hörüyəm,dəndən xəbərsiz.
Bir gün də məndən xəbərsiz,
Sona yetdi sənli günlər.

Dağ başında tülə dönüb,
Al çiçəyə,gülə dönüb.
Gözəl qızılgülə dönüb,
Düzdə bitdi sənli günlər.

Sevinc sənə nəğmə qoşar,
Kədər,möhnət qəlbdə yaşar.
Dönüb gözəl qaranquşa,
Uçub getdi sənli günlər.

Sevinc Arzulu

**Senli günlerim**

Sevəndə sevgini duyanın olsun,
Çətində həm arxan.həyanın olsun.
Səsini aləmə yayanın olsun,
Qaldı yalnız mənə bəmli günlərim.

Sevda yuxusundan oyan,sevgilim.
Günəş işığına boyan sevgilim.
Getməyə tələsmə,dayan sevgilim.
Başlanar yenə də qəmli günlərim.

Var qəlbimin sağalmaz bir yarası,
Təkcə sənsən hər dərdimin çarası.
Səninləyəm,ay gözümün qarası,
Sənsizdir gözləri nəmli günlərim.

Qocaldıq belə tez zaman içində,
Şübhələr,bəlkələr güman içində.
Azdım öz yolumu duman içində,
Çiskinli günlərim,çənli günlərim.

Həsrətin qəlbimi salıbdır oda,
Heyf ki ömrümü mən verdim bada.
Sevinc deyər yenə düşübdür yada,
Şirin xatirəli sənli günlərim.

Sevinc Arzulu

**Senli xatire**

Senli xatirenin ocağı sönüb,
Yoxdur bir atımlıq köz atanı da.
Senli xatirenin uçağı enib,
Yoxdur enişine göz atanı da.

Içimde qaynayan deli dalğalar
Deyesen deniz de edecek meni
Kederli xatiren meni yırğalar,
Özüne keniz de edecek meni.

Izlyeyib sonadek göreceyem ki,
Xatiren yol alıb hasara sarı.
Üstünü bir daha höreceyem ki,
Çıxıb da getmesin o, xara sarı.
18.04.2018.

Sevinc Arzulu

**Sensiz**

Ağıl deyirsə qəlb əməl etməyir,
Nə səsim çatmayır, ünüm yetməyir.
Baxışın gözümdən bir an getməyir,
Yoxdur məndən sevgi umanım  sənsiz.

Həsrətin gücünü biləmmədim mən,
Səndən sevgi payı dilənmədim mən.
Yağış tək oduma çilənmədin sən,
Çəkilər çiskinim, dumanım, sənsiz.

Neynim, bu ğözəllik gəlməz ki vecə,
Gecəm gündüz olub, gündüzüm gecə.
Bu fani dünyada yaşayım necə,
Qalmayıb həyata gumanım sənsiz.

Sevinc Arzulu

**Sensiz darıxıram**

De, hardasan qara gözlüm,
Burda sənsiz darıxıram.
Qayıt mənim şirin sözlüm,
Yurda, sənsiz darıxıram.

Göy səmada şimşək çaxmaz,
Günəş təbəssümlə baxmaz.
Lal dayanar sular, axmaz
Gur da, sənsiz darıxıram.

Sevgi yüzümü bəzəsin,
Güllər düzümü bəzəsin.
Qayıt, üzümü bəzəsin,
Nur da, sənsiz darıxıram.

Sönməz közümü tapıram,
Səbr, dözümü tapıram.
Sanki özümü tapıram,
"Şur"da , sənsiz darıxıram.

Sevinc Arzulu

**Sensiz heçim**

Məhəbbətin türküsündən,
Həsrətin daş hörgüsündən
Həqiqətin körpüsündən,
Yalan sözlə necə keçim.

Bir ürəkdə iki cansan,
Geniş dünya,tək cahansan.
Sən hələ ki çox cavansan,
Qarşındadır böyük seçim.

Mil düzünə yağan qaram,
Xəyanətlə yoxdur aram.
Sən var ikən mən də varam,
Onu bil ki sənsiz heçim.

Sevinc Arzulu

**Sensiz heçime**

Hələ qəm könlündən yol salmayıbdır,
Hələ o günlərə çox qalmayıbdır.
Hələ xatirələr dəm almayıbdır,
Ağrısı-acısı dolmur içimə.

Şeytanürəklilər qəza istəyər,
Qartallar apaydın fəza istəyər
Məhkəmə ömürlük cəza istəyər,
Baxmaz günahıma, baxmaz suçuma.

Çətin ki bu bahar güllü yaz ola,
Bülbülə etdiyi əda, naz ola.
Nə qədər versələr mənə az olar,
Kim nə artıracaq sənsiz heçımə.
30.11.2017

Sevinc Arzulu

**Sensiz qocalmışam**

Darıxmışam göy dənizçün,
Su pərisi-Ağ bənizçün.
Ay əzizim, bəndənizçün,
On üçüncü bürc almışam.

Fələk, tez aç düyünləri,
Gəlsin toy-düyün ünləri.
Yaşadığım bu günləri,
İlahidən borc almışam

Bir gün əgər geri dönsən,
Min arzudan çələng hörsən,
Tanımazsan məni görsən,
Sənsiz yaman qocalmışam.

Sevinc Arzulu

**Sensiz röyalar**

Alaca gözümde parlaq yaş qalar,
Dilimin ucunda “keşke”,”kaş”qalar.
Tekce eşqin yeri daim boş qalar,
Benim sensiz olan röyalarımda.

Qızılgül solarsa,bülbül ağlayar,
Ferehin yolunu qüsse bağlayar.
Düuğular deniz tek coşub çağlayar,
Benim sensiz olan röyalarımda.

Tarıma çekilib,azalıb sebrim,
Felek günü-günden artırar cebrim.
Uca dağ başında hazırdır qebrim,
Benim sensiz olan röyalarımda.

Sevinc Arzulu

**Sensiz ürek**

Ay sevgilim, ver əlini.
Qaraltmayaq nur selini.
Məhəbbətin gur telini
Hörməyir ki sənsiz ürək.

Nədir hicrin özəlliyi,
Bəlkə payız xəzəlliyi?
Bunca yaşıl gözəlliyi
Görməyir ki sənsiz ürək.

Açmayır qızılgül kolu,
Xar alıbdır sağın-solun.
Vəslə doğru gedən yolu,
Yormayır ki sənsiz ürək.

Nədir hicrin layihəsi?
Ətirli eşq rahiyəsi.
Xoşbəxtliyin qafiyəsin,
Sormayır ki sənsiz ürək.

Ayrılığın addım səsi,
Məhəbbətin önün kəsir.
Külək kimi yaman əsir,
Durmayır ki sənsiz ürək.

Allah, dilləndir lalını,
Soruşum hal-əhvalını.
Xoş günlərin xəyalını,
Qurmayır ki sənsiz ürək.

Arzusuna çatıb  gülüm,
Dərd-qəmini atıb gülüm.
Əbədilik yatıb, gülüm
Vurmayır ki sənsiz ürək.
01.11.2017

Sevinc Arzulu

**Sensizim**

Donub dodağımda gülüşüm donub,
Könül budağıma yad bülbül qonub.
Sönüb gözlerimin işığı sönub,
Sensizim,sensizim,sensizim,sensiz.

Güllerim açırdı,açmayır daha.
Güneşim parlaq nur saçmayır daha.
Üreyim quş olub uçmayır daha,
Sensizim,sensizim,sensizim.sensiz.

Yaz olanda quşlar şen-şen ötüşür,
Bülbül gülle,gül bülbülle öpüşür.
Senle görüş yarı xeyir,yarı şer,
Sensizim,sensizim,sensizim,sensiz.

Suretin çekilmez gözümden bir an,
Getdin kelb evimi sen qoydun viran.
Daş deyil,ürekdir sevgiyle vuran
Sensizim,sensizim,sensizim,sensiz.

Sensiz keçen günüm qem payızımdır,
Bu benim qederim,alın yazımdır.
"Yanıq Keremi"ni çalan sazımdır,
Sensizim,sensizim,sensizim,sensiz.

Kaş ki görmeyeydim seni o zaman,
Almazdı üstümü bele sis,duman.
Bir de goörecemmi seni? Nagüman.
Sensizim,sensizim,sensizim,sensiz.

Benim könül hemdemimdi denizim,
Lepelerle yuyulubdur her izim.
Ne söyleyim,ne danışım ezizim.
Sensizim,sensizim,sensizim,sensiz.

Aydan nur alırıq,güneşden işıq.
Gah qelbi kövreyik,gah qelbi daşıq.
Birce yol görenler hüsnüne  aşiq.
Sensizim,sensizim,sensizim,sensiz.

Misralarım dağ çayı tek hey akar,
Ah çeksem dünyanı yandırıb yakar.
Gözüm yollarına bakar,hey bakar.
Sensizim,sensizim,sensizim,sensiz.

Deyirler ürekden-üreye yol var,
Bes niye qelbimi oxumursan yar.
Bu boyda kainat olub bene dar.
Sensizim,sensizim,sensizim,sensiz.

Göresen neçedir sevginin yaşı,
Heç vaxt seçemmedim qurunu,yaşı.

Yene ovcumdadır gözümün yaşı,
Sensizim,sensizim,sensizim,sensiz.

Damarımda axan qanım olmusan,
Bu dünyada tek ünvanım olmusan.
Benim eşqim,din-imanım olmusan,
Sensizim,sensizim,sensizim,sensiz.

Sevib-sevilenin çok olar derdi,
Günlerim menasız,ömrüm hederdi.
Sevinc deyer,eşqin sonu kederdi,
Sensizim,sensizim,sensizim,sensiz.

Sevinc Arzulu

**Sensizlemişim**

Bilirsin,nece de sensizlemişim,
Xatiren dadıma çata bilmeyir.
Bir uca zirveyem,çensizlemişim
Kederin adıma yata bilmeyir.

Eh,neçe müddetdir ben canıyanmış,
Günlerle olmuşam hicran yorğunu.
Neyneyim,üreyim tek seni anır,
Unuda bilmeyir çiçek qoxunu.

Sebrimi elimden alıbdır zaman,
Yerine acılı bir ömür verib.
Yolunu ölümden salıbdı zaman,
Parlaq daş evezi nem kömür verib.

Yanmayır,sadece tüstülenir bax,
Gencliyin ağrısı qelbimde qalıb.
Üreyim nece de istilenir,bax
Alaca gözlerim xeyala dalıb.

Xeyalım ağ atla haraya çapır,
Vüsalın elçatmaz çinar başında.
Arayıb-axtarıb neleri tapır,
Könlümün fidanı sınar başından.

Sevinc Arzulu

**Sensizlik qefesi**

Açdım üreyimin perdelerini.
Ne qeder tamaşa edenim varmış.
Yamanca uzadıb derd ellerini,
Dünyanın sonuna gedenim varmış.

Dolaşıb kederin ayaqlarına,
Fereh üzü üste çöküb torpaqa.
Baxıb gecelerin oyaqlarına,
Yamyaşıl göz yaşı tökür torpağa,

Qısqanma ezizim, qısqanma daha,
Bir qara sevdanın hevesindeyem.
Soyuq göz yaşından islanma daha,
Dünyanın sensizlik qefesindeyem.
22.01.2018

Sevinc Arzulu

**Sensizliyim**

Ağrısını illər boyu çəkəcəm də,
Darıxanda tprpaq üstə çökəcəm də.
Dərd çıxarıb yerində qəm əkəcəm də,
Gözlərimdə qan-yaş olar sənsizliyim.

Qəribə bir nisgil yaşar gecəsində, gündüzündə,
Min bir ətir iyi gələr çəmənində, gül düzündə.
Tanrı qara xal da qoyub al lalənin gül üzündə,
Çətin mənlə adaş olar sənsizliyim.

Mənimçün də çalınacaq bir gün son zəng,
Əynimə geydiyim libas olacaqdır  tamam ağ rəng.
Şair qəlbim ayrılığın qüssəsiylə həmahəng,
Ürəyimdə lal daş olar sənsizliyim.

Sevinc Arzulu

**Sensizliyin ağrısı**

Sensizliyin ağrısını,acısını
bu gün daha hiss etdim ben.
Yandım,yandım ateşinde,
Yaş ağac tek his etdim ben.
Kimse görmez tüstümü,yox,
Kimse yapmaz büstümü yox.
Senden başqa.
Sen yoxsan ki üreyimde
zaman-zaman yuva salıb qara keder.
Sen yoxsan ki bu,dünyada
en,en haqsız tale,qeder.
Ne şekil yox,ne yadigar baxıb etirini alım.
Derdli halda nece qışın qara çetirini alım.
Hesret bana hep qaranlıq bexş eyleyir,
Hicran yene hep toranlıq neqş eyleyir.
Ne edim ki,dözürüm ben.
heyatımdan,yaşamımdan bezirim ben.
Bes uşaqlar?
Onların ne tə qsiri var.
Men onları xoşbext görsem,
toy gününün gül çelengin özüm hörsem
sevinirim,şadlanırım
Belke onda dünyanın en xoş bendesi adlanırım.
Ne edim ki indi sensiz dözmeliyem.
Ben deliyim:
sessizlikden,
sensizlikden,
sehvsizlikden..
Tanrı ne vaxt reva bilse onda sene geleceyim.
Gözle,bir gün öleceyim.

Sevinc Arzulu

**Serçe  olum**

Ben hamıdan göyçek olum,
Güneş rengli çiçek olum.
Arada bir serçe olum,
Deyim:-”Sazım dınqıl-dınqıl”.

Yaman tanış bene yer-göy,
Isteyirsin qapısın döy.
Başım üstde sema gömgöy,
Dağı-daşı çınqıl-çınqıl.

Iradem var dözüm boyda,
Könlüm yanar közüm boyda.
Arzularım özüm boyda,
Ümidlerim cınqıl-cınqıl.

Sevinc Arzulu

**Serer beni**

Xeyalın ox olub,derd yaya dönüb,
Ayrılıq qaranlıq dünyaya dönüb.
Hesretin sel gelen gur çaya dönüb,
Gözlerim yaş yuyub,nem serer beni.

Neçe xal düşübdür ayaq izine,
Laleler çatarmı indi dizine.
Güneşin nuruna hamı qızınar,
Vüsalın gün altda kem serer beni.

Gözlerik hicranın sonunu bele,
Geyerik kederin donunu bele.
Dünyanın ezeli qanunu  bele,
Şadlıq zor eylemez,qem serer beni.

Sevinc Arzulu

**Sert qucağında**

Şeir-mektublar yazandıq,
Çetın yolda gec azandıq.
Ne itirdik, ne qazandıq,
Ömrün-günün bu çağında.

Vüsal evi yaman çöküb,
İller onu daş-daş söküb.
Dayanmışam boynubükük,
Xatireler bucağında.

Küsülüydük, barışmadıq,
Sevenlere qarışmadıq.
Biz qor olub alışmadıq,
Mehebbetin ocağında.

Sene könül açammadım,
Derdden uzaq qaçammadım.
Gülüm, heyf, uçammadım,
Vüsalın ağ uçağında.

İlhamımı qemden aldım,
Yolumu qar-qışdan saldım.
Heykel kimi donub qaldım,
Hesretn sert qucağında.

Sevinc Arzulu

**Sert üreyimsen**

Qəm daşıyır bu arx, getsin,
Dərdin ipin buraq, getsin.
Yumşaqlığı burax getsin,
Sən mənim sərt ürəyimsən.

Ayrılıqdan küsməlisən,
Hicrin yolun kəsməlisən.
Mən tərəfə əsməlisən.
Sən mənim səmt küləyimsən.

Günəş olsan heç sönərəm,
Işığına mən dönərəm.
Arxayınca söykənərəm,
Mənim Səhənd kürəyimsən.
27.12.2017.

Sevinc Arzulu

**Servetim Şuşam**

Sənsiz həyat  bir ömürlük cəhənnəm,
Sənsən mənim gözəl cənnətim, Şuşa.
Sənsiz mənim ürəyimi alar qəm,
Qiyməti olmayan sərvətim,Şuşam.

Yay günündə havan, suyun sərindi,
Dərələrin əlçatmazdır, dərindir.
Bizsiz necə yaşayırsan sən indi,
Sənsiz yoxdur varım-dövlətim,Şuşam.

Sən olmusan ziyarətgah, pir mənə
Qoynunda ver əbədilik yer mənə,
Bayrağımız sancılar daş zirvənə,
Sənsən dəyanətim, qüdrətim,Şuşam.
29.04.2017

Sevinc Arzulu

**Seslenir indi**

Əvvəlki nizamı pozulan şeir,
Hər sözü min yerə yozulan şeir,
Sənin ölümünə yazılan şeir,
Mənim şərəfimə səslənir indi.

Eh, vaxtsız-vədəsiz solan arzular,
Sanki yüz yaşına dolan arzular.
Bir zaman ət-qanlı olan arzular,
Quruca xəyalla bəslənir indi

Özünə imarət qurub keçmişdi,
Mərdanə ayağa durub keçmişdi.
Ümidim on üçü vurub keçmişdi,
Bəs niyə təzədən nəslənir indi.
24.05.2015

Sevinc Arzulu

**Sev öyle meni**

Hamını sen yetir murada. kama
Qıyma hesret qalsın bal kimi tama.
Olmaq istemirem men uçuq koma,
Allahım, qurulu ev eyle meni.

Sehirli balıq da düşmez qırmağa,
Yamanca pergardır can qurtarmağa.
Menimçün en çirkin yaşıl qurbağa,
Istersen tepegöz dev eyle meni.

Bir şair qelbim var:şeirli, nağıllı,
Senin bir hökmünden dünya dağılı.
Meni ne gözel et, ne də ağıllı,
Olduğum kimice sev, öylə meni.

Sevinc Arzulu

**Sev,ezizim**

Sev dürrümü,sev incimi
Alma elden sevincimi.
Vüsal senin sevincinmi,
Bu dünyanı sev,ezizim.

Sen en böyük mehebbetim,
Qelb ovlamaq meharetim.
Eger varsa herareti,
Sıxmaz seni ev,ezizim.

Göz yaşım silmesen eger,
Danışıb gülmesen egə r.
Qedrimi bilmesen eger,
Heyf benden,heyf,ezizim.

Sevinc Arzulu

**Sevda olur**

Arzuları dilim olar.
Ümidləri kilim olar.
Addımları zülüm olar,
Əzablıymış sevda yolu.

Hər aşiqdən söz almayan.
Odsuz qəlbdən köz almayan,
Saralmayan.sozalmayan
Lal ürəyim sevda dolu.

Arzular az,qayğılar ox.
Röyalar ac,uyğular tox.
Saf könlümdə duyğular çox,
Hər közərti sevda olur?!

Sevinc Arzulu

**Sevdalım**

Qədrini az bilmişdim,
Kefini saz bilmişdim.
Mən səni yaz bilmişdim,
Mənim payız sevdalım.

O bir çağlardı, getdi,
Səni tapardı, getdi.
Illər apardı getdi.
Hanı o qız, sevdalım.

Gizlər duman, çən məni,
Tapar yeni dən məni.
Çağır yenidən məni,
Bircə ağız, sevdalım.
01.05.2018

Sevinc Arzulu

**Sevdam menim**

Taleylə oynadım oyun,
Axır ona əydim boyun.
Söylə,səndən necə doyum.
Qaragözlü sevdam mənim.

Mənsizlikdən bezərdinmi,
Qəmi gözdən sezərdinmi,
Tənhalığa dözərdinmi,
Qaragözlü sevdam mənim.

Kökdən düşüb vüsal tarım,
Qalmayıb əldə tutarım.
Səni harda de,axtarım,
Qaragözlü sevdam mənim.

Dağda duman,çəni gəzdim,
Saçındakı dəni gəzdim.
Hey axtardım,səni gəzdim,
Qaragözlü sevdam mənim.

Göydən yerə endim sənçün,
Ulduz idim,söndüm sənçün.
Lal heykələ döndüm sənçün,
Qaragözlü sevdam mənim.

Sevinc Arzulu

**Sevdamızın**

Bizim bu sevdamızın,
Çinar-çinar boyu var.
Bülbüli-şeydamızın
Çinar altda toyu var.

Qızılgül ləçəyini
Sərəcəkdir hər yana.
Yasəmən çiçəyini
Dost tək bəxş edib ona.

Susqun baxışlarından
Solğun yanaq allanır.
Güzgü naxışlarından,
Xatirələr aldanır.

Sevinc Arzulu

**Sevdasını dananım**

Payızımı qaynar, isi yay edən,
Əhvalımı acı sözlə zay edən.
Üzüb məni, üzərriyə tay edən,
Atəşinə məndən də çox yananım.

Gəzir çölli-biyabanı tək, veyil,
Məcnun olan haqq aşiqi qəm yeyir.
Gör titrəyən şam işığı nə deyir.
Dara düşsə sevdasını dananım,

Deyən yenə ürəyinə aş düşüb,
Onunçun də gözlərindən yaş düşüb.
Bu qədərmi ağlın azıb,çaş düşüb,
Özgürlüyü əhli-keflik qananım.
03.12.2018

Sevinc Arzulu

**Sevdasız xatire**

Qalmışam iki hiss əlində naçar,
Ayrılıq üzündən vüsal gen qaçar.
Bağlı ürəklərə tapılmaz açar,
Sevginin sevdasız xatirəsində

Yolun əvvəlində dayanıb durdum,
Əlimi hicranın əlinə vurdum.
Bir nakam sevgiyə abidə qurdum,
Sevginin sevdasız xatirəsində

Sənə zülm eylədi alagöz pəri,
Yolunda badamı verdin illəri?
Solubdur ömrünün bahar gülləri,
Sevginin sevdasız xatirəsində.
14.05.2018

Sevinc Arzulu

**Sevdim seni**

Qızıl darağım da yox,
Gümüş varağım da yox.
Maddi marağım da yox,
Sadəcə sevdim səni.

Şerin nəsiri idim,
Şadlığın kəsiydim.
Gözünün əsiriydim,
Sadəcə sevdim səni.

Nə tələsən, duzaqsan,
Nə  şaxtasan, sazağsan.
İndi məndən uzaqsan,
Sadəcə sevdim səni.

Sevinc Arzulu

**Sevdiyim**

Çəksə də dağ eşməni,
Qurutmaz ki çeşməni.
Dostun ilə düşməni,
Tanı, mənim sevdiyim.

Hamı qoşa-qoşadır,
Şikayətim yaşadır.
Xatirələr yaşadır,
Hanı, mənim sevdiyim.

Tez çağır bayatımı,
Köhnəmi, boyatımı.
Işıqlı həyatımın,
Canı, mənim sevdiyim.

Sevinc Arzulu

**Seve bilmezsen**

Mehebbet dağında ağappaq qaram,
Tek sene sadiqem, tek se ne yaram.
Ne qeder ki, üreyinde men varam,
Başqa birisini seve bilmezsen.

Ellerimden silinmeyib izlerin,
Yaddaşımdan getmeyibdir sözlerin.
Gözlerimi unutmasa gözlerin,
Başqa birisini seve bilmezsen.

Sevgiden uca hiss varmı dünyada,
O gözel çağımız düşürmü yada.
Sen atlı olmasan, mense piyada,
Başqa birisini seve bilmezsen.

Sevinc Arzulu

**Seven varmı**

Seyr etmədim bu aləmi,
Tez dərdilər qan laləmi.
Kimsə eşitməz naləmi,
Dünya təkcə mənə karmı?
Səni mən tək sevən varmı?

Üzünə ağ niqab çəkər,
Gözlərindən qan-yaş tökər.
Dərd əlindən yerə çökər,
Qəm dağına yağan qarmı?
Səni mən tək sevən varmı?

Hanı qışımı yaz edən,
Qara günüm bəyaz edən.
Uca göydə pərvaz edən,
Məğrur qartalmı, ya sarmı?
Səni mən tək sevən varmı?

Sevinc Arzulu

**Sevenlerin suçu**

Küləyi meh haylayır,
Çağırir,”Eehh” haylayır.
Nədəndir şeh parlayır,
Kipriyinin ucunda.

Dağ-dərə düzlənibdir,
Ot ilə üzlənibdir.
Görən nə gizlənibdir,
Səadətin ovcunda.

Qəlbə  həmdəmi seçin,
Xoş röyalar çıxsın çin.
Ey insanlar, siz keçin
Sevənlərin suçundan.
11.11.2017

Sevinc Arzulu

**Seversenmi**

Kədər atın tezcə minsəm.
Şeirlə danışıb dinsəm,
Qocalıb qarlya dönsəm,
Söylə,məni sevərsənmi?

Tək adındır dilimdəki,
Qəm daşıdır əlimdəki.
Sünbül-sünbül telimdəki,
Bəyaz dəni sevərsənmi?

Gəl,ay qəlbimin gümanı,
Sevincdən sevda umanım.
Düzənlikdə sis.dumanı,
Dağda çəni sevərsənmi?

Sevinc Arzulu

**Sevgi dastanısan**

Şirin arzun, diləyinəm,
Əyilməyən biləyinəm.
Mən sənin eşq mələyinəm,
Sən könlümün sultanısan.

Dalğaları aşamazsan,
Sahilini daşamazsan.
Çətin günlər yaşamazsan,
Dostu-düşməni tanısan.

Daima qoru eşqini,
Yaxın qoyma nifrət-kini.
Leyli ilə Məcnun kimi,
Əsil sevgi dastanısan.

Sevinc Arzulu

**Sevgi ölür**

Unut sən bütün sərini,
Tale yazıb qədərini.
Həmişə dərd-kədərini,
Qəmini özüylə bölür.
Kim deyir ki sevgi ölür?!

Həsrəd qalmışam gülüşə,
Ağ tellər bənzər gümüşə.
Eşqimi oxşat günəşə,
Günəşin nuru gec sönür.
Kim deyir ki sevgi ölür.

Şevinc eşqi ucuz tutmur,
Örənləri heç unutmur.
Xatırən onu uyutmur,
Qəlbində qüssəyə dönür,
Kim deyir ki sevgi ölür?!

Sevinc Arzulu

**Sevgi perim**

Dərdin yanından asta keç,
Qüssə içindən usta keç.
Vüsal yaxın qoymadı heç,
Təkcə həsrət sevdi məni.

Göz yaşları buz olan göy,
Ulduzlardan duz alan göy,
Həyasından qızaran göy,
Məgər yerə "sev"deməli.

Ayrılıq oyunbaz olar,
Libasın soyunmaz olar.
Əzabı doyulmaz olar,
Məni atmaz sevgi pərim.

Sevinc Arzulu

**Sevgi şerimsen**

Qat-qarış görülən yuxular kimi,
Bu bühuş edici qoxular kimi,
Həsrətdən od təkin qorxular kimi,
Mənim yozulmayan sevgi şeirmsən.

Ay mənim illərdir yol gözləyənim,
Sinəsi üstündə köz közləyənim.
Bir ümidverici söz özləyənim,
Mənim yazılmayan sevgi şeirmsən.

Bircə xəbər göndər, bilim hardasan,
Həmişə qışdasan, boran-qardasan,
Bəlkə çətindəsən, bəlkə dardasan.
Mənim yaz olmayan sevgi şeirmsən.

Sevinc Arzulu

**Sevgi yolu**

Heç işi yox sağnan, solnan,
Gül bitirər yüz-yüz kolnan.
Yollaşarsa başqa yolnan,
Kama yetər sevgi yolu.

Həmdəm olar rəfiqə tək,
Qoymaz ki bir dəqiqə tək.
Hey uzanar üfüqə tək,
Gözdən itər sevgi yolu.

Qəlb ağlasa, ürək gülməz,
Kimsə nədir dərdim,bilməz.
Bilirəm ki gedən gəlməz,
Qəfil bitər sevgi yolu.

Sevinc Arzulu

**Sevgiden nifrete**

Sən ey yolum üstdə duran canavar,
Sevgidən nifrətə bir addım yol var.
Bilirəm vüsala gedən cığırlar,
Heç zaman olmayıb asfalt tək hamar.

Sevib-sevilənlər anlayar ancaq.
Məhəbbət alidir, deyil oyuncaq.
Ahımdan ayrılar kiçik qığılcım,
Bir anda alışar sönən od-ocaq.

Sevinc Arzulu

**Sevgiden ölek indi**

Dərd əlindən üzülməyək,
Qəm sapına düzülməyək.
Göz yaşı tək süzülməyək,
Fərəh hissin bölək indi.
Gəl sevgidən ölək indi.

Pozaq ömrün hədərini,
Yox eyləyək kədərini.
Məhəbbətin qədərin,
Qiymətini bilək indi.
Gəl sevgidən ölək indi.

Ağlamaqdan nə çıxar ki,
Qəm evimi tez yıxar ki,
Sevinc seli gur axar ki,
Hətta gülsün fələk indi.
Gəl sevgidən ölək indi.

Yaş gələr yaşımız üstünə,
Dən yağar qaşımız üstünə.
Bir bax başımız üstünə,
Qanad çallır mələk indi .
Gəl sevgidən ölək indi.

Daha gizlət göz yaşını,
Qara rəngli daş-qaşını.
Məgrur,uca tut başını,
Qoşa gedib-gələk indi.
Gəl sevgidən ölək indi.

Sevinc Arzulu

**Sevgim**

SEVGİM

Baxışı  qarı oyub,
Naxışın xarı soyub.
Benim tek yarı qoyub,
Sevdin melalı, sevgim.

Derini de soydular
Gören gözün oydular
Sonda tenha qoydular,
Başı belalı sevgim.

Qem günüm gelmez saya,
Derdimi külek yaya.
Bir bax gözel Humaya
Hanı Celalı, sevgim.

Sevinc Arzulu

**Sevgin ile ölürüm**

Bu da bir taledir, bu da bir qismət,
Tələ quracaqmış mənə bu həsrət.
Ürəyimdə yuva qurar məhəbbət,
Yalnız sənin sevgin ilə ölürəm.

Cavan ömrüm necə keçdi hədər,bax
Heç çəkilmir gözlərimdən kədər,bax.
Yəqin belə yazı yazıb qədər,baxt,
Yalnız sənin sevgin ilə ölürəm.

Gözlərimdən qanlı yağır yağışım,
Sular kimi lal olubdur baxışım.
Naxışınla birləşmədi naxışım,
Yalnız sənin sevgin ilə ölürəm.

İnanmayır nalə,aha Sevincin,
Dönübdür tac-taxtsız şaha Sevincin.
Bu dünyadan bezib daha Sevincin,
Yalnız sənin sevgin ilə ölürəm.

Sevinc Arzulu

**Sevinc**

Hamı gedər evinə,
Kim gülə,kim sevinə.
Batıb dərdin qəminə,
Halı qarışan Sevinc.

Aralığa çıxıban,
Öz küməsin yıxıban.
Əllərini sıxıban,
Qəmlə barışan Sevinc.

Həyat var zülümüylə,
İnsafsız bölümüylə.
Ölümsüz ölümüylə,
Xarla yarışan Sevinc.

Günlərin bir günündə,
Dünyadan gedən Sevinc.
Ruhun tərk edər səni,
Boş qalar bədən,Sevinc.

Üzündə qəm naxışı,
Gözündə nəm baxışı.
Yağdırma çən-yağışı,
Ağlarsan nədən,Sevinc.

Gör fələyin gərdişin,
Seyr et qoşa pər dişin.
Ölümün pis vərdişin,
Tez qəbul edən Sevinc.

Qəm-qüssəyə çox dözüb,
Işıqda zülmət sezib.
Yerin qəmindən bezib,
Səmaya gedən Sevinc.

Sevinc Arzulu

**Sevinc meni**

Qara deyib ağa vurma,
Lək göstərib tağa vurma.
Sola baxıb sağa vurma,
Etmə belə girinc məni.

Günəşindən qovruldum ki,
Küləyində sovruldum ki.
Qəm çəkməkdən yoruldum ki,
Qoy oturum bir dinc məni.

Taqət olum,dözüm olum.
Qcağımda közüm olum.
Özüm kimi özüm olum,
Çulğalasın sevinc məni.

Sevinc Arzulu

**Sevinci**

Özgə bir gözələ ad olmadınmı,
Doğma,əziz ikən yad olmadınmı.
Məni görməyinə şad olmadınmı,
Gözündən sezirəm qəmli sevinci.

Başqasın qəlbində birinci etdin,
Ləlimi parlamaz bir inci etdin.
Həsrətin əsiri,girinci etdin,
Gözləri daima nəmli Sevinci.

Yorğun xatirələr qəlbimdə yatmış,
Ozü tək məni də qəmə boyatmış.
Şirin röyasından kimlər oyatmış,
Qocalıban səsi bəmli Sevinci.

Sevinc Arzulu

**Sevincin**

Yox evvelki ateşin herareti,
Odu sönüb, közü qalıb Sevincin.
Qalmayıbdır  cavanlıq mehareti,
Yalnız quru sözü qalıb Sevincin.

Gencliyinde gözeldi,mesti-nigar,
Gül kimi soldurdu onu ruzigar.
Acı-şirin günlerinden yadigar,
Yaşla dolu gözü qalıb Sevincin.

Arzuları,ümidleri puç daha,
Heç eyleme ne günah,ne suç daha.
Könül quşum,qanadlanıb uç daha,
Ruhu gedib,özü qalıb Sevincin.

Olmuş idi mehebbetin fedası,
Yayılmışdı uzaqlara sedası.
Sığışmazdı yere-göye edası,
Ne işve, ne nazı qalıb Sevincin.

Güneş ile açılmayır seheri,
Könlündedir bir nisgilin qeheri.
Şair deyer dönmez ömrün baharı,
Bir külekli yazı qalıb Sevincin.

Sevinc Arzulu

**Sevincin ad günü**

Mübarəkdir ad günün,
Ay mənim Sevinc bacım.
Bu gün sənin şad günün,
Heç dayanma dinc, bacım.

Hamı ilə danış, gül
Səsin ucadan gəlsin.
Nəğməylə dolsun könül,
Səmayadək yüksəlsin.

Gör həyatda tənhalıq,
Sənlə yollaşırmı.
Təəssüf ki çox erkən,
Itirdin yoldaşını.

Üç qızına tək ana,
Olmadın ki sən bacı.
Döyünən ürək ,Ana,
Ailənin baş tacı.

Arzuların  müqəddəs,
Ümidlərin tükənməz.
Uzağı  görməyən şəxs,
Gözəl saray tikəmməz.

O sarayın içində,
Yaşayın əmin-aman.
Sənin əsl qiymətini,
Əsirgəməz ki zaman.

Gülə-gülə yaxınlaşar
Sənə  Könül, Elnarə.
Fərəhləri aşıb-daşar,
Hər müşkülünə çarə.

Müğənnidir şükür,  indi
O körpəcə Gülayın.
Sonsuz kainat sənindi,
Nəvələr ulduz, ayın.

Xoşbəxtliyin qapıları,
Üzünüzə acılsın.
Təbəssümün şüaları,
Ömrünüzə saçılsın.

Istəyirəm hər bir Ana,
Dünyada xoşbəxt olsun.
Ürəyində Tanrısına
Böyük məhəbbət olsun.

Sən də mənim adaşımsan,

Sözləri inci bacım.
Dostlarının sirdaşısan,
Elin Sevinci bacım.

27.06.2018

Sevinc Arzulu

**Sevincinim**

Qem qumunu bir lil bilsem,
Sensiz günü bir il bilsem,
Ne ejdeha,ne iblisem,
Cani-dilden sevin,cinim.

Vüsalını yasaq etme,
Serin mehi sazaq etme.
Tax boynuna,uzaq etme
Ezizleyib sev,incinim.

Üreyimi hicran sıxsa,
Qelb evimi hesret yıxsa.
Tanımadın meni yoxsa,
Dünya,senin Sevincinim.

Sevinc Arzulu

**Sevir, başına döndüyüm**

Baxma fələyin daşına,
Saxta axan göz yaşına.
Pisi yaxşının başına,
Çevir, başına döndüyüm.

Yalnız lirik nəğmə oxu,
Qızılgüldən çələng toxu.
Neyniyim ki məni çoxu,
Sevir, başına döndüyüm.

Inan sən anda, amanə,
Tuş olmayaq ox- kəmanə.
Belə gəlibdir zəmanə,
Dövr, başına döndüyüm.
28.05.2015

Sevinc Arzulu

**Sevirim**

Bülbülün qızıldan qefesi vardır,
Vurnuxar,uçmağa hevesi vardır.
Benim tek canlıdır,nefesi vardır,
Yarpağın üstüne yazdım:-”Sevirim”.

Qıyma ki ayrılıq qelbi qanatsın,
Qoyma ki ayrılıq günüm sanatsın.
Her yağış yağanda bir az boy atsın,
Torpağın üstüne yazdım:-”Sevirim”.

Fidanı sularam,böyüsün deye,
Könlümü sıxıram döyünsün deye.
Görmeyen gözüne görünsün deye,
Dodağım üstüne yazdım-”Sevirim”.

Sevinc Arzulu

**Sevmesen nolar**

Ayrılıq utanmaz heç üst-başından,
Boyun almadığı milyon yaşından.
Dünyanın qapqara əzab aşından,
Yesən nə olar ki,yeməsən nolar.

Həsrətin söndürdü könül közümü,
Ilahi çox gördü səbri,dözümü.
Məhkəmə günündə mən son sözümü,
Desəm nə olar ki,deməsəm nolar.

Yoruldum illərin daş yoxuşunda,
Azaraq qaldım mən toxunuşunda.
Eh,Sevinc.ömrün bu əlli yaşında,
Sevsən nə olar ki,sevməsən nolar.

Sevinc Arzulu

**Sevmesen sen**

Qəbir olub qazılaram,
Başdaşına yazılaram.
Ömür payı az olaram,
Əgər məni sevməsən sən.

Allı-güllü may olmaram,
Günəş,ulduz,ay olmaram.
Xoşbəxtlərə tay olmaram,
Əgər məni sevməsən sən.

Ürəyimdən oyularam,
Daş məzara qoyularam.
Nəsimi tək soyularam,
Əgər məni sevməsən sən.

Açmaz olar qönçə gülüm,
Duman olar zərif tülüm.
Oxumaz şeyda bülbülüm,
Əgər məni sevməsən sən.

Eşq yolunda azmaz Sevinc,
Yuxuların yozmaz Sevinc.
Daha şeir yazmaz Sevinc,
Əgər məni sevməsən sən.

Sevinc Arzulu

**Sığal çekibdir**

Qaranlıq şəhərin işıqlarını,
Qəlbimin közüylə yandırıram mən.
Dünyanın ən nadinc uşaqlarını,
Bir kəlmə sözümlə qandırıram mən.

Təbəssüm üzümə sığal çəkibdir,
Kədəri gizlədən şərab kimidir.
Bir qədər ərköyün,cığal çəkbdir,
Uzaqda görünən sərab kimidir.

Harayın yarımçıq qoyub hayımı,
Dözümü özünə sipər eyləyib.
Hamıdan gizlədib sevinc payımı,
Kipriyi gözümə çəpər eyləyib.

Sevinc Arzulu

**Sınar**

Hezz alsan hesretin esaretinden,
Qurtara bilmezsen xesaretinden.
Benim bakışımın  cesaretinden,
Senin gözlerinin qarası sınar.

Nigaran nezerler iz tapa bilmez,
Yalanın yolunu düz tapa bilmez..
Xeyalın göylerde söz tapa bilmez,
Ikice kelmenin arası sınar.

Zirveye çatmaqdır çenin dileyi,
Felekse semadan qemin eleyir.
Nece de berkiyib senin üreyin,
O daşın-demirin harası sınar.

Sevinc Arzulu

**Sınasıyam  ben**

Biz sadiq dostuyuq saf mehebbetin,
Inamsız yaşamaq.vallah,çox çetin.
Benim yaşamağım senin hikmetin,
Dilinin duası-senasıyam ben.

Masmavi semada xeyal gezirim,
Ehtişam gününde celal gezirim.
Hesretin içinde vüsal gezirim,
Yamyaşıl ümmanın sonasıyam ben.

Yerine yetmeyen arzuyam,kamam,
Anbaan eriyen bir qırıq şamam.
Köhnelib çatlayan gereksiz camam,
El vursan bölünüb sınasıyam ben.

Sevinc Arzulu

**Sındırdı**

Göz yaşından Yusif-Zöhre çekdiyim,
Başdaşında gözel çöhre çekdiyim.
Yaz gününde pöhre-pöhre ekdiyim,
Ümidleri çubuq-çubuq sındırdı.

Bilirsin ki hesret ile yox aram,
Isteyirsin yaram içre ox ara.
Qoy sevinsin, gedin deyin o xara,
Tale beni yaman çapuq sındırdı.

Bu dünyanı pis-yaxşıya bölmüşüm,
Nadan ile çox yüz-yüze gelmişim.
Meğlub olsam, demek o gün ölmüşüm,
Son meqamda colma-coluq sındırdı.

Sevinc Arzulu

**Sil gözümü**

Baxçandakı güllər yenə tərdimi?
Nadan əli o gülləri dərdimi?
Kimə deyim qəlbimdəki dərdimi,
Kim dinləsin söhbətimi, sözümü.

Açılmaz oldumu nurlu səhərim,
Hey göynədir boğazımı qəhərim.
Dişlərimin dibindədir zəhərim,
Məğlub olsam, çalacağam özümü.

Arama sən cəvahirat, ləl indi,
Dünya özü bir bəzəkli gəlindi.
Görüşümə gəlürsənsə gəl indi,
İtirmişəm iradəmi, dözümü.

İnsan üçün məzar son dayanacaq,
Dərdli qəlbim həsrətinlə yanacaq.
Axtarma gəl ocaq üçün yanacaq,
Alışdırram bircə anda közümü.

Sevincini sev, qədrini bil, eşqim,,
Sənsiz keçən bircə anım il, eşqim.
Nə olar ki öz əlinlə sil, eşqim,
Həsrətindən qəmdən dolan gözümü.

Sevinc Arzulu

**Silahımı**

Həsrət qalxar qara his tək,
Hicran durar bir iblis tək.
Üz-gözümə çöküb sis tək,
Bacarırsan, sil ahımı.

Xəyallarım as olubdur.
Ümidlərim xas olubdur.
Işlənməyib, pas olubdur
Kim təmizlər silahımı.

Gözünün nəmi ünündə,
Kədərin təmi günündə.
Dünyanın qəmi önündə,
Söz ən güclü silahımmı.

Sevinc Arzulu

**Silahlanın igidlerim**

Talan edib varı düşmən,
Atıb namus.arı düşmən.
Məğlub olar qarı düşmən,
Silahlanın igidlərim.

Işğal edilib torpağım,
Qan rəngində hər yarpağım.
Yolun gözlər Qarabağım,
Silahlanın igidlərim.

Canda yaşar canın ruhu,
Harahatdır Xanın ruhu.
Qəmli Natəvanın ruhu,
Silahlanın igidlərim.

Axıdılan qanlar batmaz,
Mərdliyinə mərdlik çatmaz.
Şəhidlərim rahat yatmaz,
Silahlanın igidlərim.

Qələbə marşını çalın,
Düşməni qorxuya salın.
Qarabağı geri alın,
Silahlanın igidlərim.

Sevinc Arzulu

**Silahlanın, igidlerim**

Atıb namus,arı düşmen,
Talan edib varı düşmen.
Meğlub olar karı düşmen,
Silahlanın igidlerim.

Işğal olunub torpağım.
Kan renginde her yarpağım.
Yolun gözler Karabağım,
Silahlanın igidlerim.

Narahat zamanın ruhu,
Üzeyirin,Xanın ruhu.
Ağlar Natevanın ruhu,
Silahlanın igidlerim.

Hünerine hüner çatmaz,
Axıdılan kanlar batmaz.
Şehidlerim rahat yarmaz,
Silahlanın igidlerim.

Düşmeni qorxuya salın,
Qelebe marşını çalın.
Karabağı geri alın,
Silahlanın igidlerim.

Sevinc Arzulu

**Silahlanın,igidlerim**

Atıb namus,arı düşmen,
Talan edib varı düşmen.
Meğlub olar karı düşmen,
Silahlanın igidlerim.

Işğal olunub torpağım.
Kan renginde her yarpağım.
Yolun gözler Karabağım,
Silahlanın igidlerim.

Narahat zamanın ruhu,
Üzeyirin,Xanın ruhu.
Ağlar Natevanın ruhu,
Silahlanın igidlerim.

Hünerine hüner çatmaz,
Axıdılan kanlar batmaz.
Şehidlerim rahat yarmaz,
Silahlanın igidlerim.

Düşmeni qorxuya salın,
Qelebe marşını çalın.
Karabağı geri alın,
Silahlanın igidlerim.

Sevinc Arzulu

**Silinmezsen**

Baxammadın sən gözümə,
Alışmadın od-közümə.
Gülüm, daha xoş sözümə,
Söhbətimə ilinməzsən.

Saçlarımda qar olsan da,
Harayıma kar olsan da,
Ürəyimdə var olsan da,
Kimsən? Nəsən? Bilinməzsən.

Gözlərimdə tək olmusan,
Hərdən güman,şəkk olmusan.
Əbədilik həkk olmusan,
Ürəyimdən silinməzsən.

Sevinc Arzulu

**Silkeledi**

Dağ sürüşsə,kolu düşsə
Təbiətin qolu düşsə.
Leysan yağsa,dolu düşsə
Bu yerlərə sel gələrdi.

Ulduz kimi sönüb qalsam,
Keçmişimə dönüb qalsam
Qəm önündə donub qalsam,
Fərəh məni silkələrdi.

Əsirgəmə od-istini.
Görüm ucalan büstünü.
Hisli lampanın üstünü,
Bir azacıq sil.gələrdim.

Sevinc Arzulu

**Sinem meni**

Yox gözümdə nə dövlət,var.
Yad nəğməyə olmuşam kar.
Dərddən dəli olsa da xar,
Görməz eşqdən dönən məni.

Sanma mənə ölüm çətin,
Qəlb sirrimi bölüm çətin.
Yanacağam,gülüm, çətin,
Görəcəksən sönən məni.

Niyə ömrü yelə verək,
Gözdə qalsın arzu,dilək.
Həsrətdən od tutub ürək,
Yandıracaq sinəm məni.

Sevinc Arzulu

**Sinemde  qaldı**

Sə n mə nim eşqimin qə dir ağacı,
Mə n sə nin sevdanın, eh, baş daşıyam.
Görə n ayrılığın nə dir ə lacı,
Nə də n gözlə rimdə hey yaş daşıyam? !

Bütün olub-keçə n mə ndə yazılıb,
Nə zaman? Harada? Niyə və neyçün.
Olumun-ölümün tə n də qazılıb,
Bə xtinə ağlaram hey için-için.

Geridə qalıbdır sə nli hə yatım,
Önümdə nə lə r var.Bilmə yirə m heç
Dumanlı hə yatım, çə nli hə yatım
Gözümün şehini silmə yirə m heç.

Bu alın yazısın, tale yazısın
Ilahidə n başqa kim oxuyar, kim.
Tapılmaz taledə n, bə xtdə n razısı
Ayrılıq ə bə di qə m qoxuyar ki....

Işıqlı hə yatın acı dönüşü,
Vüsalın sevinci dünə ndə qaldı.
Yıxıla düşürə m üzü enişə ,
Adın hə mişə lik sinə mdə qaldı,

Sevinc Arzulu

**Sinemde qaldı**

Sən mənim eşqimin qədir ağacı,
Mən sənin sevdanın, eh, baş daşıyam.
Görən ayrılığın nədir əlacı,
Nədən gözlərimdə hey yaş daşıyam?!

Bütün olub-keçən məndə yazılıb,
Nə zaman?Harada? Niyə və neyçün.
Olumun-ölümün tən də qazılıb,
Bəxtinə ağlaram hey için-için.

Geridə qalıbdır sənli həyatım,
Önümdə nələr var.Bilməyirəm heç
Dumanlı həyatım, çənli həyatım
Gözümün yağışın silməyirəm heç.

Bu alın yazısı, tale yazısı
Ilahidən başqa kim oxuyar, kim.
Tapılmaz taledən, bəxtdən razısı
Ayrılıq əbədi qəm qoxuyar ki....

Işıqlı həyatın acı dönüşü,
Vüsalın sevinci dünəndə qaldı.
Yıxıla düşürəm üzü enişə,
Adın həmişəlik sinəmdə qaldı,
16.11.2014

Sevinc Arzulu

**Siqar**

Senin çekdiyin siqar
helede tüstülenir,
Hesretin soyuğundan
donan deli üreyim
közünden istilenir.
Ağ siqar, boz külqabı...
Bir-biriyle uyuşmur.
Siqarının tüstüsü ahım ile qovuşmur.

Sen siqarı çekirsen,
Men içimi çekirem.
Sen külünü tökürsen,
Derdden yere çökürem.

Siqarının tüstüsü burum-burum burulur,
O tüstünün içinde yas mağarı qurulur.
Tenha qalan qebrime,
Özüme ağlayıram.
Neçe illik sebrime,
Dözüme ağlayıram.
Menem yas meclisinin,
Quran oxuyanı da.
Bahar çiçeklerinden
Mezar üste qoymaqçun
Çeleng toxuyanı da.

Bir siqarın tüstüsü,
Meni hara apardı.
Xeyalımı uçurdub,
üreyimi qopardı.

Sen siqara çekirsen,
Men derdimi çekirem.
Qemin bitdiyi yerde
Siqaretin külünü
Ayağımla ekirem.

Sevinc Arzulu

**Sis olmasın**

Günü dərdlə ötüşənin,
Yoxsa haya yetişəni.
Acı sevdaya düşənin,
Sonu heç vaxt pis olmasın.

Olacaqda çıraq yansa,
Gözdən uzaq, iraq yansa,
Qəlbimdə od –ocaq yansa,
Damarlarım his olmasın.

Tək Tanrıya qul, nökərsəm,
Gül dibinə qəm tökərsəm.
Sənsizlikdən ah çəkərsəm,
Göylər duman, sis olmasın.

Sevinc Arzulu

**Solanım**

Əzəl andan sevərsən,
İsti qandan sevərsən.
Məni candan sevərsən,
Özgəsinin olanım.

De sözün doğrusunu,
Tapım qəlb oğrusunu.
Çəkim dərd ağrısını,
Mən başına dolanım.

Sevmirəm yay çətrini,
Yazım payız sətrini.
Hiss etmədim ətrini,
Açılmamış solanım.
29.05.2018

Sevinc Arzulu

**Son  söz**

Son sözümü söylemeye imkan verin,
Dünya boyda mekan verin.
Ben caniyim,
sevdiyimi terki-dünya qoymuşam.
Ben oğruyum,
üzündeki tebessümü soymuşam.
Zemanenin üzü dönsün,
Qapqara ulduzu sönsün.
Günahkar kim,
cenab hakim.

Neden onu el içinde xar eyledim.
Bile-bile özgesine yar eyledim.
Beli bükük,halı üzgün.
Ala gözü dalğın,süzgün.
Qara teli gümüşüdür,
Baxışları gül üşüdür.
Son sözünü mehkemede deyer insan,
Elediyi sehvi üçün dizlerine döyer insan.
Indi o yox,üreyimde ağrım-acım.
Düşüb başdan şahlıq tacım.
Demirem ki yüz gün verin,
Ömürlük sürgün verin.

Sevinc Arzulu

**Son bahar**

Kədər gəlir ləpə-ləpə,
Qəm oyadır öpə-öpə
Dağılıram qəlpə-qəlpə,
Üşüdür son bahar məni.

Yaşamağa yox həvəsim,
Bircə  udumluq nəfəsim.
İlahiyə  çatsın səsim,
Eşidir ruzigar məni.

Ağlığından karıxmışdım,
Zirvəsindən qar yığmışdım.
Düzlər üçün darıxmışdım,
Yola saldı dağlar məni.
30.11.2017

Sevinc Arzulu

**Son duracaq**

Uzaq dur dar dalandan,
Seni derde salandan.
Hay-küy salır yalandan,
Yox imiş vuracağı.

Insan ki lamekanıdr,
Her duası tekandır
Dayandığım mekandır,
Ömrün son duracağı.

Deli çay tək çağlayır,
Hicrin yolun bağlayır.
Xatiren qan ağlayır,
Sönübdür  gur ocağı.
24.03.2018

Sevinc Arzulu

**Son elac**

Kədər içində azmaq,
Qələm ilə gör qazmaq,
Şeir-məktublar yazmaq.
Bu, son əlacımıydı.

Dağda yatmış hicranın,
Abrın atmış hicranın,
Adı batmış hicranın,
Həsrətə bacımıydı.

Az olubmu dindiyim,
Adından diksindiyim
Mənim düşmən bildiyim,
Başının tacımıydı.

Sevinc Arzulu

**Son görüş**

Meni sensiz qoyan peri.
Utanmırmı göresen.
Ay ezizim, bir dön beri,
Son görüşe gelersen?

Bu son görüş son addımdır,
Qemli vüsala doğru.
Eh, sevinc təkcə adımdır,
Keder qanuni oğru.

Sen yadımda qalacaqsan,
Oxuduğum kitab tek.
Bir vaxt sürgün olacaqsan,
Esir kimi, yatab tek.

Geyib dava libasını,
Hesretle döyüşecem.
Sevib qem iqtibasını,
Hicranla eyişecem.

Meni atıb getmisen ,
Xeyalınla  yatıram.
Sevdiyine yetmisen ,
Qem gölünde batıram.
03.04.2018

Sevinc Arzulu

**Son görüşün**

Gözü ilə açar sübhün danını,
Heç bilməz ki hara qoysun canını.
Xəyal edər nağıl tək hər anını,
Son görüşün həsrətində olanlar.

Tale deyən öz sözünü tutmamış,
Ağrısını, acısını udmamış.
Ilk görüşün şirinliyin dadmamış,
Son görüşün həsrətindən ölənlər.

Soruşsan əsrdən çox olar yaşı,
Qucaqlar  buz tək mərmər baş  daşın,
Içinə axıdar  soyuq göz yaşın,
Son görüşün həsrətin də bölənlər.
25.05.2018

Sevinc Arzulu

**Son mektub**

Yadındamı son məktubun,
Nə yazmışdın orda sən.
Gözlərimi niyə qoydun,
Gözüyaşlı torda sən.

Deyirdin ki vurulmusan,
Başqa bir gözələ sən.
Yan tərəfə burulmusan,
Yoluna çıxanda mən.

Deyirdilər o qız mənim,
Əlimə su tökəmməz.
Mən əkdiyim çiçəklərin,
Birini də əkəmməz.

Bəs nəyinə aşiq olub,
Ayranıydın o qızın.
Kərəm kimi aşiq olub,
Heyranıydın oqızın

Verə bilməz onu bil ki
Heç kim yerimi mənim.
Bu eşqinin sonu bil ki,
Olacaq sənə qənim.

Bir gün geri qayıdaraq,
Qapımızı döydün sən.
Keçmişini oyadaraq,
Öz-özünə söydün sən.

Necə bağışlayım,söylə
Belə böyük səhvini.
Şən yazmısan öz əlinlə,
Öz hökmünü-məhvini.

Getməyinlə qayıtmağın,
Bir il çəkdi arası.
Mümkün deyil sağaltmağın,
Dərin hocran yarası.

Unut məni,elə bil ki
Tanımamısan məni.
Göz yaşını gizli sil ki,
Görməsinlər heç səni.

Yuya bilərmi göz yaşı,
Ən böyük günahını.
Hicranı qəlbində daşı,
Eşitməyim ahını.

Çünki mənim fəryadımı.
Eşitmədin bir zaman.

Yaddaşından sil adımı,
Diləmə məndən aman.

Aman yoxdur sənin kimi,
Əhdin danan namərdə.
Olub qəlbimin hakimi,
Könül vermişəm mərdə.

Uca tutub ismətimi,
Boylanmaram keçmişə.
Tapmışam öz qismətimi,
Qoruyaram həmişə.

Sevinc Arzulu

**Son menzilim**

SON  MENZİLİM

Ayrılıqan bağrı qanam,
Ruhu uçub geden canam.
Ağlama gel, gözel anam
Göz yaşını qoy ben silim.

Gelmeyir daha nefesim,
Yox daha yaşam hevesim.
Batıb özüm kibi sesim,
Eşidilmez ki en zilim.

Hesret, baxma oğrun-oğrun,
Qurtarmaz ki sual-sorğun.
Allah,yaman düşdüm yorğun
Budur benim son menzilim.

Sevinc Arzulu

**Son söz**

Neynəyim, nə edim, getməliyəm mən,
Bu dəli sevdanın sonu olmalı.
Ağılın dediyin etməliyəm mən,
Vəslin hər fəsildə donu olmalı.

Başımın üstündə "sadiq"tanışlar
Görmürsən, necə də yanıyır məni.
O gözü tökülmüş, dili yanmışlar
Artıq Leyla kimi tanıyır məni.

Bütün bu yalanın, bu iftiranın
Doğru olmadığı tək bizə bəlli.
Əqrəblər hey gedir, son vida anı,
Mən sənə, sən mənə verək təsəlli.

Biz uşaq deyilik, bilək bu vida,
Sevginin sonuncu nöqtəsi oldu.
Ağlama əzizim, deyən əlvida
Taleyin amansız diqtəsi oldu.

Getsəm də qalacam səndən nigaran,
Səni anacağam hər addımbaşı.
O zirvə mənimdir: başı ağaran,
Artıq qara dönüb gözümün yaşı.

Uzaqdan baxmaqmış günahımız ki,
Bəs biz görüşsəydik nə olardı, nə.
Allahdan savayı pənahımız kim,
Sevgimiz olubdur canlı əfsanə.

O vaxtsız sevdanı gözündən duydum,
Sənin hər baxışın bir kəlmə sözdü.
O baxtsız sevdanın özündən duydum,
Qəlbin ağrısına ər kimi dözdün.

Illər aramıza saldı hicranı,
Sən mənə yad olan bir diyardasan.
Bir gün mənim üçün gələr əcr anı,
Hələ ki təkcə sən etibardasan.

Nə edim, qurtarmır yazdığım şeir,
Sənə son söz demək mənə çətindir.
Məni ruhlandıran ay-ulduz deyil,
O nakam sevgiyə sədaqətimdir.

Sevinc Arzulu

**Son söz ellli yaşındı**

Yağış izini örtdü,
Torpaq dizini örtdü.
Vüsal üzünü örtdü,
Ayrılıqdan yaşındı.

Özüyçün gedir zaman,
Heç vermir bizə aman.
Haray-həşirdi yaman,
Yaram yeri qaşındı.

Buraxıb cah-cəlalı,
Sevdim dərdi-məlalı.
Gördü başım bəlalı,
Qəm fikrindən daşındı.

Üstünə hey su damır,
Dərd unum oldu xamır.
Yupyumşaq yaşıl mamır,
Bu qayanın,daşındı.

Mən tarixə davamam,
Qocalığı qovamam.
Sən ha de ki cavanam.
Son söz əlli yaşındı.

Sevinc Arzulu

**Sona qeder**

Bəzən müdrik bir fikirə.
Şən istehza edərsən.
Özümə yuva tikərəm,
Sən uzağa gedərsən.

O qədər uzaqlara ki.
Səsin, sədan da gəlməz.
Dözərsən sazaqlara ki,
Eşqə fədan da gəlməz.

Danışıb da dinməyirsən,
Sanki donub qalmısan.
Pullarını çinləyirsən.
Vara qonub qalmısan.

Sanırsan ki bu var-dövlət,
Səni xoşbəxt edəcək.
Bilmədin ki tək məhəbbət.
Sona qədər gedəcək.

Bal yuxudan ayılsa da,
Gözləri yuxuludur.
Ilk eşqindən ayrılsa da,
Sözləri qoxuludur.

Sona çatıb intizarı,
Bəlkə belə deyildir.
Bağlanıbdır eşq bazarı,
Vüsal aciz, veyildir.
07.05.2018

Sevinc Arzulu

**Sonsuz oldu**

Qəm dağının yolu dolay,
Ora çıxan salır haray.
Zirvəsində tikdim saray,
Divarlar bumbuz oldu.

Dərd əlindənoldum kölə,
Dostum yox ki,dərdim bölə.
Göz yaşlarım axdı gölə,
Üzü ağappaq duz oldu.

Mən üz tutdum tək Allaha,
Ki rəhm etsin qəlbdə aha.
Eşitdim ki yoxsan daha,
Qəm-kədərim sonsuz oldu.

Sevinc Arzulu

**Sonu ayrılık**

Kederi, qüsseni soy gözlerinden,
Bu fani dünyadan doy gözlerinde.
Ben öpüm doyunca qoy gözlerinden,
Onsuz da bu yolun sonu ayrılıq.

Sevgi aşiqlerçün deyil oyuncaq,
Mehebbet sakitdir, vüsal utancaq,
Hicranın eyniye yaraşır ancaq,
Hesretin bembeyaz donu ayrılıq.

Eh, doğru çıxmayır daha röya da,
Uzağa uçmayır mavi xülya da.
Ele gizletmisen ele, dünyadan
Men nece tapacam onu, ayrılıq?

Sevinc Arzulu

**Sonu ayrılıq**

Kədəri, qüsəni soy gözlərindən,
Bu fani dünyadan doy gözlərində.
Mən öpüm doyunca qoy gözlərindən,
Onsuz da bu yolun sonu ayrılıq.

Sevgi aşiqlərçün deyil oyuncaq,
Məhəbbət sakitdir, vüsal utancaq,
Hicranın əyninə yaraşır ancaq,
Həsrətin bəmbəyaz donu ayrılıq.

Eh, doğru çıxmayır daha röya da,
Uzağa uçmayır mavi xülya da.
Elə gizlətmisən elə, dünyadan
Mən necə tapacam onu, ayrılıq?

Sevinc Arzulu

**Sonu görünmür**

Dünyanı bezemir zeri-zibası,
Gözümün önünde derd  iqtibası.
Kederin eyninde qara libası
Ferehin ağappaq donu görünmür.

Payızın üzünde naxış qılığı,
Torpağı isladır yağış qılığı
Bilirsen, etdiyin yüz yaxşılığın,
Biri görünürse onu görünmür.

Buludun havadan nem almağı var,
Insanın heyatdan kam almağı var.
Vüsalın hesretden qem almağı var,
Getdiyin yolların sonu görünmür.

Sevinc Arzulu

**Sonu var kimi.**

Qış gələ də, sevirəm,
Qar ələdə. Sevirəm.
Mən hələ də sevirəm,
Səni ilk bahar kimi.

Bu qaranlıq gecədə,
Qəm gəlməyir vecə də.
Gör ürəyim necə də,
Əsir ruzigar kimi.

Həsrətə dözməyirəm,
Aralı gəzməyirəm.
Oturub gözləyirəm,
Hicrin sonu var kimi...

Sevinc Arzulu

**Sonu,hey**

Ötüb keçər gəncliyimin qatarı,
Kim saxlayar yarı yolda onu, hey.
Qalmayıbdır ürəyimin tutarı,
Deyən gəlib həyatımın sonu, hey.

Yavaş- yavaş bənizim də saralar,
Vəslə gedən yollarım da daralar.
Mavi səmam lal həsrətdən qaralar,
Külək geyər yaşıl çinar donu, hey.

Nədən əsir yenə həsrət nəsimi,
Göz yaşlarım qəm çölünün bəsimi.
Görməsələr tanımazlar səsimi,
Dəyişilib Sevincin səs tonu, hey.

Sevinc Arzulu

**Sonum indi**

Ayrı  düşdük düz ilqardan,
Danışmayaq etibardan.
Heykəlini soyuq qardan,
De, mən necə yonum indi.

Od aldım həsrətli közdən,
Qəlb inciyər acı sözdən.
Süzülübən qara gözdən,
Yanağında donum indi.

Saf sevgidən bezəmməzsən,
Ayrılığa dözəmməzsən,
Ilk baxışdan sezəmməzsən,
Qapqaradır fonum indi.

Ilk məhəbbət sakit, laldı,
Hisran yolun bizdən saldı.
Bir zamanlar rəngi aldı,
Saralıbdır tonum indi.

Qamətimi əydi həsrət,
Ürəyimə dəydi həsrət.
Qapımızı döydü həsrət,
Budur mənim sonum indi.

Sevinc Arzulu

**Sonuncu  nöqte**

Biz “Öl”-de var olduq,amma “Ol”da yox
Üstü benövşeli yaşıl kolda yox,
Buradan o yana daha yol da yox,
Dünyanın sonuncu nöqtesindeyim.

Tepeden dırnağa qazıblar beni,
Geceli-gündüzlü yazıblar beni.
Bitmeyen tabloyam,azıblar beni
Tanrının ilahi diqtesindeyim.

Minacat çekirsen qemli,ezançı,
Dumduru gözlerin nemli,ezançı.
Zamanın  az olub deyen qazancı,
Feleye verilen siftesindeyim.

Sevinc Arzulu

**Sonuncu şam**

"Qaş var"-dedim gözüm üstde,
Küsdün adi sözün üstde.
Öleziyen közün üste,
Damcı-damcı su çiledim.

Qeherimi gücle uddum,
Kim olduğum ben unutdum.
Göy semaya üzüm tutdum,
Tanrıdan seni diledim.

Bu dünyada ebedi ne,
Ayrılığın mabedi ne.
Girdim eşqin mebedine,
Sonuncu şamı piledim.

Sevinc Arzulu

**Sonuncu görüş**

Demirem ki, toyu yas et,
Deyirem ki, meni “As” et.
Tanrım, bizi sen xilas et,
Kimdən aşır gör işimiz.

Heç bilmerik neyneyerik,
Qurda quzu teyleyerik.
Hey pislikler eyleyerik,
Yaddan çıxar gor işimiz.

“Al”da çetin,”Ver”de çetin,
Göyde çetin, yerde çetin.
Rastlaşarıq bir de çetin,
Bu sonuncu görüşümüz.

Sevinc Arzulu

**Sonuncu görüşümüz**

Demirəm ki toyu yas et,
Deyirəm ki məni as et.
Tanrım,bizi sən xilas et,
Kimdən aşır gör işimiz.

Heç bilmərik neynəyərik,
Qurda quzu teyləyərik.
Hey pisliklər eyləyərik,
Yaddan çıxar gor işimiz.

"Al"da çətin,"Ver"də çətin,
Göydə çətin,yerdə çətin.
Rastlaşarıq bir də çətin,
Bu sonuncu görüşümüz.

Sevinc Arzulu

**Sonuncu nöqte**

Biz “Öl”-de var olduq,amma “Ol”da yox
Üstü benövşeli yaşıl kolda yox,
Buradan o yana daha yol da yox,
Dünyanın sonuncu nöqtesindeyem.

Tepeden dırnağa qazıblar meni,
Geceli-gündüzlü yazıblar meni.
Bitmeyen tabloyam,azıblar meni
Tanrının ilahi diqtesindeyem.

Minacat çekirsen qemli,ezançı,
Dumduru gözlerin nemli,ezançı.
Zamanın  az olub deyen qazancı,
Feleye verilen siftesindeyem.

Sevinc Arzulu

**Sonuncu samuray**

Yamanca çekmişem xar günüsünden,
Dolanıb gelmişem qar çinisinden,
Kederi götürdüm yar sinisinden,
Heç vaxt dadmadığım vüsal payı tek.

Qüsseden,melaldan tok  olacağam,
Ölüme sevgisi çok olacağam.
Ben senin ömründen yok olacağam,
Karanlıq gecenin batan ayı tek.

Gündüzü qara ki  edeceyem ben,
Derdime çara ki edeceyem ben.
Özümü  xaraki edeceyem ben,
Dünyanın sonuncu samurayı tek.

Sevinc Arzulu

**Sonuncu sernişin**

Evvelce somsoyuq sözde üzdürdü,
Qelbinin tellerin közde düzdürdü.
Her bir emeline göz de süzdürdü,
Yamanca tez gördü ol şer işini.

Ümidi,gümanı qarıdı qaldı,
Çiskini dumanı darıdı qaldı.
Ağrısı,amanı yarıdı qaldı
Felek tergizmeyib heç verdişini.

Bülbülün köyneyi kola düşübdür,
Könlünün göyneyi sola düşübdür.
Gözünde eyneyi yola düşübdür,
Sonuncu qatarın son sernişini.

Sevinc Arzulu

**Soyar meni**

Hicran hələ seçimdədir,
Kədər qüssə biçimdədir.
Həsrət artıq içimdədir,
Ləçək-ləçək soyar məni.

Yol azmışam sis-dumanda,
Könül yenə min gümanda.
Yad qayığam ağ limanda,
Gur dalğalar oyar məni.

Adın qəlbə həkk, sevdiyim
Etmə eşqə şəkk, sevdiyim.
Bu dünyada tək sevdiyim,
Nədən tənha qoyar məni.

Sevinc Arzulu

**Soydun, ezizim**

Şəlalə tək zirvələrdə çağladın,
Göz yaşını sel edib də ağladın.
Ümidimin qapısını bağladın,
Açarını harda qoydun, əzizim.

Qocalmısan, itirmisən özünü,
Yel əssə də alışdırmaz közünü.
Gözəl görsən tez yumursan gözünü,
Gözəllikdən nə tez doydun, əzizim.

Günəş çıxıb, gün vurası könlümü,
Çiçək atıb gül vurası könlümün,
Ətirliydi gül libası könlümün,
Al tülünü nədən soydun, əzizim.

Sevinc Arzulu

**Söykenim**

Yavaş-yavaş sona yetir heyatım,
Payız,gülsüz xezanına söykenim.
Öz dilimde çağırılsın bayatım,
Allah,derdli ezanına söykenim.

Qelb qalanın qapıları qıfılda,
Ora düşen ebedilik ufuldar.
Gözüm sende,acı dilim pıçıldar:
-"Üreyinin ezabına söykenim".

Yaralarım ağı deyib sızıldar,
Su sepersen ocaq kimi cızıldar.
Dünyanın son duracağı qızıldan,
Nece mermer mezarına söykenim,
Ebedilik güzarına söykenim.

Sevinc Arzulu

**Söyle dediler**

Yenə bahar gələ,güllər yarışa,
Min cür ətir bir-birinə qarışa.
Dərdimi danışdım dosta-tanışa,
“Gedib öz yarına söylə”-dedilər.

Bu eşqi yaman çox gördülər nədən,
Kədəri qəm ilə hördülər nədən.
Ayrılıq gülünü verdilər nədən,
“Ürəyin dolusu iylə”-dedilər.

Dar gündə dostunu axtarır ürək,
Onun harayına yetişmək gərək.
Çətində bir kimsə etmədi kömək,
“Özün nə bilirsən eylə”-dedilər.

Sevinc Arzulu

**Söyle görüm haralısan**

Göyləri şahin,sar alar,
Zirvələri ağ qar alar.
Sənsiz daim yetim qalar,
Bu yerlərin maralısan.

Yolunun üstündə durmuş,
Yenə duzaq,tələ qurmuş.
Hansı ovçu səni vurmuş,
Ürəyindən yaralısan.

Sənsiz deyib-gülməyirəm,
Göz yaşımı silməyirəm.
Məskənini bilməyirəm,
Söylə görüm,haralısan.

Sevinc Arzulu

**Söz  beni**

Söyle, gözün başqa bir qadındamı,
Zeher hissi tek senin dadındamı.
Ayrılarken dediyin yadındamı,
Bilirsinmi nece tutdu söz beni.

Qızılgülüm, ne otam, ne elefem
Natevana,Mehsetiye selefem.
Ilmeleri düyün düşmüş keleefem
Hünerin var, ayır beni,çöz beni.

Al yanağa sevinc yaşı düzeerdik,
Çiçeklerin etirlisin üzerdik.
Axı neden yandımadım üzerrik,
Qonaqlıqda yaman kesdi göz beni.

Sevinc Arzulu

**Söz çıxacaqdır**

Yalandan ved verir dünya çoxuna,
Qoşul hamı geden qızıl axına.
Birce addım bele gelme yaxına,
Nahaqdan adıma söz çıxacaqdır.

Ferehim lal olub,heykele dönüb,
Derd qemle geriye el-ele dönüb.
Ele yanacaq ki meşele dönüb,
Qurunun sonuna köz çıxacaqdır.

Ayrılıq ünyetmez uzağa getsin,
Tek vüsal yarısın,kamına yetsin.
Qorxuram bu sevda yarıda bitsin,
Çetin sevgi falım düz çıxacaqdır.

Sevinc Arzulu

**Söz  etrafında**

Peykin ellisine,yüzüne baxmır,
Oxun eyrisine,düzüne baxmır.
Yanından ötenin üzüne baxmır,
Dünyamız dolanır öz etrafında.

Ben idim qızların merdi,qoçağı,
Harada qalıbdır gören o çağım,
Vaxt keçib,sönübdür genclik ocağı,
Oturub qalmışıq köz etrafında.

Külekdir başımız üstünden esen,
Vüsaldır hesretin önünü kesen.
Bir şeir ben deyim,birini de sen,
Halay da qurmuşuq söz etrafında.

Sevinc Arzulu

**Söz axarı**

Fərəhi anında haqlayammadım,
Ətrini doyunca qoxlayammadım.
Quş tək uçub getdi, saxlayammadım
Zamanı buraxdım öz axarına.

Çoxdan yatmış vülkan birdən oyandı,
Hər tərəf qırmızı rəngə boyandı.
Fələk zülümündən məgər doyandı?!
Yamanca düşmüşəm köz axarına.

Tale də üzümə qabarır yəni,
Xatirən özümdən qoparır məni,
Haraya, hayana aparır məni,
Qoşulub gedirəm söz axarına.
01.05.2015

Sevinc Arzulu

**Söz daşı**

Qoşularam köçüme,
Qovuşaram heçime.
Axıdaram içime.
Melhem olar göz yaşı.

Veten-doğma diyarım,
Azadlığım meyarı.
Her qızılın  eyarı,
Her üzüyün öz qaşı,

Durma eşqe qenim tek,
Yox olarsan çenim tek.
Döze bilsen menimtek,
Üreyinde söz daşı.

Sevinc Arzulu

**Söz dustağı**

SÖZ  DUSTAĞI

İstisində biz azaq,
Üşütməsin qar,sazaq.
Heç zaman qoymaz uzaq,
Atəşdir köz dustağı.

Gəlməz ki səsin.sədan
Suya batıb qəm odan.
Soyuqdur kiçik odan,
Ay mənim göz dustağım.

Hicran bölgəsi deyil,
Qəmin kölgəsi deyil,
İnan,özgəsi deyil
Özüməm söz dustağı.

Sevinc Arzulu

**Söz düsturu**

Izlərimin doldunluğu,
Közlərimin solğunluğu,
Gözlərimin yorğunluğu,
Göz düsturu.

Uyğuların sirləşməsi,
Qayğıların kürləşməsi,
Duyğuların  birləşməsi,
Söz düsturu.

Bəxt qapısın pusan olar,
Dərd önündə susan olar.
Hər bir kəsə asan olar,
Öz düsturu.
20.10.2012

Sevinc Arzulu

**Söz içinde**

Sevgi təkcə deyil nəşə,
Qüssə yaşar göz içində.
Özün düşdün bu atəşə,
Günahkarsan, döz içində.

Sevdam könül əmanəti,
Unut kini, ədavəti.
Gülüm, haqqı-ədaləti
Axtar ancaq öz içində.

Sevinci az, qəmi bolam,
Kaş yenə də sənli olam.
Yollar yaman dolam-dolam,
Yenə azdım söz içində.

Sevinc Arzulu

**Söz kesib**

Ey insanlar,bu qəmi məndən alın,
Aramıza keçilməz körpü salın.
Qaçırsam da başaçıq,ayaqyalın
Sənə doğru yollarımı köz kəsib.

Oxunmaqdan qəlb dəftərim cızılsa,
Göz yaşlarım axıb-axıb durulsa,
Ümidlərim çilik-çilik qırılsa,
Demək kimsə cadu edib,göz kəsib.

Nədən yenə qəm qoxuyur bu hava,
Aralıqda qaldı vüsal binəva.
Axır sülhnən bitən oldu bu dava,
Qılıncımın qabağını söz kəsib.

Sevinc Arzulu

**Söz mene**

Həsrət qəmi çağırdı,
Üzündən dərd yağırdı.
Xasiyyətim ağırdı,
Döz.əzizim, döz mənə.

Tikan keçib, kol aşıb,
Neçə-neçə yol aşıb,
Xatirələr dolaşıb,
Çöz onları, çöz mənə.

Bəyənməyib bu yeri,
Oldun yad şəhrin meri.
Bir gün dönərsən geri,
Söz vermisən, söz mənə.

Sevinc Arzulu

**Söz qaşları**

Bir günlük atalı-analı olum,
Düyünlük qönçəli-butalı olum.
Ömürlük günahkar, xatalı olum,
Bələnim səmanın göz yaşlarına.

Hicranın qapısın döyüm astaca,
Həsrəti yalandan öyüm astaca.
Gedib qulağına deyim astaca,
Bir çarə tapsınlar öz başlarına.

Zülmətdən gecənin rəngi çıxılsa,
Ulduzlar ayağım altda yıxılsa,
Dünyanın dövləti-varı yığılsa,
Bərabər olarmı söz qaşlarına.

Sevinc Arzulu

**Söz savaşı**

Bax,yağır gur yağışım,
“Bayatı-şur”yağışım.
Sevmirsin gur yağışı,
Onda döz yavaşına.

Mehriban,şirindilsen,
Nolar,göz yaşım silsen.
Nece hesretem,bilsen,
Ocak,köz lavaşına.

Dünya deyesen vurub,
Zamanı terse burub.
Nedir,üz-üze durub
Çıxaq söz savaşına?

Sevinc Arzulu

**Söz sorağında**

Sen idin bir zaman elin qoçağı,
Eh,neden yox oldu gören o çağın.
Evvelki sevgiyle yanmır ocağın,
Gezirsin dünyanı köz sorağında.

Ayrılıq-eşqime qenim tenliyim,
Gözden perde asan çenim-şenliyim.
Könlümde yurd salıb benim “benliy”im,
Özgürlük dolaşır öz sorağında.

Xatiren dalınca dönüb qalmışam,
Sanma ki ateşim sönüb,qalmışam.
Kelemim elimde donub qalmışam,
Xeyalım dolanır söz sorağında.

Sevinc Arzulu

**Söz tutdu**

Saçında deni gördüm,
Gözündə "men"i gördüm.
Yenə də seni gördüm,
Hansı semte üz tutdum.

Rahatlığı itirdim,
Üreyimden ötürdüm.
Ocağından götürdüm,
Ellerimle köz tutdum.

Al-qırmızı geymezdim,
Yad qapısın döymezdim.
Heç  ne xətrə deymezdi,
Meni yalan söz tutdu.

Sevinc Arzulu

**Sözlerimi**

Az özgeye meyl ele.
Şeri unut, xeyr ele.
Birce anlıq seyr ele
Yaşaran gözlerimi.

Göz yaşını siler kim,
Üzümüze güler kim.
Alışdıra biler kim,
Işaran közlerimi.

Yar küsə, dindirmeye,
Özünü endirmeye.
Geriye döndermeye,
Başaran sözlerimi.

Sevinc Arzulu

**Sözüm oldu**

Getdiyin yollara qurbanam,ata
Həstərin,hicranın nə uzun oldu?
Canından ayrılmış bir canam,ata,
Ürəyində qalan nə sözün oldu.

Sənsiz bil ki mənim dünyam qaraldı,
Yaşıl ağaclarım soldu,saraldı.
Bahar ürəyimi duman,qar aldı,
Sənsiz ağlar qalan cüt gözüm oldu.

Elə bilirdim ki arxamda dağ var,
Indi başım üstdə əsir ruzigar.
Şəkillərin qalıb mənə yadigar,
Məndən yadigarsa bu sözüm oldu.

Sevinc Arzulu

**Sözüm önünde**

Arayıb axtarar, külümü tapmaz,
Günəş də isitməz közüm önündə.
Mənim ən sevdiyim gülümü tapmaz,
Əğyar da əriyər  sözüm önündə.

Bilirsən, vüsalı təkcə qoymadım,
Yad-yalan sözlərə daha uymadım..
Hicranın maskasın nahaq soymadım,
Kölgəsi arxamda, özüm önünüdə.

Həsrətin odunda durammazsan ki,
Uçan eşq sarayın qurammazsan ki,
Düz, hamar yolumu burammazsan ki.
Daş da tab gətirməz dözüm önündə.

Sevinc Arzulu

**Sözüne qüvvet**

Yolun ağ nurlu olsun,
Könlün qururlu olsun.
Ovun uğurlu olsun,
Ovçu, gözünə qüvvət.

Özün olaraq da qal,
Yolun Qarabağdan sal.
Tezliklə qələbə çal,
Igid, dizinə qüvvət.

Dön sönməyən marağa,
Paslanmayan yarağa.
Xalqı qaldır ayağa,
Şair, sözünə qüvvət.

Sevinc Arzulu

**Su perisi**

Bir peri oturmuş su qırağında,
Sapsarı saçları çiynine düşmüş.
Lal könlü ağ atlı yar sorağında,
Severek sevilmek beynine düşmüş.

Benizi andırar somsoyuq qarı,
Qüsseni,kederi içine vurmuş.
Yolunu gözlemiş,gelmemiş yarı,
Özünü denizin içine vurmuş.

Minib yeherlemiş deniz atını,
Xeyalen hey çapmış sahil boyunca.
Özlemiş Tanrının xoş saatını,
Ki dadsın vüsalın tamın doyunca.

Heyhat,ne geden var,ne de ki gelen,
Elçatmaz arzudan yarımadı heç.
Sehirli duyğuydu kelbini delen,
Ağ atlı oğlanla qarımadı heç.

Sakitce sulara baş vurdu peri,
Bir de görünmedi gözüme benim.
Neden hatırladım eh,o dilberi,
Hele karanlıqdır özüme benim.

Sevinc Arzulu

**Su perisi**

SU PƏRİSİ

Bir ebedi sevgi nağlı,
Vüsal daim eşqe bağlı.
Sevgilisi deniz oğlu,
Çoxdan verilib herisi,
Deniz qızı-su perisi.

Musiqidir dilindeki,
Gören nedir qelbindeki.
Çox gözeldir ulduz teki,
Pulcuq-pulcuq ağ derisi,
Deniz qızı-su perisi.

Düşmenindir güclü külek,
Saf hisslerle dolu ürek.
Sahilə çıx, deyek-gülek,
Gözlerinde qem erisin.
Deniz qızı-su perisi.

Sevinc Arzulu

**Su perisisen**

Eceb soyuq qanın var,
Dövr eden zamanın var
Gözel xanimanın var,
Denizin içi boyda.

Qoyma sular dinc olsun,
Elində girinc olsun.
Gözünde sevinc olsun,
Bir işıq ucu boyda.

Sen kimisen kimsenin,
De, incidir kim eəni.
Gör neçe sahil senin,
Özün bax, seçim boydan.
24.10.2017

Sevinc Arzulu

**Su sepmişim**

Üstümüzə ulayan yox,
Başın asta bulayan yox.
Məndən başqa sulayan yox,
Sevda yolunda təkmişəm.
Küçələrə su səpmişəm.

Oturub uca taxtında,
Yarəb,onu yaz baxtımda.
Ömrün-günün bu vaxtında,
Vüsala körpü çəkmişəm.
Küçələrə su səpmişəm.

Günəştək nur saçsın deyə,
Qəmdən uzaq qaçsın deyə,
Onu görcək açsın deyə,
Kənarına gül əkmişəm.
Küçələrə su səpmişəm.

Sevinc Arzulu

**Sual-sorğusuna**

Zəhər dadar balım, dünya.
Tökülübdür kalım, dünya.
Axı nədən zalım dünya,
Döndü vüsal oğrusuna.

Qəlbdə sevgi yaşadıriq,
Dərd yelinə üşüdürük.
Hər cür yalan eşidirik,
Mat qalırıq doğrusuna.

Üzü dönsün bu fələyin,
Qəlbdə qaldı hər diləyin.
Çiynimdəki cüt mələyin,
Dözüm sual-sorğusuna.

Sevinc Arzulu

**Suç üstünde**

Qürurumdan lovğalandım,
Deniz kimi çalxalandım.
Axı neden yaxalandım,
Men günahsız suç üstünde.

Hamımızdan adil Xalıq,
Derdi bezer qem yaxalıq.
Arzularım beyaz xalı,
Isteyirsen uç üstünde.

Yağıb saça ağ den, könül,
Yorğun düşüb beden, könül.
Biz ayrıldıq neden, könül,
Yar ile heç-puç üstünde.

Sevinc Arzulu

**Sulduzum**

Atasının bir dənəsi,
Anasının dürr danəsi,
Sevər, əzizlər nənəsi,
Babanın şəkəri, duzu
Sulduzum.

Sərrast deyər sözlərini,
Alışdırar közlərini.
Yerə dikməz gözlərini,
Seyr edər göydə ulduzu,
Sulduzum.

Yolunu gözlər ocaqlar,
Darıxmırmı künc-bucaqlar?
Oğlum, məni bərk qucaqla,
Tez ərisin qarım, buzum
Sulduzum.

Sən Elgizin qardaşısan,
Yaxın dostu, sirdaşısan.
Dünyamızda çox naşısan,
Mənim körpə, dəcəl quzum.
Sulduzum.

Fərəhimin xəyalısan,
Utancaqsan, həyalısan.
Ayaqları sayalısan,
Artsın günü-gündən ruzum,
Sulduzum.
14.11.2017

Sevinc Arzulu

**Susan oldu qezel**

Sonu vüsal olmadı ki bu uğursuz məhəbbətin,
Öldü bütün ümidlərim,bax,yerilə yeksan oldu.
Səni əldən alan fələk bilmirdimi günah edir,
Yaman yağdı göz yaşlarım,aşıb-daşan leysan oldu.

Bircə bileydin nə qaldı səndən mənə ey bivəfa,
Kim deyir bu ayrılıq mənim üçün asan oldu.
Görməz oldum dünyanı,eşitməz oldu qulağım
Gör o zalım əğyarı,necə qapı pusan oldu.

Sənlə bağlı olan şipşirin bir xülyadayam,
Xatirən əbədilik danışmadı, susan oldu.
Indi sən haqq dünyada,mənsə nahaq dünyadayam,
Bil ,məni intihardan qoruyan tək ad-san oldu.

Sevinc Arzulu

**Susar, Allah**

Artıq ələnib ələyim,
Hazırdır kəfən-bələyim.
Hər gün baş ölüm mələyi,
Qapımızı pusar,Allah.

Edilmişəm dərdə sürgün,
Gözlərimdə həsrət-mürgün.
Zalım əğyar yəqin bir gün,
Mənim tək qan qusar, Allah.

Hanı mənim qara günlüm,
Qəm baxışlım, qüssə ünlüm.
Vaxt gələndə şair könlüm,
Əbədilik susar, Allah .

Sevinc Arzulu

**Sübh elendi**

Sevgi qaldı tacu-taxtsız,
Gecikmişdi tale baxtsız.
Yenə də qar yağdı vaxtsız,
Fə lə k mə ndə n şübhə lə ndi.

Ayrı-ayrı döyünsə də ,
Ayrılıqdan deyinsə də ,
Hə rb paltarın geyinsə də ,
Sonda yer-göy sülhə gə ldi.

Üfüqlə rdə qan töküldü,
Uzaqlarda can çöküldü.
Birdə n-birə dan söküldü,
Zülmə timə sübh ə lə ndi.

Sevinc Arzulu

**Sübhe kibi**

Birce defe görüşmüşük,
Onda da ki öc düşmüşük.
Eh, biz çoxdan küsüşmüşük,
Uzun yol var sülhe kibi.

Sevgi hesret ocağına,
Qem sığınıb bucağına.
Torpağının qucağına,
Den ekiler şübhe kibi.

Ay benizi vaxtsız solan,
Ayrılıqdan gen gez, dolan.
Kederime hemdem olan,
Yağış yağar sübhe kibi.

Sevinc Arzulu

**Sübhün şefeqi**

Seherin canı,
Sevimli anı.
Sökecek danı,
Sübhün  şefeqi.

Nurla oynayar,
Coşar, qaynayar.
Sevinc paylayar,
Sülhün şefeqi.

Qemle ceng olar,
Bir aheng olar.
Qara rəng olar,
Zülmün şefeqi.

Sevinc Arzulu

**Sükut**

Zülmet qaranlığa bürünmüşüm men,
Her teref sessizlik, her yan lal sükut.
Xeyalen göylerde sürünmüşüm men,
Gecenin üzünde beyaz xal sükut.

Başdan ayağadek sebrem, dözümem,
Derdime yananım deymez gözüme.
Ha yana baxıram yalnız, özümem
Meni özümdence sen gel al, sükut.

Ateşler içinde ha alış, ha yan,
Bir kimse olmaz ki çetinde hayan.
Milyonlar içində tekəm, tenhayam
Hemişe olmayır şeker, bal sükut.
16.04.2016

Sevinc Arzulu

**Sükutun harayı**

Sükut haray çekdi:-Bene söz verin,
Neden sakitlikden doğuluram ben.
Yanıb alışmağa azca köz verin,
Soyuqda.şaxtada boğuluram ben.

Sükuta söz verdik,qulaqlar batdı,
Dünyanı sessizlik alıb da getdi.
Sükuta köz verdik,bir ocaq çatdı,
Istisi kelbimde qalıb da getdi.

Sükutun harayı sessizlik imiş,
Derdinin çarasın tapdı,ne tapdı.
Könlümün harayı sensizlik imiş,
Yerle göy arası çapdı,ne çapdı.

Sevinc Arzulu

**Sürükleyib**

Fərəh hissim hey talanıb,
Vüsalıma su calanıb.
Sinəm ustdə od qalanıb,
Kim ocağı körükləyib.

Aciz qalma söz önündə,
Dərdi-qəmin döz önündə.
Su pərisi göz önündə
Saçlarını hörükləyib.

Tək sənə ad olan könlü,
Kədərə yad olan könlü.
Həmişə şad olan könlü,
Hicran qəmə sürükləyib.

Sevinc Arzulu

**Süsen kimi**

Mən gəzəndə dost bağını,
Tökürsən qaş-qabağını.
Seyr eylə bahar çağını,
Sarı sünbül süsən kimi.

Dostusan azman divin də,
Bir danışıb bir sevin də.
Qayaların daş evində,
Qaynayar hey su sən kimi.

Şaxta düşər,soyuq olar,
Yasəmənin gözü dolar.
Üz çevirib getmə, nolar,
Gül bülbüldən küsən kimi.
14.11.2018

Sevinc Arzulu

**Süslendi**

Şelale tek çağladım,
Qemin yolun bağladım.
Sidq ürekden ağladım,
Xatireler islandı.

Ayrılığın iş-gücü,
Vüsaldan almaq öcü.
Hesretinin ülgücü.
Demirdenmiş, paslandı

Baharın gəlişine,
Nazenin yerişine.
Bülbülle görüşüne,
Qızılgülüm süslendi.

Sevinc Arzulu

**Süslener**

Neynəyim ürəyimə,
Söz keçirə bilmirəm.
Yazdığım musiqiyə
Söz köçürə bilmirəm.

Nə edirəm, alınmır
Sözlə simin vəhdəti.
O musiqi çalınmır,
Itirir öz qüdrətin.

Sözün bitdiyi yerdə
Qəmli nəğmə səslənər.
Musiqi işığında
Söz bəzənər, süslənər.
22.02.2018

Sevinc Arzulu

**Süzüler insan**

Qəlbundə gizlədər qəm yumağını,
Gizlədər taleyin boz yamağını.
Açammaz həyatın qaşqabağını,
Utanıb qızarar, büzülər insan.

Ayrılıb xəyallar duracağından,
Qızınmaz özgənin od-ocağından.
Əl üzüb dünyanın tutacağından.
Saralmış yarpaq tək üzülər insan.

Ağ çörək yerinə tale cad verər.
Ən şirin duyğuya acı dad verər.
Dərdləri min yerdən necə çat verər.
Özü öz əynindən süzülər insan.
29.04.2015

Sevinc Arzulu

**Süzülür**

Felek çatıb qar qaşların,
Taxıb yene lel daşların.
Parıldayan göz yaşlarım,
Yanağıma düzülür.

Sığal çekmez başa elim,
Deyer dağa-daşa elim.
"Yox"söylesen qoşa elim,
Bu dünyadan üzülür.

Yaman artıb heyecanım,
Qalmayıb ki yarı canım.
Sensiz dövran etmez qanım,
Damcı-damcı süzülür.

Sevinc Arzulu

**Süzüm sensiz**

Nə sonu var, nə əvvəli,
Eşq edər insanı dəli.
Kədərliyəm sən gedəli,
Daha gülmür üzüm sənsiz.

Illər pozdu yaddaşımı,
Qaraldıbdı qaş-daşımı.
Qəlb yandıran göz yaşımı,
Yanağıma düzüm sənsiz.

Kimə edim mən gileyi,
Çalmayın heç qəmli neyi.
Badəmə qan rəngdə meyi,
Indi necə süzüm sənsiz.

Sevinc Arzulu

**Şah perdesi**

Sən mənim bağımın çinar ağacı,
Mən sənin könlünün şah pərdəsiyəm.
Sən mənim başımın qızıldan tacı,
Sevən ürəklərin pərvanəsiyəm.

Sil gözün yaşını el-aləm baxır,
Sanarlar mən səni incidirəmmiş.
Hamı briliant, ağ qızıl taxır,
Təkcə sənin üçün inci-dürrəmiş.

Günlərin birində geri qayıtsan,
Gecə günəş doğub ay batacaqdır.
Yatmış duyğuları  birdən oyatsan,
Ümidlər istəyə tez çatacaqdır.
28.-6.2018

Sevinc Arzulu

**Şah perdesinde**

Menim üreyimin şah perdesinde,
Keder mahnı çalır, qüsse oynayır.
Könlümün azadlıq tersanesinde,
Ağ gemi qapılım hisse, qoymayır.

Ele bil arzular göyertesinde,
Ümidim özüne mesken salıbdır.
Sıxıldım kederin mengenesinde,
Denizin üstünü çiskin alıbdır.

Yene de qaranlıq çökür üstüme,
Buludlar göylerin engin deyişib.
Sema da kederin töküb üstüme,
Ayrılıq güneşin rengin deyişir.

Üreyim sıxılır yağışda menim,
Tepeden dırnağa islanam gerek?
Soyutma bulanıq naxışda meni,
Rütubet içinde paslanım gerek?

Isteyim kül olub, ateş olmamış,
Arzular ulduz tek sönüben axdı.
Menim qara sevdam güneş doğmamış,
Üzüme qeherle dönüben baxdı.
14.12.2017

Sevinc Arzulu

**Şahane  ölüm**

Görürsen,nece de qem var ünümde,
Ayrılıq yaşayar qara dünümde.
Bilirim,ezizim,en son günümde
Qismetim olacaq şahane ölüm.

Nisgilli könlümü alıbdır quraq,
Qoymaz ki bir anlıq ayağa duraq.
Bu fani dünyadan düşmekçün iraq,
Ay Allah,ver bene behane,ölüm.

Ömrümü saralmış yarpaq edirsin,
Heyat ağacımı çılpaq edirsin.
Insanı bir ovuc torpaq edirsin,
Neden sen gelmisin cehane,ölüm.

Sevinc Arzulu

**Şahane gülüm**

Niyə istəyirsən unudum səni,
Göz yaşıyla dolu buludum sənin.
İstəyim, gümanım, ümidim sənin,
Görən arzularsan daha nə, gülüm.

Yolunda min bir cür riskə getmişəm,
Sanırdım arzuya, kama yetmişəm.
Bütün istəyinə əməl etmişəm,
Yox daha əlində bəhanə, gülüm.

Nə vaxt əsirgədim səndən qayğımı,
Heç seçə bilmədin könül duyğumu.
Gecələr qaçırtdın gözdən uyğumu,
Yerişi, duruşu şahanə gülüm.

Sevinc Arzulu

**Şahmat olsa**

Al sehrada qovrularam,
Külek ile sovrularam.
Içindece boğularam,
Derd ve keder qat-qat olsa.

Hicran veslin evin söker.
Vüsal gözden qan-yaş töker.
Qem otağım tezce çöker,
Qelb divarım çat-çat olsa.

Olmayır ki ulduz aram,
Gece boyu gündüz arar.
Ilk andaca uduzaram.
Dünya dönüb şahmat olsa.

Sevinc Arzulu

**Şair ve şeir**

Ildırımlar çaxar göydə,
Yeri sel-suya qərq edər.
Tanrı susub baxar göydən,
Dünyanı nura bərq edər.

Nə bilirsən, sakitliyi
Bəlkə Tanrı pozmaq istər.
Gördüyüm bəd yuxuları,
Tərsinəcə yozmaq istər.

İlahi, sən özün qoru
Yolun azmış bəndələri.
Neçə-neçə boş, mənasız
Şeir yazmış bəndələri.

Mənalı şer sağlam insan,
Mənasızı aciz, xəstə
Şeir yazmaq deyil asan,
Gözəl şeir-həzin bəstə.

Tanrı, sən pıçıldamısan
Bütün gözəl şeirləri.
Sonunadək oxunmasa.
Ruhum çağıracaq  geri...
20 12.2017

Sevinc Arzulu

**Şairin**

Yenə qəmlənibdir dəli ürəyi,
Yenə də əriyir qarı şairin.
Yerlə yeksan oldu arxa-dirəyi,
Pozulubdur düz ilqarı şairin.

Dərdini söylədi,dərd saymadılar,
Igidlik gösrərdi,mərd saymadılar.
Şairi seçilmiş fərd saymadılar,
Xain çıxdı xiridarı şairin.

Kimsə gəlib əhvalını soruşmaz,
Elə yanar,torpaq külə qarışmaz.
Vəfasızla ömür-billah barışmaz,
Sınanıbdır e`tibarı şairin.

Dostu var ölkənin hər bölgəsində,
Xain tək qorxmayır öz kölgəsindən.
Qalıbdır asılı bir özgəsindən,
Yoxdur əldə bir ixtiyarı şairin.

Nəyə lazım şeir yaza qürbətdə,
Xəfif əsən külək sazaq qürbətdə.
Yaşaya bilməz heç uzaq qürbətdə,
Var Şirvan tək bir diyarı şairin.

Nə şerini tənqid eylə,dodaq büz,
Bir nöqsanın artırıb eyləmə yüz.
Ilqarı düz,peymandüz,əhdi düz.
Pozulmaz heç düz me`yarı şairin.

Qalmayıbdır yaşamağa həvəs də,
Bülbül kimi nəğmə deməz qəfəsdə.
Şeir söyləyəcək lap son nəfəsdə,
Sözdür ən yüksək əyarı şairin.

Sevinc Arzulu

**Şairin amalı**

Dünya yaxın Şərq olmasın,
Od-atəşlə bərq olmasın.
Göz yaşına qərq olmasın,
Anaların gül camalı.

Dərd önündə qalmaz naçar,
Qəmdən daim uzaq qaçar.
Aya, ulduza yol açar,
Insanın əqli-kamalı.

Hərb meydanı igid yeri,
Alsın Qarabağı geri .
Yazsın gözəl zəfər şeiri,
Budur şairin amalı.

Sevinc Arzulu

**Şairler Allaha yaxın olurlar**

Şairlər Allaha yaxın olurlar,
Şairlər cavankən yaşa dolurlar.
Açılmamış qızılgül tək solurlar,
Verin şairlərə öz qiymətini,
Kəlam qiymətini,söz qiymətini.

Əsrlərdir yaşayır Şeyx Nizami,
Pozulmazdır şeirlərun nizamı.
Şairlər içində yazdı imzamı,
Ölməz "Xəmsə"sini yazan Nizami.
Müdrik,aqil,şair-ozan Nizami.

Şairin duası eşidilər tez,
Şeirlərdən nə usan,nədəki bez.
Şairin qəmini bir baxışdan sez.
Hərdənbir şairin dayağı olun,
Qaranlıq gecədə mayağı olun.

Bu dünyanın əzabına gər sinə,
Şairliyə tab gətirməz ki hər sinə.
Şairin şerini yozma tərsinə,
İlqarı düz,amalı düz şairlər.
Gecəni edərlər gündüz şairlər.

Şair olan haram qatmaz mayaya
Kürəyini Qaf dağına dayaya.
Özü bənzər bir sıldırım qayaya.
Şairlərin yeri ucadan uca.
Şairlər yaşayar dünya durduqca.

Şairin xalqına sözü daha çox,
Yaşayar yarıac,dözər yarıtox.
Heç nədən,heç kimdən şikayəti yox.
Dözər hər əzaba,dərdə şairlər.
Dönər qəhrəmana,mərdə şairlər.

Nəsimi tək dərisini soyublar,
Haqqı görən gözlərini oyublar.
Şairləri yaman günə qoyublar,
Yenə də dayanıb,durub şairlər.
Azadlıq qalası qurub şairlər.

Əlindən aldılar telli sazını,
Qışa döndərdilər güllü yazını.
Bircə gün də çəkmədilər nazını,
Söndürdülər ocağını,közünü.
Qəlbində qoydular daim sözünü.

Şair var fələyin cəbrinə matdı,
Şair var insanın səbrinə matdı.
Şair var şairin qəbrinə matdı,
Şairlərin həyatı şahmat olar.

Şair necə oynasa şah mat olar.

Şair var dostunu çəpiyə satdı,
Şair var postunu qəpiyə satdı.
Şair var tostunu qəpiyə satdı,
Şair var su kimi axıb-durulub,
Bünövrəsi yalnız sözlə yoğrulub.

Mən gah dəli Kürəm,gah da Xəzərəm,
Şerim ilə könülləri bəzərəm.
Aşıqlar tək el-obanı gəzərəm.
Sevincəm,qəlblərdə daim yaşaram.
Şeirim ilə sərhədləri aşaram.

Sevinc Arzulu

**Şar kimi**

Daha darıxmayacam
O qara gözlərinçün.
Şənimə deyilməyən
Şipşirin sözlərinçün.

Bu gedişlə yenidən
Geriyə dönəcəksən.
Bir vaxt günəş olsan da
Ulduz tək sönəcəksən.

Səni mənim əlimdən
Alanda o zalım xar,
Bilmirdimi dünyada
Haqq-ədalət, divan var.

Nədən belə al günəşin
Ümidimi sozaltdı?
Bu nigaran baxşıma,
Xatirələr söz atdı.

Döydü bizi xatirələr
Yağış kimi, qar kimi.
Eh, partladı xəyallarım
Şaxta vurmuş şar kimi.
26.04.2018

Sevinc Arzulu

**Şehe dönmüşüm**

Durmuşam dörd yolun qəm qovşağında,
Ölümçün verilən behə dönmüşəm.
Əzizim,sənincün göy qurşağında,
Yeddi əlvan rəngli zehə dönmüşəm.

Qüssədən,kədərdən ürək yatmayır,
Sənin saf sevgini başdan atmayır.
Neynəyim,əlinə əlim çatmayır,
Telini oynadan mehə dönmüşəm.

Od aldım atəşin közdən,əzizim,
Qəlb küsər tə`nəli sözdən,əızizim.
Süzülüb bir ala gözdən,əzizim,
Gül üstdə parlayan şehə dönmüşəm.

Sevinc Arzulu

**Şehid Çingize**

Qoynunun aç,Vətən, şəhidin gəlir.
Erməni zülmünə şahidin gəlir.
Üçrəngli bayrağa bükülüb nəşi,
Sönübdür ananın parlaq günəşi.

Rahatlıq tapacaq ruhu Çingizin,
Ata ağlayacaq hamıdan gizlin.
Bu ağır itkiyə yanacaq qardaş,
Onu xatırlayıb anacaq qardaş.

Gələn yollarına çiçək düzülüb,
Gözlərdən yaş damla-damla süzülür.
Şəhidlər parkında məzar qazılıb
Alnına şəhidlik bəxti yazılıb,

"Allah rəhmət eyləsin"-deyirik biz,
Müqəddəq ruhuna baş əyirik biz.
Şəhidlərin qisası alınacaq,
Zəfər marşı tezliklə çalınacaq.

Sevinc Arzulu

**Şehidler**

Vetenin yolunda kurban gitdiler,
Bir deyil,on deyil, yüzdür şehidler.
En uca zirveye onlar yetdiler,
Yoxluğunuz bizi üzür,şehidler.

Açılmadı onların sabahları,
Qulağımda anaların ahları.
Cennetdeki melek kibi ruhları,
Qemgin-qemgin göyde süzür,şehidler.

Yanıbdır obalar,qalıbdır külü,
Oxumayır Qarabağın bülbülü.
Laleni,nergizi,ter qızılgülü,
Xalqım sinenize düzür,şehidler.

Cavandınız,var idi ne yaşınız,
Matem olub eleminiz,yasınız.
Şehid olmaq imiş alın yazınız,
Göz yaşımız bir denizdir,şehidler.

Bir gün geler,qisasınız alınar,
Düşmenimiz min bir derde salınar.
Tezlik ile zefer marşı çalınar,
Xalqım qorxmaz,mübarizdir,şehidler.

Sevinc Arzulu

**Şehidlerim**

Herbin soyuq üzündeki,
Qanla dolu izündeki,
Qızılgülün gözündeki,
Parıldayan şehi derim.

Sönmeyecekdir od-ocaq,
Zefer marşı çalınacaq.
Qisasınız alınacaq,
Rahat yatın, şehidlerim.

Açılmaz nurlu sabahı,
Eşidiler ana ahı.
Ağ meleye döner ruhu,
Şehid oğlun, şehid erin.

Sevinc Arzulu

**Şehlagözlüm**

Dönüb göz yaşına pıçıldayırsan,
Salam şəhlagözlüm, salam, necəsən?
Qayıdıb getməyə yol arayırsan,
Görən taparsanmı yolu gecə sən.

Ümidim xəyalın astanasında,
Addımın atmağa eyləmir ürək.
Mən necə ağlayım hicrin yasında,
Onun ölümünə sevinim gərək.

Hicrinə qoy qara həsrət ağlasın,
Özünü yandırsın ahı-amanı.
Ayrılığın daş qəlbini dağlasın.
Döndərə bilməz ki geri zamanı.
14.05.2018.

Sevinc Arzulu

**Şehrimiz vardı**

Qelebe ezmidir bizi yaşadan,
Esrler ayırır xandan, paşadan.
Elimiz üzülmez bir an Şuşadan.
Xatire anında qehrimiz vardır.

Şimşeyin göylerde reqs eylediyi,
Semaya işıqla neqş eylediyi.
Tanrının bizlere bexş eylediyi,
Topxana boyda bir behrımiz vardır.

Ermeni ezelden düşmenin qulu,
Farsların ezizi, rusların dulu.
Qarabağ torpağı uludan ulu,
Qedimden bir Şuşa şehrimiz vardır.
27.10.2018

Sevinc Arzulu

**Şeir**

Nə bilirsən, sakitliyi
Bəlkə Tanrı pozmaq istər.
Gördüyün bəd yuxuları,
Tərsinəcə yozmaq istər.

Ilahi, sən özün qoru,
Yolun azmış bəndələri.
Neçə mənası olmayan,
"Şeir" yazmış bəndələri.

Mənalı şeir-sağlam insan,
Mənasızı aciz, xəstə.
Şeir yazmaq deyil asan,
Gözəl şeir-həzin bəstə.

Tanrı, sən pıçıldamısan,
Bütün gözəl şeirləri.
Sonunadək oxunmasa
Ruhum çağıracaq geri.
21.12.2017

Sevinc Arzulu

**Şeir tekin**

Seni şeir tekin yazaraq her gün,
Serin su evezi içerem inan.
Vüsalın qeminde azaraq her gün,
Hesretin sevincin biçerim inan.

Seni setir-setir, nöqtebenöqte
Tesevvür ederem gözüm önünd?.
Ilahi bextimi eylleyr diqte,
Özüm arxasında, ruhum önünde.

Belke seçilmişden biriyem men de,
Tanrının kölgesi başım üstdedir.
Onunçun hele de diriyem men de,
Qaranlıq mesele yaşım üstdedir.

Yaşım yavaş-yavaş elliye çatır,
Qocalıq qapını döyür tıqhatıq.
Üreyim nisgilin qoynunda yatır,
Amma qanım coşur hele pıqhapıq.

Gözümün önünü tutub qaranlıq,
Tek seni sezerem zülmet içinde.
Köksümü q?m duzu edib şoranlıq,
Ferehi tapmazsan zillet içind?.

Sevinc Arzulu

**Şeirbazam men**

Ürəyimdən axıb gəlir sətirlər,
Öz-özünə bağlanıbdır çətirlər.
Yatır ürəyimə hər cür ətirlər,
Ortababam-nə çoxam,nə azam mən.
Yaman şeirbazam mən.

Üşütməyir məni soyuğu qışın,
Islanmaram.dursam altda yağışın.
Ürəyimi açır sənin alqışın.
Başdan ayağadək əda,nazam mən.
Yaman şeirbazam mən.

Qorxuram ki görüşümüz son olar,
Çinarın əynində yaşıl don olar.
Vüsalın qrdında bəyaz don olar,
Istəmirəm ayrılıqdan yazam mən,
Yaman şeirbazam mən.

Ömrümün tən yarısını keçmişəm,
Həsrəti yox,vüsalını seçmişəm.
Ürəyim doyunca meydən içmişəm,
Ona görə belə kefi sazam mən,
Yaman şeirbazam mən.

Atəşinlə sevəni yandır,könlüm.
Ürəklərdə sevgi oyandır könlüm.
Hamını hər zaman duyandır könlüm,
Sevunc deyər baharam mən,yazam mən.
Yaman şeirbazam mən.

Sevinc Arzulu

**Şeirler**

Bəzəksiz libaslar əynimdə ölür,
Günahsız fikirlər eynimdə ölür.
Beynimdə yaranır, beynimdə ölür,
Hələ doğulmamış yazıq şeirlər.

Yenə də duyğular varaq-varaqdır,
Misralar, sətirlər calaq-calaqdır.
Romanlar, povestlər qalaq-qalaqdır,
Bir görün, necə də azıq, şeirlər.

Doğma Yer kürəsi balaca gəlir,
Lalələr, nərgizlər yamaca gəlir.
Gələndə aramla, astaca gəlir,
Yolu-yolağası qazıq şeirlər.
4.5.2013

Sevinc Arzulu

**Şeirleşmişem**

Alın yasısından qaçammaz kimsə,
Günəş tək nurunu saçammaz kimsə.
Mənim tilsimimi açammaz kimsə,
Oduna düşübən sehrləşmişəm.

Həsrətin sevinci, fərəhi udib,
Gəl mənə ümid ver yalnız bir udum.
Üzümü o uca göylərə tutub,
Gün ilə, Ay ilə xeyrləşmişəm.

Xəyallar içində azmışam, gülüm.
Simləri qırılmış sazmışam, gülüm.
Q qədər şeirlər yazmışam, gülüm.
Özüm də bir azca şeirləşmişəm.

Sevinc Arzulu

**Şen bu gece**

Həsrətimdən rəngin  solsa,
Qara gözün yaşla dolsa,
Gülüm, gizlicə də olsa,
Görüşə gəl sən bu gecə.

Qəlbə daman olacaqdır,
Hava duman olacaqdır,
Bizə mehman olacaqdır,
Külək, çiskin, çən bu gecə.

İşim olub yaman müşkül,
Dağılıbdır vüsal köşkü.
Gəlsən edəcəyəm təşkil,
Şeir axşamı mən bu gecə.

Könlümü qəm alacaqdır,
Əbədilik qalacaqdır.
Hicran çətin salacaqdır,
Saçlarıma dən bu gecə.

Həmişə qəmli Sevinci,
Gözləri nəmli Sevinci,
Kədər aləmli  Sevinci,
Görəcəksən şən bu gecə.

Sevinc Arzulu

**Şerik düşdü**

Mavi dəniz özün öydü,
-"Bax,sularım necə göydü."
Pəncərəmi yağış döydü,
Xatirələr perik düşdü.

Tənhalıqdan təklənmişdim,
Pıçıltıya şəklənmişdim.
Şən notlara köklənmişdim,
Nədən nəğməm lirik düşdü.

Dönüb bəyaz qağayıma,
Vüsal möhtac hər qayğıma.
Sənə olan saf düyğuma,
Əçəl mənnən şərik düşdü.

Sevinc Arzulu

**Şerq küçesi**

Bir küçəmiz var idi: Şərq küçəsi,
Boylanaraq keçərdi o küçədən neçəsi.
Biri vardı  küçənin başındaca durardı,
Dayanardı kölgə tək, sevdiyini arardı.

Minib səbr atını sona kimi çapdı da,
Bəzisi öz yarını o küçədə tapdı da.
Kaş ki o günlərdən uzaqlaşmazdım,
Əlli iki yaşımda uşaqlaşmazdım.

Gözümü örtməzdi xatirə tülü,
Yanmış körpülərin qaralıb külü.
Yadıma düşəndə ürəyim sızlar,
Indi hardasınız a qonşu qızlar.

Biz çiçək qızlar idik, güldən libas geyərdik,
Kimsə gəlib keçəndə " səni sevir" deyərdik.
Axşamacan oynayar, deyərdik, gülüşərdik,
Qönçə hisslərimizi gizlicə bölüşərdik.

Ürəyimiz sevsə də, dilimiz yox söylərdi,
Ötüb keçən o günlər,eh, əzizim, böyləydi.
Indi hey axtarıram, arayıram onları,
Görəsən o qızların xoşbəxtdirmi sonları.

Bilirəm, mənim kimi nənə olanı da var,
Elə oğul-uşaqsız yaşa dolanı da var.
Hərənin öz qisməti, hərənin öz taleyi,
Bu-Tanrının yazısı, ola bilməz gileyim.

Qocalığa yol alan qatardan enəcəyəm,
Uşaqlığın gülzarı küçəyə dönəcəyəm.
Qoyub xatirələrin sonuna kök nida mən,
Sonra da bu dünyaya  edəcəyəm vida mən.

Sevinc Arzulu

**Şeytanın**

Kədərin qovuşar hər vaxt dərdlə bil,
Kişilik yaraşır təkcə mərdə,bil.
Atalar deyib ki sən də hərdənbir,
Sözünə qulaq as dəli şeytanın.

Yolumu azarsam dumanda,çəndə
Neynərəm,İlahi mən yazıq bəndə.
Nədən çox ağırlıq edir bəzən də,
Çiynimin üstündə əli şeytanın.

Dünyanı idarə edər qaralar,
Yayın yay günündə düzü qar alar.
Bir müddət keçməmiş rəngi qaralar,
Parlamaz almazı,lə`li şeytanın.

Sevinc Arzulu

**Şuşada qaldı**

Dərmanlar dərmanı havası, suyu,
Çılpaq qayaların yağışmı yuyur.
Tənha qaldığını anlayır, duyur
Ürəyim o gözəl guşədə qaldı,
Mənli xatirələr Şuşada qaldı.

Yarəb, düşmənimiz olsun bağrı qan,
Kimsəsi qalmasın əlindən tutan.
Səsimi eşitsin uca Yaradan,
Əksimiz ayna tək şüşədə qaldı.
Mənli xatirələr Şuşada qaldı.

Həsrətdən az qalır ürəyim yana.
Nəfəsim tıncıxa, ruhum dayana.
Görən salamatmı yaşıl Topxana,
Qaragöz ceyranlar  meşədə qaldı.
Mənli xatirələr Şuşada qaldı.
26.10.2017

Sevinc Arzulu

**Şuşalı xatireler**

Qapımı döyüb  yene.
Qonaq gelmişdi mene,
Kaş o günlerim döne,
Şuşalı xatireler.

Yene bağa düşeydik,
Deyeydik, gülüşeydik.
Dostlarla görüşeydik,
Şuşalı xatireler.

Uzaqdıq ehtiyacdan,
Tut dererdik ağacdan.
Taxaydıq yaşıl tacdan,
Şuşalı xatireler.

Gözlər İsa bulağı,
Severdi her qonağı.
Kesilsin yad ayağı,
Şuşalı xatireler.

Hesretem havasına,
Bir şirin nevasına.
Quş uçar yuvasına,
Şuşalı xatireler.

Sevdasına düşmüşem,
Hesrətden üşümüşem.
Incimişem, küsmüşem,
Şuşalı xatireler.

Qayaya  boylanardıq,
"Qızıl var" haylanardıq.
Qoynunda yaylanardıq,
Şuşalı xatireler.

O günlerimiz döner,
Hicranın odu söner.
Düşmen bayrağı ener,
Şuşalı xatireler.

Alınar torpağımız,
Xoş olar növrağımız.
Ucalar  bayrağımız,
Şuşalı xatireler.
30.04.2017

Sevinc Arzulu

**Şuşam**

Seni işğal edib yağı,
Olmusan düşmen tapdağı.
Kim çeke biler bu dağı,
Uzat bene elin,Şuşam.
Ağarıbdır telin,Şuşam.

Ürek sözüm budur düzü,
Her gecenin var gündüzü.
Isa bulağı,Cıdır düzü,
Senin parlaq lelin,Şuşam.
Bir nazenin gelin,Şuşam.

Sen dağlar qoynunda mercan,
Sensiz ağlar Azerbaycan.
Hazır uğrunda vere can,
Bin-bin igid delin,Şuşam.
Kayıdacak elin,Şuşam.

Sevinc Arzulu

**Şübhelendi**

Sevgi qaldı tacu-taxtsız,
Gecikmişdi tale baxtsız.
Yenə də qar yağdı vaxtsız,
Fələk məndən şübhələndi.

Ayrı-ayrı döyünsə də,
Ayrılıqdan deyinsədə,
Hərb paltarın geyinsə də,
Sonda yer-göy sülhə gəldi.

Üfüqlərdə qan töküldü,
Uzaqlarda can çöküldü.
Birdən-birə dan söküldü,
Zülmətimə sübh ələndi.

Sevinc Arzulu

**Şükür etdim**

Olanlara maraqlıyım,
Ötənləri varaqlıyım.
Kədərli.qaşqabaqlıyım
Sənsizlikdən fikir etdim.

Gül üstdə parlayan şehim,
Həsrətə verilən behim.
Əlimdə qara təsbehim,
Gecə-gündüz zikr etdim.

Yenə gəlir ayrılıq,ha
Nöqtə qoyaq ayrılığa.
Sonda çıxdım aydınlığa,
Ilahiyə şükür etdim.

Sevinc Arzulu

**Şükür, bacım**

Tanrı baxşı olacaqdır,
Gözel naxşı olacaqdır.
Her şey yaxşı olacaqdır,
Bu gününe şükür, bacım.

İtidir derraken, ağlın
Bitmeyecek heyat nağlın.
Yanındadır qızın, oğlun
Heç eyleme fikir, bacım.

Dünyadan hali insanlar,
Mehriban, ali insanlar,
Ağzı dualı insanlar,
Eder yaxşı zikr, bacım.
23.03.2018.

Sevinc Arzulu

**Tac oldum**

Dağı aşammaram zirvəsi qarkən,
Hayıma yetişməz kimsələr karkən.
Mənim bu dünyada hər şeyim varkən,
Tək sənin sevginə ruhən ac oldum.

Yenədə zindana dönüb qu balış,
Dərdini gizlətmə,açıb de,danış.
Ürəkdən şənlənib gülür dost-tanış,
Bir lal təbəssümə mən möhtac oldum.

Daha mən əvvəlki Sevinc deyiləm,
Tək Tanrı önündə yerə əyilləm.
Qəlbimin fərəhi doğma ailəm,
Onların başına almaz tac oldum.

Sevinc Arzulu

**Tacı dünyanın**

Şaxtalı nəfəsin hovurur zaman,
Şaralmış sünbülü sovurur zaman.
Içində içimi qovurur zaman,
Tonqalın üstündə sacı dünyanın.

Olmazın sözləri kim dedirər,kim.
Həsrəti,hicranı kim öldürər.kim.
Bu qədər insanı kim yedirər,kim.
Vardır neçə milyon acı dünyanın.

Tərlan düşüb şahin,sarından ayrı,
Zirvə uzaq könül qarından ayrı.
O da düşüb nakam yarından ayrı.,
Vüsal olar tək əlacı dünyanın.

Daha pislik ilə ömür eyləməz,
Alışan könülü kömür eyləməz.
Kimsəyə hökm etməz,əmr eyləməz,
Düşübdür başına tacı dünyanın.

Görmək ağır yarın xarla gəzməsin,
Gülüşünün könül bağrın əzməsin.
Boşalıbdır bir vaxt dolu xəznəsi,
Verilməyir bac-xəracı dünyanın.

Sevinc Arzulu

**Tacı olacak**

Atalar hemişe sözünü tutar,
Namerdin yaxşılıq gözünü tutar.
Vüsalın Mekkeye üzünü tutar,
En sadiq,en dindar Hacı olacaq.

Kelbinde qalarsa isteyin,kamın,
Kelpesi olarsan qırılan camın.
Hele dadmamısan hicranın tamın,
Bilirsin,nece de acı olacaq.

Yuxunu avanda yoz heyatında,
Kim oldu silinen toz heyatında.
Senin bensiz keçen boz heyatında,
Keder-qem başının tacı olacaq.

Sevinc Arzulu

**Talan, könlüm**

Həzin nəğmə eşidəndə,
Ala gözü dolan könlüm.
Kədər onu üşüdəndə,
Meh telini yolan könlüm.

Kimsəyə bir pislik etməz,
Pərvanəsi şama yetməz.
Arzu edər, kama yetməz,
Dərd önündə solan könlüm.

Tale səni sınamasın,
Yaxın dostlar qınamasın.
Köhnə yaran qanamasın,
Qəmə cığır salan könlüm.

Xəyalların göyündə uç,
Etmə günah, eyləmə suç.
Ümidlərin olmasın puç,
Dünya özü yalan, könlüm.

Dəfn edərək saf incini,
Itirmisən sən dincini.
Fərəhini, sevincini,
Fələk etdi talan, könlüm.

Sevinc Arzulu

**Talan, netnim**

Etdi şad olan könlü yar qüsseyi-nalan, neynim.
Oldum qəm ilən gülüm, daima tək qalan, neynim.

Səni həsrət dərdimə dərman söyləmişdi həkim,
Bəs nədən oldun söylə, qan verib can alan, neynim

Gecədən sübhə qədər oyaq qalıram, əzizim
Təkcə ay işığıdır yoluma nur salan, neynim.

Yazığı gələn varmı mən aşiqi-biçarəyə,
Elə hey söylədilər böhtan, riya-yalan, neynim.

Qayıt, göz yaşımı sil ağ butalı dəsmalınla,
Yoxsa könül sarayın hicr edəcək talan, neynim.

Sən, ay Sevinc, həyatın yolları çox keşməkeşli,
Bil ki hicran olacaq yaxın, doğma balan, neynim.

Sevinc Arzulu

**Talan, üreyim**

Yenə doluxsunub yaman dolmusan,
Qürbət eldə qənha qalan ürəyim.
Qəm çəkməyə özün səbəb olmusan,
Əbədi odlara qalan,ürəyim.

Bilmirdinmi sən sevəndə nadanı,
Təhqir edər saymazlığı adamı.
Məhəbbətin düşür yenə yadamı,
Ilg sevgi həmişə yalan,ürəyim.

Baxışım şimşək tək çaxır.duymayır.
Ala gözüm nəmli baxir.görməyir.
Gözlərimin yaşı axır,görməyir
Məni yanar oda salan ürəyim.

Baş açmıram taleyin gərdişindən,
Məhəbbəti puç etmək vərdişindən.
Daha doydum bu dünyanın işindən,
Etdilər səni də talan,ürəyim.

Bir zaman şad,bir zaman şən Sevinci,
Bağ-baxçası gözəl gülşən Sevinci.
Göz yaşına əsir düşən Sevinci,
Yoxdur dərd əlindən alan ürəyim.

Sevinc Arzulu

**Talanmır**

Qürbetde uzüyün qaşına dönüm,
Qaraca gözünün yaşına dönüm.
Dön,qayıt geriye,başına dönüm,
Daha evvelki tek seller bulanmır.

Acı xatireli keçmiş yox olub,
Nizamlı-nizamsız keçiş yox olub.
Qelbi qara olan keşiş yox olub,
Seven Kerem kibi oda qalanmır.

Yolundan keçdiyim gözüme qalır,
Suyundan içdiyim dözüme qalır.
Ekdiyim-biçdiyim özüme qalır,
Güli-gülüstanım daha talanmır.

Sevinc Arzulu

**Talanmısan**

Sən qış etdin baharımı,
Yek eylədin çaharımı.
Zəhərlədinnaharımı,
Gürzəmisən,ilanmısan.

Mənə lazım deyil sərvət,
Bəsimdir ülvi məhəbbət.
Edirsən yadlara hörmət,
Varlımısan,kalanmısan.

Nə pətəyim var,nə balım.
Qəriblikdə niyə qalım.
Nəyinə gərəkdir halım,
Sən qeydimə qalanmısan.

Qocalıqda solammadın,
Yüz yaşına dolammadın.
Heç vaxt doğru olammadın,
Riyamısan,yalanmısan.

Arazmısan ya Nilmisən,
Tək Sevinci yad bilmisən.
Qulduramı rast gəlmisən,
Soyulmusan,talanmısan.

Sevinc Arzulu

**Tale yazan yazıya**

Ürəyimin özülünü oydular,
Qan içməkdən usanaraq doydular.
Məni qəmlə əlbəyaxa qoydular,
Möhtac oldum bir dilbilməz qazıya.

Əzabla dərd arasında yoxdur fərq,
Hər ikisi edib məni yaman qərq.
Gəzdimsə də Şimal-Cənub, Qərblə Şərq,
Rast gəlmədim qismətindən razıya.

Qara rənglə yazılıbdır qədərim,
Ruhum uçub, qalıb quru bədənim.
Günü-gündən artır saçımda dənim,
Mən nə deyim tale yazan yazıya.

Sevinc Arzulu

**Tanımamışam**

Ümidler durna tek qatar-qatardır,
O pambıq ellerin cadar-cadardır.
Vüsala geden yol dağlıqdır,dardır
Ben seni hele de tanımamışam.

Yüzlerin içinde yüzbir olmuşam,
Peyman bir,söhbet bir,üz bir olmuşam.
Eyri nol,yalan nol,düz bir olmuşam,
Ben seni hele de tanımamışam.

Gözümün körüyü odsuz-ocaqsız,
Damlalar elinden boğulacaqsız.
"Leyli-Qeys",yeniden doğulacaqsız,
Ben seni hele de tanımamışam.

Sevinc Arzulu

**Tanışdı**

Deyirdi ki sevgisini,
Pula,  vara dəyişməz.
Sevdiyinin cizgisini,
Zalım xara dəyişməz.

Amma elə dəyişdi ki,
Xəbəri də olmadı.
Xarı sevdi.Arada qum
Çəpəri də olmadı.

Yoldaş oldu xain yada,
Nə dindi, nə  danışdı.
Birini də salma yada,
Xatirələr tanışdı.
09.08.2018

Sevinc Arzulu

**Tanrı hediyyesi**

Yollarıma nur çiledim,
Şeffaf suyu gur çiledim.
Bir gözeli elçiledim,
Dedim, belke “he ”deyesi.

Çox sevirem güllü yazı,
Neğme deyer könül sazı.
Ata, ana çoxdan razı,
Qızın özü “he ”yiyesi.

Yaxşı günün artsın sayı,
Daim axsın vüsal çayı.
Övlad İlahinin payı,
Neve Tanrı hediyyesi.

Sevinc Arzulu

**Tanrı payı**

Ben sene çox şeir hesr eylemişim,
Billim,oxumağa vaxtın olmayıb.
Aşkını kelbimde hebs eylemişim,
Oturub-durmağa taxtı olmayıb.

Bu sevda ömrümün son duracağı,
Yolunun üstünde körpü qurubdur.
Mermerden döşenib oturacağı,
Felek dörd yanına naxış vurubdur.

Naxışın biri al,birisi yaşıl,
Belke mezarımı burada qazım.
Yer göye,göy yere nece yaraşır,
Ele bil zaman da burada azıb.

Burda qeh-qeh çekir etirli güller,
Burda lalelerin bağrı qan olmaz.
Burada açılar qemli könüller,
Burada körpeler ağlağan olmaz.

Buranın suyu ne,suatı neymiş,
Burada geceler güneş boylanır.
Allahım,sevginin büsatı neymiş,
Alov şöle saçır,ateş oylanır.

Ezizim,ad qoyaq bu gözelliye,
Dünyanın mehebbet baxçasıdır bu.
Baxmamaq olarmı bu özelliye,
Tanrının hediyye boxçasıdır bu.

Sevib ezizleyek Tanrı payını,
Elece heyatın sonuna kibi.
Üzüb keçmesek de vüsal çayını,
Yaddaşa hekk edek tonuna kibi.

Sevinc Arzulu

**Tanrı penah**

Mehimi neynəmisən?
Şehimi neynəmisən?
"Eh"imi neynəmisən?
Ay səni, ah oğrusu.

Bilmirəm ki hardasan,
Şətindəsən, dardasann
Sandın ki savabdasan,
Etdin günah, doğrusu.

Uzağam mələyimdən,
Od aldım biləyimdən.
Gedəcək ürəyimdən,
Tanrı pənah, ağrısı.
15.08.2013

Sevinc Arzulu

**Tanrı seçimdedir**

Göy düzdə çən görməmisən?
Sünbüldə dən görməmisən?
Demə ki sən görməmisən,
Kədər də mən biçimdədir.

Gecələr uya bilməzsən,
Səbəbin guya bilməzsən.
Baxmaqla duya bilməzsən,
Şeir mənim içimdədir.

Ay işığı xoşa gələr,
Vüsal deyən boşa gələr.
Qoşa gedər, qoşa gələr,
Nicran həsrət köçündədir.

Yandırıb qəm çırağını,
Gəzdim sahil qırağını.
Itiləyib orağını,
Fələk artıq biçindədir.

Aşiq hara getsın,bilmir.
Necə yara yetsin, bilmir.
Kimi xoşbəxt etsin, bilmir,
Tanrı hələ seçimdədir.

Sevinc Arzulu

**Tanrıdan iltimas**

Bene bu vergini özün vermisin,
Qeleme sevgini özün vermisin.
Kedere tepkini özün vermisin,
Qızımı gelinlik donunda görüm,
Oğlumu celdliyin fonunda görüm.

Ömrüme yaz geldi elinde çiçek,
Qızılgül açılsın al leçek-leçek.
Torunlarım olsun ağıllı,göyçek
Şevib ezizleyim,boyunu görüm.
Ölmeyib sağ qalsam,toyunu görüm.

Arzudan arzular doğar.deyibler,
Parlaq nur zülmeti boğar, deyibler.
Beyazlıq ağ güne yağar,deyibler
Izn ver,hamımız ağ günlü olaq,
Toy-bayramlı olaq,düyünlü olaq.

Ferehin qapısın açıq saxlayaq,
Derdi üreyinden vuraq,oxlayaq.
Yaşlı insanlara deyek,yoxlayaq
Bir gün özümüz de qocalacağıq.
Günleri,ayları borc alacağıq.

Tanrının bizimle yox ki qerezi,
Qanları qaraltmaq qemin merezi.
Bu dünya ezelden bele terezi,
Alanda günah yox,satan aldadır.
Bu şirin yalanın özü bal dadır.

Sevinc Arzulu

**Tanrının  sorağında**

Fereh kelbe girmez iken,
Kiymetimi vermez ikə n,
Tanrı beni görmez iken,
Ben Tanrının sorağında.

Körpece fidan ekirim,
Dibine bol su tökürüm.
Ele hey resmin çekirim,
Xeyalımın varağında.

Taleyimin dizi qanar,
Her lə piri,izi qanar.
Bu dostluğu özü danar,
Qem kederin marağında.

Şer kelefi çözülmeyir,
Ayrılığa dözülmeyir.
Doğruluğun sezilmeyir,
Heqiqetin çırağında.

Sandıq derdi mehv etmişik,
Ah,ne böyük sehv etmişik.
Biz and içib ehd etmişik,
Deli Kürün qırağında.

Sevinc Arzulu

**Tanrının seması**

Xeyalın gözümün penceresinde,
Ümidin qollarım arasındadır.
Qulağım vüsalın ayaq sesinde,
Sevdiyim dünyanın harasındadır.

Qaranlıq hesretin qapısı açıq,
Giren de lengiyir, çıxan da neden.
Tebessüm işığı menden gen qaçır,
Uduzur yıxılan, yıxan da neden.

Tanrının güneşli seması altda,
Biz dövran sürürük yaxşı ya yaman.
Ayrılıq gizlenir siması altda,
Melhem olacaqmı hicrana zaman.

Sevinc Arzulu

**Tanrının sorağında**

TANRININ  SORAĞINDA.

Fereh qelbe girmez iken,
Qiymetimi vermez iken,
Tanrı beni görmez iken,
Ben Tanrının sorağında.

Körpece fidan ekirim,
Dibine bol su tökürüm.
Ele hey resmin çekirim,
Xeyalımın varağında.

Taleyimin dizi qanar,
Her lepiri,izi qanar.
Bu dostluğu özü danar,
Qem kederin marağında.

Şer kelefi çözülmeyir,
Ayrılığa dözülmeyir.
Doğruluğun sezilmeyir,
Heqiqetin çırağında.

Sandıq derdi mehv etmişik,
Ah,ne böyük sehv etmişik.
Biz and içib ehd etmişik,
Deli Kürün qırağında.

Sevinc Arzulu

**Tanrıya**

Beni benden alan Tanrım,beni qaytar geriye,
Belke onda ümidlerim ayaq tuta,yeriye.
Üz çevirib benden getdi uzaqlara ol yarım,
Dözecekmi tufanlara,çovğunlara gül yarım.

Belke bir de gelmeyecek onun sesi-sedası,
Icaze ver,olum yene deli eşqin fedası.
Arzuların xeyal buzu belke bir gün eriye,
Yar qayıdıb döne bene,yaramıca seriye.

Şirin sözü,xoş baxışı yarama melhem olar,
Könül açan tebessümü gül üstde şebnem olar.
Aman Tanrım,beni verme zalım qemin eline,
Qocalsam da dönder gözel bir nazenin geline.

Sevinc Arzulu

**Tanrıya iltimas**

TANRIYA

Vüsal yalqız sozalıbdır,
Aynasını toz alıbdır.
Təkcə  sənə uzanıbdır,
Nolar, götür əllərimi.

Göz yaşından bezməyirəm,
Gül-çiçəyi sezməyirəm.
Ayrılığa dözməyirəm,
Mənə yetir ellərimi.

Qarlı qış günlərin sayır,
Yaşıllaşar çəmən-çayır,
Üz-gözümə külək yayır,
Mənim çətir tellərimi.

Həsrət, hicranına yetmə,
Sevdam, gözlərimdən getmə.
Başım üstdən əskik etmə,
Minbir ətir yellərimi.

Dağa qalxar yol, varıram,
Daşlıqdır sağ-sol, varıram.
Tanrım, sənə yalvarıram,
Geri gətir illərimi.
16.10.2018

Sevinc Arzulu

**Tanrıya xitab**

Hamını sən yetir murada. kama
Qıyma həsrət qalsın bal kimi tama.
Olmaq istəmirəm mən uçuq koma,
Allahım, qurulu ev eylə məni.

Sehirli balıq da düşməz qırmağa,
Yamanca pərgardır can qurtarmağa.
Mənimçün ən çirkin yaşıl qurbağa,
Istərsən təpəgöz dev eylə məni.

Bir şair qəlbim var:şeirli, nağıllı,
Sənin bir hökmündən dünya dağılı.
Məni nə gözəl et, nə də ağıllı,
Olduğum kimicə sev, öylə məni.
30.07.3015

Sevinc Arzulu

**Tap indi**

Bu dünyanın qayası nə, düzü nə
Yalanı nə, doğrusu nə, düzü nə.
Düşsən əgər gedənlərin izinə,
Həmdəmini arasında tap indi.

O əzəldi: yar könlünü yar alıb,
Ətrafımı tikan alıb, xar alıb.
Yer üzünü boran alıb, qar alıb,
Oğulsansa, ağ atını çap indi.

Gül-çiçəyi tez saralmış çölmüşəm.
Göy suları lilə dönmüş gölmüşəm.
Ürəyimi neçə tikə bölmüsən,
Qarşındadır iynə indi, sap indi.

Sevinc Arzulu

**Tapacaq seni**

Bilirem, özünden çıxıb sen bir gün
Deli tek hönkürüb ağlayacaqsan.
Üstüne yağacaq qüsse yağışı,
Kederin altında islanacaqsan.

Soyuqdan göyerer dilin-dodağın,
Bir kelme söz bele tapmayacaqsan.
Sevgide n tökülmüş beyaz atını,
Mehebbet çölünde çapmayacaqsan.

Bütün bu soyuqluq:bu qar, bu sazaq
Qelbine  ebedi hopacaq senin.
Hemişe seadet, vüsal gezsen de ,
Ayrılıq axtarıb tapacaq seni.

Sevinc Arzulu

**Tarixin dostu**

Dönerem küleye, addımlayaram,
Hündür binaları, uca evleri.
Daima kederle xatırlayaram,
Sökülen tarixi qoca evleri.

Ixtiyar çağının kor zamanında,
Titreyən eliyle esa gezirdi.
İsti ocağını qor zamanında,
Qığılcım-qığılcım niye ezirdin.

Müasir olubdur tarixi şeher,
Göylere baş çekir göydelenleri.
Boğacaq sizleri qem-qüsse, qeher,
Tarixi özüne dost bilenlerim...
20.04.2018

Sevinc Arzulu

**Tebessüm**

Birce kelme yalan kesdi düzümü,
Haqsızlıqlar saralmış gül düzümü.
Neden bele terk eyledin üzümü,
Qismet oldun namerd xara,tebessüm.

Üreyime akıb-akıb gelmedin,
Uzaqdanca bakıb yakın gelmedin.
Damla oldun,akın-akın gelmedin.
Beni de bir aktar-ara,tebessüm.

Qaldı üreyimde bütün gileyim,
Zirveye qonmaz ki benim ağ leyim.
Sözümü reqibe ben indi deyim-
-"Bezesin üzünü qara tebessüm".

Etrafda dost-tanış dünen çok idi,
Danışan çok idi,dinen çok idi.
Bir zaman yolundan dönen çok idi,
Indi hiç gelmeyir kara,tebessüm.

Acını dönderib şeker,qend etme.
Yalanı gülüşe gel sen bend etme.
Kimseye bakıban hiç rişxend etme,
Seni de çekerler dara,tebessüm.

Sevinc Arzulu

**Tebiet**

Gülüşümü gizləyib,
Addımını izləyib,
Zəmanəni bizləyib
Oturmuşam boynunda.

Ayrılıq qəlbə hakim,
Kədər,qəm orda sakin.
Uddu kim,uduzdu kim,
Bu məhəbbət oynunda.

Düşərgə salmaram ki,
Xəyala dalmaram ki.
Sənsiz həzz almaram ki,
Təbiətin qoynunda

Sevinc Arzulu

**Tecessümünü**

Gözümü çəkmirəm şehli çəməndən,
Yağışda islanıb şehdə çiməndən.
Gizlətmə əzizim, gizlətmə məndən,
Günəşi güldürən təbəssümünü.

Şüalar parlayar üzük qaşında,
Sevdamız hələ də körpə yaşında.
Ən uca nöqtədə, zirvə başında
Gördüm büstə dönən təcəssümünü..

Yalan həqiqəti görüb də dandı,
Məhəbbət həsrətin oduna yandı.
Ayrılıq vüsalı elə qısqandı
Gizlədə bilmədim təəssüfümü.
12.02.2018.

Sevinc Arzulu

**Tek meni düşün**

Dönübdür sevdanın qəm fədasına,
Həsərtin səsinə,nəm sədasına.
Yaxın düşə bilmir qum adasına,
Tufanlar qoynunda təknəni düşün.

Demədim hicranı özünə dost seç,
Alovdan,atəşdən əliyalın keç.
Bilirsən,ömründə bağışlamaz heç,
Həsrətə vurduğun təkməni düşün.

Yenə duyğularım eyləyər axın,
Siz ona şairin gözüylə baxın.
Kimsəni bilmə sən qəlbinə yaxın,
Tək məni fikirləş.tək məni düşün.

Sevinc Arzulu

**Tekce menim olaydın**

Ayrılıq düzünece,
Deyeydik üzünece,
Hesretin özünece
Hicran qenim olaydı,
Tekce menim olaydın.

Qıraydım qefesimi.
Duyaydım nefesini.
Görüşmek hevesimiz,
Sevgin çenim olaydı.
Tekce menim olaydın.

Keçdim yaşıl meşeden,
Zövq aldım benövşeden,
En uzaq bir guşede,
Göy çemenim olaydı,
Tekce menim olaydın.
03.04.2018

Sevinc Arzulu

**Teklenib gedirim**

Kədərimə sevinc qatmaz,
Hicranıma kimsə batmaz.
Günlərimə saat çatmaz,
Vaxta yüklənib gedirəm.

Qəlb ağlasa günahkar sim,
Ev uçulsa günahkar him.
Ayrılığa günahkar kim,
Xardan şəklənib gedirəm.

Dərdlə çətin çox yaşayam,
Qəm bəxş edən tamaşayam.
Ürəyimlə baş-başayam,
Yaman təklənib gedirəm.

Sevinc Arzulu

**Teklenmişem ben**

Yol azan fikirler pünhani qalır,
Kederli könlümü sübhani alır.
Kelbimin qem simi "Ruhani"çalır,
Bir saz havasına köklenmişem ben.

Qorxulu uyğular sele axır ki,
Yaralı duyğular ele fağır ki,
Narın qar qayğılar tele yağır ki,
Bir yaz havasına şeklenmişem ben.

Yaxşının yerinde namerd qalacaq,
Sevinci yene de ol derd alacaq.
Yaşım elli deyil,on dörd olacaq,
Bir naz havasına teklenmişem ben.

Sevinc Arzulu

**Teklenmişim  ben**

Yol azan fikirler pünhani qalır,
Kederli könlümü sübhani alır.
Qelbimin qem simi "Ruhani"çalır,
Bir saz havasına köklenmişim ben.

Qorxulu uyğular sele axır ki,
Yaralı duyğular ele fağır ki,
Narın qar qayğılar tele yağır ki,
Bir yaz havasına şeklenmişim ben.

Yaxşının yerinde namerd qalacaq,
Sevinci yene de ol derd alacaq.
Yaşım elli deyil,on dörd olacaq,
Bir naz havasına teklenmişim ben.

Sevinc Arzulu

**Teklik**

Heyifin gəlməyib heç dənə, qədər,
Ahımı ucaltdın sis, çənə qədər.
Mən ki yaşamışam tək sənə qədər,
Sonrakı həyatı borc almışam mən.

Ocaq qalamazlar mayak altında,
Xəyala dalmışdım bayaq altında.
Dolanıb gəzmədim ayaq altında,
Yolumu zirvədən hey salmışam mən.

Istərdim yuxudan şən, şux oyanım,
Al rəngli şəfəqə, nura boyanım.
Yoxdur nə yaxınım, nə də həyanım,
Həsrətin əlində tək qalmışam mən.
01.06.2015

Sevinc Arzulu

**Tek-tenhayam**

Bu dünyada tək-tənhayam,
Hamı atıb gedib məni.
Həm harayam, həm də hayam,
Kədər dəli edib məni.

Pıçıldayır  addımların,
Dərd-sərini mənə danış.
Bu gördüyün adamların,
Çoxu yaddır, azı tanış.

De, kim ilə dost olum mən,
Kim dərdimi duyacaqdır.
Razı olma ki dolum mən,
Üzümü yaş yuyacaqdır.
18.02.2018

Sevinc Arzulu

**Tel oluram**

Gah dönürəm sakit çaya,
Gah da coşan sel oluram.
Gah xəyalım uçur aya,
Gah da tufan,yel oluram.

Düşməyim heç bir tilsimə,
Dostlar səs versin səsimə.
Gah dönürəm nazik simə,
Gah da qalın tel oluram.

Çətin məndən bezə,doya
Yarım məni tənha qoya.
Gah dönürəm uca boya,
Gah da incə bel oluram.

Həmişə sal məni yada,
Unutma,sev məni ya da.
Gah dönürəm tamam yada,
Gah da tanış el oluram.

Bulud yerə qar ələyə,
Məni ağappaq bələyə.
Gah uyuram hər kələyə,
Gah da hiylə,fel oluram.

Sevinc Arzulu

**Telatüm**

Içimde bir təlatüm var,
Çalxalanır qem denizi.
Sahilinde qızıl qum var,
Bu qumun da üzerinde
Naxış-naxış sevgi izi.
Bu denizde qerq olmuşdur
Baxış-baxış sevgi özü.
Çoxdur hey gelib-gedeni,
Yoxdur heç xilas edeni.
Lal sevgimiz.
Intihara can atıbdır bal sevgimiz.
Döndü acı xatireye
Ötən günler bir de dönmez ki geriye.

Sevinc Arzulu

**Telesdin**

Durub küçəmizin başında eyzən,
Bir zaman adımı bağıran adam
Başına kədər tək yağsa da leysan,
Məni "Ay ürəyim."çağıran adam.

Indi nə dəyişib, mən həminkiyəm,
Sən məndən aralı, gen dolanırsan.
Həmincə avamam, eh, həmin keyəm
Bilirəm, mənsiz də şen dolanırsan.

Bir azca asta ol, bir az da həlim,
Xatirən arada qalıb əzilər.
Məhəbbət çölündə vüsal  heykəli,
Bir gün də əllərin ondan üzülər.

Heç kəsə deyilmiş sevdanın yolu,
De, səbrin çatarmı yolu getməyə.
Üşüdər yel- boran, vurar qar, dolu
Yamanca tələsdin vida etməyə.
11.11.2017

Sevinc Arzulu

**Tellerin**

Günəşdən alıb rəngini,
Sapsarı sarı rəngini.
Ay veribdir ahəngini,
Öldürür yarı tellərin.

Tellərinin səfi nədir,
Ilnların ə`fi nədir.
Özü böyük dəfinədir,
Neynəyir varı tellərin.

Düşmüşəm sanki tilsimə,
Əzizim,səs ver səsimə.
Bir gün dönsə sarı simə,
Bəzəyər tarı tellərin.

Dönək ötən qəmli çağa,
Göydən yerə bol qar yağa.
Qışda sənlə çıxsam dağa,
Əridər qarı tellərin..

Saçları sünbül,yanağın
Sanki zərif gül yanağın.
Işıq saçır gül yanağın,
Andırar narı,tellərin
Öldürər xarı tellərin.

Sevinc Arzulu

**Ten bilmedim**

Gör açılıb güllər necə,
Nəğmə deyər dillər necə.
Uçub getdi illər necə,
Düşdü telə dən,bilmədim.

Şah şerimi sənə yazdəm,
Həsərtinlə düzdə azdım.
Hey axrarıb səni gəzdim,
Nə duman,nə çən bilmədim.

Bir vaxt yanlayıban səni,
Haqsız danlayıban səni.
Nədən anlayıban səni,
Qiymətini mən bilmədim.

Əlimdən gəncliyi alıb,
Qədər yenə incik qalıb.
Özgə iləçaş-baş salıb,
Hər aşiqi sən bilmədim.

Ne`mət varmı sevgi kimi,
Sevdim kimi,sevdin kimi.
Sevincəm,niyə sevgini
Eşqin ilə tən bilmədim.

Sevinc Arzulu

**Ten olacağam**

Sevgi üzüyümün qaşı olarsan,
ən qiymətli almaz dası olarsan.
O qədər gözümün yaşı olarsan,
Özüm də axırda sən olacağam.

Sevən ürəyimdir hey sənsizləyən,
Yollarını daim güdən,izləyən.
Özgə baxışlardan səni gizləyən,
Duman olacağam,çən olacağam.

Dəli Kür tək Araz ilə yarışsam,
Tez inciyib tez də küsb barışsam.
Dəniz olsan,mən də sənə garışsam,
Özümə qayıdıb mən olacağam.

Çox az qalıb güllü bahara,yaza
Dözümüm yox nə şaxtaya,ayaza.
Qəm-kədərdən dönəcəyəm bəyaza,
Qara saçlarında dən olacağam.

Ömrüm boyu köklənmişəm qəmində,
Yeri vardır kədərin də,qəmin də.
Əgər məni sevsən sənin qəlbində,
Sevinclə,fərəhlə tən olacağam.

Sevinc Arzulu

**Tenha denizem**

Görenler sanırlar lamekan beni,
Deyesen doğubdur bu vülkan beni.
Qorumur dalğalı okean beni,
Suları coşmayan tenha denizim.

Pozulubdur rahatlığım, dincliyim,
Baha başa geldi benim kecliyim.
Deyen nağıllarda qalıb gencliyim,
Gün-günden qocalan bir ağbenizim.

Daha xoş xeyallar uçurtmur aman,
Quşların neğmesi uyutmur aman.
Bu günkü şenliklər ovutmur amani,
Qemli xatirene sadiq kenizim.

Qvuna vurulan ovçu kimiyim.
Üreyi soyudan bir su kimiyim.
Denizden çekilmez ağ qu kimiyim,
Dalğalar qoynunda yatan şen izim.
01.10.2018

Sevinc Arzulu

**Tenha külek**

Tenhalıqdan bezikirdi, qarıyırdı,
Sinesinin üstünece qar yığırdı.
Esim-esim esirdi hey,
Veslin yolun kesirdi hey buz nefesi.
Neden düşmedi bextinə yaz hevesi.
Gilavarı gil apardı,
Xezrini Xezer qopardı aldı elden,
Qem duyğusu qaldı elde.
Tek qalıbdı tenha külek,
Çığlr-bağır sen ha külek,
Eşitmez ki kimse seni,
Olmayacaq kimse senin.
Tenha külek...
Adı kimi tənha özü,
Tenha odu, tenha közü.
Sen ha çırpın, daşlara dey,
Qırpın-qırpın, yaşlara dey,
Sen de yaş ol.
Tebiete lal sirdaş ol.
Ağacları çetirlenisn,
Gül-çiçeyi etirlensin.
Tenha külek
özü ile bal tenhalıq getirer,
Tenhaların imdadına
özünü tez yetirer.
Tenha külek...
Tenha sevgi, tenha ürek…

Sevinc Arzulu

**Tenhalıq**

Doğmalar içində tək-tənha olmaq..
Budurmu qismətin, budurmu yazın.
Bu fani dünyanı tənha dolanmaq,
Onuçun qəmlidir səsin, avazın.

Səni başa düşmək çətin deyil ki,
Çətini olanı qəbul eləmək.
Hər insan sevgidə mətin deyil ki,
Ürəkdən sevsə də, "sevmirəm" demək.

Nə sən günahkarsan,  nə də o insan.
Nə mənim söz demək hüququm,andım.
Doğrunun qiymətin verəcək zaman,
Mən sənin gözündə nura inandım.
02.05.2017

Sevinc Arzulu

**Tenhalıq. qayıt geri**

Qocalıq qapımı yavaşca döyür,
Açıram qapımı,buyur içəri.
Cavanlıq özünü yamanca öyür,
Vəfasız dost kimi o da köçəri.

Qapımız döyülür yenə tıqhatıq,
Amma ki açmağa etmirəm cürət.
“Kimdir”-soruşuram,deyir tənhalıq
Açmağa qapını varmıdır cürət.

Açımmı qapını,necə açım ki
Dönübən baxıram mən uşaqlara.
Deyirəm.tənhalıq sən qayıt geri,
Qayıt get dünyamdan çox uzaqlara.

Sevinc Arzulu

**Tenhayam**

Tənhalıq nə ağır,çəkilməz dərdmiş
Tənha adamlar çox mətinmiş,mərdmiş.
Tənhalıq dərdinin üzü nə sərtmiş,
Tənhayam,tənhayam,tənhayam tənha.

Yenə də tənhayam,yenə tənha ah
Tənha qalanlarçun açılmır sabah.
Tənhalıq böyük bir dərd imiş,Allah.
Tənhayam,tənhayam,tənhayam tənha.

Tənhayam,yarpaqsız bir budaq kimi,
Düzənlikdə bitmiş tək qovaq kimi.
Mən gəldi-gedərəm bir qonaq kimi,
Tənhayam,tənhayam,tənhayam tənha.

Sevilməyən insan tənha olurmuş,
Təkcə açılırmış,tənha solurmuş.
Bir gündə neçə il yaşa dolurmuş,
Tənhayam,tənhayam,tənhayam tənha.

Tək-təkcənə məzarımı qazmışam,
Düz yilumu tənhalıqda azmışam.
Tənha qalan şeirləri yazmışam.
Tənhayam,tənhayam,tənhayam tənha.

Sevinc Arzulu

**Teraneye**

TƏRANƏYƏ 50 YAŞI
MÜNASİBƏTİ İLƏ
ŞEİR- TƏBRİK
Tamam olur əlli yaşın,
Ad günün mübarək, Təranə.
Yanındadır dost-yoldaşın,
Hər yan gül-çiçək, Təranə.

Lent tək keçir göz önündən,
Sənin göyçək uşaqlığın.
Qalmam aciz söz önümdə,
Kövrəldibdir uzaqlığın.

Təbrik edər bacıların,
Biri sağda, biri solda.
Olmasın heç acıların,
Həsrət qalsın yarı yolda.

Qardaşın da təbrik edir,
Basaraq səni bağrına.
Bilməyin ayrılıq nədir,
Məlhəm olar hər ağrına.

Sənsən evin sonbeşiyi.
Həm də dəcəl ərköyünü.
Anan çəkərdi keşiyin,
Atan gözlərdi düyünü.

Indi sənin başın üstdə,
Bir cüt qoşa mələk uçur.
Qəm yağmasın qaşın üstdən,
Səni də cüt oğlun qucur.

Xoşbəxtliyə gedən yolun,
Qapıları açıq olsun.
Ayrılığın sağı-solu,
Abad deyil,uçuq olsun.

Mən də sənin şair dostun,
Deyirəm yüz yaşa , Təriş.
Gurultulu olsun tostum,
Qalx yuxarı başa, Təriş.

Təbrik edər can yoldaşın,
Qızıl üzük alar yenə.
O məhəbbət nəğməsini,
Sənin üçün çalar yenə.

Övladların toyunu gör
Yoldaşınla xoşbəxt yaşa.
Nəvələrin boyunu gör,

Arzun toxunmasın daşa.

Sevinc Arzulu

**Teraneye şeir**

TƏRANƏYƏ 50 YAŞI
MÜNASİBƏTİ İLƏ
ŞEİR- TƏBRİK
Tamam olur əlli yaşın,
Ad günün mübarək, Təranə.
Yanındadır dost-yoldaşın,
Hər yan gül-çiçək, Təranə.

Lent tək keçir göz önündən,
Sənin göyçək uşaqlığın.
Qalmam aciz söz önümdə,
Kövrəldibdir uzaqlığın.

Təbrik edər bacıların,
Biri sağda, biri solda.
Olmasın heç acıların,
Həsrət qalsın yarı yolda.

Qardaşın da təbrik edir,
Basaraq səni bağrına.
Bilməyin ayrılıq nədir,
Məlhəm olar hər ağrına.

Sənsən evin sonbeşiyi.
Həm də dəcəl ərköyünü.
Anan çəkərdi keşiyin,
Atan gözlərdi düyünü.

Indi sənin başın üstdə,
Bir cüt qoşa mələk uçur.
Qəm yağmasın qaşın üstdən,
Səni də cüt oğlun qucur.

Xoşbəxtliyə gedən yolun,
Qapıları açıq olsun.
Ayrılığın sağı-solu,
Abad deyil,uçuq olsun.

Mən də sənin şair dostun,
Deyirəm yüz yaşa , Təriş.
Gurultulu olsun tostum,
Qalx yuxarı başa, Təriş.

Təbrik edər can yoldaşın,
Qızıl üzük alar yenə.
O məhəbbət nəğməsini,
Sənin üçün çalar yenə.

Övladların toyunu gör
Yoldaşınla xoşbəxt yaşa.

Nəvələrin boyunu gör,
Arzun toxunmasın daşa.
.

Sevinc Arzulu

**Tersanesi**

Hicrin evi yıxılıbdır,
Vəslin əli sıxılıbdır.
Könüllərdə tikilibdir,
Məhəbbətin tərsanəsi.

Xatirələr dalaşır, bax
Sanki əkiz dolaşa, bax.
Dil-ağızda dolaşır, bax
Səadətin təranəsi.

Hər işini qəlp eyləyir,
Sanırlar ki qəlb eyləyir.
Çoxlarını cəlb eyləyir,
Xəyanətin tər sinəsi.

Gündüz gedir, gecə olur,
Qaranlıqlar vecə olur.
Özün düşün, necə olur,
Sədaqətin tərsinəsi.

Gəlib keçər minlər, zaman,
Göz önündə inlər kaman.
Könlüm onu dinlər yaman,
Qulağımda tarın səsi.
30/11/2017

Sevinc Arzulu

**Tersine**

Külek közüne geder,
Ürek sözüne geder.
Açdım, düzüne gede,
Sular axdı tersine.

Eh, günüm ne gündü ki,
Sabahım da dündü ki.
Dünya ele döndü ki,
Şimşek çaxdı tersine.

Teklikden mehv olandı,
Hesretden tez solandı,
Başına ay dolandı,
Güneş baxdı tersine.

Sevinc Arzulu

**Tersine axdı**

Son sözünü fələk əvvəldən demiş,
Taleyimin fərəh payını yemiş.
Görürsənmi, həsrət nə zalım imiş,
Qılıncını necə köksümə taxdı.

Könül yaram qanamışdı deyəsən,
Son günlərin sanamışdı deyəsən.
Əğyar məni tanımışdı deyəsən,
Gizli-gizli dönüb əksimə baxdı.

Günəş çıxdı, dünya-aləm nurlandı,
Sakit həyat bir andaca şurlandı,
Zəlzələdən yer kürəsi fırlandı,
Dağ çayı da dönüb tərsinə axdı.

Sevinc Arzulu

**Teslim olmadın**

Düşmüşəm necə zülümə,
Baxıb ağlaram külümə.
Nə yaxşı ki sən ölümə,
Təslim olmadın, olmadın.

Həsrət gəlir bizə yovuq,
Sinəm üstü oyuq-oyuq.
Yay çağında buzlu, soyuq,
Fəslim olmadın, olmadın.

Eheyy...Məni tez  unudan,
Göz yaşını su tək udan.
Dərdi-qəmimi ovudan,
Səslim olmadın, olmadın.
05.12.2018

Sevinc Arzulu

**Teyyare limanında**

Yene de teyyare limanındayam,
Gözümde hesretin, qelbimde adın.
Seninle görüşün gümanındayam,
Bilirim, itidir yaddaşın, yadın.

Sen beni görentek tanıyacaqsan,
Kederli,qüsseli baxışlarımdan.
Ezizim,yene de islanacaqsan,
Gözümden axan qan yagışlarından.

Ötüb son görüşden ötüb qerine,
Senin de saçların ağarıb ben tek.
Bu heyat maraqlı,tale qeribe,
Hesretin qüssesi asılıb  çen tek.

Bir az gülümsedin,vererek salam,
Gülleri ferehle sinene sıxdın.
Danışa bilmirim,susmuşum,lalam,
Bu gecikmiş sevda evimi yıxdı.

Bele heyecana dözmür üreyim,
Çırpınır qanadı qırılmış quş tek.
Başqa bir kimseni sezmir üreyim,
İzn ver,validol atım ben gerek.

Görürsün,dermana möhtacam indi,
Özüm qocalmamış ürek qocaldı.
Ömür-gün dostuma zer tacam indi,
Benimle birlikde o da ucaldı.

Bu tale alnıma yazılan yazı,
Bu yazı seninçün yazılmamışdı.
Bele görüş üçün qismetden razı,
Bu anın hesreti az olmamışdı.

Köhne dostlar kimi görüşeceyik,
-"Salam,ne var ne yox"-soruşacayıq.
Gözlerde qem-qüsse,gülüşeceyik,
Ayrılıq seline qarışacayıq.

Sevinc Arzulu

**Tezeden**

Her şeyi tezeden başlayaq gerek,
Asta addımlayaq geriye doğru.
Hesreti,hicranı daşlayaq gerek,
Yalanın üstünde yeriye doğru.

Her şeyi tezeden...Asanmı meger,
Illerin üstünden keçib ötek biz.
Zamanı tersine fırlatsaq eger,
Yeyerik felekden yağlı kötek biz.

Izace vermez ki keçmişe dönüb,
Çinarın altında görüşek yene.
Bizim o ateşin odumuz sönüb,
Yanmayan ocaqda qor eşek yene?

Her şeyi tezeden başlamaq,gülüm
Tek uca Tanrının elindedir bil.
Qocalıq etse de bize çox zülüm,
O genclik çağından keçib neçe il.

Heyat davam etsin axarı ile,
Tanrı nece yazıb,ele de olsun.
Dilleşe bilmerik yuxarı ile,
"O"bele isteyir,bele de olsun.

Sevinc Arzulu

**Titremedi**

Gərək ilk kəlmədən başa düşəydin,
Bu sevda səninçün ölümmüş, adam.
Həsrətin ağrısı yaşa düşəydi,
Içində ikiyə bölünmüş adam.

Nə qanun bilirdin, nə də qadağa,
Aldadıb gəzirdin gözəlləri sən.
Bənzətdin özünü uca bir dağa,
Təhrif də edirdin qəzəlləri  sən.

Məhəbbət sağ əllə  qapımı döyür,
Sol əllə həsrəti verir qabağa.
Vüsal tənha qalıb gözünü döyür.
Içəri girməyə vardır qadağa.

Getdin məni qoydun dərdlə baş-başa,
Ayağın altında yer titrəmədi?
Uzaqdan baxaraq etdin tamaşa,
Qəlbimdə dediyim şer titrəmədi?!

Sevinc Arzulu

**Tonqal  eder**

Dilim doğma ad püskürer,
Şenliyime şad püskürer.
İçimde bir od püskürer,
Üreyimi tonqal eder.

Ümidlerim daray durar,
Arzularım saray qurar.
Meşelere haray vurar,
Tebieti manqal eder.

Yarın gözleri mürgülü,
Varın qapısı sürgülü.
Xarın çox sevdiyi gülü,
Bir andaca qanqal eder.

Sevinc Arzulu

**Toprak**

Üşütsen,soyuqdan qehr olaram ben,
Istinden en gözel behr olaram ben.
Azacıq mehden de mehv olaram ben,
Neyneye biler ki.saralmış yarpaq.

Dağların zirvesi dumansız qalıb,
Ümidler bir damla gümansız qalıb.
Qışın qış gününde tumansız qalıb,
Derd qemi soyunub,olubdur çılpaq.

Yağışdan boşanıb qara gederem,
Tikandan ayrılıb xara gederem.
Haradan gelmişim,ora gederem
Ezelim toprakdır,axırım toprak.

Sevinc Arzulu

**Tor axtarır**

Yatağını oğramışım,
Hisse-hisse doğramışım.
Üreyimi bağlamışım,
Derd yatmağa yer axtarır.

Kim deyir ki gülüş udub,
Ben sevinsem,qem üşüdüb.
O qeder qarğış eşidib,
Hesret qara gor axtarır.

Derd-meşede odunçuyum,
Mar-sehrada ovsunçuyum.
Eşq çölünde xam ovçuyum,
Xar ov üçün tor axtarır.

Sevinc Arzulu

**Torpaq-insan**

Şair sözün gösterer,
Gözel gözün gösterer.
Payız özün gösterer,
Saralmış yarpağıyla.

Uzaqda quzey durar,
Şaxta  qelbi hey vurar.
Önümde muzey qurar,
Heyat çılpaqlığıyla.

Yel eser deyinerek,
Qum-paltar geyinerek,
Fexr eder öyünərek
Insan torpaqlığıyla.

Sevinc Arzulu

**Tortun senin**

Buz göldə batmısan,nədir.
Gecə pis yatmısan nədir.
Zəhrimar qatmısan,nədir
Çox acıdır tortun sənin.

Zarafatcıl,keyfi çağsan.
Gah baməzə,gah da ıağsan.
Nə qarasan,nə də ağsan
Bilinməyir sortun sənin.

Qəm işinə yarama gəl,
Dərdin telin darama gəl.
Başqa liman arama gəl,
Qəlbimdədir portun sənin.

Sevinc Arzulu

**Tost kimin**

Yığılıb başıma qəmli duyğular,
Hərəsi bir dildə danışıb dinir.
Qapqara gözləri nəmli duyğular,
Qarşıma çıxanda hey diksindirir.

Tərəddüd eyləyib salam verirəm,
Qorxuram qapımı açıb girəsiz.
Yaltaqlıq eyləyib "balam"deyirəm,
Bəlkə qəminizdən qaçıb girəsiz.

Dərdi qovub olun siz xoş duyğular,
Mən də qucaqlayım köhnə dost kimi.
Içməmiş olubsuz sərxoş duyğular,
Görən söyllənəcək ən son tost kimin7

Sevinc Arzulu

**Toxunma, gülüm**

Zaman qəlb oxşayan min nağıl deyər,
Dostların hərəsi bir ağıl verər.
Əl vursan, titrətsən bil, ağı deyər,
Könlün qəlb siminə toxunma, gülüm.

Ürəyə ruh verən sərin nəsim ol,
Könüllər oxşayan bir sarı sim ol.
Tək mənə açılan sehr, tilsim ol,
Hər yoldan ötənçün oxunma, gülüm.

Bir həzin, bir şirin lirik kəlməsən,
Arzumdur həsrətin dadın bilmə sən.
Mənim qəlb xalımda zərif ilməsən,
Özgə gəbəsinə toxunma, gülüm.

Sevinc Arzulu

**Toxunmadım**

Payız ömrün yazısam da,
Oxunmayan yazısam da.
Hərif-hərif yazılsam da,
Ilmə-ilmə toxunmadım.

Xatirənə sarılmışdım,
Göylərində sar olmuşdum.
Ağ gül kimi saralmışdım,
Çiçək təkin toxumladım.

Qəlb qapımı döyüb getdin,
Son sözünü deyib getdin.
Xatirimə dəyib getdin,
Mən könlünə toxunmadım.

Sevinc Arzulu

**Tozanaqdır**

Ağ yelkənli qayıq olub,
Keşiyimdə sayıq olub.
Taleyimə soyuq olub,
Üzü-gözü sızanaqdır.

Dünya nənə hana qurmuş,
Ilmələri yanlış vurmuş.
Rənglər yaman qarış-quruş,
Xalı yeri bozanaqdır.

Yüz illərdir ömür sürən,
Bəyaz telin qoşa hörən.
Baş açmıram niyə görən,
Yollar yaman tozanaqdır.

Sevinc Arzulu

**Tozum qalar**

İnamımız yox sabaha,
Ümidim bir tək Allaha.
Çəkə bilmirəm qəm daha,
Nə taqət,nə dözüm qalar.

Saf arzular qəlbindəki,
Qəmlənməsin qəlbin təki.
Qurtarmayıb qəlbimdəki,
Neçə-neçə sözüm qalar.

Ürək sözlərim yaradı,
Könlüm həsərtdən yaradır.
Həyat mö`cüzə yaradır,
Ruhum uçar,"Öz"üm qalar.

Göz çəkmirəm tər çəməndən,
Bənövşədən,yasəməndən.
Yə`qin ki yadigar məndən,
Şeirim,yazı-pozum qalar.

Lazım bilərsə yaradan,
Ayılmaram heç röyadan.
Sevinc,getsəm bu dünyadan,
Zərrə qədər tozum qalaq.

Sevinc Arzulu

**Tozuna qurban**

Ayrılıq həsrətdən eşq uman kimi,
Dalğalar sahiləşən cuman kimi,
Hələ çəkilməmiş ağ duman kimi,
Getdiyin yolların tozuna qurban.

Mən sənli dünyanın rəngin sevirdim,
Əbədi sevgini zəngin sevirdim.
Səmanı masmavi, əngin sevirdim,
Sarı-qırmızıya, bozuna qurban.

Hicranı qapıdan ötürərəm mən,
Xoş günü sənincün götürərəm  mən.
Özümü vüsala yetirərəm mən,
Bal kimi röyaya, yozuma qurban.
15.07.2018

Sevinc Arzulu

**Töküler**

Şadlıq kədəri pis görər,
Dərd-qəmi qoyar pis günə.
Qəfildən vülkan püskürər,
Göy səmadan od tökülər.

Azadlığın meydanından,
Həsrətinin zindanından.
Xatirələr güldanından,
Neçə-neçə ad tökülər.

Ağ gəlməz qaram üstünə,
Köz atma xaram üstünə.
Qanayan yaram üstünə,
Bircə damla yod tökülər.

Sevinc Arzulu

**Tumar meni**

Gəzdim təbiət qoynunda,
Gül-çiçəklər umar məni.
Uduzdum tale oynunda,
Müflis etdi qumar məni.

Ürək qəmdən quzulayar,
Kaş bəxtimə yazıla yar.
Billəm,yaman arzulayar,
O gözləri xumar məni.

Qəlbən sevmək məharətlim,
Nəğməsi eşq nəqarətlim.
Əlləri od hərarətlim,
Məst eylədi tumar məni.

Sevinc Arzulu

**Tumar oldu**

Çopurları xal qayalar,
Tarix təkin lal qayalar.
Həsrət adlı sal qayalar,
Aramızda divar oldu.

Səssizliyim, ünsüzlüyüm
Təmizliyim, kinsizliyim.
Mənim sənli sənsizliyim,
Ürəyimdə qubar oldu.

Açılar al güllərim də,
Qanadlanar tüllərim də.
Hərarətin tellərimdə,
Sığal oldu, tumar oldu.

Sevinc Arzulu

**Turkiye sülhün dayağıdır.**

TÜRKİYE SÜLHÜN
DAYAĞIDIR

Bir milletiz-iki devlet,
Azerbaycan-Türkiye.Evet.
Oz adımız, sanımız var,
Şöhretimiz, şanımız var.
Babalarım Türk oğludur,
Doğma yurda çox bağlıdır.
Qoca tarix zaman-zaman,
Bizi edib çox imtahan.
Yaşar igid erenlerim,
Veten üçün canlarını verenlerim.
Hele yüz il bundan evvel,
Ermeni-rus esgerleri sanki gur sel.
Vetenimde kırmaq isteyirdiler,
Vurmak isteyirdiler
Her bir "Türkem" deyeni,
Sinesine döyeni.
Eliyalın xalqıma ateş de açdılar, bax.
Neçə-neçe evlere od-alov saçdılar, bax.
Mehv elemek istediler milletimi,
Kim duydu ki zilletimi
Atatürkden savayı.
O adil el oğlundan,
Şanlı türkden savayı.
Kırıldı insanlar gülleden, mermiden,
Görmeyen ne anlar herbiden.
Bu amansız davada,
Bu zamansız davada
biz tek- tenha qalmışdıq,
Yolumuzu indiki, ağrıların dindiyi
Xiyabandan salmışdıq.
Çox çetin olmuşdu yaşam.
Esgerleri döndü yele.
Geldi öz qoşunu ile,
Komandanım Nuri paşam.
Kömek etsin milletine,
Son qoyulsun zilletine.
Neçemizi xilas etdi,
Günümüzü, gecemizi xilas etdi.
Neçe igid erenlerim
Sinesesini al güllenin karşısına
verenlerim şehid oldu.
Zaman buna şahid oldu.
Ermeni soyqırımı olmayıb heç vaxt,
Türkleri soyqırım edibler heyhat.
Torpağmda neçe şehid mezarı,
Tez-tez düşür o yerlere güzarım.
Ne yorulur, ne doyuram,
Mezar üste gül qoyuram.

Yene herb libası geyir,
Yene dünya dava deyir.
Dağılsa da  qan udduran Taliban,
Yerin başqa terroristler alıb, aman.
Dünya, bir anlığa ayılıb eşit,
Ezrail cildine girmişdir İŞİD.
Her yerde qırırlar müselmanları,
Kimse önemsemir bu insanları.
Türkler herbi pisleyir,
Türkiye sülh isteyir.
Bomba yağır Livana, Suriyaya
Terroristler yene meydan oxuyur bu dünyaya.
Yer titreyir mermilerin sesinden,
Qan püskürür toprağın nefesinden.
Neçe-neçe türk esgeri bu herbde qurban getdi,
Quşa dönen ruhları uçub cennete yetdi.

Deyen zaman can üstedi,
Neçe  insan can istedi Allahından,
Semanı duman aldı bunca insan ahından.
Çox dövletler rehm nedir, bilmeyirler,
Qaçqınların göz yaşını silmeyirler.
Turkiyemiz qaçqınlara açıb qucaq,
Verib  neçe milyonlara isti yuva, isti bucaq.

Bezi  qonşu "dost" ölkeler,
Terrora destek verib yer üzünü silkeler.
Kürdler İrakda Kürdüstan yapmaq isteyirler,
Kerkükde özlerine Veten tapmaq isteyirler.
Kerkük türkmenlerindir,
Özünü  Türk deyenlerindir.
Dağıtmayın isti yurdu-yuvanı,
Olacaqdır  edaletin divanı.
Nahaq qanlar tökülür,
Sülhün himi sökülür.
Daha besdir bu dava,
Barıt qoxulu hava.

Bizim de dağ boyda "Qarabağ" derdimiz var,
BMT  verse de lehine neçe qerar.
Kağızın üstünde qalıb hamısı,
Çünki ermeninin vardır hamisi.
Adların çekmeyim, saysam çox olar,
InşaAllah, derdimiz bir gün  yox olar.
Bizim de hamimiz can Türkiyedir,
Bütün Türk eline dostdur, yiyedir.
Saxlayar her yerde terefimizi,
Qoruyaq birlikde şerefimizi.
Mütleq azad olar Dağlıq Qarabağ,
Sevincden olacaq ehvalımız çağ.
Esirgemerik uğrunuzda can,
Ebedi yaşasın Türkiye-Azerbaycan.

Başımızın üstünde uca, qadir yaradan
Milletin lideridir Receb Taib Erdoğan,.
Türkler sülhseverdir, şahiddir zaman,
Yaşayaq dünyada biz emin-aman.

Sevinc Arzulu

**Tuş olmadıq**

Fələk neyin qəmli çaldı,
Bizə həsrət,hicran qaldı.
Tale nədən ayrı saldı,
Qoşa uçan quş olmadıq.

Başın üstdə çəni gördüm,
Saçındakı dəni gördüm.
Göz önündə səni gördüm,
Yediklərim nuş olmadı.

Ay işığından nurlandıq,
Günəş zərindən varlandıq.
Yer üzünü çox fırlandıq,
Səadətə tuş olmadıq.

Sevinc Arzulu

**Tutar**

Kim serib dereye qem dumanını,
Kim bilir sevginin son ünvanını.
Senin saxta-saxta ehd-peymanını,
Benim laxta-laxta al qanım tutar.

Görürsen.derd yeli bizden ötmemiş,
Hesretin lepiri izden itmemiş.
Alağöz vüsalım gözden itmemiş,
Taxtını qaraca hicranım tutar.

Daha ağlamağın yeri de olmaz,
Nöqtesi,vergülü yerinde olmaz.
Özümün yatmağa yerim de olmaz,
Odamı qem-qüsse karvanım tutar.

Sevinc Arzulu

**Tükendim**

Eşq-heyatın dayağı,
Hicran aciz,bayağı.
Oturub ay sayağı,
Yollara göz dikendim.

Könlüm hesret köçünde,
Xeyal "yox"un heçinde.
Viranelik içinde,
Abad saray tikendim.

Düşdüm elden derbeder,
Hey derd çekdim seraser.
Sevgin ile beraber,
Ben de bitdim,tükendim.

Sevinc Arzulu

**Tül eyledi**

Qəlbə batdın tikan kimi,
Itdin qara məkan kimi.
Püskürdün sən vülkan kimi,
Ümidimi kül eylədin.

Hey coşdurdun dənizimi,
Silmək üçün sən izimi.
Mənim gözəl bənizimi,
Vaxtsız solan gül eylədin.

Dindirsəm də dinməzsən ki,
Alovlansan,sönməzsən ki.
Öz sevdandan dönməzsən ki,
Ah-naləmi tül eylədin.

Sevinc Arzulu

**Tül olan duyğularım**

Özgürlüyü su kimi, çörək tək yeyib keçir,
Kimdənsə asılılığı bilir çox eyib, keçir.
“Mən özüm müstəqiləm”-elə hey deyib keçir,
Azadlığın beyninə qul olan duyğularım.

Səbr diləmək gərək saçını yolanlara,
Şərbət tək yad badəyə axıban dolanlara.
Yaraşıq verəməzsən yaramaz olanlara,
Ayrılığın əyninə çul olan duyğularım.

O həsrətdir,hicranın başına boz kül saçır,
Məhəbbətin gücündən sevən bülbül dil açır.
Mənimlə bir sevinir, mənimlə bir gül açır,
Fərəhimin eyninə tül olan olan duyğularım.
11.11.2018

Sevinc Arzulu

**Tül renginde**

Odda batar,suda yanar,
Röyasından gec oyanar.
Daim al-elvan boyanar,
Ağ telleri kül renginde.

Demezsen yetmiş yaşı var,
Enlikli üz-bembeyaz qar.
Yanaqları gülöyşe nar,
Dodaqları gül renginde.

Maskası çetin silinir,
Gözlerinde su ilinir.
Geyindiyi tez bilinir,
Qar libası tül renginde.

Sevinc Arzulu

**Tülnen oynama**

Birgə baxaq həqiqətin gözünə,
Salam verək səadətin özünə.
Gəl su tökmə məhəbbətin közünə,
Odunu söndürüb külnən oynama.

Çəməndə bitibdir bağriqan lalə,
Nakam eşq salıbdır onu nə halə.
Qıyma ki,sevənlər çəksinlər nalə,
Bülbülü öldürüb gülnən oynama.

Neçə sevən aşiq kama yetibdir,
Neçə Leyli-Məcnun gözdən itibdir.
Olan olub keçib,ötən ötübdür,
Sapları süzülmüş tülnən oynama.

Sevinc Arzulu

**Tüstü yamyaşıl**

Dövlətli deyilsən çox varın olsa
Varlısan ən xoşbəxt diyarın olsa.
Altında qara rəng mirvarı varsa,
Bu qəm dənizinin üstü yamyaşıl.

Nə günə qoydu gör məhəbbət bizi,
İzləyir daima hey töhmət bizi
Elə yandıracaq bu həsrət bizi,
Alovu aldırsa,tüstü yamyaşıl.

Alına yazılıb ayrılıq sözü,
Bizdən əl çəkməyir ayrılıq özü.
Abidə qoymadım hicrana, düzü
Vüsalın əbədi büstü yamyaşıl.
05.12.2018

Sevinc Arzulu

**Uc pillesinden**

Sağa boylanmıram, sol da görünmür,
Nə çinar, nə vələs, kol da görünmür.
Getdiyin o uzaq yol da görünmür,
Mənim taleyimin uc pilləsindən.

Yeri də, göyü də söz alıbdı, ah,
Günəş də üşüyüb sozalıbdı, ah.
Yanağın necə də qızarıbdı, ah
Amansız həsrətin ac şilləsindən.

Ayrılıq özanə yurd-yuva qurub,
Içinə, çölünə qara rəng vurub.
Əzrail ovçu tək pusquda durub,
Bacara bilirsən qaç gülləsindən.

Hicranın könlünü həsrət alası,
Sevginin qəlbinə həsrət salası.
Səni əsir edib həsrət qalası,
Sevda çətiriylə uç qülləsindən.

Gahdan qocalar tək qaşını çatır,
Ortaya minillik yaşını atır.
Uşaqtək hamının başını qatır,
Uzaq dur günahın suç billəsindən.
05.09.2018

Sevinc Arzulu

**Ucuz ölümmmüş**

Sən demə bu eşqin axırı yoxmuş,
Şirin düyğusundan ağrısı çoxmuş.
Sənsizlik həsrəti zəhərli oxmuş,
Qəlbimdən necə də qara qan axdı,
Həsrətdən göylərdə ildırım çaxdı.

Nə edək,yetmədik şirin vüsala,
Yolumuz tez düşdü susuz qumsala.
Çətin fərəh yolun bizlərdən sala,
Daha görüşmərik bu dünyada biz,
Qəm-kədər bir dəniz,kiçik ada biz.

Xəyal atın röyalarda çapardım,
Vüsalını təkcə orda tapardım.
Gedişinlə ürəyimi apardın,
Mənə qalan təkcə qanlı gölümmüş,
Bu sevginin sonu ücüz ölümmüş.

Sevinc Arzulu

**Uçan güller**

Təkcə məni qaraladı,
Qəlbi iki yaraladı.
Vuran yerdən yaraladı,
Uçan güllə.

Uca göydən enməz ki heç,
Nə danışmaz,dinməz ki heç.
Bir də geri dönməz ki heç,
Uçan günlər.

Dərd qüssədən çökələcək,
Şadlıq evi tikiləcək.
Sinəm üstə tökələcək,
Uçan güllər.

Sevinc Arzulu

**Uçur, uçur**

Geriyece dönüb qaldım,
Yer yüzüne enib qaldım.
Seni gördüm, donub qaldım
Ter alnımda puçur-puçur.

Dünya neden haqqa kardır,
Duyğuları aşikardır.
Tale hicre sebebkardır,
Baxma bene suçur-suçur.

Könül qüsse-qemden qaçıb,
Vüsal daim benden qaçıb.
Arzularım qanad açıb,
Göy semada uçur,uçur.

Sevinc Arzulu

**Uçurdaram men**

Fələk taleyimi oynuna salıb,
Qüssənin qoynunda xəyala dalıb.
Səni sevdiyimi boynuma alıb,
Sirrimi astaca pıçıldaram mən.

Vüsala çatmaqçun şam kimi alış,
Könlümü almaqçun səbr edib çalış.
Şənə bəxş edərəm gözəl bir gülüş,
Kədəri gözündən qaçırdaram mən.

Bu sevgi hələ də yarımürgülü,
Bu eşqə ayrılıq yarımır, gülüm.
Daha sevdam mənə yarınmır, gülüm,
Həsrəti külək tək uçurdaram mən.

Sevinc Arzulu

**Uduzdun**

Sen taleyin
en möhteşem sevda adlı oyununda
uduzdun  da
bir gör kime.
En bahalı bir serveti uciz tutdun,
bendsen hime.
Ağlama, gec.
Bu dolaşıq labirintdən tek özün keç.
Meni salma nahaq şere.
Istemirem izim düşsün
şeytan dolu bu beşere.
Möhnet senin,
töhmet senin,
mene ne var.
Seninkidir unutduğun ehdi-ilqar.
"Dolu yağsın başım üstde,
daş qalmasın daşım üstde"-deyen sendin.
Öz andını çörek tekin yeyen sendin.
Sen cavab ver günahına,
bir de dönmem pənahına.

Sevinc Arzulu

**Uğunum, ana**

Ürəyimi didir, tökür
Fərəhin ilməsin sökür.
Qəm qəlbimə sis tək çökür.
De, necə uğunum,Ana.

Qismətim nə, bu kor bucaq,
Qışda soyuq, yayda sıcaq.
Heç kim mənə açmır qucaq,
Mən kimə sığınım,Ana.

Yersizmidir hərəkətim,
Gül bitirməz şorakətim.
Çəkilibdir bərəkətim,
Qurudub sağınım,Ana.
02.02.2018

Sevinc Arzulu

**Ulu  Tanrım**

Ulu Tanrım.özün eşit harayımı,hayımı.
Esirgeme bexte düşen sevinc,fereh payımı.
Qara etme gün işıqlı,bol güneşli yayımı
Ömür boyu ağ ellerim dergahına uzanıb.

Deli ürek Mecnun kimi dere keçir,yal aşır,
Acı hesret lal vüsalla hey vuruşub dalaşır.
Xeyal quşum buludların arasında dolaşır,
Gözüm dolur eşidende qemle dolu ezanı.

Yaxşıların,uca Allah,keşiyinde durursun.
Yamanlığa susayana şilleni ters vurursun.
Nadincleri tenbeh edib unutmaz ders verirsin,
Yolunaca qaytarırsan bilmeyiben azanı.

Sevinc Arzulu

**Unudam gerek**

Hesretin külek tek hey qamçılayar,
Ala gözlsrimden yaş damcılayar.
Qoyma yere düşsün, yığ ovcuna yar,
Acı qeherimi ben udam gerek,
Seni seve-seve unudam gerek.

Içib qem meyinden mest olacaqlar,
Dolub-boşalacaq, süst olacaqlar.
Ele ilk andaca dost olacaqlar,
Derdimi qüsseyle ovudam gerek.
Seni seve-seve unudam gerek.

Qaraya çalır bax, indi ağım da,
Tepeye dönübdür uca dağım da.
Bilirsin, ezizim, sensiz çağımda,
Dalğalar qoynunda qum adam gerek.
Seni seve-seve unudam gerek.

Sevinc Arzulu

**Unuduldum**

Kimler verdi bada kimi,
Kimler salır yada kimi.
Gözden uzaq ada kimi,
Unuduldum,unuduldum.

Esende Xezri küleyi,
Göyden toz-torpaq eleyir.
Sarışın ilham meleyi,
Umudumdur,umudumdur.

Sesim çıxar haray tekin,
Gur tellerim daray tekin.
Viran olmuş saray tekin,
Uçuruldum,uçuruldum.

Sevinc Arzulu

**Unutmaq üçün**

Kədərin qəlbimdə bir saray salıb,
Sənli xatirəni uyutmaq üçün.
Quşlar gör necə də hay-haray salıb,
Qüssəli könlümü ovutmaq üçün.

Ürəyim çırpınar, səs də eyləyər,
Fələk yazdıqların nəs də eyləyər.
Çətin ki,min günəş bəs də eyləyər,
Gözümün yaşını qurutmaq üçün.

Geri dön, qoyma ki qəm icrə azım,
Qayıtsan dəyişər bu alın yazım.
Neçə kamil sevgi yaşamaq lazım,
Tək sənin eşqini unutmaq üçün.

Sevinc Arzulu

**Uyğusunu men**

Hələ sənsiyliyin göynəyir yeri,
Qəmli xatirələr çəkilmir geri.
Axı göz yaşından başqa nə verir,
Sevmədim ayrılıq duyğusunu mən.

Söyləmə  məhəbbət bir əfsanədir,
Hicran nə, vüsal nə, ayrılıq nədir?
Sənli ümidlərim kiçik, körpədir,
De, necə çəkməyim qayğısını mən.

Xisləti tamahkar, qəlbi yavanlar,
O cahil insanlar eşqi nə anlar.
Əyləncə tək baxır bəzi cavanlar,
Görmürəm sevgiyə sayğısını mən.

Sizi sevməyənə etməyin nifrət,
Səhvini anlayıb qayıdar əlbət..
Eh, neçə müddədtir  qalmışam həsrət ,
Yatmıram  gecənin uyğusunu  mən.
21.11.2017

Sevinc Arzulu

**Uyutdum, bağışla**

Doğuldun kədər içində,
Boğuldun sən şər içində.
Bu qədər dərd-sər içində,
Səni unutdum,bağışla.

Həyat qatsa da başımı
Pozmayıb qan yaddaşımı.
Daim axan göz yaşımı,
Daha qurutdum,bağışla.

Hissi talan vüsalını,
Haray salan vüsalını.
Ağlar qalan vüsalını,
Sənsiz uyutdum,bağışla.

Sevinc Arzulu

**Uzaqlaşma özünden**

Ilahidən güc allam,
Yaşa dollam,qocallam.
Səmayadək ucallam,
Tanrının xoş sözündən.

Kədəri heçə billəm,
Dost-düşmən seçə billəm.
Mən necə keçə billəm,
Günahımın gözündən.

Ürəyini dərd alar,
Gözlərinə qor dolar.
Sevinc,işin zor olar,
Uzaqlaşma özündən.

Sevinc Arzulu

**Üç alma düşmedi**

Ürəyim qəmdən su içər,
Fələk məni qurban seçər.
Deyirlər pis gün tez keçər,
Çətin günlər ötüşmədi.

Külək tək əsdin,ayrılıq.
Ağlatma, bəsdi ayrılıq.
Aranı kəsdi ayrılıq,
Vüsal eşqlə öpüşmədi.

Fələk istədiyin etdi,
Təkcə ölüm kama yetdi.
Nağılımız burda bitdi,
Göydən üç alma düşmədi.

Sevinc Arzulu

**Üç dost**

Sil sükutun səsini,
Silə bilsən nə deyim.
Seyr et şah pərdəsini,
Gör əyninə nə geyib.
Geyindiyi tüldürsə,yanaqları qızarar
Əgər üzə güldüsə,
Sakitlikdən sozalar.
Sükut ilə sakitlik
Həmqafiyə deyil ki.
Sükut ilə dost olmaq
Sakitliyə
Eyib ki?
Hay-küyün acığına
Səssizlik də yan aldı.
Beləcə bu üçlükdən
Gözəl dostluq yarandı.
Çal-çağır dünyamızda,
Üç dost tutaydı qərar.
Çətin ki qanımızda
Bu üç dosta meyil var.

Sevinc Arzulu

**Ümid**

Sənsiz ümidimin qapısı bağlı,
Bu qara qıfıla düşmür hər açar.
Sənsiz vüsalın da ürəyi dağlı,
Qalmışıq həsrətin önündə naçar.

Kəsib qarşımızı zalım cəllad tək,
Aman da verməyir deyim sözümü.
Biz ki ayrılmadıq sənlə yad tək,
Qayıt, alovlandır sönən közümü.

Ümidin əlindən tutub astaca,
Tıqqıldat taxtadan olan qapımı.
Yaxınlaş, könlümü alıb ustaca,
Qoyma ki qırılsın ürək sapımı.
19.04.2015

Sevinc Arzulu

**Ümid ay işığında**

Bəzən bir ümidin ay işığında,
Yol tutub getmişik səhərə qədər.
Bəzən lal olmuşuq yaraşığından,
Kövrəlib durmuşuq qəhərə qədər.

Demə ümidlərim param-parçadır,
Demə məhvərindən qoparar səni.
Masmavi xəyallar uçan xalçadır,
Istəsən görüşə aparar səni.
25.04.2018

Sevinc Arzulu

**Ümid yoxunmu**

Kədərin kamına yetəndən bəri,
Fələyin dediyin edəndən bəri,
Üz tutub Şimala gedəndən bəri,
Əllərim əlinə daha toxunmur.

Hisslərimi tünd rəng ilə yazarım,
Ayrılığın yollarında azarım.
Sən gedəli xarabadır bazarım,
Kitabım bağlanıb vallah, oxunmur.

Ay əzizim, geyinib xaram sarı,
Günəş çıxıb, boylanır qaram sarı.
Heç olmasa söz ilə yaram sarı,
Bir gilə ümid də söylə, yoxunmu.

Sevinc Arzulu

**Ümidin var**

Derdi azdırıb dandıqda,
Sevgini hemdem sandıq da.
Qismetimiz daş sandıqda,
Qapağında kilidi var.

Insan ki öz-özün görmez,
Istese söz-sözü hörmez.
Gelerse göz-gözü görmez,
Dünyanın qem buludu var.

Yanma oda,sen ey könül
Zer libası al gey, könül.
Istemirsen çox şey, könül
Bir görüşe ümidin var.

Sevinc Arzulu

**Ümidler**

Yığılıb dünyanın duracağında,
Odlanıb kelbimin yanacağından,
Qorxaraq qem-saray quracağından,
Köksümü yamanca sıxan ümidler.

Bir zaman könlüme pasiban idi,
Geldiyi yolları çıraqban idi.
Benim tek yamanca perişan idi,
Ezelden evimi yıxan ümidler.

Illeri,ayları köçümden kesir,
Özünün sevdiyi biçimden kesir.
Içimden doğrayır,içimden kesir,
Hesretin qulpundan çıxan ümidler.

Sevinc Arzulu

**Ümman yerine**

Neden yalqız qalıb meşeler şahı,
Qüsseden eriyib, nedir günahı.
Sensiz  sinə dolu çekdiyim ahı,
Asdım pencereden duman yerine.

Dözülmez olubdur ürek ağrısı,
Sen oldun sevginin adil oğrusu,
De, nedir sözünün düzü-doğrusu,
Yalan ved eşitdim güman yerine.

Üreyim her şeyi ezelden duyur,
Kederi gözünün yaşıyla yuyur.
Çekilib denizin ağappaq suyu,
Qapqara su gelib ümman yerine.

Sevinc Arzulu

**Ürek oğrusu**

Fikrə dalan insanın,
Könlü talan insanın,
Tənha qalan insanın
Tanrıdan sorğususan.

Ay mənim sədaqətim,
Tapmadıq səadəti.
Qəlbimin həqiqəti,
Düzüsən, doğrususan.

Düzü döyə bilməzdim,
Qara geyə bilməzdim.
Kimsə deyə bilməzdi
Sən ürək oğrususan.
04.05.2015

Sevinc Arzulu

**Ürek, kaldım**

Ağlımı qaçıb onun da,
Dərd gəldi mələk donunda.
Dünyanı gəzdim, sonunda,
Özümlə təkbətək qaldım.

Çox tutdum eşqin yasını,
Üzdüm hicran dəryasını.
Yel uçurdu libasımı,
Bir köynək, bir ətək qaldım.

Uğrunda hey çəkdim cəfa,
Heyf, yoxmuş səndə vəfa.
Görmədim zəhmətdən səfa,
Arısız  boş pətək, qaldım.

Qiyməti yox sevdiyimin,
Həsrəti ox sevdiyimin.
Canımdan çox sevdiyimi,
Apardı boz külək, qaldım.

Başım üstdə qadir Allah,
Ona gətirmişəm pənah.
Yamanca gec ayıldım, ah,
Xəstə düşmüş ürək, qaldım.
04.12.2018

Sevinc Arzulu

**Üreyimde**

Fərəh nədən qəmginləşib,
Hava dərdlə zənginləşib.
Həsrət hicranla birləşib,
Ocaq çatır ürəyimdə.

Ulduz ayın əlin sıxır,
Lal gecənin evin yıxır.
Okeandır,möhnət çıxır,
Nisgil batır ürəyimdə.

Silinibdir ayaq izim,
Dalğalanmaz göy dənizim.
Bilirsənmi ay əzizim,
Nələr yatır ürəyimdə.

Sevinc Arzulu

**Üreyimde dil yeri**

Qaçaqlıq eyləyəcək,
Qoçaqlıq eyləyəcək.
Bataqlıq eyləyəcək,
Deyən qara lil yeri.

Kimə anladım, bajı.
Könül-həsrət peyzajı.
Göndərdiyin mesajı,
Get, tezcənə sil, yeri.

Xoşdur yarın busəsi,
Sanki soyuq su səsi.
Xəyalımda qu səsi,
Ürəyimdə dil yeri.
27.11.2018

Sevinc Arzulu

**Üreyimin ağrısı**

Bəzən geri boylanmağım,
Ağrı verir, acı verir.
Bəzən fələk şad yerinə,
Dərdi-qəmi bacı verir.

Ürəyimin ağrısını,
Kim hiss edər mənim kimi.
Söylə sözün doğrusunu,
Durma eşqə qənim kimi.

Eh, nədir bunca çəkdiyim,
Zalım fələk, aralı dur.
Dərd bişdiyim, qəm əkdiyim
Ayrılıq fərəhi udur.

Muncuq-muncuq göz yaşını,
Mirvari  tək asım, gedim.
Itiləyim yaddaşımı,
Bağrımaca basım, gedim.

Budur mənim istədiyim,
Budur mənim and-amalım.
Yox kimisə pislədiyim,
Var öz ağlım, öz kamalım.

Bununçun sənə borcluyam,
Təkcə sənə,  ulu Tanrım.
Anayam, hissin quluyam,
Həsrət çəkməkdən qurtarım.

Yetir övladımı mənə.
Gözü baxsın gözlərimə.
Unutmasın heç adımı,
Qulaq assın sözlərimə.
11.11.2018

Sevinc Arzulu

**Üreyimin arzuları**

Düzüb ürəyimin arzularını,
Gizlənpaç oynamaq istəyirəm mən.
Oxudum röyamın yozumlarını,
Kimi görmüşəmsə yetişsin həmən.

Uyuyub yalanın daş qollarında,
Həqiqət necə də yuxuya gedib.
Min əngəl olaydı kaş yollarında,
Ağılı ətirli qoxuya gedib.

Günlərin birində geri qayıtsan,
Gecə günəş doğub ay batacaqdır.
Yatmış duyğuları  birdən oyatsan,
Ümidlər istəyə tez çatacaqdır.
29.04.2018

Sevinc Arzulu

**Üstelik**

Heç nəyin üstündə tufan qoparır,
Yaşarır əsəbdən gözüm üstəlik.
Başımı-beynimi arvad aparır,
Hələ bir sənə də dözüm üstəlik.

Hardasan , darıxdım, hardasan zalım,
Qayıt gəl, barışaq, qadanı alım.
Bilirsən, sənindir dövlətim-malım
Sənə qurban olum özüm, üstəlik.

Bir acı bibərə qatmısan məni,
Qızıla, gümüşə satmısan məni.
Elə bil tonqala atmısan məni,
Alışır bir yandan közüm üstəlik.
16.05.2015

Sevinc Arzulu

**Üsyan eder**

Duman aldı bu məkanı,
Tez bağlandı eşq dükanı.
Püskürəndə dərd vülkanı,
Yer kürəsi silkələnər.

Doydum qəmin busəsindən
Uzağam gül guşəsindən.
Ürəyimin qüssəsindən,
Gözüm altı kölgələnər.

Dəniz yenə tüğyan edər,
Qəm göz yaşın leysan edər.
Axır bir gün üsyan edər,
Hisslərim də bölgələnər.

Sevinc Arzulu

**Üşüdecek**

Hicran ilk görüşden pert gelib deyen,
Üstüne kesilmez şert gelib deyen,
Bu ilin qışı çox sert gelib deyen,
Duman xestelenib çen üşüdecek.

"Bir acı sözle herb başlayar"- dedin
"Heqiqet yalanda qışlayar"- dedin,
"Insan soyuq başla işleyer"- dedin,
Artaraq çoxalan den üşüdecek.

Feleyin derd saçan ala gözünden,
Hicranın qelb yaxan qara közünden,
Senin qılınc kimi kesen sözünden,
Ele içimdeki "ben"üşüdecek.

Sevinc Arzulu

**Üşüdür meni**

Layiqsen en böyük şöhrete, taca,
Çün qalib gelmisen her ehtiyaca.
Başımın üstünde aram, astaca.
Göyde süzen ruhun eşidir meni.

Könlümü oxşayır axan su sesi,
Sanki her axışda vardır nefesin.
Qapımı döyürse birisi,besim
Senli xatireler yaşadır meni.

Men ki sonsuzluğa geden yolmuşam,
Çiçeyi derilen tikan-kolmuşam.
Ele sarsılmışam, ele dolmuşam
Xatıren yamanca üşüdür meni.
19.02.2017

Sevinc Arzulu

**Üşüyen xatireler**

Oxuyar sarı simdə,
Gah zildə, gah da bəmdə.
Təkcə mənim qəlbimdə
Yaşıyan xatirələr.

Bu kainat çox böyük.
Ana yer, ata göyük.
Özü ilə ağır yük.
Daşıyan xatirələr.

Qonaq gələr istəcə,
Məlhəm olar istəcə.
Yaram üstün astaca
Qaşıyan xatirələr.

Qurtarmaz eşq yasından,
Kədərin libasından.
Özü öz şaxtasından,
Üşüyən xatirələr.
27.12.2017

Sevinc Arzulu

**Üşüyür neden**

Yenə qəm qoxuyur buludlu hava,
Qurtarmaq bilməyir  həyatla dava.
Içimdə sənsizlik salmışdır yuva,
Eləcə ruhumu daşıyır bədən.

Ağladım "Əlvida" sözündən sonra,
Ocaq yanacaqmı közündən sonra,
Xatirən qalıbdır özündən sonra,
Qalan ölü olur, yaşayır gedən.

Olumla, ölümlə barışan dostlar,
Kədəri Araza qarışan dostlar,
Sənin yoxluğuna alışan dostlar,
Mənim varlığıma üşüyür nədən.
03.07.2017

Sevinc Arzulu

**Ütülü  fikirler**

Ütülü fikirler qelbimi sıxır,
Herdenbir telimi sığallayır,bax.
Erköyün uşaq tek başıma çıxır,
Decellik ederek cığallayır.bax.

Ne qoruq qorxusu,ne qadağası,
Bir de görürsün ki serheddi keçir.
Şeytandır,iblisdir onun ağası,
Kükreyib daşaraq son heddi keçir.

Yalanın doğruyla teması bumu,
Bumu heqiqetin zefer çalması.
Düzlük aşiqinin siması bumu,
Qaralar başında beyaz çalması.

Sevinc Arzulu

**Üz qabığında**

Ay sözlerden şeir hören,
Şair xanım,şair eren.
Kimin şekli vardır gören,
Dünyanın üz qabığında.

Bezen derman olmur zaman.
Ayrılıqdan aman, aman.
En gözel hiss yoxdur inan.
Insanın üz ağlığından.

Göyden yere enmemişken,
Ulduz kimi sönmemişken,
Xatireye dönmemişken,
Gel vuraq yüz, sağlığında.
21.03.2018

Sevinc Arzulu

**Üz tutum indi**

Çiynimə qonubdur pəri-mələklər,
Yüsalı azdırıb dəli küləklər.
Başım üstdə uçur şeir-kəpənəklər,
Uşaq tək atılıb söz tutum indi.

Həsrətdir həmişə vüsaı oğrusu.
İçirdər insana ölüm ağusu.
Çox əzab verməsin ürək ağrısı.
Yalın əllərimdə köz tutum indi,

Sən mənim qu dolu gölüm olmadın.
Laləli, nərgizli çölüm olmadın.
Səni məndən alan ölüm olmadı?
Mən kimə güvənib üz tutum indi.

Sevinc Arzulu

**Üzde görünmür**

De, nəyə lazımdır zavallı olmaq,
Daima qəm-kədər əhvallı olmaq.
Bir dünya qüdrətdir çox varlı olmaq,
Milyonda görünür, yüzdə görünmür.

Tülkü tək hiyləgər, xain, bic dünya,
Sərxoşluq eyləyir hərdən gic dünya.
Söylə mənə nədən sənin iç dünyan,
Yalanda görünür, düzdə görünmür.

Üzümə qayıdır dərdin-möhnətin,
Sürüşkən qayadır lal məhəbbətin.
Sualtı qayıqdır ulu qüdrətin,
Dəniz dalğalısa, üzdə görünmür.

Sevinc Arzulu

**Üzdüm-üzdüm**

Oxşa qızılgülü, tez açsın deyə,
Söylə dərd-sərini, qəm qaçsın deyə
Tək mənim yoluma nur saçsın deyə,
Ulduzlu səmadan ay üzdüm, üzdüm.

Həsrətdən ürəyim yaman oylanır,
Gündüz günəşlənir, gecə aylanır.
Dedilər adada fərəh paylanır,
Burdan Narginəcən ay üzdüm, üzdüm.

Elə bu dünyada sevdim özümü,
Üzbəüz gələndə döydüm gözümü.
Qıymadım söyləyim"həri" sözünü,
Yarın ürəyini ay üzdüm, üzdüm.

Sevinc Arzulu

**Üzü hayana**

Günəş çıxmaq istəyər,
Atəş yaxmaq istəyər.
Araz axmaq istəyər,
Çətin özü dayana.

Duman yola sürünər,
Ilan kola sürünər.
Qolbaq qola sürünər,
Sənin üzün hayana.

Düz plan qurmaz fələk,
Sakit oturmaz fələk.
Deməklə durmaz fələk,
Durar gözü doyana.

Sevinc Arzulu

**Üzü köpükdür**

Istisi yox yayımın,
Nuru sönük ayımın.
Nədən ümid çayımın,
Üzü köpükdür, dünya.

Xəyallara daldığım,
Güzarımı saldığım.
Zəhmət çəkib aldığım,
Quruş-qəpikdir, dünya.

Xatirə azandımı,
Həqiqət yazandımı.
Kasıbın qazandığı,
Şillə-təpikdir, dünya.
10.12.2017

Sevinc Arzulu

**Üzü qaranlığa**

Kəfənin ölçüsü gəlib,
Ağının dilçisi gəlib.
Ölümün elçisi gəlib,
Gedim üzü qaranlığa.

Sona yetibdir zamanım,
Qan ağlayır tar-kamanım.
Qalmayıbdır heç amanım,
Yolum düşər toranlığa.

Acı  sözlər qəlbə oxdur,
Bilirəm,dostlarım çoxdur.
Məni siz tək sevən yoxdur,
Xatırlayın bir anlığa.
18.01.2018.

Sevinc Arzulu

**Üzü şehere.**

Uzaqda durma o qızdan,
Qəlbən tənha, tək, yalqızdan.
Küsmüşəm sarı payızdan,
Üzü şəhərə gedirəm.

Toy evində dönmə şaha,
Yaşam  başa gəlir baha.
Gülüşlərdən doydum daha,
Gözü qəhərə gedirəm.

Yaşayırsan necə də sən,
Almayırsan vecə də sən.
Söhbət açma gecədən sən,
Sözü səhərə gedirəm.
12.09.2018.

Sevinc Arzulu

**Üzü yox**

Ulduz sirli, gün aşkar,
Savab görən günah kar.
Görən kimdir günahkar,
Çörəyimin duzu yox.

Dərddən çörək yapmıram,
Qəm dalınca çapmıram.
Əl atıram, tapmıram
Gərəyimin buzu yox.

Könülə köz dəyməyə,
Vüsala göz dəyməyə.
Beyinə söz deməyə,
Ürəyimin üzü yox.
21.05.2013

Sevinc Arzulu

**Üzülme, qızım.**

Demirəm ki şiddətlə çax,
Nə gözümdən riqqətlə ax.
Bircə dəfə diqqətlə bax,
Üzümə,qızım, üzümə.

Səni sevir yalnız anan,
Odunaca daim yanan.
Yalanımı burax, inan
Düzümə, qızım,düzümə.

Gəlməsin heç şər qapına,
Uyma hicrin şər gapına.
Özgəsinin zər sapına.
Düzülmə, qızım düzülmə.

Nə görmüsən bu naxışda,
Buz kimi soyuq baxışda.
Şaxtada , qarda , yağışda
Büzülmə, qızım, büzülmə.

Fərəh qəmlə ötüşməsə,
Sevinc haya yetişməsə,
Göydən üç alma düşməsə,
Üzülmə quzum, üzülmə.

Sevinc Arzulu

**Üzüm  üzüne**

Billur buxağında şal yeri vardır,
Penbe dodağında bal yeri vardır.
Lale yanağında xal yeri vardır,
Deyesen deyibdir üzüm üzüne.

Kelbini titreden ani tekandır,
Dörd yanın derd alıb-satan dükandır.
Sanardım,bu dünya cennetmekandır,
Birce toxunsaydı üzüm üzüne.

Hesretle baş-başa,tek qalmışam ben,
Solmayan baxçandan gül almışam ben.
Derin deryalara yol salmışam ben
Ellleşib-vuruşub üzüm üzüne.

Sevinc Arzulu

**Üzüm yox**

Halı qarışanı çox,
Zülfü-perişanı çox.
Bağ-baxçada şanı çox,
Süfremizde üzüm yox.

Elini yardan üzüb,
Yanağına yaş düzüb.
Çoxdandır benden küsüb,
Barışmağa üzüm yox.

Toyumu yas edersen,
Acizi as edersen.
Beni xilas edersen?
Sene teref üzüm,yox.

Sevinc Arzulu

**Üzünde tebessüm**

Üzündə təbəssüm, gözündə kədər,
Bu qara sevdanın sonu bilinməz.
Demək yaşamışıq bu ömrü hədər,
Açılmaz sevginin donu, ilinməz...

Sürünüb kədərin ayaqlarına,
Üzümü sürtürəm qəm torpağına.
Dözüb həsrətinin ağrılarına,
Göz yaşı ötürrəm nəm torpağına...

Sallanıb qayanın sarmaşığından,
Intihar etməyi düşünmürəm ki..
Allanıb günəşin zər işığından,
Titrəyib dursam da üşümürəm ki...

Nə qəmin əli var, nə də kədərin,
Gözümün yaşını silələr bir gün.
Belə yazılıbmış sənin qədərin,
Barı qiymətini bilələr bir gün.

Burax dərd çəkməyi,burax xiffəti,
Bir gün əbədilik yaxandan tutar.
Neynirsən namərdlə şirin ülfəti,
Gözündən itərsən, səni unudar.

Sevinc Arzulu

**Üzüne**

Doğru birnefese içilsin deye,
Yalan günü-günden kiçilsin deye,
“Kainat gözeli” seçilsin deye,
Ulduzu sepmişim göyün üzüne.

Vüsalın yolunu sevgiden sorsun,
Hesretin torunu ayrılıq hörsün.
Istemirsin seni dostların görsün,
Al qara niqabı,geyin üzüne.

Mehebbet hicranı yanlamayıb ki,
“Naxelef”-deyib de danlamayıb ki.
O qeder sözümü anlamayıb ki,
Qapını çırpmışam keyin üzüne.

Sevinc Arzulu

**Üz-üzeyik**

Qocaldıqca uşaqlaşaq,
Qüdrət ilə üz-üzəyik.
Tezcə burdan uzaqlaşaq,
Həsrət ilə üz-üzəyik.

Zirvəsi ağ qarlı olaq,
Bağ- baxçası barlı olaq.
Biz də xalq tək varlı olaq,
Sərvət ilə üz-üzəyik.

Qəm gülünü əkəmmərik,
Dərd yağışı tökəmmərik.
Sonunacan çəkəmmərik,
Möhnət ilə üz-üzəyik.

Vüsal hissi qəlbdə yatıb,
Hicran onun başın qatıb.
Bu görüşün sonu çatıb,
Qürbət ilə üz-üzəyik.

Ürəyim eşq e`tiqadlı,
Vüsal kimi şirin dadlı.
Gülüm, indi sevgi adlı,
Hikmət ilə üz-üzəyik.

Sevinc Arzulu

**Var**

Ey insan,yeniden doğularsanmı,
Kederin içinde boğularsanmı.
Dünya,ben olmasam dağılarsanmı,
Sene ölümümün ne faydası var.

Ben nece yoxluğa var tek yanaşım,
Onunla sakitce ,şirin danışım.
benden xoşu gelmir köhne tanışın
Nifretin,kinin de öz qaydası var.

Ah çeksem,ahımdan qaya çapılar,
Gözümün yaşında almaz tapılar.
Üzüme bağlanıb bütün qapılar,
İlahi,qorxunun ne boydası var.

Sevinc Arzulu

**Var menim**

"Özgəni güldürən sözüm,söhbətim
Özümü ağladan qəmim var mənim"

Cəhənnəmə dönüb gözəl cənnətim,
Mənimlə bir olur dərdim-möhnətim.
Əskik olmur nədən qaxınc,töhmətim
Niyə kədər dolu dəmim var mənim.

Dərdimi anlamaz hər nadan,naşı
Heç vaxr qurumayır gözümün yaşı.
Uzaqdan görünür rəngi də yaşıl,
Hələ biçilməmiş zəmim var mənim.

Tək-tənha qalmışam,yoxdur bir kəsim,
Şirin xatirələr bəsimdir bəsim.
Muğam oxumağa çatmayır səsim,
Ağılar deməyə bəmim var mənim.

Mən hazıram qızılgültək solmağa,
Bulud kimi boşalmağa,dolmağa.
Hələ çox qalıbdır şair olmağa,
Hələ tam deyiləm,kəmim var mənim.

Sevinc,nədən sevdan yetməyir başa,
Nakam məhəbbətin oduyla yaşa.
Toxunur həmişə qayaya,daşa
Tənhalıqda üzən gəmim var mənim.

Sevinc Arzulu

**Var olaydı**

Ay bu obalar ,bu ellər,
Ay bu gələn yar olaydı.
Ay açaydı qızılgüllər,
Dövrəsində xar olaydı.

Alaydı əqlimi başdan,
Pay verəydi ləl daş –qaşdan.
Dolaydı gözlərim yaşdan,
Ürəyim qəmxar olaydı.

Sevincəm halı pərişan,
Sevincinə qəm qarışan.
Şeir qoş yara yaraşan,
Şair, sözün var olaydı.

Sevinc Arzulu

**Var, Allah**

Zülmün evi qara daşdan tikilmiş,
Ətrafına qara tikan əkilmiş.
Pillələri artıq yerə çökülmüş,
Nə gələni,nə gedəni var,Allah.

Bayramımdır,təzə libasın gey,gəl,
Qalmayıbdır ayrılıqda bir hey,gəl.
Hindlilərçün müqəddəsdir bu heykəl,
Altı əli,bir bədəni var,Allah.

"İşim niyə avand getmir"-deməyim,
"İstəyimi Tanrı etmir"-deməyim.
"Əlim çatmır,ünüm yetmir"-deməyim,
Neçə "yox"u var edənim var:Allah.

Sevinc Arzulu

**Var,Allah**

Zülmün evi qara daşdan tikilmiş,
Etrafına qara tikan ekilmiş.
Pilleleri artıq yere çökülmüş,
Ne geleni,ne gedeni var,Allah.

Bayramımdır,teze libasın gey,gel,
Qalmayıbdır ayrılıqda bir hey,gel.
Hindlilerçün müqeddesdir bu heykel,
Altı eli,bir bedeni var,Allah.

"İşim niye avand getmir"-demeyim,
"İsteyimi tanrı etmir"-demeyim.
"Elim çatmır,ünüm yetmir"-demeyim,
Neçe "yox"u var edenim var:Allah.

Sevinc Arzulu

**Varağındayam**

Bir anlıq vüsalı kim sese salıb,
Ayrılıq yolunu çox kese salıb.
Elime hesretden bir esa alıb,
Senli günlerimin sorağındayam.

Tanrı qismet etse rastlaşaq bu yaz,
Kesmesin yolları ne sis,ne ayaz.
Tellerim henalı,saçların beyaz,
Sonuncu görüşün marağındayam.

Ezizim,bu dünya hemendir,hemen
Eh,hicran qoxuyur yene çöl-çemen,
Oxusan.yadına düşeceyem ben,
Könül defterinin varağındayam.

Sevinc Arzulu

**Varı Sevincin**

Yandırıb atəşə pərvanəsini,
Itirib Məcnuni-divanəsini.
Daha çala bilmir tərənəsini,
Simsiz qalıb kaman-tarı Sevincin.

Haqsızlar haqlını kəndirdən asıb,
Qara şər qüvvələr xeyiri basıb.
Dövri-zaman onu salsa da kasıb,
Azalmazdır dövlət-varı Sevincin.

Dilində əzbərdir onun ağılar,
Bir qıy vursa düşmənləri dağılar.
Işğal edib can mülkünü yağılar,
Uçub uzaqlara sarı Sevincin.

Bir vaxt dostlar bürümüşdü sol-sağı,
Indi ətrafını alıbdır yağı.
Viran qalıb güllü baxçası,bağı.
Yerləyeksan alma-narı Sevincin.

Çağırırdı bir zamanlar gül gülü,
Duman çəkirdi dağlara ağ tülü.
Xarı bülbülünün uçub bülbülü,
Nədən qaldı təkcə xarı Sevincin.

Çiçəkləri solub daha,açılmaz.
Günəşin al şəfəqləri saçılmaz.
Ölüm haqdır,əcəldən gen qaçılmaz,
Çatıb artıq son baharı Sevincin.

Həsrətin qəlbimi qılınc tək kəsir,
Olmuşam möhnətin əlində əsir.
Çətinlik eyləməz halına tə`sir,
Vardır namus,qeyrət-arı Sevincin.

Sevinc Arzulu

**Vaxtıdır**

Gündüzün gözüne qaranlıq hopur,
Sal daşlar,qayalar zeherden çopur.
Her gün yer titreyir,zelzele qopur,
Zamanın tersine dönen vaxtıdır.

Yeni tehlükeyle üzbeüz beşer,
Semadan günde bir derd,bela düşer.
Bürüyüb yer üzün riya,yalan,şer
Güneşin ulduz tek sönen vaxtıdır.

Matemde al-elvan geyen dünyanın,
Yoxsulun haqqını yeyen dünyanın,
Axırı gelibdir deyen dünyanın,
Xızırın göylerden enen vaxtıdır.

Sevinc Arzulu

**Vaxtıdır indi**

Çən, duman çökübdür gülzarım üstə,
Bir qara rəng gəlib güzarım üstə.
Diz çöküb bu qoşa məzarım üstə,
Sel tək çağlamağın vaxtıdır indi.
Ana, ağlamağın vaxtıdır indi.

Mənim düz sözümə uymadın nədən,
Qəlbümdən keçəni duymadın nədən.
Bizə qəm verməkdəın doymadın nədən,
Qara bağlamağın vaxtıdır indi.
Ana , ağlamağın vaxtıdır indi.

Mən sizi anaram hər addımbaşı,
Könlümə hey axar gözümün yaşı.
Durubdur önümdə qoşa baş daşı,
Ürək dağlamağın vaxtıdır indi.
Ana,ağlamağın vaxtıdır indi.

Sevinc Arzulu

**Vaxtımı**

Ne dilin qend oldu,ne sözün şeker,
Hesretin bağımda tikanlar eker.
Yaralı üreyim ah-nale çeker,
Gözümün gözünden doyan vaxtımı?

Hicrin ayağına düşüb gedib kim,
Axir sonundaca vesle yetib kim,
Göresen qarğayıb,nifrin edib kim,
Özümü özünden soyan baxtımı.

Nolar,birce defe mehriban dindir,
Qaldır uca göye,buluda mindir.
Gizlice alışdır,aşikar söndür,
Közünü közümden qoyan taxtımı.

Sevinc Arzulu

**Vaz keçme**

Dünya-yaşıl çemenim,
Xeyal-nurda çimenim.
En yaxınımsan menim,
Tanrım, menden vaz keçme.

Çovğun gözden itibdir,
Novruzgülü bitibdir,
Qış soyuğu ötübdür,
Gelecekdir yaz, keçme.

Şenlik olsun, toy olsun,
Aile himi qoyulsun.
Günü-gündən qoy olsun,
Derdim-serim az, keçme.
15.10.2018

Sevinc Arzulu

**Vecime deyilsen**

Sevgi səmasında çaxa qalmışam.
Iki əl, bir də ki yaxa qalmışam.
Çox da ki dalınca baxa qalmışam,
Eh, mənim vecimə deyilsən ki sən.

Hava qəm qoxuyar çəndən də qabaq,
Min gözəl olubdur məndən də qabaq.
Özüm parlayıram səndən də qabaq,
Şeh, mənim vecimə deyilsən ki sən.

Eşqə sadiq olan düz ürəyim var,
Həyata keçməyən yüz diləyim var.
Məhəbbət ətirli yaz küləyim var,
Meh, mənim vecimə deyilsən ki sən.
4.12.2012

Sevinc Arzulu

**Vefalı**

Deməyək bu dünya özü vəfasız,
Nə sən vəfalısan, nə mən vəfalı.
Könlü istəyəndə gəlib də gedər,
Nə duman vəfalı, nə çən vəfalı.

Geriyə dönməz ki ötən illərim,
Daha gur çağlamaz coşan sellərim.
Bir-bir tərk eyləyər sarı tellərim,
Saçımdan əskilməz ağ dən vəfalı.

Vüsalın son qoyar daş həsrətimə,
Əllərin möhtacdır hərarətimə.
Mənim tək səmimi təbiətimə,
Qışda da gül açan çəmən vəfalı.

DOLU İÇİM

Sevinc Arzulu

**Ver qiymetimi**

Zər xalında qara ilmə,
Məni xoşbəxt bəndə bilmə.
Qədirimi kimsə bilməz,
Allah, sən ver qiymətimi.

Qurumazmı gözüm yaşı,
Kəsilərmi söz yağışı.
Min namərddən bir mərd yaxşı,
Allah, sən ver qiymətimi.

Qəm ocağı sönməyəcək,
Ruhlar yerə enməyəcək .
Gedən geri dönməyəcək,
Allah, sən ver qiymətimi.

Sevinc Arzulu

**Verdi**

Ağacdan yarpaq istədim,
Ürəyimə simsar verdi.
Tanrıdan torpaq istədim,
Qurumayan qumsal verdi.

Gözdə qoysa da diləyi,
Qarğımayaq gəl fələyi.
Nədən mənə eşq mələyi,
Əlçatmayan vüsal verdi.

Acılasam dil inciyər,
Qoxlamasam gül inciyər.
Ilahi mən biliciyə,
Həlledilməz misal verdi..

Sevinc Arzulu

**Verdim**

Sen benden bir ovuc sevgi istedin,
Yadında,ben sene bir qucaq verdim.
Muğamın ladı da sevgi üstedi,
Yanıb alışmağa od-ocaq verdim.

Ağrılı-acılı eşqin edamı,
Ayrılıq deli de eyler adamı.
Gözümün yaşından damanda damın,
Odana düzmeye qab-qacaq verdim.

Niye hey qaçırsın söze gelmekden,
Ateşe gelmekden,köze gelmekden.
Yamanca qorxursan göze gelmekden,
Kaçıb gizlenmeye kor bucaq verdim.

Eyledin ömrümü heçe,bilmedin
Qurduğum körpüden keçe bilmedin.
Kime benzeyirsin.seçe bilmedin,
Onunçun sene yaş oduncaq verdim.

Hesretin şillesi ağrıdır yaman,
Ayrılıq bir yandan vermeyir aman.
Benimle oyunu oynayır zaman,
Sene oynamağa oyuncaq verdim.

Sevinc Arzulu

**Verme mene**

Uzunluğun ölçə bilməm,
Hündürlüyün seçə bilməm,
Daxilindən keçə bilməm,
Qara divar hörmə mənə.
Tanrım, dərd-qəm vermə mənə.

Azalt od-köz yağışını,
Qurutma söz yağışını.
Axıtdığım göz yaşını,
Daha rəva görmə mənə.
Tanrım, dərd-qəm vermə mənə.

Gəldin hardan-hara bayquş,
Döndün lala-kara bayquş.
Gözü qanlı qara bayquş,
Qanadını gərmə mənə.
Tanrım, dərd-qəm vermə mənə.

Könül evi qum, gil olar,
Qəlb sakini nisgil olar.
Gözlərimə bir mil olar,
Çəkmə qara sürmə mənə.
Tanrım, dərd-qəm vermə mənə.

Tale yaman, qədər iti,
Çay axmayır hədər iti.
Bağlı qalmış kədər iti,
Uzaqdan bəd hürmə mənə.
Tanrım, dərd-qəm vermə mənə.

Sevinc Arzulu

**Virane eşq mebedi**

Bilirmisin al kanımın durduğunu,
Bilirmisin nebzin zeif vurduğunu.
Bilirmisin sensiz nece,
Gündüz-gece zülm çekirim.
Xatirenle zengin klip-film çekirim.
Bilsen nece bu karanlık daş uyqular süzür beni,
Gözlerinde yaş qayğılar yaman,yaman üzür beni.
Bilemezsin,ne bilesen.
Üzün yok da qayıdıban göz yaşımı bir silesen.
Vidalaşaq,bu ayrılıq ebedidir,
Sensiz tenha qalan könlüm virane aşk mebedidir.

Sevinc Arzulu

**Vurğunam.dünya**

Hele deyilmemiş yalanlar kimi,
Hele gedilmemiş dalanlar kimi,
Hele edilmemiş  talanlar kimi
Ben sene vurğunam,vurğunam dünya.

Üstüne gül-rena qoxlayan da var,
Küsdürüb qelbini oxlayan da var.
Seni benden başqa yoxlayan da var?
Ben sene vurğunam,vurğunam dünya.

O gözel çöhreni dumanlar alır,
Doğru üz çevirir,gümanlar qalır.
Göz yaşım könlünde ümmanlar salır,
Ben sene vurğunam,vurğunam dünya.

Sevinc Arzulu

**Vurmadı**

Ürəyimdə simsar yeri,
Gözlərimdə qumsal yeri
Nədən söylə, vüsal yeli
Məni vurmadı, vurmadı.

Hicran  məndən alır xərac,
Tək vüsala qalıb əlac.
Bəxt-qismətin qoyduğu tac,
Başda durmadı, durmadı.

Dəfn elədim məhəbbəti,
Yolda qoydum səadəti.
Mən istəyən imarəti,
Fələk qurmadı, qurmadı.

Sevinc Arzulu

**Vüsal oldu**

Dərdimi danışdım, kaman kövrəldi.
Halıma bu qoca zaman kövrəldi.
Mən səni anarkən yaman kövrəldim,
Hissim üsyan etdi, duyğusal oldum.

Səni xatırlarkən hər addımbaşı,
Qüssədən qaralar üzüyün qaşı,
Töküldü üstünə gözümün yaşı,
Gəzdiyim boz torpaq yaş, qumsal oldu.

Hicran kədərimə ən sadiq yardı,
Fələk ah-naləmə həmişə kardı,
Bu geniş dünyada hər şeyim vardır,
Həsrətin çəkdiyim tək vüsal oldu.

Sevinc Arzulu

**Vüsalımla**

Heç çoxalma, olduğun tek qal, hesret.
Güzarını cehennemden sal,hesret.
Bilirsinmi, üzer seni lal hesret,
Yol yaxınken hicran ile vidalaş.

Deme öten bir hevesdir Xumarın,
Gören yene nedir qesdi Xumarın.
Yol gözleyer senin mesti-xumarın,
Şeyx  Senan tek dereler keç,edağlar aş.

Tekce beni qelbe hemdem sanarsan,
Ateşime odlanarsan, yanarsan.
Ayrılığa yaxın düşsen, donarsan
Vüsalımla el-ele ver, qucaqlaş.

Sevinc Arzulu

**Vüsalımla el-ele**

Heç çoxalma,olduğun tek qal,hesret.
Güzarını cehennemden sal,hesret.
Bilirsenmi,üzer seni lal hesret,
Yol yaxınken hicran ile vidalaş.

Deme öten bir hevesdir Xumarın,
Gören yene nedir qesdi Xumarın.
Yol gözleyer senin mesti-xumarın,
Şeyx Senan tek dereler keç,dağlar aş.

Tekce beni qelbe hemdem sanarsan,
Ateşime odlanarsan,yanarsan.
Ayrılığa yaxın düşsen,donarsan
Vüsalımla el-ele ver.qucaqlaş.

Sevinc Arzulu

**Vüsalımla elele**

Heç çoxalma, olduğun tek qal, hesret.
Güzarını cehennemden sal,hesret.
Bilirsinmi, üzer seni lal hesret,
Yol yaxınken hicran ile vidalaş.

Deme öten bir hevesdir Xumarın,
Gören yene nedir qesdi Xumarın.
Yol gözleyer senin mesti-xumarın,
Şeyx  Senan tek dereler keç, dağlar aş.

Tekce beni qelbe hemdem sanarsan,
Ateşime odlanarsan, yanarsan.
Ayrılığa yaxın düşsen, donarsan
Vüsalımla el-ele ver, qucaqlaş.

Sevinc Arzulu

**Vüsalımla el-ele**

Heç çoxalma, olduğun tək qal, həsrət.
Güzarını cəhənnəmdən sal, həsrət.
Bilirsənmi,üzər səni lal həsrət,
Yol yaxınkən hicran ilə vidalaş.

Demə ötən bir həvəsdir Xumarın,
Görən yenə nədir qəsdi Xumarın.
Yol gözləyər sənin məsti-xumarın,
Şeyx Sənan tək dərələr keç, dağlar aş.

Təkcə məni qəlbə həmdəm sanarsan,
Atəşimə odlanarsan, yanarsan.
Ayrılığa yaxın düşsən, donarsan
Vüsalımla əl-ələ ver, qucaqlaş.

Sevinc Arzulu

**Vüsalın**

Solaxay ümidler yol azmaqdadır,
Gözlerin onları görecekmidir.
Kederin hesretçün kol qazmaqdadır,
Gören sonunadek dözecekmidir.

Bilirsin,xeyallar serhed tanımır,
Zamanın seddini aşacaq yene.
Ayrılıq  denizi son hedd tanımır,
Dalğalar coşacaq,daşacaq yene.

Vüsalın küskündür,yetim uşaq tek,
Gör nece boynunu burub durubdur.
Havacat bilmeyen aciz aşıq tek,
Dalaydan daş senger qurub durubdur.

Sevinc Arzulu

**Vüsalın  qanı**

Hesretin elini nahaq buladı,
Vüsalın günahsız qanına batdı.
Belkeler qurd tekin yene uladı,
Her sesi-sedası qelbime batdı.

Gözümün yaşını dalınca atdım,
Şaxtadan onsuz da don vuracaqdır.
Ümide xeyala dalınca çatdım,
Neşime neqşini son vuracaqdır.

Senin üreyinden çekilen kanal,
Benim lal könlümden su içib gedir.
Gözlerin önünde çökülen amal,
Sevgi deryasında qu biçib gedir.

Şirin vüsalının göz yaşın görüb,
Hesretin qız kimi qızaracaqdır.
Ayaqlar altına söz daşın hörüb,
Kederin hava tek bozaracaqdır.

Sen ey adi sözden şer hören insan,
En gözel neqşimi şere vurmuşam.
Meni qalib sanır her gören insan,
Hicranın küreyin yere vurmuşam.

Vüsalın üstüme qanad geribdir,
Kölgesi altında yaşamaq ne xoş.
Xeyalın büstüme ümid seribdir,
Al-elvan neqşini oxşamaq ne xoş.

Dalınca düşerek izleyen felek,
Benim üzerime yüyürüb gelir.
Seni qem-qüsseden  gizleyen felek,
Qara güzarıma buyurub gelir.

Hesretden ağlayıb-sızlayan yarın,
Gördüyü dağ-dere indi düz olub.
Qışın şaxtasında buzlayan yarın
Görüşe ümidi birdi,yüz olub.

Sevinc Arzulu

**Vüsalın düşüncesi**

Dağları duman bürümür,
Qəmin göz yaşı qurumur.
Eşqin bu günkü durumun,
Taleyin sərt əyləncəsi.

Bu gedişlər nədən olur,
Çəkdiklərin hədər olur.
Sevdasına qədər olur,
Vüsalın saf düşüncəsi.

Gündüz qəfil zülmət çökür,
Göy soyuq göz yaşı tökür.
Çalın-çarpaz dağlar çəkir,
Ayrılığın işgəncəsi.
19.02.2018

Sevinc Arzulu

**Vüsalın ocağında**

Ulduzların zər libası,
Lap əynimə biçilib.
Bu həyatın əlifbası,
Gözlərimdə kiçilib.

Hərfləri çox xırdadır,
Oxuya bilmirəm heç.
Sevgi sözü axırdadır,
Tanrım,günahımdan keç.

Sənə sevgim bir başqadır,
O məhəbbət bir başqa.
De,sən özün salmadınmı,
Məni bu vaxtsız eşqə.

Mən nə gördüm bu sevgidə,
Kədərdən,qəmdən savay.
Yarımadım heç sevgidən,
Salmıram da hay-haray.

Yaşayıram öz ömrümü,
Həsrətin qucağında.
Yandıraram köz ömrümü,
Vüsalın ocağında.

Sevinc Arzulu

**Vüsalının kölgesi**

Arzularım günəş kimi nur saçar,
Azalmaz ki gümanların bəlkəsi.
Boz suallar artıq məndən yan qaçar,
Əl çəkməz ki vüsalının kölgəsi.

Həsrəti hicranın qapıb gedəydi,
Əlini üstümdən çəkəydi barı.
Xəyalım bir dinclik tapıb gedəydi,
Günəşin işığı çökəydi barı.

Biz də sevinəydik xoş günümüzə,
Sabaha ümidlə baxa biləydik.
Ay özü gələydi düyünümüzə,
Düşməni yandırıb yaxa biləydik.

Sevinc Arzulu

**Xalça buludlar**

Əlimi göylərdən üzüb gedirlər.
Yağış damcısını düzüb gedirlər.
Səmada astaca süzüb gedirlər,
Şirindir könlümə balca, buludlar.

Açaram o anda qapımı döysə,
Hərdən lovğalanıb özünü öysə.
Barmaq da silkələr xətrinə dəysən,
Danışıb dillənər lalca buludlar.

Bəzən göy üzündə qalmaq istərəm,
Əbədi xəyala dalmaq istərəm.
Yatıb da dincimi almaq istərəm,
Sərib göy üzünə xalça buludlar.
19.07.2018

Sevinc Arzulu

**Xar alıb indi**

Bir vaxt yol üstünde gözlerdin beni,
Geldiyin yolları qar alıb indi.
Kederli baxışın közlerdi beni,
Işıqlı güneşim qaralıb indi.

Gedişin  merezdir, gelişin melhem,
Bir zaman dönersen, yoxdur bir şübhem.
Ağappaq ulduz  tek parlayan şebnem,
Hesretden soluban saralıb indi.

Vüsala ne elim çatır, ne ünüm,
Sensiz ne sabahım, sensiz ne dünüm.
Evvelki şuxluqla keçmir düyünüm,
Xoşbextlik tacımı xar alıb indi.

Sevinc Arzulu

**Xar qımışır**

Xoşbəxt xəyalımı görüb,
Gözəl əhvalımı görüb,
Cahi-cəlalımı görüb,
Həsrətin gözü qamaşır.

Tez sökülər yayda dan ki,
Çay tək axar qəlbə qan ki.
Tanımayır görən sanki,
Hicran geyib al qumaşı.

Sevirəm göy Xəzərimi.
Taparsanmı bənzərini.
Çəkməyir ki nəzərini,
Dodaqaltı xar qımışır.

Sevinc Arzulu

**Xara olmuşam**

Hicrancla əyləşəndən,
Vüsalla əyişəndən,
Həsrətlə döyüşəndən,
Param-para olmuşam.

At üstündə çapanım,
Sevdasını tapanım,
Hardasan Xan cobanım,
Çoxdan Sara olmuşam.

Qəlb dünyanda tək idim,
Gözəl kəpənək idim,
Bahalı ipək idim,
Ucuz xara olmuşam.

Sevinc Arzulu

**Xarı bülbül**

Dildə gəzir müsibətin,
Əfsanədir söz-söhbətin.
Sənin böyük məhəbbətin,
Əridər ağ qarı bülbül,
Xarı bülbül,xarı bülbül.

İgidsən döz arasında,
Atəşlə köz arasında,
Qaş ilə göz arasında,
İncitməyək yarı bülbül.
Xarı bülbül,xarı bülbül.

Parıldayar şeh qəfəsin,
Od püskürər od nəfəsin.
Tükənməzdir eşq həvəsin,
Birgə çalaq tarı bülbül.
Xarı bülbül,xarı bülbül.

Günlərini sanatmısan,
Azadlığa can atmısan.
Sən necə ki qanatmısan,
Gəl yaramı sarı bülbül,
Sarı bülbül,sarı bülbül.

Sevinc od alar közündən,
Kədər oxunar gözündən.
Şuşada Cıdır düzündən,
Biz qalxaq yuxarı bülbül,
Xarı bülbül, xarı bülbül.

Sevinc Arzulu

**Xatire ocağı**

Düşüb lal gecenin ayaq izine,
Çağırsam geriye dönen deyil ki.
Deyib son sözümü onun özüne,
Sabah bu gün olur, dünen deyil ki.

Soyunub qismeti ayaqlarından,
Başından geyiner tale deyeni.
Sahile çekmez söz qayıqlarından,
Ezelden qumsaldır lepedöyeni.

Itirib dünyaca məşhur olanı,
Arayıb tapdığı köhne define.
Yazıb yaratmaqla  meşğul olanım,
Kimler gelecekdir sənin defnine.

Başının altında söz balıncıdır,
Onu düz yatmağa tehkim eyleyib.
Yalın elindeki öz qılncıdır,
Ebedi davaya məhkum eyleyib.

Qaranlıq gecenin ay işığında,
Yadıma xatire ocağı düşer.
Bezerem ipisti yaraşığından,
Dadıma ömrümün o çağı düşer.
22.02.2018

Sevinc Arzulu

**Xatire ordun**

XATİRƏ  ORDUN

Qəm notu sarı simin,
Sözlərimə çökülər.
Mavi göz yaşı kimi,
Cüt didəmdən tökülər.

Qaralıb pərdə-pərdə,
Göy üzünün qurşağı.
Bir boylan hərdən-hərdən,
Ay mənim yumuşağım.

Qızların ən gözəli,
ən göyçəyi mən idim.
Qəlbinin ən ağrılı,
Dərd göynəyi mən idim.

Ay mənim işıq üzlüm,
Ay mənim nur simam, gəl.
Sənsiz necə bomboşdur,
Qaranlıq asiman, gəl.

Saatları dayanmış,
Şəhərin sakiniyəm.
Yatanları oyanmış
Səhərin sakiniyəm.

Sakiniyəm bu yerin,
Sakiniyəm bu yurdun.
Məni rahat qoymaz ki,
Sənin xatirə ordun.
26.04.2018

Sevinc Arzulu

**Xatireler köhnedir**

Qamış neyi çalınca,
Xoş xeyala dalınca.
Qemli xeber alınca,
Bilmedim yer, göy nedir.

Kim qınayar ki bizi,
Yerdedir hicrin dizi.
Getdi xencerin izi,
Söz yarası göynedir.

Külek geler haradan,
Seçek ağı qaradan.
Iller keçib aradan,
Xatireler köhnedir.
17.10.2018.

Sevinc Arzulu

**Xatireler ocağı**

Mənim könlüm xatirələr ocağı,
Gah qırmızı, gah da yaşıl közərər.
Isitməyir uzaq küncü-bucağı,
Tüstüsü göz çıxardarsa nə zərər.

Təkcə özüm eşidirəm, duyuram
Qulağımda nakam eşqin harayı.
Qara rəngi bəyaz şehlə yuyuram,
Tellərimi xatirənlə darayım.

Açılmayır xatirələr qapısı,
Açarını kim götürüb, qoy desin.
Arzum budur günahkarı tapılsın,
Parolunu kim ötürüb, qoy desin.
29.04.2018.

Sevinc Arzulu

**Xatireler oyanar**

Olanı, keçəni salıram yada,
Mən nədə səhv etdim, biləmədim ki.
Hər yan xatirədir sanki dünyada,
Kimsədən məhəbbət diləmədim ki...

Sevən sevdi gözlərimə baxaraq,
Sevməyənim dalımca da danışdı.
Qan durular ürəyimdən axaraq,
Bu tələtüm, bu həyəcan tanışdı.

Izlərimi ot basıbdır, əzizim
Günahkarı ya sənsənmi, ya mənəm.
Nə kədərin özün qəfil asıbdır,
Nə də ki mən şehli yaşıl çəmənəm.

Qəlbimizi çuğlayan bu sevdanı,
Göz yaşları çətin yuyub apara.
Ayrılığa ağlayan bu sevdanı,
Itirərsəm hardan bir də taparam.

Ürəyimi sıxan dalğalı dəniz,
Yəqin bir gün sakitləşib dayanar.
Yollarıma çıxacaqmı ay bəniz,
Gülümsəsə xatirələr oyanar.
18.02.2018.

Sevinc Arzulu

**Xatirelerim**

Hicranın qum evi sözdən sökülməz,
Həsrətin qaramat damı çökülməz.
Oyatsam qızılı zəri tökülməz,
Ay mənim vəfalı xatirələrim..

Siz də yalqızmısız,siz də təkmisiz?
Şoranlıq səhrada çiçək əkmisiz.
Mənim çəkdiyimi siz də çəkmisiz,
Ay mənim cəfalı xatirələrim.

Gözümün yaşından doymayırsınız,
Sevinib gülməyə qoymayırsınız.
Dərdin çaldığına oynayırsınız,
Ay mənim havalı xatirələrim.
19.02.2018.

Sevinc Arzulu

**Xatirelerin**

Semadan yıxılıb xatirelerin,
Utanıb-sıxılıb xatirelerin.
Içime yığılıb xatirelerin.
Çıxmağa qapısı-bacası yoxdur.

Tekce xatirendir dostum, sirdaşım,
Onunla zengindir fikrim, yaddaşım.
Soruşsan özü de bilmez ki yaşın,
Körpesi, cavanı, qocası yoxdur.

Gah koma tikdirer,gah mağar qurar,
Özünden çıxarar, qelbinden vurar.
Hamısı bir boyda, bir tende durar,
Kiçiyi, böyüyü, ucası yoxdur.
24.03.2018.

Sevinc Arzulu

**Xatirem**

Oldun illər sürgünü,
Tənhalıqla sür günü.
Mən tək yarı mürgülü,
Yarı oyaq xatirəm.

Düşdün sevda cəmginə,
Aldandın ahənginə.
Yaraşmaz ki rənginə,
Qara boyaq xatirəm.

Bezməyək göz yaşından,
Parlayan qaş-daşından.
Hisslərin savaşından,
Necə doyaq, xatirəm.
29.11.2017

Sevinc Arzulu

**Xatirem nura boyatsın**

Çalın-çarpaz çəkir dağı sinəmə,
Aman, nə ağırmış həsrətin öcü.
Ağrılar dolu tək yağır sinəmə,
Əriyib azalır sevginin gücü.

Polad qalxan olub dura önümdə,
Qoymaya ağrıdan qəm-qüssə çəkim.
Qəlbimin son dəfə vuran günündə,
İzn ver, bağında qızılgül əkim.

Hər səhər yuxudan səni, əzizm
Gözəl qızılgülün ətri oyatsın.
Xatırla sevinclə məni, əzizm
Xatirəm könlünü nura boyatsın.

Sevinc Arzulu

**Xatiremi  oyadırsam**

Son görüşe güman vardır,
Bir “elvida”uman vardır.
Eh,ne qeder zaman vardır,
Ay çıxası,gün batası.

Yol üstünü kesse külek,
Dönüşüme nesse külek,
Deli kibi esse külek,
Sedasına ün çatası.

Sensizlik bir qayadırsa,
Kölgesi qem boyadırsa,
Xatiremi oyadırsam,
Bu günüme dün qatası.

Sevinc Arzulu

**Xatiren**

Dalğaların göy  rəngindən,
Bir simfonya yarandı.
Gur suların ahəngindən
Xatirələr darandı.

Ilham verir sevgim mana
Şikayətin vardımı.
Yalanları düz yan-yana
Söylə yenə ardını.

Çək gözünə tutyə kimi
Xatirənin göz yaşın.
Bəlkə onda təzələnə,
Itirilmiş yaddaşın.
11.11.2017

Sevinc Arzulu

**Xatirenle seridim**

Ne bilim axırdın,ne bilim sondun,
Ecel zirvesinin başına qondun.
Gözümün önünde bir anda dondun,
Hesretinin buzundaca eridim.

Qoca dünya toy-düyünlü mağardı,
Başımıza herden yağış yağardı.
Gur saçlarım qem-qüsseden ağardı,
Deniz gözlü,güneş telli peridim.

Görüşüne can atdığın kelbimin,
Xoş gününü sanatdığın kelbimin,
Eh,ezizim,qanatdığın kelbimi
Ele senin xatirenle seridim.

Sevinc Arzulu

**Xatiresi**

Soyuq sular ilinərmi,
Qədr-qiymət bilinərmi,
Qəlbimizdən silinərmi.
O illərin xatirəsi.

Ulduz olub axdı, keçdi
Könlümüzü yaxdı, keçdi.
Qüssə ilə baxdı, keçdi
O illərin xatirəsi.

Qapımızı varmı açan.
Qalmışıq çarəsiz, naçar.
Çətin bizdən uzaq qaçar,
O illərin xatirəsi.

Sevinc Arzulu

**Xeberim  yokdur**

Günlerim ac olur,ilim ise tox,
“Öyredim”az olur,”bilim”ise çox.
Gözlerim “he”deyir,dilim ise “yox”,
Gözümün sözümden xeberi yoxdur.

Ocağın başından enmek isteyir,
Getdiyi cığırdan dönmek isteyir.
Teklikden darıxıb sönmek isteyir,
Közümün dözümden xeberi yoxdur.

Heç hicran vüsalı vece alıb ki,
Bilmirim “he”sini nece alıb ki.
Başımı qaldırram,gece olub ki,
Özümün özümden xeberim yoxdur.

Sevinc Arzulu

**Xeberin varmı**

De görüm,aşıq Yadigar.
Şuşadan xəbərin varmı?
Zirvələri örtübdür qar,
Şuşadan xəbərin varmı?

Yol gözlər İsa bulağı,
Cıdır düzün tutub yağı.
Xarı bülbül deyər ağı,
Şuşadan xəbərin varmı?

Qədrin bilməz naşı onun,
Ağlar qaya-daşı onun.
Gözlərimin yaşı onun,
Şuşadan xəbərin varmı?

Zirvəsində çən olaydım,
Sünbülündə dən olaydım.
İndi orda mən olaydım,
Şuşadan xəbərin varmı?

Muradıma yetəydim kaş,
Gül içində itəydim kaş.
Düzlərində bitəydim kaş,
Şuşadan xəbərin varmı?

Ürəkdədir canın ruhu,
Ağlar Natəvanın ruhu.
Üzeyirin,Xanın ruhu
Şuşadan xəbərin varmı?

Daha bitməz sarı sünbül,
Çiçək açmaz xarıbülbül.
Şəhid olub yarı bülbül,
Şuşadan xəbərin varmı?

Sevinc Arzulu

**Xerclemişem**

Çən tutubdur adanı,
Tənhalığı dadanı.
Qandırmaqçun nadanı,
Sözümü xərcləmişəm.

Doğrunu ansın deyə,
Yalanı dansın deyə,
Bir ocaq yansın deyə,
Közümü xərcləmişəm.

Gedər-gəlməz yolunda,
Üzügülməz yolunda,
Qədirbilməz yolunda,
Özümü xərcləmişəm.
14.04.2015

Sevinc Arzulu

**Xeyala dalmışam**

Qapqara libasda,biçimdəyəm mən,
Qurtarmaq bilməyən biçindəyəm mən.
Sanıram,ovcunun içindəyəm mən,
Həsrət ilə lap təkbətək qalmışam.

Sözümü anlamaz ani qırımdan,
Neçə yol əlindən salıb qırıb da.
Qədrini bilmədi bircə qırıq da,
Verdiyim könlü də geri almışam.

Taleyimi belə yazıb yaradan,
Uzaq düşməm şeir adlı dünyadan.
Oyanamam belə dadlı röyadan,
Əbədilik bal xəyala dalmışam.

Sevinc Arzulu

**Xeyalım, gel**

Olum eşqe emin,silim
Üreyinin qemin silim.
Gözlerinin nemin silim,
Üzü qüsse boyalım,gel.
Xeyalım gel,xeyalım gel.

Hesret sevir şaxta,soyuq
Hicran evi oyuq-oyuq.
Vüsal gəlir biz yavuq,
Nece tenha qoyalım,gel.
Xeyalım gel,xeyalım gel.

Yene qara felek gelir,
Qurub min bir kelek,gelir.
Üzde sanki melek gelir,
Perdesini soyalım gel.
Xeyalım gel,xeyalım gel.

Göy üzüne nişan taxın,
Yerin sevincine baxın.
Bir kimseye düşmez yaxın,
Utancağım,heyalım gel.
Xeyalım gel,xeyalım gel.

Gel ferehi tezce oyat,
Yer üzünü elvan boyat.
Sen gelende gülür heyat,
Ayaqları sayalım,gel.
Xeyalım gel,xeyalım gel.

Sevinc Arzulu

**Xeyalım,gel**

Olum eşqe emin,silim
Üreyinin qemin silim.
Gözlerinin nemin silim,
Üzü qüsse boyalım,gel.
Xeyalım gel,xeyalım gel.

Hesret sevir şaxta,soyuq
Hicran evi oyuq-oyuq.
Vüsal gelir bize yavuq,
Nece tenha qoyalım,gel.
Xeyalım gel,xeyalım gel.

Yene qara felek gelir,
Qurub min bir kelek,gelir.
Üzde sanki melek gelir,
Perdesini soyalım gel.
Xeyalım gel,xeyalım gel.

Göy üzüne nişan takın,
Yerin sevincine bakın.
Bir kimseye düşmez yakın,
Utancağım,heyalım gel.
Xeyalım gel,xeyalım gel.

Gel ferehi tezce oyat,
Yer üzünü elvan boyat.
Sen gelende gülür heyat,
Ayaqları sayalım,gel.
Xeyalım gel,xeyalım gel.

Sevinc Arzulu

**Xeyalımı közlerem**

Xəyalımı közlərəm,
Ətirini özlərəm.
Bilsən necə gözlərəm,
Yolumu pusmağını.

Qəmdən çələng hörmədim,
Dost-tanışa  vermədim.
Bircə dəfə görmədim
Hucranın susmağını.

Başdan aşsa da dərdi,
O igiddir, o ərdir.
Çətin görərsiz mərdin,
Özünü asmağını.

Sevinc Arzulu

**Xeyallar**

Hemişe gur sesle danışan ümidler
Havaya qarışan ümidler
başqa yol seçibler,
Pıç-pıça keçibler.
Başların qaldırıb üzüme baxmırlar,
Utancdan su kimi axmırlar.
Yollarda atların seyirden xeyallar,
Her şeyi böyüden xeyallar
Bir-birin çetınce tapırlar.
Daş-çınqıllı dikde astaca çapırlar.
Sakit, sessiz.
Onlar mensiz, men kimsesiz.

Sevinc Arzulu

**Xeyallarım**

Vüsal düşdü atından,
Uzaq düşdü zatından.
Göyün yeddi qatından,
Yıxılan xəyallarım.

Gah sərt qışı andırıb,
Gah şaxtada dondurub.
Məni odda yandırıb,
Yaxılan xəyallarım.

Təkcə sənsən qayğım,tək,
Hissim kimi,duyğum tək.
Gözümdəki uyğum tək,
Yox olan xəyallarım.

Sevinc Arzulu

**Xeyanete yox beraet**

Yene nedir suçlu tek gözaltından süzürsün,
Duzlu göz yaşlarını yanağına düzürsün.
Sen bir anda deyişdin,şöhrete-ada uydun,
Unutdun ezizini,gedib bir yada uydun..

Xeyanete beraet olmayıbdır heç zaman,
Deyanete mehebbet yaşayır hele inan.
Senin getdiyin yolu çoxları gedib,quzum.
Qeybe çekilib onun süfresindeki duzu.

Sen Tanrının yazdığı taleyi yaşamadın,
Ne anana.ne de ki bacına oxşamadın.
Indi tebliğ edilen sözünün hayındasan,
Yanıb-yanıb közeren közünün hayındasan.

Ozünün xeberin yox,küle döneceksen sen,
Qoxlanıban atılan güle döneceksen sen.
Aç gözünü.yaxşı bax,ne günah eyleyirsin.
Bir düşün ne edirsin,bir düşün neyleyirsin.

Bir zaman olacaq ki vicdanın sızlayacaq,
Indi yanan üreyin vaxt olar,buzlayacaq.
Nece isideceksen o donmuş üreyini,
Günahın zirvesine eh.qonmuş üreyini.

De.nece baxırsan sen dostlarının gözüne,
Getdiyin yol uçurum,ayıl,qayıt özüne.
Sen qalxarken şöhretin sınıq nerdivanını,
Zaman çekecek bilsen yıxıldığın anını.

Gelecekdir ömrünün gül-çiçeksiz xezanı,
O zaman verileçek bil,sonuncu ezanın.
De,sene bu yolda ben nece uğur dileyim,
Buz tek sürüşken yolda şeytan olmuş kömeyin.

Sevinc Arzulu

**Xeyirdir**

Erzin bele darlığı,
Heqiqete karlığı.
Senin misra varlığın,
Unudulmaz  şeirdir.

Anadan olduğun veten,
Yaşa dolduğun veten,
Hüzur bulduğun veten,
Qelbime doğma yerdir.

Fani beşer dediyin,
Deyme-düşer dediyin,
Düşmenin şer dediyi,
Mene göre xeyirdir.
08.10.2018

Sevinc Arzulu

**Xezer, gülüm**

Yox hicranın fağırlığı,
Məni yaman gəzər, gülüm.
Bu dünyanın ağırlığı,
Ürəyimi əzər, gülüm.

Dərdli-qəmli xatirələr,
Gözü nəmli xatirələr,
Təkcə sənli xatirələr,
Boz ömrümü bəzər, gülüm.

Qəmi dərdə qataram mən,
Həsrət içrə bataram mən,
Qoynundaca  yataram mən,
Layla çalsa Xəzər, gülüm.

Sevinc Arzulu

**Xezerem, Allah**

Səsim çıxmır zildən,bəmdən
Xəmirim yoğrulub qəmdən.
Axır ki bir gün ələmdən,
Kədərdən bezərəm,Allah.
Sevgini sezərəm,Allah

Aşiq oldum Cünun kimi,
Xurma yedim məcun kimi.
Səhraları Məcnun kimi,
Dolaşıb gəzərəm,Allah.
Yer üzün bəzərəm,Allah.

Aləm pakdır təmələindən,
Qalma yaxşı əmələindən.
Dünyada nadan əlindən,
Bezmişəm,həzərəm,Allah.
Pisliyi əzərəm,Allah

Elə yannam,,közüm qalmaz,
Ürəyimdə sözüm qalmaz.
Bir kimsədə gözüm qalmaz,
Saf baxış,nəzərəm Allah.
Dalğalı Xəzərəm,Allah.

Sevinc Arzulu

**Xezerimizin**

Təbiət sirrindən baş açmaq olmur,
Gahdan isti olur,gah da qar gəlir.
Taledən, qismətdən heç qaçmaq olmur,
Bu dünya gözünə bəzən dar gəlir.

Öpər ayağını mavi dalğalar,
Həniri bir anda qəlbinə çökər.
Ləpələr uşaq tək səni yırğalar,
Ayrılıb gedərsən,göz yaşı tökər.

Xətrinə dəyməyək Xəzərimizin,
Danışıb dərdləşək üz-üzə durub.
Göylərə zilləyək nəzərimizi,
Ilahi naxışı nə gözəl vurub.

Sevinc Arzulu

**Xezermisen**

Çən əskik olmur düzümdən,
Gecəm fərqli gündüzümdən.
Çəkilmirsən heç üzümdən,
Baxışmısan,nəzərmisən.

Unutmazsan ki sən məni,
Gizlədəməz ki çən məni.
Bu dağları,çol-çəməni.
Gülüm,mənsiz gəzərsənmi.

Baxma mənə ögey-ögey,
Göy rəngində libaslar gey.
Gözlər sular kimi göm-göy,
Söylə,dəli Xəzərmisən.

Sönməz sevginin odları,
Yazılı qəlbin notları.
Yollunu kəsən otları.
Tapdalayıb əzərmisən.

Sevinc gözəl qönçə,gülüm.
Qəlbin açar öncə,gülüm.
Mənim üçün xonça,gülüm
Ad günümdə bəzərmisən.

Sevinc Arzulu

**Xezineler adası**

Daha danışmıram eşq-məhəbbətdən,
Yaşarmır gözlərim acı həsrətdən.
Xəbər gözləmirəm uzaq qürbətdən.
Ürəyim bir boş məhəbbət odası.

Bənzəyirsən tənha qalmış qurda sən,
Dönəcəksən geri,doğma yurda sən.
Axtardığın tapacaqsan burda sən,
Mənim könlüm xəzinələr adası.

Çoxu gedib,azı qalıb ömrümün,
Uçub Göy gölündən qazı ömrümün.
Daha cilvələnmir nazı ömrümün,
Yoxdur daha əvvəlki tək ədası.

Kədərim lalənin üzündə xaldır,
Əlini ver mənə,ucaya qaldır.
Könlüm səmalarda süzən qartaldır,
Gələr bir gün uzaqlardan sədası.

Icazə ber.daxil olum köşkünə,
Ətir qatım,ənbər qatım müşkünə.
Şeir çıxdı Sevincin də püşkünə,
Nə gizlədim səndən daha,qadası.

Sevinc Arzulu

**Xezinesi**

Dünyanın ən isti guşəsi oğlum.
Ana qucağıdır, xəz sinəsidir.
Şındırma  qəlbimin şüşəsin, oğlum,
Övladlar ananın xəzinəsidir.

Həsrətin qəlbimi elə sıxır ki,
Dayanıb durmağa dözüm yox artıq.
Hicran fərəhimi elə yıxır ki,
Üzünə qayıdan sözüm yox artıq.
28.04.2018

Sevinc Arzulu

**Xocalı ağısı**

Ağı deyen kişi gördüm xiyabanda,
Neler duydum,neler çekdim ben o anda.
Yandırılmış,küle dönmüş el-obası,
Susub daha,neğme demir bad-sebası.
Qırılmışdı bir gecede ailesi,
Yeri-göyü bürümüşdü ah-nalesi.
Ermeni-rus birleşmesi vehşi kimi,
Quldurluğun neqşi kimi
Qırmışdılar cavanları,qocaları
Viran qalmış bir vaxt abad olan
elin qapıları-bacaları.
Körpeleri nizeyece taxmışdılar,
Uşaqları yandırıban yaxmışdılar.
Gen düzlere sepılmişdi cesedleri,
Bu ermeni kansızlığı vurub keçmiş daş sedleri.
Kaniçenlik eclaflara xoş gelmişdi,
Neçe-neçe eliyalın güllelere tuş gelmişdi.
Bu şaxtada gözüaçıq donan vardı,
Ruhu azad kuşa dönüb evi üste qonan vardı.
O karlı kış gecesinde açılmadı ki sabah,
Bunca zülme nece dözdün sen,Allah.
Bu ketliama göre,kanlı ehtişama göre
kim cavab verecekdir,
Yeqin dünya özü bir gün edaletin hökm etdiyi
mehkeme görecekdir.

Sevinc Arzulu

**Xoş gördük**

Bu nə ağrı, nə şiddətdi,
Bu nə əzab, nə hiddətdi.
Görüşmürük nə müddətdi,
Dağlar, xoş gördük, xoş gördük.

Izn verin, bir danışım.
Küsdüyüm ilə barışım.
Qəlbim sizsiz dost-tanışım,
Ağlar, xoş gördük, xoş gördük.

Sənsiz keçmir mənim günüm,
Xatirəndir arxam, önüm.
Yenə də geriyə dönün,
Çağlar, xoş gördük, xoş gördük.
27.03.2018

Sevinc Arzulu

**Xoş gördük 52 yaşım**

Gecəli-gündüzlü döyünürəm  mən,
Nənə olmağımla öyünürəm mən.
Sənin gəlişinə sevinirəm mən,
Gün-gündən çoxalır dostum-sirdaşım,
Xoş gördük, xoş gördük əlli iki yaşım.

Həsrətin gözünü külnən oyurdum,
Vüsalın özünü gülnən doyurdum.
Çiçəyi güldana tülnən qoyurdum.
Acı bir kəlmədən ağrıyır başım,
Xoş gördük, xoş gördük əlli iki yaşım.

Ötəndən-keçəndən bac alıram mən,
Günəşin özündən tac alıram mən.
Demə ki yaşlanıb qocalıram mən,
Daha da parlayır brilyant daşım,
Xoş gördük, xoş gördük əlli iki yaşım.
21.08.2014

Sevinc Arzulu

**Xoşbext olaq**

Sənin mənsizliyində
Gizlənibdir sirr-sehir.
Ay əzizim, ayrılıq
Məndən asılı deyil.

Özün getdin bu yolu.
Döz də çətinliyinə.
Mən baxıb heyran olum,
Sənin mətinliyinə.
Soyuq küləklər əssin,
Saçlarını darasın.
Bəlkə bir kəlmə sözüm,
Ayrılığa yarasın.

Bilirsən, gizlənibdir
İzdən vüsalın özü.
Deyən daha su içmir,
Bizdən vüsalın gözü.

O izlər ki quruyub,
Daha irəli getmir.
O izlər ki burulub,
Qəlbin dediyin etmir.

Bir az qonşuya çıxır,
Bir az bulaq başına.
Həsrət evimi yıxır,
Dön könül sirdaşıma.

Qara kölgələr kimi,
Nədən qarabəxt olaq?
Biz də özgələr kimi,
Ömr edib xoşbəxt olaq.
19-07.2018

Sevinc Arzulu

**Xumar oldun**

Vermədin bir hay vəfasız,
Deyiləmmi tay vəfasız.
Küsüb məndən ay vəfasız,
Özgə telə tumar oldun.

Əzizim,zövqün təzələ,
Qiymət ver şerə,qəzələ.
Uyub başq1a bir gözələ,
Eşqdən məsti-xumar oldun.

Sevincəm,bir bax gülümə,
Suya qarışan külümə.
Mənim çəkdiyim zülümə,
Gözlərini yumar oldun.

Sevinc Arzulu

**Ya haydır**

Ümidlərim, arzularım pərişan,
Göz yaşlarım sel-sulara qarışan.
Nədir görən kəhkəşanda sayrışan,
Günəşmidir, ulduzmudur ya aydır.

Gör hicrindən vəslin qəşş eylədiyin,
Həyatıma qəmi nəqş eylədiyin.
Çərx-fələyin mənə bəxş eylədiyi,
Rüşvətmidir, hədiyyədir ya paydır.

Dönmədim başına, olmadım fədan
Həsrətinin acı dadın mən dadan.
Qulağımdan çəkilməz ki səs-sədan,
Qışqırıqdır, çağırışdır ya haydır.

Sevinc Arzulu

**Yad et meni**

Göy çəmən gəbədi.gülüm,
İnancım Kə`bədi.gülüm.
Bacarsan əbədi,gülüm,
Xoşbəxtliyə ad et məni,
Yad et məni.yad et məni.

Çətində dostdur əlacım,
Şeirlərim-şahlıq tacım.
Kaş yuyula ağrım-acım,
Şirin-şəkər dad et məni,
Yad et məni,yad et məni.

Göy səmada quş tək süzüm,
Yer üzünə çiçək düzüm.
Qoy həmişə gülsün üzüm,
Sevindirib şad et məni,
Dərd-kədərə yad et məni.
Yad et məni,yad et məni.

Sevinc Arzulu

**Yad özgeler**

Qayalarda qaldı ünün,
Alışdırsan bir köz, gelr.
Ay ezizim, yaxşı günün
Derde-qeme sen döz, geler.

Sevgi qelbde daim yaşar,
Sahilini bezen aşar.
Xezer kimi dolub-daşan,
Üreyime min söz geler.

Felek aparar çoxumu,
Sepeler hesret toxumu.
Ayrı düşer qan qohumu,
Doğmalaşar yad özgeler.

Sevinc Arzulu

**Yad sakin**

Gərək ilk kəlmədən başa düşəydim,
Bu yaşam sənincün ölümmüş, adam.
Həsrətin ağrısı yaşa düşəydi,
Içində ikiyə bölünmüş adam.

Getdin,məni qoydun dərdlə baş-başa,
Ayağın altın yer titrəmədi?
Uzaqdan baxaraq etdin tamaşa,
Şəninə yazdığım şer titrəmədi7

Etdiyin bütüncə pislikləri mən,
Silməyə çalışdım könlümdən.Lakin
Sən demə əbədi gözümdən itən,
Olmusan yad eldə yad evə sakin.
25.06.2018

Sevinc Arzulu

**Yadıma  düşdün**

Yadıma düşdün,
üşüdüm qemli xatirelerdren.
Gözü nemli xatirrelerden.
Hicran küleyi vıyıldadı
üreyimi delib keçen bir ox kibi.
Dünya bene dar gelir,
sensiz heyat yox kibi.
Sen gözümden iten gün
kaş özüm de iteydim.
Bir körpe fidan olub
susuz çölde biteydim.
Bilirim,dönmeyecek
senli günlerim geri,
Adına bağladım ben,
ay ezizim,bu şeiri.

Sevinc Arzulu

**Yadına düşdüm**

Gözümə sığmayan uyğularımla,
Şeirə çevrilən duyğularımla.
Min bir iztirablı qayğılarımla,
Mən dəli sevginin oduna düşdüm.

Pərvanətək bu atəşə hey yandım,
Özümü dünyanın sultanı sandım.
Qəlbimdə sevdimsə, aşkarda dandım,
Bir gizli sevdanın badına düşdüm.

Qalmayıb ürəkdə nə taqət, dözüm,
Dönsən alışacaq qor olan közüm.
De, nədən yaşardı bir anda gözün,
Deyəsən qəflətən yadına düşdüm.

Sevinc Arzulu

**Yağacaq  beni**

Unudub derdimi güleş olacam,
Qelbine od qoyan ateş olacam.
Yandırıb-yaxacaq güneş olacam,
Dan yeri her seher doğacaq beni.

Vüsalın yerdece ölüb qalıbdır,
Ruhu uçub gedib,tülü qalıbdır.
Sedası sönübse,külü qalıbdır,
Sözünün tüstüsü boğacaq beni.

Ah-zarın ağappaq çene dönecek,
En uca zirveyle tene dönecek.
Axan göz yaşların "ben"e dönecek,
Qaralan buludlar yağacaq beni.

Sevinc Arzulu

**Yağammadım**

Həsrətinin kölgəsini,
Boğammadım,boğammadım.
Vüsalının nömrəsini,
Yığammadım,yığammadım.

Günəş çıxa,aysa bata,
Könül arzusuna çata.
Sənsiz geniş kainata,
Sığammadım,sığammadım.

Küsüşməyək yadın üstdə,
Bir quruca adın üstdə.
Sən yandığın odun üstə,
Yağammadım,yağammadım.

Sevinc Arzulu

**Yağır yaz yağışı**

Sevən könül susan olar,
Unutmaq de.asan olar?
Narın yağış leysan olar,
Al çiçəklər naz yağışı.
Yaman yağır yaz yağışı.

Dodağımdan söz üzülər,
Gözlərimdən yaş süzülər.
Mirvari tək səf düzülər,
Rənglə qəmin az naxışın,
Yaman yağır yaz yağışı.

Şimşək olub qəlbimdə çax,
Al qan kimi damardan ax.
Bir doyunca üzümə bax,
Əsirgəmə öz baxışın.
Yaman yağır yaz yağışı.

Sevinc Arzulu

**Yağıram men**

Kədər üçün gözəl ovdum,
Təbəssümü nədən qovdum.
Bir vaxt yaman dəlisovdum,
Indi necə fağıram mən.

Qiymət verməz əməyimə,
Zəhər qatar yeməyimə.
Çətin gündə köməyimə,
Axı kimi çağıram mən.

Bəxt taledən küskün olub,
Vüsal necə miskin olub.
Yağış olub,çiskin olub
Qəmin üstə yağıram mən.

Sevinc Arzulu

**Yağış**

Yağış tesdiq kimi yağdı doğruma,
Soyuq melhem oldu könül ağrıma.
Nece de hesretle basdım bağrıma,
Bu yağış ömrümün fon yağışıdır.

Ümidim xeyalın pillesindedir,
Qulağım hicranın şillesindedir.
Varlığım yağışın gilesindedir,
Bu yağış ömrümün ton yağışıdır.

Gözümün önünü dumanlar alar,
Qelbimi belkeler,gümanlar alar.
Yerimi bereket umanlar alar,
Bu yağış ömrümün son yağışıdır.

Sevinc Arzulu

**Yağış tek**

Sildim ürəyimdən sənin adını,
Qəlbimdə əbədi boş qalacaqdır.
Mənəmmiş dünyanın sirli qadını,
Sandın ki zülm etsən xoş olacaqdır.

Saralmış vərəqin son sətirinə,
Qırmızı qələmlə nida qoyulmuş.
Büründüm payızın xəzəl ətrinə,
Bahar-yaz omrümə vida qoyulmuş.

Sən şümal  olmusan, mən kələ-kötür,
Dəyişən deyiləm, rəndələmə sən.
Öz sevgi payını hələ gəl götür,
Başıma yağış tək dərd ələmə sən.
O1.12.2017

Sevinc Arzulu

**Yağış yağır**

Hanı vəslin çaparı,
Hicran tufan qoparır.
Gören hara aparır,
Ayrılıq yaman ağır.

Görüşe bilmirler ki,
Gülüşe bilmirler ki,
Bölüşe bilmirler ki
Sema zerif ,yer fağır,

Çenlenib sislenecek,
Bezenib süslenecek.
Aniden islanacaq,
"Yollara yağış yağır."
29.04.2018

Sevinc Arzulu

**Yağışım yağır**

Yaşasın saf məhəbbət,
Etibar və sədaqət.
Göydən yerə səadət
Uman yağışım yağır.

Sərin küləksən, mehsən
Yaradanına əhsən.
Hər yanı bürüyüb çən.
Duman yağışım yağır.

Yolunu sal bəriyə,
Bəlkə buzlar əriyə.
Dönərsənmi geriyə,
Guman yağışım yağır.
11.11.2017

Sevinc Arzulu

**Yağışın meni**

Bilirsən sənsizlik necə ağırdır.
Ananın darıxan ruhu çağırdı,
Gedəndə işıqlı yağış yağırdı,
Islatdı bir anda yağışın məni.

Cismin qara qoçu seçib getsə də,
Əcəl badəsini içib getsə də,
Üstündən neçə il ötüb keçsə də,
Indi də yandırır baxışın məni.

Qəlb evim  uçuldu, verdi çat,doydu.
Köz tutan yaramı neçə qat soydu.
Elə karıxdırdı, elə mat qoydu,
Ulduz tək qəfildən axışın məni.
21.05.2017

Sevinc Arzulu

**Yalan**

Qüsse-qem her öten anıma işler,
Yalanın doğrusu qanıma işler.
Illerin ağrısı canına işler,
Torpaq da duzlaşıb şoranlıq olar.

Yalanın üstünde qurulub dünya,
Yalanla zengindir gördüyüm röya.
Qarşımı keserse yene şer,riya
Gözümün önü zil toranlıq olar.

Yamanca boğaza yığıbdır bizi,
Esiben coşar da yalan denizi.
Torpağa düşerse onun bir izi,
Abad ev o anda viranlıq olar.

Sevinc Arzulu

**Yalan dünyadı**

Acı etdi şirin,meyxoş təmimi,
Tez batırdı dəryada qəlb gəmimi.
Heç olmadıq biz onunla səmimi,
Əzizimi əldən alan dünyadı,
Dünya yalan,dünya yalan dünyadı.

Olammadım mən məhəbbət timsalı,
Ayağımı yandırdı qəm qumsalı.
Çox gördülər bizə şirin vüsalı,
Aralığa həsrət salan dünyadı.
Dünya yalan,dünya yalan dünyadı.

Hicran aramızda eşqə qənim tək,
Qüssə də bir tüldür duman,çənim tək.
Kədərli anımda deyən mənim tək,
Əlçatmaz xəyala dalan dünyadı.
Dünya yalan,dünya yalan dünyadı.

Sevinc Arzulu

**Yalan ve heqiqet**

Dolaşıb ümidin ayaqlarına,
Xəyal gözlərini qırpıb baxırdı.
Dalaşıb yalanın dayaqlarıyla,
Həqiqət özünü çırpıb axırdı.

Məhkəmə olacaq, açıq məhkəmə,
Bütün cinayətlər sıralanacaq.
Bəs nədən bizlərdən qaçır məhkəmə,
Həqiqət köksündən yaralanacaq.

Qərar qəbul edin: Doğru və düzgün,
Yalan boğazından asılmalıdır.
Yalan pıçıldayar oğrun və üzgün:
-Qanunlar yenidən yazılmalıdır.

Neçə il verəcək doğru yalana,
Bəlkə də ömürlük.Nə bilmək olar.
Işi dirənibdir artıq  dalana,
Nə bir söz söyləmək, nə gülmək olar.

Söndürüb arzunun gur ocağını,
Qızınmaq istəyir tüstüsünə o.
Tapıb həyatının kor bucağını,
Dözəcək soyuğun istisinə o.

Sanki bu dünyaya erkən gəlibdir,
Nə əli işləyir, nə də ayağı.
Yalan qayığına yelkən gəlibdir,
Elə sözlər deyir aqil sayağı.

Sözdəndir yalanın dəmir silahı,
Ölçə də bilmirəm, vurur uzağı.
Başının üstündə görmür Allahı,
Üşüdür hamını soyuq-sazağı.

Yalanın qəribə fəlsəfəsi var,
Addımı atır ki bəlkə yeridi.
Bilmir ki dünyanın daş qəfəsi var,
Məhz ora yalanın əsir yeridi.
11.11.2017

Sevinc Arzulu

**Yalnız özümüz**

Kədəri,qüssəni sanıram həmdəm,
Sevihci qəlbimdə az saxlayıram.
Mənim ala gözüm olur daim nəm,
Bir nakam sevgiyə yas saxlayıram.

Yenə də titrədi könlün qəm simi,
Yenə də gözlərim yaş ilə doldu.
Kəsdi aramızı həsrət tilsimi,
Al sevgi baxçası beləcə soldu.

Bizım aramızda bir söz olmadı,
Danışdı kədərli gözümüz bizim.
Qəlbləri yandıran od-köz olmadıq,
Bu oda alışdıq yalnız özümüz.

Sevinc Arzulu

**Yaltağın şeri**

Bəsdir daha,ucalıqdan düş,yeri,
Ortaq payda qalıb böyük diş yeri.
Tapaq talan olunmalı iş yeri,
Sən müdir ol,mənsə sənə müdavim,
Mən stəkan.sənsə dolu qrafin.

Unutmayaq biz əvvəlki mənsəbi,
Saqqız təkin uzatmayaq mətləbi.
Tez bitirim o açdığın məktəbi,
Sən müəllim,mənsə sənə müdavim,
Sənə qurban mənim eşiyim-evim.

Danlasalar nə sakit ol.sükut et,
Demirəm ki,bircə sözdən süqut et.
Qışqır-bağır,doğruluğun sübut et,
Sən ciddi ol,mənsə həlim,mülayim.
Sən alov ol,mənsə səni sulayım.

Sevinc Arzulu

**Yamyaşıl**

Dövlətli deyilsən çox varın olsa
Varlısan çox xoşbəxt diyarın olsa.
Altnda qara rəng mirvarı varsa,
Bu qəm dənizinin üstü yamyaşıl.

Nə günə qoydu gör məhəbbət bizi,
İzləyir daima hey töhmət bizi
Elə yandıracaq bu həsrət bizi,
Alovu aldırsa,üstü yamyaşıl.

Alına yazılıb ayrılıq sözü,
Bizdən əl çəkməyir ayrılıq özü.
Abidə qoymadım hicrana, düzü
Vüsalın əbədi büstü yamyaşıl.

Sevinc Arzulu

**Yanam men**

Yüzdən əllisi var, əllisi hanı,
Gizlini bir sirrdir,bəllisi hanı.
Insanlar dönükdür, fərlisi hanı,
Pislərin oduna gərək yanam mən?

Torpağı doyurmur gözümün yaşı,
Itirdim ən yaxın dostu, sirdaşı.
Odsuz  alovlanır bağrımın başı,
Qəbriniz üstəyəm atam, anam mən.

Mən ki dost olmadım azdığım ilə,
Qəbrimi birlikdə qazdığım ilə.
Kimsə fəxr eyləməz yazdığım ilə,
Eləcə özümə şöhrət, şanam mən.
12.12.2017

Sevinc Arzulu

**Yananım gelir**

Nadanı qandırmaq olmaz him-cimlə,
Xəyal pəncərəni sən tez hör simlə.
Sallana-sallana gəlir gör kimlə,
Can qurban etdiyin cananın gəlir.

Yamanca göstərir külək özünü,
Əğyar da zilləyib köşək gözünü.
Nə olsin, deməyir ürək sözünü,
Gizlicə oduna yananın gəlir.

Yaramın közünü astaca soyub,
Qəlbimi sözüylə hey oyub-oyub.
Sevginin sonuna bir nöqtə qoyub,
Eşqi-məhəbbəti dananım gəlir.

Sevinc Arzulu

**Yanar**

Ay qəlbimin sevinci,
Olma qəmin girinci.
Xatirimdə birinci,
Sənin adın dayanar.

Həyatıma yaraşıq,
Buta verilən aşıq.
Yollarda yaşıl işıq,
Sənin adında yanar.

Mən sənə deyiləm yad,
Vüsal şərbətindən dad.
Ürəyimə vurma od,
Sənin adın da yanar.

Sevinc Arzulu

**Yandım,yandım**

Könlüm arar,dilim haylar,
Işığını gözüm paylar.
Içimdence keçdi çaylar,
Allah,nece yandım,yandım.

Derd nurunu sezib durdum,
Qem kelefin çözüb durdum.
Gündüzleri dözüb durdum,
Vallah,gece yandım,yandım.

Qızılgülsüz tikan yoxmu,
Könül evin tiken yoxmu.
Üstüme su töken yoxmu,
Eh,belece yandım.yandım.

Sevinc Arzulu

**Yandırır meni**

Aldandıq eşq dükanında,
Azdıq vüsal məkanında.
Sənsiz dost-düşmən yanında,
Xar olmaq yandırır məni.

Həsrətdən görmədim xeyr,
Özgəsinə saldın meyl.
Uca dağda qartal deyil,
Sar olmaq yandırır məni.

Bulud tək dolduğun yerdə,
Gül kimi solduğun yerdə.
Sənin yox olduğun yerdə,
Var olmaq yandırır məni.

Sevinc Arzulu

**Yar etmişim**

Həsrətin dadın görüb mən hey ahu-zar etmişəm,
Zillətin adın görüb göz yaşımı qar etmişəm.

Əzizim, sən olduğun ətirli, solmaz gülşəndə
Özümü bir qızılgül, əğyarımı xar etmişəm.

Niyə məndən incik də düşüb ümid-xəyallarım,
Keçirdib mən həyata, əbədiyyən var etmişəm.

Bilirəm, ağlar könül.yaralısan, qanın axır
Dəli tək sevdiyimi özgəsinə yar etmişəm.

Açmadım ürəyimi. dedim özgələr nə deyər
Utanıb-qızarmışam, dost-tanışdan ar etmişəm.

Telimi dağıtsa da coşgun küləklər sayağı,
Vüsalın naləsinə qulağımı kar etmişəm.

Sevinc Arzulu

**Yar ile**

“Getme”-dedim,dost olmaram dözümle,
“Etme-dedim,mest olmaram közünle.
“İtme”- dedim,bacarmaram özümle,
Yoldaş oldum bir namehrem xar ile.

Göz bulağım şırım-şırım şırıldar,
Üreyimin qapıları cırıldar.
Ayrılığın iti yaman mırıldar,
Hesret geler üstüme qış-qar ile.

Kim uçurdar hicranın daş barısın,
Kim isteyer tenha qalsın,qarısın.
Seven insan sevdiyinden yarısın,
Ömür sürsün beyendiyi yar ile.

Sevinc Arzulu

**Yar meni**

Hicri taxtdan düşürtmezdi,
Hesret kardı, eşitmezdi.
Bilirsen ki üşütmezdi,
Şaxta meni, qar meni.

Demirem ki alovu seç,
Demirem ki ateşden keç.
Düşündürməz ki inan heç.
Dövlet meni, var meni.

Xar tutubdur gözlerini,
Deyir şirin sözlerini.
Itiribler özlerini.
Görmeyir ki yar meni.
04.04.2018.

Sevinc Arzulu

**Yar olaydım**

Yayda yaşar oba dağda,
O eldəcə var olaydım.
İsti gündə Baba dağda,
Əriməmiş qar olaydım.

Sən tapdığım ləl xəzinə,
Ayrı salar de, bizi nə.
Kaş dönəydin bir tarzənə,
Mən sinəndə tar olaydım.

Sözüm yoxdur belə baxta,
Dediklərin tamam saxta.
Nə çıxaydım uca taxta,
Nə də belə xar olaydım.

Mən süfrəndə mey olmadım,
Dərd oyadan ney olmadım.
Neynim şahin, ley olmadım,
Qəm dağında sar olaydım.

Qulağıma gəlir bir səs,
-"Çəkdiklərin deyilmi bəs".
Mənə lazım deyil heç kəs,
Tək sənə dost, yar olaydım.

Sevinc Arzulu

**Yar pıçıltısı**

Hesretin ekdiyi gül sonsuz olar,
Kapımı döydüyü gün “o”nsuz olar.
Bilirsen,nece de soyuq,buz olar
Yayın ortasında qar pıçıltısı.

Sedefi Kürdüse,mizrabı Araz,
Kamına çatar bax alagöz muraz.
Her yapraq dalğası “Bayatı-Şiraz”,
Ah,nece hezindir tar pıçıltısı.

Dalğalar hökm eder deniz qelbine,
Şiirle,muğamla seven qelb dine.
Gözel neğme kibi  doldu qelbime,
Kızılgül etirli yar pıçıltısı.

Bir yanım uca dağ,bir yanım Xezer,
Narahat xeyalım alemi gezer.
Yene od-ateşi dünyanı bezer,
Çiçeyi renginde nar pıçıltısı.

Soyuq gözelliyin öyer,danışar
Ayağın yere berk döyer,danışar.
Ele öz-özüne deyer,danışar
Kimseye çatmaz ki xar pıçıltısı.

Sevinc Arzulu

**Yar sevgi**

Bu nə gizli ehtiras,
Bu nə aşikar sevgi.
Məhəbbətə etiraz,
Qulaqları kar sevgi.

Yaşasın saf məhəbbət,
Sevən etməz ki nifrət.
Kimsələrə dərd-möhnət,
Kimsələrə yar sevgi.

Bu qədər güclü yəni?.
Artırar teldə dəni.
Həyatda bir kimsəni,
Etməsin heç xar, sevgi.
13.05.2017

Sevinc Arzulu

**Yaranıb**

Toplanıblar,çıxılıblar
Utanıblar,sıxılıblar.
Çınqı-çınqı yığılıblar,
Ocağım közden yaranıb.

Gece-gündüz öy semanı,
Baxışınla döy semanı.
Maviliyi göy semanın,
Bir ala gözden yaranıb.

Hesret,yaxın gelme-gelme,
Hicran,könlüm delme-delme.
Toxunubdur kelme-kelme,
Dünyamız sözden yaranıb.

Sevinc Arzulu

**Yaranmışam men**

Deyəsən yağmayıb hədər yağışım,
Bəxtimə yazılıb qədər yağışım.
Uca göydən yağır kədər yağışı,
Altında yuyunub daranmışam mən.

Ilahi yanında mən üzüağam,
Qəlbimdə yaşarsan nə qədər sağam.
Sanırdım ağ qarlı uca bir dağam,
Istisi bol olan aranmışam mən.

Məndən uzaq qaçır gözləri nəmim,
Möhnətim lap çoxdur,fərəhdir kəmim.
Könlümdə azalmır kədərim,qəmim,
Elə dərd çəkməkçün yaranmışam mən.

Sevinc Arzulu

**Yarda qalmadı**

Taqətim yox qəhərimi udmağa,
Ayrılığın zəhərini udmağa.
Qəmli gündə qəlbimi ovutmağa,
Səndən mənə yadigar da qalmadı.

Qan ağlayır indi gözəl Qarabağ,
Göz yaşının hər damlası qara-ağ.
Önümüzdə hey yüksəlir qara dağ,
Zirvəsində donmuş qar da qalmadı.

Ürəyimin həzin çalan neyi yox,
Lal könlümün haylamağa heyi yox.
Bu göylərin qartalı yox.leyi yox
Ov etməkçün tərlan,sar da qalmadı.

Xatirələr təşkil etdi hücumu,
Intizarın məhv eylədi gücümü.
Fələk məndən qabaq aldı öcümü,
Qisasım ol namərd xarda qalmadı.

Həzin,lirik nəğmə çalar qəlb simi,
Torpaqdandır,çökəcəkdir qəlb himi.
Ayrılanda geri verdi qəlbimi,
Əbədilik nakam yarda qalmadı.

Sevinc Arzulu

**Yardım sensiz**

Saralıban solaraq men,
Qem-badeye dolaraq men.
Qızıl güneş olaraq men,
Göy dumanı yardım sensiz.

Kim bağladı bext-keçidi,
Rastlaşanda çox gec idi.
Neynim,sevgimiz gecikdi
Özgesine yardım sensiz.

Taxtu-taclı şahım idin,
Günahsız günahım idin.
Menim xeyirxahım idin,
Kimden alım yardım,sensiz.

Sevinc Arzulu

**Yarımçıq,gülüm**

Vaxtsız sevda batar vüsal gölündə,
Nədən hicran düşər mənə bölümdə.
Kədər səhrasında, həsrət çölündə,
Quraram qüssədən alaçıq, gülüm.

Gözəl qız həmişə işvəkar olar,
Tez tora düşməyən ov, şikar olar.
Bir anda hamıya aşikar olar,
Duyğular səma tək apaçıq, gülüm.

Ulduzlar sayrışar ehtişam kimi,
Yanaram oduna qara şam kimi.
Qəlbimdə yurd salan arzu-kam kimi,
Sevdam da qalıbdır yarımçıq, gülüm.

Sevinc Arzulu

**Yarımı itirmişem**

Nə qara gəldi zaman,
Fələk, əlindən aman.
Tənha ağlayır kaman,
Tarımı itirmişəm.

Qəm özün dərddən asıb,
Hər yanı zülmət basıb.
Oldum hamıdan kasıb,
Varımı itirmişəm.

Çox sevərdi gülləri,
İncə, zərif tülləri.
Gözüm gəzir elləri,
Yarımı itirmişəm.
24.11.2018

Sevinc Arzulu

**Yarışarmı**

Duyğularım olubdur cəm,
Yarı sevinc,yarı da qəm.
Biz ayrılsaq dünya-aləm,
Bir-birinə qarışarmı?

Dərdi- qəmdən ucuz nə var.
Kədər alan çox uduzar.
Yerdə küsən cüt ulduzlar,
Uca göydə barışarmı?

Haqqı-sayım var boynunda,
İlan bəsləmə qoynunda,
Çərxi-fələyin oynunda,
Fərəhlə qəm yarışarmı?

Sevinc Arzulu

**Yarpak tökümü**

Qovuşdiq seninle,
Qonuşduq seninle.
Ben divarın dibinde,
Sen barının üstünde
Ben bir siqaret çekdim,
Sen boğuldun tüstüden.
Daşıb keçdin hasarı,
Aşıb keçdin hasarı.
Dayanmaz ki al qanı,
Sen yaramı ha sarı.
Tutdum ağ ellerinden,
Öpdüm gur tellerinden.
Dünyalar benim oldu.
eh,hesret qenim oldu
bizim bu aşkımıza
Su tökdü köşkümüze.
Qaranlığın qınından
çetinlikle sıyrıldıq,
Deye-güle ayrıldıq,
bile-bile ayrıldıq.
Bu,zamanın hökümüdür,
Bu,yarpaq tökümüdür.

Sevinc Arzulu

**Yarpaq tökümü**

Yaşam özü ayaqlı, elli deyil,
Ölümün hedefi kim? Belli deyil.
Yaşımız heleki, heç elli deyil,
Başlanıb neslimin yarpaq tökümü.

Biri qefil öler biri helak olar,
Ruhları semada ağ melek olar.
Itkiden sevinen tek felek olar,
Başlanıb neslimin yarpaq tökümü.

Üzüler payızın serin mehinden,
Süzüler gecenin seher şehinden.
Düzüler qurşağın yeddi zehinden,
Başlanıb neslimin yarpaq tökümü.

Ayrılıq meclisde hakim, baş olar.
Hesret üzüyümde qara qaş olar.
Könülde qem-qüsse , gözde yaş olar,
Başlanıb neslimin yarpaq tökümü.

Sevinc Arzulu

**Yarpaq ve men**

Bir zaman yaşıldı cavanlığım tək,
Indi mənim kimi saralan yarpaq.
Çətin məhv olaraq biz gözdən itək,
Torpağın üstündə qaralan yarpaq.

Mən uşaq olanda tumurcuq idi,
Gənclik çağlarımda bir yarpaq oldu.
Onun da mənim tək həyatı bitdi,
Sonda nəsibimiz bu torpaq oldu.

Torpaq görüşdürdü bizi son anda,
Anatək bəslədi öz qucağında.
Taleyin hökmüdür:insan solanda,
Torpaq yer göstərir bir bucağında.

Sən tumurcuq olsan qönçə olacam.
Yaşıl yarpaq olsan,al gülə dönnəm.
Sən bir gün saralsan mən də solacam,
Axan ulduz kimi əbədi sönnəm.

Yenə dönəcəyik ana torpağa,
Belə dövr edəcək ömrümüz bizim.
Mən gülə,sən isə yaşıl yarpağa,
Dünyada qalacaq izimiz bizim.

Sevinc Arzulu

**Yaş heddini**

Qəmin dananın önündə,
Şam tək yananın önündə.
Təkcə ananın önündə,
Əy,əzizim, baş, qəddini.

Qaranlıqdan işığa çıx,
Azadlığın əlini sıx.
Məhəbbətin gücüylə yıx,
Sən həsrətin daş səddini.

Demirəm ki hicranı seç,
Ya mən üçün canından keç.
Sadiq yarım,qocalma heç,
Dəyişdirmə yaş həddini.

Sevinc Arzulu

**Yaşa hele**

And içiben etibarı duz-çörek tek yeyen sendin.
İndi noldu.
Payız geldi,çiçek soldu senin kibi.
Bir de açmaz.
Taleyinden uzaq qaçmaz insan oğlu.
Bu,en doğru.
Ne; etsen de ,neynesen de
pozulmaz ki felek yazan qara yazı.
Yaxşılığa yozulmaz ki,çekilmez ki dara yazı.
Soyuqdursa,şaxtadırsa demek seni üşüdecek
qemin vardır.
Üreyini sındırdığın bir könül hemdemin vardır.
Çatammazsan daha ona,
Azadlığın yetdi sona.
Sen ömürlük mehbesdesen,
Lel daş-qaşlı qefesdesen.,
yaşa hele.
Senin ömrün çatmayıb ki başa hele.
Yaşa hele....

Sevinc Arzulu

**Yaşa könül**

Kaş ki taleyim dəyişə,
Fərəh kədərlə dəyişə.
Az qalıbdır son döyüşə,
Vur zəfərlə başa.könül.
Yaşa könül,yaşa könül.

Işıq saçan mirvari,dürr
Şö`lən ilə qəlbi güldür.
Sevdiyin ilə ömür sür,
Gəz çəməni qoşa.könül.
Yaşa könül,yaşa könül.

Qəm yeli səni sıxmasın,
Kədər əlini sıxmasın.
Arzum budur heç çıxmasın,
Ümidlərin boşa könül.
Yaşa könül,yaşa könül.

Sevənlər göz yaşın silə,
Sevdiyinin qədrin bilə.
Şair qəlbi fərəh ilə,
Sevinc ilə coşa.könül.
Yaşa könül,yaşa könül.

Sən dünyanın Sevincisən,
Şeriyyətdə birincisən.
Bir mirvarı,bir incisən,
Aıdanma qaş-daşa,könül.
Yaşa könül,yaşa könül.

Sevinc Arzulu

**Yaşa, dünya**

DÜNYA ( S.Vurğuna)

Olum ölüm ilə əl-ələ gəzir,
Insanlar içində vəlvələ gəzir.
Yenə od püskürür, zəlzələ gəzir,
Düşmüşük yamanca təlaşa, dünya.

Gah gözü alasan, gah da qonursan,
Bizi yandırırsan, özün donursan.
Əvvəlcə sıxırsan, sonra yonursan,
Etmisən bizləri talaşa, dünya.

Insana bir dəfə verilir həyat,
Onu yaşamırıq şadlıqla,heyhat.
Yolumu gözləyir sonsuz kainat,
Aylı-ulduzlu göy tamaşa, dünya.

Sahilə sığmayan dəniz olmuşam,
Kədərli, qüssəli bəniz olmuşam.
Vəfasız həyata kəniz olmuşam,
Mənə də şənliklər yaraşa, dünya.

Şair libasını geyibdir Vurğun,
Halalca çörəyin yeyibdir Vurğun.
Sözün yaxşısını deyibdir Vurğun,
"Biz gəldi-gedərik, sən yaşa,dünya.

Sevinc Arzulu

**Yaşadırmeni**

Gecenin ayazı,
Ölümün bəyazı,
İnsanın dayazı,
Üşüdür beni.

Astaca esen meh,
Gül üste düşen şeh,
Tek-tenha gezen ruh,
Eşidir beni.

Şemimi alqışlar,
Ömrüme naxışlar,
Sevdalı baxışlar,
Yaşadır beni.

Sevinc Arzulu

**Yaşam bu gece qezel**

Dərdimi şama desəm, tez sönəcək şam bu gecə,
Nə su içmiş,nə də ki eyləmişəm şam bu gecə.
Eşqinin gücündən,ey gül, gur axan sel olmuşam,
Çıxıban yatağımdan bəndimi daşam bu gecə.

Işğal olub dörd yanım,düşmüşəm əsiri-kölə
Həsrət,hicran səddini bəs necə aşam bu gecə.
Inan didir qəlbimi amansız şübhə- gümanlar,
Sənilə görüşək gəl elə bu axşam,bu gecə.

Alıb ağlımıl başdan dəli edir sənsizliyin,
Az qalır düz yolumu unudub çaşam bu gecə.
Durub ayna önündə bəzənibən gözəlləşim,
Qonağım olacaqdır sultani-paşam bu gecə.

Durmuşam altında mən güclü yağan ağ yağışın,
Iliyədək islanıb nəmliyəm,yaşam bu gecə.
Əgər "hə" əvəzinə bircə kəlmə "yox" söyləsən,
Itirər mə`nasını həyatla yaşam bu gecə.

Gülüm,göz qabağında çağlayan göy Xəzər olsan,
Dönüb mavi dalğaya fərəhdən coşam bu gecə.
Sevincəm ,məhəbbətin məni  şair eyləyibdir,
Sənin eşqinlə gərək seirlər qoşam bu gecə.

Sevinc Arzulu

**Yaşam indi**

Qoydun zülmün binasını,
Öldürdün eşq sonasını.
İtiribdir menasını,
Gülüm, heyat –yaşam indi.

Çatılıb qemden qaşlarım,
Parlamayır daş-qaşlarım.
Leysan kimi göz yaşlarım,
İslanmışam, yaşam indi.

Unudulmaz ötenler heç,
Günahımdan, ne oar, keç.
İkimizden birini seç,
Ya men yanım, ya şam indi.

Sevinc Arzulu

**Yaşamaq isteyirem**

Düyün düşüb tale ilməm,
Qapı açıq,gedə bilməm.
Göz yaşımı nədən silməm,
Mən yaşamaq istəyirəm.

Görmədilər bol azımı,
Sındırdılar ol sazımı.
Kim yazdı alın yazımı,
Mən yaşamaq istəyirəm.

Qara gəldi bəxtim belə,
Ağ dən düşdü sarı telə.
Dönüb daim axan selə,
Mən yaşamaq istəyirəm.

Sevinc Arzulu

**Yaşanıb gedenler**

Hərdən taleyimin pəncərəsindən,
Boylanıb baxıram dağlara sarı.
Işıq, güc alıram hər zərrəsindən,
Günəş əridibmi görəsən qarı...

Dolanma qəlbimin dərinliyində,
Görüb eləyərlər, sonra söz olar.
Könlümün əbədi sərinliyində,
Sənsizlik sönməyən atəş-köz olar.

Yaşanıb gedənlər bir atım deyil,
Könlümdə özünə yuva quracaq.
Bilirəm, etdiyim səhv addım deyil,
Məhəbbət ayaqda dimdik duracaq.
28.06.2018

Sevinc Arzulu

**Yaşaran gözlerimi**

Az özgəyə meyl elə.
Şəri unut, xeyr elə.
Bircə anlıq seyr elə
Yaşaran gözlərimi.

Göz yaşını silər kim,
Üzümüzə gülər kim.
Alışdıra bilər kim,
Işaran közlərimi.

Yar küsə, dindirməyə,
Özünü endirməyə.
Geriyə döndərməyə,
Başaran sözlərimi.

Sevinc Arzulu

**Yaşaya bilmeyeceksen**

Şirin vüsalımın qedrin bil,gülüm.
Ayrılıq sözünü unut,sil gülüm.
Menimle birlikde sen de gül,gülüm.
Başqa vaxt ürekden gülmeyeceksen.
Sen mənsiz yaşaya bilmeyeceksen.

Herden çekir bizi sınağa həyat,
Herden qırış salır yanağa həyat.
Baxmayır tanışa,qonağa həyat.
Bir daha dünyaya gelmeyeceksen.
Sen mensiz yaşaya bilmeyeceksen.

Sensiz dünya mene ebedi sürgün,
Yolunu gözlerem gözleri süzgün.
Dünyadan gedəri olsan da bir gün,
Menimçün heç zaman ölmeyeceksen.
Sen mensiz yaşaya bilmeyeceksen.

Çalış,emelinle xarüqe yarat,
Bize birce defe verilir heyat.
Meni unutmağa çalışsan,heyhat.
Sevinci,kederi bölmeyeceksen.
Sen mensiz yaşaya bilmeyeceksen.

Men idim sakitin,men idim dincim,
Men idim mirvarin,men idim incin.
Itirə bilmezsen daha Sevinci,
Itirsen,göz yaşın silmeyeceksen.
Sen mensiz yaşaya bilmeyeseksen.

Sevinc Arzulu

**Yaşayır**

Xəyalım çapacaq sema boyunca,
Axtarıb ruhunu tapacaq yəqin.
Söhbet edecekler birge doyunca,
Dünya mehverinden qopacaq yəqin.

Seninle danışıb gülmesem de men,
Yaralı qelbimde adın yaşayır.
Dünyanı terk edib ölmesem de men,
Qaraya bürünmüş qadın "yaşayır".

Sevinc Arzulu

**Yaşıl torpaq**

Bir özüməm, bir mənəm,
Bir də qaranlıq kölgə.
Mən azadlıq bilmənəm,
Azaraq gələ bəlkə.

Hey başımın üstündə
Qara bulud oynayır.
Niyə bəs qaranlıqlar,
Göz yaşından doymayır?

Hanı madyan atları,
Torpaq qara deyilmiş.
Bəzəyibdir otları
Torpaq yaşıl geyinmiş.
29.04.2018

Sevinc Arzulu

**Yaşına çatır**

Nədən belə itirirəm özümü,
Ürəyimdə saxlayıram sözümü.
Kimdən alım iradəni,dözümü.
Səni görcək ağlım çaşır,qəşəng qız.

Şirin dilli,ay üzlü nigarımsan,
Lalə yanaq,göy gözlü nigarımsan.
Həm işvəli,həm nazlı nigarımsan,
Qəlbdə daim adın yaşar.qəşəng qız.

Sən könlümün bir parası olmusan,
Gözlərimin ağ-qarası olmusan.
Bir tükənməz məcarası olmusan,
Eşqin ilə çaylar daşar,qəşəng qız.

Soruşurlar,niyə belə qəmliyəm,
Niyə ağlayıram,gözü nəmliyəm.
Mən sevən insanam,vüsal dəmliyəm,
Ürəyim Xəzər tək coşar,qəşəng qız.

Sənin ilə ünsiyyətdən doymadım,
Baxışdakı şeriyyətdən doymadım.
Gözlündəki məhəbbətdən doymadım,
Şair sənə şeir qoşar,qəşəng qız.

GÜCÜM ÇATIR in

Sən getdin,əbədi ayrıldın məndən,
Dağam,ayrı düşdüm dumandan,çəndən.
De.necə ayrılım,əl çəkim səndən,
Gücüm gözlərimin yaşına çatır.

Təbəssümlü deyil,qəmli baxışım,
Üşüyürəm,yağır leysan yağışım.
Naxışınla birləşmədi naxışım,
Gücüm gözlərimin yaşına çatır.

Sevmək və unutmaq-böyük cinayət,
Xatirələr indi acı rəvayət.
Sən də ağla,desəm qəmli hekayət,
Gücüm gözlərimin yaşına çatır.

Şair tək yaşadım,unudulmadım.
Yadımdan çıxmadın sən,unutmadım.
Eşqini heç zaman ucuz tutmadım,
Gücüm gözlərimin yaşına çatır.

Sevgi dolu aləmisən Sevincin,
Vüsal dolu xoş dəmisən Sevincin.
Həm kədəri,həm qəmisən Sevincin,
Gücü gözlərinin yaşına çatır.

Sevinc Arzulu

**Yaşındı**

Yağış izini örtdü,
Torpaq dizini örtdü.
Vüsal üzünü örtdü,
Ayrılıqdan yaşındı.

Yoluyla gedir zaman,
Heç vermir bize aman.
Haray-heşirdi yaman,
Yaram yeri qaşındı.

Buraxıb cah-celalı,
Sevdim derdi-melalı.
Gördü başım belalı,
Qem fikrinden daşındı.

Üstüne hey su damır,
Derd unum oldu xamır.
Yupyumşaq yaşıl mamır,
Bu qayanın, daşındı.

Men tarixe davamam,
Qocalığı qovamam.
Sen ha de ki, cavanam.
Son söz elli yaşındı.

Sevinc Arzulu

**Yaşınır**

Həsrət yenə dul gələcək,
Ayrılığa qul gələcək.
Eh, deyəsən pul gələcək,
Əlimin içi qaşınır.

Dünya durar dollar üstdə,
Kəpənəklər kollar üstdə.
Bu uzanan yollar üstdə,
Hey əkin-biçin daşınır.

Bəyaz çiçək xatirələr,
Gözəl-göyçək xatirələr.
Məni görcək xatirələr
Bilmirəm  neyçün yaşınır.

21.11.2017

Sevinc Arzulu

**Yaşıqurtarmaz**

Əlimi uzatsam əlinə yetməz,
Adın ürəyimə həkk olub. itməz.
Nə qəlbimin qəmli sevdası bitməz,
Nə də ki gözümün yaşı qurtarmaz.

Sən bir sarvan oldun hicran köçündə,
Əridin həsrətin sonsuz heçində.
Əbədi qalacam dərd-qəm içində,
Məni bu kədərdən naşı qurtarmaz.

Kipriklər oxdursa, qaş yaya bənzər,
Camalın nur saçan bir aya bənzər.
Bu dünya çınqıllı qayaya bənzər,
Şeytana atılan daşı qurtarmaz.

Sevinc Arzulu

**Yaşlanmayıb deyesen**

Hər sevgi şerindən bir misra yeyib,
Özgədən  danışıb, özündən deyib.
Xatirən yamanca al-əlvan geyib,
Mənim kimi yaşlanmayıb deyəsən.

Yenə də qapımı döyür ayrılıq,
Görüşü astaca söyür ayrılıq.
Özünü yamanca öyür ayrılıq,
Şeytan təkin daşlanmayıb deyəsən.

Taleyim, sən mənə ağ libas toxu,
Bəxtindən yarımır sevənin çoxu.
Fələyin özü tək qapqara oxu,
Pis insana tuşlanmayıb deyəsən.
18.12.2018

Sevinc Arzulu

**Yaxasından keçirdib**

İgidlerim halay vurar, say-seçmez,
Ümidlerim alay qurar, yay seçmez.
Buludlarım lay-lay durar, ay keçmez
Tanrı meni yaxasından keçirdib.

Min suala tekce kelme cavab yox,
Ellerilinde birce bölme savab yox.
Inden bele daha mene zaval yox,
Tanrı meni yaxasından keçirdib.

Ya İlahi, men hazıram sorğuya,
Çün bilirem. men deqiqem, doğruyam.
Izn vermez ezab çekem, ağrıyam
Tanrı meni yaxasından keçirdib.

Sevinc Arzulu

**Yaxın refiqem**

Hicrin derdine qalaraq,
Keder neğmesi çalaraq,
Ayı, ili borc alaraq,
Günleri verdim sedeqe.

Qem çiçeyi dinc bitmeyir,
Yeri daim münc, itməyir.
Gözümü heç incitmeyir,
Severek baxdım  şefeqe.

Suyu serin çeşmen oldum,
Qehri udan eşmen oldum.
Hesretine düşmen oldum,
Vüsalın yaxın refiqem.
16.10.2018

Sevinc Arzulu

**Yaxşı at**

Qış gününde Mil düzünde qar hanı,
Tanrı niye qara edib qarğanı.
Bilsen nedir ol igidin qalxanı,
Yaxşı tüfeng,yaxşı arvad,yaxşı at.

Eh,ezelden qızıldandır direyin,
Taxta-tuxta olmaz daha gereyin.
Isteyirsin yumşaq çıxsın çöreyin,
Yaxşı ele,yaxşı elen,yaxşı qat.

Divar çökse havada tavan qalar,
Yağ yaxmasan qismetin yavan qalar.
Isteyirsin ruhun ter,cavan qala
Yaxşı geyin.yaxşı xercle,yaxşı yat.

Xain qonşu çıxmasın heç urzuna,
Haram eller uzanmasın ruzuna.
Qelbindeki isteyine,arzuna
Yaxşı qaç-qoş,yaxşı yüyür,yaxşı çat.

Ana qelbi sözündence ilinir,
Qüsse-qemi gözündence silinir.
İlk baxışın özündence bilinir,
Yaxşı soy-kök,yaxşı nesil,yaxşı zat.

Sevinc Arzulu

**Yaxşı olacaq**

Yuvasından üzülən,
Yanağına düzülən,
Gözlərindən süzülən,
Qəm yağışı olacaq.

Göz yaşıdır tökdüyüm ,
Qəlb evidir sökdüyüm.
Mənim zərlə tikdiyim,
Eşq naxışı olacaq.

Sözümdən çıxma,gülüm
Evimi yıxma,gülüm.
Qəlbini sıxma,gülüm
Hər şey yaxşı olacaq.

Sevinc Arzulu

**Yaxşıdır**

Dere keçib dağlar aşan arzular,
Xeyallarla vidalaşan arzular.
Zaman-zaman qatarlaşan arzular,
Sel-sulara qarışmasa yaxşıdır.

Ucalıqdan özü enen mehebbet,
Azca mehden közü sönen mehebbet.
Senin kimi üzü dönen mehebbet,
Ayrılıqla barışmasa yaxşıdır.

Kül qoxuyur kainatın havası,
Yel dağıtdı bülbülün gül yuvasın.
Sevdiyinin kim çox çekib cefasın,
Sevdiyimle yarışmasa yaxşıdır.

Sevinc Arzulu

**Yaxşılıq et**

Dünyanın ən uzun körpüsü məncə,
Yamanla yaxşının üstdə qurulub.
Heç zaman getmə gəl bu yolu tərsə,
Yaxşılıq üstündə lil su durulub.

Sən də yaxşılıq et, axirət qazan,
Yerin o dünyada cənnətlik olsun.
Sən ey pul qudurdub yolunu azan,
Qoyma ki kimsənin gözləri dolsun.

Bilirsən, dağ boyda fərəh gətirər,
Sənin eylədiyin kiçicik savab.
Səni qıl körpüdən tezcə ötürər,
Daha asan keçər son sual-cavab.
12.09.2018

Sevinc Arzulu

**Yaylım ateşi**

Olmasan sönecek parlaq güneşim,
Minde bir zerresi qelbime hopar.
Senin şerefine yaylım ateşi,
Benim şerefime alqışlar qopar.

Seni son menzile yola salanda,
Ağladı deniz de,dağ da ezizim.
Torpaq öz oğlunu tehvil alanda,
Qaraya çevriler ağ da,ezizim.

Dünyanın belece gedişatına,
Ne sen günahkarsan,ne ben günahkar.
Tez mindin ecelin gümüş atına
Ömrünün yolunu kesen günahkar.

Kim olacaq gözlerinin yuxusu,
Kimi xoşbext edeceksen röyada.
Deyen gelir vüsalın bal qoxusu,
Ondan gözel etir varmı dünyada.

Dönme,gülüm,qalmayıbdır geri yol,
Bilsen eşqin elifbası nedir,ne.
Get özünçün çek ayrıca yeni yol,
Lal hesretin al libası efsane.

Sevinc Arzulu

**Yaylım ateşi**

Olmasan sönəcək parlaq günəşim,
Mində bir zərrəsi qəlbimə hopar.
Sənin şərəfinə yaylım atəşi,
Mənim şərəfimə alqışlar qopar.

Səni son mənzilə yola salanda,
Ağlayar dəniz də, dağ da, əzizim.
Torpaq övladını təhvil alanda,
Qaraya çevrilər ağ da, əzizim.

Dünyanın beləcə gedişatına,
Nə sən günahkarsan, nə mən günahkar.
Tez  mindin əcəlin gümüş atına
Ömrünün yolunu kəsən günahkar.

Sevinc Arzulu

**Yaz yağışı**

Üzümü söykəyib yaz yağışına,
Dərdimi danışıb ağlayıram mən.
Elə möhtacam ki bir alqışına,
Sulara qoşulub çağlayıram mən.

Bilmədi qədrimi mənim o cavan,
Çəkdiyim ahlara layiqmi? Bilməm.
Ona bal yedirtdim, özümsə yavan
Harda düyün düşdü analıq ilməm?

Ona yad diyardan qız seçəndəmi?
Ya özgə qızını gəlin edəndə?
Günah düz yolunu tərs keçəndəmi,
Ya haqsız sözləri dəli edəndə.

Içimi yandıran bu göynəmələr,
Səni yandırmasın ömrün uzunu.
Qəlbimə vurduğun acı döymələr,
Əritməz həsrətin şaxta-buzunu.

Kim çəkdi araya bu Çin səddini,
Mənim tək iztirab çəksin bir zaman.
Adlaya bilmirəm qanun həddini.
Allahın cəzası olacaq yaman.

Üzünə gülürəm soruşanların,
Ağrıya-acıya dolub yemişəm.
Ana-bala kimi qovuşanları,
Haladır onlara qəlbən demişəm.
11.11.2017

Sevinc Arzulu

**Yaz yağışları**

YAZ  YAĞIŞLARI

Şehli al leçeyin tozun axtarır,
Sevgili çiçeyin izin axtarır.
Bir üzü göyçeyin özün axtarır,
Yollara boylanır yaz yağışları.

Kederi özüyle daşıyıb qalıb,
Derdini tekcene yaşıyıb qalıb.
Yerle göy arası üşüyüb qalıb,
Yollara boylanır yaz yağışları.

YAZ  YAĞIŞLARI

Şehli al leçeyin tozun axtarır,
Sevgili çiçeyin izin axtarır.
Bir üzü göyçeyin özün axtarır,
Yollara boylanır yaz yağışları.

Kederi özüyle daşıyıb qalıb,
Derdini tekcene yaşıyıb qalıb.
Yerle göy arası üşüyüb qalıb,
Yollara boylanır yaz yağışları.

Daha da gur yağır külek esende,
Qeribe dönürüm yağış kesende.
Benim tekin zemaneden küsende,
Yollara boylanır yaz yağışları.
2.10.2013

Sevinc Arzulu

**Yaz yağışları boylanır**

Şehli al ləçəyin tozun axtarır,
Sevgili çiçəyin izin axtarır.
Bir üzü göyçəyin özün axtarır,
Yollara boylanır yaz yağışları.

Kədəri özüylə daşıyıb qalıb,
Dərdini təkcənə yaşıyıb qalıb.
Yerlə göy arası üşüyüb qalıb,
Yollara boylanır yaz yağışları.

Daha da gur yağır külək əsəndə,
Qəribə dönürəm yağış kəsəndə.
Mənim təkin zəmanədən küsəndə,
Yollara boylanır yaz yağışları.
2.10.2013

Sevinc Arzulu

**Yazan vaxtıdır**

Bir məclisə yaraşıq,
Öz sazına yar aşıq.
Dağa düşər gur işıq,
Qarda azan vaxtıdır.

Sanki “Segah”,sanki “Şur”,
Səpilər qəlbə ağ nur.
Yerə çök,dizüstə dur
Indi əzan vaxtıdır.

Dünya böyük dairə,
Və ilaxır,sairə.
Toxunmayın şairə,
Şeir yazan vaxtıdır.

Sevinc Arzulu

**Yazılan dünya**

Qeddini eyib de yorğun gedirsin,
Bir kimse görmeyir,oğrun gedirsin.
Neden qaranlığa doğru gedirsin,
Işığı gözümde azalan dünya.

Ulduzlu kainat sertmi dindirib,
Qoyub qabağına şertmi dindirib.
Yaralı könlünü derdmi dindirib,
Nur üzü gün-günden sozalan dünya.

Istisi olmayan köz olacaqsan,
Qiymetden tez düşen söz olacaqsan.
Bir gün de eriyib toz olacaqsan,
Bextine yox olmaq yazılan dünya.

Sevinc Arzulu

**Yazmışam deme**

Qelbimde ne qeder arzu besledim,
Xülyalar içinde azmışam deme .
Sevinci, ferehi tez-tez sesledim,
Erköyün böyümüş nazmışam deme .

En uca zirveni ala bilmedin,
Menim tek xeyala dala bilmedin.
Sen menim könlümü çala bilmedin,
Simleri qırılmış sazmışam deme .

Lekesiz, ağappaq saf qar olacam,
Aşiqe en sadiq bir yar olacam.
Sanırdım, ebedi bahar olacam,
Çiçeyi tez solmuş yazmışam deme .

Sevinc Arzulu

**Yeganem**

Neçə ilin dostuyuq,
Iki əsrin bacısı.
Gözəl şeir tostuyuq,
Şirindir, yox acısı.

Yeganə müəllimə,
Deyir sənə uşaqlar.
Sən ömrümdə zər ilmə,
Yaxın olsun uzaqlar.

Mənim əziz rəfiqəm,
Uşaqlığın sirdaşı.
Ad günün xoş dəqiqəm,
Mübarəkdir hər yaşın.

Təbrik edirəm səni,
Cani-dildən, Yeganəm.
Billəm, sevirsən məni,
Min könüldən, Yeganəm.

Bir zamanlar necə şən,
Günümüz olub bizim.
Ildir yarpaq tək düşən
Xoşbəxt ol, ay əzizim.

Sevinc Arzulu

**Yenemi eydi**

Soyumuş közdən də yandın, alışdın,
Acı taleyinlə küsdün, barışdın.
Üzünü dənizə tutub danışdın,
Göy sular əksini yenəmi əydi.

Ürəkdə qalmasın arzu-diləklər,
Qızıla bürünsün bəyaz biləklər.
Yamanca bərk əsdi acı küləklər,
Həsrətin sərt üzü yerəmi dəydi?

Gözümdən itsəydi verərdim nəzir,
Baxışı könlümü yamanca əzir.
Burnunu yuxarı tutub da gəzir,
Bu qara ayrılıq özündən bəydi.
30.04.2018

Sevinc Arzulu

**Yeni misralar**

Tutub İlahinin nicat elinden,
Yol alıb gedirem arzuya sarı.
Tebiet ferqlenmir nazlı gelinden,
Ey qelem, sen de bu mövzuya sarıl.

Çəkir üreyimi qumlu sehralar,
Könlüme teperdir yamyaşıl meşe.
Alnıma yazılan bu qeder ki var,
Menimçün yaradıb sehirli guşe.

Burada Vurğunun nefesi vardır,
Yaz-yarat söyleyir mene her zaman.
Şairin şeire hevesi vardır,
Yepyeni misralar doğulur, aman.
20.04.2018

Sevinc Arzulu

**Yer**

Yer üzünün cezasın,
Göy üzü sert verecek.
Ona yağış,dolu kimi
Bir afet gönderecek.

Belke onda dünya bir az
Utanıb qızaracaq.
Tellerinin ucun hören
Ağıllı qız olacaq.

Bir terefden dolsa da hey,
Bir terefden boşalır.
Yaxşıların yeri her vaxt,
Bu dünyada boş qalır.

Sevinc Arzulu

**Yerine**

Üzüyün barmağa takıncası yok,
Gözümün yaşının akıncası yok.
Bilirim,sana bir sakıncası yok,
Ümidim boylanır güneş yerine.

Axı ben ne dedim dili çürümüş,
Felek bunca beni yerle sürümüş.
Her yanı bir yanıq etri bürümüş.
Üreyim odlanır ateş yerine.

Şirin xatireler yanlamır beni,
Etdiyim sehf üçün danlamır beni.
Oduna yandığım anlamır beni,
Görürsün,qoymayır heç eş yerine.

Sevinc Arzulu

**Yerini vermez**

Nədəndir gözlərim yaş ilə dolu,
Nədən ürəyimin həniri gəlməz.
Nədəndir  sözlərim "kaş" ilə dolu,
Kimsə sevdiyinin yerini verməz.

Qəmlidir bir zaman gülən baxışın,
Eh, hicran yaman tez qapını döydü.
Yağmasın gözündən payız yağışı,
Nə torpaq qaradır, nə səma göydür.

Kimin ürəyini alıb aparıb,
Ayrılıq havası çalan musiqi.
Qəlbimdə qasırğa,  tufan qoparıb,
Məni bu hallara salan musiqi.
02.05.2017

Sevinc Arzulu

**Yerleşmedi, neyneyim**

Hicrandandır,həsrətdəndir qorxumuz,
Elə geri fırlandı bəxt çarxımız.
Böyümədi,enləşmədi arxımız,
Arazlaşıb Kürləşmədi,neynəyim.

Qəlb ağacım libas geyib xəzəldən,
Söz-söhbətim müxəmməsdən,qəzəldən.
Ulu Tanrım belə yazıb əzəldən,
Taleyimiz birləşmədi,neynəyim.

Şimşək olub göy səmamda çaxdılar,
Lal könlümü yandırıban yaxdılar.
Dərd-sərimi suya verdim,axdılar
Ürəyimə yerləşmədi,neynəyim

Sevinc Arzulu

**Yetir mene,ay qızım**

Biz günəşin zərrəsindən yarandıq,
Gilavarın əllərilə darandıq.
Gecə zülmət, gecə yaman qaranlıq,
Aydınlığı gətir mənə, ay qızım.

Ürəyim doludur yüz arzu, kamla.
Kədərdən qorunmam min istehkamla.
Gənclik güclü olur, lap bircə damla,
O gücündən ötür mənə, ay qızım.

Çoxdandır ki.ipək telin burmuram,
Öz əlimlə ona ətir vurmuram.
Bilirsən ki.səndən ayrı durmuram,
Tez özünü yetir mənə, ay qızım.

Sevinc Arzulu

**Yetmedimmi**

Külək sənin adın yaya,
Eşqimizin odun yaya.
“Mənlə birgə o dünyaya,
Gedək”-dedin,getmədimmi.

Həsrətin təməli daşdan,
Bəzək vur üstünə qaşdan.
“Bu dəli sevdanı başdan
Edək”-dedin,etmədimmi.

Xəyalıma əl çalına,
Qəmdən dərdə yol salına.
“Ayrılığın vüsalına,
Yetək”-dedin,yetmədimmi.

Sevinc Arzulu

**Yetmeyim**

Qında kəsər qılıncın da,
Islanmaz ki balıncın da.
Durmuşam yol ayrıcında,
Sənə gedim, ya getməyim.

Sən bir sevda müfəttişi,
Çoxmu sevirsən təftişi?
Əmr etməkdir yalnız işin.
Əməl edim, ya etməyim

Nə deyim alın yazıma,
Kim dözər işvə nazıma.
Qəlbimdəki murazıma,
Indi yetim, ya yetməyim?

Sevinc Arzulu

**Yığmışam**

Qüssesiz gün olmayıb ki,neyneyin,
Hesret gülü solmayıb ki neyneyim.
Birce bade dolmayıb ki neyneyim,
Sevenleri kölge -kölge sıxmışam.

Bir yanında tufan olub,qar olub.
Bir yanında cığır bene dar olub.
Göylerinde şahin olub,sar olub
Bu dağları bölge-bölge çıxmışam.

Eşq dersinde layiq oldum beşe ben,
Hekk eyledim adın könül şüşeme.
Bir baş çek sen benim canlı guşeme,
Xatireni cerge -cerge yığmışam.

Sevinc Arzulu

**Yıxa derdimi**

Qiyməti yox imiş bir ovuc ləlin,
Həsrət bəy,hicransa nazənin gəlin.
Nə olar,insanlar yığışın gəlin,
Çıxardın əbədi yoxa dərdimi.

Vüsala "Yanımdan keç"-demirəm ki,
Fərəhə"Sən məni seç"-demirəm ki.
Möhnəti.kədəri heç demirəm ki,
Ayrılıq əlini sıxa dərdimin.

Heç haqqın yoluna gəlməyirəm mən,
Həsrətin tozunu silməyirəm mən.
Bir kiçik fənd belə bilməyirəm mən,
Sevincim böyüyüb yıxa dərdimi.

Sevinc Arzulu

**Yıxacağam**

Düşeydi kaş dara derdi,
Oismet olsun xara derdi.
Ağardaraq qara derdi,
Axırına çıxacağam.

Vüsal eşqe duz olsa da,
Hesret varlı,tuz olsa da.
Hicran soyuq buz olsa da,
Ellerimle sıxacağam.

Yox anlayanı,duyanı
Laylası ile uyanı.
Zindan etse de dünyanı,
Zülmün evin yıxacağam.

Sevinc Arzulu

**Yol göster**

Sayar qepik-quruşumu,
Felek yeyer xuruşumu.
Seyr et xarla vuruşumu,
Tanrı,bene bir yol göster.

Her terefim kül asımı,
Dolu döydü gül yazımı.
Kimden alım qisasımı,
Tanrı,bene bir yol göster.

Adi qumdan tökülüb him,
Qüsse çalar hey sarı sim.
Dostum kimdir,düşmenim kim
Tanrı,bene bir yol göster.

Sevinc Arzulu

**Yol  üstünde**

Ay işığı günden küsüb.
Xatireler dünden küsüb.
Vüsal yene benden küsüb,
Oturubdur yol üstünde.

Qem zemisi biçilmir ki,
Axmaz sular içilmir ki.
Heç çiçekden seçilmir ki,
Kepenekler kol üstünde.

Ellerini şehle yuyub,
Yeqin şirin söze uyub.
“Ol”üm başın yere qoyub,
Dava gedir “Ol” üstünde.

Sevinc Arzulu

**Yol ayrıcında**

Yaman şeirbazmışam,
Bir az sehirbazmışam.
Deyen sensiz azmışam,
Qaldım yol ayrıcında..

Daim soyuq, yağar qar,
Ağaclar yox, vere bar.
Sirli möcüzeler var,
Dünyanın o ucunda.

Ferehi itirirem,
Qüsseni bitirirem..
Payımı götürürem,
Senin könül acından.
19.02.2017

Sevinc Arzulu

**Yol gederem**

Qoruyaram mənliyimi,
Həyatsevər şənliyimi.
Verin ömür tənliyimi.
Astaca həll edərəm.

Dərdimi dedim suya,
Özümə gəldim guya.
Nə verməliyəm dünya,
Mən borcumu ödərəm.

Dağ-arana baxmaram,
Ağ-qarana baxmaram.
Qar-borana baxmaram,
Vüsala yol gedərəm.
15.08.2014

Sevinc Arzulu

**Yol gelir  hele**

Yaramın qaysağın astaca soydu,
Felek al qanımı içmekle doydu.
Seni 41 yaşın yarıda qoydu,
Benim 50 yaşım yol gelir hele.

Senin mezarını tebiet qazmış,
Üstüne bir kelme adını yazmış.
Ayrılıq burda da deyesen azmış,
Mermeri başdaşım yol gelir hele.

Derdin varlığına şübhem olmayıb,
Sevgi nağılımız mübhem olmayıb.
Qanayan yarama melhem olmayıb,
Xatire sirdaşım yol gelir hele.

Sevinc Arzulu

**Yol üsteyem**

Çiçək dolu bir guşəyəm,
Yaşıl,canlı gur meşəyəm.
Boynubükük bənövşəyəm,
Solmamışam,kol üstəyəm.

Olacaq xoş çağım mənim,
Gül açıbdır bağım mənim.
Zəif düşüb sağım mənim,
Onunçun də sol üstəyəm.

Işlərimə qarışmayın,
Düşmənimlə barışmayın.
Saxlamağa çalışmayın,
Gedəriyəm,yol üstəyəm.

Sevinc Arzulu

**Yollar görünmür**

Səhər yuxusundan tezdən oyan, qal
Günəşin rənginə sən də boyan, qal.
Dörd yanı bürüyüb  ot, tikan-qanqal,
Qızılgül ətirli kollar görünmür.

Suların örtüyün büzür gəmilər,
Sis-duman içində üzür gəmilər,
Intizar içində üzür gəmilər,
Adadan adaya yollar görünmür.

Hicranın daşına çıxıb durmusan,
Vüsalın evini yıxıb durmusan.
Nədəndir köksünə sıxıb durmusan,
Məni qucaqlayan qollar görünmür.
14/11/2017

Sevinc Arzulu

**Yollara boylanır.**

Şehli al leçeyin tozun axtarır,
Sevgili çiçeyin izin axtarır.
Bir üzü göyçeyin özün axtarır,
Yollara boylanır yaz yağışları.

Kederi özüyle daşıyıb qalıb,
Derdini tekcene yaşıyıb qalıb.
Yerle göy arası üşüyüb qalıb,
Yollara boylanır yaz yağışları.

Daha da gur yağır külek esende,
Qeribe dönürem yağış kesende.
Menim tekin zemaneden küsende,
Yollara boylanır yaz yağışları.
2.10.2013

Sevinc Arzulu

**Yolubdu**

Azaldı sellerimiz,
Köç etdi ellerimiz.
Ağaran tellerimi,
Külek bir-bir yolubdu.

Alışdıq köz üstünde,
Barışdıq göz üstünde.
Atışdıq söz üstünde,
Hesab bir-bir olubdu.

Gün-günden artır cebrim,
Qazılacaq daş qebrim.
Daha qalmayıb sebrim,
Kasam bir-bir dolubdu.
03.11.2013

Sevinc Arzulu

**Yonub, gülüm**

Günə doğru qaçmayacaq,
Min bir ətir saçmayacaq.
Daha çiçək açmayacaq,
Ümidlərim donub, gülüm.

Baxma hədər ağacıma,
Su tök qədər ağacıma.
Mənim kədər ağacıma,
Hicran özü qonub, gülüm.

Yel aparar göy tüstünü,
Şeh örtübdür gül üstünü.
Ağ mərmərdən qəm büstümü,
Tanrı əli yonub, gülüm.

Sevinc Arzulu

**Yora meni**

Yolumuz düşə dağa,
Boylanaq sola-sağa.
Bir narın yağış yağa,
Yaş  yollar yora məni.

Quş tək qanad açaraq,
Xəyallarda uçaraq
Məni bərk-bərk qucaraq,
Daş qollar yora məni.

Yalan ilə yox aram,
Həqiqət ilə varam.
Al qızılgül axtaram,
Kaş kollar yora məni
23.03.2013

Sevinc Arzulu

**Yorar  beni**

Gözden uzaq bir yerdeyem,
Ildırımlar sarar beni.
Ne göydeyem,ne yerdeyem
Sıldırımlar arar beni.

Ay ömrümün yaraşığı,
Bir dövranı var aşığın.
Ömre düşen qem işığı,
Qılınc tekin yarar beni.

Allah,en sadiq bendenin
Ruhsuz qalıbdır bedeni.
Tek-tenha qoyub gedenim,
Gören kimden sorar beni.
Terk-dünyalıq yorar beni.

Sevinc Arzulu

**Yorar beni**

Gözden uzaq bir yerdeyem,
Ildırımlar sarar beni.
Ne göydeyem,ne yerdeyem
Sıldırımlar arar beni.

Ay ömrümün yaraşığı,
Bir dövranı var aşığın.
Ömre düşen qem işığı,
Qılınc tekin yarar beni.

Allah,en sadiq bendenin
Ruhsuz qalıbdır bedeni.
Tek-tenha qoyub gedenim,
Gören kimden sorar beni.
Terk-dünyalıq yorar beni.

Sevinc Arzulu

**Yorğun düşer**

Nəyin var xar isitcək,
Soyuğunda üşütcək.
Yalanını eşitcək,
Yadıma doğrun düşər.

Nə göydəyəm, nə yerdə,
Bəxt bildiyin edir də.
Eh, bilmədin qədir də,
Araya çovğun düşər.

Hara uçub xəyalın,
Azalmır dərd-məlalın.
Unudulmuş camalın,
Fikrimə oğrun düşər.

Qələm-kağız götürmə,
Imtahana ötürmə.
Elə ilk biletimə,
Sualın-sorğun düşər.

Dönüb qul-kənizlərə,
Qəm çölün təmizlərəm.
O qədər əzizlərəm,
Xatirən yorğun düşər.
19.07.2018

Sevinc Arzulu

**Yorğun imiş**

Gəlişinə aldanmışam,
Görüşünə aldanmışam.
Görnüşünə aldanmışam,
Gördüklərim ilğım imiş.

Hiyləni də bacarmadım,
Heç nəyi də bacarmadım.
Hörməyi də bacarmadım,
Hördüklərim yulğun imiş.

Dilimdə heç yalan olmaz,
Yaxşılara yaman olmam.
Düzlüyə göz yuman olmam,
Yorduqlarım yorğun imiş.

Sevinc Arzulu

**Yorğun xatireler**

Könlümə qəlb oğrum düşüb,
Həqiqətim,doğrum  düşüb.
Xatirələr yorğun düşüb,
Gör necə  yatışıblar.

Qulağımda  qalan səsdir,
Nur zərrəsi mənə bəsdir,
Hansı daha müqəddəsdir,
Deyişib atışıblar.

Yatmayıbmış qara çuxam,
Qədirbilməz ilə yoxam.
Əllərində mənim yaxam,
Uğrumda dartışıblar.
01.05.2018

Sevinc Arzulu

**Yorulmuşam**

Qırxa çatmayıb yaşım,
Yaman ağarıb başım.
Korşalıbdır yaddaşım,
Küləklə sovrulmuşam
Daha mən yorulmuşam.

Sən olmusan gərəyim,
Mənim arxa-dirəyim.
Tab gətirmir ürəyim,
Dər-qəmdən qovrulmuşam.
Daha mən yorulmuşam.

Ulduz kimi sönmüşəm,
Bir mələyə dönmüşəm.
Göydən yerə enmişəm,
Kədərdən yoğrulmuşam.
Daha mən yorulmuşam.

Sevinc Arzulu

**Yosun izlim**

Təpə keçir, yal aşır,
Gəzmək yaman yaraşır.
Ləpirləri yamyaşıl,
Ay mənim yosun izlim.

Ocağıma köz deyir,
Ayrılığa döz deyir.
Hər dəfə bir söz deyir,
Ay mənim mövsüm sözlüm.

Dadammıram bəhrindən,
Isinmirəm mehrindən.
Qaçammıram sehrindən,
Ay mənim ovsun gözlüm.
24.02.2015

Sevinc Arzulu

**Yosun örtüb**

Al libaslar geyməmişəm,
Dərdi yavan yeməmişəm.
Son sözümü deməmişəm,
Hələ basma üzəngini.

Lal könlümü qoparmısan,
Özünə tay taparmısan?
Ümidimi aparmısan,
Uzaqlara üzən gəmi.

Şən dənizi sevəmməzsən,
Ürəyini verəmməzsən.
Eh, dibini görəmməzsən,
Yosun örtüb üzərini.

Sevinc Arzulu

**Yox almışam**

Güli-gülzar seyran olub,
Tanrı baxıb heyran olub.
Yaralanmış ceyran olub,
Köksüm üstdən ox almışam.

Daha parlaq dürr deyiləm,
Kimsə üçün sirr deyiləm.
Elə bil ki bir deyiləm,
Mən artmışam, çoxalmışam.

Şeh kimi gülə düşmüşəm,
Sonayam, gölə düşmüşəm.
Leyli tək çölə düşmüşəm,
Sevdiyimdən "yox"almışam.

Sevinc Arzulu

**Yox imiş**

Bulud dolu su tökürsən közümə,
Rəhm etmirsən yaşla dolu gözümə.
And içirəm, inanmırsan sözümə,
Dünya , sənin e`tiqadın yox imiş.

Üz vermirsən qəfil gələn qonağa,
Yaxşılığa sən qoyursan qadağa.
Bir kimsəni çəkməyirsən qabağa,
Dünya, sənin e`timadın yox imiş.

Səndən dönsəm yəqin heç qınanmaram,
Sənə olan sevgimdə sınanmaram.
Daha şirin vədinə inanmaram,
Dünya, sənin e`tibarın yox imiş.

Sevinc Arzulu

**Yox olmadım**

Düşdüm qem ocağına,
Sığındım bucağına.
Çoxunun acığına,
Yox olmadım, olmadım.

Hesretin qeybetinden,
Derdindən, möhnetinden,
Sözünden, sehbetinden,
Tox olmadım, olmadım.

Ne deyim kederimdən,
Taleyi hederimden.
Ele öz qederimden,
Çox olmadım, olmadım.
12.12.2013

Sevinc Arzulu

**Yoxliğina alışmıram**

Yoxluğuna alışmıram, neynəyim
Ayrılığa necə dözüm, bilmirəm.
Həsrətinlə barışmıram, neynəyim
Günahkaram təkcə özüm, bilmirəm.

Aramızı kəsib uca qayalar,
Arasından keçməyə bir yol da yox.
Nolar, bizi Leyli-Məcnun sayalar,
"Yox"da varıq, ay əzizim, "Ol"da yox.

Çoxlarını yandırıbdır varlığım,
Yerlərini dar etmişəm bəlkə də.
Nə yaxşı ki varmış şeirkarlığım,
Bu yolda da az getmişəm bəlkə də.

Sənə neçə şeir, qəzəl yazmışam
Birini də oxumadın, əzizim.
Yollarında, izlərində azmışam,
Tək mənimçün yox olmadın,əzizim.

Istəməzdin məni üzsün qəm, kədər
Bir azacıq kölgə qonsun üzümə.
Çiling-ağac oynadı bizlə qədər,
Dərd toxumu səpdi əlvan düzümə.

Bu toxumlar nəm torpaqda qaraldı,
Amma yenə cücərdi, nə cücərdi.
Hey üstünü şaxta aldı, qar aldı
Fələk əkdiyini gözəl becərdi.

Görməyib qapqara açan gülləri,
Bir adəm balası məndən savayı.
Ömrümə qaranlıq saçan günləri,
Verirəm hicrana, alsın havayı.

Sevinc Arzulu

**Yoxluğunda**

Vüsalına uymadım,
Əl-üzünü yumadım.
Varlığını duymadım,
Yoxluğunda azmışam.

Başlanıb dərd dərimi,
Kim siləcək tərimi.
Mən ki ən son şerimi,
Yoxluğuna yazmışam.

Doğma et yadımızı,
Küsdürmə şadımızı.
Çinara adımızı
Yoxluğundan qazmışam.
23.06.2018

Sevinc Arzulu

**Yoxundu mene**

Bir az şərabındı,bir az meyindi,
"Niyə gec gəlmisən?"-deyə deyindim.
Başdan ayağadək bəyaz geyindim,
Ölümün ağ əli toxundu mənə.

Əcəlin var imiş mənlə davası,
Ağırmış dünyanın nəmli havası.
Dinlədim lap həzin,qəmli avazı
Qurandan tək surə oxundu mənə.

Sən də mənim kimi qəflətən ölmə,
Dünyanı qaraya,ya ağa bölmə.
Qəbrimin üstünə gəlmirsən,gəlmə
Məgər dörd qərənfil yoxundu mənə?!

Sevinc Arzulu

**Yoxunmu**

Kederin kamına yetenden beri,
Feleyin dediyin edenden beri,
Üz tutub Şimala gedenden beri,
Ellerim eline daha toxunmur.

Hisslerimi tünd reng ile yazarım,
Ayrılığın yollarında azarım.
Sen gedeli xarabadır bazarım,
Kitabım bağlanıb vallah,oxunmur.

Ay ezizim,geyinib xaram sarı,
Güneş çıxıb,boylanıb qaram sarı.
Heç olmasa söz ile yam sarı,
Bir gile ümid de söyle yoxunmu.

Sevinc Arzulu

**Yozulmaz olub**

Dərd könlümün hicabıdır,
Qəm hicranın niqabıdır.
Axırıncı məqamıdır,
Həsrət dözülməz olub.

Mənlə birgə çağlamısan,
Hönkürəndə ağlamısan,
Gözlərimi bağlamısan,
Fərəh sezilməz olub.

Qüssə içində batıram,
Dərdi ələmə qatıram.
Yaman narahat yatıram,
Röyam yozulmaz olub.

Sevinc Arzulu

**Yumanam sensiz**

Gül, əskik eyləmə naz baxışını,
Təbiət çəkməz ki az naxışını.
Sən necə sevərdin yaz yağışını,
Çiskini çox olan dumanam sənsiz.

Beynimdə vüsalın hıçqırıqları,
Hayana baxıram qəlb qırıqları
Yolüstü itirib ayrılıqları,
Bir parça təsəlli, gümanam sənsiz.

Tək-tənha sanıram sənsiz özümü,
Kimsəyə demirəm ürək sözümü.
Həsrətin qəmindən dolan gözümü,
Bu fani dünyaya yumanam sənsiz
25.04.2018.

Sevinc Arzulu

**Yurd salım**

Yorulmaram sənə qalxan yoxuşdan,
Qaralmaram tale çəkən naxışdan.
Məni qoru əyri baxan baxışdan.
Gözlərinin daldasında yurd salım.

Ah-naləmə bürünməsin asiman,
Qan-yaş ilə bəzənməsin ay simam.
Körpə kimi mən suçsuzam,mə`sumam
Anaların laylasında yurd salım.

Sən olmasan qara geyər çəmənim,
Ay həsrətin buz suyunda çimənim.
Kimsə tapmaz,kimsə duymaz ki məni,
Sevənlərin sevdasında yurd salım.

Sevinc Arzulu

**Yusifi-kenan meni qezel**

Cavanlıq əldən gedib,qocalığa yar olmuşam.
Mənalı baxışların önündəcə xar olmuşam.
Əvvəllər Leyli idim,dönüb Züleyxa olmuşam,
Bilmirəm bəyənərmi o Yusifi-Kənan məni.

Bülbülün ürəyindən keçər yatsın gül kolunda,
Eybi yox, sinəsinə tikan batsın gül kolundan.
Özgəsi barmağını qatlamaz da el yolunda,
Görərsiz xalqım üçün alışıban yanan məni.

Xatirəm hey yaşayar, könlünüzdə uyudarsız,
Hicrimi şeir deyib göz yaşıyla ovudarsız.
A dostlar, bilirəm ki siz də çətin unudarsız,
Sizləri qəlbə həmdəm,dərdə çarə sanan məni.

Sevinc Arzulu

**Yuxu**

Yuxumda bir nağıl gördüm,
Əsrarəngiz.
Yuxumda bir nağıl gördüm
Çox təbii, süni rəngsiz.

Gördüm küpəgirən qarı,
Cavanlaşıb, göyçəkləşib.
Süpürgənin üstdə deyil.
Taxtın üstündə əyləşib.

Su sonası Fatimələr,
Ayağına su tökürlər.
Nə qırx quldur quldur deyil,
Tənbəl Əhməd avara, veyl.

Sakitləşib təpəgöz də,
Söyləməyir yalan söz də.
Fırlanmayır uçuq ev də,
Acmayıbdır qara div də.

Nə dostlar yuxuya gedir,
Nə də Cırtdan suya gedir.
Sakitlikdir, atəşkəsdir,
Oyan, yuxu gördün bəsdir.

Sevinc Arzulu

**Yuxu ve ölüm**

Yamanca qorxuram gördüyüm yuxu,
Günlerin birinde çin çıxacaqdır.
Geceler röyada ekdiyim toxum,
Gündüzler cücerib min çıxacaqdır.

Beni ne gözleyir qabaqda,bilsem
Sinemi sıxır bax,acı duyğular.
Eger günün biri qefil ben ölsem,
Benle bir gedecek bütün uyğular.

Heç kes bilmeyecek ne çekdiyimi,
Yeri de,göyü de yandıracağam.
Ben sübut edecem öz tekliyimi,
Qanmazı astaca qandıracağam.

Benim varlığımı danan insanlar,
Mezarım önünde diz çökecekdir.
Hicrimin oduna yanan insanlar,
Yatdığım torpağa gül ekecekdir.

O gül yasemen de,nergiz de olar,
Benim en sevdiyim ağ qızılgüldür.
"Bayatı-Şur"çeksem,"Sensiz"de dolar,
Ahım perde-perde ucalan tüldür.

Sen ey cahangirler anası torpaq,
Bene de analıq et,ne olar ki...
Örtsün de üstümü xezeli yarpaq,
Deyirler sıcaqdır ol yerin teki.

Rahatca uyuyum son menzilimde,
Dünyanın derdinden,qeminden uzaq.
Kederi yadımdan pozub silim de
Dincelim sevginin keminden uzaq.

Sevinc Arzulu

**Yuxulu,  Allah**

Içime qapqara dumanlar çöküb,
Qelbimi amansız gümanlar söküb.
Sema su evezi göz yaşı töküb,
Ele yuxuluyam, yuxulu, Allah.

Geceler yaşıla boyanıram men,
Zirvenin başında dayanıram men.
Seher su içinde oyanıram men,
Gördüyüm röyalar qorxulu,Allah.

Özüme otlardan alaçıq qurum,
Üstüne butalı naxışlar vurum.
Bilmirem hansını iyneyim, durum
Çiçekler min etir qoxulu,Allah.

Sevinc Arzulu

**Yuxuma gelmirsen**

Elə istəyirəm mən görəm səni,
Bəs niyə yuxuma gəlmirsən,ata?
Alıbdır qoynuna dərdi-qəm məni,
Bəs niyə yuxuma gəlmirsən,ata?
Mənimlə birlikdə gülmürsən,ata.

Gec-gec görüşsək də mehriban idik,
Ikiyə bölünmüş iki can idik.
Çətində həm arxa,həm həyan idik,
Bəs niyə yuxuma gəlmirsən,ata?
Aradakı səddi dəlmirsən.ata.

Şad günümüz toydur,bəd günsə vaydır.
Yoxluğuna inanmıram,bir aydır.
Bu yay nə ağırdır.nə qara yaydır,
Bəs niyə yuxuma gəlmirsən,ata.
Niyə göz yaşımı silmirsən,ata.

Göz yaşlarım selə dönüb axacaq,
Baxışlarım şimşək olub çaxacaq.
Sənsizliyin hey yandərəb yaxacaq,
Bəs niyə yuxuma gəlmirsən,ata.
Matəmi,hüzünü görmürsən,ata.

Sən apardın ürəyimin sevincin,
Mən idim sədəfin,mən idim incin.
Yadından çıxmırsan qızın Sevincin,
Bəs niyə yuxuma gəlmirsən,ata.
Niyə həsrətimi bilmirsən,ata.

Sevinc Arzulu

**Yuxuma gelmişdin**

Yuxuma gəlmişdin gecə,
Sən olduun mehman,ay ata.
Bilsəm sevinirdim necə,
Fərəhim ümman ,ay ata.

Dedik,danışdıq güldük biz,
Dərd-səri yarı böldük biz.
Yenə sahilə gəldik biz,
Dayandı zaman,ay ata.

Həsrət qaldım gülüşünə,
Asta-asta yerişinə.
Bir gün bizə gəlişinə,
Qalmadı güman,ay ata.

Hicran köçün saldı yenə,
Toy-düyünlər qaldı yenə.
Sevinc deyər aldı yenə,
Dağları duman,ay ata.

Sevinc Arzulu

**Yuxuma menim**

Sənə aid olan bir xitabam mən,
Özgə,yad sözlərə toxuma məni.
Könüllər ağladan bir kitabam mən,
Oxuma,əzizim,oxuma məni.

Qalxaramgöylərin ənginə,eşqim
Həsrətəm bir anlıq zənginə,eşqim.
Bilirsən necə də zənginəm,eşqim.
Bələdsən azıma,çoxuma mənim.

Taleyi, qisməti yazıbdır qədər,
Biz ki yaşamadıq bu ömrü hədər.
Ürəyimdə qüssə,gözümdə kədər,
Holar,gəl bir dəfə yuxuma mənim.

Sevinc Arzulu

**Yuxuya dalıb**

Gizlicə qapını açıb gediblər,
Deyəsən qoşulub qaçıb gediblər.
Xəyallarım çoxdan uçub gediblər,
Ümidlərim yatıb yuxuya qalıb.

Deyirəm bəlkə də yadam, yanlamaz,
Onunla dostluğa şadam, danlamaz.
Elə bil vampirdir adam anlamaz,
Yolunu dəhşətə, qorxuya salıb.

Tayı yox zümrüdgöz qalın meşənin,
Ceyranlı, cüyürlü yaşıl guşənin.
Ətiri yayılıb qız bənövşənin,
Ürəyim vazkeçməz qoxuya dalıb.
10.12.2017

Sevinc Arzulu

**Yuyarsan meni**

Minib qayğıların yelkən atına,
Üzüm sahilərin ən uzağına.
Enim torpğımın dərin qatına,
Dözüm təbiətin qar-sazağına.

Nəfəsim tıncıxır,dilimi kəsir.
Saxlaya bilmirəm hıçqırıqları.
Eh, necə qalıbdır əlində əsir.
Hər tərəf köksümün qəlb qırıqları.

Yaxınlaş, əlinə qəlpə də batsın,
Bir damcı qan çıxsa duyarsan məni.
Qoyma xatirələr əbədi yatsın.
Gözünün yaşıyla yuyarsan məni.

Sevinc Arzulu

**Yüz yaşasam**

Peşiman olmayıbki,
Şirəsi solmayıb ki.
Sonadək dolmayıb ki,
Boşalan sənək, ömrüm.

Gün gözünü yumanı,
Əskik olmur dumanım.
Zor ilə eşq umanın,
Sonu dəyənək, ömrüm.

Yüz yaşasam, doymaram,
Qayada gül oymaram.
Səni darda qoymaram,
Buda bir hənək, ömrüm.
24.11.2018

Sevinc Arzulu

**Yüze vurdu**

Yetdim dəni üyütməyə,
Itdim çəni uyutmağa.
Getdim səni unutmağa,
Xatirələr üzə durdu.

Kim bağlayar ki dilimi,
Qara edər ay-ilimi.
Yeri yaşıl gen kilimi,
Al lalələr düzə qurdu.

Söz elə bir düyündü ki,
Un tək tezcə üyündü ki.
Qəlbum elə döyündü ki,
Sürəti lap yüzə vurdu.

Sevinc Arzulu

**Yüzü deyib**

Sən anla,başa düş məni,
Gözləməyir görüş məni.
Xatirimə dost-düşmənin,
Biri deyil,yüzü dəyib.

Hanı Sənanın Xumarı,
Yox daha bəzək-tumarı.
Üzümə məsti-xumarın
Al yanaqlı üzü dəyib.

Yenə yağır narın-narın,
Üşüyürəm altda qarın.
Deyəsən xətrinə yarın,
Sözümün ən düzü dəyib.

Hiylə,məkrdən aranmış,
Sevgi tanrıdan yaranmış.
Hamarlanaraq daranmış
Tellərimə özü dəyib.

Ayır görüm külü küldən,
Seçəmmirəm gülü gükdən.
Saralıram günü gündən
Rəqibimin gözü dəyib.

Sevinc Arzulu

**Zalım**

Bilirəm, sən mənsiz quru bir bədən.
Özün öz halını duymursan nədən7
Sızıb ürəyimə lal xəritədən,
Adını gizlicə yazmısan, zalım.

Dilimin əzbəri məsəl-deyimsən,
Dalımca danışıb azca deyin sən.
Mənə doğru gələn yolda deyilsən,
Məhəbbət çölündə azmısan, zalım.

Qızına bilmədim sənin tüstünə,
Ancaq gözüm çıxdı qara tüstünə.
Məni tənha qoyub qaya üstünə,
Özgənin adını yazmısan, zalım.
05.09.2018

Sevinc Arzulu

**Zalım dünya**

Insan günah etməzmi heç,
Günahımı bağışla.keç.
Iki yoldan birini seç,
Ölüm,ya da qalım,dünya.
Zalım dünya,zalım dünya.

Zülmətə üşıq saçıram,
Qəmdən,kədərdən qaçıram.
Gecə-gündüz kart açıram,
Düz çıxmayır falım dünya.
Zalım dünya,zalım dünya.

Gözlərindən qaçmır mürgün,
Sən olmusan mənə sürgün.
Düşmənimdən gərək bir gün,
Qisasımı alım,dünya.
Zalım dünya,zalım dünya.

Yaxşı insanlar gərəyim,
Halaldır duzum,çörəyim.
Hərdən tutanda ürəyim,
Yaman olur halım,dünya.
Zalım dünya,zalım dünya.

Dar gündə sınanmayıram?1
Səhv etsəm qınanmayıram?!
Heç kimə inanmayıram,
Kimə meyl salım,dünya.
Zalım dünya,zalım dünya.

Sevinc Arzulu

**Zaman deyil**

Astaca əsər nəsim,
Yox ondan yaxın kəsim.
Kimsə eşitməz səsim,
Aman o aman deyil.

Üstün nəqqaş bəzəyər,
Almazdan daş bəzəyər.
Min cür ləl-qaş bəzəyər,
Kaman o kaman deyıl.

Qəm fərəhlə deyişib,
Həsrət mənlə döyüşüb.
Deyirlər çox dəyişib,
Zaman o zaman deyil.

Sevinc Arzulu

**Zaman diksinir**

Kədər ayrılıqla əl-ələ gəzir,
Arayıb-axtarıb vəlvələ gəzir.
Elə bil canında zəlzələ gəzir.
Gözümün yaşından zaman diksinir.

Qızılgül həsrətdən qonuşmayır ki...
Bülbül sevgisinə qovuşmayır ki...
Hələ bir-birinə uyuşmayır ki,
Tar nalə çəkəndə kaman diksinir.

Bu qədər dərd çəkmək deyildir əbəs,
Bahar küləyi tək öz səmtinə əs.
Çayın gur səsinə oyanmayan kəs,
Şimşəyin səsindən yaman diksinir.
20.07.2018

Sevinc Arzulu

**Zaman isterem**

Aşiq dərd əlindən meyl edər meyə,
Qəlbində vüsala güman istərəm.
Zalımın pisliyin görməyim deyə,
Gözümün önündə duman istərəm.

Arzular ümiddən su içsin hər vaxt
Insan sevdiyini dost seçsin hər vaxt.
Yaxşının həyatı xoş keçsin hər vaxt,
Pislərin ömrünü yaman istərəm.

Fəlakət önündə özünü cəmlə,
Ürəyim doludur kədərlə, qəmlə.
Islanıb gözlərim soyuq bir nəmdən,
Dərdimi deməyə kaman istərəm.

Payızda köç edər durnalar yenə,
Su üstdə görünməz sonalar yenə.
Baxmasın yollara analar yenə,
Həmişə sülh dolu zaman istərəm.

Qoy keçsin həyata arzum,muradım,
Qoşa övladımdır bir cüt qanadım.
Hələ qabaqdadır toyum, büsatım,
Mən uca Tanrıdan aman istərəm.

Sevinc Arzulu

**Zaman oldu qezeli**

Məni məndən eyləyən üzügülər cavan oldu,
Yolunu gözlədim hey, bağrım başı al qan oldu.
Bilirəm, gəlməyəcək, özgə nigar aşiqidir,
Qanadı yarələrim, yer də, göy də əfqan oldu.

Sanırdım hicranına dözə bilərəm, əzizim,
Vaxtsız gələn  ayrılıq  niyə belə yaman oldu.
Hicrin gözləri gülər, fərəhindən lovğalanar,
Ürəyim qan ağlayan,nalə çəkən kaman oldu.

Gözlədim vüsalını, qapımı belə açmadı,
Bəlkə möhnət dərdinə çarə təkcə zaman oldu...
Istədim son nəfəsdə qəbrinin üstünə gəlim,
Əcəldən ricam mənim bircə günlük aman oldu.
13.09.2018

Sevinc Arzulu

**Zaman olmuşam**

Amansız həsrətin qəddimi əyib,
Dərdindən quruyub  kaman olmuşam.
Yoxluğun xətrimə yamanca dəyib,
Gözündən qanlı yaş daman olmuşam.

Daha qalmayıbdır hicrana dözüm,
Qapqara kül olub işaran közüm.
İlahi yuxunu de, necə yozum,
Özüm də bilmədən şaman olmuşam.

Dağlara qalxıram çənlə birlikdə,
Qəlbim də qocalır dənlə birlikdə.
Ay mənim əzizim, sənlə birlikdə
Quş tək uçub gedən zaman olmuşam.
05.08.2014

Sevinc Arzulu

**Zaman oturub**

Fələyin gözləri bəlkə çaş.olub.
Dörd yanı qüssədən daim yaş olub.
Dünya nədən belə ayaq-baş olub,
Tarixin yerinə zaman oturub.

Səadət oyanıb göz xanasında,
Həqiqət dayanıb söz xanasında,
Mənim ümidimin astanaslnda,
Kədər bardaş qurub, yaman oturub.

Qədrini bilmədik vəslin vaxtında,
Gümüşü taleyin, qızıl baxtın da.
Dünyanın ən uca şahlıq taxtında,
Ayrılıq qəlbinə daman oturub.

Sevinc Arzulu

**Zamanı kimi**

Fərəhdən yarıtox, qəmdən yarı ac
Qızıldan olmasa parlayarmı tac.
Sən mənə möhtacsan, mən sənə möhtac,
Zalım analığın amanı kimi.

Yolumun üstündə ayrılıq durub,
Bizi ayırmaqçun min plan qurub.
Yenə də vüsalla aramı vurub.
Dünyanın idbarı, yamanı kimi.

Solan qızılgülü qoxlamaq olmur,
Hicranı qəlbindən oxlamaq olmur.
Şevgini əbədi saxlamaq olmur,
Ömrün ötüb keçən zamanı kimi.
07.07.2015

Sevinc Arzulu

**Zamanın güzgüsü**

Dayanıb zamanın güzgüsü altda,
Xatiren asılıb dar ağacından.
Çekilib yamanın cizgisi altdan,
Çiçekler bitmeyir xar ağacında.

Her gece sensizlik qapımı döyür,
Açmasam,yatmağa imkan da vermir.
Sözümün taxtadan sapını döyür,
Qol-qanad açmağa mekan da vermir.

Sen döne bilmezsen daha geriye,
Neyneyek Tanrının yazdığına biz.
Üstüme qaranlıq kaha yeriyer,
Ağlarıq işığın azlığına biz.

Vaxt olar,bizim de günümüz doğar,
Her yan nur içinde olar,ezizim.
Vüsalın elleri hicranı boğar,
Onun da gözleri dolar,ezizim.

Bizim eşqimizin kızıl güneşi,
Bir zülmet gecede ay tek ucalar.
Yandırar dünyanı odu,ateşi
Ömr eder bizimle birge qocalar.

Sevinc Arzulu

**Zarafatdı**

Şərik ol şən anıma.
Dua eylə canıma.
Getmə molla yanına,
Köhnəlik,xurafatdı.

Qır sükutun sapını,
Eylə söhbət-gapını.
Açma qara qapını,
Dərd evi qaramatdı.

Dön ən sakit,dincimə
Şərik ol sevincimə.
Xoş sözümdən incimə,
Bu ki bir zarafatdı.

Sevinc Arzulu

**Zehra**

Körpə şəhidimiz Zəhranın
son görüntülərinə baxarkən...

Qarnını tox istəyirdin,
Göz yaşın yox istəyirdin.
Atanı çox istəyirdin,
Nənən ilə getdin, Zəhra.

Başın üstün çən alıbmış,
Ölümünə an qalıbmış.
Düşmən zalımdan zalımmış,
Səni şəhid etdi, Zəhra.

Həyat narın ələk kimi,
Ömür gedər külək kimi.
Uçub getdin mələk kimi,
Cənnətinə yetdin, Zəhra.
06.07.2017

Sevinc Arzulu

**Zemanet**

Ömrümün yaraşığı,
Neynirsen xar aşığı.
Gözlerimin işığı,
Sevdam qelb emaneti.

Üreyimden gelen ses,
Deyir-"Qorxun çox ebes".
Qovuşmayır neden bes,
Yer dözen, sema metin.

Heyat buzlu sırsıra,
Keder, qem sıra-sıra.
Keçim eşq sırasına,
Kim verer zemaneti.

Sevinc Arzulu

**Zer naxışı**

Qarşıda dağ, arxa yonca,
Yol gedərik arxayınca.
Heç boylanma arxasınca
Yad eyləmə tər baxışı.

Insan köçüb sürüb gedir,
Nur dünyasın qurub gedir.
Gözüm ulduz görüb gedir,
Bir ölümdür hər axışı.

Əlində al badə imiş,
Gözlərin qan-qadə imiş
Dünya yaman sadə imiş,
Sən ömrümün zər naxışı.
19.10.2014

Sevinc Arzulu

**Zerif olmuşam**

Şərqə doğru köçürəm mən,
Xəzər üstdən keçirəm mən.
Tükü tükdən seçirəm mən,
Yaşlanıb arif olmuşam.

Ürək gərək qəmə dözə,
Inanmaram şirin sözə.
Görünmərəm hər an gözə,
Suyun altda rif olmuşam.

Daşdanmışam,saldanmışam,
Sərt küləkdən daldanmışam.
Yalan sözə aldanmışam,
Bir zaman hərif olmuşam.

Uyumuram möhnətindən,
Üşüyürəm xiffətindən.
Ay əzizim,həsrətindən,
İncəlib zərif olmuşam.

Artmamnışam,azalmışam,
Sanıram ki sozalmışam.
Demə ki çox qızarmışam,
Yamanca tə`rif olmuşam.

Sevinc Arzulu

**Zikrimin işığında**

Xəyalınla görüşdüm,
Hey danışdım, qonuşdum.
Ilahiyə qovuşdum,
Zikrlmin  işığında.

Varmı bir duyanımız,
Ayılsın uyanımız.
Aydınlaşar dünyamız,
Fikrimin işığında.

Könlümün həvəsi var,
Uçan göy gəbəsi var.
Tanrının nəfəsi var,
Şükrümün işığnda.

Sevinc Arzulu

**Zikrimin süzgeci**

Fərqi cəm heçə bilmir,
Tərdi, nəm seçə bilmir.
Dərdi qəm keçə bilmir,
Zikrimin süzgəcindən.

Aman, mərd uyutmusan,
Zaman, fərd unutmusan.
Eh, yaman sərt tutmusan,
Fikrimin düz kəcindən.

Can adlanarsan, yarış,
Inadlanarsan, qarış.
Qanadlanarsan, yapış,
Şükrümün üzgəcindən.
27.05.2013

Sevinc Arzulu

**Zirveye çıx**

Qurban oldun ipek tele,
Gedib düşdün qara sele.
Dedim meni xoşbəxt ele,
Demedim ki evimi yıx.

Ayrılığı qovla, getsin,
Dost-tanışın ovla,  getsin.
Vüsalımı tovla getsin,
Bas bağrına, köksüne sıx.

Buludların terkine yat,
Muradına, arzuna çat.
Addımını yavaşca at,
Elimden tut, zirveye çıx.
30.10.2018

Sevinc Arzulu

**Zor olacak**

Yerim deyil uzaq bucaq,
Səma mənə açıb qucaq.
Qaladığın bu od-ocaq,
Öləziyib qor olacaq.

Gülüm, olma mənə qənim,
Nə yolkəsən duman-çənim.
Nadan, demə dünya mənim,
Son mənzilin gor olacaq.

Uzaq tutdun o nigarı,
Sandın yoxdur e`tibarı.
Nə ağlarsan zarı-zarı,
Bir gün gözün kor olacaq.

Qəmin evi soyuq buzdan,
Uzaq dur dərdi sonsuzdan.
Mayası yoğrulub duzdan,
Göz yaşlarım şor olacaq.

Yaşarıq zülmət içində,
Min bir xəyanət içində.
Bu qədər xiffət içində,
Sevinc,işin zor olacaq.

Sevinc Arzulu

**Zor olacaq**

Yerim deyil uzaq bucaq,
Səma mənə açıb qucaq.
Qaladığın bu od-ocaq,
Öləziyib qor olacaq.

Gülüm, olma mənə qənim,
Nə yolkəsən duman-çənim.
Nadan, demə dünya mənim,
Son mənzilin gor olacaq.

Yad tək tutdun o nigarı,
Sandın yoxdur etibarı.
Nə ağlarsan zarı-zarı,
Bir gün gözün kor olacaq.

Qəmin evi soyuq buzdan,
Uzaq dur dərdi sonsuzdan.
Mayası yoğrulub duzdan,
Göz yaşlarım şor olacaq.

Yaşarıq zülmət içində,
Min bir xəyanət içində.
Bu qədər xiffət içində,
Sevinc, işin zor olacaq.

Sevinc Arzulu

**Zülmeti çökdü**

Arzular,ümidlər hey təzələndi,
Zamanın kələfi hey çözələndi.
Taleyim mənimlə hey məzələndi,
Gözümə illərin zülməti çökdü.

Döyüşkən ruhumdan "Cəngi"yaranıb,
O uca göylərin əngi saralıb.
Hiss etdi,həsrətdən rəngim qaralıb,
Dağlar öz qarını başıma tökdü.

Deməklə ötənlər geri gələndir,
Əlimdən düşməyən təkcə qələmdir.
Gördü iç dünyası dərddir,ələmdir
Dan yeri gecənin bağrını sökdü.

Sevinc Arzulu

**Zülüm gördüm**

Ağladım, keyfim saz iken,
Şaxta vurdu al yaz iken.
Her teref ağ, beyaz iken
Qaralıbdır tülüm, gördüm.

Neçe defe şadlanmışam,
Adım kimi adlanmışam.
Allah nece odlanmışam,
Hetta yanır külüm, gördüm.

Eh, vaxtsız solmuşam ki men,
Bulud tek dolmuşam ki men.
Kime pis olmuşam ki men,
Neden bele zülüm gördüm.

Sevinc Arzulu

**Zülümsen**

Şirin nəğmə oxuyursan,
Güldən çələng toxuyursan.
Gözəl ətir qoxuyursan,
Mənim solmaz bir gülümsən.

Sular selə qarışcaq,
Kür Arazla yarışacaq.
Yəqin bir gün alışacaq,
Ocaqda qalan külümsən.

Peyksən,çıxmısan oxundan,
Onçun fərqlisən çoxundan.
Ayılmamısan yuxudan,
Sən gözləri mürgülümsən.

Əsklik eyləmə çətrini,
Yaz şeirin gözəl sətrini.
Səp aləmə gül ətrini,
Gül-çiçəyə bükülümsən.

Məni əvvəl öyəcəklər,
Mavi-yaşıl geyəsəklər.
Sonra da ki deyəcəklər,
Sevinc,nə qədər zülümsən.

Sevinc Arzulu